Crossref ÜZVÜ

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGİYA

2024
№1 (79)

BAKI-2024

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof. Dr İradə Hüseynova (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların ***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər*** üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

Member of Crossref

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGY

2024
№1 (79)

BAKU-2024

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Irada Huseynova (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

Siyasi elmlər

UOT 327; 339.9
DOI:10.30546/3006-0346.2024.1.79.5

# TÜRKİYƏ-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI REGİONAL SABİTLİYİN VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİNATIDIR

**İRADƏ NURİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının professoru, siyasi elmlər doktoru*

*E-mail: iradanuri@gmail.com*
*Orcid ID: 0000-0002-5309-0009*

Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlibdir. 1993-cü ilin aprelində Ermənistan qoşunlarının Azərbaycanın Kəlbəcər rayonunu işğal etməsi və işğal olunmuş ərazilərin qeyd şərtsiz tərk edilməsi barədə BMT Qətnaməsini icra etmədikdən sonra Türkiyə Ermənistanla sərhədlərini bağladı və problem həllini tapmayana qədər sərhədləri açmamaqda qərarlıdır. Türkiyə ardıcıl olaraq bütün beynəlxalq təşkilatlarda Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasını, bu məsələ ilə bağlı BMT-nin müvafiq qətnamələrinin həyata keçirilməsini tələb edirdi [1]. Türkiyə ATƏT-in Minsk Qrupunun bir üzvü kimi Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, sülh yolu ilə həll olunmasına səy göstərirdi.

Təəssüf ki, beynəlxalq qərarlar yerinə yetirilmirdi, Minsk üçlüyü ciddi və qərarlı addımlar atmırdı, bununla da danışıqların müddəti uzadılırdı. Heç nəyə baxmayaraq, Türkiyənin Azərbaycana dəstəyi ilə Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü hüdudunda sülh yolu və danışıqlar vasitəsi ilə həll edilməsi səyləri davam edirdi [1]. Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Ulu Öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə əks etdirən ən mükəmməl formul kimi həm Türkiyədə, həm də Azərbaycanda qəbul edilməkdədir [2].

Türkiyə – Azərbaycan dostluğunun təzahürü olan və bütün sahələri əhatə edən qarşılıqlı əməkdaşlıq qlobal iqtisadi layihələr: Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz və Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP, yəni Trans Anadolu Təbii Qaz Boru Xətti Layihəsi, "Qərb-Şərq" proqramının həyata keçirilməsində mühüm rol oynayan və 30 oktyabr 2017-ci ildə Bakı şəhərində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikası Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutmuş "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi və bu kimi layihələrlə daha da inkişaf etdirilmişdir. Bu layihələr iki ölkənin regional qüvvəsini artırır və qlobal mövqelərini möhkəmləndirir. Bir tərəfi CQBK-ya, digər tərəfi TAP-a bağlanan TANAP Cənub Qaz Dəhlizinin ən böyük hissəsidir. TANAP Azərbaycanın və Türkiyənin, bu iki ölkənin dövlət başçılarının birgə səyləri ilə həyata keçirilən layihədir. Odur ki, kəmərin istifadəyə verilməsi Azərbaycan-Türkiyə qardaşlığının və birliyinin növbəti bariz nümunəsini əks etdirir. Prezident İlham Əliyev açılış mərasimindəki çıxışında bunu bir daha vurğulamışdır: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir."

2023-cü il sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimindən sonra Azərbaycan-Türkiyə əməkdaşlığına mühüm təsir göstərən bir sıra sənədlər - Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu, qardaş ölkənin Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası, həmçinin mədəniyyət mərkəzinin tikintisinə dair Əməkdaşlıq Sazişi və bərpa olunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin hər iki respublikaya ötürülməsinə dair Anlaşma Memorandumu imzalandı [5]. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair Anlaşma Memorandumunun imzalanması qaz təchizatının şaxələndirilməsi imkanlarını təmin etməklə muxtar respublikanın vahid mənbədən asılılığının aradan qaldırılmasına yönəldilmişdir [4]. "Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir. Bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

Azərbaycanla Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olması bütün dünyaya məlumdur. Bu, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən Müharibəsi zamanı bir daha təsdiqləndi. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi və mənəvi dəstək verdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar verərək Azərbaycanın bu müharibədə tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bəyan etdi. Eyni zamanda, əbədi Türkiyə-Azərbaycan qardaşlığının daha bir təzahürü olan Bakının "Azadlıq Meydanı"nda baş tutan möhtəşəm Zəfər Paradı həm də ermənipərəst dövlətlər üçün ciddi siyasi mesaj oldu. Bütün dünya Azərbaycan-Türkiyə müttəfiqliyini, birlik və qardaşlığını, onların bir-birinə verdiyi böyük dəstəyi təkcə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin həyata keçirilməsi, o cümlədən, Vətən Müharibəsi dövründə şahidi olmayıb. İki qardaş ölkə mənəvi, siyasi və digər kontekstlərdə həmişə bir-birini dəstəkləmiş, hər iki dövlətin birliyi və müttəfiqliyi tarix boyu bütün məsələlərdə öz əksini tapmışdır. Eyni zamanda, bütün sahələrdə: nəqliyyat, enerji, mədəniyyət, humanitar sahədə birgə həyata keçirilən layihələr, birgə atılan addımlar hər iki qardaş dövləti daha da yaxınlaşdırır. Türkiyə-Azərbaycan münasibətləri regional əməkdaşlığın əsas şərtidir. Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti də bölgədə sülhün bərqərar olması üçün səmərəli mexanizm kimi əhəmiyyət kəsb edir.

2021-ci il iyunun 15-də Şuşada imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" isə iki dövlət və onların xalqları arasındakı birliyin, doğmalığın, dostluğun və qardaşlığın növbəti təzahürü oldu. Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eyni zamanda region ölkələri arasında münasibətlərin normallaşdırılması və davamlı sülhün təmin edilməsi istiqamətində Azərbaycan və Türkiyə dövlətlərinin birgə təşəbbüsləri bu münasibətlərin daha da möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin zəruriliyini göstərən ən gözəl nümunəsidir. Ölkə başçısı İlham Əliyevin dediyi kimi: "... Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Şuşa Bəyannaməsi İlham Əliyevin sözlərinə istinada əsasən həm siyasi, həm də tarixi əhəmiyyət daşıyır. Bəyannamənin ən mühüm müddəalarından biri hərbi əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Bəyannamədə qeyd edilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır" [7]. Bu müddəa Cənubi Qafqazda əsrlər boyu erməni məsələsi adı altında öz siyasi maraqlarını reallaşdıran aktorlara və dövlətlərə ciddi bir mesaj idi. Bununla Müttəfiqlik Bəyannaməsi bütün qonşu dövlətlər və dünya ictimaiyyətinə bildirir ki, Azərbaycanın dövlət suverenliyinə və ərazi bütövlüyünə təhlükə törətmək niyyətində olanlar yeni regional hərbi-siyasi blokla üzləşəcəklər. İki dövlət arasında regional və beynəlxalq təhlükəsizliyin təminatı üçün tədbirlərin həyata keçirilməsi məsələlərinin müzakirəsi Azərbaycan və Türkiyə dövlətlərinin birgə fəaliyyətinin təmin edilməsini nəzərdə tutan Şuşa Bəyannaməsinin müstəsna siyasi və tarixi əhəmiyyətini vurğulayır [6, s. 616].

Türkiyə ilə Azərbaycan arasında dəmir yolu və avtomobil yolu ilə həyata keçiriləcək Zəngəzur dəhlizinə dair Şuşa Bəyannaməsi həm danışıqları, həm də əməli işləri əks etdirir, regionda iqtisadi və nəqliyyat potensialının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir və İkinci Qarabağ müharibəsindən sonra yeni geosiyasi vəziyyətin nəticəsidir. Müttəfiqlik Bəyannaməsində Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələlər mühüm yer tutur [3]. Eyni za-

manda, informasiya siyasəti və lobbiçilik məsələləri - Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, ardıcıl həmrəylik göstərilməsi müddəaları da öz əksini tapmışdır.

Müttəfiqlik haqqında Şuşa Bəyannaməsində qeyd olunurdu ki, beynəlxalq münasibətlərin inkişafı, yerli, regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli üçün birgə səylər göstəriləcək, xarici siyasət sahəsində koordinasiya və ikitərəfli siyasi məsləhətləşmələr aparılacaq. Bu istiqamətdə Türkiyə ilə Azərbaycan arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətin əhəmiyyəti qeyd olunur [7].

2021-ci il 15 iyunda Türkiyə və Azərbaycan arasında Müttəfiqlik haqqında imzalanmış Şuşa Bəyannaməsi regional və beynəlxalq təhlükəsizliyin təminatı nöqteyi-nəzərdən böyük əhəmiyyətə malik olan mühüm sənəddir və bölgədə yeni gerçəkliyin əsasını qoydu. İyunun 15-də Şuşa Bəyannaməsinin imzalandıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata çıxışında dedi: "Bu gün Türkiyə və Azərbaycan bir-birinə dünya çapında ən yaxın olan ölkələrdir. Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk" [3].

Azərbaycan üçün Türkiyə tranzit bir dövlət, enerji mənbələrinin dünya bazarlarına nəqli, Avropa Birliyi ilə iqtisadi əlaqələrin gücləndirilməsi və möhkəmləndirilməsi üçün regional və beynəlxalq strateji layihələrdə sabit bir tərəfdaşdır. Bu gün Türkiyə ilə Azərbaycan arasında münasibətlər bu möhkəm dostluq, qardaşlıq və tərəfdaşlıq üzərində qurulmuşdur. Son iyirmi ildə Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər həmişə yüksək səviyyədə olub. Bu gün bu gözəl ənənələr davam edir və bütün məsələlərdə əməkdaşlığımız səmərəli və faydalı nəticələr verir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan-Türkiyə əlaqələri son 25 ildə/ https://www.trt.net.tr/azerbaycan/proqram/2017/07/07/az-rbaycan-turkiy-laq-l-ri-son-25-ild-766489*

*2. Azərbaycan - Türkiyə münasibətləri/ http://lib.aliyev-herita-ge.org/az/4610295.html*

*3. Azərbaycan və Türkiyə prezidentləri mətbuata birgə bəyanatlarla çıxış ediblər. 15 iyun 2021.// https://president.az/az/articles/view/52116/print*

*4. İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimində iştirak ediblər. 25 sentyabr 2023, 16:25// https://president.az/az/articles/view/61245*

*5. Qardaşlıq zirvəsində yeni əməkdaşlıq. 09:12 27.09.2023.// https://xalqqazeti.az/az/siyaset/141178-qardasliq-zirvesinde-yeni-emekdasliq*

*6. Nuriyeva İradə Tofiq qızı. AZƏRBAYCAN TARİXİ (ən qədim dövrlərdən zəmanəmizədək). Texniki Ali məktəblər üçün dərslik. – Bakı: Elm və təhsil, 2024, 784 səh.*

*7. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – TƏHLİL. 16 iyun 2021.//https://ona.az/az/turizm/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-29117*

## XÜLASƏ

Türkiyə-Azərbaycan dostluğunun təzahürü olan və bütün sahələri əhatə edən qarşılıqlı əməkdaşlıq qlobal iqtisadi layihələr olan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, eləcə də Cənub Qaz Dəhlizinin əsas hissəsini təşkil edən TANAP və TAP, "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin mühüm hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi və buna bənzər layihələrlə daha da inkişaf etdirilmişdir. 2021-ci il iyunun 15-də Şuşa şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik əlaqələri haqqında Şuşa Bəyannaməsi" iki dövlət və onların xalqları arasında birlik, doğmalıq, dostluq və qardaşlığın növbəti təzahürü oldu. Azərbaycan və Türkiyə dövlətlərinin Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, o cümlədən region ölkələri arasında münasibətlərin normallaşdırılması və davamlı sülhün təmin edilməsi istiqamətində birgə təşəbbüsləri bu münasibətlərin daha da möhkəmləndirilməsinin və inkişaf etdirilməsinin zəruriliyini göstərən ən gözəl nümunəsidir.

**Açar sözlər:** *Türkiyə-Azərbaycan dostluğu, Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, qlobal iqtisadi layihələr, "Şuşa Bəyannaməsi"*

**ИРАДА НУРИЕВА**
**Доктор политических наук, профессор кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета**

**Нефти и Промышленности**

## ТУРЕЦКО-АЗЕРБАЙДЖАНСКОЕ СОТРУДНИЧЕСТВО ГАРАНТИЯ РЕГИОНАЛЬНОЙ СТАБИЛЬНОСТИ И БЕЗОПАСНОСТИ

**Резюме**

Взаимное сотрудничество, охватывающее все сферы, являющееся проявлением турецко-азербайджанской дружбы и глобальных экономических проектов: нефть Баку-Тбилиси-Джейхан, газ Баку-Тбилиси-Эрзурум, а также TANAP и TAP, являющиеся основной частью Южного газового коридора и подобные проекты, получило дальнейшее развитие со строительством железной дороги Баку-Тбилиси-Карс, которая является важной частью транспортного коридора «Новый Шелковый путь». Подписанная 15 июня 2021 года в городе Шуша «Шушинская декларация о союзнических отношениях между Азербайджанской Республикой и Турецкой Республикой» стала очередным проявлением единства, родства, дружбы и братства между двумя государствами и их народами. Совместные инициативы государств Азербайджана и Турции в направлении укрепления стабильности и безопасности на Кавказе, восстановления всех экономических и транспортных связей, а также нормализации отношений между странами региона и обеспечения прочного мира являются лучшим примером необходимость дальнейшего укрепления и развития этих отношений.

**Ключевые слова:** *Турецко-азербайджанская дружба, укрепление стабильности и безопасности на Кавказе, глобальные экономические проекты», «Шушинская декларация»*

**IRADA NURIYEVA**
**Doctor of Political Sciences, professor at the Department of Human Sciences of Azerbaijan State Oil and Industry University**

## TURKIC-AZERBAIJAN COOPERATION A GUARANTEE OF REGIONAL STABILITY AND SECURITY

**Summary**

Baku-Tbilisi-Ceyhan oil, Baku-Tbilisi-Erzurum gas, which are global economic projects and similar projects that are a manifestation of Turkiye-Azerbaijan friendship and mutual cooperation covering all fields, as well as TANAP and TAP, which form the main part of the Southern Gas Corridor, "New Silk Road" transport It was further developed with the construction of the Baku-Tbilisi-Kars railway, which is an important part of the corridor. The "Shusha Declaration on Alliance Relations between the Republic of Azerbaijan and the Republic of Turkiye" signed on June 15, 2021 in the city of Shusha was another manifestation of unity, kinship, friendship and brotherhood between the two states and their peoples. The joint initiatives of the states of Azerbaijan and Turkiye towards strengthening stability and security in the Caucasus, restoring all economic and transport links, as well as normalizing relations between the countries of the region and ensuring lasting peace are the best example of the need to further strengthen and develop these relations.

**Key words:** *Turkiye-Azerbaijani friendship, strengthening of stability and security in the Caucasus, global economic projects, "Shusha Declaration"*

UOT 327
DOI:10.30546/3006-0346.2024.1.79.9

# DÜNYA SİYASƏTİNDƏ MÜSTƏMLƏKƏÇİLİK

**NƏRGİZ NAĞIYEVA**
*Bakı Dövlət Universiteti.*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: nargiz_nagiyeva@mail.ru*

## Giriş

XIX əsrin sonu, XX əsrin əvvəllərində dünyanın müxtəlif ərazilərində mövcud olan bəzi müstəmləkə ölkələrində milli özünüdərk prosesi yüksəldi, milli özünüdərk sistemi formalaşdı və milli dövlətçilik tendensiyasına əsasən müstəmləkəçiliyə qarşı mübarizə başlandı. İki Dünya müharibəsi arasında bu təmayül daha da gücləndi və Böyük Britaniya imperiya olaraq çökdü və Hindistan öz müstəqilliyini əldə etdi. Bundan ilhamlanan Afrika ölkələri də müstəmləkəçilikdən xilas oldular. Başda kommunikasiya olmaqla, müasir elm və texnologiyaların inkişafı, insanların informasiya və məlumat mənbələrini asanlıqla əldə etməsi, beynəlxalq ictimaiyyəti əvvəlki əsrlərə nisbətən daha şüurlu və hadisələrdən xəbərdar hala gətirdi. Beləliklə, artıq əvvəllər olduğu kimi birbaşa işğal, kölələşdirmə, müstəmləkəçilik kimi üsulların böyük ictimai reaksiyalara səbəb olması qaçılmaz hala gəldi. Bu səbəbdən, çox incə hesablanmış, uzun dövrə yayılmış və hüquqi əsaslarla dəstəklənən metodlara ehtiyac yarandı.

İmperializmin müstəmləkə siyasətinin əsas forması müstəmləkə dövlətlərində hərbi-siyasi hökmranlıq idi. Qərbi Avropanın imperialist dövlətlərinin müstəmləkə imperiyaları, eləcə də ABŞ və Yaponiya müstəmləkə sisteminin bünövrəsini təşkil edir. Müstəmləkələrdən başqa bu dövlətlərin protektoratları və dominionları da var idi. Dövlətlərin böyük qismi isə yarımmüstəmləkə vəziyyətinə salınmışdır. Belə ki, bəzi dövlətlər siyasi cəhətdən formal olaraq müstəqil olsalar da, diplomatik və maliyyə cəhətdən asılı idilər [3].

Birinci Dünya müharibəsindən əvvəl, 1914-1918-ci illərdə yarımmüstəmləkə vəziyyətində olan dövlətlər Çin, İran, Türkiyə, Əfqanıstan, Latın Amerikasının bir çox olkələri idi. 1914-cü ildə müstəmləkə və asılı dövlətlər Yer kürəsinin 66.8 %-ni, əhalisinin isə 60%-ni təşkil edirdi. Müstəmləkə işğalığına məruz qalan dövlətlər dünya kapitalist əmək bölgüsünə daxil edilmiş oldular. Metropoliyalar üçün bazar rolunu oynayan müstəmləkələr və asılı dövlətlər müstəmləkə kapitalizmi dövründə daha çox kapital yatırımı sahəsinə çevrildilər. Metropoldan kifayət qədər yüksək gəlir gətirməyən kapital müstəmləkə dövlətlərə ixrac olunurdu, çünki bu dövlətlərdə uyğun şərait, ucuz işçi qüvvəsi mövcud idi.

Müstəmləkə və asılı dövlətlərin istismarı - metropolların ən böyük gəlir mənbəyi idi. Müstəmləkəçilik siyasəti həm də metropollarda millətçi-şovinist əhvali-ruhiyyəyə səbəb olurdu. İmperializm dövründə müstəmləkələr uğrunda mübarizə o dövrün imperiyalararası müharibə, münaqişə və toqquşmalarının əsas səbəbi idi. Kapitalizmin qeyri-bərabər iqtisadi və siyasi inkişafı bu mübarizəni daha da gücləndirirdi. Güclənən imperialist dövlətlər zəifləmiş dövlətlərin qənimətlərini əllərindən almağa çalışırdılar. XIX əsrin sonu, XX əsrin əvvəllərində Almaniya, Yaponiya, İtaliya və ABŞ bu iddia ilə çıxış etdi. Dünyanın yenidən bölüşdürülməsi uğrunda ilk müharibə ABŞ-ın İspaniyaya qarşı (1898) apardığı müharibə oldu. ABŞ Filippin adalarını, Quam adalarını və Puerto-Rikonu işğal etdi, Kubanı öz nəzarəti altına aldı. Həmin il ABŞ Havay adalarını da öz nəzarəti altına aldı. 1903-cü ildə Panama kanalını ələ keçirdi. Silahlı müdaxilə də daxil olmaqla ABŞ bütün vasitələrlə Mərkəzi və Cənubi Amerika dövlətlərində hökmranlığı öz əlinə aldı. "Açıq qapı" siyasəti ilə Çinə yol açaraq ABŞ buradakı imperialist rəqibləri olan Böyük Britaniya, Fransa, Rusiya, Almaniya və Yaponiyanı sıxışdırıb çıxarmağa çalışdı. Almaniya isə Böyük Britaniya, Fransa və Rusiyanın mövqelərinə güzəştə gedərək Türkiyədə və Yaxın və Orta Şərqin digər ərazilərində, Şimali Afrikada və Uzaq Şərqdə geniş ekspansiya siyasəti yeritdi. İtaliya 1911-1912-ci illərdə Tripolini və Keraniakanı (Livanın ərazisi) işğal etdi. Yaponiya 1904-1905-ci illərdə Rusiyanı məğlub edərək Laodun yarımadasına, Cənubi Saxalinə sahib oldu. 1910-cu ildə Koreyanı işğal etdi və Mancuriya üzərində faktiki nəzarəti tətbiq etdi.

Keçmiş rəqiblər olan Böyük Britaniya və Fransa arasında, eləcə də Böyük Britaniya və Rusiya arasında da qarşıdurma gücləndi. 1899-1902-ci illərdə baş verən üçillik müharibədən sonra öz dominionunu yaratdı - Cənubi Afrika İttifaqı. Fransa və İspaniya isə 1911-1912-ci illərdə Mərakeş üzərində öz protektoratlığını qurdu.

Müstəmləkələrin yenidən bölüşdürülməsi I Dünya müharibəsinin əsas səbəblərindən idi. Məğlub

olan Almaniyanın bütün müstəmləkələri Fransaya, Böyük Britaniyaya, Yaponiyaya, Belçika, Portuqaliya və Avstraliyaya, Yeni Zelandiyaya keçdi. Keçmiş Osmanlı imperiyasının əraziləri Suriya, Livan, İraq isə ingilis və fransız hökmranlığına keçdi. Beləliklə də I Dünya müharibəsi, xüsusilə də Böyük Oktyabr Sosialist inqilabı ümumkapitalizm böhranının əsasını qoydu ki, imperializmin müstəmləkə sisteminin böhranı bunun nəticəsi oldu. İmperializmin müstəmləkə sisteminin böhranı nəticəsində Çində (1919), Koreyada (1919), Hindistan, İndoneziya, Misir, Suriya, İraq, Fələstin, Türkiyə, İran, Əfqanıstan, Monqolustan, Cənubi Afrika və digər ölkələrdə kütləvi milli-azadlıq hərəkatları baş verdi. Türkiyə, İran və Əfqanıstana öz müstəmləkəçi dövlətlərinə qarşı mübarizədə Sovet Rusiyası kömək etdi. Monqolustan da sovet xalqının dost köməyi nəticəsində qeyri-kapitalist inkişaf yoluna qədəm qoydu. İmperializm hələ də müstəmləkə sistemini saxlamaqda davam edirdi. Lakin I Dünya müharibəsində qalib olan imperialist dövlətlərin müstəmləkələrinin bölüşdürülməsini Millətlər Cəmiyyəti adı altında gizlətməyə çalışdılar.

İki Dünya müharibəsi arasındakı müddətdə müstəmləkə sisteminin böhranı ciddiləşirdi. II Dünya müharibəsi müddətində (1939-1945) və xüsusilə də müharibədən sonrakı dövrdə müstəmləkə sisteminin böhranında yeni mərhələ başladı. 1962-ci ildə BMT dekolonizasiya ilə bağlı xüsusi komitə yaratdı. II Dünya müharibəsi nəticəsində alman və italyan faşizmi, yapon militarizmi məhv edildi, bütün imperialist dövlətlər zəiflədildi. Bir çox müstəmləkələrdə milli silahlı qüvvələr yarandı. Alman, fransız, amerikan, holland imperialistlər öz rəqibləri üzərində qələbə çaldıqdan sonra faşist blokunun müharibə illərində işğal etdiyi müstəmləkələrdə möhkəmlənməyə çalışsalar da xalqların güclü qarşıdurması ilə rastlaşdılar. Artıq vəziyyət o yerə gəldi ki, imperialist dövlətlər müstəmləkələrdəki milli-azadlıq hərəkatlarını yatırtmaq gücünü də itirdilər. Beləliklə də, belə bir şəraitdə yaranan milli-azadlıq inqilabları, nəhayət 1997-ci ildə Böyük Britaniyanın Honkonqu Çinə qaytarması ilə burada imperialist müstəmləkə sisteminə son qoyuldu. Müstəmləkəçilik həm də geosiyasi məna daşıyır. Belə ki, müstəmləkəçilik demək olar ki, bütün qitələrdə (Antarktidadan başqa), bütün Afrika və Amerikada, Asiyanın bütün hissələrində mövcud olub. Bir sıra Qərbi Avropa dövlətləri və Rusiya Qafqaz və Sibirə nəzarət ediblər. Bir sıra Balkan ölkələrinə isə XIX əsrə qədər Osmanlı imperiyası nəzarət edib. Bu zaman belə bir sual meydana çıxır. Müstəmləkəçilik (XVI əsrdə Amerikanın kəşfi ilə başlayan) avropalıların avropalı olmayanlar üzərində hökmranlığıdır. Bununla belə, İngiltərənin müstəmləkə işğalçılığı İrlandiyadan başlamışdır, belə ki, ingilis iqtisadi siyasəti 1845-1847-ci illərdə burada dəhşətli aclığın yaranmasına səbəb olmuş və ingilislər onlara yaxın məsafədə yerləşən bu adaya XX əsrin əvvəllərinə kimi göz dikmişlər. Yaponiya müstəmləkə olmamış, lakin Formoza, Koreya və Mancuriyanı öz müstəmləkəsinə çevirmişdir. Çin də müstəmləkə olmamış, lakin hal-hazırda da Tibet, Sinszyan və Monqolustanın böyük hissəsinə rəhbərlik edir.

Beləliklə, kolonializm XVI əsrdən XX əsrə kimi Qərbin qlobal siyasi hakimiyyəti layihəsini təşkil edirdi. Bu, müstəmləkələrin əldə olunması və asılı ərazilərə, eləcə də onların əhalisinə hökmranlıq və istismar etmək siyasəti idi. Kolonializm - ərazi ekspansiyasına istiqamətlənmiş ideoloji nəzəriyyə və təcrübədir. Kolonializmin səbəbi isə kapitalizmdən irəli gələn Qərb sivilizasiyasına xas olan ictimai-iqtisadi formasiyadır ki, bu da ərazi ekspansiyasına cəhddir [4].

Qloballaşma ənənəsi isə iqtisadi səbəblərdən meydana gəlmişdir. Gəlir əldə etmək etmək üçün əldə olunan məhsula dəyərindən əlavə qiymət qoyulmalıdır. Müstəmləkəçi dövlət isə həmin məhsulu istehsal edən dövlətin özünə sata bilmir, çünki onların həyat səviyyəsi bu məhsulları bu qiymətə almaq üçün aşağıdır. Ona görə müstəmləkəçi dövlətlərə yeni xammal bazarına ehtiyacı yaranır. Beləliklə də, kapitalizm işğal olunmuş xalqların daha da zəifləməsinə səbəb oldu. O zaman belə nəticə çıxır ki, dünyanın kapitalizm yolu ilə birləşdirilməsi istismarın zəifləməsinə deyil məhz güclənməsinə gətirib çıxardı. Klassik kolonializmi isə kapitalizmdən kənarlaşdırmaq olmaz, belə ki, məhz kolonializm kapitalizmin imperializmə çevrilməsinə səbəb olmuşdur. Kapitalizm XIX əsrin sonunda məhz müstəmləkəçiliyin (kolonializm) vasitəsi ilə imperializm mərhələsinə qədəm qoymuşdur. XX əsrin sonunda kapitalizm qlobalizmə çevrilərək qlobal neokolonializm (postkolonializm) ideologiyasını yaratmışdır.

Müstəmləkə sisteminin formalaşması. Müstəmləkəçilik - qəsbkar dövlətlərin (metropoliya) istila edərək tamamilə özlərinin mülkiyyətlərinə çevirdikləri xalqlara və ərazilərə (müstəmləkə) qarşı işğalçı siyasət kimi anlaşılır. Müstəmləkə və müstəmləkəçilik kapitalizmdən çox-çox əvvəl Roma imperiyası dövründə də olmuşdur. Müstəmləkəçiliyin başlanğıcı Amerikanın kəşfi – 1492-ci il və Avropa gücləri arasında uzunmüddətli müstəmləkələrin yenidən bölüşdürülməsini təyin edən Vyana Konqresinin aktlarının imzalandığı il - 1815-ci il kimi qəbul edilə bilər [15,13]. İlk müstəm-

ləkə imperiyasını Portuqaliya və İspaniya təşkil etmişdilər. Portuqaliya sonradan müstəmləkələrini əlində saxlaya bilməmişdi. XVI əsrin ortaları üçün İspaniya Mərkəzi və Cənub Amerikada böyük müstəmləkə imperiyası yaratmışdı. Portuqaliya və İspaniyadan başqa Hollandiya, İngiltərə, Fransa, Almaniya, İsveç Okeandan o tərəfdə müstəmləkə torpaqları əldə etmişdilər. Təkcə İspaniya 1521 — 1660-cı illərdə Amerikadan 18 min ton gümüş və 200 ton qızıl gətirmişdi. XVIII əsrdə Hindistan, İndoneziya və Avstraliya torpaqları tamamilə müstəmləkəyə çevrilmişdilər.

İdeologiya və sərvət hərisliyi imperializmi alovlandıran iki mühüm amil idi. İspan müstəmləkəçiliyi bir tərəfdən İslama və "bütpərəst yerlilərə" qarşı səlib yürüşü xarakteristikasına malik olsa da, digər tərəfdən xaricdəki torpaqların sərvətlərinin açıq şəkildə istismarına təşəbbüs göstərdi.

İqtisadi planda işğalçıların əsas hədəfi yerli icmalara məxsus zəngin mədənlərdir. Daşınan qənimət 1586-1600-cü illər arasında ən yüksək səviyyəyə çatdı. Meksikada 1545-ci ildə tapılan Potosi dağlarındakı gümüş mədənlərindən ildə 266 min kilo gümüş istehsal edirdi ki, Avropanın illik gümüş istehsalı cəmi 60 min kilo idi. Amerikadan gələn böyük miqdarda gümüş sayəsində İspaniya dünyanın ən zəngin ölkələrindən biri oldu. Eynilə Avropada ildə 1000 kilo, Afrikada isə 2000 kilo qızıl çıxarıldığı halda, Amerika ildə 5000 kilo qızıl istehsal edirdi. Lakin bu qiymətli metalların təmin etdiyi rifah İspaniyada davamlı olmadı. XIX əsrdə Yeni Dünyadan qənimət axını azalma qiymət artımı, inflyasiya, xarici borclar və vergilər ölkənin iqtisadi vəziyyətinə təsir göstərir. İspanlar Yeni Dünyanın resurslarını istismar edərkən, yerli sakinləri də mədəni və dini cəhətdən assimilyasiya etmək istəyirdilər. Yerli sakinlər məcburi əməyə və xərraclara məruz qalırlar. Vaxt keçdikcə yerli əhalinin sayı azaldı, onları afrikalı qaradərililər əvəz etdi. Beləliklə, XVI və XVII əsrlərdə Avropanın zənginləşməsini təmin edən qaradərili qul ticarətinə başlanıldı. Nə qədər insanın qul ticarətinin qurbanına çevrilməsini müəyyən etmək çətindir. Sadəcə, 1468-1641-ci illərdə illik orta hesabla 9 min olmaqla sadəcə Anqoladan 1.389.000 qul gətirilmişdi. Üç yüz ildən artıq müddətdə Afrikadan milyonlarla qaradərili daşındı [17, 213]. Bəzi mənbələrin verdiyi məlumata görə 100 milyon insan qul ticarətinin qurbanı olmuşdur [18, 61]. Bu da təsirli bir rəqəmdir. Çünki əsrlər boyu davam edən yoxetmə istəyi müşahidə olunmaqdadır. F. Fanonun da dediyi kimi, söhbət yarım milyard insana qarşı soyqırımdan gedir [19, 262]. Assimilyasiya siyasətinə təhsil və xristianlaşdırma təşəbbüsləri də daxil idi [16,15].

Nəzərə alsaq ki, qul ticarətçiləri xüsusilə ən güclü, ən gənc və ən sağlam insanları seçmirdilər, o zaman Afrikanın ən məhsuldar və lazımlı qüvvələrdən məhrum olduğu qənaətinə gəlmək olar. Qitənin belə qanaxmaya necə tab gətirməsi maraq doğurur. Çünki müstəmləkəçi müstəmləkələrini tərk etdikdən sonra da qoyduğu təməl və özünə bağladığı nizam davam edirdi. Laxlayan bünövrə bu insanların səfalətini, qurduqları sistem isə istismarı davam etdirməyə xidmət edirdi. Qərb dövlətlərinin müstəmləkəçilik siyasəti I və II Dünya müharibələri dövründə Afrika və Asiyanın müxtəlif yerlərində davam etsə də, II Dünya Müharibəsi zamanı onların böyük bir qismi müstəqillik əldə etdilər. Müstəmləkə milli suverenlik qazanmış və buna görə də indi dağılmış tarixi qrup deyil, yeni müstəqil dövlətlərin sakinləri ilə yanaşı, hələ də Avropa hakimiyyəti altında olan qonşu ölkələrin tabe xalqlarını əhatə edən bir kateqoriya idi. İrqçilik çirkin müstəmləkə müharibələrində sərt, despotik hökumətlərin əlində əsas qüvvə olaraq qaldı və ölümcül nəticələrə səbəb oldu. Beləliklə, müstəmləkələrin Qərbdən asılılığı sonuncu ağ polisin getməsi və sonuncu Avropa bayrağının enməsi ilə bitmədi. Xüsusilə milli müstəqillik əldə edildikdən sonra müstəmləkəçilik daimi, hətta qeyri-adi dərəcədə ədalətsiz nəticələrə səbəb olan tale idi.

Artıq XlX əsrin sonlarında dünyanın sənaye baxımından inkişaf etmiş dövlətləri: Böyük Britaniya, Fransa, Almaniya, Hollandiya, İspaniya, İtaliya, Portuqaliya, ABŞ, Yaponiya və başqaları arasında bölüşdürülməsi başa çatmışdı. Sözügedən ölkələr bütün Afrikanı və Polineziyanı (Okeaniyada adalar qrupu) zəbt etmiş, Asiyada və Latın Amerikasında öz mövqelərini möhkəmlətmişdilər. XVI - XIX əsrlərdə Rusiya da Volqaboyu, Sibir, Qafqaz, Krım və Mərkəzi və Orta Asiya ərazilərini öz müstəmləkəsinə çevirmişdi. XIX əsrin son rübündə ümumən dünyada müstəmləkə ərazilərinin sahəsi 60 milyon kv. km, əhalisinin sayı isə 500 milyon nəfərə çatmışdı.

Beləliklə, XIX əsrin axırında dünya müstəmləkə sistemi yaranmışdı. Müstəmləkəçilik yeni dünyanı Avropa modelinə uyğun yenidən qurmağın əsas yolu idi [14, 500]. O, ucuz xammal mənbəyinə, metropoliyanın işçi qüvvəsi və satış bazarına çevrilmiş, dünya bazarının inkişafı ilə əlaqədar kapital qoyuluşu sahəsi kimi onun rolu da artmışdı.

Metropoliyaların tam mülkiyyəti olmuş müstəmləkələrdən başqa, bəzi ölkələr müxtəlif formalarda sənaye baxımından inkişaf etmiş dövlətlərdən asılı olan yarımüstəmləkəyə çevrilmişdilər. Siyasi cəhətdən rəsmən müstəqil olan həmin ölkələr müəyyən müqa-

vilələr (iqtisadi, hərbi-siyasi) əsasında asdı vəziyyətə düşmüşdülər. İran, Çin, Argentina və başqaları bu qəbildən idilər.

XX əsrin əvvəllərindən başlayaraq müstəmləkəçilik əleyhinə mübarizə başladı. Birinci Dünya müharibəsindən sonra bu daha da genişləndi. Asiyada, Şimali Afrikada, Yaxın Şərqdə (İranda, Türkiyədə, Cənubi Qafqazda və b.) milli-azadlıq hərəkatı geniş miqyas aldı. Lakin qalib dövlətlərin birgə səyləri ilə onların qarşısı alındı. Metropoliya dövlətləri müstəmləkələrdə və asılı ölkələrdə ənənəvi müstəmləkəçilik siyasətindən əl çəkməyə, Asiya, Afrika, Latın Amerikasının müstəmləkə regionlarında qərbsayağı iqtisadi, mədəni, sosial tədbirlər həyata keçirməyə başladılar. Rusiya da müstəmləkəyə çevirdiyi ərazilərdə, o cümlədən Qafqazda və Mərkəzi Asiyada belə hərəkət etmişdi.

Bunlara baxmayaraq, XX əsrin 20-30-cu illərində ziddiyyətli Versal-Vaşinqton sisteminə, onun bərqərar etdiyi yeni müstəmləkə qaydalarına, Qərbdə və Şərqdə formalaşan totalitarizmə, irqçilik ideologiyası və siyasətinə qarşı müstəmləkə xalqlarının mübarizəsi gücləndi. İkinci Dünya müharibəsində faşizm üzərində qələbə milli-azadlıq hərəkatına yeni nəfəs verdi. Bununla da müstəmləkə sisteminin süqutu və dağılması üçün əlverişli şərait yarandı.

Ənənəvi olaraq müharibələri üç kateqoriyaya bölmək olar: işğalçılıq müharibələri, azadlıq müharibələri və dövlətlərarası müharibələr. Bu təsnifatları müstəmləkə uğrunda müharibələri arasında da ayırmaq olar. Beləliklə, "müstəmləkə müharibəsi" termini adətən işğalçılıq müharibəsinə aiddir. Müstəmləkə kontekstində işğalçılıq müharibələri iki mərhələyə bölmək olar: işğalçı qüvvə ilə yerli qüvvələr arasında adətən qısamüddətli müntəzəm döyüşlər dövrü və nizamsız müharibə dövrü. Əks-üsyan əməliyyatları yeni məskunlaşma üçün ərazilər ələ keçirilməsi üçün həyata keçirilir. İşğalçı dövlət dayaq qurduqdan sonra düşmənçiliyə cavab olaraq qonşu əraziyə ekspedisiyalar təşkil edə və ya potensial düşməni zərərsizləşdirə bilər. Müstəmləkə müharibələri "adi" müharibələrdən (qonşu dövlətlər arasında münaqişələr) bir neçə cəhətdən fərqlənirdi. Birincisi, onlar hərbidən daha çox siyasi səciyyə daşıyırdılar. Məqsədlərinin məhdud olduğu müntəzəm müharibələrdən fərqli olaraq, müstəmləkə müharibələri mütləq idi - işğalçı dövlətlər işğal etdikləri əraziyə və onun əhalisinə tam və daimi nəzarət yaratmağa, davamlı sabitliyi təmin etməyə çalışırdılar. Buna baxmayaraq, müstəmləkə kampaniyalarına ayrılan resurslar nadir istisnalarla məhdud idi. Məğlubiyyət və qələbənin mənası, adətən, müstəmləkə müharibələrində daha mürəkkəb idi, çünki bir çox hallarda işğalçı qüvvə şəhərə, hökumətə və ya hökmdara tabe olmayan döyüşən tərəflə qarşılaşırdı. Çox vaxt yerli vətəndaşlar ilə ölkələrin nizami silahlı qüvvələri arasında fərq az olurdu. Mərkəzləşdirilmiş hakimiyyətin olmaması rəsmi sülh müqavilələrinin nadir hallarda bağlanması demək idi.

Hökumət strukturları olmadan fəth edilmiş xalqları və əraziləri idarə etmək daha çətin idi. Buna qarşı çıxmaq üçün müstəmləkə orduları, İspan-Amerika Müharibəsindən sonra amerikalıların Filippində etdikləri kimi, münaqişədən sonra bazarlar, məktəblər və digər ictimai qurumlar yaratdılar və ya yenidən qurdular. Yerli qüvvələrdən fərqli olaraq, Avropa orduları (ən çox yayılmış müstəmləkəçi qüvvələr) həmişə əsas əhalidən uzaqlaşdırılan peşəkar qüvvələr olub. Müstəmləkələrin yenidən qurulması və idarə olunması işini həyata keçirərkən müstəmləkə orduları çox vaxt fəallıq göstərir, ana ölkələrdə nizami ordular isə münaqişə başlayana qədər fəaliyyətsiz idi. Beləliklə, bu ordulardakı əsgərlər öz hərbi mədəniyyətlərini və təcrübələrini inkişaf etdirirdilər. Bir müstəmləkə əsgərinin biliklərinin çoxu formal hərbi təhsildən deyil, birbaşa təcrübədən yaranırdı. Avropa orduları demək olar ki, həmişə qarşılaşdıqları yerli qüvvələrdən texniki cəhətdən üstün idilər, baxmayaraq ki, bu, həmişə onların xeyrinə istifadə oluna bilməzdi, çünki ağır artilleriya kimi texnika yollar tələb edirdi (çox vaxt mövcud deyil). Avropa orduları da yaxşı nizam-intizamı, yüksək əhvali-ruhiyyəni qoruyur, mümkün yerləşdirmə və manevrlər üçün yaxşı hazırlanmış və təlim keçmişdilər. Komandirlərinin bacarıqlarından asılı olmayaraq, yerli ordularda ümumiyyətlə belə birlik və döyüş anlayışı yox idi. Müstəmləkəçi dövlətlər öz yürüşlərində müstəmləkə qoşunlarından da istifadə edirdilər ki, onların əksəriyyəti paytaxtdan olan kişi zabitlərdən və yerli çağırışçılardan ibarət idi.

## Nəticə

Müstəmləkə müharibələri XV əsrin sonlarında üstünlük təşkil etməyə başladı, çünki Avropa gücləri getdikcə daha çox xaricdəki əraziləri ələ keçirərək onları müstəmləkələşdirməyə başladılar. Müstəmləkə müharibələri dövrü, ümumiyyətlə, 1974-cü ildə Portuqaliya müstəmləkə müharibəsinin sona çatması ilə başa çatmış hesab edilir, baxmayaraq ki, bəziləri 1982-ci il Folklend müharibəsini son real müstəmləkə müharibəsi hesab edir. Müstəmləkə müharibələri qeyri-müntəzəm döyüşlərin ilk nümunələri arasında hesab olunur və üsyanla mübarizə üsulları ilə bağlı tədqiqatlara səbəb olmuşdur.

**Açar sözlər:** *kolonializm, müstəmləkə, müharibə, postkolonializm.*

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Крысин, Л. Толковый словарь иноязычных слов М.: Эксмо, 2008. — 944)*

*2. Бжезинский З. Стратегический взгляд: Америка и глобальный кризис. М:2012.*

*3. Шпенглер О. Закат Европы. М.:923*

*4. Muhammet Özdemir. Post-kolonyalizm nedir? İstanbul:2017*

*5. Горелов А.А. От мировой колониальной системы до глобального неоколониализма. // "Век глобализации", Выпуск №2 (14), 2014.*

*6. Balcı A. Ortadoğu və Postkolonializm. İstanbul: Pınar Yayınları, 2018, s.204*

*7. Young R.J. Postkolonyalizm. İstanbul, 2016, 652 s.*

*8. Özdemir M. Post-kolonyalizm nedir? Dünyalar arasında və Türkiyede Bilim, Kavram və Teorilerin İşlevleri. İstanbul, 2017, 299 s.*

*9. Chibber V. Post-Kolonyal Teori ve Kapitalizmin Hayaleti. Çeviren Afife Yasemin Yılmaz. İstanbul, 2016, 462 s.*

*10. Tanilli S. Yüzyılların Gerçeyi ve Mirası. VI. Cilt 20. Yüzyıl: Yeni Bir Dünyanın Aranışında. İstanbul, 2019, 656 s.*

*11. Колонии и колониальная политика. Главная \ Советская историческая энциклопедия \ Козь - Коми http://enc.biblioclub.ru/termin/1504862*

*12. Ashcroft Bill, Gareth Griffiths,Helen Tiffin, The Empire Writes Back,London and New York: Routledge, 2002, 296 p.*

*13. Edward W.Said, Orientalism, New York: Vintage Books, 1979, 395 p.*

*14. Ливен Д. Российская империя и ее враги с XVI века до наших дней. Москва: Европа 2007. -стр. 88*

*15. Тарле Е.В. Очерки истории колониальной политики. Москва-Ленинград. Изд. Наука. 1965. – стр. 427*

*16. https://ets.anadolu.edu.tr/storage/nfs/TAR401U/ebook/TAR401U-14V2S1-7-0-1-SV1-ebook.pdf*

*17. Raimondo Luraghi, Sömürgecilik Tarihi, Çev. Halim İnal, E Yayınları, İstanbul, 2000.*

*18.Werena Rosenke, Sefaletin Mimarı Avrupa, Niçin Aztekler Avrupa'yı Keşfetmedi? Çev. Levent Kafadar, İletişim Yayınları, İstanbul. 1993.*

*19. Франц Фанон. Черная кожа, белые маски/ пер. с франц.-М. 2022 -224 с.*



**НАРГИЗ НАГИЕВА**
**Доцент Бакинского Государственного Университета, доктор философии по политическим наукам**


### Колониализм в мировой политике


На протяжении всей истории стремление крупных и могущественных стран установить власть над более слабыми странами, чтобы максимизировать свое процветание и богатство, порождало колониализм. Страны-колонизаторы захватили человеческие ресурсы, рабочую силу, природные ресурсы и рынки оккупированных ими стран. Чтобы не сопротивляться установленному ими колониальному режиму и не наносить вред системе интересов, они держали местные народы и их социальную, культурную и религиозную солидарность под серьезным давлением. В колониальный период, начавшийся в 16 веке, такие страны, как Франция, Англия и Нидерланды, создали колониальные государства в различных странах Африки, Азии и Тихого океана, куда они отправили войска. Позже, разместив в этих районах своих лидеров и институты, они разработали планы заставить местное население служить их интересам.


**Ключевые слова:** *колониализм, колония, война, постколониализм*


**NARGIZ NAGIYEVA**
**Associate professor of Baku State University, Doctor of Philosophy in Political Science**


### Colonialism in world politics


Throughout history, the desire of large and powerful countries to assert power over weaker countries in order to maximize their prosperity and wealth has given rise to colonialism. Colonizing countries captured the human resources, labor, natural resources and markets of the countries they occupied. In order not to resist the colonial regime they established and not to harm the system of interests, they kept the local peoples and their social, cultural and religious solidarity under serious pressure. During the colonial period, which began in the 16th century, countries such as France, England and the Netherlands established colonial states in various countries in Africa, Asia and the Pacific, where they sent troops. Later, by placing their leaders and institutions in these areas, they developed plans to force the local population to serve their interests.


**Key words:** *colonialism, colony, war, postcolonialism*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.1.79.14

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ ORTA DƏHLİZ BEYNƏLXALQ NƏQLİYYAT MARŞRUTU (2020-hazırda)

**LALƏ QARAYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: lale.qarayeva2014@mail.ru*

İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD) yarandığı dövrdən qərblə şərq arasında ticarət, iqtisadi və siyasi əməkdaşlıq sahəsində işlər aparır. 2017-ci ildən bəri isə Avrasiya ərazisi boyunca ticarət və nəqliyyat əlaqəsinin yenidən möhkəmləndirilməsi üzərində işləyir. Həmçinin region ölkələri, Beynəlxalq Nəqliyyat Forumu və digər tərəfdaşlarla sıx əməkdaşlıq edir.

2022-ci ilin fevralından etibarən Rusiyanın Ukraynanın işğalı istiqamətində tammiqyaslı fəaliyyəti nəticəsində əlaqə mənzərəsi kəskin şəkildə dəyişdi. Belə ki, Avropa və Asiya ölkələrini əlaqələndirən Şimal dəhlizi əvvəlki kimi təhlükəsiz və sərfəli nəqliyyat dəhlizi funksiyasını itirmişdi. Çini Mərkəzi Asiya vasitəsilə multimodal nəqliyyat marşrutları ilə Avropayla birləşdirən "Orta Dəhliz" adlanan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (Asiya, Xəzər dənizi və Cənubi Qafqaz) diqqət artırıldı. 2022-ci ilə qədər Çindən Avropaya quru yük daşımalarının böyük hissəsi Şimal dəhlizi vasitəsilə Rusiyadan keçirdi. Çin, Qazaxıstan və Monqolustan Rusiyanın Uzaq Şərqindən gələn dəmir yollarından istifadə edərək öz məhsullarını Avropaya göndərirdi. Ancaq Rusiyanın Ukraynaya hücumu və bundan sonra tətbiq edilən sanksiyalar Şimal dəhlizindən istifadəni məhdudlaşdırdı. Bu, Çin və Avropa İttifaqı arasında potensial alternativ quru yollarının yenidən müzakirəsinə təkan verdi. Xüsusən də "Orta Dəhliz". Orta Dəhlizdə əlavə nəqliyyat, dəhlizin keçdiyi marşrut boyu ölkələrin iqtisadi və siyasi inkişafı üçün bir fürsətdir. Təbii ki, ölkəmiz üçün də bunun əhəmiyyəti böyükdür [1.s.46-47]. Bununla belə, 2022-ci ildən bəri mövcud darboğazlarda yaranan tıxac və onun çətin coğrafiyası və multimodal xarakteri marşrutun rəqabət qabiliyyətinə mane olur. Orta dəhliz Şimal dəhlizindən daha çox quru və dəniz sərhədlərini keçir, fərqli qaydalar, qanunlar və tələblər orta dəhlizin yenidən canlandırılmasına və inkişafına mane ola bilər. Belə bir dəhlizin yaradılması intensiv əməkdaşlıq tələb edir. Baxmayaraq ki, hazırda vahid əlaqələndirici orqanın olmaması marşrut üçün mövcud problemlərdən biridir. Orta Dəhlizin potensialını reallaşdırmaq onu əsas nəqliyyat vasitəsinə, ticarət yoluna çevirməyi göz önünə gətirir. Regional iqtisadi və ticarət inteqrasiyası nəqliyyat dəhlizinin yaradılması və marşrutda tələbata əsasən region ölkələrinin iqtisadi və siyasi yüksəlişinə zəmin yaradacaqdır. Orta Asiya və Qafqazdan idxal tələbinin nisbətən aşağı səviyyədə olduğu kimi marşrutda nəqliyyatın məhdud olması mallara tələbatın olmamasından xəbər verir. Nəticə etibarı ilə dəhliz əsasən Şərq-Qərb tranzit marşrutu kimi, eyni zamanda regional ticarət yolu kimi istifadə olunur. Əsas regional ticarət yolu kimi istifadə olunması da yaxın gələcək üçün prioritet istiqamətlərdəndir. Artan regional iqtisadi və ticarət inteqrasiyası daha yaxşı GVC (qlobal dəyər zənciri) inteqrasiyasına və Orta Dəhlizin Asiyanı Avropa ilə birləşdirən əsas ticarət yoluna çevrilməsinə yol aça bilər. Qlobal ticarətdə COVID-19 pandemiyası və daha sonra Rusiyanın müharibəsi nəticəsində yaranan fasilələr region ölkələri üçün ona zəmin yaratdı ki, Ukrayna həm Mərkəzi Asiya, həm də Qafqaz üçün qlobal təchizatda daha böyük rol oynamaq üçün bir fürsətdir [3.s.9-10]. Orta Dəhlizin inkişafında iştirak ölkələrin regional istehsal üçün xərc və səmərəlilik qazanmaları və artan bazar ölçüsü dərinləşmiş regional iqtisadi inteqrasiyadan regional tələbat yaradacaq və özəl sektoru stimullaşdıracaq. Regional iqtisadi inteqrasiyanın artırılması uzunmüddətli məqsəd olsa da, hökumətlər bu məqsədə dəstək ola bilər qısa və ortamüddətli dövrdə regional tələbatın yaradılması xüsusilə, siyasətçilərin özəl sektorla əməkdaşlığı ümumi biznes mühitini daha da yaxşılaşdırmalıdır. Çətin tranzit və ticarət prosedurları sərhəd məntəqələrində tıxac yaradır və qeyri-ardıcıl və gözlənilməz tranzit və keçid vaxtları, marşrutdan istifadənin daha da azaldılması marşrutun cəlbediciliyinin azalması ilə nəticələnir. Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyədə ticarətin asanlaşdırılması islahatlarına baxmayaraq, marşrutun inkişafına regional yanaşma yoxdur. Xüsusilə, Orta Dəhlizin cəlbediciliyi özəl sektorda çoxlu və uyğunlaşdırılmamış lisenziya və icazənin üst-üstə düşməsindən əziyyət çəkir. Tələb-

lərin çox olması tranzit vaxtını və dəyərini artırır. Sərhəd gömrük imkanlarının zəif olması və marşrut boyunca gömrük orqanları arasında əməkdaşlığın olmaması da təkrar yoxlamalara və gecikmələrə səbəb olur. Regional səviyyədə ticarətin asanlaşdırılması islahatlarının daha da dərinləşdirilməsi Orta Dəhlizin qısa və ortamüddətli potensial imkanlarını artıra bilər. Qeyd olunan problemlərin aradan qaldırılması, yaxud nisbətən yüngülləşdirilməsi marşrut boyu hökumətlərin tranzit vaxtlarını sürətlə azalda bilər. Orta Dəhlizin potensialının həyata keçirilməsi, eləcə də tam rəqəmsallaşdırmaqla bütün nəqliyyat növləri üçün tranzit və sərhəd sənədləri vasitəsilə gömrük qabiliyyətinin təkmilləşdirilməsi, təkmilləşdirilmiş məlumat mübadiləsi, modernləşdirilmiş sərhəd prosedurları tranzit vaxtlarının proqnozlaşdırıla bilənliyini artırır. Marşrut və Xəzər dənizində liman və gəmi tutumunda multimodallığı yaxşılaşdırmaq üçün əlavə investisiyalara ehtiyac var. Bu investisiyalar vasitəsilə Orta Dəhliz boyunca infrastruktur şəbəkəsində məqsədyönlü düzəlişlər həyata keçirilə, qısa və orta müddətdə artan tranzitə nail oluna bilər. Son illərdə Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyə yol, dəmir yolu və dəniz infrastrukturunu müasirləşdirir və inkişaf etdirir. Bununla belə, sərhəd məntəqələrində və dəniz limanlarında tıxac yüksək olaraq qalır və marşrutun cəlbediciliyini azaldır, xüsusilə, konteyner və gəmi donanmasının tutumu dəmir yolu ilə yükdaşımaların həcminə uyğun gəlmir, bu da gecikmələrə səbəb olur. Xəzər dənizi ətrafında liman infrastrukturunun avtomatlaşdırılmasının aşağı səviyyəsi ilə gücləndirilmiş və çatışmayan dəniz limanlarında bərə səfərləri üçün çoxsaylı yükləmə və boşaltmaların qarşısını almaq üçün multimodal infrastruktur sərhəd məntəqələrində də oxşardır. Yaxın gələcək üçün məqsədyönlü infrastruktur investisiyaları üçün regional ticarət axınlarının artırılması və Orta Dəhlizin cəlbediciliyinin dəstəklənməsi tələb olunacaq. Yol boyunca uzunmüddətli nəqliyyat həcmləri ilə bağlı qeyri-müəyyənliyi nəzərə alaraq bu istiqamətdə hökumətlər ticarətin asanlaşdırılması islahatlarına paralel olaraq problemlərin həllinə xüsusi diqqət yetirməlidirlər. Marşrutun cəlbediciliyini azaldan boşluqlar dərhal aradan qaldırılmalıdır [9]. Xüsusilə multimodal dəniz və dəmir yolu potensialını inkişaf etdirməklə sərhəd keçid məntəqələrində və dəniz limanlarında tutumu artırmaq və Xəzərdə donanma qabiliyyətinin və müntəzəmliyin artırılmasına nail olmaq vacib şərtlərdəndir.

Regional iqtisadi və ticarət inteqrasiyasını dərinləşdirmək və transmilli əməkdaşlığı həyata keçirmək üçün ümumi regional yanaşma tələb olunur. Son illərdə marşrutun inkişafına dəstək üçün intensiv regional əməkdaşlığa baxmayaraq, regional rəqabət və məhdud koordinasiya indiyədək birgə yanaşmaya mane olub. İslahat və əsas darboğazları aradan qaldırmaq üçün investisiya səyləri indiyə qədər böyük ölçüdə milli olaraq qalır və icra həm milli səviyyədə, həm də hökumət səviyyəsində məhdud koordinasiyadan əziyyət çəkir. Bundan əlavə, özəl sektor ortaq standartlara doğru çox aktiv olmuşdur və marşrut boyu təkrarlanan problemləri həll etməklə, o, əsasən həm milli, həm də regional səviyyədə marşrutun inkişafı haqqında strateji müzakirələrdən kənarda qalıb [8]. Orta Dəhlizin cəlbediciliyinin inkişaf etdirilməsi, milli hökumət səviyyələri və artan regional koordinasiya ümumi koordinasiyanın təkmilləşdirilməsini tələb edir. Davamlılığa nail olmaq ticarət axınlarının təkmilləşdirilməsində, infrastruktur və ticarətin asanlaşdırılması islahatının həyata keçirilməsi və ardıcıllığına ümumi yanaşmada, Mərkəzi Asiya və Qafqazda regional bazarların qurulması və inteqrasiyası üçün güclü siyasi öhdəliklərin həyata keçirilməsində milli təşəbbüslərin və regional əməkdaşlığın birləşməsini tələb edəcək. Bu islahatların həyata keçirilməsində xüsusilə marşrutun inkişafına dəstək verən qurumlar regionda ticarətin asanlaşdırılması sahəsində yüksək səviyyədə və Avropa standartlarına uyğun islahatların aparılması, milli və regional infrastruktur planlarını uyğunlaşdırmaqda Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyə hökumətləri ümumi inkişaf etməlidirlər [6]. İnsan təlafatından başqa, Rusiyanın Ukraynadakı işğalçılıq müharibəsi regional və qlobal ticarət modellərinə, xüsusilə Şimal marşrutuna dərindən təsir etdi, təchizat zəncirləri və dəyişdirilmiş ticarət yolları qlobal şəkildə pozuldu. Beynəlxalq sanksiyalardan sonra Çindən Avropaya Rusiya üzərindən malların idxal və ixracında əhəmiyyətli bir azalma görüldü. Həmin istiqamətdə nəqliyyatın hərəkətsizliyi ortaya çıxdı. Orta Dəhlizin inkişaf potensialı region dövlətləri üçün daha da əlçatan oldu. Transxəzər Beynəlxalq Nəqliyyatı kimi də adlandırılan dəhliz marşrutunu inkişaf etdirmək üçün yenidən siyasi diqqət göstərildi. Alternativ tranzit dəhlizinə çevrilməsi, onun multimodal xarakteri onu digər marşrutlarla müqayisədə struktur bir vəziyyətə gətirir. Orta Dəhlizin tikintisi potensialının olması və rəqabət qabiliyyətinin olma-

masının aradan qaldırılması onun daxilində iqtisadi və regional inteqrasiyanı təşviq edən ticarət yoluna çevrilməsi qabiliyyətindən keçir [2.s.47-48].

Mərkəzi Asiya və Cənubi Qafqaz, eləcə də Asiya, Avropa regionları arasında Orta Dəhlizin cəlbediciliyinin milli hökumətlər səviyyəsində və güclənən regional koordinasiya ilə inkişaf etdirilməsi ümumi koordinasiyanın təkmilləşdirilməsini, ticarət axınlarının təkmilləşdirilməsini, milli təşəbbüslərin və regional əməkdaşlığın birləşməsini tələb edəcəkdir. Qısa müddətdə nəqliyyatın inkişafında irəliləyişə nail olmaq üçün ancaq regional hökumətlər prioritet əhəmiyyət verməlidir. Marşrutun cəlbediciliyini azaldan mövcud imkan boşluqlarının həlli uzun və dəyişkən gecikmələr yaradır [5]. Xüsusilə, sərhəd-keçid məntəqələrində və limanlarda dəmiryol tutumu və donanma quruculuğu multimodal inkişaf edir. Xəzər dənizindəki potensial regional ticarət axınlarının inkişafını dəstəkləyəcək. Orta Dəhliz üzrə regional dialoq intensivləşib, marşrutu inkişaf etdirmək üçün bir fəaliyyət planı üzərində regional hökumətlərarası dialoq var, lakin onun inkişafı üçün daha çox koordinasiyaya ehtiyac olacaq. Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyə əməkdaşlığı inkişaf etdirmək üçün çoxtərəfli dialoqları gücləndirmişdir. Orta Dəhliz etibarlı və cəlbedici ticarət yolu kimi 2022-ci ildə Mərkəzi Asiya və Cənubi Qafqaz hökumətləri arasında siyasi əlaqənin intensivləşməsi, eləcə də dərinləşməsində mühüm əhəmiyyət kəsb etməyə başladı. Alternativ olaraq Orta Dəhlizi inkişaf etdirmək üçün birgə səylə Avropa İttifaqı (Aİ) ilə ticarət əlaqələrini də genişləndirməyə başladılar [4.s.16-17].

2022-ci ilin martında Qazaxıstan, Azərbaycan və Gürcüstan birgə təşkilat yaratdılar və daha sonra Orta Dəhlizin 2022–2027-ci illər üçün Yol Xəritəsi 2022-ci il noyabrın 25-də Transxəzər Nəqliyyat Dəhlizinin inkişafı məqsədilə Gürcüstan, Qazaxıstan və Azərbaycan nümayəndələri arasında Aktauda keçirilən görüşdə imzalanıb. Yeri gəlmişkən, sözügedən istiqamətdə yükdaşımaların həcminin artırılmasını Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası da diqqətdə saxlayır. Assosiasiya hazırda bu məqsədlə Sinqapurla birlikdə Orta Dəhlizin rəqəmsallaşması konsepsiyasını hazırlayır. Qurumun baş katibi Haydar Abdikerimovun sözlərinə görə, indi dəhlizin detalizasiyası üzrə işlər görülür və dəhlizə qoşulacaq ölkələrin (Sinqapur, Bolqarıstan və Litva) bu marşrutla hərəkəti planlaşdırılır. Orta Dəhlizin ötürücülük qabiliyyətini artırmaq məqsədi ilə onun rəqabət qabiliyyətini artırmaq üçün Fəaliyyət Planı gücü 2025-ci ilə qədər ildə 10 milyon tona qaldırılacağı planlaşdırılır. Onun ardınca 2023-cü ilin iyununda hökumətlərarası əməkdaşlığın yaradılması üçün üçtərəfli əməkdaşlıq protokolu imzalandı. Qazaxıstan, Türkiyə və Azərbaycan arasında Orta Dəhliz üzrə ticarətin inkişafı üzrə işçi qrupu formalaşdırıldı və yeni nəqliyyat marşrutlarının inkişafı və logistika layihələri də diqqət mərkəzində saxlanıldı. Müsahibə edilən Azərbaycan sahibkarları üçün Orta Dəhlizdən istifadə etmələrinə mane olan əsas səbəblər onların əsas tranzit marşrutu kimi rəqabətədavamlı olmayan nəqliyyat xərcləri, xidmətlərin rəqəmsallaşdırılması məhduddur. Dəmir yolu və liman infrastrukturu ilə bağlı əsas gecikmələr sərhəd-keçid məntəqələrində olur. Azərbaycanla Gürcüstan arasında, Türkiyə ilə Gürcüstan arasında sərhəd məntəqələrində qarşılaşılan əsas problem darboğaz standartlaşdırmasının olmaması və gömrük sənədləri idi. Təəccüblü deyil ki, Azərbaycan tərəfi Orta Dəhliz boyunca ticarəti asanlaşdırmaq üçün "sərhədin sadələşdirilməsində ardıcıllıq üçün qaydalar" və "sərhəd prosedurlarının sadələşdirilməsi və standartlaşdırılması" ən mühüm görüləcək tədbirlər kimi görür [4.s.24-25]. Orta Dəhliz digər marşrutlar üçün möhkəm alternativdir, belə ki, Azərbaycan tərəfi bildirir ki, "Siyasi sabitlik" onların Orta Dəhlizdə fəaliyyət göstərməyi seçmələrinin əsas səbəblərindən biri idi. Hal-hazırda ölkəmiz siyasi cəhətdən sabitliyə nail olduğu üçün artıq bu dəhlizdə aktiv iştirak üçün heç bir maneə qalmamışdır. Qısa müddət ərzində Dəhlizin istifadəsi, yük tutumu daha da artacaq və region ölkələrinin əksəriyyəti dəhlizin aktiv istifadəçilərinə çevriləcəklər. Məqalənin son hissəsində 2022-ci il noyabrın 25-də Bakıda, ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyevin Orta Dəhliz barədə çıxışından bir hissə əlavə etmək istəyirəm [8]: "Bu günün mövzusu Orta Dəhliz məsələsinə həsr olunub. Orta Dəhliz kimi irimiqyaslı layihəni icra etmək üçün təhlükəsizlik və iqtisadi bacarıq məsələləri, əlbəttə ki, müzakirə olunmalıdır. Əlbəttə, təhlükəsizlik və iqtisadi potensial olmadan bütün region ölkələrinə fayda verəcək Orta Dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq mümkün olmayacaq. Təbii ki, istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir Çünki güclü iqtisadiyyat, siyasi, iqtisadi sabitlik və hökumət siyasətimizin proqnozlaş-

dırılması - bütün bu amillər körpülərin və mümkün qədər çox ölkə ilə daha yaxın münasibətlərin qurulması ilə yanaşı, bugünkü reallığa gətirib çıxarıb. Bununla yanaşı, Orta Dəhlizin bir hissəsi olan hər bir ölkənin daxildə etdikləri də vacibdir. Bizim coğrafi mövqeyimizin üstünlüyü Avropa ilə Asiyanın arasında yerləşməyimizdir. Əslində, iki qitənin ortasında yerləşirik və bu bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. İndi isə dəmir yolları əlaqələrimizə, yol infrastrukturumuza baxdıqda biz Azərbaycanda hər şeyin hazır olduğunu görürük. Beş il bundan əvvəl biz tərəfdaşlarımızla birlikdə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin açılışını etdik. İndi isə ölkəmizdən keçən artan yük həcmlərini gördükdə biz Bakı-Tbilisi-Qarsın Gürcüstan hissəsinin genişləndirilməsinə sərmayə yatırmağa başladıq. Bu layihə bizə 100 milyon ABŞ dollarından daha baha başa gələcək və biz bu layihəni bir il və ya ola bilsin, bir il yarım müddətində bitirməyi planlaşdırırıq. Eyni zamanda, Şimal-Cənub dəhlizi kimi digər nəqliyyat layihələri Şərq-Qərb dəhlizinə sinerji əlavə edəcək. Azərbaycan hər iki dəhlizin iştirakçısıdır və Azərbaycanda bu dəhlizlərlə bağlı əksər nəqliyyat və logistika infrastrukturu hazırdır. Bizim nəqliyyat-kommunikasiya layihələrinin nisbətən yeni elementi olan dəniz ticarət limanımız 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək. Çünki buna zərurət var, çünki dünyada yeni geosiyasi vəziyyət mövcuddur və Azərbaycandan daha çox yüklərin daşınmasına zərurət var. Həmçinin biz hava limanları layihələrinin tamamlanması prosesindəyik. Laçın hava limanı hazır olandan sonra, - hansı ki, işğaldan azad edilmiş ərazilərdə üçüncü hava limanı olacaq, - Azərbaycanda beynəlxalq hava limanlarının sayı doqquza çatacaq. Əlbəttə ki, bu, təkcə sərnişin daşımaları üçün yox, həm də yük daşımaları üçündür. Bakıda gəmi infrastrukturu və yeni gəmiqayırma zavodlarımızın olması ilə bağlı potensialımızı əlavə etsək, biz, əlbəttə ki, planlaşdırdıqlarımıza nail olacağımızı görəcəyik".

Azərbaycan Prezidenti İlham Əliyev həmçinin "Euronews" telekanalına müsahibəsində ölkənin iqtisadi inkişafı ilə bağlı hər hansı bir risk görmədiyini, bu günədək daha mürəkkəb geosiyasi vəziyyətdə belə, iqtisadi inkişafda müsbət meyillər müşahidə edildiyini, hətta ərazilərimizin işğal olunduğu illərdə respublika iqtisadiyyatının böyüdüyünü bildirib [7].

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Dərslik. Bakı; Mürtəcim", 2007,208s.*

*2. az.wikipedia.org/wiki/Vitse-prezident*

*3. Walter Carlsnaes, Thomas Risse və Beth A. Simmons-un redaktəsi ilə. Bakı,2005*

*4. Realising the Potential of the Middle Corridor. 2022*

*5. President.az/az/pages/view/first-vice-president /services*

*6. https://president.az/az/articles/view/57968*

*7. https://xalqqazeti.az/az/iqtisadiyyat/154281-orta-dehliz-turk-dunyasinin-ortaq*

*8. https://www.azernews.az/nation/217952.html*

*9. https://xalqqazeti.az/az/siyaset/126800-azerbaycan-prezidenti-orta-dehliz-layihesi*


## XÜLASƏ


Bu analitik araşdırma Türkiyə, Azərbaycan, Gürcüstan və Qazaxıstan perspektivindən Orta dəhlizin inkişafında çətinlikləri və imkanları anlamaq üçün hazırlanmışdır. Belə ki, Orta Dəhliz rəqabət qabiliyyətli və təmsil edə biləcəyi şərtləri müəyyən etməklə uzunmüddətli perspektivdə regional və trans-kontinental ticarət üçün əlverişli marşrutdur. Azərbaycan başda olmaqla digər Cənubi Qafqaz ölkələri, həmçinin, Çin və Mərkəzi Asiya ölkələri, o cümlədən Türkiyə və Avropa İttifaqı üçün bu dəhlizin inkişafı həm nəqliyyat xərclərini dəfələrlə azaldacaq, həm də daha qısa müddətdə səmərəli ticarətə nail olunmasına zəmin yaradacaqdır.



**Açar sözlər:** *Azərbaycan, Orta dəhliz, Transxəzər, nəqliyyat, Cənubi Qafqaz, marşrut.*



**Lala Garayeva**
***Doctoral student of Baku State University***
***lale.qarayeva2014@mail.ru***


## Middle Corridor International Transport Route in Azerbaijan's foreign policy (2020-present)

## SUMMARY


This analytical study is designed to understand the challenges and opportunities in the development of the Middle Corridor from the perspective of Turkey, Azerbaijan, Georgia and Kazakhstan. Thus, the Middle Corridor is a viable route for regional and

trans-continental trade in the long term by determining the conditions in which it can be competitive and representative. The development of this corridor for the Caucasian countries, China and Central Asian countries, including Turkey and the European Union will reduce transport costs many times and will create the basis for achieving efficient trade in a shorter period of time.

**Key words:** *Azerbaijan, Middle Corridor, Trans-Caspian, transport, South Caucasus, route.*

**Лала Гараева**
***Докторант Бакинского Государственного Университета***
***lale.qarayeva2014@mail.ru***

## Международный транспортный маршрут «Средний коридор» во внешней политике Азербайджана (2020-настоящее время)

**РЕЗЮМЕ**

Целью данного аналитического исследования является понимание проблем и возможностей развития Среднего коридора с точки зрения Турции, Азербайджана, Грузии и Казахстана. Таким образом, «Средний коридор» является жизнеспособным маршрутом для региональной и трансконтинентальной торговли в долгосрочной перспективе благодаря созданию конкурентных и репрезентативных условий. Развитие этого коридора для других стран Южного Кавказа, включая Азербайджан, а также Китая и стран Центральной Азии, включая Турцию и Европейский Союз, многократно снизит транспортные издержки и создаст основу для достижения эффективной торговли в более короткие сроки.

**Ключевые слова:** *Азербайджан, Средний коридор, Транскаспий, транспорт, Южный Кавказ, маршрут.*

УДК 327; 930.22
DOI:10.30546/3006-0346.2024.1.79.19

# РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ ССР В СОВЕТСКО-ИРАНСКИХ ОТНОШЕНИЯХ В 1970-1980 ГОДАХ

**ИЛАХА МАМЕДОВА**
*Западно-Каспийский Университет*
*E-mail: Ilashka_90@mail.ru*

В 1970-е годы отношения между СССР и Ираном были неоднозначными. Хотя Иран вел проамериканскую политику, СССР поддерживал экономические связи с шахским режимом. В развитии экономических отношений двух государств, активное участие принимали и азербайджанские специалисты.

На основе советско-иранского договора 1963 года по использованию приграничной реки Аракс, Бакинский институт Гидропроект разработал проект гидроэлектростанции, мощностью 100 тыс. квт. часов электроэнергии в год, обеспечивающий Муганскую степь орошением и Ардабильский район дешевой энергией. Азербайджанские специалисты Р.Асланов, Ф.Кулиев, И.Касумов, А.Тагиев, К.Юсифов, А.Рзаев, А.Бабаев, М.Алиев, Т.Ахмеев, А.Рачилин и другие проделали большую работу по подготовке иранских кадров – сварщиков, бульдозеристов, шоферов, мотористов, грейдеристов, слесарей и прочих. При помощи азербайджанских специалистов – А.Агаев, Г.Алиев, Я.Алескеров, С.Касумов, Ш. Масталиев, А.Надиров, Т.Зейналов, Ш.Ширалиев, Т.Зейналов, Ф. Эйвазов был разработан второй проект гидроэлектростанции на реке Аракс – Худаферин общей мощностью в 600 млн. квт. часов в год.

Сданное в июне 1971 года гидросооружение на реке Аракс способствовал орошению 83 тыс. га земель в Иране. Сооружение было спроектировано сотрудниками Бакинского отдела Всесоюзного научно – исследовательского и проектно – изыскательного института «Гидропроект» имени С.Я.Жука [12, с.27]. Также сотрудники института «Бакгидропроект» спроектировал второй комплекс гидроузла (электростанция Худаферин и каскад «Гыз галасы»). Строительство началось в 1981 году под руководством директора института «Бакгидропроект» Р.И. Байрамова [6,5].

Целью приезда иранской делегации в Азербайджан 21 мая 1971 года во главе с сенатором А. Джаханбани было урегулирование пограничных и финансовых вопросов, связанных со строительством гидроузла «Аракс» и Мильско-Муганской водозаборной плотины [1, оп.57, д.122, л.105-106]. Вскоре после этого, 25 сентября 1971 года Шах Ирана Махомед Реза Пехлеви посетил советско-иранский гидроузел «Аракс». Шаха сопровождали Министр водного хозяйства и энергетики Ирана Вахиди, Министр сельского хозяйства Рухани, Генеральный директор организации водного хозяйства и энергетики Иранского Азербайджана Суфи, группа сенаторов, членов Меджлиса и др. На гидроузле Шаха встречали руководящие работники министерства энергетики и водного хозяйства Ирана и иранские специалисты, принимавшие участие в строительстве гидроузла. В церемонии встречи приняли участие и азербайджанские специалисты Асланов Р.К. – начальник Араксгидростроя, Гамидов Р.А. и Наджафкулизаде И.Г. – заместители начальника Араксгидростроя, Босовкий Л.М. – директор Бакгидропроекта, Кулиев Ш. – переводчик. Во время посещения гидроузла, шах длительное время беседовал с нашими специалистами. Обращаясь к Босовскому, шах сказал: «Я рад видеть, что проект, который мы с вами обсуждали несколько лет тому назад, сейчас претворен в жизнь и полностью себя оправдывает. Я только что побывал на Мильско – Муганской плотине и убедился, что мы там сможем орошать 60 тыс.га. Земли там хорошие. Уже в этом году мы получили очень большую пользу от гидроузла «Аракс». Урожай пшеницы достиг 38 центнеров с каждого гектара, чего раньше никогда не бывало из-за недостатка воды ». Далее сказал, что сооружение гидроузла «Аракс» и Мильско - Муганской плотины советскими усилиями советских и иранских специалистов и рабочих является самым лучшим проявлением доброжелательности и дружбы обоих народов и приносит им большую просьбу, я надеюсь, что наше сотрудничество на Араксе будет продолжаться и дальше, и мы начнем строить Худаферинский гидроузел. Шах отметил, что «Худаферин» почти вдвое больше гидроузла «Аракс» по емкости водохранилища и в 3-4 раза по мощности ГЭС, и он принесет большую пользу. Обращаясь к Асланову, Шах поблагодарил в

его лице всех советских специалистов и рабочих за хорошо построенные сооружения. Далее Шах осмотрел помещение Главного щита Управления и машинный зал иранской ГЭС, беседовал с эксплуатационным персоналом, выйдя из здания, осмотрел общий вид на плотину и ГЭС с нижнего бьефа. Прощаясь с нашими специалистами, он сказал, что сооружения произвели на него самое благоприятное впечатление, и он высоко оценивает усилия советских специалистов и рабочих и благодарит их за хорошую работу. Ответили, что сооружения построены совместно иранскими и советскими специалистами и рабочими, поблагодарили за высокую оценку и за посещение гидроузла [1, оп.58, д.219, л.64-67].

Азербайджанские специалисты оказывали помощь иранскому народу в проведении газопровода от юга к северу и обеспечение северных районов газом. Руководил проектом Ф.Шарифов. До этого газ в Иране сжигался в факелах, теперь же газ стали экспортировать

Западные государства обещали Ирану построить металлургический завод в Исфагане, но затем решили, что в Иране нет условий для строительства завода, так как было выгодно продавать свой металл по дорогой цене. СССР оказал содействие строительству завода, что способствовало экономию денег Ирану и обеспечило работой иранцев, а также создала возможность для развития новых отраслей индустрии. АзССР не только выполнял заказы на оборудования для строительства, но и посылал своих специалистов на помощь. Также АзССР обеспечивал перевозки оборудования из Ирана в СССР через Каспийское море. Исфаганский металлургический завод давал 100% всего производства стали в Иране [10, с.25].

За исследуемый период, АзССР всегда находился в центре внимания иранских делегаций. По приезду в СССР, они обязательно выражали желание побывать и в Азербайджанской ССР.

9 декабря 1970 года шахиня Ирана Фарах Пехлеви прибыла в Азербайджанскую ССР. Во время визита ее сопровождали мать шахини - Фарида Диба, фрейлина шахини – Бану Диба и другие. С нашей стороны делегацию встретили представители общественности. В честь шахини от имени Президиума Верховного Совета был дан прием, а после состоялся концерт мастеров искусств республики, где пели Муслим Магомаев, Рашид Бейбутов, Зейнаб Ханларова и другие. Но ее больше интересовал город. Шахиня вместе с делегацией посетили Азербайджанский Академический театр оперы и балета имени М.Ф.Ахундова, школу № 190, Азгосконсерваторию имени У.Гаджибекова, Общество дружбы и культурной связи с зарубежными странами, ознакомились с достопримечательностями города. 11 декабря иранская делегация вместе с шахиней Фарах Пехлеви вылетели в Тегеран [1, оп. 57, д.104, л.157,159,161,163-170].

6 августа 1971 г. В АзССР прибыл министр здравоохранения Ирана Манучехр Шахголи [1, оп.58, д.165, л.4], а с 9 по 11 августа 1971 г. в Баку прибыла иранская правительственная делегация во главе с председателем Правления национальной нефтяной компании г-ном Экбалем [1, оп.58, д. 219, л. 34-35].

В СССР по приглашению Правительства СССР находился министр финансов Ирана Джамшид Амузгар с супругой Улрик. 6 февраля 1972 года они прибыли в Баку сроком на один день. На встрече присутствовали с азербайджанской стороны Лемберанский А.Д., Бахшалиев Б.Г., Таирова Т.А., Ахмедов К.А., Салахов Д.Г.Татлиев С.Б.Джеваншир Д.А. Гости посетили НГДУ им. Серебровского, Академию наук республики, где они побеседовали с президентом Академии. В честь гостей был устроен прием от имени правительства АзССР с участием мастеров искусств. На следующий день гости вылетели в Москву [1, оп. 59, д.59, л.239-242].

6 апреля 1972 года в АзССР прибыл министр высшего образования и науки Ирана Хоссейна Казем-заде с супругой [1, оп. 59, д. 111, л. 179-180]. Во время визита гостей принял Министр высшего и среднего образования АзССР Алиев К.Г., Председатель Совета Министров республики Ибрагимов А.И. Также гости посетили НГДУ им. Серебровского, Азербайджанский Институт Нефти и Химии им. М.Азизбекова, Академию наук Республики, ознакомились с достопримечательностями города, просмотрели балет «Семь красавиц» в театре оперы и балета имени М.Ф. Ахундова. В период пребывания в Республике гостей постоянно сопровождал Мустафаев С.М. – зам.министр высшего и среднего специального образования АзССР.

25 июля 1974 года в Баку прибыл представитель иранской фирмы «Трико-централ» Карачоллу Гулам Саханд для подписания контакта по приграничной торговле республики с Ираном [1, оп. 62, д. 115]. Во время пребывания Карачоллу в

Баку были организованы встречи с писателями и работниками торговли, также гость посетил комбинат им. Ленина и швейную фабрику им. Володарского.

Баку также являлась центром проведения переговоров между СССР и Ираном о поставки газа из Ирана в СССР. В связи с этим с 16 по 25 февраля 1975 года в АзССР находилась делегация Иранской национальной газовой компании во главе с ее техническим директором Гаджави [1, оп.62, д. 115]. Переговоры между советской и иранской сторонами были проведены в помещении Управления Уполномоченного МВТ при Совете Министров АзССР. На переговорах с азербайджанской стороны присутствовали: Мурадалиев З.Д. – начальник отдела внешнеэкономических связей Совета Министров АзССР, Баширзаде А.Б. – уполномоченный Минвнешторга СССР при Совете Министров АзССР, Халафбеков Н.Х. – начальник отдела внешнеэкономических связей Госплана республики, Абдуллаев А.М. – директор объединения «Азтрансгаз», Рагимов А.Р. – заместитель директора объединения «Азтрансгаз», сотрудники Союзгазэкспорта МВТ СССР и объединения «Грузтрансгаз» и другие. Во время визита гости также ознакомились с достопримечательностями города, побывали в музее Истории, музее ковра, посетили Дворец Ширваншахов, НГДУ им. Серебровского, побывали в Агдаше, где ознакомились с газокомпрессорной станцией, в Шемахе, где посетили астрофизическую обсерваторию. Очередной приезд делегация Иранской национальной газовой компании пришелся 26 марта - 4 апреля 1975 года. От азербайджанской на встрече присутствовали: Абдуллаев А.М. – представитель объединения «Азтрансгаз». На этой встрече были согласованы: объем поставок газа на второй квартал 1975 года, время остановок газопровода для ремонтно-профилактических работ, работа систем связи между диспетчерскими центрами.

В исследуемый период заметно расширились добрососедские экономические, научно-технические и культурные связи Азербайджана с Ираном. Благодаря упорному труду руководителя республики Гейдара Алиева, АзССР превратился в центр проведения различных международных мероприятий. Проведение таких мероприятий в Баку, позволяло ознакомить зарубежные делегации с достижениями Советского Азербайджана и успехами республики.

До конца 1960-х годов культурные связи АзССР с Ираном были слабыми. После прихода к руководству республикой в 1969 году, Гейдар Алиев проделал большую работу для развития двухсторонних связей. 24 июля 1970 года Бюро ЦК КП Азербайджана принял постановление «О мероприятиях по усилению внешнеполитической пропаганды на Иран», в котором подробно были описаны недостатки в информационно-пропагандистской работе на Иран. Для устранения недостатков, постановление обязывало министерства выполнить решения ЦК КП Азербайджана от 1 марта 1966 года и от 20 февраля 1968 года об улучшении внешнеполитической пропаганды и информационно-пропагандистской работы за рубежом [1, л. 96-100].

Плодотворную работу по укреплению культурных и научных связей с Ираном вели также азербайджанские ученые. Большое внимание изучению проблем Ирана уделял Институт стран Ближнего и Среднего Востока Академии наук Азербайджанской ССР. Министерство культуры и информации Ирана пригласило делегацию Азербайджанского общества дружбы и культурной связи с зарубежными странами посетить Иран в марте 1978 года. Приглашение передало Генеральное консульство Ирана в городе Баку [1, оп.57, д.75, ед. хр. 137]. В составе делегации были председатель Президиума Азербайджанского общества дружбы и культурной связи с зарубежными странами Наби Хазри, народный артист СССР Рашид Бейбутов, профессор Азгосуниверситета Гулу Халилов.

Также многие иранские поэты и писатели принимали участие в юбилейных торжествах выдающихся представителей азербайджанской культуры М.А. Сабира, М.Ф. Ахундова, Дж. Мамедкулизаде, творчество которых широко известно в странах Востока. В Азербайджане издавались произведения иранских поэтов и писателей - Фирдоуси, Саади, и азербайджанских писателей – Саиба Тебризи и Шахрияра и других. Была опубликована четырехтомная "Антологии литературы Южного Азербайджана" под редакцией академика Мирзы Ибрагимова [9,26]. Кроме того, на факультете востоковедения Азербайджанского государственного университета готовились специалисты по иранской филологии и переводчики персидского языка. Академик М.А.Усейнов выступил в 1974 году на международном конгрессе известных архитекторов в г.

Исфагане (Иран) на тему: «Сочетание элементов древней Иранской архитектуры с современной архитектурой» [7, ед.хр.62, л.50]. Работники азербайджанского радио и телевидения расширили контакты и обмен опытом радио и телевидения с зарубежными коллегами. В 1970 году в Баку находились заместитель генерального директора Иранского радио и телевидения Гамид Саид и директор Иранского телевидения Ясин Аль-Баку [7, ед.хр.56, л.64].

В этот период большое внимание уделялось развитию книготорговли, книгоиздательским связям и межбиблиотечному обмену. Так, за 1970 год книгоэкспортный отдел «Азеркитаба» отправил в зарубежные страны 13.770 экз.книг на сумму 10.949 руб., при плане 6 тысяч рублей [7, ед.хр.62, л.6]. Одним из крупнейших заказчиков на продукцию «Азеркитаба» являлся Иран. С представителем Иранской книготорговой фирмы «Азеркитаб» заключил договор о поставке в Иран около 5 тыс.экз. книг [7, ед.хр.62, л.6]. За период 1971-1973 годов фундаментальная библиотека Академии Наук Азербайджанской Республики и Республиканская библиотека им. М.Ф.Ахундова направили в библиотеки Ирана более 900 книг и журналов, а из Ирана получено 563 книги и журнала [7, ед.хр.75, л.68].

ЦК КП Азербайджана 14 апреля 1978 года принял постановление о проведении в городе Баку V сессии Межправительственной советско-иранской комиссии по научно – техническому сотрудничеству [1, оп.65, ед. хр. 140, пар.1-г]. Научно-техническое сотрудничество СССР с Ираном осуществлялось на основе Соглашения, подписанного 25 февраля 1971 года, и охватывало следующие области: науку и высшее образование, сельское и лесное хозяйство, охрану окружающей среды, сейсмологию и сейсмостойкое строительство, здравоохранение и медицину, документацию и научно-техническую информацию. Наиболее активно сотрудничество развивалось в области предотвращения загрязнения вод Каспийского моря. Соглашение вступило в силу 29 июня 1971 года [11,191].

После революции в Иране и создания Исламской Республики Иран, новые власти стали вести нейтральную внешнюю политику и стали опираться на линию «не Восток, не Запад». Восток, по их мнению, означал коммунизм, а Запад империализм. Шиитское руководство рассматривало коммунизм на примере Советского Союза как режим, в котором преобладает антиисламская идеология. Но с другой стороны, Иран был заинтересован в поддержании экономических отношений с СССР, а СССР, в свою очередь, пытался включить Иран в сферу своего влияния.

С приходом к власти в Иране теократического политического режима фактически под религиозной оболочкой проводилась прежняя политика паниранизма. Данная политика вновь, как и при шахском режиме, ограничивала политические и культурные права азербайджанского населения. Начались репрессии против противников нового режима в Южном Азербайджане.

После победы исламской революции в отношениях между одним из авторитетных религиозных деятелей Ирана Шариат -Мадари и духовным лидером нового политического режима имама Хомейни возникли разногласия. Шариат - мадари имел азербайджанские корни. Его, в основном, поддерживала группа «Пишгаман» («Разведчики»), образовавшаяся в Тебризском Университете, которая состояла из студентов и рабочих, пытавшихся установить в Иранском Азербайджане местную автономию [8,144-145]. В декабре 1979 г. в Тебризе прошли массовые демонстрации, выдвинувшие требование предоставления автономии азербайджанцам и другим этническим меньшинствам Ирана [8,211]. В марте-апреле 1982 года иранское правительство напало на сторонников отставных генералов-оппозиционеров генерал-полковника Афшари и аятоллы Шариат - мадари, проживавших в Восточном Азербайджане. Целью оппозиции было начать восстание в Тебризе, а затем расширить его, чтобы убить имама Хомейни. Однако правительство распустило группу. 28 членов группы были расстреляны в Тебризской тюрьме без следствия и суда. Усилились репрессии против оппозиции. Все это усиливало рост недовольство новым режимом в Иране [13, 100].

События в Южном Азербайджане после Исламской революции 1979 года имели отклик и в Азербайджанской ССР. В своем вступлении на VII съезде писателей республики, состоявшемся в Баку в 1981 года, Гейдар Алиев подчеркнул важность сотрудничества с азербайджанскими писателями из Южного Азербайджана и «пропаганды их произведений в республике и за рубежом» [4,2]. Он высоко оценил творчество поэта Сулеймана Рустама, заявив, что «тема Южного Азербайджана и борьба его народа за свое соци-

альное и национальное освобождение занимает видное место в творчестве поэта» [5,1]. Комментируя произведения Балаша Азероглу, Г. Алиев также заявил, что в его «произведениях мы часто сталкиваемся с темой Южного Азербайджана: он отражает мечты и чаяния его многомиллионного народа» [5,1]. Высоко оценив произведения Мирзы Ибрагимова, Алиев охарактеризовал его книгу «Gələcək gün» как изображение «Движения за революцию в Южном Азербайджане и борьба за национальную и социальную независимость» [2,67]. В четвертом томе Азербайджанской Советской Энциклопедии, опубликованной в 1980 г., в статье «Иранский Азербайджан» говорилось: «Bax, Cənubi Azərbaycan» («Смотри, Южный Азербайджан») [3,513].

**ЛИТЕРАТУРА:**


*1. АДП УДП АР ф.1*

*2. Азербайджан, 1981, № 10*

*3. Азербайджанская советская энциклопедия, том 4, 1980*

*4. Бакинский рабочий, 14 июня 1981 года*

*5. Бакинский рабочий, 12 декабря 1981 года*

*6. Вышка, 2 июля 1980 года*

*7. ГААР, ф.28,оп.12*

*8. Жигалина О.И. «Этносоциальная эволюция иранского общества», Москва, 1996, 263 с.*

*9. Зеркало, 15 мая 2010 года*

*10. Международная жизнь, 1983, №1*

*11. Сборник действующих договоров, соглашений и конвенций, заключенных СССР с иностранными государствами, вып. XXVII, Москва, 1974 год*

*12. Kənd həyatı, 1968, № 8*

*13. Shaffer B. «Borders and Brethren: Iran and the challenge of Azerbaijani identity», Belfer Center for Science \international Affairs John F. Kennedy School of Government Harvard University Cambridge, Massachusetts, 2002, p. 255.*


**РЕЗЮМЕ**

**Роль Азербайджанской ССР в советско-иранских отношениях в 1970-1980 годах**


**Илаха Мамедова**

***Западно-Каспийский университет***

***Ilashka_90@mail.ru***



В 1970-1980-е годы участие Азербайджанской ССР в советско-иранских отношениях, в основном, охватывало гуманитарную сферу. Оно проводилось в рамках деятельности общества дружбы и культурных связей с зарубежными странами, находило выражение в обмене опытом научных и культурных достижений, организации мероприятий, в которых участвовали мастера культуры, искусства, выдающиеся ученые. Имело место также участие азербайджанских специалистов в реализации между двумя странами крупных экономических проектов. При этом в силу существующих запретов участие Азербайджана в советско-иранских отношениях не переходили в плоскость тесных контактов между простыми гражданами-азербайджанцами двух стран. Новый теократический режим Ирана, как и прежний шахский, не был заинтересован в этом, понимая какие политические катаклизмы могут ожидать страну в случае нового национального пробуждения в Южном Азербайджане, как не раз это было в недавнем прошлом. В целом, в этом не было заинтересовано и советское руководство, которое рассматривала своего южного соседа удобным плацдармом для распространения различных антисоветских происков запада. После Исламской революции 1979 года положение азербайджанцев Ирана не претерпела никаких изменений по сравнению с прежним шахским режимом. По-прежнему азербайджанцы не обладали правом автономии на своих исторических территориях. Им не разрешали открывать школы и издавать газеты на родном языке, против наиболее активных правозащитников и представителей интеллигенции власти проводили репрессии. В Азербайджанской ССР информация о событиях в Южном Азербайджане была строго дозированной и крайне скудной, поскольку советские спецслужбы держали под жестким контролем информационное пространство. В основном такая информация могла просочиться от тех, близкие родственники которых пострадали от шахского и теократического режима, сумели покинуть страну, перебравшись в Советский Азербайджан. В Азербайджане чувство сопричастности с борьбой своих соотечественников по ту сторону Аракса находило выражение на страницах литературных и исторических произведений, в ходе редких поездок деятелей азербайджанской культуры в Иран.



**Ключевые слова:** *Азербайджанская ССР, Иран, СССР, отношения, политика.*

## XÜLASƏ

### 1970-1980-ci illərin əvvəllərində Sovet-İran münasibətlərində Azərbaycanın yeri və rolu

1970-1980-ci illərdə Azərbaycan SSRİ-in Sovet-İran münasibətlərində iştirakı əsasən humanitar sahəni əhatə edirdi. Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin fəaliyyəti çərçivəsində həyata keçirilmiş, elmi və mədəni nailiyyətlərdə təcrübə mübadiləsində, mədəniyyət, sənət ustalarının və görkəmli alimlərin iştirak etdiyi tədbirlərin təşkilində öz ifadəsini tapmışdır. İki ölkə arasında böyük iqtisadi layihələrin həyata keçirilməsində azərbaycanlı mütəxəssislərin iştirakı da olmuşdur. Eyni zamanda, mövcud qadağalar üzündən Azərbaycanın Sovet-İran münasibətlərindəki iştirakı iki ölkənin adi Azərbaycan vətəndaşları arasında sıx təmaslar müstəvisinə keçmədi. İranın yeni teokratik rejimi, əvvəlki Şah rejimi kimi, Cənubi Azərbaycanda yeni bir milli oyanış olması halında ölkənin hansı siyasi kataklizmləri gözləyə biləcəyini anlayaraq bununla maraqlanmadı, çünki bu, yaxın keçmişdə bir dəfədən çox olmuşdu. Ümumiyyətlə, cənub qonşusunu Qərbin müxtəlif antisovet məkrlərinin yayılması üçün əlverişli tramplin sayan Sovet rəhbərliyi də bununla maraqlanmadı. 1979-cu il İslam İnqilabından sonra İran azərbaycanlılarının mövqeyi əvvəlki Şah rejimi ilə müqayisədə heç bir dəyişiklik yaşamadı. Əvvəlki kimi, azərbaycanlılar tarixi ərazilərində muxtariyyət hüququndan istifadə etmirdilər. Məktəb açmağa və ana dilində qəzet buraxmağa icazə verilmədi; səlahiyyətlilər ən fəal insan haqları müdafiəçilərinə və ziyalı nümayəndələrinə qarşı repressiyalar həyata keçirdi. Sovet SSR xüsusi xidmət orqanları məlumat məkanını ciddi nəzarət altında saxladığı üçün Azərbaycan SSR-də Cənubi Azərbaycanda baş verən hadisələr barədə məlumatlar olduqca az idi. Əsasən bu cür məlumatlar yaxın qohumları şah və teokratik rejimdən əziyyət çəkən, Sovet Azərbaycanına köçərək ölkəni tərk etməyi bacaranlardan əldə edilə bilər. Azərbaycanda, Arazın o tayındakı soydaşlarının mübarizəsinə qarışmaq hissi ədəbi və tarixi əsərlərin səhifələrində, Azərbaycan mədəniyyət xadimlərinin İrana nadir səfərləri zamanı ifadə edilirdi.


**Açar sözlər:** *Azərbaycan SSR, İran, SSRİ, əlaqələr, siyasət.*


## SUMMARY

### Place and role of Azerbaijan in Soviet-Iranian relations in the 1970s and early 1980s

In the 1970s-1980s, the participation of the Azerbaijan SSR in Soviet-Iranian relations mainly covered the humanitarian sphere. It was carried out within the framework of the activities of the society for friendship and cultural ties with foreign countries, found expression in the exchange of experience in scientific and cultural achievements, the organization of events in which masters of culture, art, outstanding scientists participated. There was also the participation of Azerbaijani specialists in the implementation of large economic projects between the two countries. At the same time, due to the existing prohibitions, Azerbaijan's participation in Soviet-Iranian relations did not pass into the plane of close contacts between ordinary Azerbaijani citizens of the two countries.

The new theocratic regime of Iran, like the previous Shah's, was not interested in this, understanding what political cataclysms the country could expect in the event of a new national awakening in South Azerbaijan, as it happened more than once in the recent past. In general, the Soviet leadership was not interested in this either, which considered its southern neighbor a convenient springboard for the spread of various anti-Soviet intrigues of the West. After the Islamic Revolution of 1979, the position of the Azerbaijanis of Iran did not undergo any changes in comparison with the previous Shah's regime. As before, the Azerbaijanis did not enjoy the right of autonomy in their historical territories. They were not allowed to open schools and publish newspapers in their native language; the authorities carried out repressions against the most active human rights defenders and representatives of the intelligentsia. In the Azerbaijan SSR, information about the events in South Azerbaijan was strictly metered and extremely scarce, since the Soviet special services kept the information space under tight control. Basically, such information could leak from those whose close relatives suffered from the shah's and theocratic regimes, managed to leave the country, moving to Soviet Azerbaijan. In Azerbaijan, the feeling of involvement with the struggle of their compatriots on the other side of the Araks found expression in the pages of literary and historical works, during the rare trips of Azerbaijani cultural figures to Iran.


**Keywords:** *Azerbaijan SSR, Iran, USSR, relations, politics.*

UOT: 324; 342.8
DOI:10.30546/3006-0346.2024.1.79.25

# SEÇKİ PROSESİ VƏ ONUN CƏMİYYƏTİN SİYASİ HƏYATINDA ROLU

**TACİRƏ ABDULLAYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: tacire.mehreliyeva@mail.ru*

Demokratiyanın əsas prinsipi seçkilərdir. Seçkilər vasitəsilə müxtəlif ictimai hakimiyyət orqanları - parlamentlər, dövlət başçıları, bəzən hökumətlər, məhkəmə orqanları, yerli özünüidarəetmə orqanları formalaşır. Seçkilər ictimai birlik orqanlarının, siyasi partiyaların formalaşmasında geniş istifadə olunur. Seçkilər siyasi elitanı seçir və formalaşdırır, ümumdünya və yerli miqyasda liderlər, siyasi xadimlər yetişdirir. Seçkilərin sistemli keçirilməsi əhalinin siyasi və hüquqi mədəniyyətini artırır. Seçicilərin seçkilərdə iştirakı onlara bu və ya digər partiyaların və seçilmiş vəzifəli şəxslərin şüarlarını və praktiki fəaliyyətlərini düzgün qiymətləndirməyi, vədləri və həqiqətləri müqayisə etməyi öyrədir.

Seçkilər müasir demokratik cəmiyyətlərdə siyasi prosesin tərkib hissəsidir. Onlar böyük siyasətə qədəm qoyan şəxsə parlament üzvü, qubernator, hətta ölkə prezidenti olmaq imkanı verirlər. Eyni zamanda, seçkilər zamanı sadə vətəndaşlar fəal siyasi həyata cəlb olunur, onlar öz əhəmiyyətini, ali dövlət orqanlarının şəxsi tərkibinə təsir imkanlarını hiss etməyə başlayırlar. Məqalənin aktuallığı ondan ibarətdir ki, məhz seçkilər vasitəsilə vətəndaşlar dövlət orqanlarının formalaşmasına təsir göstərir və bununla da dövlət işlərinin idarə edilməsində iştirak etmək hüquqlarından istifadə edirlər.

**Seçki anlayışı və sosial funksiyaları.** Seçkilər demokratiyanın ən vacib atributudur. 1948-ci il İnsan Hüquqları Ümumdünya Bəyannaməsində qeyd olunduğu kimi, seçkilər dövlət hakimiyyətinin əsası olaraq vətəndaşların seçki kampaniyasında iştirak etməklə seçki hüquqlarının həyata keçirilməsi nəticəsində xalqın iradəsini ifadə etmək formasıdır. Xalqın suverenliyi, hakimiyyət mənbəyi kimi rolu məhz seçkilər vasitəsilə özünü göstərir. Seçki institutundan təkcə dövlət, yerli özünüidarəetmə orqanlarının yox, həm də siyasi partiyaların rəhbər orqanlarının, ictimai birliklərin formalaşmasında fəal istifadə olunur. Seçkilərə demokratik xarakterli prosedur kimi müasir dövlətlərin, demək olar ki, bütün ictimai qurumları müraciət edir.

Müasir seçkilərin mənşəyi Qədim Yunanıstan və Qədim Romadadır. Burada azad vətəndaşlar dövlətin siyasi həyatında iştirak etməli idilər. Bu səbəbdən onların xalq məclislərində oturması zəruri idi. Məclisdə səs verməklə ifadə olunan xalqın iradəsi qanun qüvvəsini əldə edirdi. Qədim Yunanıstanda adətən açıq səsvermə, gizli səsvermədə isə püşkatma üsulundan istifadə olunurdu. «Bülleten» qismində paxla çıxış edirdi: ağ paxla - «lehinə», qara paxla isə «əleyhinə» mənasını verirdi [1, s.82].

Afinada başqa bir gizli səsvermə növü - «kəllələr məhkəməsi» mövcud idi. Bu halda, ictimai xadimin məşhurluğu demokratiyanın təməlinə təhlükə olurdusa, onu şəhərin hüdudlarından kənara çıxarmaq hüququ cəmiyyətə verilirdi.

«Seçki» termini ilə hər bir mandata iki və ya daha çox namizədin iddia edə bilməsi şərti ilə səsvermə yolu ilə həyata keçirilən dövlət orqanının formalaşdırılması və ya vəzifəli şəxsin səlahiyyətlərinin verilməsi proseduru göstərilir. Demokratik dövlətlərdə dövlət hakimiyyəti orqanlarının seçilməsi və müvafiq prosedur qanunvericiliklə (sabit dövri ilə) möhkəmləndirilir. Bu proseduru seçkilərin təşkili və keçirilməsi, səsvermənin yekunlaşdırılması qaydalarını müəyyən edən hüquqi normaların məcmusunu təmsil edən seçki hüququ və çoxşaxəli seçki prosesinin digər tərəfləri tənzimləyir [8, s.112].

Böyük Fransa İnqilabı yeni dövrdə demokratiyanın inkişafında çox böyük rol oynamışdır. Məhz bu dövrdə «aktiv seçki hüququ», «passiv seçki hüququ», «seçici siyahıları», «insan və vətəndaş hüquqları» kimi anlayışlar meydana gəlmişlər.

Seçkilərlə bağlı əsas məqam və seçkilərin daha da reallığını və qanuniliyini təmin etməyin vacib amili olan seşki sisteminin formalaşması və mövcud olan müasir tələblərə cavab verilməsidir. Cəmiyyətin hər bir yeni inkişaf mərhələsi siyasi hakimiyyətin formalaşmasına, təyinetmə prosedurlarına və ümumiyyətlə seşki sisteminin mahiyyətinə və təyinatına böyük təsir göstərir.

Seçkilərin müasir cəmiyyətin həyatına təsiri müxtəlifdir və onların ən vacib funksiyalarında özünü göstərir. Seçkilərin aşağıdakı funksiyaları seçilir:

İctimai hakimiyyət orqanlarının - parlamentin, dövlət başçısının, hökumətin (bəzi hallarda), məh-

kəmə orqanlarının, yerli özünüidarəetmə orqanlarının formalaşmasında;

Müxtəlif sosial qrupların və əhali təbəqələrinin, elektoratın maraqlarını ifadə etmək və təmsil etməkdə;

Vətəndaşların siyasi prosesə onun subyekti kimi daxil edilməsi, əksər vətəndaşlar üçün siyasətdə real iştirakın yeganə formasında;

Hakimiyyətin legitimasiyası, onun qanuniliyini və idarə etmək hüququnu tanıması, eləcə də tabe olmağında vətəndaşların razılıq verməsində;

Siyasi elitanın formalaşması, yəni cəmiyyətin ən yaxşı nümayəndələrinin hakimiyyətə gətirilməsi [6,s.301-302].

**Hakimiyyət institutlarına nəzarət və siyasi kursun məzmununa təsir.** Yuxarıda adıçəkilən seçkilər yalnız özləri demokratik şəkildə təşkil olunduqda yerinə yetirilir. Seçkilər əvvəlcə demokratiyaya xidmət etmək məqsədi daşıyır, onun ümumi konsepsiyası və dəyərləri ilə bağlıdır. Onların əsas sosial təyinatı vətəndaşların fikirlərini və iradəsini adekvat şəkildə əks etdirməklə, əsas ictimai qrupların hakimiyyət orqanlarında nümayəndəliyini təmin etməklə yanaşı, səmərəli hökumət formalaşdırmaqdır.

Seçkilər müəyyən dövri ilə baş verməklə, seçki orqanlarının səlahiyyət müddəti ilə müəyyən edilir. Seçicilərə seçki orqanlarının tərkibini müntəzəm olaraq yeniləməyə imkan verir, seçilmiş şəxslərin etimadını təsdiqləyir və ya imtina edir. Bu, seçici şəxsləri və siyasi birlikləri seçicilərin maraqları və əhvali-ruhiyyələri ilə saymağa, onlarla daimi əlaqə saxlamağa, seçilmiş siyasi kursun düzgün olduğuna inandırmağa sövq edir.

Seçilən orqanın səlahiyyət müddətinin uzunluğu mühüm əhəmiyyət kəsb edir. Lakin optimal müddətin müəyyənləşdirilməsi sadə deyil. Milli və tarixi ənənələr də daxil olmaqla bir çox amil və halları nəzərə almaq lazımdır. Dünya praktikası göstərir ki, parlamentlərin səlahiyyət müddəti adətən 4-5 il, prezidentlərin səlahiyyət müddəti isə 4-7 il təşkil edir.

**Seçki növləri.** Seçkilərin müxtəlif təsnifatları mövcuddur:

*Birbaşa və dolayı seçkilər*. Birincisi, seçki məsələsini vətəndaşların həll etməsi ilə xarakterizə olunur. Birbaşa seçkilərdə parlamentlərin aşağı və ya yeganə palataları (yalnız bəzən, həm də yuxarı), prezident və qarışıq respublikalarda prezidentlər (nadir istisna olmaqla) və digər vəzifəli şəxslər seçilir. Dolayı seçkilərdə seçki məsələsini vətəndaşlar yox, seçdikləri seçici şəxslər, deputatlar həll edir. Dolayı seçkilərdə parlamentlərin yuxarı palataları, bəzən prezidentlər (məsələn, ABŞ-da), hökumətlər, hakimlər və s. seçilir.

*Ümumi və qismən seçkilər*. Ümumi seçkilərin keçirildiyi zaman ölkənin bütün seçicilərinin iştirak etməsi nəzərdə tutulur. Ayrı-ayrı deputatların vaxtından əvvəl çıxması səbəbindən parlamentin palatasının tərkibini doldurmaq lazım olduqda qismən seçkilər keçirilir.

*Növbəti və növbədənkənar seçkilər*. Adətən belə bölmə parlament seçkilərinə aiddir. Növbəti seçkilər konstitusiyada və ya qanunda göstərilən müddətdə keçirilir və ya parlamentin səlahiyyət müddətinin bitməsi ilə əlaqədar təyin olunur. Növbədənkənar seçkilər parlamentin və ya palatanın vaxtından əvvəl dağılması halında təyin olunur [4, s.23-24].

Dövlətin forması və digər amillər nəzərə alınmaqla seçkilər müxtəlif növ ola bilər:

1) formalaşan orqanların növünə görə: dövlət başçısı, parlament, yerli özünüidarəetmə orqanlarına və s. seçkilər ola bilər;

2) seçkilərin keçirilməsi formasına görə: birbaşa, dolayı (əhalinin hakimiyyət orqanlarına seçkiləri həyata keçirməyə səlahiyyətli nümayəndələri vasitəsilə) və s.

Seçkilərin miqyası və müddətindən asılı olaraq:

1) ümumi (dövlətin bütün ərazisində), regional və yerli (bələdiyyədə);

2) tam (seçki orqanı tam tərkibdə seçilir) və qismən (çıxanların əvəzinə seçki orqanının deputatlarının bir hissəsi seçilir);

3) növbəti (qanunla müəyyən edilmiş müddətdə keçirilir), təkrar (növbəti seçkilərdən sonra keçirilir) və növbədənkənar (seçki orqanının və ya vəzifəli şəxsin səlahiyyətləri vaxtından əvvəl dayandırıldıqda) ola bilər.

Seçki hüququnun prinsiplərindən asılı olaraq seçkilər:

Ən önəmlisi də odur ki, icra hakimiyyəti adətən seçkilər vasitəsilə seçildiyi üçün birbaşa olaraq seçicilərə hesabat verir. İcra hakimiyyətinin rəhbərləri xalq tərəfindən seçilir və bu hesabatlılıq hökumətin vətəndaşların iradəsinə cavab verməsini təmin edir. Yəni ümumiləşdirsək, hakimiyyət bölgüsündə icra hakimiyyətinin əhəmiyyəti onun siyasəti həyata keçirmək, asayişi qorumaq, həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə xalqın mənafeyini qorumaq bacarığında özünü göstərir. Bununla belə, icra hakimiyyətinin digər qolların qoyduğu çərçivədə fəaliyyət göstərməsi də eyni dərəcədə vacibdir, çünki bu tarazlıq fərdi hüquqların qorunmasını, qanunun aliliyini, tiranlığın qarşısının alınmasını təmin edir. Demokratiya və hakimiyyət bölgüsü prinsiplərini qorumaq üçün icra hakimiyyətinin səlahiyyətləri qanunvericilik və məhkəmə orqanları tərəfindən yoxlanılır və balanslaşdırılır [7, s. 193].

Prezidentlik institutu bir çox demokratik sistemlərdə icra hakimiyyətinin həyati və mərkəzi komponentidir. Onun hakimiyyətin icra mexanizmi kimi əhəmiyyəti bir neçə əsas amillə əlaqələndirilə bilər. Məsələn, prezidentlik icra hakimiyyətinin rəhbərliyi üçün vahid mərkəz təmin edir. Bu, qərar qəbuletmə prosesini asanlaşdırır və problemlərə və böhranlara sürətli və ardıcıl cavabların verilməsini təmin edir. Parlament sistemlərində göründüyü kimi, icra hakimiyyətinin vahid hökuməti idarəçilikdə kollegial icra orqanından daha səmərəli olur. Xüsusilə də prezident sistemlərində prezident adətən xalq tərəfindən seçilir. Bu, birbaşa prezidenti seçicilər qarşısında məsuliyyətli edir. Seçicilər prezidentin fəaliyyətini qiymətləndirə və prezidentin hərəkətləri və siyasi xətti əsasında yenidən seçilməsi barədə qərar qəbul edə bilərlər.

Prezidentlik institutu idarəçiliyə sabitlik və davamlılıq təklif edir. İcra hakimiyyətində dəyişikliklərin daha tez-tez baş verə biləcəyi (məsələn, etimadsızlıq səsverməsi səbəbindən) parlament sis-

temlərindən fərqli olaraq, prezidentlik müddətləri müəyyən edilir və müəyyən müddət ərzində proqnozlaşdırıla bilən rəhbərlik strukturunun işləməsini təmin edir. Bu sabitlik uzunmüddətli planlaşdırma və siyasətin həyata keçirilməsi üçün vacib ola bilər. Bir çox ölkələrdə prezident silahlı qüvvələrin baş komandanı kimi fəaliyyət göstərir. Bu səlahiyyət milli müdafiə və təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edir və münaqişə və ya böhran zamanı vahid komanda strukturuna imkan verir. Bununla yanaşı, prezident çox vaxt xalqın beynəlxalq səhnədə təmsil olunmasında mühüm rol oynayır. O, diplomatik əlaqələr qurur, müqavilələr bağlayır və beynəlxalq təşkilatlarda iştirak edir. Onların qərarları və hərəkətləri ölkənin xarici siyasətinə və qlobal mövqeyinə dərin təsir göstərir [8, s. 349].

**Prezidentlik və parlament sistemlərinin müqayisəsi**

Prezidentlik sistemlərində prezident qanunverici orqandan ayrı seçilir. İcra hakimiyyəti çox vaxt müəyyən müddətə təyin olunur və bu, qanunverici orqandakı dəyişikliklərdən asılı olmayaraq sabit hökumət rəhbərliyinə gətirib çıxarır. Bu sabitlik siyasətin davamlılığı baxımından üstünlük ola bilər. Parlament sistemlərində isə hökumət qanunverici orqanda çoxluq təşkil edən partiya və ya koalisiya əsasında formalaşır. Hökumətin səlahiyyət müddəti parlamentin dəstəyini saxlamaq qabiliyyətindən asılıdır. Bu, hökumət rəhbərliyində daha tez-tez dəyişikliklərə, həm də siyasi dəyişikliklərə uyğunlaşmaq üçün daha çox çevikliyə səbəb olur [9, s. 176].

Prezidentlik sistemləri bir qolun digərlərinə hakim olmasının qarşısını almağa yönəlmiş səlahiyyətlərin aydın şəkildə bölünməsini vurğulayır. Bu ayrılıq yoxlamaları və tarazlığı gücləndirə bilsə də, bu, siyasətin bloklanmasına və ya konsensusa nail olmaqda çətinliklərə səbəb ola bilər. Parlament sistemlərində icra və qanunvericilik qolları arasında sıx əlaqə sürətli qərarların qəbul edilməsini və siyasətin həyata keçirilməsini asanlaşdırır. Bununla belə, səlahiyyətlərin bu cür birləşməsi nəzarət və tarazlığı azalda və hökumətin müstəqil fəaliyyət imkanlarını məhdudlaşdıra bilər.

Prezidentlik sistemləri daha çox sabitlik təklif edir, çünki icra hakimiyyətinin səlahiyyət müddəti müəyyən edilir. Lakin bu sabitlik bəzən sərtliyə gətirib çıxara bilər ki, bu da hökumətin dəyişən şəraitə uyğunlaşmasını çətinləşdirir. Parlament sistemləri çox vaxt dəyişən siyasi dinamikaya daha çox cavab verir. Hökumət yeni çağırışlara sürətlə uyğunlaşa bilər, lakin bu çeviklik hökumət rəhbərliyində daha tez-tez dəyişikliklərə və potensial qeyri-sabitliyə səbəb ola bilər [10, s. 365].

Yəni qısa şəkildə ümumiləşdirsək, prezidentlik və parlamentarizm demokratik idarəetmənin fərqli modelləridir və hər biri özünəməxsus güclü və zəif tərəfləri ilə fərqlənir. Bu modellər arasında seçimin demokratik cəmiyyətdə hökumətlərin necə formalaşması, siyasi xəttin necə inkişaf etdirilməsi və hakimiyyətin necə bölüşdürülməsi ilə bağlı geniş təsirləri var. Hansı modelin üstün olduğuna dair birmənalı cavab olmasa da, onların fərqlərini başa düşmək və qiymətləndirmək siyasətçilər və vətəndaşlar üçün demokratik idarəçiliyin mürəkkəb mənzərəsini öyrənmək baxımından çox vacibdir. Nəhayət, prezidentlik və parlamentarizm arasında seçim müəyyən bir xalqın spesifik ehtiyacları, xüsusiyyətləri və onun demokratik istəkləri əsasında aparılmalıdır.

Bununla yanaşı, seçkilər də bu iki sistemə olduqca böyük təsir edir. Prezidentlik sistemində prezident seçkiləri və parlament sistemində prezident seçkiləri arasında fərqlər, eləcə də bu seçkilər nəticəsində prezidentin kim qarşısında hesabat verməli olması kimi məsələlər prezidentlik institutunun əhəmiyyətini daha da qabarıq göstərir. Prezident seçkiləri demokratik sistemlərdə xalqın liderini və inkişaf istiqamətini formalaşdıran mühüm hadisələrdir. Bununla belə, bu seçkilər mövcud hökumət sisteminin növündən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənə bilər. ABŞ-da olduğu kimi, prezidentlik sistemi prezident seçkilərində fərqli xüsusiyyətlərə malikdir. Prezidentlik sistemində prezident qanunverici orqandan ayrı seçilir. Bu, o deməkdir ki, seçicilər həm prezidentə, həm də onların qanunvericilik orqanındakı nümayəndələrinə səs verirlər. Prezident adətən müəyyən müddətə, çox vaxt dörd il ərzində xidmət edir. Bu müddətin sabit olması icra rəhbərliyində də sabitlik və davamlılığı təmin edir. Prezidentlik sistemində prezident birbaşa olaraq seçicilərə cavabdehdir. Bu sistemlərdə seçki kampaniyaları adətən prezidentliyə namizədin ixtisası, xarakteri və keyfiyyətləri, eləcə də siyasi mövqeyi ətrafında cəmləşir. Prezident təbliğat-təşviqat kampaniyasının mesajlarının, yəni təbliğatın formalaşmasında əhəmiyyətli fərdi təsirə malikdir [11, s. 132].

**Nəticə**

Beləliklə, prezidentlik institutunu hakimiyyətin icra mexanizmi kimi təhlil edərək, müəyyən ümumiləşdirmələr irəli sürmək mümkündür. Belə ki, hakimiyyət bölgüsü konsepsiyası qədim və klassik sivilizasiyalara gedib çıxan zəngin tarixi mənşəyə malikdir. Bu sistemlər müasir demokratiyalardan fərqli olsa da, ilkin liderlik rolları erkən prezident sistemlərini xatırladan xüsusiyyətlər nümayiş etdirirdi. Tədricən Venesiya Respublikası kimi erkən müasir respublikaların siyasi təkamülü, Amerika inqilabının ABŞ Konstitusiyasına transformativ təsiri və 19-cu və 20-ci əsrlərdə prezidentlik sistemlərinin yayılması nəticəsində prezidentlik tədricən müasir demokratik idarəetmə sisteminin mərkəzi komponentinə çevrildi. Hakimiyyətlərin bölünməsi rəhbər prinsip olaraq, səlahiyyətləri hər biri öz səlahiyyətləri daxilində digərlərini yoxlamaq üçün təchiz edilmiş ayrı-ayrı qollar arasında bölüşdürməklə avtoritarizmin qarşısını almağa xidmət edir və nəticədə hökumət strukturları daxilində nəzarətsiz hakimiyyətin konsolidasiyasına qarşı qoruyur. Bu davamlı konsepsiya daim dəyişən siyasi mənzərədə davamlılığını və uyğunlaşma qabiliyyətini nümayiş etdirərək bütün dünyada demokratik sistemləri dəstəkləməyə davam edir. Hakimiyyət bölgüsündə icra hakimiyyətinin əhəmiyyəti onun siyasəti həyata keçirmək, nizam-intizamı qorumaq və həm daxili, həm də beynəlxalq seçicilərin maraqlarını qorumaq qabiliyyətindən ibarətdir.

Nəhayət, prezidentlik və parlamentarizm arasında seçim müəyyən əhalinin özünəməxsus tələblərinə, xüsusiyyətlərinə və demokratik istəklərinə uyğun olmalıdır. Bununla yanaşı, prezidentlik göstəricilərinin qiymətləndirilməsi prezident sistemləri daxilində müxtəlif aspektlərin araşdırılmasını əhatə edən mürəkkəb bir işdir.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Campbell, T. Separation of Powers in Practice. Stanford: Stanford Law and Politics, 2004. 249 pages.*

*2. Cheever, D.S. American Foreign Policy and the Separation of Powers. New York: Forgotten Books, 2018. 256 pages.*

*3. Dusinberre, E.R.M. Empire, Authority, and Autonomy in Achaemenid Anatolia. Cambridge: Cambridge University Press, 2013. 402 pages.*

*4. Hazlitt, W.C. A History of the Venetian Republic. Perlego: Jovian Press, 2017. 366 pages.*

*5. Kayapınar, R. İ.Ö. I.yüzyılın 2. yarısında Roma siyasi yaşamında propaganda. Ankara: Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2013. 251 sayfa.*

*6. Miller, R.A. US National Security, Intelligence and Democracy: Congressional Oversight and the War on Terror. London: Routledge, 2008. 265 pages.*

*7. Moellers, C. The Three Branches: A Comparative Model of Separation of Powers. Oxford: Oxford University Press, 2013. 280 pages.*

*8. Rees, J.; Spignesi, S. George Washington's leadership lessons: what the father of our country can teach us about effective leadership and character. Hoboken: John Wiley & Sons, 2007. 251 pages.*

*9. Richard, B. The Rule of Law and the Separation of Powers. London: Routledge, 2016. 596 pages.*

*10. Sevinç, H. Antik Yunan'da Siyasal Yapı ve Aristo ile Platon Özelinde Siyasal Düşünüş. Ekonomi İşletme Siyaset ve Uluslararası İlişkiler Dergisi, 2021, 7(2), 209-223.*

*11. Vile, V.J.C. Constitutionalism and the Separation of Powers. Carmel: Liberty Fund Inc., 2010. 468 pages.*


**XÜLASƏ**


Tədqiqatda qeyd edilir ki, prezidentlik institutunun icra hakimiyyətinin mexanizmi kimi nəzərdən keçirilməsi müəyyən ümumiləşdirmələrə imkan verir. Hakimiyyətlər bölgüsü konsepsiyası qədim sivilizasiyalara qədər uzanan dərin tarixi köklərə malikdir. Bu ilkin sistemlər müasir demokratiyalardan fərqlənsə də, ilkin liderlik rolları yeni yaranmış prezident sistemlərini xatırladan xüsusiyyətlər nümayiş etdirirdi. Vaxt keçdikcə Venesiya Respublikası kimi erkən müasir respublikaların siyasi təkamülü, Amerika inqilabının ABŞ Konstitusiyasına transformativ təsiri və 19-cu və 20-ci əsrlərdə prezident sistemlərinin yayılmasının təsiri ilə prezidentlik müasir demokratik respublikanın ayrılmaz hissəsinə çevrilmişdir. Avtoritarizmin qarşısının alınmasına əsaslanan hakimiyyət bölgüsü prinsipi hakimiyyətin hər biri öz səltənətində başqalarını yoxlamaq üçün vasitələrə malik olan ayrı-ayrı qollar arasında bölüşdürür. Bu tənzimləmə hökumət strukturları daxilində nəzarətsiz güc birləşməsindən qoruyur. Bu davamlı konsepsiya qlobal miqyasda demokratik sistemləri dəstəkləməkdə davam edir və daim inkişaf edən siyasi mənzərədə dayanıqlığını və uyğunlaşma qabiliyyətini nümayiş etdirir. Tədqiqatda həmçinin vurğulanır ki, prezidentlik və parlamentarizm arasında

seçim müəyyən əhalinin özünəməxsus tələblərinə, xüsusiyyətlərinə və demokratik istəklərinə uyğun olmalıdır.

**Açar sözlər:** *Prezidentlik, parlament, institut, mexanizm, icra hakimiyyəti, funksiya.*

**Исполнительная функция власти: как институциональный механизм президентства**

**Мамедов Турал Халид оглы**
***Бакинский Государственный Университет***
***докторант***
***tural.mammadov-4@bsu.edu.az***

**РЕЗЮМЕ**

В исследовании отмечается, что рассмотрение института президента как механизма исполнительной власти допускает определенные обобщения. Концепция разделения властей имеет глубокие исторические корни, уходящие корнями в древние цивилизации. Хотя эти ранние системы отличались от современных демократий, ранние руководящие роли демонстрировали характеристики, напоминающие зарождающиеся президентские системы. Со временем, с политической эволюцией ранних современных республик, таких как Венецианская республика, преобразующим воздействием Американской революции на Конституцию США и распространением президентских систем в 19 и 20 веках, президентство стало неотъемлемой частью современной демократической республики. Принцип разделения властей, основанный на предотвращении авторитаризма, распределяет власть между отдельными ветвями власти, каждая из которых имеет возможность сдерживать других в пределах своей сферы. Такая договоренность защищает от неконтролируемой консолидации власти внутри государственных структур. Эта устойчивая концепция продолжает лежать в основе демократических систем во всем мире и демонстрирует устойчивость и адаптируемость в постоянно меняющемся политическом ландшафте. В исследовании также подчеркивается, что выбор между президентством и парламентаризмом должен осуществляться в соответствии с конкретными требованиями, особенностями и демократическими устремлениями определенного населения.

**Ключевые слова:** *Президентство, парламент, институт, механизм, исполнительная власть, функции.*

**THE EXECUTIVE FUNCTION OF GOVERNMENT: THE PRESIDENCY AS AN INSTITUTIONAL MECHANISM**

**Mammadov Tural Khalid oghlu**
***Baku State University***
***PhD student***
***tural.mammadov-4@bsu.edu.az***

**SUMMARY**

The study notes that the consideration of the presidential institution as a mechanism of executive power allows certain generalizations. The concept of separation of powers has deep historical roots dating back to ancient civilizations. Although these early systems differed from modern democracies, early leadership roles exhibited characteristics reminiscent of emerging presidential systems. Over time, with the political evolution of early modern republics such as the Republic of Venice, the transformative impact of the American Revolution on the US Constitution, and the spread of presidential systems in the 19th and 20th centuries, the presidency has become an integral part of the modern democratic republic. The principle of separation of powers, based on the prevention of authoritarianism, distributes power among separate branches, each of which has the means to check the others within its realm. This arrangement protects against uncontrolled consolidation of power within government structures. This enduring concept continues to underpin democratic systems globally and demonstrates resilience and adaptability in an ever-evolving political landscape. The study also emphasizes that the choice between presidentialism and parliamentarism should be in accordance with the specific requirements, characteristics and democratic aspirations of a certain population.

**Keywords:** *Presidency, parliament, institution, mechanism, executive power, function.*

UOT 327; 339.9
DOI:10.30546/3006-0346.2024.1.79.42

# QARABAĞ ZƏFƏRİ FONUNDA AZƏRBAYCANIN MÜASİR HƏRBİ ƏLAQƏLƏRİNİN TƏHLİLİ

**GÜNEL YUSİBOVA**
*Gəncə Dövlət Universiteti*
*Sosial fənlər kafedrasının dissertantı*

*E-mail: forget379@gmail.com*
*ORCID ID: 0009-0006-1316-0849*

## Giriş

Davamlı inkişaf və dayanıqlı inkişaf, inkişafın iki fərqli forması olmaqla yanaşı, bir-birini tamamlayan müəyyən cəhətləri də özlərində ehtiva edirlər. Davamlı inkişafın dayanıqlılıq göstəricilərinin yüksək olması nə qədər vacibsə, dayanıqlı inkişaf üçün də davamlılıq o dərəcədə əhəmiyyətlidir. Bu baxımdan iki anlayışın bir-biri ilə bəlkə simbiyoz səviyyədə olmasa da, müəyyən dərəcədə vəhdət təşkil edərək müştərək mövcud olması, tədqiq edilən sahədə inkişafın etibarlılığını daha da artıracaqdır.

Digər sahələrdə olduğu kimi hərbi sahədə də davamlı inkişaf ilə dayanıqlı inkişaf arasında müştərək mövcudluğun nə qədər əhəmiyyətli olduğu son illərdə dünyada dövlətlərin müdafiə və hücum güclərinin həm statistik cəhətdən, ən əsası isə müharibə reallığında daha aydın şəkildə özünü göstərməyə başladi. Bəri başdan onu demək yerində olar ki, dayanıqlı inkişaf göstəricilərindən yoxsul olan davamlı hərbi inkişafın özünü artıq doğrultmadığı bütün çılpaqlığı ilə ortaya çıxmışdır.

Bu hipotezanın həm nəzəri, həm də praktik cəhətdən interpretasiya ediləcəyi örnəklərdən biri şübhəsiz ki, Azərbaycan Respublikası və onun İkinci Qarabağ müharibəsində əldə etdiyi hərbi qələbədir. Bu zəfər sonrası aparılan təhlillərdə diqqətçəkən məqam, Azərbaycan Respublikasının hərbi potensialının komponentləri arasında dayanıqlı hərbi inkişafın, davamlı hərbi inkişafla eyni dərəcədə əhəmiyyət kəsb edən faktor kimi həmişə diqqət mərkəzində olmasıdır. Təsadüfi deyildir ki, İkinci Qarabağ müharibəsində ildırımsürətli hərbi əməliyyatların keçirilməsi və Rusiyanın güclü silah texnologiyaları ilə təchiz olunmuş Ermənistanın çoxlarının gözləmədiyi halda məğlub edilməsi, əslində Azərbaycanın davamlı hərbi inkişafı nəticəsində yox, dayanıqlı hərbi inkişafı nəticəsində mümkün olmuşdur. Bəlkə də Azərbaycan davamlı hərbi inkişaf nəticəsində mövcud hərbi gücü və imkanları ilə də Ermənistanı məğlub edə biləcək səviyyəyə yüksələ biləcəkdi, amma bu zəfər daha ağrılı və böyük itkilər hesabına mümkün olacaqdı. Ancaq dayanıqlı hərbi inkişaf nəticəsində Azərbaycan dünya dövlətlərinin və beynəlxalq ictimaiyyətin heyrət və heyranlıqla müşahidə etdiyi bir məharətlə həm müdafiə, həm də hücum baxımından qarşıya qoyduğu məqsədlərə sürətlə nail olmağın yeni hərbi yollarını nümayiş etdirdi, hətta örnək oldu.

Məqalədə tədqiqatın predmetini daha geniş şəkildə təhlil edək. Mövzumuz Azərbaycan Respublikasının dayanıqlı hərbi inkişafı olduğu üçün burada öncəliklə, ölkəmizin həm davamlı, həm də dayanıqlı hərbi inkişafının özünəməxsus cəhətlərinə yaxından nəzər yetirək. Bu məqsədlə, lazım gəldikdə digər dövlətlərlə, xüsusilə də Ermənistanla müqayisəli təhlil və analogiya metodlarından istifadə etməklə qarşılaşdırma aparılaraq müddəalar əsaslandırılmağa çalışılacaqdır.

## Müstəqillik dövründə Azərbaycanın davamlı hərbi inkişafının xarici əlaqələr aspekti

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdığı dövrdə Azərbaycan ordusu pərakəndə birliklər formasında hərəkət edirdi. İlk addım Prezidentin 1 noyabr 1993-cü il tarixli qərarı ilə Dövlət Müdafiə Komitəsinin yaradılması oldu. Noyabrın 23-də Milli Məclis “Müdafiə haqqında” Qanunu qəbul etdi və ordunun yaradılmasına məsul şəxslər müəyyən olundu. Dekabr ayında 17 min əsgərdən ibarət ordu yaradıldı. 1994-cü ilin mayında Azərbaycan, Rusiya, Qırğızıstan və Ermənistanın hakimiyyət orqanlarının iştirakı ilə Bişkek protokolu imzalandı və mayın 12-də cəbhədə atəşkəs əldə edildi.

Atəşkəsin təmin edilməsindən sonra ordu quruculuğu aşağıdakı doqquz prinsip ətrafında formalaşdırılmağa başlandı.

1) Ordunun siyasətə qarışmaması;
2) Ordunun silah-sursat ilə təchiz edilməsi;
3) Ordu ilə xalq arasında möhkəm etimadın yaradılması;
5) Nizam-intizamın təmin edilməsi;
6) Orduda könüllülər ilə çağırışçılar arasında birliyin möhkəmləndirilməsi;
7) Hərbçilərin vəzifələrinin düzgün bölgüsü və müharibəyə hazırlıq səviyyələrinin yüksəldilməsi;
8) Hərbçilərin bilik və bacarıqlarının yüksəldilməsi;
9) Ordu quruculuğunda davamlılığın təmin edilməsi.

Bütün bu qərarlardan sonra qısa müddətdə müəyyən uğurlar əldə edilmişdir. Belə ki, 1994-cü ilin dekabrında Azərbaycan hərbi qulluqçularının sayı 54 min nəfərə çatmış, Silahlı Qüvvələrin infrastrukturu əhəmiyyətli dərəcədə formalaşdırılmışdır.

1995-ci ilin fevral ayında Azərbaycan Respublikasının ən uzun müddət müdafiə naziri olacaq Səfər Əbiyev vəzifəsinin icrasına başlamışdır. Onun dövründə ordu quruculuğu iki istiqamətdə həyata keçirilmişdir. Birincisi, orduda islahatlar və təkmilləşdirmə prosesi, ikincisi isə ordunun müasir standartlara cavab verən silahlarla təchiz edilməsi üçün xarici dövlətlərlə əməkdaşlıq imkanlarının genişləndirilməsi və ordunun hərbi hazırlıq səviyyəsinin yüksəldilməsi üçün ortaq tətbiqatların keçirilməsi.

Xarici əməkdaşlıq təkcə xarici dövlətlərlə əməkdaşlıqla məhdudlaşmamış, həmçinin NATO ilə də əməkdaşlıq üçün yaranan imkanlardan ən yüksək səviyyədə istifadə edilmişdir. Məsələn, 1994-cü ildə bu təşkilatla Sülh Naminə Tərəfdaşlıq (SNT) müqaviləsi əsasında əməkdaşlıq prosesi başlamışdır ki, burada məqsəd Azərbaycanın ordusunu təşkilatın standartlarına çatdırmaq olmuşdur. Sonrakı illərdə NATO - Azərbaycan əməkdaşlığı genişlənərək davam etmişdir. Hətta ölkəmizn hərbi məktəblərində bu təşkilatın standartlarına uyğun dərs proqramları hazırlanmışdır. 2001-ci ildə NATO-nun sülhməramlı missiyalarında yer almaq üçün Azərbaycan Sülhməramlı Qüvvələri yaradılmışdır. 2002-ci ildən sonra Azərbaycan ordusunun 30 zabiti NATO ilə əməkdaşlıq çərçivəsində Belçika, ABŞ, Niderland Krallığı, İtaliya, İspaniya, Türkiyə və Almaniyada yerləşən Qərargahlarda yer almış, 2008-ci ildən etibarən isə Azərbaycanın hərbi təlim proqramlarının genişləndirilməsi üçün NATO ilə əməkdaşlığa start verilmişdir [1].

1996-cı ildən etibarən qardaş Türkiyə ilə hərbi əlaqələrin genişləndirilməsi istiqamətində önəmli addımlar atılmışdır. Belə ki, həmin ilin 10 iyununda iki dövlət arasında imzalanan “Hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq” sazişi daxilində 6 hərbçi Türkiyə Jandarma Qoşunları tabeçiliyində olan hərbi məktəbə göndərilmiş, 31 oktyabr tarixində isə Türkiyə Jandarma Qoşunları tərəfindən hərbi təlimlər üçün kurs təşkil edilmiş və ordumuza 7 milyon dollar həçmində yardım göstərilmişdir.

1998-ci ilin dekabrında təşkil edilən Milli Təhlükəsizlik Nazirliyi Akademiyası isə 2002-ci ildə yaradılan Dövlət Sərhəd Xidmətlərinin infrastrukturu üçün baza rolunu yerinə yetirmişdir.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev, orduya diqqət və qayğını daha da artırmış, ordu quruculuğunda yeni mərhələnin əsasını qoymuşdur. 2003-2011-ci illəri əhatə edən dövrdə Azərbaycan ordusu davamlı inkişafının ən sürətli dövrünü yaşamışdır. Belə ki, 2003-cü ildə dövlət büdcəsindən orduya ayrılan vəsait 160 milyon dollar olduğu halda, bu sahədə göstərici 2011-ci ildə 3 milyard 300 milyon səviyyəsinə yüksəlmişdir.

İlham Əliyevin ordu quruculuğunda həyata keçirdiyi ən əhəmiyyətli addımlardan biri 2005-ci ildə ordunun təchizat cəhətdən xaricdən asılılığını azaltmaq üçün Müdafiə Sənayesi Nazirliyini yaratması olmuşdur ki, bu nazirliyə bağlı müəssisələrdə ilk başda 40 adda hərbi ləvazimat təkrar olunmuşdur.

2005-ci ildə imzalanmış “Azərbaycan ilə NATO Arasında Fərdi Tərəfdaşlıq Fəaliyyət Planı”nın öhdəlikləri çərçivəsində, 2010-cu ildə “Azərbaycan Hərbi Doktrinası”, 2013-cü ildə isə “Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası” qəbul edilmişdir.

2007-ci ildə “Dəniz Sərhəd Xidməti Akademiyası”nın yaradılması, 2008-ci ildə bu akademiya nəzdində “Səhra təlim mərkəzi”nin fəaliyyətə başlaması və 2009-cu ildə “Sərhədçi” İdman Mərkəzinin yaradılması, bu sahədə peşəkar kadrların hazırlanmasını həyata keçirməklə yanaşı, sonrakı dövrlərdə xarici dövlətlərin hərbçilərinə də bu sahədə təlimlər keçəcək vəziyyətə gəlinmişdir [2, səh. 17-18].

### Xarici hərbi əlaqələrin keyfiyyətcə yeni mərhələyə daxil olması

Səfər Əbiyevdən sonra Azərbaycan Respublikasının müdafiə naziri olaraq vəzifəyə başlayan Zakir Həsənovun vaxtında da ordu quruculuğunda davam edən inkişaf sürəti daha da artmışdır. İki istiqamətdə aparılan inkişaf siyasətinin birinci istiqamətini hərbi təlimlərin sayının artırılması, ikincisi isə ordunun yaxınlaşan müharibə üçün ehtiyac duyacağı yeni silah və sursatlarla təchiz edilməsidir.

Bu məqsədlə, 2013-cü ilin dekabr ayında “Raket və Artilleriya Qoşunları Komandanlığı” yaradılmışdır. 2014-cü ildə Dəniz Sərhəd Xidməti nəzdində yaradılan zavod, hərbi gəmilərin modernizasiyasına xidmət etməyə başlamışdır [2, səh. 14]. 2013-2016-cı illərdə hərbi qüvvələrin və silah-sursatın daşınması üçün yeni hərbi avtomobillər alınaraq, ordunun texniki imkanları artırılmışdır.

Azərəbaycanın hərbi inkişafında diqqəti cəlb edən və sevindirici məqam ondan ibarətdir ki, artıq 2015-ci ildə Müdafiə Sənayesi Nazirliyinə tabe müəssisələrdə mindən çox hərbi ləvazimatlar istehsal olunurdu və bunların bir hissəsi ixrac edilirdi.

Ordunun inkişafı istiqamətində görülən işlər arasında xarici dövlətlər və beynəlxalq təşkilatlarla, qurumlarla əməkdaşlığın genişləndirilməsi və müştərək hərbi təlimlərin keçirilməsi, həmçinin hərbi kadrların hazırlanması istiqamətində yeni məktəblərin yaradılması yer alır. Bu istiqamətdə mühüm işlərdən biri 2015-ci ildə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin yaradılması oldu ki, burada dərslər Türkiyə Respublikasının Gülhanə Hərbi Tibb Akademiyasının tədris proqramlarına uyğun təşkil olunur.

25 dekabr 2015-ci il tarixində Müdafiə Nazirliyinin nəzdində xüsusi təlim verən istiqamətlərin fəaliyyətini gücləndirmək məqsədilə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi yaradılaraq, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə birləşdirildi. Müdafiə Nazirliyinin müəyyən etdiyi hərbi nümayəndələr Türkiyə, Rusiya, Litva, Pakistan və NATO rəsmiləri ilə hərbi təlim proqramları üçün təmaslarını artırdı.

Yuxarıda da qeyd olunduğu kimi, Azərbaycan Respublikası müharibəyə qədərki dövrdə, müharibəyə hazırlıq məqsədilə, xarici dövlətlərlə hərbi münasibətlərini gücləndirmişdir. Azərbaycan, düşmənindən fərqli olaraq hərbi əməkdaşlıqda bir və ya iki dövlətdən asılılığa yol verməmək üçün dünyanın 30-dan yuxarı dövlətində hərbi attaşe və hərbi nümayəndəlik açmışdır. Azərbaycanda isə 40-dan çox dövlətin belə diplomatik fəaliyyəti mövcuddur.

Azərbaycan dövləti inkişaf edən öz hərbi gücünü daha da təkmilləşdirmək və düşməni qorxuya salmaq üçün müntəzəm olaraq güc nümayiş etdirmiş, bu məqsədlə ikitərəfli (Azərbaycan-Türkiyə), üçtərəfli (Azərbaycan, Gürcüstan, Türkiyə) və çoxtərəfli (NATO nəzdində) hərbi təlimlərdə yaxından iştirak etmişdir [4].

Azərbaycanın hərbi cəhətdən davamlı inkişafı özündə dayanıqlı inkişaf elementlərini də birləşdirmişdir. Belə ki, dövlətimiz öz hərbi qüdrətini artırmaq və ordunun ehtiyac duyduğu hərbi ləvazimatların bir hissəsini qarşılamaq üçün öz hərbi müdafiə sənayesini qurdu. Bu məqsədlə də 2005-ci ildə Hərbi Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Hərbi Müdafiə Sənayesi Nazirliyi tabeçiliyində qırxdan yuxarı yeni məhsul istehsal etmək üçün istehsal sahələri yaradıldı və fəaliyyətə başladı.

Bu tarixdən etibarən isə Azərbaycan Müdafiə Sənayesində istehsal olunan silahlar və hərbi avadanlıqlar beynəlxalq fuarlarda nümayiş etdirilməyə başlandı. Həmin yarmarkalarda nümayiş etdirilən hərbi məhsullar xarici dövlətlər tərəfindən bəyənildi və bu məhsulların ixracatı üçün razılıq əldə edildi. Bir nümunə vermək lazım gəlsə, ixracatda Türkiyə və İordaniya ilk sırada yer alarkən, təkcə 2013-cü ildə Azərbaycan 123 milyon dollar dəyərində hərbi məhsul ixrac etmişdir [12, səh. 675-676]. Azərbaycan hər il təqribən 25 ölkə ilə silah müqaviləsi imzalayaraq ixracat həyata keçirir.

## Yeni nəsil müdafiə və hücum silahlarının tədarük edilməsi

Azərbaycanın hərbi xərclərində xüsusilə 2008-ci ildən etibarən yüksək və istiqrarlı artım müşahidə olunmuşdur. Ölkəmizin hərbi xərcləri 2010-cı ildə 1 milyard 420 milyon dollara yüksəlmişdir ki, bu göstərici 2004-cü illə müqayisədə üç dəfə çoxdur. Burada diqqəti daha çox cəlb edən məqam ondan ibarətdir ki, 2010-cu ildə Azərbaycanın hərbi sahəyə ayırdığı 1,420 milyard dollar, Ermənistanın həmin ilə aid dövlət büdcəsindən daha çoxdur. Ermənistanın hərbi büdcəsi ilə qeyd edilən tarixdə 404 milyon dollar olmuşdur ki, bu rəqəm 2004-cü ildəki hərbi büdcələrindən iki dəfə çoxdur. Beynəlxalq Münaqişə İnstitutunun 2012-ci ilə aid tərtib etdiyi hesabata görə, Azərbaycanın 2007-2011-ci illərdə silah idxalı, 2002-2006-cı illəri əhatə edən dövrlə müqayisədə 164 faiz artmış və Azərbaycan dünyada ən çox silah idxal edən 38-ci ölkə olmuşdur. Həmin hesabatda, Ermənistanın eyni dövrlərdə silah idxalının azaldığı və 71-ci sıradan 84-cü sıraya gerilədiyi qeyd edilmişdir. Rusiya Federasiyasının, Azərbaycanın silah idxalatındakı payı 55%, Ermənistanın silah idxalatındakı payı isə 96% təşkil etmişdir.

Tərəddüdsüz qeyd edə bilərik ki, Azərbaycanın dayanıqlı hərbi inkişafının əsas aparıcı faktorları arasında Türkiyə və İsrail ilə hərbi əməkdaşlığı yer alır.

2010-cu ildə iki dövlət arasında çox əhəmiyyətli bir müqavilə - Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım sazişi imzalandı. Həmin il "Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası" da təsis edilərək münasibətlərdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyuldu [13, səh. 99-100].

2014-cü ildə Azərbaycanın Türkiyədən idxal etdiyi silah və hərbi texnikanın ümumi məbləği 77 mil-

yon 195 min dollar səviyyəsində olmuşdur [3, səh. 31]. 2016-cı ildən başlayaraq, rəsmi Bakı ilə rəsmi Ankara arasında sürətlə inkişaf edən müdafiə sahəsində inteqrativ meyillər ilə birlikdə, Ermənistan ilə onsuz da pozulan hərbi güc balansı Azərbaycanın lehinə daha da pozulmuş, həmçinin Türkiyə ilə artan hərbi əməkdaşlıq, Azərbaycana çox əhəmiyyətli səmərələr vermişdir. Türkiyənin müdafiə sənayesinin ən sürətli inkişaf dövrünə təsadüf edən bu əməkdaşlıq sayəsində Azərbaycan ordusu həm müdafiə, həm də hücum gücünü yeni nəsil, özünün dayanıqlı inkişafını təmin edəcək silahlarla artırmış, Türkiyənin müdafiə sənayesinin strateji silah istehsalında baş verən inkişaf sayəsində hər keçən gün daha da artırmaqdadır.

Azərbaycanın dayanıqlı hərbi inkişafında İsrail dövləti ilə münasibətlər, xüsusilə hərbi əməkdaşlıq xüsusi rol oynamışdır. Belə ki, bu dövlətlə hərbi əməkdaşlıq ölkəmizin hərbi müdafiə və hücum gücünü rəqiblərinin xəyal belə edə bilməyəcəyi səviyyəyə yüksəltmişdir. İndi isə bu mövzuda faktlara daha yaxından nəzər yetirək.

2012-ci ildə İsrailin "Aerospace İndustries" şirkəti Azərbaycana 1,6 milyard dollar dəyərində pilotsuz təyyarələr, zenit müdafiə sistemləri və raketlər də daxil olmaqla, silah satışı həyata keçirmiştir. Belə ki, Azərbaycan həmin il silah xərclərinin təxminən 43%-ni İsraildən alınan silahlara ayıraraq region ölkələrinin diqqətini çəkmişdir [9].

2011-2020-ci illərdə Azərbaycan Ermənistanla müqayisədə silahlanma məsələsinə xeyli pay ayırmışdır. Bu müddət ərzində Azərbaycanın silah idxalının ümumilikdə 27%-ni İsrail təmin etmişdir. 2016-2020-ci illər arasında Azərbaycan silah idxalının 69%-ni İsraildən həyata keçirmişdir. İsrail 2015-ci ildə Azərbaycana qanadlı raketlər - hücum sistemi olan HAROP-lar verib və bu silahlar 2016 və 2020-ci illərdəki münaqişələrdə düşmənin hücumunu qısa müddətdə yox etmək üçün istifadə olunmuşdur. Bundan əlavə, İsrail Azərbaycana “Hermes-900” kəşfiyyat pilotsuz uçuş aparatları da satmışdır. Azərbaycanın əlindəki müasir silahlar sayəsində İkinci Qarabağ müharibəsi dövründə düşmənin 270 tankı məhv edilmiş, 70 tankı isə qənimət kimi götürülmüşdür [8].

Aydındır ki, 2020-ci ildə Azərbaycanın müharibədə qalib gəlməsinə bu texnikaların təsiri çox böyük oldu. Digər tərəfdən, İsrailin Azərbaycana Barak-8 hava hücumundan müdafiə sistemi verdiyi və bununla da Azərbaycanın 2020-ci ildə Ermənistanın “İsgəndər” raketlərini və digər raket hücumlarını dəf etdiyi bilinir. 2016-cı ildə İsrail baş naziri B.Natenyahu Azərbaycana rəsmi səfəri zamanı verdiyi bəyanatda qeyd etdi ki, Azərbaycanın İsraildən aldığı silah və hərbi təchizatın ümumi dəyəri 4 milyard 850 min dollar səviyyəsinə yüksəlmişdir [7, səh. 6].

Azərbaycanın hərbi gücünün sürətlə inkişafı özünü hərbi xərclərin miqdarında və alınan silah və hərbi sursatın keyfiyyətində açıq şəkildə göstərir. Bu isə öz növbəsində II Qarabağ müharibəsinin nəticəsinə böyük təsir göstərmişdir. Müharibədən əvvəl 2020-ci ildə Azərbaycanın müdafiə xərclərinə ayırdığı pay 2,73 milyard ABŞ dolları civarında olub ki, bu da ümumi büdcənin 5,4%-nə bərabərdir. Ermənistanın müdafiə xərclərinin payı 500 milyon dollardır. Bu məbləğ ölkə büdcəsinin 4,7 faizini təşkil edir [5].

Müharibə zamanı iki ölkənin hərbi qüvvələrinin kəmiyyət etibarilə göstəricisi də həlledici əhəmiyyət kəsb edirdi. Azərbaycan ordusunda hərbi qulluqçuların sayı 66 min olduğu halda, Ermənistanın hərbi qüvvələri 51 min idi. Bu rəqəmlərə ehtiyat qüvvələr də əlavə olunduqda Ermənistanın əsgərlərinin sayı 210 minə, Azərbaycanın isə 300 minə çatır.

Ermənistan ordusunda əsas etibarilə rus (sovet) silahları istifadə edilməkdədir. Bu çərçivədə Toçka, İskəndər, Scud ve Smerç ballistik raket sistemləri diqqəti cəlb edir. Azərbaycan silahlı qüvvələri inventarında isə Rusiya, Türkiyə, İsrail, Belarus istehsalı olan yeni nəsil silah sistemləri mövcuddur. Lora (İsrail), Extra (İsrail), Harop (İsrail), Orbiter (İsrail) və Bayraktar (Türkiyə) diqqəti cəlb edən və əsası isə müharibənin müqəddəratını həll edən silahlar yer almışdır.

Azərbaycanın yaxın hərbi əməkdaşlıq etdiyi dövlətlərdən biri də Pakistandır. Azərbaycan və Pakistan arasında ikitərəfli hərbi əməkdaşlıq haqqında plan imzalanmışdır [11, səh. 124].

Göründüyü kimi, Azərbaycanın müdafiə xərcləri Ermənistana nisbətlə xeyli yüksəkdir və idxal edilən silahlar yeni formatda müharibə strategiyaları üçün və düşmənin müdafiə imkanlarını qısa müddətdə məhv etmək üçün hesablanmışdır. Ermənistanın malik olduğu köhnə rus texnologiyası ilə hazırlanmış silahlarla müqayisədə son dövrdə xüsusilə İsrail və Türkiyə kimi müdafiə sənayesində sürətlə inkişaf edən ölkələrdən alınan silahlar, Azərbaycan üçün təkcə silah ehtiyatını artırmaq məqsədinə xidmət etməmiş, həmçinin, ordunun total modernizasiyasına, yeni nəsil - “gələcəyin silahı” adlandırılan silahların əldə olunmasına istiqamətlənmişdir.

Məsələn, Azərbaycan silahlı qüvvələrinin inventa-

rında, Türkiyədən alınan 120 km mənzilli "TRG-300 Kaplan" Yaylım Atəşli Reaktiv Sistemləri (YARS) Belarusdan alınan 200 km mənzilə malik "Polonez" YARS və İsraildən idxal edilən 300 km mənzilə malik LORA YARS/taktiki ballistik raket sistemleri mövcuddur.

## Nəticə

Tədqiqatın əsas elmi nəticəsi ondan ibarətdir ki, Azərbaycan xarici hərbi münasibətlərini formalaşdırarkən, işğal altındakı torpaqlarını azad etmək məqsədinə xidmət edəcək iki istiqamətli hərbi əməkdaşlıq xəttini mənimsəmişdir. Birincisi, ölkənin yeni formalaşan silahlı qüvvələrinin döyüşə hazırlıq səviyyəsini güclü hərbi qüvvələrə malik dövlətlərlə eyni səviyyəyə gətirmək, ikincisi isə silah idxalatında keyifiyyətcə yeni nəsil silahlara üstünlük verməklə, həm hücum, həm də müdafiə qabiliyyətini yeni dövrün şərtlərinə görə formalaşdırmaq. Bu zaman bütün sahələrdə olduğu kimi hərbi sahədə də Rusiyadan asılı vəziyyətdə olan Ermənistandan fərqli olaraq, Azərbaycan hərbi əməkdaşlıq üçün bir dövləti yox, Türkiyə, Belarus, İsrail, Pakistan, ABŞ kimi bir neçə dövlətlə əməkdaşlığa üstünlük vermişdir. Nəticədə ordusunu müasir hücum və müdafiə silahları ilə gücləndirərkən, bir dövlətdən hərbi cəhətdən asılı vəziyyətə düşməkdən də xilas olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan Respublikası və Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) arasında hərbi əməkdaşlıq [elektron resurs] / 09 May, 2018. URL: https://mod.gov.az/az/nato-ile-emekdasliq-028/*

*2. Bağırova, G. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişaf mərhələləri: ölkədaxili islahatlar, beynəlxalq hərbi əməkdaşlıq // - Bakı: Hərbi Bilik, - 2017. № 3/148, - s. 3.*

*3. Bağırova, G. Azərbaycan Respublikasının xarici dövlətlərlə hərbi-texniki əməkdaşlığı // - Milli Təhlükəsizlik və Hərbi Elmler, - 2015. № 1, - s. 30-32.*

*4. Beynəlxalq Hərbi Əməkdaşlıq: [elektron resurs] / URL: https://mod.gov.az/az/beynelxalq-herbi-emekdasliq-025/.*

*5. Comparison of Armenia and Azerbaijan Military Strengths (2023): [Elektron resurs]. / URL: https://www.globalfirepower.com/countries-comparison-detail.php?form=form&country1=armenia&country2=azerbaijan&Submit=COMPARE#google_vignette*

*6. Gürcan, M. Savaşın değişimi ve teorik yaklaşımlar / Red. Atilla Sandıklı. Teoriler ışığında güvenlik, savaş, barış ve çatışma çözümleri. - İstanbul: BİLGESAM, - 2012. – 544 s.*

*7. İskəndərov, X. Azərbaycan-NATO münasibətləri: strateji tərəfdaşlığa aparan yol // - Bakı: Hərbi Bilik, - 2017. № 2, - s. 64-80.*

*8. Qarabağda tanklarının böyük qismini itirən Ermənistan köhnə T-55-ləri təlimə çıxardı: [elektron resurs] / URL: https://modern.az/az/news/283381/qarabagda-tanklarinin-boyuk-qismini-itiren-ermenistan-kohne-t-55-leri-telime-cixardi*

*9. McCarthy, N. Nagorno Karabakh Armenian & Azerbaijani Military Strength Compared: [Elektron resurs] / 29 September, 2020. URL: https://www.statista.com/chart/23056/estimated-military-strength-of-armenia-and-azerbaijan/*

*10. Məmmədova, N. Azərbaycan-İsrail əlaqələri zamanın qovşağında // - Xalq Qəzeti. - 2017. 25 yanvar, - s. 6.*

*11. Mövsümlü, C. Müasir dövrdə Pakistan-Azərbaycan münasibətləri (1991-2013) // - Bakı: Tarix və Onun Problemləri, - 2014. № 1, - s. 124-126.*

*12. Süleymanov, M. Azərbaycanda Ali Baş Komandanlıq İnstitutunun Heydər Əliyev mərhələsi / M. Süleymanov. - Bakı: Elm və Təhsil, - 2018.*

*13. Yüce, A. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı // - Bakı: Hərbi Bilik, - 2016. № 1, - s. 99-100.*


## XÜLASƏ


İkinci Qarabağ müharibəsi Azərbaycan Respublikasının hərbi cəhətdən çox sürətli inkişaf yolu keçdiyini göstərdi. Burada aparıcı rol oynayan faktor, ordu quruculuğuna verilən əhəmiyyətlə yanaşı, düzgün hərbi inkişaf yolu seçilməsinin rolu böyükdür. Azərbaycan Respublikasının İkinci Qarabağ müharibəsində 44 gün ərzində əldə etdiyi zəfər onu göstərdi ki, hərbi inkişaf təkcə canlı qüvvə və silah sayının kəmiyyət baxımından bir əvvəlki ilə görə artırılması sayəsində meydana gələn dəyişiklik deyildir. Hərbi inkişaf onu təşkil edən bütün faktorların inkişafı, həmçinin bu inkişafda kəmiyyət və keyfiyyət göstəricilərinin düzgün müəyyən edilməsi ilə mümkündür. Bu faktorlardan biri də xarici hərbi əlaqələr və bu əlaqələrin hərbi inkişafa verəcəyi töhfənin düzgün müəyyən edilməsidir. İkinci Qarabağ müharibəsi onu göstərdi ki, Azərbaycan bu əlaqələri düzgün formalaşdırmış və bunun nəticəsində də ölkənin silah və digər hərbi ehtiyaclarını ən müasir silah və hərbi tex-

nikalarla təmin etmişdir. Ermənistan üçün isə bunu demək mümkün deyil.

Tədqiqatın məqsədi, Qarabağ zəfərində xarici hərbi əlaqələrin rolunun və bu əlaqələrin düzgün formalaşdırılmasının əhəmiyyətinin təhlil edilməsidir.

Tədqiqat zamanı siyasi elmin ümummәntiqi metodlarından, tarixi yanaşma, müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

Tədqiqatın əsas elmi nəticəsi ondan ibarətdir ki, Azərbaycan xarici hərbi münasibətlərini formalaşdırarkən, işğal altındakı torpaqlarını azad etmək məqsədinə xidmət edəcək iki istiqamətli hərbi əməkdaşlıq xəttini mənimsəmişdir. Birincisi, ölkənin yeni formalaşan silahlı qüvvələrinin döyüşə hazırlıq səviyyəsini güclü hərbi qüvvələrə malik dövlətlərlə eyni səviyyəyə gətirmək, ikincisi isə silah idxalatında keyfiyyətcə yeni nəsil silahlara üstünlük verməklə, həm hücum, həm də müdafiə qabiliyyətini yeni dövrün şərtlərinə görə formalaşdırmaq.

**Açar sözlər:** *Qarabağ zəfəri, İkinci Qarabağ müharibəsi, hərbi əməkdaşlıq*

**ANALYSIS OF THE CONTEMPORARY MILITARY RELATIONS OF AZERBAIJAN IN THE BACKGROUND OF THE KARABAKH VICTORY**

**Gunel Yusibova Yalchın**
***PhD student of the Department of Social Sciences. Ganja State University***
***e-mail: forget379@gmail.com***
***ORCID ID: 0009-0006-1316-0849***

**SUMMARY**

The second Karabakh war showed that the Republic of Azerbaijan was going through a very rapid way of development militarily. The factor playing a leading role here is the importance given to army building, as well as the role of choosing the right military development path. The victory achieved by the Republic of Azerbaijan in the Second Karabakh War in 44 days showed that the military development is not only a change due to the increase in the number of manpower and weapons in terms of quantity compared to the previous year. Military development is possible with the development of all the factors that make it up, as well as with the correct determination of quantitative and qualitative indicators in this development. One of these factors is the correct determination of foreign military relations and the contribution of these relations to military development. The second Karabakh war showed that Azerbaijan has formed these relations correctly and as a result, it met the country's need for weapons and other military needs with the most modern weapons and military equipment. This cannot be said for Armenia.

**Keywords:** *Karabakh victory, The Second Karabakh War, military cooperation.*

**АНАЛИЗ СОВРЕМЕННЫХ ВОЕННЫХ ОТНОШЕНИЙ АЗЕРБАЙДЖАНА НА ФОНЕ КАРАБАХСКОЙ ПОБЕДЫ**

**Юсибова Гюнель Ялчин кызы**
***Докторант кафедры Социальных Наук. Гянджинский Государственный Университет***
***e-mail: forget379@gmail.com***
***ORCID ID: 0009-0006-1316***

**РЕЗЮМЕ**

Вторая Карабахская война показала, что Азербайджанская Республика находится на пути очень быстрого развития в военном отношении. Фактором, играющим здесь ведущую роль, является значение, придаваемое армейскому строительству, а также роль выбора правильного пути военного строительства. Победа, достигнутая Азербайджанской Республикой во Второй Карабахской войне за 44 дня, показала, что военное развитие представляет собой не только изменение, обусловленное увеличением численности живой силы и вооружения в количественном отношении по сравнению с предыдущим годом. Военное строительство возможно при развитии всех составляющих его факторов, а также при правильном определении количественных и качественных показателей этого развития. Одним из таких факторов является правильное определение внешних военных связей и вклада этих связей в военное строительство. Вторая Карабахская война показала, что Азербайджан правильно сформировал эти отношения и в результате удовлетворил потребности страны в вооружении и другие военные нужды самым современным вооружением и военной техникой. Чего нельзя сказать об Армении.

**Ключевые слова:** *Карабахская победа, Вторая Карабахская война, военное сотрудничество.*

UOT 32:316.77; 32:070; 32.049.5; 32:316.65
DOI:10.30546/3006-0346.2024.1.79.48

# SOSİAL ŞƏBƏKƏLƏRİN SİYASİ İŞTİRAKA TƏSİRİ

**GÜLNAR RƏHİMOVA**
*Gəncə Dövlət Universiteti*
*"Sosial fənlər" kafedrasının dissertantı*

*e-mail: gulnar.rahimova1989@gmail.com*
*Orcid: 0009-0006-4267-4953*

## Giriş

Siyasi iştirak geniş mənada milli və yerli səviyyədə siyasi fəaliyyətlər, vətəndaşların müxtəlif vasitələrlə hakimiyyəti əlində cəmləşdirən iqtidarın qəraralma prosesinə təsir göstərmək, həmçinin birbaşa və dolaylı yollarla siyasi fəaliyyətə cəlb olunma prosesidir.

Siyasi iştirakın təzahür formaları müxtəlif olmaqla yanaşı, informasiya texnologiyalarında baş verən yeniliklər, ictimai davranışın bütün formalarına təsir etdiyi kimi, siyasi iştirakın da formalarına və siyasi iştiraka marağa da təsir etmişdir. Sürətlə inkişaf edən informasiya mühitinin fərdin həyatına təsir edən əsas vasitələrindən biri sosial şəbəkələrdir.

Eramızdan əvvəl 3000-ci ildə Misirdə heroqlif adı verilən insan və heyvan şəkillərini simvol olaraq istifadə edən yazı sistemindən başlayaraq, müasir dövrə qədər inkişaf edərək gələn informasiya sistemləri hələ də təkmilləşməyə davam edir, bu isə öz növbəsində insan həyatının demək olar ki, bütün sahələrinə öz təsirini göstərir. Siyasət də bu inkişafın təsir dairəsindən kənarda qala bilməzdi. Siyasətə təsir isə sosial şəbəkələr, ictimai əsaslı, şərh bildirmə, müxtəlif paylaşımlar və əməkdaşlıq məqsədli vasitələrin cəmi kimi qəbul edilən bütün proqramlardan meydana gəlir.

Sosial şəbəkələr, insanların gündəlik həyatda istifadə etdikləri "YouTube", "Instagram", "Twitter" (X) və "Facebook" kimi şəbəkələr vasitəsilə şəkil və mətn paylaşdıqları bir sıra sosiallaşma və əyləncə platformalarını əhatə edir. Xüsusilə son dövrlərdə, sosial şəbəkələrlə siyasi iştirak arasında müəyyən əlaqənin olub-olmadığına dair bir sıra araşdırmalar aparılmış, elmi məqalələr dərc olunmuşdur. Aşağıda həmin tədqiqatların nəticələrinə əsaslanaraq, fərdlərin gündəlik həyatda müntəzəm olaraq istifadə etdiyi sosial şəbəkələrin onların siyasi iştiraka marağına və siyasi fəaliyyətə cəlb olma istəyinə nə qədər təsir göstərdiyi təhlil ediləcəkdir.

**Siyasi iştirakın inkişaf mərhələləri.** İştirak etmək, ideya və tətbiq mərhələsində, başqa bir ifadə ilə konseptual fikir və ya bu konsepsiyanın həyata keçirilmə mərhələsində yer almaq, mövcud vəziyyəti və rəyi bölüşmək deməkdir. Bundan əlavə, iştirak ümumiyyətlə insanın yaşadığı mühitdə baş verən və ya baş verə biləcək hadisələrə cavab olaraq qərar qəbul etmə prosesidir. Siyasi iştirak anlayışı üçün bir sıra təriflər verilmişdir. Məsələn, hər hansı sosial mühitdə fərdlərin yerli və milli səviyyədə idarə edənləri seçmək və onların, fərdin istək və arzularına uyğun qərar qəbul etmələrini təmin etmək üçün sərgilədikləri bütün davranış və fəaliyyətlərdir [3, s. 234]. Vətəndaşların siyasi sistem qarşısında vəziyyətləri, mövqeləri və davranışlarını əks etdirən fəaliyyət üsulu siyasi iştirakdır. Qeyd olunanlardan belə bir nəticəyə gəlmək mümkündür ki, siyasi iştirak primitiv maraqdan başlayaraq getdikcə fəal siyasi davranışların, mövqelərin əks olunduğu fəaliyyətə doğru uzanan bir prosesdir. Məsələn, siyasi məsələlərlə bağlı qəzet oxumaq sadə bir maraqdan irəli gəlirsə, siyasi nümayişlərə, mitinqlərə getmək, siyasi liderlərlə görüşmək artıq siyasi iştirakın daha fəal formasını özündə əks etdirən davranış növüdür.

Siyasi iştirak, fərdin maraq dairəsində olan hər hansı mövzuda məlumat əldə etmək, həmin məsələni diqqətdə saxlamaq, onunla maraqlanmaq, seçki hüququndan istifadə etmək, konkret siyasi hadisə və prosesə dəstək və ya neqativ reaksiya vermək, seçdikləri nümayəndələrin qərarların qəbul edilməsi prosesində onların mənafelərini nəzərə almalarına təsir etmək kimi bir sıra davranışları özündə birləşdirir.

Fərdlərin və ya təşkilatların siyasi iştirak səviyyəsini təhlil etmək mqəsədilə, bir sıra tədqiqatçı müxtəlif tədqiqatlar aparmış və öz təkliflərini irəli sürmüşdür. Bu təkliflərdə siyasi iştirak müxtəlif cəhətlərinə görə səviyyələrə ayrılsa da, ümumi olaraq onu qeyd etmək olar ki, M.E.Olsen və Milbrazın təklif etdiyi siyasi iştirak səviyyələrini əks etdirən bölgü siyasi elmdə daha çox qəbul olunur.

M.E.Olsen, siyasi iştirak səviyyəsini cəmiyyətin davranış şəkillərini tədqiq edərək izah edir. Belə ki, ona görə, cəmiyyət siyasi iştirak səviyyəsi baxımından alt qruplara ayrılmalıdır. Bu qruplar ümumi olaraq aşağıdakı kimi qeyd oluna bilər [10, s. 681-683]:

a) Siyasi vətəndaşlar – hər hansı bir ölkədə seçkilərdə iştirak edib səs verən, siyasi hadisələr haqqında məlumat əldə etmək üçün cəhd edən, lakin siyasi

sferada fəal şəkildə mövqe tuta bilməyən fərdlərdən meydana gələn qruplar;

b) Siyasi diskussiya qrupu – bu qrupa daxil olan fərdlər gündəlik olaraq siyasi hadisələrə maraq göstərirlər, əldə etdikləri məlumatları və gəldikləri nəticələri başqaları ilə bölüşürlər, onların da fikirlərinə qulaq asırlar.

c) Siyasi fəallar - bu qrup isə hər hansı siyasi partiyanın üzvü olan və həmin partiyanın mənafeyi üçün fəaliyyət göstərən şəxslərdən meydana gəlir;

d) Liderlər – ölkədə, dövlət idarəçiliyinə seçilərək və ya təyin olunaraq gələn şəxslərdir;

e) Siyasi özünütəcrid qrupu – siyasi həyatda meydana gələn hadisələrə heç bir şəkildə qarışmayan şəxslərdən ibarət qrupdur;

f) Siyasi marjinallar qrupu – siyasi hadisələr qarşısında sosial şəbəkələr vasitəsilə, zəif də olsa məlumatlı olan və həmin məlumatlar əsasında mövqeyini sərgiləyən şəxslərdir.

Milbraz da həmçinin cəmiyyəti təhlil edərək siyasi iştirak səviyyəsini aşağıdakı kimi müəyyən etmişdir [9, s. 11-12]:

a) İzahedici iştirak: siyasi iştirakın vasitələrindən istifadə etmək, siyasətə dair keçirilən toplantılarda iştirak etmək, fikir mübadiləsi və diskussiya kimi siyasi iştirak növlərindən istifadə edən qrupdur. Digər tərəfdən vasitəli iştirak zamanı isə fərdlər şəxsən özləri deyil, seçdikləri təmsilçilər vasitəsilə siyasi iştirak nümayiş etdirirlər.

b) Açıq və gizli iştirak: fərdlərin öz psixoloji xarakterlərinə uyğun olaraq, siyasətə maraq və cəlb olunmanın açıq və ya gizli formada həyata keçməsidir.

c) Davamlı və ani iştirak sinfi: Bəzi fərdlər, lazım olduqda, bəzən siyasi hadisələrdə və proseslərdə iştirak etdiyi halda, bəzi fərdlər isə siyasi sahədə davamlılıq, siyasi mövqe və fəaliyyət nümayiş etdirirlər.

d) Məcburi və könüllü siyasi iştirak sinfi: məcburi iştirakda, dövlət müəyyən qanunlar vasitəsilə fərdin siyasətdə məcburi iştirakını təmin etdiyi halda, könüllü iştirak zamanı isə fərdlər, vəzifə olaraq deyil, öz istəkləri ilə siyasi fəallıq nümayiş etdirirlər.

e) Siyasi sistemdən mənfəət əldə edən və etməyən siniflər: bu zaman fərdlər, siyasi proseslərdə yer almalarının müqabilində müəyyən qarşılıq əldə edirlər və siyasi idarəetmə seqmentləri tərəfindən mükafatlandırılırlar.

d) İctimai və fərdi siyasi iştirak sinfi: fərdi qaydada səsvermə prosesində iştirak etmək birinciyə misal olduğu halda, fərdlərin bir araya gələrək həyata keçirdikləri müxtəlif siyasi fəaliyyətlər isə ikinciyə misal təşkil edir.

e) Fərdlərin səssiz və ya səsli siyasi iştirakı.

**Sosial şəbəkələr fərdi və qrup qərarlarına təsir vasitəsi kimi.** Sosial şəbəkələr qarşılıqlı əlaqə, məzmun mübadiləsi və əməkdaşlıq üçün yaradılmış sosial əsaslı vasitələrdir. Başqa bir ifadə ilə, sosial şəbəkə bütün dünyaya təsir edən çox sürətli və ani ünsiyyəti təmin edən, onlayn şəbəkə saytları və blokları vasitəsilə insanların məlumat, fikir və xəbərlərə sürətli çıxışını təmin edən şəbəkə sistemidir [12, s. 5]. Sosial şəbəkə, rabitə şəbəkəsi tərəfindən istehsal olunan hər hansı bir informasiyanı istənilən yerdən paylaşmaq və istehsal etmək üçün nəzərdə tutulmuş texnoloji məhsuldur.

Sosial şəbəkə anlayışının birinci tərəfini təşkil edən “sosial” anlayışı, insanların sosial varlıq olduqları üçün başqaları ilə ünsiyyət qurmalı olduqlarını göstərir. Yəni insanın yanında və ya evindəymiş kimi, onun kimi fikirləşən, yaşayan insanlarla rahat hiss edə biləcəyi, həyatda fikirlərini, hisslərini, təcrübələrini paylaşa biləcəyi bir qrupa qoşulmaq deməkdir. Sosial şəbəkə anlayışının ikinci hissəsini təşkil edən “şəbəkə” anlayışı isə bu sosial insanların ünsiyyət üçün istifadə etdikləri bütün üsulları özündə birləşdirir. Bu ünsiyyət tarix boyu müxtəlif üsullarla yaranmışdır. Barabanlar, zənglər, yazılar, məktublar, telefonlar, radiolar, televizorlar, internet saytları, fotoşəkillər kimi bütün ünsiyyət vasitələri şəbəkələrin bir hissəsidir. Başqa sözlə, “sosial” olan, insanların ünsiyyətini təmin etmək üçün istifadə olunan bütün texnologiyalardır. Sosial şəbəkələrin əsas növləri aşağıdakılardır:

Şəbəkə saytları: Bu saytlar, ümumiyyətlə, quraşdırma sistemi vasitəsilə insanlara fotoşəkilləri paylaşmaq, profillər yaratmaq, öz və ya başqalarının məlumatlarını görmək imkanı verən veb əsaslı sistemlərdir [1, s. 302]. Ən çox yayılmış şəbəkə saytları Myspace, Linkedin və Facebook-dur. Myspace, insanlar tərəfindən yaradılan videoların, məqalələrin və şəkillərin ümumiyyətlə paylaşıldığı bir şəbəkə saytıdır. Linkedin, iş dünyasındakı insanların daha sürətli və asan ünsiyyət qurmalarını və daha məhsuldar olmalarını təmin etmək üçün yaradılmış şəbəkə saytıdır. Ən çox yayılmış şəbəkə saytı, fərdlərin digər şəxslərlə ünsiyyət qurmasına imkan verən Facebook-dur.

**Bloqlar:** Bunlar insanların şəxsi həyatlarında gündəlik düşüncələrini və müşahidələrini yazdıqla-

rı və digər insanların onlara şərh verdiyi veb əsaslı bloqlardır.

**Mikrobloqlar:** Bloqlardan fərqli olaraq, onlar məhdud xarakter daşıyan və insanların ani fikirlərini paylaşdıqları və digər insanların ani mesajlarını izlədikləri şəbəkə saytlarıdır. Bu mikrobloqların ən çox yayılmışı Twitter-dir ki, bu da 2006-cı ildə Cek Dorsi tərəfindən insanların fikirlərini anında paylaşması üçün yaradılmışdır.

**Məzmun Paylaşma Saytları:** Bunlar müəyyən bir mövzu haqqında toplanmış materialların paylaşıldığı yerlərdir. Ümumiyyətlə, iki yerə bölünür: video məzmun paylaşma saytı və şəkil məzmun paylaşma saytı. Video məzmun paylaşma saytı insanların hər hansı bir mövzuda video görüntüləri paylaşdığı yerdir. Bunlardan ən çox yayılanı 2005-ci ildə Jawed Kərim tərəfindən qurulan YouTube-dur. İkincisi, insanların həyatlarında vacib olan şeylərin illər boyu qalmasını və başqalarının görməsini təmin etmək üçün çəkdikləri şəkilləri paylaşdıqları foto paylaşma saytıdır. Ən geniş sosial mühitə yayılmışı 2010-cu ildə Kevin Systrom və Mike Krieger tərəfindən qurulan Instagramdır [8, s. 36].

**Viki və Formalar:** Bunlar viki adlanan saytlardır ki, burada insanlar könüllü olaraq bildikləri hər hansı mövzu haqqında məlumat verirlər. Formalar, vikilərdən fərqli olaraq, müəyyən bir mövzunu müzakirə etmək üçün yaradılmış saytlardır.

**Siyasi iştirakçıların qərar və davranışlarına sosial şəbəkələrin təsiri.** İştirak məsələsi həmişə siyasət və demokratiya baxımından əhəmiyyətli sayılmışdır. Çünki güclü demokratiya, nümayəndəli demokratiyanın müasir formasıdır. Bu demokratiya anlayışında vətəndaşlar ümumi davranış və iştirakçı institutlar sayəsində ortaq məqsədlər və qarşılıqlı fəaliyyət göstərə bilmək ideyasına sahibdirlər [2, s. 117]. Demokratiya və siyasət üçün vacib olan odur ki, siyasi iştirak vətəndaşlar tərəfindən yaxşı anlaşılsın və geniş şəkildə həyata keçirilsin. Bu gün hər sahədə siyasi iştirakdan istifadə etmək üçün ən mühüm vasitə sosial şəbəkələrdir. Bir neçə on ildir siyasət, demokratiya və sosial şəbəkələr arasındakı qarşılıqlı əlaqəyə dair bir sıra elmi tədqiqatlar aparılmış və bu tədqiqatlarda məsələnin müxtəlif tərəfləri nəzəri və empirik səviyyədə tədqiq edilmişdir.

Sosial şəbəkələr kimi kütləvi informasiya vasitələrinin seçicilərin siyasi iştirakına təsir edib-etmədiyini öyrənmək üçün müxtəlif araşdırmalar aparılmışdır. Bu araşdırmalar nəticəsində məlum olmuşdur ki, kütləvi informasiya vasitələri siyasi iştiraka birbaşa təsir göstərir. Müvafiq olaraq, siyasi hakimiyyəti əldə etmək və ya saxlamaq istəyən siyasi partiyalar seçicilərə təsir etmək və hakimiyyətə gəlmək üçün, onların siyasi baxışlarını müvafiq məqsədə istiqamətləndirmək üçün sosial şəbəkələrdən istifadə edir.

Sosial şəbəkələrdən istifadə üçün zəruri sistemlərdən biri olan internetdən istifadənin sosial şəbəkələrə və siyasi iştiraka təsiri ilə bağlı əhalinin müxtəlif kateqoriyaları, xüsusilə gənclər və tələbələr arasında müxtəlif araşdırmalar aparılır. Bu araşdırmalar nəticəsində tələbələrin internet vasitəsilə sosial şəbəkələrdən səmərəli istifadə etdikləri görülür. Bu istifadələrin tələbələrin siyasətə marağını artırdığı, siyasi iştirakçılığın inkişafına və artmasına səbəb olduğu da müşahidə edilmişdir [4, s. 202].

Yuxarıda qeyd olunanlarla yanaşı, sosial şəbəkələrin gənclərin siyasi fəallığına təsiri ilə bağlı araşdırmalar da aparılmışdır. Bu araşdırmalar nəticəsində, gənclərin sosial şəbəkələrdən fəal istifadə etdikləri müşahidə olunmuşdur. Bu istifadəyə baxdığımızda gənclərin siyasi məlumat əldə etmək üçün Facebook və Twitter-ə üstünlük verdikləri, İnstaqramdan isə siyasi məlumat məqsədləri üçün istifadə etdikləri görünür. Bir sözlə, sosial şəbəkələrdən istifadə siyasi iştiraka müsbət təsir göstərir.

Siyasi ünsiyyət və sosial şəbəkə arasındakı əlaqəyə əsaslanaraq, Voltonun sosial şəbəkələrin siyasi iştiraka təsiri ilə bağlı apardığı araşdırmada, inandırma, əməkdaşlıq və kompromis siyasi ünsiyyət elementləri kimi müəyyən edilmişdir. Bu üç ünsürü bir araya gətirməyi bacaran partiyalar rəqibləri qarşısında üstünlük əldə edir və siyasi məqsədlərinə daha tez çatırlar. Siyasi ünsiyyət vasitəsi olaraq sosial şəbəkələr, siyasətdə əvvəllər, siyasətçilərin xalqa təsir etmək üçün istifadə etdikləri bir vasitə olduğu halda, vaxt keçdikcə inkişaf etməsi nəticəsində, həm siyasi xadimlər, həm də partiyalar üçün xalqın siyasətə cəlb edilməsini təmin edərək, seçkilərdə aldıqları səs miqdarını artıraraq, bu sayədə hakimiyyəti daha tez əldə etmək məqsədinə xidmət edən bir vasitəyə çevrilmişdir [13, s. 43].

Frensis Fukuyamanın fikrincə, siyasi iştirakçılığı artıran ən mühüm element sosial şəbəkələrdir. Onun sözlərinə görə, sosial şəbəkələr siyasi xəbərləri və fərdlərlə ictimaiyyət arasında ünsiyyəti təmin edən alətlərdir. Bu səbəbdən də sosial şəbəkələr hakimiyyətdə olan şəxslərin qəbul etdiyi qərarları ictimaiyyətə çatdırır, xalqın istək və şikayətlərini hakimiy-

yətə çatdırır. Bir sözlə, siyasi iştirakın bütün sosial şəbəkələrlə birbaşa əlaqəsi var [5, s. 137].

M.Marko Skoriçin sosial şəbəkələrlə siyasi iştirak arasındakı əlaqəni birbaşa üzə çıxarmaq üçün apardığı araşdırma nəticəsində, əldə edilən ən mühüm nəticə ondan ibarətdir ki, ənənəvi sosial şəbəkələrdən istifadə yeni sosial şəbəkələrdən daha çox siyasi iştiraka təsir edir. Bu, ənənəvi sosial şəbəkələrdən biri olan teleqramın zamanla inkişaf edərək yeni sosial şəbəkə sayılan e-mailə çevrilməsi üçün keçərlidir. Çünki yeni sosial şəbəkələrdə fərdlər başqa ərazilərə keçə bildiyi halda, ənənəvi şəbəkələrdə belə imkan daha azdır [11, s. 187].

Sosial medianın siyasi təsirləri və siyasi fəaliyyət sahəsindəki yeri və rolu haqqında aşağıdakı mülahizələr irəli sürülmüşdür [7, s. 53-54]:

- Çatımlılıq;
- Müəyyən hadisəni ictimai qınaq obyektinə çevirə bilmə və yaxud diqqəti həmin hadisənin üzərinə çəkmə;
- Seçicilərin rahatlığı üçün informasiyaların bir araya toplanaraq komplektləşdirilməsi;
- Siyasətçilər və seçicilərlə bilvasitə əlaqə qurmaq;
- Yeni üzvlər toplamaq;
- Siyasi fəaliyyətlərin mobilizasiyası;
- Kütləvi siyasi fəaliyyətlər üçün yaradıcı üsulların tapılması;
- Müxtəlif sivil cəmiyyət qruplaşmaları arasında informasiya mübadiləsi həyata keçirmək və bunun yayımını təmin etmək [6, s. 69-70].

Siyasi iştiraka səsvermə, milli və yerli icra mexanizminə nümayəndələr seçmək və seçilmiş nümayəndələrin fəaliyyətinə nəzarət kimi hərəkətlər daxildir. Halbuki, bu gün siyasi iştirak, bir qayda olaraq, vətəndaşın həm yerli, həm də milli səviyyədə onu həm ölkədə, həm də xaricdə təmsil edəcək şəxsləri müzakirə etmək, seçmək və seçim etdikdən sonra hər cür qanuni vasitə ilə onların fəaliyyətləri, çıxışları haqqında məlumat əldə etmək, sevdiyi, bəyənmədiyi, şikayəti olan və ya olmayan məsələlərlə bağlı fikirlərini ictimai rəy vasitəsilə çatdırmaq kimi fəaliyyətləri əhatə edir.

Sosial şəbəkə anlayışı isə bu günə qədər müxtəlif mərhələlərdən keçmiş bütün növ ünsiyyət vasitələridir. Yuxarıda adları qeyd olunan sosial şəbəkələr zaman keçdikcə inkişaf edərək, fərdlərin həyatının hər bir sahəsində yer almağa başlamış və artıq əvəzolunmaz vasitəyə çevrilmişdir. Sosial şəbəkələrin insan və cəmiyyət həyatının əhatə etdiyi sahələrindən biri də siyasi həyatdır.

## Nəticə

Aparılan araşdırmalar onu göstərir ki, siyasi iştirak ilə sosial şəbəkələr arasında anlamlı qarşılıqlı əlaqə mövcuddur. Ancaq bu təsir müxtəlif faktorların təsirindən asılı olaraq dəyişməkdədir. Nəsillərarası fərqlər, milli və beynəlxalq siyasətdəki inkişaf və hadisələr, ətraf mühit və ailə faktorları bunlara misal ola bilər. Məsələn, "Z qurşağı" adlanan müasir yeniyetmə və gənclər, rəqəmsal dövrün ortasında doğulsa da, sosial media və kommunikasiya texnologiyalarından müxtəlif məqsədlər üçün (dostluq, təhsil, mədəniyyət, ünsiyyət və s.) istifadə edir və siyasi baxımdan apolitik davranışlar sərgiləyirlər.

Gənclər və tələbələr sosial şəbəkələrdə hansısa siyasi məsələni və ya siyasi lideri izləyərkən, siyasi iştirakla bağlı fikirlərinin öz çevrələrində və sosial şəbəkələrdə bilinməsini istəmirlər. Onların siyasi məsələləri müzakirə etmək və ya hər hansı bir siyasi fəaliyyətlə məşğul olmağı lazımsız və ya arzuolunmaz davranış olaraq qəbul etməsi, gənclərin siyasi iştirakına neqativ təsir edir. Lakin sosial şəbəkələr və siyasi iştirak məsələsi region, zaman, cəmiyyət, mədəniyyət və məkan ölçüləri ilə daim dəyişən bir fenomendir. Bu baxımdan davamlı araşdırmalara və yeni nəticələr əldə etməyə açıq bir sahədir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Ayan, B. Sosyal ağlar tarihi /B. Ayan, - İstanbul: Abaküs, - 2016.*

*2. Barber, R.B. Strong democracy participatory politics for A new age / B.R. Barber, - England: University of California Press, - 2003.*

*3. Dursun, D. Siyaset bilimi / D. Dursun, - İstanbul: Beta Yayıncılık, - 2012.*

*4. Eser, H.B. İnternet ve sosyal ağların siyasal katılım üzerine etkisi: SDÜ örneği // - Mehmet Akif Ersoy Universiteti, Sosial Elmlər İnstitutu Jurnalı, - 2015. № 7(12), - s. 196-219.*

*5. Fukuyama, F. Büyük çözülme, insanın doğası ve toplumsal düzenin yeniden oluşması / F. Fukuyama, - İstanbul: Sabah Yayıncılık, - 2010.*

*6. Göksu, V. Kamusal alan ve siyasal katılma mecrası olarak sosyal medya / V. Göksu, - Ankara: Çizgi Kitabevi, - 2016, - 206 s.*

*7. İbrahimova, P.Y., Salamov, N.X. Sosial medianın toplum üzərində ictimai-siyasi təsirləri (Türkiyə həyatı əsasında) // - Bakı Universitetinin Xəbərləri,*

*Sosial-siyasi elmlər seriyası, - 2018. № 2, - s.48-57.*

*8. Karaman, S., Yıldırım, S., ve Kaban, A. (2018). Öğrenme 2,0 yaygınlaşıyor: Web 2,0 uygulamalarına eğitimde kullanımına ilişkin araştırma ve sonuçları [elektron resurs] / - 2018. URL: http://inettr.org.tr/inetconf13/kitap/karaman_yildirim_inet08.pdf*

*9. Milbrath, L. Political participation: how and why do people get ınvolved in politics? / L Milbrath. - Chicago: Rand McNally College Publishing Company, 1965.*

*10. Olsen, M.E. Social and political participation of blacks // American Sociological Review, - 1970. № 35(4), - s. 682- 697.*

*11. Skoric, M.M., Poor, N. Youth engagement in singapur: the interplay of social and traditional media // - Journal of Broadcasting and Electronic Media, - 2013. № 57, - s.187-204.*

*12. Tosun, L. P. Sosyal ağlar ve sosyal psikoloji / L.P. Tosun. - Ankara: Nobel Yayıncılık, - 2018.*

*13. Wolton, D. Political Communication: The Construction of a Model [electron resurs] / European Journal of Communication. – 1991. URL: https://journals.sagepub.com/doi/abs/10.1177/0267323190005001002*

## XÜLASƏ

Siyasi iştirak, siyasi sferada baş verən proseslər, fəaliyyətlər və hadisələr ilə vətəndaşların müxtəlif formalarda hakimiyyəti əlində tutan və yaxud siyasi iqtidar üzərində müəyyən təsirə gücünə malik olmaları, həmçinin siyasi proseslərdə yer almaq sürətilə həyata keçirdiyi fəaliyyətdir. Siyasi iştirak, fərdlərin siyasi sosiallaşma səviyyəsi ilə dövlətin vətəndaşların siyasi proseslərə maraq və fəaliyyətinə imkan verən hüquqi-demokratik mühitin yaradılmasında marağı ilə birbaşa bağlı olduğu kimi, son dövrlərdə bu prosesə təsir edən bir sıra yeni faktorların da meydana çıxması diqqəti cəlb edir. Ənənəvi iştirak metodları qədəq texnolojinin inkişaf etməsi ilə cəmiyyətdə baş verən dəyişikliklər və innovativ yeniliklərlə birlikdə, yeni siyasi iştirak kanalları da ortaya çıxmışdır. Tədqiqatın məqsədi, texnoloji yeniliklər ilə gündəlik həyatımızın bir parçasına çevrilən sosial şəbəkələrin, bu şəbəkələri ən çox istifadə edən gənclərin siyasətə marağının artmasına və bunun göstəricisi olan siyasi iştiraka cəlb olunmalarına təsiri araşdırılmışdır.

Bu məqsədlə mövzuya dair yerli və xarici elmi tədqiqatları və onların nəticələri, müxtəlif ölkələrdə ayrı-ayrı vaxtlarda müxtəlif statuslara malik şəxslərlə aparılan empirik tədqiqatın nəticələrindən, statistik göstəricilərdən istifadə etməklə, həmçinin siyasətə marağın ən böyük göstəricisi olan seçki nəticələrinin vasitəsi ilə nəzəri ümumiləşdirmək aparılmaqla, sosial şəbəkələrin siyasi iştiraka təsir imkanları müəyyən edilməyə çalışılmışdır.

Tədqiqatın əsas elmi yeniliyi ondan ibarətdir ki, sosial şəbəkələrin hər keçən gün fərdin gündəlik həyatına bir az daha çox istiqamət verməsi reallığından hərəkətlə, onun siyasi marağına və bu marağa uyğun olaraq siyasi iştiraka meylinə təsiri müəyyən edilməyə çalışılmışdır ki, gələcəkdə siyasi iştiraka dair vətəndaşlar arasında aparılacaq tədqiqatlara ilkin elmi mənbə rolunu oynayacaqdır.

Əldə olunan əsas nəticə ondan ibarətdir ki, aparılan tədqiqatlar, xüsusilə empirik tədqiqatlar onu göstərir ki, sosial şəbəkələr əhalinin gənc və orta təbəqəsi üzərində böyük təsirə malik olsa da, həmçinin siyasətə marağın artmasına səbəb olsa da, onların siyasi iştiraka meylinə gözlənildiyi qədər də yüksək təsir etməməkdədir.

**Açar sözlər:** *Siyasi iştirak, sosial şəbəkə, siyasi şüur, siyasi davranış, siyasi mövqe.*

## THE INFLUENCE OF SOCIAL NETWORKS ON POLITICAL PARTICIPATION

**Gulnar Yashar kizi Rahimova**
***Dissertation of the Department of Social Sciences, Ganja State University***

## SUMMARY

Political participation is the process, activities and events that occur in the political sphere and citizens have power in various forms or have some influence on political power, as well as activities carried out through participation in political processes. Political participation is directly related to the level of political socialization of the individual and the state's interest in creating a legal democratic environment that allows citizens to be interested and active in political processes, as well as the recent emergence of a number of new factors influencing this process. times attracts attention. Along with the changes and innovations occurring in society with the development of technology, traditional methods of participation have become prohibited, and new channels of political participation have emerged. The purpose of the study was to examine the impact of social networks, which

have become part of our daily lives thanks to technological innovation, on increasing interest in politics and political participation among young people who use these networks the most.

To do this, by summarizing the theory of domestic and foreign scientific research on the topic and its results, the results of empirical studies conducted with people of different statuses in different countries at different times, using statistical indicators, as well as election results, which are the largest indicator of interest in politics, social networks have attempted to identify opportunities to influence political participation.

The main scientific innovation of the study is that, based on the fact that social chains give a little more direction to a person's daily life, an attempt was made to determine the influence on his political interest and propensity for political participation in accordance with this interest, so that future studies of political Citizen participation will play the role of a primary scientific source.

The main conclusion obtained is that the studies conducted, especially empirical ones, show that social networks, although they have a great influence on the young and middle class of the population, and also cause an increase in interest in politics, but not so much. influence on their propensity to participate in politics, as expected.

**Key words:** *political participation, social network, political consciousness, political behavior, political position.*

### ВЛИЯНИЕ СОЦИАЛЬНЫХ СЕТЕЙ НА ПОЛИТИЧЕСКОЕ УЧАСТИЕ

**Гульнар Яшар кызы Рагимова**
***Диссертант кафедры "Социальные науки"***
***Гянджинский Государственный Университет***

### РЕЗЮМЕ

Политическое участие – это процесс, деятельность и события, которые происходят в политической сфере, и граждане обладают властью в различных формах или оказывают определенное влияние на политическую власть, а также деятельность, осуществляемая путем участия в политических процессах. Политическое участие напрямую связано с уровнем политической социализации личности и заинтересованностью государства в создании правовой демократической среды, позволяющей гражданам быть заинтересованными и активными в политических процессах, а также появлением в последнее время ряда новых факторов, влияющих на этот процесс. раз привлекает внимание. Наряду с изменениями и инновационными нововведениями, происходящими в обществе с развитием технологий, традиционные методы участия оказались под запретом, а также появились новые каналы политического участия. Целью исследования было изучить влияние социальных сетей, которые стали частью нашей повседневной жизни благодаря технологическим инновациям, на повышение интереса к политике и политическое участие молодых людей, которые используют эти сети больше всего.

Для этого путем обобщения теории отечественных и зарубежных научных исследований по теме и их результатов, результатов эмпирических исследований, проведенных с людьми различного статуса в разных странах в разное время, с использованием статистических показателей, а также результатов выборов, которые являются крупнейшим индикатором интереса к политике, социальные сети попытались определить возможности влияния на политическое участие.

Основная научная новация исследования состоит в том, что на основе того факта, что социальные цепи придают несколько большую направленность повседневной жизни человека, была предпринята попытка определить влияние на его политический интерес и склонность к политическому участию в соответствии с этот интерес, так что будущие исследования политического участия граждан будут играть роль первостепенного научного источника.

Основной полученный вывод заключается в том, что проведенные исследования, особенно эмпирические, показывают, что социальные сети хотя и оказывают большое влияние на молодой и средний класс населения, а также вызывают повышение интереса к политике, но не столь сильно. влияние на их склонность к участию в политике, как и ожидалось.

**Ключевые слова:** *политическое участие, социальная сеть, политическое сознание, политическое поведение, политическая позиция.*

UOT 323.28
DOI:10.30546/3006-0346.2024.1.79.54

# TERRORİZM VƏ TERRORİZMİN NÖVLƏRİ

**İSRAİL ƏMİRLİ**
*Bakı Dövlət Universiteti*
*E-mail: amirovisrail04@gmail.com*

## Giriş

Terrorizm insanlıq arasında qədim dövrlərdən mövcuddur. Demək olar ki, terror fəaliyyətləri sui qəsdin bir növüdür. Terrorçu terror fəaliyyətini hər hansı bir qrupa və bir nəfərə qarşı törədə bilər. Ancaq bir xalqa qarşı da terror fəaliyyəti həyata keçirən təşkilatlar mövcuddur. Terrorçu əsasən müəyyən radikal qruplar tərəfindən hazırlanan, bəzən hansısa ideoliya ilə aldadılan (buraya canlı bombalar şəklində özlərini partladan şəxslərin terror hadisələrini aid etmək olar) müəyyən fərdlər tərəfindən həyata keçirilir. Bəzən bu terror hadisələrində dövlətlər də iştirakçı olur. Demək olar ki, terrorun vətəni yoxdur. Terrorun qarşısını almaq isə əsasən mümkünsüzdür.

İlk vaxtlar terrora məruz qalan insanlar əsasən qullar hesab olunurdu. Lakin zamanla dövlət başçılarına, saray məmurlarına, adi insanlara qarşı da terror fəaliyyətləri həyata keçirilməyə başlandı. Bu barədə tarix elmində çoxlu faktlar vardır. Feodalizm dövründə isə mövcud olan bir sıra təriqətlərin "Həşşaşilərin", "Xaricilərin" "İsmaililərin", Avropada "Varfolomeyçilərin", Amerikada "Kukluslanların" terror fəaliyyətləri barədə tarixi mənbələr mövcuddur. Terrorçular digər insanlara gizli şəkildə suiqəsd edirdilər.

Terror sözü latın mənşəli olub qorxu, dəhşət mənalarını ifadə edir. Terrorizm ifadəsi müasir mənasına XVIII əsrdə böyük fransız inqilabı dövründə çatmışdır. İnternet saytında məlumat verilir ki, ilk dəfə Dictionnarire de l'Academie Française'nin 1789-cu ildə yayımlanan dərgidə bu barədə bəhs edilmişdir(1).

Terrorizm haqqında belə deyilir. Terrorizm kəlməsi latınca "tersere" felindən yaranmışdır. Daha sonra "terrere" halına gəlmişdir. Fransızca ilk istifadə olunduğu tarix 1160-cı il hesab olunmaqdadır. Daha sonra ingilis dilində terror halına düşmüşdür.

Məqalədə məlumat verilir ki, terrorizm müasir dövrün ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif formalar əldə edən, daha hədələyici miqyaslar alan təzahürlərdən biridir. Terror aktları insan tələfatı ilə nəticələnir, böyük insan kütlələrinə güclü psixoloji təzyiq göstərir, yenidən bərpası bəzən mümkün olmayan maddi və mənəvi dəyərləri məhv edir, dövlətlər arasında nifaq salır, müharibələrə, sosial və milli qruplar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur. (2)

XX əsrin I yarısından başlayaraq dünya ölkələrində terror təşkilatları yaranmağa başlayır. Buraya "İrqun", "Haqana", "Asala", "PKK" kimi terror təşkilatlarını aid etmək olar.

Ancaq terrorun dünyəviləşməsi və bütün bəşəriyyəti əhatə etməsi dövrü, XX əsrin 90-cı illərindən başlayaraq genişlənməyə başladı. Əksər ölkələrdə yeni terror təşkilatları fəallaşmağa başladı. Terror təşkilatları Asiya və Afrika ölkələrində xüsusilə fəallaşdı. Demək olar ki, terror təşkilatlarının yarandığı və mövcud olduğu ölkələr də məhz Asiya və Afrika ölkələridir. Demək olar ki, heç bir Avropa ölkəsində terror təşkilatı yoxdur.

Bu terror növlərini istiqamətinə və mahiyyətinə görə bir neçə qrupa ayırmaq olar.

Dövlət qurmaq adıyla həyata keçirilən terrorizm formasına PKK və İŞİD təşkilatlarının fəaliyyətlərində rast gəlmək olar. Bu terror təşkilatından PKK silahsız insanlara qarşı terror fəaliyyətləri yerinə yetirməkdədir. Bunun nəticəsində PKK terrorunun qurbanına hər yaşdan olan insanlara rast gəlmək olar. İŞİD terror təşkilatının da məqsədlərinə eyni şərtlər daxildir. Bu təşkilat tarixdə mövcud olmuş Ərəb xilafətini dirçəltmək istəyir və bu məqsədlə terror fəaliyyətləri həyata keçirir. İraqda və Suriyada həyata keçirilən terror fəaliyyətlərinin də məqsədinə eyni amillər daxildir. Ancaq onların bu fəaliyyəti bəzi dövlətlər tərəfindən gizli olaraq dəstəklənir.

## Millətçiliklə bağlı terrorizm

Millətçiliklə bağlı terrorizm forması özünün ifrat radikallığı ilə seçilir. Millətçiliklə əlaqədar həyata keçirilən terror aktlarına Hitler Almaniyasının yəhudilərə qarşı, Daşnaksütyun partiyası və nasist Ermənistanının türk xalqlarına qarşı həyata keçirdiyi terror aktlarını və Myanmarda müsəlmanlara qarşı baş verən dövlət terroru və digər terrorizm aktlarını aid etmək olar. Bu terror faktı soyqırımın bir növüdür və hər yaşdan olan insanlara qarşı yönəlmişdir.

Bu terror fəaliyyətinin məqsədlərinə günahsız insanların qətlə yetirilməsi daxildir.

**Dini terrorizm**

Dini ad altında həyata keçirilən terror növünə isə Əl-Qaidə, Vəhabilik və xristian gəncləri tərəfindən həyata keçirilən terror aktlarını nümunə göstərmək olar. Bu terror təşkilatlarının və bu fikirdə olan insanların düşüncələrində din amili ön sırada dayanır. Cihad adıyla həyata keçirilən terrorizm fəaliyyətləri və Avropadakı bəzi xristian gənclərin düşüncələri məhz buradan qaynaqlanır. Avropada islamafobiyanın davam etməsindən irəli gələn bu fəaliyyətlər nəticəsində terror fəaliyyətləri davam etməkdədir.

**İrqi terrorizm**

İrqi terrorizm də bu fəaliyyətlər içərisində xüsusi önəm daşıyır. Bu terror fəaliyyətlərinə soyqırım amili daxildir. Belə ki, ABŞ-da hindulara qarşı həyata keçirilən XVIII-XIX əsrlərdəki soyqırım faklarına məhz hindu Amerika irqinin yox edilməsi kimi amillər daxildir.

**Dövlət terroru**

Terror növlərindən birinə isə dövlət terroru daxildir. Bolşeviklər SSRİ dövlətini qurduqdan sonra Azərbaycan Xalq Cumhuriyyət nümayəndələrinə qarşı da terror fəaliyyətləri həyata keçirmişlər. SSRİ- də və Monqolustanda, Stalin və Çaybolsanın həyata keçirdiyi terror fəaliyyətləri, Çində "Tszaofanlar və Xunveybinlər, və digər ölkələrdə terror aktları və s daxildir. Bu terror fəaliyyətləri dövlətin müəyyən güc strukturları tərəfindən gizli şəkildə həyata keçirilir.Ona görə belə dövlətləri terror ölkəsi adlandırmaq daha düzgün olar. Məqalədə deyilir ki, hökumət terroru olaraq ortaya çıxan dövlət terrorizmi, ən köhnə və ən təhlükəli terrorizm şəkilidir. Dövlət terroru bir dövlətin öz vətəndaşlarına qarşı həyata keçirdiyi şiddət növüdür. (3)

**Kriminal terrorizm**

Məişət terroru bu terror növünə kriminal terror demək olar ki, bu terror növü də məişət zəminində baş verən faktlar daxildir.

Terrorizm bu gün də davam etməkdədir. Günahsız insanların bu cür fəaliyyətlərə məruz qalması təəssüflər olsun ki, dövlət orqanları tərəfindən qarşısı alına bilmir. Çünki gizli şəkildə həyata keçirilir və hətta bəzi dövlətlərin xüsusi xidmət orqanları burada iştirakçı qismində fəaliyyət göstərir. Ona görə belə demək mümkündür ki, terrorun qarşısı alınmazdır.

**Müharibə terrorizmi**

Terror növlərindən biri də müharibə terrorudur. Bu terror əsasən düşmən tərəflərin fəaliyyəti nəticəsində həyata keçirilir. Bunlara bəzən diversant qrupların mülki əhaliyə qarşı fəaliyyətləri, mülki əhalinin yaşadığı ərazilərin raket hücumlarına məruz qoyulması, mina terroru və s bu kimi amillər daxildir. Misal üçün Ermənistan və Azərbaycan arasında razılaşma bəyanatı imzalandıqdan sonra, ermənilər Azərbaycan ərazilərində çoxlu sayda minalar basdırmışlar. Bu minalar mülki əhaliyə qarşı yönəlmiş terror formasıdır.

**İqlim terroru**

Bu terror növü müasir dünyada mövcud olan müharibələr zamanı xüsusilə istifadə olunan formalardan biridir.

İqlim terroruna müasir dövrdə Türkiyə Respublikasında meşələrin yandırılması kimi terror növü daxildir. Belə ki, Türkiyə Respublikasında turizmə zərbə vurmaq, türk dövlətini zəiflətmək məqsədilə həyata keçirilən bu forma, meşələrin yandırılması ana təbiətə çox böyük ziyan vurmaqdadır.

İqlim terroruna ermənilərin Azərbaycan ərazisində həyata keçirilən taxıl sahələrinin yandırılması, meşələrin yandırılması, bunun nəticəsində canlı aləmin məhv olması daxildir. İkinci Qarabağ müharibəsi zamanı ermənilərin Mingəçevir su anbarını vurmağa çalışması da iqlim terroruna aid edilə bilər.

İqlim terroruna İran dövlətində Urmiya gölünün qurudulması kimi amillər də daxildir. Belə ki, Urmiya gölünün qurudulması İranda yaşayan türk xalqına qarşı həyata keçirilən terror formalarından biridir.

**Nəticə**

XX əsrin 90-cı illərindən başlayaraq terror təşkilatları çoxalmağa başladı. Demək olar ki, yeni terror epopeyası başladı. Əksər Asiya və Afrika ölkələrində transmilli terror təşkilatları meydana çıxdı. Bu terror təşkilatları terror həyata keçirərkən hansısa dövləti dilinə və dininə görə ayırmadılar. Demək olar ki, həm müsəlman dövlətlərində, həm də xristian dövlətlərində terror fəaliyyətləri həyata keçirildi. Bəzi dövlətlər bu terror təşkilatlarını dəstəkləməyə başladılar. Məqalədə belə terror təşkilatları barədə məlumat verilmişdir.

Məqalədə terrorizmin növləri araşdırılmış, ilk dəfə olaraq terror növləri elmi dövriyyəyə cəlb edilmişdir. Məqalədə terrorizmin əksər növləri analiz edilmiş, yeni formaları tapılmış və araşdırılmışdır.

**Açar sözlər:** *Terror, şiddət, qorxu, sui-qəsd, terror növləri*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. www. tasam.org. Gamze Helvacıoğlu. Terror nedir.*

*2. www.elibrary.az. Qənbərova Elnarə Şahin qızı, terror anlayışı və onun müasir növləri*

*3. www. dergipark.org.tr. Murat Şimşek. Terörizm: Kavramsal Bir Çalışma*

**SUMMARY**

**İsrail Amirli**
***Baku State University***

**Terrorism and types of terrorism**

Terrorism has existed among mankind since ancient times. It can be said that terrorist activities are a type of assassination. A terrorist can commit terrorist activities against any group and individual. However, there are organizations that carry out terrorist activities in front of a nation. Terrorism is mainly carried out by certain individuals prepared by certain radical groups, sometimes concerned with some ideology (this includes the terrorist incidents of people blowing themselves up in the form of live bombs). Sometimes states are also participants in these terrorist incidents. It can be said that terrorism has no homeland. Terrorism is mostly possible to prevent.

**Key words:** *Terror, violence, fear, conspiracy, types of terrorism.*

**РЕЗЮМЕ**

**Исраил Амирли**
***Бакинский Государственный Университет***

**Терроризм и виды терроризма**

Терроризм существует среди человечества с древнейших времен. Можно сказать, что террористическая деятельность – это разновидность убийства. Террорист может совершать террористическую деятельность против любой группы и отдельного лица. Однако есть организации, которые осуществляют террористическую деятельность на глазах у нации. Терроризм в основном осуществляется отдельными лицами, подготовленными определенными радикальными группировками, иногда связанными с какой-либо идеологией (сюда входят террористические акты, когда люди взрывают себя в виде боевых бомб). Иногда государства также являются участниками этих террористических инцидентов. Можно сказать, что терроризм не имеет родины. Терроризм в большинстве случаев можно предотвратить.

**Ключевые слова:** *Террор, насилие, страх, заговор, виды терроризма.*

UOT321; 323
DOI:10.30546/3006-0346.2024.1.79.57

# SİYASİ TƏMSİLÇİLİKDƏ GENDER BƏRABƏRSİZLİYİ: SƏBƏBLƏR, TƏHLİL VƏ NƏTİCƏLƏR

**AYAN ZEYNALLI**
*BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin "Beynəlxalq münasibətlər və diplomatiya" ixtisası üzrə II kurs magistrantı*
*E-mail: zeynalliayan01@gmail.com*

"Soyuq müharibə" başa çatdıqdan sonra demokratik inkişafın əsas xüsusiyyətlərindən biri siyasi həyatda qadınların fəaliyyətinin genişlənməsidir. Qadınlara mülki hüquqların verilməsi idarəçilikdə yeni standartların yaradılması və həm daxili, həm də xarici siyasətdə yeni qaydalara uyğunlaşması tələb olunurdu. Qadınların iştirakının müasir dövrdə siyasi proseslərin dinamikasına təsirini qiymətləndirmək üçün gender asimmetriyasının öyrənilməsi mühümdür. Gender ölçülərinin əsas göstəriciləri ilə tanış olduqdan sonra onu deməyə əsas olur ki, bəyan olunmuş və faktiki bərabərlik arasında ziddiyyət var.

A.Leyphart qadınları kəmiyyət mənasında deyil, "siyasi azlıq" olaraq xarakterizə edir[1,s.77]. R.Dal qeyd edir ki, "qadınların siyasi həyatdan uzaqlaşdırılması yalnız qadın olduğu" faktına görədir.[2, s.34] C.E.Tiknerin fikrinə görə qadınların təmsilçiliyi elit postlarda az sayda olur, ictimai siyasətdə isə çoxdur.. Beynəlxalq münasibətlər və siyasət - kişilərin hakim olduğu arenadır.[3, s.133]. Beləliklə, istər bir dövlət, istərsə də, beynəlxalq aləmdə siyasətdə ənənəvi olaraq kişilər hökmrandır və qadınlar bu sahədə yalnız ən son yerlərdə ambisiyalarını reallaşdıra bilərlər.

Bununla belə son onilliklərdə qadınların siyasətdə təmsilçiliyində dəyişikliklər olduğunu, bəzi regionlarda qadınların hakimiyyət orqanlarında sayının artdığı görünür. Onu qeyd etmək lazımdır ki, həmin region və ölkələrdə gender məsələləri heç də aktual olmamış, qadın hüquqları uğrunda hərəkat demək olar ki, heç olmamış, qadınlar özləri də siyasi uğurlarını heç də çoxdan gözlənilən bir hadisə hesab etmirlər. Əksinə, gender məsələlərinin hər zaman qaldırıldığı regionlarda heç də gender assimmetriyasının düzəldiyi müşahidə olunmur. Bəzi suallar yaranır- fərqli ölkələrdə qadınların siyasi təmsilçiliyinin dünya konfiqurasiyasının dəyişməsinin səbəbi həqiqətənmi qərar qəbuluna təsir edirlər, yoxsa onlagender asimmetriyasının azaldılması ilə cəmiyyətin demokratikləşmə səviyyəsinin yüksəldilməsi arasında korrelyasiyadan danışmaq olarmı?

Gender asimmetriyası - siyasi sahədə kişi və qadınların ictimai-siyasi mövqelərinin və statuslarının bərabərsizliyinin xarakterik xüsusiyyətidir. Aydındır ki, gender bərabərsizliyinin vəziyyəti formal institutların (ilk növbədə gender bərabərliyini təmin edən hüquqi normaların) siyasətdə gender balansının strukturuna zəif təsirini nümayiş etdirir və praktikada ənənəvi gender sisteminin qeyri-formal institusional qaydalarını müəyyən etməyə imkan verir. Başqa sözlə, dövlət və vətəndaşlar gender bərabərliyinin maksimumlarını rəsmən bəyan edən qanunlardan daha çox ənənəvi həyat tərzinə əsaslanan "yazılmamış qanunlara" (adət hüququ) qaydalarının üstünlük verirlər. Bu kontekstdə gender bərabərliyinə qeyri-rəsmi institusional məhdudiyyətlər ilk növbədə iki amillə izah edilə bilər. Birincisi, hər yerdə gender münasibətləri sisteminin formalaşdığı cəmiyyətin tarixi inkişafı. İkincisi, gender asimmetriyası indiki gender normalarının keçmişin qaydalarının təkrarlayan cəmiyyətin tarixi yaddaşı ilə müəyyən olunmasıdır.

Demək olar ki, XX yüzilliyin əvvəllərindən etibarən qadınların vətəndaş hüquq və azadlıqlarının əldə edilməsi uğrunda mübarizənin başlanmasına baxmayaraq, siyasətin gender asimmetriyası saxlanılır. E.Giddensə görə: "Müxtəlif mədəniyyətlərdə qadın və kişilərin oynadığı rollar əhəmiyyətli dərəcədə fərqlənə bilsə də, qadınların kişilərdən daha çox gücə malik olacağı cəmiyyət hələ kəşf edilməmişdir. Hər yerdə qadınların qarşısında duran əsas vəzifə uşaq böyütmək və ev təsərrüfatını idarə etməkdir, siyasi və hərbi fəaliyyət isə, bir qayda olaraq, kişilərin səlahiyyətində qalır" [4, s.165].

Beləliklə, gender asimmetriyasının transformasiyasında mövcud qlobal tendensiyalar hansılardır? İlk növbədə, qadınların milli parlamentlərdə təmsil olunması baxımından aparıcı ölkələrin konfiqurasiyasının dəyişdirilməsini qeyd etmək lazımdır. Dünya parlamentlərinin fəaliyyətini əlaqələndirən beynəlxalq təşkilat- Parlamentlərarası İttifaqın (PİB) məlumatları əsasında 2019-cu il üçün parlamentlərdə qadınların təmsilçiliyinə görə müxtəlif regionlardan olan dövlətlərin vəziyyətinə diqqət edək: ilk yerləri Ruanda və Kuba götürür, Meksika(5), Birləşmiş

Ərəb Əmirliyi (4), İsvec (7), Fransa (21), Efiopiya (25), Çin (74), ABŞ (77), Sinqapur (81) yerləri bölüşürlər [WNP,2016]. Müqayisə üçün Parlamentlərarası İttifaqın 2023-cü il üçün təqdim etdiyi siyahıya baxaq: yenə Ruanda 61.3% birinci, Kuba 55,7%-lə ikinci yerdədir, Birləşmiş Ərəb Əmirliyi (6-cı yer, 2 pillə geriləyib), İsveç (9-cü yer, 2 pillə geriləyib), Fransa (35-ci yer, 14 pillə geriləyib), Efiopiya (26-cı yer, 2 pillə geriləyib), Çin (88-ci yer, 14 pillə geriləyib), ABŞ (70-ci yer, 7 pillə irəliləyib), Sinqapur (69-cu yer, 12 pillə irəliləyib) (Cədvəl 1). Beləliklə, rəqəmlər müxtəlif ictimai-siyasi göstəricilər, o cümlədən gender bərabərliyi baxımından fərqli fikirlər formalaşdırır. Ruand və Kuba qadınların təmsilçiliyində ilk sıraları heç demokratiyanın yüksək səviyyədə olduğu Avropa dövlətlərinə belə vermir. Qərbi Avropanın demokratik ölkələrində qadınların parlamentdə təmsilçiliyində həm İsveç, həm də Fransanın yerlərində geriləmə olduğunu görürük. Birləşmiş Ərəb Əmirliyinin iki pillə gerilədiyini görsək də, maraqlı haldır ki, həm 2019-cu ildə [5], həm də 2023-cü ildə [6] ilk onluqdadır.

Belə suallar yaranır: gender asimmetriyasının verilmiş rəqəmləri/kəmiyyət göstəriciləri sosial uğurlara uyğun gəlirmi? Yaxud əksinə, Şimali Afrika və Latın Amerikası və Asiyada siyasi təmsilçilikdə qadınların sayının artmasının qadınların siyasi proseslərə təsirinin artması kimi qəbul etmək olarmı?. Sadalanan ölkələrin parlamentində qadınların kəmiyyət artımı müsbət ayrı-seçkilik tədbirləri hesabına baş verib. 1990-cı illərdə qeyd olunan regionlarda BMT-nin Qadınların İnkişafı Komissiyasının tövsiyələrinə uyğun olaraq qadınların təmsilçiliyinin artırılması ilə bağlı kvotalar tətbiq olunub. Deyə bilərik ki, BMT öz növbəsində, bu ölkələrdə əvvəllər mövcud olmayan, lakin indi ikinci və üçüncü modernləşmə regionu ölkələrini köhnə demokratiya ölkələrinə yaxınlaşdıran demokratik təsisatların inkişafına müsbət təsir edə bildi. Aydındır ki, belə qısa müddətdə qadınların effektiv idarəetmə üçün kifayət qədər potensial toplamaq imkanı yoxdur. Bundan əlavə, kvotaların ləğvi (və dünya təcrübəsinin göstərdiyi kimi, belə prosesləri istisna etmək olmaz) bütün gender balansını poza bilər.

**Cədvəl 1. (cədvəl müəllif tərəfindən hazırlanmış, ölkələrin seçimi məqalədə müqayisəli təhlil və maraq sahəsi olaraq seçilmişdir)**

| | Ölkələr | Parlametdəki yerlərin sayı | Qadınların sayı | % | Pİ hesabatda 2023 | Pİ hesabatında 2019 |
|---|---|---|---|---|---|---|
| 1. | Ruanda | 80 | 49 | 61,3 | 1 | 1 |
| 2. | Kuba | 470 | 262 | 55,7 | 2 | 2 |
| 3. | Meksika | 500 | 250 | 50,00 | 5 | 5 |
| 4. | Birləşmiş Ərəb Əmirliyi | 40 | 20 | 50 | 6 | 4 |
| 5. | İsveç | 349 | 162 | 46,40 | 9 | 7 |
| 6. | İspaniya | 350 | 155 | 44,30 | 17 | 6 |
| 7. | Namibiya | 104 | 46 | 44,20 | 18 | 10 |
| 8. | Danimarka | 179 | 78 | 43,60 | 19 | 24 |
| 9. | Argentina | 257 | 111 | 43,20 | 20 | 20 |
| 10. | Mozambik | 250 | 108 | 43,20 | 21 | 17 |
| 11. | Efiopiya | 472 | 195 | 41,30 | 26 | 25 |
| 12. | Peru | 129 | 50 | 38,80 | 30 | 51 |
| 13. | Burundi | 123 | 47 | 38,20 | 34 | 32 |
| 14. | Fransa | 577 | 218 | 37,80 | 35 | 21 |
| 15. | Özbəkistan | 140 | 47 | 33,60 | 51 | 130 |
| 16. | Nepal | 272 | 90 | 33,10 | 54 | 38 |
| 17. | Vyetnam | 499 | 151 | 30,03 | 64 | 64 |
| 18. | Sinqapur | 103 | 30 | 29,10 | 69 | 81 |
| 19. | Amerika Birləşmiş Ştatları | 435 | 126 | 29,00 | 70 | 77 |
| 20. | Çin | 2977 | 790 | 26,5 | 88 | 74 |
| 21. | Azərbaycan | 118 | 22 | 18,6 | 126 | 119 |
| 22. | Rusiya Federasiyası | 450 | 74 | 16,4 | 140 | 133 |

*Göstəricilər milli parlamentlər tərəfindən verilmiş məlumatlar əsasında Parlamentlərarası İttifaq tərəfindən hazırlanmış cədvəldən götürülmüşdür. Mənbə:https://data.ipu.org/women-ranking?month=12&year=2023*

BMT-nin İnkişaf Proqramı tərəfindən dərc edilən Gender Bərabərsizliyi İndeksinin (GGG) rəqəmlərinə diqqət edək. Bu sıralama üç əsas sahədə gender bərabərsizliyinə baxır: 1) reproduktiv sağlamlıq; 2) səlahiyyətləndirmə; 3) iqtisadi fəaliyyət. Xüsusi kateqoriyalar da fərqləndirilir: 1) ana ölümü nisbəti; 2) yeniyetmələrin doğum səviyyəsi; 3) milli parlamentdəki yerlər; 4) ən azı orta təhsilli əhalinin faizi (qadınların və kişilərin nisbəti); 5) işçi qüvvəsinin faizi (qadınların və kişilərin payı) (GGG).

2023-cü il Gender Bərabərsizliyi İndeksinə əsasən, insan inkişafı və gender bərabərliyi çox yüksək səviyyədə olan ölkələr – İslandiya, Norveç, Finlandiya, Avstraliya, Yeni Zelandiya İsveç, Almaniya ilə yanaşı Nikaraquna (7 yer), Namibiya (8 yer), Latviya (8 yer) və Belçika (9 yer) yer alır. Azərbaycan 149 ölkə sırasında 97, Türkiyə 129-cu yerdədir. Ruanda 12-ci yerdədir və insan inkişafı və gender bərabərliyi yüksək səviyyədə olan ölkələr sırasındadır[8].

Siyasətdə gender asimmetriyalarının bərabərləşdirilməsini təmin edən daha bir aspekt, yəni qadın

dövlət və hökumət başçılarını da qeyd etmək mütləqdir. Beləliklə, 2023-cü ildə dünyanın ən nüfuzlu qadınlarının ilk onluğuna Forbes-ə görə Avropa Komissiyasının prezidenti Ursula Von der Leyen (1-ci yer), Avropa Mərkəzi Bankının prezidenti Cristine Lagarde (2-ci yer), ABŞ-ın Vitse prezidenti Kamala Harris (3-cü yer), İtaliyanın Baş naziri Georgia Meloni (4-cü yer) daxil edilib [9]. Demək, siyasətdə olan qadınlar həm də dünyanın ən nüfuzlu qadınları sırasına da daxil ola bilirlər.

Nəticə olaraq onu qeyd edə bilərik ki, hazırda siyasətdə gender bərabərliyi sahəsində liderlər əvvəllər gender yönümlü olmayan dövlətlərdir. Bununla belə, siyasətdə gender asimmetriyasının qlobal konfiqurasiyasında dəyişikliklərin kəmiyyət göstəricilərini onların regionlarında siyasi proseslərə qadınların təsir dərəcəsinin artması və onlarda demokratikləşmənin artması ilə birmənalı şəkildə əlaqələndirmək mümkün deyil. Bu ölkələrdə qadınların formal qaydaların köməyi ilə inteqrasiya olunduğu siyasi institutlar hələ də öz işlərində təcrübə toplayırlar və yeni siyasi yüksəliş təkcə gender komponenti ilə deyil, inkişaf strategiyası ilə müəyyən ediləcək. Siyasətə gender bərabərliyi demokratik üstünlükləri hələ də ən zəngin siyasi təcrübəyə malik ölkələrdə əldə oluna bilib. Bir daha bunu vurğulayırıq ki, zehni anlayışa deyil, formal olanlara əsaslanan gender bərabərliyi nailiyyətlərinin bir gecədə itirilmək təhlükəsi yüksəkdir.

Bir tərəfdən siyasətdə qadınların sayını istənilən yolla artırmaq qadınları bu sahədə öz fəaliyyət strategiyaları axtarmağa, digər tərəfdən isə ənənəvi gender normalarının tarixi yaddaşını transformasiya etməyə məcbur edir. Lakin bu gün dünya siyasətində gender asimmetriyasının aradan qaldırılması problemi həll olunmaqdan uzaqdır və növbəti onilliklərin məsələsi olaraq qalır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Lijpart A., Constitutional alternatives for new democraties. Political Studies. Pp/72-84 https://muse.jhu.edu/article/225619/pdf*

*2. Robert A.Dahl. On Democracy/ Yale University Press. 2000, 217p.*

*3. Тикнер Дж.Энн, Полывянный Д.И. (ред.), Мировая политика с гендерных позиций. Проблемы и подходы эпохи, наступившей после «холодной войны». Культурная революция. М.: 2006, - 336с.*

*4. Гидденс Э. Социология. Москва: Эдиториал – УРСС- 704с. ICBN 5-901006-82-8*

*5. Global Gender Gap Index Results in 2023. Retrieved from: http://reports.weforum.org/global-gender-gap-report-2023/the-global-gender-gap-index-results-in-2023/*

*6. Women in National Parliaments. (2019). Retrieved from: http://www.ipu.org/wmn-e/classif.htm*

*7. Women in National Parliaments. (2023). Retrieved from: http://www.ipu.org/wmn-e/classif.htm*

*8. https://www3.weforum.org/docs/WEF_GGGR_2023.pdf*

*9. https://www.forbes.com/pictures/656e27e47ca2ad2038330ec6/10-melinda-french-gates-c/?sh=-1bffa4916a55*


**Ayan Zeynallı**

## SİYASİ TƏMSİLÇİLİKDƏ GENDER BƏRABƏRSİZLİYİ: SƏBƏBLƏR, TƏHLİL VƏ NƏTİCƏLƏR

### XÜLASƏ


Müasir dövrdə gender bərabərliyinin təmin olunması problemləri müxtəlif elm sahələrinin, eləcə də siyasi elmlərin diqqət mərkəzindədir. Araşdırmalar göstərir ki, tədqiqatçıların əksəriyyəti, gender bərabərsizliyi dedikdə, məhz qadınların hüquqlarının məhdudlaşdırılması kimi qəbul edir və bunun aradan qaldırılması üçün həlli lazım olan məsələləri təhlil edirlər. İlk növbədə, "gender asimmetriyası" anlayışının müxtəlif mənalarının metodoloji əhəmiyyəti müəyyən edilir: siyasi qərar qəbulu sahəsində kişi və qadınların qeyri-bərabərliyi kimi assimmetriya; qadın və kişilərin siyasi fəaliyyətinin qiymətləndirilməsinin qeyri-bərabərliyi kimi assimmetriya; qadın və kişilərin siyasətdə irəliləməsi üçün institusial imkanların fərqi kimi asimmetriya. Dünya ölkələrinin bəzilərində parlamentlərdə qadınların sayının artması heç də qadınların siyasi proseslərdə təsirinin artması və demokratikləşmə demək deyil. Eyni zamanda göstərilir ki, (dünya reytinqlərinin nəticələrinə əsasən— IPU, GGG, GII) siyasətdə gender asimmetriyasının kəmiyyət göstəriciləri ölkənin siyasi qiymətinə təsir etsə də, bu, həmişə obyektiv olmur. Məqalədə, qeyd olunan məsələlərə bir daha aydınlıq gətirilir və statistik məlumatlarla fikirlər əsaslandırılır.


**Açar sözlər:** *siyasətin gender asimmetriyası, dünya ölkələrində parlamentlərdə qadınların siyasi təmsilçiliyi, ənənəvi gender normaları.*

**Аян Зейналлы**
***Факультет Международные Отношения и Экономика БГУ, специальность «Международные Отношения и Дипломатия», магистрант 2 курса***

# ГЕНДЕРНОЕ НЕРАВЕНСТВО В ПОЛИТИЧЕСКОМ ПРЕДСТАВИТЕЛЬСТВЕ: ПРИЧИНЫ, АНАЛИЗ И ПОСЛЕДСТВИЯ

## РЕЗЮМЕ

Современные проблемы обеспечения гендерного равенства находятся в центре различных областей науки, в том числе и политологии. Результаты научных работ показывают, что большинство исследователей рассматривают гендерное неравенство как ограничение прав женщин и анализируют вопросы, необходимые для его устранения. Прежде всего, определяется методологическая значимость различных значений понятия «гендерная асимметрия»: асимметрия как неравенство мужчин и женщин в сфере принятия политических решений; асимметрия как неравномерность оценок политической активности женщин и мужчин; асимметрия как разница в институциональных возможностях для продвижения женщин и мужчин в политике. Увеличение числа женщин в парламентах некоторых стран мира совсем не означает что увеличивается влияние женщин в политических процессах и демократизации. При этом показано, что хотя количественные показатели гендерной асимметрии в политике (по результатам мировых рейтингов IPU, GGG, GII) влияют на политическую ценность страны, это не всегда объективно. В статье, еще раз уточняются упомянутые вопросы и обосновываются мнения статистическими данными.

**Ключевые слова:** *гендерная асимметрия политики, политическое представительство женщин в парламентах стран мира, традиционные гендерные нормы.*

**Ayan Zeynalli**
***BSU Faculty of International Relations and Economics, specialization in International Relations and Diplomacy, 2nd year master's student***

# GENDER INEQUALITY IN POLITICAL REPRESENTATION: CAUSES, ANALYSIS AND CONSEQUENCES

## SUMMARY

In modern times, the problems of ensuring gender equality are in the focus of various scientific fields, as well as political sciences. Studies show that the majority of researchers accept gender inequality as a limitation of women's rights and analyze the issues that need to be solved to eliminate it. First of all, the methodological importance of different meanings of the concept of "gender asymmetry" is determined: asymmetry as inequality of men and women in the field of political decision-making; asymmetry as the inequality of evaluation of political activity of women and men; asymmetry as the difference in institutional opportunities for women and men to advance in politics. In some countries of the world, the increase in the number of women in the parliaments does not necessarily mean an increase in the influence of women in political processes and democratization. At the same time, it is shown that although the quantitative indicators of gender asymmetry in politics (according to the results of world ratings—IPU, GGG, GII) affect the political evaluation of the country, this is not always objective. In the article, the mentioned issues are clarified once again and opinions are substantiated with statistical data.

**Key words:** *gender asymmetry of politics, political representation of women in parliaments in countries around the world, traditional gender norms.*

UOT 321.6/.8
DOI:10.30546/3006-0346.2024.1.79.61

# BEYNƏLXALQ TƏCRÜBƏDƏ İNFORMASİYA SİYASƏTİ

**FƏRİD BABAYEV**
*Bakı Dövlət Universiteti, magistrant*
*E-mail: feridbabyev@mail.ru*

## Giriş

İnformasiya siyasətinin məqsədləri düzgün oxunduqda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı fərqləri ortaya çıxarmaq lazım gəlir.

Əsrlər boyu düşünülmüş informasiya anlayışı insanların həyatını dəyişib. Cəmiyyətləri formalaşdıran və inkişaf etdirən əsas və mühüm elementlərdən biri olmuşdur. Xüsusilə Qədim Yunan dövründə başlayan fəlsəfi cərəyanların əsas mövzularından biridir. Bu səbəbdən informasiya yalnız fəlsəfi sahəyə xas məfhum kimi qəbul edilmişdir. Dəyişən bu şərtlərlə ortaya çıxan elmi fənlər əvvəllər yalnız fəlsəfənin mövzusu idi.

Elm sahələrinə görə dəyişən təriflərə əlavə olaraq, bu anlayışın daxil olduğu anlayışların mənası zamana və şəraitə görə dəyişir. Xüsusilə günümüzün texnoloji inkişafı göstərdi ki, informasiya təkcə fəlsəfənin bir hissəsi deyil. O, subyekt olmaqdan əlavə, satıla bilən dəyər kimi də mövcuddur. İnformasiya anlayışı emal olunana qədər onun keçdiyi proseslər (məlumat) nəticəsində müəyyən spesifik xüsusiyyətlər yaranır.

İnformasiya texnologiyalarının inkişafı ilə informasiya anlayışı yaranmışdır. Bu, əvvəlkindən daha vacib bir anlayışa çevrildi. Cəmiyyətlərin inkişafı müəyyən dövrlərdə sənaye potensialı ilə eyni səviyyələrdə özünü göstərir. Burada informasiya anlayışı əsas rol oynayır.

## Əsas hissə

20-ci əsrin sonlarına doğru "informasiya cəmiyyəti" adlı bir fenomen meydana çıxdı. İqtisadiyyatını biliyə əsaslandıran dövlətlər xüsusilə inkişaf etmişdir. Keçmişdə sənaye cəmiyyəti kimi tanınan cəmiyyətlər bu gün informasiya cəmiyyətləri kimi tanınır. Keçmişdən bu günə cəmiyyətdə öz dəyərini saxlayan və cəmiyyətlərə dəyər qatan informasiya anlayışıdır. İnformasiya anlayışı, iqtisadi, texnoloji və mədəniyyətşünaslıq baxımından inkişafın göstəricisidir.

İnformasiya-kommunikasiya texnologiyalarından və internetdən istifadənin artırılması fiziki şəxslərin, dövlətlərin və iri, kiçik biznesin bütün sahələrdə inkişafını təmin etdi. Buna görə də dövlətlər istehsal və asan idarəetməni təmin etmək üçün bəzi siyasətlər həyata keçirdi. Bu siyasətlər informasiya siyasəti kimi tanınır. Milli səviyyədə siyasətlər nəzərə alınmaqla ortaya çıxan siyasətlər milli məlumatdır.

Weingarten informasiya siyasətini dövlət siyasətinin bir sahəsi kimi müəyyən edir. İstehsal, istifadə, saxlama, ötürmə və təqdimatı həvəsləndirən və ya çəkindirən, tənzimləməni əhatə edən ictimai sektor qanunları, qaydaları və siyasətləri toplusu bütövdür" (1989: 17).

Y.A. Nisneviç informasiya siyasətinin mahiyyətini cəmiyyətin ictimai-siyasi və sosial-iqtisadi həyat sferalarında qarşılıqlı informasiya münasibətlərində və onları tənzimləyən proseslərin təkmilləşdirilməsində axtarır. Bu zaman o, sözügedən siyasətə hakimiyyət tərəfindən işlənib hazırlanan və həyata keçirilən strategiyada, taktikada, dövlət idarəçiliyinin vəzifələrində, idarəetmə qərarlarında və onun reallaşma metodlarında əks olunan milli maraqların məcmusu kimi yanaşır [2].

İ.Melyuxin isə dövlətin informasiya siyasətini təkcə telekommunikasiya, informasiya sistemi və ya kütləvi informasiya vasitələrini əhatə etməyən, eyni zamanda informasiyanın bütün növlərinin – işgüzar, əyləncəli, elmi-yaradıcı, yenilikçi və s. formalarının yaradılması, qorunması, emalı, nümayişi, ötürülməsi ilə bağlı bütün istehsal və əlaqə prosesinin məcmusu, dövlət orqanlarının fəaliyyətini tənzimləyən institut kimi müəyyən edir [3].

Beləliklə, ümumi nəticə kimi qeyd etmək olar ki, dövlətin informasiya siyasəti dedikdə, əsas etibarı ilə hakimiyyət orqanlarının informasiya sektorunun inkişafına yönəlmiş tənzimləyici fəaliyyəti başa düşülür. Burada informasiya texnologiyalarının, informasiya infrastrukturunun və informasiya resurslarının formalaşdırılması sisteminin yaradılması və tətbiq edilməsi üçün elmi-texniki, istehsal-texnoloji və təşkilati iqtisadi şəraitin yaradılmasını təmin etmək yeni əsrin əsas tələblərindən biri kimi yer alır.

Siyasi sistemdə kütləvi informasiya vasitələrinin oynadığı mühüm rol, onun siyasi həyata, cəmiy-

yətə təsiri dövlətin KİV sahəsində müəyyən siyasət yürütməsini şərtləndirir. KİV sahəsində dövlət siyasətinin həyata keçirilməsinin iki metoda ayırmaq mümkündür. Onlardan biri olan ideoloji metod artıq tarixin arxivinə çevrilən Sovetlər İttifaqında hökmran olmuşdur. KİV-in partiyanın “kollektiv təbliğatçısı, təşviqatçısı və təşkilatçısı” olduğu bir dönəmdə media partiya orqanlarının tabeliyində olmuş, senzuranın mövcudluğu isə KİV-in fəaliyyəti üzərində partiya nəzarətinin həyata keçirilməsini təmin etmişdir. Belə bir standart vəziyyət SSRİ-nin tərkibinə daxil olan bütün dövlətlər, o cümlədən Azərbaycan üçün də istisnasız olaraq keçərli olmuşdur. SSRİ-nin süqutu ilə KİV üzərində ideoloji nəzarət də aradan qalxdı. Lakin hazırda dünyanın bir sıra avtoritar və totalitar rejimlərinin hakim olduğu ölkələrdə KİV üzrərində ideoloji nəzarət həyata keçirilməkdədir.

KİV sahəsində dövlət siyasətinin reallaşmasının iqtisadi metodu da mövcuddur ki, ondan birbaşa və yaxud dolayısı ilə istifadə olunur. Dolayı yol, təsir media bazarının dövlət tənzimlənməsini nəzərdə tutur və reklamların, poçt xidmətlərinin və digər güzəştli şərtlərin konsentrasiyasını, tənzimlənməsini özündə ehtiva edir. Birbaşa təsir isə plüralizmin dəstəklənməsi və ya müəyyən media layihələrinin maliyyələşdirilməsi məqsədilə KİV-ə dotasiya ayrılması şəklində yer alır.

Müasir dönəmdə KİV həm də cəmiyyətin, müxtəlif sosial qrupların, ayrı-ayrı şəxslərin maraqlarını əks etdirən əsas vasitələrdən biridir. Onun fəaliyyəti vacib ictimai-siyasi əhəmiyyət daşıyır. Çünki auditoriyaya ünvanlanmış informasiyanın xarakteri KİV-in ictimai proseslərə münasibətini də müəyyən edir. Bu səbəbdən əksər politoloqların da etiraf etdiyi kimi, KİV-in funksiyası yalnız informasiya, məlumat verməklə kifayətlənmir, o həm də müəyyən ideyaları, baxışları, təlimləri, siyasi proqramları təbliğ edir və bununla da sosial idarəçilikdə iştirak edir. Başqa sözlə, KİV siyasətin əsas subyektlərindən birinə çevrilir, ictimai rəyin formalaşdırılması ilə müəyyən sosial quruluşun işlənib hazırlanmasında yaxından iştirak edir. Bu mənada informasiya siyasətinin subyekti kimi istənilən sivil dövlət tərəfindən KİV-in fəaliyyətinə xüsusi diqqət yetirilir. Həmçinin, belə bir məqam da yaddan çıxarılmamalıdır ki, informasiya siyasətinin hazırlanıb həyata keçirilməsində bir vasitə olaraq KİV müstəsna rol oynayır. İnformasiya siyasəti isə subyektin informasiyanın bütün növlərinin formalaşdırılması, emalı, saxlanması və yayılması yolu ilə cəmiyyətdə öz maraqlarını aktuallaşdırması və reallaşdırmasıdır [8].

Hazırda informasiya texnologiyalarının dinamik inkişafı ilə bağlı olaraq dövlətin media sahəsində siyasətinin əsas istiqamətlərinin məzmununda da bir sıra dəyişikliklər baş vermişdir. Burada ilk növbədə informasiyalaşdırma amilinə diqqət yetirmək vacibdir. Bu amilin məğzində dayanan əsas cəhət informasiya-kommunikasiya texnologiyalarını tətbiq etməklə vətəndaşların informasiya tələbatının ödənilməsi üçün optimal şəraitin yaradılmasıdır. İndi müasir dünyada sürətli tərəqqini şərtləndirən əsas məqamlardan biri məhz bununla bağlıdır. Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur.

İnformasiya cəmiyyətinin əsas xüsusiyyətləri sırasına aşağıdakılar aid edilir: qlobal informasiya mühitinin yaradılması; informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsi; sosial və iqtisadi fəaliyyətin yeni formalarının yaranması; informasiyanın əmtəəyə çevrilməsi; informasiya və bilik bazarının yaradılması və inkişafı; təhsil sisteminin təkmilləşməsi, demokratik inkişafın vacib şərti sayılan vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarını təmin edən mühitin yaradılması.

Müasir informasiya və telekommunikasiya texnologiyalarının inkişafı, dünyanın bir çox ölkələrinin kosmik sənaye ölkəsinə çevrilməsi də bu mərhələnin əsas xüsusiyyətlərindəndir. Çünki bütün bunlar informasiyaya cəmiyyətin çıxışını daha mütəhərrik hala gətirməklə yanaşı, yeni informasiya mühitinin formalaşdırılması ilə xarakterizə edilir. Digər tərəfdən, o da nəzərə alınmalıdır ki, hüquqi islahatların keyfiyyətcə yeni mərhələyə daxil olması, vətəndaş cəmiyyəti quruculuğunun dərinləşməsi və siyasi plüralizmin genişlənməsi cəmiyyətdə informasiyaya olan ictimai tələbatı daha da artırır ki, bu da dövlət informasiya siyasətinin məzmununa daha geniş müstəvidə təsir göstərməyə başalyır.

Beləliklə, bütövlükdə informasiya sektorunun cəmiyyət həyatında rolu daha da böyüyür. İnformasiya sektoru telekommunikasiya, informasiya sistemlərini və kütləvi informasiya vasitələrini, habelə hər növ (işgüzar, əyləncəli, elmi-tədris, xəbər və sair) informasiyaların yaradılması, mühafizəsi, işlənilməsi, nümayişi, ötürülməsi ilə bağlı istehsalın və

münasibətlərin məcmusunu əhatə edir [7].

Hazırda beynəlxalq siyasət aləmində dövlət tərəfindən geniş məzmunlu informasiya siyasəti həyata keçrilməkdədir. Onun əsasını vahid informasiya-telekommunikasiya məkanın yaradılması təşkil edir.

Beynəlxalq informasiya siyasətinin əsas vəzifələrini isə belə təsnifləşdirmək mümkündür:

• informasiya-telekommunikasiya infrastrukturunun modernləşdirməsi və onların
inkişaf etdirilməsi;

• milli informasiya resurslarından səmərəli istifadə, onlara azad çıxışın təmin edilməsi;

• vətəndaşların ictimai əhəmiyyət kəsb edən informasiyalarla təmin olunması;

• müstəqil kütləvi informasiya vasitələrinin inkişafı;

• informasiya cəmiyyətinin qurulması üçün zəruri normativ hüquqi bazanın yaradılması.

Bütün sivil ölkələrdə olduğu kimi, informasiya cəmiyyətinə keçid üçün ölkədə əlverişli şəraitin yaradılması Azərbaycan dövlətinin informasiya siyasətinin başlıca məqsədlərindən biridir. Azərbaycan Respublikasında informasiya cəmiyyətinin qurulması dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Hazırda təkcə Azərbaycanda yox, dünya səviyyəsində cəmiyyətin informasiyalaşdırması siyasəti və bunu özündə ehtiva edən sosial-iqtisadi, elmi-texniki proses xüsusi diqqət mərkəzindədir və geniş tədqiqat predmetinə çevrilmişdir.

İnformasiyalaşdırmanın uğurlu elmi tərifi A.D. Ursul tərəfindən verilmişdir: "İnformasiyalaşırma – informasiya cəmiyyətini qurmaq məqsədilə informasiyanı idarəetmə resursu kimi əldə edən və informasiya vasitələrinin köməyilə inkişaf etdirilən sistemli fəaliyyət prosesidir. Bunun əsasında sivilizasiyanın növbəti mütərəqqi forması yaranır" [9].

Müasir dünya təcrübəsi birmənalı şəkildə təsdiq edir ki, informasiya cəmiyyətinə keçid üçün əlverişli şəraitin yaradılmasında dövlət aparıcı rol oynayır və müvafiq qanunvericilik bazasının formalaşdırılması, mütəmadi olaraq təkmilləşdirilməsi, ölkə daxilində informasiya texnologiyalarının tətbiqi ilə bağlı fəaliyyəti bunu təsdiq edir.

Hazırda beynəlxalq informasiya siyasətinin bir sıra bazis elementləri də özünü açıq şəkildə biruzə verməkdədir. Buna misal olaraq informasiya siyasəti ilə bağlı görülən bütün əsas tədbirlərin beynəlxalq cəmiyyətdə, onun strukturları arasında açıq müzakirə predmetinə çevrilməsini, ictimai rəyin nəzərə alınmasını göstərmək olar. Eyni zamanda, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, informasiya fəaliyyətinin bütün iştirakçılarının marağı bu siyasətdə nəzərə alınır. Lakin burada ən başlıca maraq faktoru dünya əhalisinin sosial maraqlarının təmin edilməsi ilə bağlıdır. Sosial sferada informasiyanın inkişafına yönələn siyasətin suybektlərinə dövlət tərəfindən maliyyə və digər maddi yardım göstərilməsi də mühüm element kimi qeyd olunmalıdır.

Müasir beynəlxalq aləm üçün informasiya siyasəti sferasında əsas cəhətlərdən biri vətəndaş cəmiyyətinin inkişafı, dövlət və cəmiyyət, hakimiyyət və xalq arasında konstrkutiv dialoqun qurulması istiqamətində mühüm nailiyyətlərin əldə olunmasıdır. Ən nəhayət, beynəlxalq informasiya siyasətinin əsas bazis elementlərindən biri kimi informasiya sferasında qarşıya çıxan istənilən problemin həlli üçün administartiv deyil, hüquqi çözümün prioritet olması qeyd edilməlidir. İstənilən halda isə aydın görünür ki, informasiya siyasəti müasir cəmiyyətin sosial strukturuna söykənir.

Hazırda sosial inkişafı əsas məqsədlərindən biri açıq informasiya cəmiyyətinin qurulmasıdır. Bu kontekstdə sosial və siyasi proseslərə getdikcə daha çox insan cəlb edilir.

Cəmiyyətə böyük təsir gücünə malik olan medianın rolu ayrıca qeyd olunmalıdır. Real vəziyyət göstərir ki, qlobal miqyasda təsir dairəsinə malik sosial şəbəkələrin də mövcud olduğu, informasiyanın isə transmilli xarakter daşıdığı indiki dövrdə milli maraqların media üzərindən ön plana keçməsi məxsusi əhəmyyət kəsb edir. Müsbət nəticəyə nail olmaq üçün media vasitələri milli maraqları öz fəaliyyətlərində hər şeydən üstün tutmalı, vətəndaşları, cəmiyyəti vahid məqsəd uğrunda səfərbər etməyi bacarmalıdırlar.

## Nəticə

İnformasiya siyasəti beynəlxaql siyasətin vacib istiqamətlərindən biridir. Dövlət mexanizmi siyasətlə yanaşı, siyasi mübarizənin də fəal subyekti qismində çıxış etməklə həmin mübarizənin qayda, sərhəd və formalarını qanunvericilik əsasında təmin edir, bu sahədə hüquq-mühafizə və hüququn tətbiqi praktikasını həyata keçirir, həmçinin bu mübarizədə qanunun imkan verdiyi çərçivədə dövlət hakimiyyətinə malik subyektin tərəfində çıxış edir. Tədqiqat işində konkret empirik nəticələrə gəlməyə imkan

verən məsələlərdən biri də KİV-informasiya siyasəti tandemidir.

Beynəlxalq informasiya siyasətinin formalaşmasında KİV-in rolu onun siyasi imkanları ilə müəyyən olunur. Bu müstəvidə dövlət KİV-ə dəstək verilməsində və onun fəaliyyətinin tənzimlənməsində maraqlıdır.

Dövlət informasiya siyasətinin əsas istiqamətlərini KİV sahəsində siyasət, medianı tənzimləyən qanunvericilik, KİV-in öz informasiya siyasəti, KİVdövlət informasiya siyasətinin qarşılıqlı münasibətləri təşkil edir.

Beynəlxalq cəmiyyət informasiya siyasəti təcrübəsində formalaşmış münasibətləri tənzimləyən geniş hüquqi və nəzəri-siyasi bazaya malikdir. Həmin sənədlərin mövcudluğu dövlətin informasiya-kommunikasiya infrastrukturunun daha səmərəli yüksəlişinə təkan verər, cəmiyyətin bütün sferalarında informasiya və biliyin istehsal və istehlakına əlverişli şərait yarada, insan faktoru və informasiya mühitini dövlət idarəçiliyi sferasının təkmilləşdirilmə bazası kimi inkişaf etdirə, informasiya inkişafı proseslərinin normativ-hüquqi tənziminin təkmilləşdirilməsinə töhfəsini verərdi.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Niyazov X. Cəmiyyət və İnformasiya: nəzəri siyasi aspektlər və təcrübə (məqalələr toplusu) – Bakı: Elm, 2019, 644 s.*
2. *Surowiecki, James.: 2002 "The New Economy Was a Myth, Right?", http://www.wired.com/wired/archive/10.07/Myth.html?pg=1&topic=&topic_set=,19.04.2012.*
3. *Uçkan, Özgür.: 2006 "Bilgi Politikası ve Bilgi Ekonomisi: Verimlilik, İstihdam, Büyüme ve Kalkınma", Bilgi Dünyası, 7, (1), s. 23-48*
4. *Индустрия российских средств массовой информации. Проект доклада на общероссийской отраслевой конференции "Индустрия СМИ: направления реформ", Москва, 2000.*
5. *Нисневич Ю.А., "Информация и власть," Москва, Мысль, 2000.*
6. *Попов В.Д., "Информациология и информационная политика," Москва, РАГС, 2001.*
7. *Попов В.Д., Информациология и информационная политика. Москва, РАГС, 2001.*
8. *Урсул А.Д., Информатизация общества. Москва, Наука, 1990*


## XÜLASƏ


Müasir dünya durmadan yeni inkişaf və dəyişikliklər yaşayır. Bu inkişaf və dəyişikliklər həm də iqtisadi, sosial, mədəni və siyasi sistemləri yenidən formalaşdırır və nəzərdən keçirilməsini tələb edir. Halbuki bu dəyişikliklər inkişaf etmiş ölkələrdə baş verir.

Bir çox sahədə edilən dəyişikliklər sayəsində məlumatlara və məlumat mərkəzlərinə geniş önəm verilmişdir. Bu inkişaf nəticəsində ölkələrin onları düzgün idarə etmək üçün "Milli İnformasiya Siyasətləri" kimi siyasi alətlər meydana çıxmışdır. İnformasiya siyasətinin milli və beynəlxalq arenalarda əks olunmasını nəzərə alsaq, bu siyasətlərin zəruriliyi ilə bağlı ortaq bir anlayış olduğunu görərik. Bununla belə, ölkələr müxtəlif sosial-iqtisadi, siyasi, mədəni, texnoloji və bəzi fərqləri ortaya qoyur. Vacib olan odur ki, bu kimi fərqlərə baxmayaraq, informasiya siyasətinin məqsədlərinə düzgün nail olunur və burada əsas məqsəd onun ictimai inkişafa təsirini üzə çıxarmaqdır. Məqalədə beynəlxalq təcrübədə informasiya siyasətinin əsas xarakterik cəhətləri araşdırılmışdır.



**Açar sözlər:** *informasiya, siyasət, təcrübə, beynəlxalq, məlumat*


## INFORMATION POLICY IN INTERNATIONAL PRACTICE


**Farid Babayev**

***Baku State University, magistrant***


## SUMMARY


The modern world is constantly experiencing new developments and changes. These developments and changes are also reshaping economic, social, cultural and political systems and require revision. However, these changes are taking place in developed countries.

Due to changes in many areas, information and data centers have been given a lot of importance. As a result of this development, political tools such as "National Information Policies" have emerged for countries to manage them properly. If we take into account the reflection of information policy in national and international arenas, we will see that there is a common understanding of the necessity of these policies. However, the countries reveal various socio-economic, political, cultural, technological and

some differences. What is important is that despite such differences, the goals of information policy are properly achieved and the main goal here is to reveal its impact on social development. The article examines the main characteristics of information policy in international practice.

**Keywords:** *information, policy, experience, international, information*

## ИНФОРМАЦИОННАЯ ПОЛИТИКА В МЕЖДУНАРОДНОЙ ПРАКТИКЕ

**Фарид Бабаев**

***Бакинский Государственный Университет, магистр***

**РЕЗЮМЕ**

Современный мир постоянно переживает новые события и изменения. Эти события и изменения также меняют экономическую, социальную, культурную и политическую системы и требуют пересмотра. Однако эти изменения происходят и в развитых странах.

В связи с изменениями во многих областях информационным центрам и центрам обработки данных придается большое значение. В результате этого развития появились политические инструменты, такие как «Национальная информационная политика», позволяющие странам правильно ими управлять. Если мы примем во внимание отражение информационной политики на национальной и международной арене, то увидим, что существует общее понимание необходимости этой политики. Однако между странами обнаруживаются различные социально-экономические, политические, культурные, технологические и некоторые различия. Важно то, что, несмотря на такие различия, цели информационной политики достигаются должным образом и главная цель здесь – выявить ее влияние на социальное развитие. В статье рассматриваются основные характеристики информационной политики в международной практике.

**Ключевые слова:** *информация, политика, опыт, международный, информация.*

УДК 327; 339.9
DOI:10.30546/3006-0346.2024.1.79.66

# ДИПФЕЙКИ, КАК РАЗНОВИДНОСТЬ МАССОВОЙ ЦИФРОВОЙ ДЕЗИНФОРМАЦИИ

**ЛЯМАН СУЛЕЙМАН-ЗАДЕ**
*Бакинский Государственный Университет, докторант*
*E-mail: lyama13@gmail.com*

На торжественном приеме по случаю Дня Республики в 2019 году Президент Азербайджанской Республики Ильхам Алиев заявил: «Азербайджан - страна, на протяжении многих лет являющаяся мишенью информационной войны. Искаженная, ложная информация, вымышленные факты, фиктивные новости о стране получили широкий размах. Мы должны адекватно отвечать на это, доводить до мира свои реалии».

12 октября 2023 г. Государственная служба специальной связи и информационной безопасности Азербайджанской Республики и Агентство развития медиа Азербайджанской Республики сделали совместное заявление, о распространенном в ряде сегментов социальных сетей видеообращении, якобы адресованном азербайджанскому народу от имени Президента Азербайджанской Республики господина Ильхама Алиева. Служба заявила, что упомянутое видеообращение является ложной не отражающей реальности информацией, созданной с использованием технологии «deepfake». Случаи создания и распространения фальшивых видеороликов с использованием технологии «deepfake», были выявлены и предотвращены и во время крупной анти-азербайджанской информационной интернет-кампании, определенно носившей характер использования технологий искусственного интеллекта, в сентябре-ноябре 2020 года в период 44-х дневной Отечественной войны.

Всего три десятилетия назад практические возможности отдельных лиц и организаций передавать изображения, аудио и видео (как подлинные, так и нет) были ограничены. Распространение информации на национальном и глобальном уровнях контролировали крупнейшие теле- и радиосети, газеты, журналы и книжные издательства. Хотя правительства, рекламодатели и видные политические деятели могли влиять на зарубежные средства массовой информации, большинству из них приходилось заниматься передачей контента лишь на локальном уровне. Информационная революция разрушила эту модель.

Обмен информацией в Интернете стал сложной проблемой, особенно в контексте различных глобальных взглядов на право слова, свободу выражения мнений, роль средств массовой информации и основные ценности Интернета. Хотя дискуссии о дезинформации существовали на протяжении тысячелетий, 2016 год ознаменовал переход в то, что некоторые называют «эрой постправды», когда информация, как правдивая, так и ложная, стала оружием политической борьбы. В конце 2016 г. Оксфордский словарь английского языка (OED) объявил «постправду» словом года. Оно определяется как «обстоятельства, при которых объективные факты оказывают меньшее влияние на формирование общественного мнения, чем обращение к эмоциям и личным убеждениям». По данным OED, использование этого термина увеличилось более чем на 2000% с 2015 г. - скорее всего, в связи с референдумом Соединенного Королевства о выходе из Европейского Союза и президентскими выборами в США, которые были окутаны кампаниями по дезинформации [10].

Проблемы дезинформации глубоко переплетены с развитием цифровых медиа. Они движимы государственными или негосударственными политическими субъектами, коммерческими субъектами, средствами массовой информации, гражданами, индивидуально или в группах - а также манипулятивным применением коммуникационных инфраструктур, которые используются для производства, распространения и усиления дезинформации в более крупных масштабах, чем раньше, часто новыми способами, которые до сих пор плохо обозначены и поняты. Так в отчете от 2022 г. неправительственной организации Freedom House, специализирующейся на исследованиях состояния политических и гражданских свобод, зарегистрировано две тенденции: снижение свободы Интернета и рост дезинформации в информационном поле. Среди 65 опрошенных стран более 30-ти занимались де-

зинформацией и влиянием на деятельность информационных агентств внутри и за пределами своих границ [7, с.2].

«Фейковые новости» (новая риторика сегодняшнего дня - общий термин, охватывающий все: от целевой рекламы до пропагандистских кампаний и новостных статей, созданных с целью обмана общественности) - стали серьезной угрозой публичному дискурсу и демократии. В сочетании с охватом и скоростью социальных сетей ложная информация способна моментально завладеть вниманием миллионов людей, оказывая негативное воздействие на общество в целом. Дезинформацию не так-то просто выявить и раскрыть, кампании по манипулированию информацией часто сочетают ее с элементами мизинформации (вводящие в заблуждение утверждения) и правдивой информации [12,с.1]. Трудно отследить источники дезинформации, проблематично установить действующие лица и тем более вопросы атрибуции, стоящие за фейковым контентом. Глобальное общество «постправды» изобилует ложными сообщениями, пропагандистскими машинами, предвзятыми алгоритмами, вредоносными приложениями искусственного интеллекта, ботами в социальных сетях и вводящими в заблуждение информационными кампаниями.

Одним из последних событий, усугубляющих проблему распространения дезинформации, с учетом того, что каждый пятый пользователь Интернета на сегодняшний день получает новости через видеохостинг YouTube, уступающий только социальной сети Facebook, стало появление дипфейков (комбинация двух терминов: глубокое обучение и фейки) - гиперреалистичных видеороликов, в которых применяется искусственный интеллект (ИИ).

Дипфейк - это название синтетических медиа, в которых человек на существующем изображении или видео заменяется своим подобием и одновременно общее название технологии «использования методов глубокого обучения для тренировки алгоритмов визуальных манипуляций» [1,с.7]. Фактором, меняющим правила игры в дипфейках, является масштаб и сложность задействованных технологий, поскольку практически любой, у кого есть компьютер или смартфон, может создавать фейковые видеоролики, практически неотличимые от подлинных медиа. В настоящее время программное обеспечение для дипфейков легко доступно для бесплатной загрузки (например, DeepFaceLab, DeepNude, FaceSwap, FakeApp, Zao), а сотни видеороликов на YouTube предлагают обучающие материалы для новичков. И хотя ранние дипфейковые материалы явно демонстрировали признаки манипуляции, благодаря технологическим новшествам с каждым днем их содержание становится все более убедительным. Дипфейки нацелены на платформы социальных сетей, где легко распространяются заговоры, слухи и дезинформация, поскольку непрекращающийся «информационный апокалипсис» подталкивает людей доверять информации, исходящей исключительно из них [14,с.2]. Причинами стремительного вирусного распространения дипфейков считаются три явления - динамика «информационного каскада», человеческое влечение к негативной и новой информации и «пузыри фильтров».

Чтобы бороться с дипфейками, необходимо понимать технологии, лежащие в их основе и причины их существования. Инновационная технология дипфейков использует мощные методы искусственного интеллекта и машинного обучения для создания видео- и аудио-контента с высоким потенциалом обмана и манипулирования. Методы машинного обучения, используемые для создания дипфейков, основаны на глубоком обучении нейронных сетей: генеративно-состязательных (GAN) и вариационных автокодировщиков (VAE) [2, с.2]. Основная идея заключается в одновременном обучении двух алгоритмов нейронной сети («дискриминатора» и «генератора») посредством состязательного и итеративного процесса на одном и том же наборе данных: изображений, видео или звуков. Первая пытается создать новые образцы, чтобы ввести в заблуждение вторую сеть, определяющую, является ли новый носитель подлинным. Со временем генератор учится выдавать все более реалистичные выходные данные, в результате чего дискриминатору становится все труднее отличать данные, на которых он обучался, от данных, создаваемых генератором. Этот двухуровневый производственный процесс позволяет сетям учиться на своих ошибках, корректируя алгоритмы и тем самым совершенствуя дипфей-

ки. GAN может просмотреть тысячи фотографий человека, создавая новый портрет, который на выходе будет соответствовать исходным фотографиям, не являясь точной копией ни одной из их. Нейронные сети анализируют большие наборы данных для имитации мимики человека, его манер, голоса и интонации, после чего передают видеозапись в алгоритм глубокого обучения для их преобразования [2, с.7].

Кто создает дипфейки? Существует как минимум четыре основных типа их производителей:

✓ иностранные правительства, политические игроки, политические агитаторы, хактивисты, террористы;

✓ злонамеренные субъекты и мошенники;

✓ законные субъекты, телевидение и средства массовой информации;

✓ сообщества любителей.[11, с.305]

Изначально дипфейки фокусировались на знаменитостях и корпоративных лидерах, ввиду большого количества исходного материала в Интернете: фотографий и видео необходимых для обучения систем искусственного интеллекта. Однако, в 2018 году дипфейки стремительно ворвались в политический мейнстрим. Самыми запоминающимися из них стали:

✓ Созданный Голливудским режиссером Джорданом Пилом видеофрагмент, представивший экс-президента США Б.Обаму, обсуждающего опасность фейковых новостей и высмеивающего на тот момент действующего президента Дональда Трампа.

✓ В аналогичном дипфейке того же года, Дональд Трамп называет изменение климата фальшивкой и озвучивает решение о выходе США из Парижского соглашения по климату. На сей раз видео было создано бельгийской социалистической политической партией SP.A с целью сбора подписей под онлайн-петицией, призывающей бельгийское правительство принять срочные меры по борьбе с изменением климата [8, с.633].

✓ В конце мая 2019 г. в Интернете распространилось видео с Нэнси Пелоси, на котором спикер Палаты представителей США выглядела пьяной и невнятно произносила слова. Видео на Facebook за считанные дни было просмотрено более 2,5 млн. раз, им поделились видные политические лидеры, что стало примером преднамеренно измененного аудио-визуального контента, усиленного эффектом социальных сетей [1, с.3].

✓ Чтобы подчеркнуть потенциальную угрозу дипфейков выборам 2020 года, демократическая партия США в том же году подделала собственного председателя Тома Переса.

✓ 2 марта 2022 г., вскоре после российского вторжения в Украину, на новостном сайте «Украина 24.1» появилось видеообращение президента страны Владимира Зеленского, умолявшего украинцев сложить оружие и сдаться. Неудивительно, что видео быстро распространилось в ВКонтакте, Telegram и других социальных сетях, где его подхватили и сообщили о нем многие мировые СМИ.

Обладая беспрецедентным уровнем реализма, скоростью и способностью персонализировать дезинформацию, дипфейки представляют собой серьезную угрозу обществу, политической системе и бизнесу поскольку:

✓ угрожают национальной безопасности путем осуществления идеологической пропаганды и внешнего вмешательства в политику суверенной страны;

✓ подрывают доверие граждан к информации, исходящей от легитимной власти;

✓ наносят вред кибербезопасности;

✓ оказывают давление на СМИ, затрудняя распознавание фейковых новостей.

Дезинформация все чаще рассматривается как вопрос национальной безопасности. Субъектами дезинформации могут быть как внутренние, так и внешние силы: внутриполитические игроки могут подвергнуть общественность страны политическим манипуляциям, способствуя вирусной цифровой войне, провоцирующей внутренние беспорядки, иностранные игроки также могут вмешиваться во внутренние процессы суверенного государства, привнося ложь и конфликты в его публичную сферу. Различные политические акторы, в том числе политические агитаторы, хактивисты, террористы и иностранные государства могут использовать дипфейки в кампаниях по дезинформации с целью манипулирования общественным мнением и подрыва доверия к институтам страны [13, с.7]. Дезинформация, передаваемая с помощью дипфейков, может стать проблемой во время выборов, любой политический деятель может попытаться дискредитировать оппонента или спровоциро-

вать политический скандал с целью продвижения собственной кандидатуры. Дипфейк способен изменить отношение граждан к политику или к партии политика, и в результате повлиять на голосование в соответствии с целями политического игрока, стоящего за дипфейком.

Технология дипфейков может использоваться и более тонкими способами манипулирования, например, посредством «подманивания толпы» - метода, используемого в области кампаний маркетинга, для создания видимости (или отсутствия) народной поддержки [5, с.11]. Вскоре станет возможным настраивать прямую трансляцию, ретушируя выражения лиц людей, например, слушающих речь политического деятеля, так чтобы казалось, что они ухмыляются, хмурятся или выглядят скучающими во время выступления. Дипфейки могут использоваться для создания материалов шантажа, ложно инкриминирующих жертву, для шантажа избранных должностных лиц или тех, кто имеет доступ к секретной информации, в целях шпионажа или оказания давления. Дипфейки также становятся все более популярными среди мошенников с целью рыночных и фондовых манипуляций. Эксперты прогнозируют, что злоумышленники будут стремиться монетизировать использование дипфейков, начав предлагать их как услугу, предоставляя менее опытным или знающим хакерам инструменты для использования атак посредством лишь нажатия кнопки за небольшую оплату [4, с.3].

Однако, стоит заметить, что технология deepfake имеет также и положительное применение во многих отраслях и сферах человеческой деятельности, включая кино, образовательные средства массовой информации, цифровые коммуникации, игры, развлечения, социальные сети, музейную деятельность, здравоохранение, различные сферы бизнеса, такие как мода и электронная коммерция [3, с.1]. Потенциальные преимущества целевых дипфейков настолько значительны для различных государственных целей, что можно с уверенностью сказать, государственные субъекты различных стран проводят секретные исследования в этой области. Однако неясно, отстают ли секретные исследования от коммерческих и академических усилий или опережают их. По крайней мере, можно с уверенностью сказать, что промышленность, научные круги и правительства имеют мотив, средства и возможность продвигать эту технологию быстрыми темпами [13, с.2].

Проблемы обнаружения глубоких фейков значительны, среди них:

- ✓ отсутствие юридических работников, специально обученных методам визуальной проверки;
- ✓ растущая сложность и одновременное снижение стоимости технологий глубокого обучения, что делает их доступными для широкого круга участников;
- ✓ информационная экосистема, с потерей доверия к фактам и их источникам.

Методами борьбы с дипфейками в этой связи видятся:

- ✓ законодательные меры и регулирование борьбы с цифровой дезинформацией;
- ✓ технология борьбы с дипфейками, включающая обнаружение, аутентификацию контента и предотвращение дезинформации;
- ✓ лишение социальных сетей юридического иммунитета от контента, который публикуют их пользователи;
- ✓ усовершенствованная корпоративная политика и обучение специалистов.

Дезинформация в контексте международных отношений предстает в виде преднамеренного распространения ложной или несбалансированной информации иностранными государствами (или соответствующими негосударственными субъектами) с целью увеличить собственное международное влияние. Основная техника международной дезинформации хорошо известна. Вычислительные системы стимулируют и автоматизируют манипулятивный медиа-контент, который широко и целенаправленно распространяется хакерами, троллями, ботами, фейковыми группами пользователей (astroturf) и другими акторами цифровой сферы, вовлеченными в распространение предвзятых фейковых сообщений и контента [9, с.221].

Дезинформация как инструмент внешней политики может быть частью гораздо более масштабного и опасного комплекса международной государственной деятельности в киберсфере, включая кибератаки, хакерские атаки и другие подрывные действия, объединяемые под по-

нятием «гибридной войны». Дипфейки могут оказать глубокое влияние на международные отношения: создать напряженность в дипломатических отношениях, спровоцировать вооруженный конфликт, вызвать общее недоверие к надежности отснятого материала, что может усилить нежелание международного сообщества участвовать в гуманитарной интервенции на основе видео- или аудиоматериалов, предположительно доказывающих совершение геноцида или других массовых нарушений прав человека, подлинность которых может быть трудно оценить. В целевых военных и разведывательных операциях дипфейки могут быть использованы для фальсификации приказов военачальников, с целью посеять хаос в вооруженных силах и среди гражданского населения, придать легитимность войнам и восстаниям. Осознание опасности манипулирования информацией в политических целях резко возросло после неоднократного иностранного вмешательства во внутриполитический процесс стран, особенно во время выборов. Феномен дипфейков потенциально влияет на цифровой суверенитет государств, поскольку предлагает технологические средства для манипулирования оцифрованными или цифровыми средствами идентификации, включая официальные средства идентификации [6, с.3].

Природа манипулирования информацией становится все более заметным аспектом глобальной политики. Одним из важных элементов контекстуального фона является текущая глобальная конкуренция за лидерство, происходящая в области технологий искусственного интеллекта и машинного обучения. В первую очередь это касается двух ведущих мировых технологических полюсов - США и Китая, а также Европейского Союза и России. Способность создавать глубокие фейки наверняка быстро распространится, независимо от того, какие усилия будут предприняты для защиты от них. Потенциал зависит не от дефицита материальных ресурсов, а скорее от доступа к технологиям, таким как нейронные сети и подходы к машинному обучению.

Сегодня Азербайджан – это уверенный и независимый региональный игрок, сохранивший и развивающий партнерские отношения с различными геополитическими центрами. Именно поэтому против Азербайджана и по сей день ведется война в киберпространстве, распространяются провокационные видеоролики. Несмотря на это, Азербайджан уверенно победил во второй Карабахской войне не только на боевом, но и на информационном поле. Лидером информационной борьбы Азербайджана был его Президент - Ильхам Алиев. Главным фактором, обеспечившим нашу победу в этой борьбе, стали интервью главы государства ряду влиятельных зарубежным СМИ, среди которых российские телеканалы «Россия-1», «Первый», РБК, агентства «РИА Новости», ТАСС и «Интерфакс», турецкие TRT Haber, CNN-Türk, Haber Global, Haber Türk, HTB, A Haber, французские телеканалы Sky News, France 24, газета La Figaro, немецкое телевидение ARD, японская газета Nikkei, американское телевидение Fox News, итальянские Rai-1 TV, газета La Repubblica, испанское информационное агентство EFE, а также Al Jazeera, Al Arabia, Euronews, CNN International и BBC, аудитории которых охватывают сотни миллионов человек по всему миру.

Дипфейки - это зарождающийся технологический феномен, который, как ожидается, будет иметь далеко идущие философские, юридические и моральные последствия, с точки зрения того, как мы воспринимаем истину и реальность. Дипфейки сами по себе не хороши и не плохи. Это всего лишь технология, которая выражает конструктивные или деструктивные (сознательные или бессознательные) намерения людей. Их не следует демонизировать, но и нельзя игнорировать реальную угрозу их использования в антисоциальных целях. История показывает, что те, кто пытается манипулировать средствами массовой информации, часто оказываются на шаг впереди тех, кто пытается защититься от таких манипуляций.

Потенциал дипфейков выглядит особенно пугающим в рамках продолжающейся информационной войны, направленной против Азербайджана. Уже сейчас необходима широкая подготовка специалистов по искусственному интеллекту, фрагментарно востребованных в нашей стране в сфере информационных технологий, финансовых услуг, телекома и ритейла. Большой потенциал цифровых технологий проявляет себя в дипломатии и внешнеполитической деятельности не в полную меру, а ведь

искусственный интеллект способен оперативно хранить в памяти и производить анализ больших объемов информации, выявлять общее и различия, причинно-следственные связи, поддерживать системы автоматического анализа и поиска подтверждений относительно фейковых видео, аудио и текстовых материалов для своевременного дипломатического реагирования на провокации в социальных сетях, Интернете и т.п. Чтобы подготовить конкурентно-способных специалистов в области искусственного интеллекта, нужны совместные усилия высших учебных заведений и государства по созданию специальных междисциплинарных программ, поскольку в рамках отдельной специальности данную задачу решить практически невозможно. Дефицит кадров для цифровых экспертных систем, имитирующих мышление человека – это в первую очередь технологическое отставание страны, что для Азербайджанской Республики недопустимо.

### СПИСОК ЛИТЕРАТУРЫ:

*1. Appel M., Prietzel F. The detection of political deep fakes. Journal of Computer-Mediated Communication 27.4.2022, p.1-13*

*2. Artificial Intelligence and National Security 2020/https://crsreports. congress.gov/product / pdf/R/R45178*

*3. Dack S. Deep fakes, fake news, and what comes next. The Henry M. Jackson School of International Studies, 2019*

*4. Danielle K.C., Chesney R. Deep Fakes: A Looming Challenge for Privacy, Democracy, and National Security. 107 California Law Review 1753, 2019*

*//https://scholarship.law.bu.edu/faculty_ scholarship/640*

*5. Jacobsen B.N., Simpson J. The tensions of deep fakes. Information, Communication & Society, 2023, p.1-15*

*6. Horne C.L. Internet governance in the post-truth era: Analyzing key topics in "fake news" discussions at IGF. Telecommunications Policy 45.6.,2021, p.102-150*

*7. Freedom House, Freedom on the Net 2022. Manipulating Social media to Undermine Democ¬racy, N.p., n.d., https://freedomhouse.org/ report/freedom-net/freedom-net-2022*

*8. Kocsis E. Deepfakes, shallowfakes, and the need for a private right of action //Dickinson law review. – Carlisle, 2022, Vol.126, N 2, p.621-650*

*9. Mullen M. A new reality: deepfake technology and the world around us // Mitchell Hamline law review. – Saint Paul, 2022, Vol.48, N1, p.210-234*

*10. Oxford English Dictionary (OED) https:// www.oed.com/?tl=true*

*11. Pérez D., Jesús A. and other. Deep fakes on Twitter: which actors control their spread?, Journal Media and Communication, 2021, 9, p. 301-312*

*12. Somogyi A. Are deep fakes a threat? Redefining deep fake - AI through popular culture & the everyday. Diss. Central European University, 2023*

*13. Tahraoui M., Krätzer C., Dittmann J. Defending Informational Sovereignty by Detecting Deep fakes: Risks and Opportunities of an AI-Based Detector for Deep fake - Based Disinformation and Illegal Activities. Weizenbaum Conference" Practicing Sovereignty: Interventions for Open Digital Futures". DEU, 2023*

*14. Vaccari C., Chadwick A. Deep fakes and Disinformation: Exploring the Impact of Synthetic Political Video on Deception, Uncertainty, and Trust in News. Figshare, 2020//https://hdl.handle. net/2134/11548140.v1*

### XÜLASƏ

### DİPFEYK KÜTLƏVİ RƏQƏMSAL DEZİNFORMASİYA NÖVÜ KİMİ

**L.S. Süleyman-zadə**
***Bakı Dövlət Universiteti, doktorant***

Beynəlxalq münasibətlərdə informasiya ilə manipulyasiya, təbliğat və dezinformasiya hər hansı bir ölkənin, siyasi rejimin səlahiyyəti, müasir və ya yeni bir fenomen deyil - bunlar bir çox dövlətlərin xarici siyasətini həyata keçirmək üçün klassik alətlərdir. Süni intellekt texnologiyalarının meydana çıxması ilə dezinformasiyanın ötürülməsinin yeni və çox cəlbedici üsulu – dipfeyk yaranıb. Zərərli aktorlar tərəfindən yaradılan dipfeyklərin kütləvi istehsalı və yayılması perspektivi onlayn ictimai-siyasi diskursun həqiqiliyinə ciddi problem yarada bilər. Məqalədə dipfeyk nədir, onları kim istehsal edir, dipfeyk texnologiyasının üstünlükləri və təhdidləri nələrdir kimi suallara cavab tapmağa,

dipfeyklərdən nümunələr verməyə və onlarla mübarizə üsullarını nəzərdən keçirməyə çalışılır.

**Açar sözlər:** *Dezinformasiya, dipfeyk, süni intellekt, neyron şəbəkələr, informasiya müharibəsi, "post-həqiqət"*

## РЕЗЮМЕ

## ДИПФЕЙКИ, КАК РАЗНОВИДНОСТЬ МАССОВОЙ ЦИФРОВОЙ ДЕЗИНФОРМАЦИИ

**Л.С.Сулейман-заде**

Манипулирование информацией, пропаганда и дезинформация в международных отношениях не являются прерогативой какой-либо одной страны, политического режима, типично современным или новым явлением - это классические инструменты реализации внешней политики многих государств. С появлением технологий искусственного интеллекта возник новый и весьма привлекательный метод передачи дезинформации - дипфейки. Перспектива массового производства и распространения дипфейков, созданных злоумышленниками, может представлять собой серьезный вызов аутентичности общественно-политического онлайн-дискурса. Статья пытается найти ответы на вопросы, что такое дипфейки, кто их производит, каковы преимущества и угрозы технологии дипфейков, привести примеры дипфейков и рассмотреть методы борьбы с ними.

**Ключевые слова:** *Дезинформация, дипфейк, искусственный интеллект, нейронные сети, информационная война, «постправда»*

## SUMMARY

## DEEPFAKES AS A TYPE OF MASS DIGITAL DISINFORMATION

**L.S.Suleyman-zada**
***Baku State University, doctoral student***

Manipulation of information, propaganda and disinformation in international relations are not the prerogative of any country, political regime, a typically modern or new phenomenon - these are classic tools for implementing the foreign policies of many states. With the advent of artificial intelligence technologies, a new and very attractive method of transmitting disinformation has emerged - deepfakes. The prospect of mass production and distribution of deepfakes created by malicious actors may pose a serious challenge to the authenticity of online socio-political discourse. The article tries to find answers to the questions of what deepfakes are, who produces them, what are the advantages and threats of deepfake technology, give examples of deepfakes and consider methods of combating them.

**Key words:** *Disinformation, deepfake, artificial intelligence, neural networks, information war, "post-truth".*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.1.79.73

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNƏ TƏSİRLƏRİ

**ÜZEYİR MUSTAFAYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*

*E-mail: u.mustafayev@konullu.az*

## Giriş

İkinci Qarabağ müharibəsində Türkiyə Azərbaycana siyasi, diplomatik, texniki və hərbi dəstək verməklə Azərbaycanın tarixi qələbəsində mühüm rol oynadı. Son illər müdafiə sənayesində böyük irəliləyişlər əldə edən Türkiyə ilə inkişaf etdirilən hərbi əməkdaşlıq Azərbaycana ciddi qazanclar gətirmiş, Türkiyə istehsalı olan İHA/SİHA-ların müharibə dövründə səmərəli istifadəsi Azərbaycanın müharibədə qalib gəlməsində çox təsirli olmuşdur. Birinci Qarabağ müharibəsi zamanı Türkiyə Ermənistanı işğalçı dövlət kimi tanıyan və sərhədlərini bağlayan ölkə olsa da, həmin dövrün şərtlərini nəzərə alaraq Azərbaycana hərbi dəstək verə bilmədi. İkinci Qarabağ müharibəsində Azərbaycana verdiyi konkret dəstək Azərbaycanın 30 il ərzində işğal altında olan torpaqlarını azad etməsinə böyük töhfə verdi. Ona görə də İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə münasibətlərində mühüm qovşaq oldu.

## Əsas hissə

Demək olar ki, Azərbaycan müstəqillik qazandıqdan sonra 20 ildən artıqdır ki, iki ölkə arasında münasibətlər emosional və ideoloji cəhətdən gərgin olub. Lakin bu gün Azərbaycan-Türkiyə münasibətləri ideoloji ölçüdən silinib. İki ölkə arasında əlaqələr ciddi layihələrlə möhkəmlənərək institutlaşmağa başlayıb və strateji tərəfdaşlıq əsasında inkişaf etdirilib.

Azərbaycan-Türkiyə münasibətlərini ümumiləşdirsək, görmək olar ki, iki ölkə arasında münasibətlər Azərbaycan müstəqillik əldə etdikdən sonra intensivləşməyə başlayıb. Azərbaycan ilə Türkiyə arasında etnik, dini və mədəni bağlara görə dostluq münasibətləri yaranıb. Bu əlaqələrdən başqa, iki ölkə bir-biri üçün geosiyasi baxımdan böyük əhəmiyyət kəsb edir. İki ölkə arasında münasibətlərdə ara-sıra qopmalar olsa da, xüsusilə son on ildə strateji tərəfdaşlıq əsasında inkişaf etməyə başladığını söyləmək olar. İkinci Qarabağ müharibəsi münasibətlərdə mühüm qovşaq olub və Azərbaycan-Türkiyə münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinin yeni mərhələsi hesab olunur (3,s.14-19).

27 sentyabr - 9 noyabr 2020-ci il tarixləri arasında baş vermiş İkinci Qarabağ müharibəsi Rusiya Federasiyasının müdaxiləsi ilə başa çatıb. Müharibənin sonunda Ermənistan ağır məğlubiyyətə uğradı və Azərbaycan böyük qələbə qazandı. Üçtərəfli Bəyanat Rusiya Federasiyasının vasitəçiliyi ilə noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalandı. Bu bəyanatın imzalanması ilə Azərbaycan 30 il müddətində Ermənistan silahlı qüvvələri tərəfindən qanunsuz olaraq nəzarətdə saxlanılan torpaqları işğaldan azad etdi. Lakin bəyanatın üç dövlət tərəfindən imzalanmasına baxmayaraq, Türkiyənin sözügedən prosesdə tərəf kimi Azərbaycanın yanında olması həqiqətdir. Çünki müharibənin sonu yaxınlaşdıqca Türkiyənin xarici işlər naziri, müdafiə naziri və digər yüksəkrütbəli siyasi-hərbi məmurlar qısa müddət ərzində dəfələrlə Bakıya gəlmiş, Türkiyə prezidenti R.T.Ərdoğan Rusiya Federasiyasının prezidenti V.Putinlə telefon danışığı aparmışdır. Baş tutan bu proseslərin sonunda bəyanatın mətni razılaşdırılmış və tərəflər arasında imzalanaraq cəmiyyətə təqdim olunmuşdur (1, s. 67).

Bəyanat imzalandıqdan dərhal sonra ölkə başçısı xalqa müraciət edərək üçtərəfli bəyanatın tarixi sənəd olması və Ermənistan üçün kapitulyasiya aktı hesab olunduğunu bildirib. Müraciəti zamanı ölkə başçısı vurğulayıb ki, bu sənəd Ermənistanın hərbi məğlubiyyətinin yekun ifadəsi və problemin həllində "son nöqtə"dir. Paşinyan isə həmin gün verdiyi açıqlamada müqaviləni imzalamalı olduğunu bildirib. Qələbədən sonra İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub və bir-birlərini təbrik ediblər. Ölkə başçısı siyasi və mənəvi dəstəyə görə prezident R.T.Ərdoğana və türk xalqına minnətdarlığını bildirib.

Rusiya Federasiyasının hazırlayıb razılaşdırdığı müqavilə mətnində Türkiyənin adı çəkilməsə də, Azərbaycan prezidentinin və Türkiyənin verdiyi açıqlamalarda postmüharibə dövründə bölgədə türk əsgərlərinin də iştirak edəcəyi bildirilib. Bu, bəzi mübahisələrə səbəb olsa da, bir müddət sonra Rusiya Federasiyası türk əsgərlərinin Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə xidmət edəcəyini bildirdi. Daha sonra Rusiya nümayəndə heyətinin ikitərəfli təmas-

lar üçün Ankaraya getməsi Moskva rəhbərliyinin də Türkiyənin bu prosesdə iştirakını qəbul etdiyinə işarə kimi qiymətləndirilib. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlığın hüquqi əsasını 2010-cu ildə imzalanmış "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişi" təşkil edir. Bu müqavilənin ən mühüm xüsusiyyəti imzalayan tərəflərdən birinə üçüncü tərəfin hücumu zamanı birgə hərbi dəstəyin təmin edilməsidir. 2020-ci il noyabrın 17-də Türkiyə Böyük Millət Məclisində keçirilən danışıqların yekunu üzrə Azərbaycan ilə Türkiyə arasında 2010-cu ildə imzalanmış Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Sazişinə əsasən, Azərbaycana türk əsgərlərinin göndərilməsi barədə qərar qəbul edilib. Bu qərarla Türkiyənin Rusiya Federasiyası ilə quracağı ortaq mərkəzdə Azərbaycan tərəfindən müəyyən ediləcək yerdə və mərkəzin fəaliyyətində Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin fəaliyyət göstərməsi təmin edilib (6, s.34-44).

Birgə bəyanatın beşinci maddəsində göstərildiyi kimi Qarabağda dislokasiya olunacaq sülhməramlıların missiya işinə nəzarət etmək üçün Birgə Monitorinq Mərkəzi fəaliyyətə başlamalıdır (30 yanvar 2021-ci ildə fəaliyyətə başlayıb). Bəyanat imzalandığı gündən Rusiya ilə Türkiyə arasında sözügedən Birgə Monitorinq Mərkəzinin yaradılması və bu çərçivədə hərbi-diplomatik məmurların təyinatı ilə bağlı danışıqlar aparılıb. Bu görüşlərdə mərkəzin yeri, mərkəzdə iştirak edəcək türk və rus hərbçilərinin sayı, bu şəxslərin səlahiyyət bölgüsü kimi məsələlər müəyyənləşdirilib. Birgə Monitorinq Mərkəzi və mərkəzin fəaliyyəti ilə bağlı danışıqlar zamanı Türkiyə və Azərbaycan daim məsləhətləşmiş və ümumi maraqlarına uyğun ən optimal qərarların qəbulu üçün səy göstərmişlər. Türkiyə ordusunun rəsmilərinin mərkəzdə olması əslində Türkiyə ordusunun Cənubi Qafqazda sülh prosesi çərçivəsində iştirak edəcəyi anlamına gəlirdi. Bu, Türkiyənin gələcəkdə bölgədə hərbi cəhətdən daha güclü olması üçün ilk addım hesab olunurdu. Türkiyənin bu addımı Ermənistanı narahat edir və Rusiyanı Türkiyənin artan gücünü qəbul etməyə məcbur edirdi. Ən əsası isə baş verən proseslər regionda maraqlı olan İran, ABŞ və Avropa Birliyi kimi oyunçuları itirilmiş fəaliyyətlərinə görə narahat edirdi (2, s.3 s).

İkinci Qarabağ müharibəsindəki qələbə Azərbaycan-Türkiyə münasibətlərində yeni dövrün başlanğıcını qoydu. 15 iyun 2021-ci ildə Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında müttəfiqlik haqqında "Şuşa Bəyannaməsi" imzalandı. İki ölkə arasında müttəfiqliyi ehtiva edən Şuşa Bəyannaməsi ilə Qafqazın tarixinin yenidən yazıldığını demək olar. Bu bəyənnamə ilə 44 günlük Vətən müharibəsindən sonra Türkiyənin Cənubi Qafqazdakı rolu haqqında səslənən fikirlərə, müzakirələrə Şuşada cavab verildi. Artıq Türkiyə Cənubi Qafqaz regionunda iki böyük gücdən biri hesab edilirdi. Bəyannamənin imzalanmasından sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə bəyanatında vurğulandı ki, Türkiyə Azərbaycanla birlikdə işğaldan azad olunmuş torpaqlarda quruculuq-bərpa işlərini bərabər aparacaq. Eyni zamanda bildirildi ki, bir daha bu hadisələrin yaşanmaması üçün də Azərbaycan Türkiyə birgə addımlar atacaq. Bu baxımdan, ən vacib məqam ondan ibarət idi ki, bundan sonra Azərbaycana ediləcək hər hansı bir təhdid, hücum Türkiyəyə qarşı edilmiş kimi qəbul olunacaq və Türkiyə anında Azərbaycanla bərabər bu məsələlərə cavab verəcək. Eyni zamanda, Türkiyəyə qarşı da ediləcək bu kimi addımlar Azərbaycana qarşı da edilmiş olacaq və Azərbaycan birmənalı olaraq Türkiyənin yanında olacaq. Bu Bəyannamə ilə Azərbaycanın Cənubi Qafqazda yeri və rolu daha da güclənməklə yanaşı, Türkiyənin rolu, Türk dövlətlərinin birliyi də güclənir. Artıq bu bölgəyə pis niyyətlərlə əl uzadanlara da çox ciddi bir cavab idi (5, s.1-2).

Müharibədən zəfərlə çıxan Azərbaycan və onu bu müharibədə heç vaxt tək qoymayan Türkiyə öz xalqının rifahı naminə yaranan yeni geosiyasi və geoiqtisadi vəziyyətdən hər zaman olduğu kimi ən çox faydalanan ölkələrdi. Hər iki tərəfin Cənubi Qafqazda geostrateji əməkdaşlığının yeni mərhələsində qazanacağı fayda var. Bu faydalar:

1. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş 20 faiz torpaqların azad etməsi nəticəsində bu rayonların ölkənin iqtisadi sisteminə inteqrasiyası prosesinə başlanıldı. Bu proses çərçivəsində yeni investisiya imkanları yarandı ki, bu mühitdən faydalananların əksəriyyəti Türk iş adamlarıdır.

2. Keçmişdə qalmış Qarabağ münaqişəsinə son qoyulması Azərbaycan Prezidenti İlham Əliyevin də dediyi kimi, yeni əməkdaşlıqların əsası oldu. Yeni əməkdaşlıqlar yeni layihələr və qlobal inkişaf imkanları deməkdir. Türkiyənin Azərbaycanın strateji tərəfdaşı kimi bu layihələrdə də həlledici mövqedə olacağı şübhəsizdir.

3. Ermənistan ekspansionist mövqeyindən əl

çəkərsə, regionda yeni əməkdaşlıq imkanlarından yararlanmaq, yeni layihələrdə iştirak etmək imkanı əldə edə biləcək. Bu, Cənubi Qafqazda daha mühüm strateji perspektivlərin formalaşmasına gətirib çıxaracaq. Bu halda həm Türkiyə, həm də Azərbaycan üçün faydalı investisiya layihələri həyata keçiriləcək.

4. İkinci Qarabağ müharibəsi bir daha göstərdi ki, Türkiyə Cənubi Qafqazın geosiyasi mühitinin müəyyənedici aktorlarından biridir. Bu reallıq regionun gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan ilk növbədə Cənubi Qafqazda etibarlı tərəfdaş qazanıb. İkincisi, Türkiyənin Qafqaz regionunda effektiv siyasi oyunçuya çevrilməsi də, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın həyata keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Üçüncüsü, Türkiyənin Cənubi Qafqazda siyasi proseslərə qarışması Rusiyanın bölgədəki siyasi monopoliyasına son qoyur. Rusiya artıq öz şərtlərini qoyan tərəf deyil, Cənubi Qafqazda baş verən siyasi və iqtisadi proseslərin bərabərhüquqlu tərəfdarıdır. Bu yeni reallıq Rusiya-Azərbaycan, Rusiya-Türkiyə münasibətləri baxımından yeni səhifə açır. Yəni, qısa müddətdə Rusiyanı Türkiyənin ənənəvi rəqibi/düşməni kimi deyil, regionda ortaq maraqları olan və bu maraqlara uyğun əməkdaşlıq edən tərəf kimi görmək olar.

5. İkinci Qarabağ müharibəsi Cənubi Qafqazdakı digər etnik problemlərin həlli üçün də mühüm təcrübə yaratdı. Problemin bu yolla həlli təkcə Azərbaycanın deyil, Türkiyənin də bölgədə təsirini artıracaq.

6. İkinci Qarabağ müharibəsini sonlandıran birgə bəyanatda Ermənistan ərazisindən keçmək şərti ilə Azərbaycanla Naxçıvan arasında yeni nəqliyyat dəhlizinin açılması nəzərdə tutulurdu. Bu, təkcə Naxçıvanın Azərbaycanın digər bölgələri ilə əlaqəsi üçün deyil, həm də Türkiyənin regionda baş verən iqtisadi proseslərdə daha fəal iştirak etməsi baxımından böyük əhəmiyyət kəsb edir. Bunun reallaşması əvvəlcə Ermənistan üçün zərərli görünsə də, əslində bu ölkənin gələcəkdə Türkiyə və Azərbaycanla münasibətlərinin yaxşılaşmasına töhfə verəcək (4, s.63-78).

Türkiyə Azərbaycana açıq dəstəyi ilə Cənubi Qafqazda sülhün qurulmasında mühüm aktor olduğunu nümayiş etdirdi. İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin münasibəti "Rusiya icazə vermədikcə Qarabağ problemi həll oluna bilməz" fikrinin çökməsinə səbəb oldu (3, s.14-19).

İkinci Qarabağ müharibəsindən dərhal sonra Türk Dünyası Türk Dövlətləri Təşkilatı adı altında yeni bir ölçü qazanmış və Türkiyə-Azərbaycan-Türkmənistan üçlü zirvə toplantısı ilə enerji sahəsində əməkdaşlığın daha da yüksək səviyyələrə daşınması istiqamətində işlərə başlanılmışdır. Bundan əlavə, prezident R.T.Ərdoğanın iyun ayında Kipr Türk Cümhuriyyətinə səfərindən sonra Azərbaycana birbaşa uçuş həyata keçirməsi Kipr Türk Respublikasının tanınması istiqamətində mühüm addım kimi şərh edilib. Demək olar ki, bu inkişaf həm də İkinci Qarabağ müharibəsindən sonra Türkiyə ilə Azərbaycan arasında münasibətlərin inkişafının nəticəsidir.

2020-ci ilin noyabrında Ermənistanın məğlubiyyəti ilə başlayan yeni dövrün qalibləri Azərbaycan və Türkiyədir. İkinci Qarabağ müharibəsi Türkiyənin Cənubi Qafqazda mövqelərini gücləndirdi və bir daha Türkiyənin Cənubi Qafqazda həlledici aktorlardan biri olduğunu nümayiş etdirdi. İkinci Qarabağ müharibəsi bütün regional və qlobal aktorlara göstərdi ki, Cənubi Qafqazda Türkiyəni istisna edən həll mümkün olmayacaq. Aydın oldu ki, Türkiyə ilə Azərbaycanın müttəfiqliyi regionun taleyinin həllində əsas rol oynayır. Türkiyənin regionda fəal bir aktor kimi varlığını sübut etməsi, şübhəsiz ki, Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. 2020-ci ilin noyabrında müharibəni bitirən bəyannamənin maddələrinin həyata keçirilməsi üçün Türkiyənin varlığı da çox önəmlidir. Bundan başqa, Türkiyənin Qafqaz geosiyasətində fəal aktor olması Rusiyanın regionda monopoliyasının qırılması baxımından son dərəcə əhəmiyyətlidir. Gürcüstan və Ukrayna kimi ölkələr də Türkiyəni Rusiyanı Qara dənizdə balanslaşdıra biləcək müttəfiq kimi qəbul etməyə başlayıblar (7, s.1-2 s).

## Nəticə

İkinci Qarabağ müharibəsində Azərbaycanın işğal altında olan torpaqlarını azad etməsində, tarixi qələbə qazanmasında Türkiyənin verdiyi konkret dəstək danılmaz faktordur. Bu səbəbdən də Azərbaycan və Türkiyə üçün işlədilən "Bir millət, iki dövlət" diskursu konkret məhsula çevrildi və iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsində yeni mərhələyə yüksəldi. Türkiyə beynəlxalq aləmdə Azərbaycanın əsl müttəfiqi olduğunu bir daha sübut etdi. İkinci Qarabağ Müharibəsi həm regional, həm də qlobal miqyasda öz əksini tapdı. Türkiyə Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirdi və regionda sülhün qurulmasında mühüm aktor olduğunu sübut etdi. Müharibəyə son qoyan razılaşmanın maddələrinin həyata keçirilməsi üçün Türkiyənin bölgədəki təsirini artırması çox vacibdir. Bu zəfər torpaqla-

rı qeyri-qanuni işğal altında olan dövlətlərə, xüsusilə türk və İslam dünyasına bu vəziyyətin sonsuza qədər davam etməyəcəyi mesajını verdi. Türkiyənin Qafqaz geosiyasətində fəal aktor olması Rusiyanın regionda monopoliyasının qırılması baxımından son dərəcə əhəmiyyətlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Alizade Nəzrin: "Azərbaycanın Qarabağ Zəfəri və Türkiyənin Cənubi Qafqazda Təsirinin Artması", ANKASAM, https://www.ankasam.org/azerbaycanin-karabag-zafe ri-ve-turkiyenin-guney-kafkasyada -increasing-ef /, 2020. s 67*

*2. Aslanlı Araz (2020), "10. "Azərbaycan-Türkiyə Strateji Tərəfdaşlıq Sazişi və 2020-ci ildə Birgə Hərbi Təlimlər", Anadolu Agentliyi, 10.08.2020, https://www.aa.com.tr/tr/analiz/10-yilinda-azerbaycan turkiye-stratejik-ortaklik-anlasmasi -ve -birgə-hərbi-məşqlər/1937068*

*3. Bilgin Mustafa Sıtkı: "Qarabağ zəfərinə aparan proses və onun geopolitik nəticələri", ULISA12, (8), s 14-19, 2020. "Türkiyə Ermənistan əlaqələri möhkəmləndirməyə razıdır", CBC, 11.10.2009, https: //www.cbc.ca/ news/world/turkey-armenia-agree-to-forge-ties-1.805150, Prezident Rabitə Müdirliyi Nəşrləri, Dağlıq Qarabağda 44 Gündə Zəfər: Türkiyə-Azərbaycan Qardaşlığının Nişanı, 1-ci nəşr, İstanbul 2021.*

*4. Çelikoy Emine/ "Azərbaycanda Nazirlər Şurası və İdarəetmə", Nazirlər Kabinetinin Kontekstində Müqayisəli Ölkə Araşdırmaları (Red. Metin Özkaral, Yasin Taşpınar), Nobel Akademik Nəşriyyat, Konya, 2020? s.63-78.*

*5. Əliyev İlham/ "Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikasının Baş Nazirinin və Rusiya Federasiyası Prezidentinin Bəyannaməsi", Azərbaycan Respublikası Prezidentinin Korporativ Veb-saytı, 10.11. 2020, https://president.az/articles/45924?(2020, s.1-2 s*

*6. Kona Gamze Güngörmüş: "Türkiyə-Azərbaycan Münasibətləri: Böyük Ümidlər-Uğursuz İnkişaflar və Nə Etməli", Panaroma Refereed e-dergi, https://cesran.org/ turkiye-azerbaycan-iliskileri-buyuk-umutlar-talihsiz- gelismeler -and-things-to-be-done.html*

*7. Məmmədov Vüsal/ "Enerji sahəsində yeni əməkdaşlıq formatı yaradıldı: Türkiyə-Rusiya Azərbaycan", AzTv, 10.01.2020, http://www.aztv.az/az/news/4384/enerji -sahesunu-yeni -emekdasliq formati-yaranir-turkiye-rusiya-azerbaijan-marktehlilmark, s.1-2 s*


## XÜLASƏ


Azərbaycan Respublikasının 2020-ci ildə başladığı 44 günlük müharibədə Türkiyə Cümhuriyyəti ilə olan sıx əməkdaşlığı və müharibə sonrasında Türkiyənin göstərmiş olduğu dəstək iki ölkə arasında qarşılıqlı əlaqələrin mənşəyinin öyrənilməsinin zəruriliyini bir daha ortaya qoydu. Məqalədə iki dövlət arasında qarşılıqlı fəaliyyətin təkamülü izlənilir, onun daxili siyasi dəyişikliklərdən, dövlət və hökumət başçılarının konkret fiqurlarından asılılığı təhlil edilir. Azərbaycan-Türkiyə münasibətlərinin əsas mərhələləri və problemləri işıqlandırılır. Araşdırmada 2020-ci il Ermənistan-Azərbaycan müharibəsindən sonra Qarabağ ərazisində yaranmış mövcud vəziyyətə baxış təqdim olunur. İkinci Qarabağ müharibəsində Türkiyənin rolu təhlil edilmiş; müharibə və postmüharibə dövründə Azərbaycan-Türkiyə münasibətləri tədqiq olunmuşdur.



**Açar sözlər:** *İkinci Qarabağ müharibəsi, Azərbaycan, Türkiyə*



**Мустафаев Узеир Хабиль**
***Государственное управление при Президенте Азербайджанской Республики Диссертация Академии***


## ВЛИЯНИЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ НА АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ

## РЕЗЮМЕ


Тесное сотрудничество Азербайджанской Республики с Турецкой Республикой в начавшейся в 2020 году 44-дневной войне и поддержка, оказанная Турцией после войны, еще раз выявили необходимость изучения истоков взаимоотношений между двумя странами. В статье прослеживается эволюция взаимной деятельности двух государств, анализируется ее зависимость от внутриполитических изменений, конкретных фигур глав государств и правительств. Освещены основные этапы и проблемы азербайджано-турецких отношений. В исследовании представлен обзор современной ситуации на территории Карабаха после армяно-азербайджанской войны 2020 года. Проанализирована роль Турции во Второй Кара-

бахской войне; Изучены азербайджано-турецкие отношения в военный и послевоенный период.

**Ключевые слова:** *Вторая Карабахская война, Азербайджан, Турция.*

**Mustafayev Uzeyir Habil**
***Public Administration under the President of Azerbaijan Republic***
***Dissertation of the Academy***

***E-mail: u.mustafayev@konullu.az***

**EFFECTS OF THE SECOND KARABAKH WAR ON AZERBAIJAN-TURKEY RELATIONS**
**SUMMARY**

The close cooperation of the Republic of Azerbaijan with the Republic of Turkey in the 44-day war that started in 2020 and the support provided by Turkey after the war once again revealed the need to study the origin of mutual relations between the two countries. The article traces the evolution of mutual activity between the two states, analyzes its dependence on internal political changes, specific figures of the heads of state and government. The main stages and problems of Azerbaijan-Turkey relations are highlighted. The study presents an overview of the current situation in the territory of Karabakh after the 2020 Armenian-Azerbaijani war. The role of Turkey in the Second Karabakh War was analyzed; Azerbaijan-Turkey relations during the war and post-war period have been studied.

**Keywords:** *Second Karabakh War, Azerbaijan, Turkey*

UOT 321.8:331.107
DOI:10.30546/3006-0346.2024.1.79.78

# YERLİ ÖZÜNÜİDARƏETMƏNİN ƏSAS MODELLƏRİ

**ZƏFƏR ABDULLAYEV**
*Bakı Avrasiya Universitetinin Humanitar fənlər və regionşünaslıq kafedrasının dissertantı*

*E-mail: abdullayevz2019@gmail.com*

## Giriş

Müasir dünyada müxtəlif modellərinin mövcud olduğu yerli özünüidarəetmə demokratik cəmiyyətin zəruri atributlarından birini təşkil edir. Yerli özünüidarəetmənin modelləri arasındakı fərqlər ölkələrdə mövcud olan hakimiyyətin təşkili və yerli özünüidarəetmə ideyası, siyasi rejim, dövlət quruluşu və inzibati-ərazi bölgüsü, milli ənənə və s. kimi çoxsaylı amillərdən asılıdır. Müasir dövrdə elmi ədəbiyyatda dünya praktikasında yerli hakimiyyətin təşkili modellərinin təsnifatı üçün onun mərkəzi hakimiyyətlə münasibətləri əsas götürülür. Bu yanaşmaya əsasən yerli özünüidarəetmənin üç əsas modeli mövcuddur: anqlosakson, qitə, qarışıq (hibrid). D.O. Kutsenkonun fikrincə, ənənəvi olaraq anqlosakson, qitə (fransız) və alman modelləri mövcud olmuşdur (6, s.158). V. Y. Çirkin yerli özünüidarəetmənin üç baza modelini göstərir: anqlosakson, roman-alman və ya qitə, iber (9, s.98). Bəzi araşdırmaçılar buraya sovet modelini də əlavə edirlər.

## 1.Anqlosakson modeli

Böyük Britaniyada meydana gəlmiş anqlosakson modeli həmçinin İrlandiya, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya kimi ölkələrdə də tətbiq edilməkdədir. Bu model üçün yerli özünüidarəetmə orqanlarına hökumət nümayəndələri tərəfindən ciddi nəzarət edilməsi və aşağı orqanların yuxarı orqanlara müstəqim surətdə tabe olması kimi bir hal xarakterik deyil, yerli əhəmiyyətli işlər tamamilə ərazi-inzibati vahidi əhalisinin və onlar tərəfindən seçilmiş, verilmiş səlahiyyətlər çərçivəsində tam müstəqil olan bələdiyyə qurumunun ixtiyarına verilir. Anqlosakson modelinin ən mühüm xüsusiyyəti onun dövlət hakimiyyətindən hədsiz dərəcədə müxtariyyətə malik olmasıdır (6, s.154). Bu isə dövlət idarəçiliyində maksimum desentralizasiyanı (əks-mərkəzləşdirilməni), əhalinin müntəzəm olaraq keçirilən referendum və seçkilər vasitəsilə yerli özünüidarəetmədə fəal iştirakını təmin edir. Yerli özünüidarəetmənin bu modeli çərçivəsində dövlət hakimiyyətinin yerlərdə hər hansı bir nümayəndəliyi istisna olunur, yerli özünüidarəetmə orqanları isə öz səlahiyyətlərini qabaqcadan müəyyən olunmuş və təsbit edilmiş hüdudlarda həyata keçirirlər (7,s.13). Anqlosakson modelinin mövcud olduğu ölkələrdə mərkəzin yerlərdə nümayəndələrinin olmamasına baxmayaraq, yerli orqanların fəaliyyətinə ümumi dövlət nəzarəti həyata keçirilir. Bu ölkələrdə yerli özünüidarəetmə orqanlarının qanuna uyğun fəaliyyəti üçün əlverişli şəraitin təmin olunmasını nəzərdə tutan "pozitiv tənzimləmə" prinsipi qəbul olunub. ABŞ-da bu prinsip üzrə hər hansı bir səlahiyyətin icrası zamanı ciddi şübhənin olması məhkəmə tərəfindən bələdiyyələrə qarşı müəyyən qərar çıxarmaq üçün əsas verir. Anqlosakson modelinə görə yerli hakimiyyət orqanları konstitusiya statusuna malik deyil, lakin adətən ali nümayəndəli orqan tərəfindən qəbul edilmiş qanunverici aktlar əsasında yaradılırlar.Təkcə 1689-1832-ci illərdə Stüartların restavrasiya dövründə Böyük Britaniya parlamenti tərəfindən mərkəzlə bələdiyyə orqanları arasında münasibətləri tənzim edən 200-dən artıq akt qəbul edilmişdir (3, s.72). Ölkədə yerli özünüidarəetmənin iki, bəzi yerlərdə isə üç səviyyəsi mövcuddur. Bəzi icmalar istisna olmaqla, yerli özünüidarəetmənin hər bir vahidində parlamentin xüsusi səlahiyyətlər verdiyi şuralar fəaliyyət göstərir. Yerli özünüidarəetmənin bütün səlahiyyətləri qraflıq və dairə şuraları arasında bölünür. Əgər yerli özünüidarəetmə sistemi üçsəviyyəli növə aiddirsə, o zaman funksiyalar qraflıq, dairə və icma (məhəllə) şuraları arasında bölünür. Səlahiyyətlərin hüdudlarının müəyyən olunması ilə parlament məşğul olur. İngiltərə, Uells və Şotlandiyada yerli orqanların bütün idarəetmə fəaliyyəti məşvərətçilər, komissiya və inzibati aparat tərəfindən həyata keçirilir (8, s. 49).

Qraflığın idarəçiliyinə magistral yollar istisna olmaqla bütün digər yollar, təhsil və kitabxana, şəhərin və qraflığın planlaşdırılma işləri, sosial xidmətlər, yanğın xidməti, polis, bəzi mədəniyyət sahələri, gənclərin işlə təmin olunması, ərzaq və dərman, istehlakçıların maraqlarını müdafiə xidməti, park və istirahət yerləri aiddir. Mənzil tikintisi, səhiyyə, şəhər və kənd planlaşdırılması, reklam, səs-küyə qarşı mübarizə, zibil yığılması, ərazidəki müəssisələrə aid məsələlər, vergi toplanması kimi sahələri isə da-

irə şuraları idarə edir. İcma şuralarının idarəçiliyinə, torpaq sahələrinin bölüşdürülməsi, piyada keçidləri, dəfn, istirahət üçün yerlər, qəbiristanlıq üçün yerlər, avtobus dayanacaqları aiddir. İcma (məhəllə bölgüsü) olmadığı yerlərdə onların funksiyalarını dairə yerinə yetirir. Beləliklə, göründüyü kimi, yerli özünüidarəetmə orqanları əhəmiyyətli səlahiyyətlərə malikdir və konkret ərazinin inkişafı üçün mühüm olan işləri icra edirlər. Qanunvericiliklə təsbit olunmuş bu cür geniş səlahiyyətlərə malik olmaq yerli hakimiyyətin cəmiyyət və dövlətdə təsir gücünü müəyyən edir.

Yerli özünüidarəetmə orqanlarına yeni funksiyaların verilməsi parlamentin səlahiyyətlərinə daxildir. Verilmiş hüquqlardan kənara çıxma səlahiyyət həddini aşma hesab edilir və buna görə qanunla məsuliyyət müəyyən edilir. Zərurət yarandıqda, yerli şuraların əlavə səlahiyyətlər üçün parlamentə müraciət etmək hüququ vardır.

Qitə Avropasından fərqli olaraq, anqlosakson modelində yerli özünüidarəetmə üzrə səlahiyyətlərin verildiyi hüquqi şəxs icma deyil, şura hesab edilir. Şuraların strukturu qraflıq və dairədə eynidir. Sədr və məşvərətçilərdən ibarət olan şura korporativ orqandır. Şədr hər il məşvərətçilərin içərisindən seçilir. Məşvərətçilər 4 il müddətinə seçilir və onların 1/3 hər il yenilənir.

Böyük Britaniyada yerli özünüidarəetmə haqqında 2000-ci il qanunu ilə aşağıdakı seçki sistemi müəyyən edilmişdir:1) şuralar hər 4 ildən bir tamamilə yenilənə bilər, 2) hər iki ildən bir şuraların yarısı yenilənə bilər, 3) hər il şuraların 1/3 yenilənə bilər.

Bu ölkədə konkret bir şura növünün seçilməsi ətraf mühiti mühafizə üzrə dövlət katibi tərəfindən təsdiq edilməlidir. Şuralar öz fəaliyyətlərini sessiyalar vasitəsilə həyata keçirirlər. İngiltərə və Uelsdə şuralar hər rübdə bir dəfə toplaşırlar. Onların əsas funksiyaları qərarlar, müxtəlif məsələləri işləyib hazırlamaq və nəzarəti həyata keçirməklə məşğul olan komissiyalara verməkdən ibarətdir. Şuraların işi komissiyaların qərarlarını təsdiq etmək və tövsiyələr verməkdən ibarətdir. Adətən komissiyaların (komitələrin) 2/3 məşvərətçilər, üçdə biri isə şuralar tərəfindən cəlb edilən ekspertlər və yerli işçilərdir (8, s.49). Yalnız maliyyə komitəsi tamamilə məşvərətçilərdən ibarətdir, polis işləri üzrə komitəyə isə mülki işlər üzrə hakim də daxildir.

Yerli özünüidarəetmə haqqında 2000-ci il qanunununa görə, bütün şuralar özlərinin müstəqil icra hakimiyyətlərini yaratmalıdırlar. İcra hakimiyyəti üç variantdan birində yaradıla bilər: 1) birbaşa seçilən mer və kabinet sistemi. İcra hakimiyyətinə başçılıq edən mer özünün 2-9 köməkçisini (kabineti) seçir. 2) lider və kabinet sistemi: icra hakimiyyəti başçısının şura tərkibindən seçilməsi. Bu zaman köməkçiləri (kabinet) də ya başçı, ya da şura təyin edə bilər. 3) mer və şuradan ibarət idarə sistemi (bax:10) . Ümumxalq səsverməsi ilə seçilən mer icra hakimiyyəti funksiyasını şuranın peşəkar məmurları içərisindən seçdiyi idarəçilərlə bölüşür. Yerli özünüidarəetmə orqanının aktları hökumət orqanlarının təsdiq və bəyənməsindən sonra qanuni qüvvəyə malik olur.

Böyük Britaniyada yerli hakimiyyətin qərarlarının qanuniliyinə nəzarət edən xüsusi bir orqan yoxdur, lakin qanuna zidd qərar qəbul edildikdə məhkəməyə müraciət etmək olar (1, s.1). Həmçinin ölkədə yerli özünüidarəetmə orqanlarının fəaliyyəti və ya fəaliyyətsizliyi üzərində məhkəmə nəzarəti geniş yayılıb. Qanunvericilik pozulduğu təqdirdə məhkəmə iddiası əsasında yerli özünüidarəetmə orqanının məsul şəxsləri vəzifədən azad edilə və ya həbs oluna bilərlər.

Ümumilikdə yerli özünüidarəetmənin anqlosakson modelinin aşağıdakı xüsusiyyətlərini göstərmək olar:

1) hakimiyyətin səlahiyyətləri parlamentin aktı əsasında müəyyən olunur. Bu da onların ali qanunverici orqandan asılılığını şərtləndirir. Dövlət onların öz səlahiyyətlərindən kənara çıxmamasına və qanunvericiliyi pozmamasına nəzarət edir.

2) bu modeldə aşağı yerli özünüidarəetmə orqanlarının yuxarıdakına birbaşa tabeçiliyi mövcud deyil. Hər bir yerli icma öz qanun və adətləri ilə yaşayır.

3) bu model çərçivəsində yerli özünüidarəetmə işlərində əsas rol bütövlükdə yerli özünüidarəetmə orqanından daha çox bu orqanın deputatları tərəfindən formalaşdırılmış komissiya və komitələrə aiddir.

4) qitə modelindən fərqli olaraq, bu modeldə yerlərdə yerli orqanlara nəzarə edən və onları himayə edən mərkəzi hökumətin nümayəndəliyi nəzərdə tutulmur. Təbii ki, burada dövlət nəzarətinin öz forması var, lakin yerli hakimiyyətin işi əsasən qeyri-müstəqim şəkildə, məsələn, məhkəmə və vergilər vasitəsilə tənzimlənir.

5) anqlosakson modelindən istifadə edən ölkələrin əhalisi təkcə yerli özünüidarəetmənin nümayəndəli orqanı üzvlərini deyil, digər vəzifəli şəxsləri də seçə bilərlər. Belə ki, ABŞ-da yerli əhali şerifi, maliyyə xəzinədarını və digər vəzifəli şəxsləri seçir.

ABŞ-da yerli şuralar qanun, adət və məhkəmə presedentinə əsaslanmaqla məsuliyyəti öz üzərlərinə götürməklə mərkəzi orqanların səlahiyyətlərinə aid olmayan məsələləri müstəqil surətdə həll edirlər. “Home rule” prinsipi bələdiyyə orqanlarının özlərinin yerli əhəmiyyətli işləri ştatların müdaxiləsi olmadan müstəqil surətdə həll etmək və əksər bələdiyyələrdə mövcud olan özünüidarəetmə xartiyalarına düzəlişlər etmək hüququnu nəzərdə tutur (10, s.89). Yerli özünüidarəetmə orqanlarına nəzarət əsasən aşağıdakı qeyri-müstəqim vasitələrlə həyata keçirilir: onların fəaliyyətini maliyyələşdirmək yolu ilə; sahə nazirlikləri vasitəsilə müfəttiş yoxlamalarının aparılması yolu ilə, məhkəmə nəzarəti formasında və s.

Böyük Britaniyada belə bir rəy mövcuddur ki, yerli özünüidarəetmənin səlahiyyətləri parlamentdən törəmədir.

**2. Qitə modeli**

Qitə və ya fransız tipi müasir dünyanın əksər ölkələrində, daha çox qitə Avropasında və fransızdilli Afrikada fəaliyyət göstərir (10, s. 89). Bu modelin əsas prinsipinin dövlət idarəçiliyinin yerli özünüidarəetmə ilə birləşdirilməsindən ibarət olduğundan əks-mərkəzləşdirilmə (desentralizasiya) anqlosakson modelinə nisbət məhdud səviyyədə olur. Bir qayda olaraq, icmalarda təyin olunmuş dövlət məmurları olmur. Onlar rayon səviyyəsində özünü göstərir. Dövlət idarəetməsi məmurları yerli özünüidarəetmə üzərində nəzarəti həyata keçirir, habelə ümumdövlət xarakterli başqa funksiyaları icra edirlər.

Qitə modelində dövlət hakimiyyəti tərəfindən təyin olunmuş məmurların nəzarət funksiyası nəticəsində yerli özünüidarəetmənin səlahiyyətləri müəyyən qədər məhdudlaşır. Çünki onlar mərkəzi orqanlara müraciət yolu ilə meri vəzifəsindən uzaqlaşdırmaq, kollegial orqanı buraxmaq, xüsusi inzibati məhkəməyə şikayət verməklə yerli özünüidarəetmənin qərarının icrasını dayandıra bilərlər. O, anqlosakson modelindən yerli özünüidarəetmə orqanlarına nəzarət edən dövlət administrasiyası məmurlarının qarşısında hesabat verməsi cəhətdən fərqlənir (10, s.89). Qitə modelinin vətəni hesab edilən Fransanın tarixi inzibati-ərazi quruluşu özünüidarəetmə ilə müqayisədə daha çox mərkəzləşdirmə ənənəsi ilə xarakterizə olunur. Müasir Fransa idarəetmənin dörd səviyyəsinin (kommuna, departament, regional, milli) olduğu az sayda ölkələrdən biridir (8, s. 50).

Bələdiyyə şurası ümumi, müstəqim səsvermə yolu ilə 6 il müddətinə seçilir. Şura öz tərkibindən meri- icraiyyə hakimiyyəti başçısını seçir, başçının təklifi ilə müavinlər seçilir. Merin funksiyaları ikili xarakter daşıyır: o, bir tərəfdən bələdiyyənin seçkili hakimiyyətini təmsil edir, digər tərəfdən isə dövlətin kommuna ərazisində nümayəndəsi hesab olunur. Şura real olaraq merə təsir göstərə bilər. Lakin onun geri çağırma funksiyası yoxdur, bunu məhkəməyə müraciət yolu ilə edə bilər. Fransa qanunvericiliyinə görə əgər mer vəzifəsini icra edə bilmirsə, o, perfekt tərəfindən müvəqqəti olaraq vəzifəsindən uzaqlaşdırıla bilər. Lakin vəzifəsindən tam şəkildə daxili işlər nazirinin qərarı və ya nazirlər şurasının dekreti ilə uzaqlaşdırıla bilər. Kommunanın nümayəndəsi kimi mer üç tip səlahiyyətlərə malikdir: 1) merin xüsusi hüquqları; 2) şuranın qərarlarını icra etmək üzrə merin səlahiyyətləri; 3) şura tərəfindən merə verilmiş səlahiyyətlər. Bundan başqa, mer iclaslara sədrlik edir və qərar layihələri hazırlayır. Öz səlahiyyətlərini icra edən zaman mer şura qarşısında məsuliyyət daşıyır və müstəqil olaraq fəaliyyət göstərir. Bu tip səlahiyyətlərə bələdiyyə polisini təşkil etmək və bələdiyyə xidmətinə rəhbərlik etmək daxildir.

Bələdiyyə administrasiyasının strukturu, bir qayda olaraq kommunanın əsas səlahiyyətlərinə uyğun gəlir. Ali vəzifəli şəxs birbaşa merə tabe olan bələdiyyə xidmətinin baş katibi hesab edilir. Baş katib bələdiyyə xidmətinin fəaliyyətini istiqamətləndirir və onun birbaşa rəisi hesab edilir. Qitə modelində idarəetmənin müxtəlif səviyyələrinin iyerarxik tabeliyi saxlanıla bilər (10, s. 90). Y.S. Xozikova qitə modelinin aşağıdakı xarakterik əlamətlərini göstərir:

- Yerlərdə müstəqim dövlət idarəetməsi ilə yerli özünüidarəetmənin birləşdirilməsi;
- Yerli hakimiyyət orqanlarının formalaşdırılmasında seçki və təyinat prinsiplərinin birləşdirilməsi;
- Mərkəzi administrasiyanın nümayəndələri tərəfindən yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə nəzarətin mövcud olması;
- Yerli hakimiyyət orqanlarının unifikasiya edilmiş və müəyyən qaydaya tabe edilmiş statusu;
- Yerli icma və xalq əsaslı surətdə fərqlənir və müxtəlif maraqlara malikdir (8, s. 50).

Əlavə olaraq qitə modelinin aşağıdakı xüsusiyyətlərini qeyd etmək olar:

Birincisi, təyin edilmiş məmur yerli özünüidarəetmənin ikinci səviyyəsində olur, icmalar (kommuna) isə onun birbaşa iştirakı olmadan fəaliyyət göstərir.

Bu zaman kommunanın başçısı (meri) icmanın işlərini idarə etmək funksiyasını, həm də yerlərdə dövlət işlərini icra edir. Buna görə də həm şuraya, həm də prefektə hesabat verir.

İkincisi, yuxarıdan təyin olunmuş məmur yerli özünüidarəetmə orqanına münasibətdə geniş nəzarət funksiyasına malikdir. O, seçilmiş şuranın buraxılmasını və merin vəzifədən uzaqlaşdırılmasını təmin edə bilər.

Üçüncüsü, qitə modelinə malik ölkələrdə yerli orqanlar hakimiyyətin dövlət səviyyəsində həyata keçirilməsində iştirak edə bilərlər. Məsələn, Fransada bələdiyyələr senata seçkilərdə iştirak edirlər.

Bu modelin əsas fərqləndirici xüsusiyyətləri bunlardır: a) yerli özünüidarəetmə və dövlət hakimiyyətinin yerlərdə birləşdirilməsi, seçki və təyinatın olması; b) yerli özünüidarəetmə sisteminin müəyyən iyerarxiyaya malik olması, aşağı həlqənin yuxarıdakına tabe olması; c) yerli səviyyədə mərkəzi hakimiyyətin xüsusi nümayəndəsinin olması, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsi.

Bu modelin müsbət cəhətlərinə mərkəzi dövlət hakimiyyəti və yerli özünüidarəetmənin fəaliyyətinin yerlərdə vəhdətinin təmin olunmasını, habelə əhali və onun nümayəndəli orqanının yerli əhəmiyyətli işləri mərkəzin yerlərdəki nümayəndələrinin nəzarəti altında müstəqil surətdə həll etməsi imkanını aid etmək olar (2, s. 5).

Müasir dövrdə Fransada yerli özüniüdarəetmənin əsas həlqəsi kommunalar – kiçik şəhərlərin və kənd əhalisinin sakinləri tərəfindən yaradılmış kommunalardır. Hər bir kommuna özünün nümayəndəli orqanına malikdir: şura və mer. Mer deputatların içərisindən seçilir və eyni zamanda həm dövlət məmuru, həm də yerli özünüidarəetmənin başçısı olur. Mer və bələdiyyə şurasının deputatları daimi orqan kimi fəaliyyət göstərirlər. Onların fəaliyyəti bələdiyyə şurasının və respublika komissarının inzibati nəzarəti altında həyata keçirilir. Komissar kommuna tərəfindən qəbul edilmiş qərarların qanuniliyini müşahidə edir və zərurət olduqda onların ləğvi olunması üçün məhkəməyə müraciət edir. Yerlərdə hakimiyyətin təşkilinin fransız variantı yerli özünüidarəetmənin qitə modeli üçün tipik hesab edilir. Ümumilikdə, qitə sistemi bir tərəfdən, yerli özünüidarəetmənin bütün nümayəndəli və icra orqanlarının seçkili olmasına, digər tərəfdən isə "mərkəzdən" yerlərə dövlət hakimiyyətinin səlahiyyətli nümayəndələrinin (komissarlar, prefektlər və s.) təyin edilməsinin birləşdirilməsinə əsaslanır (5, s.1). Bu zaman yerli özünüidarəetmənin ilkin strukturlarında (icma, kommuna) dövlət tərəfindən təyin olunmuş məmurlar, bir qayda olaraq, olmur, eyni zamanda rayon səviyyəsində isə əksinə, yerli özünüidarəetmənin aşağı ərazi-inzibati vahidlərinin - icma, kommuna və s. fəaliyyətinin qanuniliyinə nəzarət funksiyasını həyata keçirən və adətən yalnız mərkəzi hakimiyyəti təmsil edən şəxs olur (5, s.).

Yerli özünüidarəetmənin anqlosakson və qitə modelini müqayisə edərkən qeyd etmək lazımdır ki, demokratik cəhətdən inkişaf etmiş ölkələrdə bu iki model arasındakı fərq prinsipial xarakter daşımır.

**3.Qarışıq model**

Bəzi ölkələrdə (Avstriya, Almaniya, Yaponiya, ispandilli Latın Amerikası ölkələrində) yerli özünüidarəetmənin qarışıq model (hibrid) mövcuddur. Bu model anqlosakson və qitə modellərinin bəzi elementlərini ehtiva etməklə yanaşı, özünəməxsus xüsusiyyətlərə də malikdir. Məsələn, ispandilli Latın Amerikasında əhali tərəfindən seçilmiş prefekt, bir qayda olaraq, parlament tərəfindən dövlət hakimiyyətinin nümayəndəsi kimi təsdiq olunur və eyni zamanda yerli şuraya rəhbərlik edir (4, s.122). Qarışıq modelin vətəni hesab olunan Almaniyada yerli özünüidarəetmənin üzərinə həm öz vəzifələrini, həm də dövlət tərəfindən həvalə edilmiş səlahiyyətləri icra etmək vəzifəsi qoyulur. Bələdiyyələrin öz xüsusi vəzifələri bunlardan ibarətdir: su təchizatı, yanğından mühafizə, tullantıların məhv edilməsi, nəqliyyat yollarının tikintisi və s. Bu vəzifələrin öz qüvvələri ilə, yoxsa ayrıca şirkətlərin cəlb olunması ilə həlli məsələsi barəsində şirkətlər özləri qərar qəbul edirlər. Həvalə olunmuş səlahiyyətlərin də icrası zəruri hesab edilir: icmalar onların həyata keçirilməsi üçün maliyyə vəsaiti alırlar, lakin dövlət bu zaman onların icrası üçün sahə nəzarətini həyata keçirir, bu sahədə idarəçilik qərarlarının qəbul edilməsinə müdaxilə olunması da baş verə bilər. Rayonlar öz əraziləri hüdudlarında qanunverici orqanın müəyyən etdiyi məsələlərə görə cavabdehlik daşıyırlar. Dövlət icmalardan daha çox rayonlardan və ya onların rəhbər məmurlarından dövlət vəzifələrinin həll olunması üçün istifadə edir. Ümumilikdə Almaniyda yerli özünüidarəetmənin 4 növü fəaliyyət göstərir:

1. Cənubi alman modeli. İcmanın sakinləri təkcə şuranı deyil, həm də tam icra hakimiyyətinə malik

olan burqomistri seçirlər. İcmanı təmsil edən burqomistr icra hakimiyyəti və şura sədri vəzifələrini özündə birləşdirir.

2. Şimali alman modeli. İcmanın sakinləri nümayəndəli orqanı, nümayəndəli orqan isə öz tərkibindən burqomistri və ya ober-burqomistri seçir. Burqomistr icmanın iclaslarına sədrlik edir və sədr funksiyasını daşıyır.

3. Şura-burqomistr modeli. Sakinlər yalnız nümayəndəli orqanı seçirlər. Nümayəndəli orqan isə eyni zamanda şuranın sədri və icra hakimiyyətinin başçısı olan burqomistri seçir. Şura həmçinin peşəkar idarəçilər içərisindən və öz tərkibindən burqomistrin də daxil olduğu idarəni seçir.

4. Şura-magistratura modeli. Sakinlər nümayəndəli orqanı, o da, öz növbəsində, kollegial idarəetmə orqanı olan magistratı seçir. Bu orqan burqomistr və təyin olunanlardan ibarətdir. Magistrat icra hakimiyyətinin kollegial orqanı hesab olunur. O digər hakimiyyət orqanlar ilə münasibətdə icmanı təmsil edir, şuranın qərarlarını yerinə yetirir, icmanın administrasiyasına rəhbərlik edir.

Qarışıq idarəetmə modelinin bəzi səviyyələrində seçkili orqan eyni zamanda həm bələdiyyə idarəetməsi, həm də dövlət idarəetməsinin nümayəndəsi kimi fəaliyyət göstərir. Məsələn, yerli əhali tərəfindən seçilən yapon prefekturasının qubernatoru müxtəlif dövlət funksiyalarını yerinə yetirir. Qarışıq modelin xarakterik əlaməti aşağı ərazi səviyyəsində muxtariyyətə malik yerli özünüidarəetmənin yuxari səviyyədə dövlət idarəetməsi ilə birləşdirilməsidir (11, s.5).

İnkişaf etmiş demokratik ölkələrdə nəzərdən keçirdiyimiz sistemlərin müxtəlifliyi prinsipial xarakter daşımır və onlar arasında hətta bəzi yaxınlaşmaların olduğunu da qeyd etmək olar.

**Nəticə**

Müasir dünyada dövlət və cəmiyyətlərin əsaslarından birini təşkil edən yerli özünüidarəetmə siyasi sistemin inkişafında mühüm rol oynayır və cəmiyyətin inteqrasiyasının əsas amillərindən biri hesab edilir. Yerli özünüidarəetmənin araşdırdığımız əsas struktur modelləri praktik olaraq mövcud olmaq hüququnu sübut etmişlər və onlardan hər hansi birinin tətbiqi tarixi ənənə və təcrübə, dövlətin daxili siyasət prioritetləri və bələdiyyə qurumunun ölkənin siyasi həyatında çəkisindən aslıdır. Modellərin müxtəlif olmasına baxmayaraq, yerli özünüidarəetmə üçün ümumi əlamətlər və inkişaf təmayülləri xasdır.

Yerli özünüidarəetmə islahatları prosesində hər hansi bir modelin dəyərləndirilməsi zamanı nəzəri araşdırma və praktik təcrübənin ölkənin sosiomədəni, sosial-siyası və iqtisadi kontekstinə uyğun aparılması zəruridir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Бутырина М. В. Зарубежные модели местного самоуправления // Вестник ИГЭУ. 2008. №1, с.1-5*

*2. Велибекова Л. А., Борисова Л. А. Отечественный и зарубежный опыт организации местного самоуправления // УЭКС. 2017. №3 (97), с.1-10*

*3. Вульфович Р. М. Местное самоуправление – проблемы и перспективы / Под ред. М.Б. Горнов. Прилож. К журналу «Северная Пальмира». СПб., 1997, с. 203*

*4. Дроботенко И. И. Зарубежные модели местного самоуправления: опыт для России // Власть. 2010. №1, с.119-122*

*5. Жамулдинов В. Н., Комаров О. Е. Особенности французской модели децентрализации государственного управления и местного самоуправления // Отечественная юриспруденция. 2015. №1(1), с. 14-20*

*6. Куценко Д. О. Анализ политико-правовых моделей организации местного самоуправления // Управленческое консультирование. 2020. №5 (137), с.154-165*

*7. Тихалева Е.Ю. Организационные модели местного самоуправления: тенденции развития // Местное право. 2015. N2, с. 13-19*

*8. Хозикова Е. С. Современные подходы к местному управлению и самоуправлению в зарубежных странах // Закон и право. 2018. №9, с. 48-52*

*9. Чиркин В.Е. Организационные формы местного самоуправления: Россия и зарубежный опыт // Журнал российского права. 1997. № 8. с. 96–104*

*10. Шамхалов М. А. Основные мировые модели местного самоуправления // Юридический вестник Дагестанского государственного университета, 2016, №4, с. 88-91*

*11. Шустов В. Г. Основные модели местного самоуправления // Вестник Адыгейского государственного университета, 2011, №2. с.287-296*

**Zəfər Abdullayev**

**Yerli özünüidarəetmənin əsas modelləri**

**XÜLASƏ:**

Müasir dövrdə dəyişiklik və təkmilləşmə prosesini davam etdirən yerli özünüidarəetmənin modelləri uzun bir müddət ərzində formalaşmışdır. Müxtəlif ölkələrdə demokratiyanın əsas prinsiplərinə riayət olunması şərtilə yerli özünüidarəetmənin fərqli modelləri tətbiq edilir. Dünya praktikasında hal-hazırda yerli özünüidarəetmənin bir neçə növü mövcuddur. Mərkəzi hakimiyyətlə münasibətlər baxımından yerli özünüidarəetmənin aşağıdakı əsas modellərini göstərmək olar: anqlosakson, qitə və qarışıq. Anqlosakson modeli üçün bələdiyyə orqanlarına yerlərdə nəzarət edən dövlət nümayəndəsinin və iyerarxik tabeçiliyin olmaması xarakterikdir. Yerlərdə mərkəzi hakimiyyətin nümayəndəsinin olmamasına baxmayaraq, bu modelə malik olan ölkələrdə yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ümumi dövlət nəzarəti mövcuddur. Nəzarət funksiyası məhkəmələr, sahə nazirlikləri və maliyyə vəziyyətinin yoxlanılması kimi qeyri-müstəqim vasitələrlə həyata keçirilir. Qitə modeli yerlərdə müstəqim dövlət idarəçiliyi və yerli özünüidarəetmənin birləşdirilməsinə əsaslanır. Dövlət administrasiyası məmurları yerli nümayəndəli orqana nəzarət edir, habelə ümumdövlət əhəmiyyətli digər funksiyaları yerinə yetirirlər. Onlar seçilmiş şuranın buraxılmasını və merin vəzifədən uzaqlaşdırılmasını həyata keçirə bilərlər.Təyin olunmuş məmur yerli özünüidarəetmənin ikinci səviyyəsində olur, icmalar (kommuna) isə onun birbaşa iştirakı olmadan fəaliyyət göstərir. Qarışıq model anqlosakson və qitə modellərinin xüsusiyyətlərinə malik olmaqla yanaşı, özünəməxsus xüsusiyyətlərə də malikdir. Həm öz vəzifələrini, həm də həvalə edilmiş dövlət səlahiyyətlərini icra edən yerli özünüidarəetmə orqanları maliyyə və maddi-texniki cəhətdən təmin olunurlar. Yerli özünüidarəetmənin qarışıq modelinin əsasında ikisəviyyəli sistem dayanır. Onların statusu konstitusiyada təsbit olunmaqla yanaşı, regional qanunvericilikdə də öz əksini tapır.

Məqalədə müəllif tərəfindən yerli özünüidarəetmənin müxtəlif modelləri təhlil olunur, onların fərqləndirici xüsusiyyətləri, əsas fəaliyyət prinsipləri və dövlət hakimiyyəti ilə qarşılıqlı münasibətləri aydınlaşdırılır.

**Açar sözlər:** *yerli özünüidarəetmə, anqlosakson modeli, qitə modeli, qarışıq model, bələdiyyə*

**Зафар Абдуллаев**
***Бакинский Евразийский Университет, диссертант***

**Основные модели местного самоуправления**

**РЕЗЮМЕ**

Модели местного самоуправления, продолжающие процесс изменения и совершенствования на современном этапе, формировались на протяжении длительного периода времени. В разных странах применяются разные модели местного самоуправления при условии соблюдения основных принципов демократии. В настоящее время в мировой практике существует несколько типов местного самоуправления. С точки зрения отношений с центральной властью можно указать следующие основные модели местного самоуправления: англосаксонскую, континентальную и смешанную. Англосаксонская модель характеризуется отсутствием местного представителя государства, контролирующего муниципальные органы, и отсутствием иерархического подчинения. Несмотря на отсутствие представителя центральной власти на местах, в странах с этой моделью существует общий государственный контроль за деятельностью органов местного самоуправления. Функция контроля осуществляется инструментами непрямого управления такими, как суды, отраслевые министерства и финансовый аудит. Континентальная модель основана на сочетании прямого государственного управления и местного самоуправления. Чиновники государственного управления контролируют местный представительный орган, а также выполняют другие функции общегосударственного значения. Они могут распустить избранный совет и отстранить мэра от должности. Назначенный чиновник находится на втором уровне местного самоуправления, а общины (коммуны) функционируют без его непосредственного участия. Смешанная модель имеет черты англосаксонской и континентальной моделей, однако обладает и своими особенностями. Органы местного самоуправления, выполняющие как свои обязанности, так и делегированные государственные полномочия, получают финансовую и материально-техническую поддержку. Смешанная модель местного самоуправления основана на двухуровневой системе.

Их статус не только закреплен в конституции, но и отражен в региональном законодательстве.

В статье автором анализируются различные модели местного самоуправления, выясняются их отличительные особенности, основные принципы деятельности и взаимоотношения с государственной властью.

**Ключевые слова:** *местное самоуправление, англосаксонская модель, континентальная модель, смешанная модель, муниципалитет*

**Zafar Abdullayev**
***PhD in the Baku Eurasian University***

**Basic models of local self-government**
**SUMMARY**

Models of local self-governance, which continue the process of change and improvement in modern times, have been formed over a long period of time. In different countries, different models of local self-government are applied, provided that the basic principles of democracy are observed. Nowadays, there are several types of local self-government in the world. In terms of relations with the central government, the following main models of local self-government can be indicated: Anglo-Saxon, continental and mixed. The Anglo-Saxon model is characterized by the absence of a local representative of the state controlling the municipal bodies and the absence of hierarchical subordination. Despite the absence of a representative of the central government, in countries with this model, there is general state control over the activities of local self-government bodies. The control function is carried out through indirect means such as courts, line ministries and financial audits. The continental model is based on the combination of direct state administration and local self-government. State administration officials supervise the local representative body, as well as perform other functions of national importance. They can dissolve the elected council and remove the mayor from office. The appointed official is at the second level of local self-government, and communities (communes) operate without his direct participation. The mixed model has characteristics of the Anglo-Saxon and continental models, but also has its own characteristics. Local self-government bodies performing both their duties and delegated state powers are financially and logistically supported. The mixed model of local self-government is based on a two-level system. Their status is not only established in the constitution, but also reflected in the regional legislation.

In the article, the author analyzes various models of local self-government, and clarifies their distinguishing features, main operating principles and mutual relations with the state power.

**Keywords:** *local self-governance, Anglo-Saxon model, continental model, mixed model, municipality*

UOT 327:312
DOI:10.30546/3006-0346.2024.1.79.85

# BEYNƏLXALQ MİQRANT AXINI FONUNDA MULTİKULTURAL TƏHLÜKƏSİZLİK DİSKURSU

**İSMAYIL İSMAYILZADƏ**
*Bakı Dövlət Universiteti, magistrant*
*E-mail: ismayilismayilzada@mail.ru*

## Giriş

Milli kimliklərin əsas götürüldüyü modern dövrdən fərqli olaraq, postmodern dövrdə əsas müzakirə olunan məsələ multikulturalizm siyasəti çərçivəsində digər mədəni xalqların bir-birləri ilə inteqrasiyası təşkil edir. Bu istiqamətdə qloballaşma dövründə cəmiyyətlər arasındakı əlaqə və ünsiyyət təcrübəsi böyük əhəmiyyət kəsb edir. Müasir dövrdə müəyyən cəmiyyətlər arasında oxşarlıq olsa da, müəyyən mədəni fərqliliklərin mövcudluğunu da vurğulamaq vacibdir.

Bildiyimiz kimi, son dövrlərdə, xüsusilə post-pandemiya dövrünə qədər multikulturalizmlə bağlı həm beynəlxalq sferada, həm də ölkəmizdə genişmiqyaslı tədqiqat işləri aparılmışdır. Buna baxmayaraq dövrümüzün aktual məsələlərindən hesab edilən mədəni səviyyədə bəşəri təhlükəsizliyin təmin edilməsində multikulturalizm siyasətinin rolu genişmiqyaslı şəkildə tədqiq edilməmişdir. Məqalədə dövrümüzün əsas aktual məsələlərindən hesab edilən miqrasiya probleminin həll edilməsində həm ölkəmizdə, həm də dünyada tətbiq edilən multikulturalizm siyasətinin uğurlu və uğursuz nəticələri analiz edilməyə çalışılmışdır.

## Əsas hissə

Multikulturalizm siyasəti ümumdünyada qəbul edilən həyat tərzi olaraq xüsusi çəkiyə malikdir. Bu gün bir çox ölkələr, icmalar, beynəlxalq təşkilatlar, dini strukturlar və şəxslər kütləvi dağıdıcı silahların artmaqda davam etdiyi bir dövrdə, iqtisadi və maliyyə böhranlarının mövcud olduğu bir şəraitdə fəaliyyət göstərməyin, inkişafın, sosial rifahın təmin olunmasının yeganə yolu kimi əməkdaşlığın və mədəniyyətlərarası dialoqun vacibliyini dərk edirlər. Qeyd edilən elementlərin əsasında uğurlu multikulturalizm siyasətinə nail olmaq və onun həyat tərzinə inteqrasiyasa edə bilmək olduqca vacibdir. Bu istiqamətdə, siya mühit və dövlət idarəçiliyi, ikinci dünya müharibəsindən sonrakı dövrdə tamamilə dəyişikliklərə uğradı. Belə ki, əvvəlki dövrlərdə mövcud olan ideologiya fərqləri aradan qalxaraq artıq hər hansı siyasi ideologiya ilə bir xalqı təsvir etmək mümkün deyildir.Günümüzdə artıq qeyd edilməlidir ki, hər bir xalq yalnız öz mədəniyyətinə əsaslanaraq fərqlənir.

Miqrasiya prosesinin sürətlənməsi nəticəsində, xüsusilə Qərb dövlətlərində, çeşitli etnik cəmiyyətlərin sayı kəskin artmış və bir dövlət daxilində onlarla fərqli mədəniyyətə sahib olan xalqların mövcudluğu ortaya çıxmışdır. Mövcud vəziyyət, dövlət idarəçiliyi sahəsində də çətinliklər yaratmışdır. Bunun əsas səbəbi bir dövlətin ərazisi içində bu qədər müxtəlif mədəniyyətin mövcudluğu, idarəetməni daha kompleks hala gətirməsi ilə əlaqədardır. Belə ki, 1971-ci ilə qədər bir çox dövlət, gələn mədəniyyətlərin assimilyasiya və ya izolyasiya siyasətləri ilə titular xalqın mədəniyyətini qorumağa çalışırdı. Buna baxmayaraq, miqrantları qəbul edən əksər ölkələr az sayda olan digər xalqlara qarşı siyasi ədalətsizlik və demokratik olmayan siyasət prizması ilə yanaşırdı. Buna baxmayaraq, zaman keçdikcə hər bir xalq öz mədəni identikliyini qorumağa nail oldu və nəticədə müxtəlif mədəniyyətlərin qarşılaşması anlayışını formalaşdırdı (https://unec.edu.az/multikulturalizm-siyasetinin-prinsipleri-ve-azerbaycan/).

Bu kontekstdə “beynəlxalq miqrasiya” termini ilə bir qrup şəxslərin başqa yerlərə doğru hərəkətindən asılı olmayaraq müxtəlif dövlətlər arasında geniş miqrasiya, strukturlarını, müxtəlif münasibətləri əhatə edən anlayış formalaşmağa başladı. Bu mənada miqrasiya, iqtisadi, siyasi, mədəni və demoqrafik proses olaraq başa düşülür (Faist, 2003: 30). Beləliklə, beynəlxalq miqrasiya həm yüksək dinamik, həm də mürəkkəb bir fenomen olaraq daim dəyişir. O, müxtəlif kontekstlərdə fərqli formalar ala, çeşidli yollarla inkişaf edə və inkişaf etdiyi kontekstin təsiri altında stabil olmayan transformasiyalara məruz qala bilər. Bundan əlavə, miqrasiya anlayışı müxtəlif şərtlərdən təsirlənərək mövcud şərtlərdəki dəyişikliklərlə qarşılıqlı əlaqədə olur və dəyişikliklərə məruz qalır (Öner A.Ş. 2015; ss. 13-27). Beynəlxalq miqrasiya bəşər tarixində uzun müddət rast gəlinən sosioloji hadisə olsa da, bu gün həm sürəti, həm davamlılığı, həm də mürəkkəbliyi baxımından fərqli və daha kompleks bir quruluş qazanmışdır. Miqrasiyanın artan intensivliyi, forması, təsiri bugünkü cəmiyyətlər və dövlətlər üçün mühüm gündəm bəndinə çevrilmişdir. “Soyuq müharibə”nin sona çatması ilə təhlükəsizlik anlayışı

genişləndikcə və dərinləşdikcə, beynəlxalq miqrasiya fenomeni də bu anlayışa daxil edildi. Xüsusilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə yeni bir təhlükə olaraq ortaya çıxan beynəlxalq miqrasiya milli təhlükəsizliyə təsir göstərməyə başlamışdır. Beynəlxalq siyasətin "aşağı siyasət"dən "yüksək siyasətə" keçdiyi bu dövrdə beynəlxalq miqrasiya fenomeni ilə milli təhlükəsizlik arasında əlaqə getdikcə artmışdır. Hazırda bu fenomen siyasiləşmiş və sekuritləşdirilmiş vəziyyət kimi qəbul edilir.

Xüsusilə beynəlxalq miqrasiyanın intensiv və nəzarətsiz olduğu vəziyyətlər immiqrantları qəbul edən cəmiyyətlərdə öz milli təhlükəsizlik təhdidinin dərk edilməsinə səbəb olur. Bu, "xarici qorxu", "irqçilik" və "radikal məcburiyyət" kimi siyasi məzmunlu anlayışların ortaya çıxması ilə nəticələnir. Mövcud vəziyyət sosial və iqtisadi baxımdan ciddi təhlükəsizlik risklərinə səbəb olur. Bu kontekstdə beynəlxalq miqrasiya fenomeni dövlətlərin milli təhlükəsizlik, sosial sabitlik, demoqrafik təhlükəsizlik, mədəni identiklik, sosial təminat sistemləri, firavan dövlət fəlsəfəsi və daxili təhlükəsizlik strukturları ilə bağlı fəlsəfəsinə təsir edən reallıq kimi üzə çıxır (Şener B 2017; 31 s).

Dünya üzrə hər hansı bir ölkənin, miqrasiya probleminin təsirinə məruz qalmadığı bir vaxt mövcud deyildir. Həm donor, həm də resipiyent ölkələr, müasir miqrasiya axınları ilə bağlı fəaliyyət göstərir. Beynəlxalq miqrasiya, Avropa İttifaqı ölkələrini yeni dalğalarla əhatə etməkdə dayanmır; əksinə, onların liderləri yeni və çox müzakirəli ideyaları təqdim etməkdə davam edir. Kimi liderlər multikultural cəmiyyət, tolerantlıq və miqrantların mümkün assimilyasiyasından danışarkən, digərləri isə tamamilə müsbət olmayan bir üslubla gələn əcnəbilərlə hər cür əməkdaşlığı tənqid edir. Bu qarşıdurmalar yaranmış problemlərin həlli yolunu tapmağa kömək etmir; əksinə, sadəcə cəmiyyətin yeni üzvləri ilə əlaqədar olan çətinlikləri ifşa edir və əcnəbilələrin yeni mühitdə assimilyasiya problemlərinə ictimai diqqəti cəlb edir.

Qanunsuz miqrantlar, ölkəyə necə daxil olduqlarından asılı olmayaraq, alıcı ölkələr üçün böyük bir problem törədir. Bu insanlar, sərhədi qanunsuz şəkildə keçiblər və ya müddəti bitmiş viza ilə qalmış ola bilərlər. Sənəd olmadığı üçün əsasən ən az maaşlı işlər və çox vaxt kölgə bizneslərdə işləyirlər, vergi ödəmirlər və heç bir sosial xidmətdən yararlana bilmirlər. Bu, çoxsaylı geyim fabrikləri, qida istehsalı, tikinti briqadaları kimi sahələrdə onların işlədikləri anlamına gəlir. Qaçqın axını adətən silahlı, dini və ya etnik münaqişə ölkəsinə yaxın olan ölkəni doldurur. Bu axının əsas xüsusiyyəti, qəfil və kütləvi şəkildə hərəkət etməsidir. Qaçqın statusu, onlara isti yemək, sığınacaq və maddi yardım almaq, sonra isə işə düzəlmək imkanı verir. Buna baxmayaraq, ölkənin inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, qaçqınlara bir o qədər də rahat şərait təklif olunur. Bu da qaçqın axınının artmasına səbəb olur. Onları artıq qonşu ölkələrə deyil, daha səxavətli şərtlər təklif etdikləri yerlərə göndərmək üçün narahatlıq içində saxlayır.

Bəzi hallarda, qaçqın axını o qədər artır ki, onu qəbul edən ölkələr sosial öhdəliklərini tam ödəyə bilmirlər. Bu durum qaçqınlar arasında narazılığa və sosial gərginliklərin artmasına səbəb olur. Əsas olaraq, qaçqınlar öz ölkələrindəki münaqişənin həll olunmasını gözləyənə qədər məskunlaşdırılırlar. Qaçqınlar arasında vətəndaşlığa qayıtmaq istəməyən bir qrup isə sığınacaq üçün müraciət edir və nəticədə yeni bir vətəndaşlıq əldə edir. Qanuni tərəfdən qəbul edilmiş immiqrantlara və müqaviləli işçi sayı baxımından, ən böyük miqrant əhalisi olan ölkə 51 milyon nəfər ilə ABŞ-dır. İkinci sıradakı Almaniya isə 12 milyon miqrant ilə gəlir. Rusiya isə 11,8 milyon nəfərlik göstərici ilə reytinqin üçüncü pilləsində mövcud olaraq qeyd olunur. Mühacirlər və ölkənin yerli əhali nisbətində təhlil edəndə, mənzərə bir qədər fərqli və bəzən dəhşətli görünə bilər. Ölkələr miqrantların sayına görə sıralanması isə cədvəl 1-də təqdim edilmişdir:

**Cədvəl 1: Ölkələrin miqrantların sayına görə sıralaması**

| Ölkə | İmmiqrantların sayı ölkə əhalisinin %-lə | Ölkə | İmmiqrantların sayı ölkə əhalisinin %-lə |
|---|---|---|---|
| BƏƏ | 88.4 | İordaniya | 41.0 |
| Küveyt | 73.6 | Honq Konq | 38.9 |
| Lixtenşteyn | 62.6 | Livan | 34.1 |
| Andorra | 59.7 | Səudiyyə Ərəbistan | 32.3 |
| Makao | 58.3 | İsveçrə | 29.4 |
| Monako | 55.8 | Avstraliya | 28.2 |
| Sinqapur | 45.4 | Kanada | 21.8 |

***Mənbə:*** *(Xəlilova E 2019; s. 60-66).*

Cədvəldə qeyd edilən məlumatlara əsasən, miqrantlar üçün ən cəlbedici olan ölkələr neft hasil edən və yeni sənayeləşmiş ölkələrdir. Həmçinin, İslam Həmrəyliyi Təşkilatının (İƏİT) kiçik dövlətləri də miqrantları cəlb etməkdədir. Bundan əlavə, münaqişə zonalarında qonşu olan ölkələrdə miqrantların nisbəti

yüksəkdir. Neft hasil edən ölkələr və yeni sənayeləşmiş ölkələr yenə də maliyyə səbəbləri ilə miqrantlar üçün əlverişli olan ölkələrdir. Bu ölkələrdə mövcud olan iş imkanları, daha yüksək məişət səviyyəsi və sosial imkanlar miqrantları cəlb edir. Neft və energetika sənayesi regiondakı bəzi ölkələrin eiqtisadiyyatını daha müstəqil və güclü edir. İƏİT-in kiçik dövlətləri ilə birgə əməkdaşlığı, ictimaiyyətin daha təsirli olması və təhlükəsizliyin artması kimi amillər miqrantların axınının artmasına səbəb olur. İƏİT, üzv ölkələr arasında əmək müqavilələri və başqa elementləri dəstəkləyən bir platformaya çevrilmişdir. Münaqişə zonalarına qonşu olan ölkələrdə miqrantların nisbətinin yüksək olması isə münaqişə, təhlükə vəziyyəti, insan hüquqları pozuntusu və sosial şərait kimi səbəblərlə əlaqəlidir. Münaqişə zonalarında yaşamağın çətinlikləri və təhlükəli şərait miqrantların öz ölkələrindən qaçmalarına səbəb olur. Cədvəldə göstərilən məlumatlarda qeyd edildiyi kimi, miqrantların özlərini daha sürətli inkişaf etməkdə olan vəziyyətlərlə əlaqələndirmək üçün həm iqtisadi, həm də sosial və siyasi amillərin nəzərə alınması olduqca vacibdir.

Sosial təminat anlayışı çərçivəsində əsas arqumentlər mədəniyyət və şəxsiyyətə müraciət edərək təhlükəsizlik əlaqəsini formalaşdırır. Daha əvvəl ifadə edilmiş mövqeyə əsasən, mədəniyyət və şəxsiyyət yalnız hormonlaşması yanaşması ilə təhlükəsizliyi təmin edə bilər. Bu yanaşmanın mümkün olması üçün heterojenlik təsviri, “ibtidai”, “bədxassəli” və “irrasional” kimi sifarişlərin tətbiqi ilə nəzərdə tutulur. Van Dijk tənqidi çıxışı təhlili çərçivəsində, miqrasiyanın mədəni şəkildə necə təmin edildiyini izah edən modellər, zehni təmsillər təqdim edir. Miqrasiyaya cavab olaraq hazırlanmış təhlükəsizlik strategiyası müdafiə təşəbbüsünü təmsil edən mədəni kimliyi əhəmiyyətli dərəcədə formalaşdırır. Cəmiyyət daxilində fərdlər mədəni çərçivələrin təkamülündən irəli gələn istiqamətləndirici təsirləri ilə ətraflarının kimliyini müəyyən etməkdə mühüm rol oynayırlar.

Ölkəmizdə miqrasiya axınlarının mahiyyətinə və onların yaranmasına diqqət yetirdikdə miqrasiya proseslərinin tədricən inkişaf etdiyi və bu inkişafın proqnozlaşdırıldığı bildirilir. Bu proseslər üç təyin olunmuş mərhələyə bölünür: 1) Birinci mərhələ - 1990-1995-ci illər; 2) İkinci mərhələ - 1996-2003-cü illər; 3) Üçüncü mərhələ - 2004-2016-cı illər. Birinci mərhələdə, Sovet İttifaqının dağılması və xüsusilə Cənubi Qafqazda ən uzun müddət davam edən Qarabağ münaqişəsi, habelə Özbəkistanın Fərqanə əyalətində Məhsəti türkləri ilə bağlı qanlı hadisələr, bu mərhələnin mahiyyətini açıqlayır. Belə ki, 90-cı illərin əvvəllərində isə, Ermənistanın etnik azərbaycanlıları, Özbəkistanın Məhsəti türkləri və Ermənistan silahlı qüvvələrinin əhatə etdiyi Qarabağ və ətraf yeddi rayondan məcburi köçkünlər, respublikanın ərazisində məskunlaşaraq etnik rəngin bu mərhələyə əsasən dəyişdiyini göstərir. Bu məqam, birinci mərhələdə baş vermiş miqrasiya proseslərinin əsasən etnik səciyyəyə təsir etdiyini vurğulayır (Allahverənov A., 2017; s 124-129).

**Nəticə**

XX əsrin dəyişən dünya mühitində “cəmiyyətin təhlükəsizliyi” problemi dövlətin təhlükəsizliyi ilə yanaşı, şəxsiyyət, mədəniyyət, ətraf mühit, sağlamlıq, qida və s. milli, regional qlobal səviyyələrdə genişspektrli istinad obyektlərin təhlükəsizliyi məsələləri müzakirə edilməyə başlandı. Bu məsələlər “soyuq müharibə”dən sonrakı dövrdə təhlükəsizlik tərifindəki dəyişiklikləri əks etdirir. Baş verən yeniliklər, tənqidi yanaşmanın dəyişməsinə və genişlənməsinə, eləcə də ortaya çıxmasına səbəb oldu. “Soyuq müharibə” bitdikdən sonra Kopenhagen məktəbinin yanaşma istiqaməti dəyişərək təhlükəsizlik anlayışının genişlənməsi nəticəsində ortaya çıxan sosial təminat paradiqması sosioloji elementlərin təhlükəsizliyini təmin etmək vacibliyini doğurdu. Bu elementlərdən biri olan mədəniyyətin təhlükəsizliyi xüsusilə son illərdə getdikcə daha çox əhəmiyyət kəsb etməyə başladı. Burada təkcə ritorika ilə deyil, eyni zamanda, miqrasiyanın qarşısının alınması üçün irəli sürülən siyasətlər də bunun digər konkret səbəbləridir. Bu səbəbdən, miqrasiya fenomeni təhdidlərə və təsirlənən təhlükələrə görə sekuritləşdirilib

Kopenhagen Məktəbinin “sekuritizasiya” tədbir çərçivəsində qurduğu qaydada, diskursiv şəkildə formalaşmış miqrasiya fenomeni mədəni təhlükəsizlik üçün bir referans obyekt kimi funksiyalara malik olmuş və cəmiyyətə böyük təsir göstərmişdir. Uğurlu sekuritizasiyanın bu kontekstdə həyata keçirilməsi, hədəf ölkədə “ekzistensial təhdid” kimi təsvir edilən prosesin nizamlanması və tamamlanması məqsədilə planlaşdırılır. Avropada sağçı və millətçi partiyalar, immiqrantları cəmiyyətin ünsürlərini məhv edəcəkləri fikri ilə bağlı tədqiqatları irəli sürərək, onların miqrasiya fenomeninin zərərli olacağı iddiasına əsaslanaraq, bunu bir arqument olaraq irəli sürürlər.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Allahverənov A., "Qloballaşma şəraitində Azərbaycanda miqrasiya proseslərinin aktual məsələləri", "Bakı:2017", s 124-129.*

*2. Xəlilova E., "Beynəlxalq miqrasiyanın cari uçotunun vəziyyəti və perspektivləri", "Mingəçevir Dövlət Universiteti:2019", s. 60-66.*

*2. Ilgıt Ö., Çetiner A (2019)., "Suriye Krizi Döneminde Avrupa'ya Yönelik Göçlerin Güvenlikleştirilmesi: Avrupa Birliği Kurumlarının Söylemleri Kapsamında Bir İnceleme". Ankara Avrupa Çalışmaları Dergisi, s 493-533*

*3. Öner, A.Ş., "Göç Çalışmalarında Temel Kavramlar. Küreselleşme Çağında Göç: Kavramlar, Tartışmalar", İstanbul: İletişim Yayınları: 2015, ss. 13-27.*

*4. Şener B (2017)., "SOĞUK SAVAŞ SONRASI DÖNEMDE ULUSLARARASI GÖÇ OLGUSU VE ULUSAL GÜVENLİK ÜZERİNDEKİ ETKİLERİ ÜZERİNE BİR DEĞERLENDİRME", "Güvenlik Bilimleri Dergisi", 31 s*

*5. Hastunç K (2018)., "Securitization of Migration in the European Union: Effects on Turkish Migration Practices", "Ankara: Hacettepe Üniversitesi", 20 s.*

*6. Givens T., "Immigration and National Security: Comparing the US and Europe", "The Whitehead Journal of Diplomacy and International Relations:2010", p 79-88.*

*7. Goodwin M.,J., "Activism in Contemporary Extreme Right Parties: The Case of the British National Party (BNP)", "Journal of Elections:2010, p 31-54.*

*8. https://unec.edu.az/multikulturalizm-siyasetinin-prinsipleri-ve-azerbaycan/*



**XÜLASƏ**

Məqalədə, dünya əhalisinin artım dinamikaları, miqrasiya prosesinin effektləri, qaçqın və köçkün statistikası və ölkələr arasında yerləşdirilməsi kimi ən önəmli məsələlərin qlobal əhəmiyyətə malik olduğu vurğulanır. Miqrasiya prosesi, bütün ölkələrin iştirak etməsini əhatə edən böyük bir qlobal məsələdir. Miqrantlar, qəbul edən və mənşə ölkələr üçün əhəmiyyətli bir rola sahibdir, bir çox hallarda əvəzedilməz bir amil kimi funksiyon görməkdədir. Həmçinin, miqrasiya proseslərinin bir hissəsi olaraq, işçi qüvvəsinin və elmi resursların mübadiləsi də mümkündür. Bu da göstərir ki, miqrasiya resursları, bir çox ölkə üçün milli inkişaf strategiyasının əsas elementlərindən biri kimi hesab edilir.

Bu çərçivədə, xüsusilə "soyuq müharibə"dən sonra Kopenhagen Məktəbinin klassik dövlət təhlükəsizliyi anlayışına əlavə olaraq, iqtisadi, siyasi, sosial və ekoloji təhlükəsizlik anlayışları ədəbiyyatda öz yerini tapmışdır. Bu yeni təhlükəsizlik anlayışının nəticəsi olaraq, xüsusilə sosial iş çərçivəsində miqrasiya fenomeni ilə əlaqədardır və bu gün dövlətlərin və cəmiyyətlərin öz təhlükəsizlik siyasətləri ilə təsir və yenidən formalaşması reallığı ilə uyğundur. Bu araşdırma bu həqiqəti vurğulamaq, iki hadisə arasındakı əlaqəni açıqlamaq və dialektikanı vurğulamaq məqsədi daşıyır. Miqrasiya ədəbiyyatında bu tədbirlə bağlı araşdırmaların qeyri-kafi olması nəticəsində məqalə, miqrasiyanın müasir mədəni kontekstdə təhlükəsizlik elementi kimi necə qiymətləndirildiyini izah etmək məqsədi daşıyır.


**Açar sözlər:** *Multikulturalizm, miqrasiya prosesi, beynəlxalq təhlükəsizlik, Kopenhagen məktəbi*


**Ismail Ismailzadeh**
***Baku State University, graduate student***
***ismayilismayilzada@mail.ru***


**MULTİCULTURAL SECURİTY DİSCOURSE İN THE CONTEXT OF İNTERNATİONAL MİGRANT FLOWS**


**SUMMARY**

In the article, it is emphasized that the most important issues, such as world population growth dynamics, effects of the migration process, refugee and displaced persons statistics, and placement between countries, are of global importance. The migration process is a big global issue involving all countries. Migrants have an important role for host and origin countries, in many cases they function as an irreplaceable factor. Also, as part of the migration processes, the exchange of labor and scientific resources is also possible. It also shows that migration resources are considered as one of the main elements of the national development strategy for many countries.

In this framework, especially after the Cold War, in addition to the classical concept of state security of the Copenhagen School, the concepts of economic, political, social and environmental security have found their place in the literature. As a result of this new concept of security, it is especially related to the

phenomenon of migration within the framework of social work and is in line with the reality that today states and societies are influenced and reshaped by their security policies. This study aims to highlight this fact, reveal the relationship between the two phenomena, and emphasize the dialectic. As a result of insufficient research on this measure in migration literature, the article aims to explain how migration is evaluated as an element of security in the contemporary cultural context.

**Key words:** *Multiculturalism, migration process, international security, Copenhagen school*

**Исмаил Исмаилзаде**
***Бакинский Государственный Университет, магистр***
***ismayilismayilzada@mail.ru***

## ДИСКУРС МУЛЬТИКУЛЬТУРНОЙ БЕЗОПАСНОСТИ В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ПОТОКОВ МИГРАНТОВ

### РЕЗЮМЕ

В статье подчеркивается, что важнейшие вопросы, такие как динамика роста мирового населения, последствия миграционного процесса, статистика беженцев и перемещенных лиц, их размещение между странами, имеют глобальное значение. Миграционный процесс является большой глобальной проблемой, затрагивающей все страны. Мигранты играют важную роль для принимающих стран и стран происхождения, во многих случаях они выступают незаменимым фактором. Также в рамках миграционных процессов возможен обмен трудовыми и научными ресурсами. Это также показывает, что миграционные ресурсы рассматриваются как один из основных элементов национальной стратегии развития многих стран.

В этих рамках, особенно после «холодной войны», помимо классической концепции государственной безопасности Копенгагенской школы, в литературе нашли свое место концепции экономической, политической, социальной и экологической безопасности. В результате этой новой концепции безопасности она особенно связана с явлением миграции в рамках социальной работы и соответствует реальности того, что сегодня государства и общества находятся под влиянием и преобразуются своей политикой безопасности. Настоящее исследование призвано подчеркнуть этот факт, раскрыть взаимосвязь между двумя явлениями, подчеркнуть диалектику. Ввиду недостаточного исследования этой меры в миграционной литературе, статья призвана объяснить, как миграция оценивается как элемент безопасности в современном культурном контексте.

**Ключевые слова:** *Мультикультурализм, миграционный процесс, международная безопасность, Копенгагенская школа.*

UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2024.1.79.90

**NAQİF HƏMZƏYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Respublikası Milli Məclisin deputatı*

*E-mail: dr.hamzanagif@gmail.com*

# 44 GÜNLÜK VƏTƏN SAVAŞINDAN SONRA QAFQAZ VƏ XƏZƏR REGİONUNDA ƏMƏKDAŞLIĞIN YENİ PERSPEKTİVLƏRİ

Cənubi Qafqaz son 200 ildən artıq müddətdir ki, dünya siyasəti və gücləri üçün əhəmiyyətli bir bölgədir. SSRİ-nin süqutundan sonra regionda xeyli ərazi sərhəd münaqişələri, separatizm meyilləri gücləndi. Dünyanın bir sıra geosiyasi gücləri bu münaqişələrin həll edilməsi ilə bağlı region dövlətlərinə münasibətdə birmənalı mövqe sərgiləmədilər. Həmin geosiyasi güclər Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığına müxtəlif bəhanələrlə haqq qazandırır və bu prosesi münaqişənin getdiyi bir zamanda davam etdirirdilər.

44 günlük Vətən müharibəsindən sonra regionda konfrantasiya münasibətlərinə deyil, əməkdaşlıq mexanizmlərinə, regional layihələrin həyata keçirilməsinə önəm verilməyə başlandı. Mühüm regional layihələrin, eləcə də Naxçıvan üzərindən Aralıq dənizi və Xəzər dənizi hövzələrini birləşdirən dəhlizin yaradılması yeni inkişaf perspektivləri vəd edirdi. Bu kontekstdə Prezident İlham Əliyevin liderlik keyfiyyəti və Ali Baş Komandan kimi fəaliyyəti ön planda yer tuturdu. Dövlət başçısı İlham Əliyev postmüharibə dövründə yaranmış yeni geosiyasi şəraitlə bağlı deyirdi: “Bu gün yeni bir vəziyyət yaranıb, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqlar yaradan ölkəyik və bundan əvvəlki dövrlərdə də bizim təşəbbüsümüzlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirib, əməkdaşlığın yeni formatlarını şərtləndirib”[2].

Azərbaycan regionda konfrantasiya xəttini dəyişərək bölgəni əməkdaşlıq və təhlükəsizlik geosiyasi müstəvisinə çıxarmaq üçün təşəbbüsü öz əlinə aldı. Müharibədən sonra Azərbaycan həm diplomatik-siyasi, həm hərbi-təhlükəsizlik, həm də informasiya sahələrində mühüm geosiyasi şərait yaratdı. Bu baxımdan 44 günlük Vətən müharibəsindən sonra formalaşan yeni geosiyasi mənzərəni araşdırmaq və onu təhlil etmək mühüm elmi və siyasi aktuallıq kəsb edir.

Cənubi Qafqaz regionu geosiyasi və strateji əhəmiyyətinə görə diqqət mərkəzində olmuşdur. Bu regionun əhəmiyyətini artıran əsas məqamlardan biri Xəzər hövzəsi enerji resurslarının dünya bazarlarına nəql marşrutu üzərində yerləşməsidir. Avrasiya nəqliyyat dəhlizinin bu regiondan keçməsi Cənubi Qafqazın geosiyasi və geoiqtisadi əhəmiyyətini daha da artırır. Sovet İttifaqının süqutundan sonra miras qalan münaqişələrdən biri də Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmuşdur. Beynəlxalq təşkilatların və aparıcı dövlətlərin səylərinə baxmayaraq 30 ilə yaxın bir müddət ərzində bəzi dövlətlərin münaqişəyə ədalətsiz yanaşması və konfliktin dondurulması istiqamətində siyasəti nəticəsində bu problem həll olunmamışdır. 1990-2020-ci illər ərzində Cənubi Qafqazda yaranan mürəkkəb geosiyasi şəraitdə bəzi xarici qüvvələr regionda yaranmış münaqişələri həll etmir, bu konfliktlərdən öz maraqlarına uyğun istifadə edirdilər. Bu qüvvələrin əsas məqsədi Azərbaycana ədaləti bərpa etməyə imkan verməmək, Ermənistanın işğalının nəticələrini əbədiləşdirməkdən ibarət idi. Lakin Azərbaycan belə bir mürəkkəb şəraitdə ordu quruculuğu, hərbi sənayenin inkişafı, təhlükəsizliyin təmini və dövlətin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində mühüm diplomatik addımlar atırdı.

Azərbaycan bu tarixi ədalətsizliyi aradan götürmək üçün münaqişənin hərbi-siyasi güc vasitəsilə həll edilməsi istiqamətində addımlar ataraq BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə uyğun olaraq, 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsində “Sülhə məcburetmə” əməliyyatına başlamışdı [3, s. 260].

Müharibədən sonra yeni geosiyasi reallığın mərkəzi nöqtəsini əməkdaşlıq və təhlükəsizlik təşkil edir. Bu iki mühüm amili birləşdirən mexanizm isə dialoqdur. Prezident İlham Əliyev dialoq əsasında yeni regional əməkdaşlıq formatını – “3+3” və ya “5+1” əməkdaşlıq formulunu irəli sürürdü. Nəqliyyat-kommunikasiya sahəsində layihələrin icra edilməsi regional əməkdaşlıq üçün prioritet idi. Bu layihələr içərisində Horadiz – Zəngilan, Zəngilan – Naxçıvan və Naxçıvan – Türkiyə dəmir yolu layihələri [2] regional təhlükəsizlik və əməkdaşlıq baxımından əhəmiyyətli layihələr idi.

Xəzər dənizi və Qara dənizin, eləcə də Türkiyə, Rusiya və İran arasında mövqe tutan Cənubi Qafqaz beynəlxalq münasibətlər sisteminə əsaslı təsir göstərən, yeni geosiyasi reallıqlar yaradan əlverişli coğrafi mövqeyə malikdir.

Bərpa olunan enerji sahəsində Azərbaycanın regional mərkəzlərdən biri kimi Cənubi Qafqazda rolu daha da artdı. 2022-ci ilin dekabr ayında Buxarestdə yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasından sonra bu sənədin icra edilməsi ilə bağlı sürətli işlər həyata keçirilir. Saziş çərçivəsində yaşıl enerjinin Xəzər dənizindən Avropaya ötürülməsi nəzərdə tutulmuşdur. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazisi yaşıl enerji sahəsində mühüm perspektivə malikdir. Qeyd edək ki, azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilmişdir [13].

İkinci Qarabağ müharibəsindən sonra yeni əməkdaşlıq prioritetlərindən biri kimi Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında mövcud olan nəqliyyat-kommunikasiya imkanlarının genişləndirilməsi strateji bir məsələ kimi meydana çıxdı. Azərbaycan Mərkəzi Asiya dövlətləri ilə tarixi və mədəni əlaqələrlə yanaşı, daha çox siyasi münasibətlərlə bağlıdır. Mərkəzi Asiya ilə Azərbaycan gələcəkdə nəqliyyat, təhlükəsizlik məsələləri baxımından daha çox inteqrasiyalaşmış münasibətlərdə ola bilər. Bunu Mərkəzi Asiya dövlətləri üçün nəqliyyat, təhlükəsizliyin və ixrac bazarlarına çıxışın əldə edilməsinin zəruriliyi şərtləndirir [12].

Buna görə də region dövlətləri üçün Orta Dəhliz layihəsi daha cəlbedicidir və bu marşrutun həyata keçirilməsi üçün yeni fürsətlər yaranıb. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi kimi də adlandırılan Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstan tərəfindən yaradılmış, sonradan Ukrayna, Polşa və Rumıniyanın hesabına genişlənmişdir. Orta Dəhliz Çin – Qazaxıstan sərhədindən başlayaraq Mərkəzi Asiya dövlətləri və Xəzər dənizi üzərindən, daha sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin daha da yaxşılaşdırılması üçün tələb olunan investisiyanın həcmi 18,5 mlrd. evrodur. Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi Qazaxıstan və Xəzər dənizi vasitəsilə Asiya və Avropanı birləşdirir. Mallar Bakı limanı vasitəsilə Qafqaza daxil olur və Gürcüstana istiqamətlənir, oradan Bolqarıstan və ya Rumıniya vasitəsilə Aİ-yə daxil olmamışdan əvvəl iki alternativ yol – Türkiyə vasitəsilə quru yolu və ya Qara dənizdən keçən dəniz yolu var [12; 15].

Qeyd edək ki, Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən biridir. Türkdilli dövlətlər birliyinin əsası 1992-ci ildən başlayaraq keçirilən zirvə görüşləri ilə qoyulub. 2009-cu ildə Azərbaycanda, Naxçıvan şəhərində keçirilən toplantıda imzalanan sazişə əsasən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası – Türk Şurası yaradılıb. Həmin saziş Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə dövlət başçıları tərəfindən imzalanıb. Sazişin Naxçıvanda imzalanmasının həm Azərbaycan, həm də türk dünyası üçün mühüm əhəmiyyəti var idi. Belə ki, Naxçıvan türk dünyasını 11 km-lik xətlə birləşdirən yeganə coğrafi məkandır [5, s. 686].

İkinci Qarabağ müharibəsindən sonra bu qurum çərçivəsində əməkdaşlıq daha da gücləndi. 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Şura Türk Dövlətləri Təşkilatına (TDT) çevrildi. Burada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlət başçısı İlham Əliyevə Türk Dünyasının Ali Ordenini təqdim etdi. R.T.Ərdoğan türk dövlətləri arasında ticarət dövriyyəsinin həcminin 21 mlrd. dollar olduğunu vurğulayaraq, nəqliyyat və logistika sahələrində əlaqələrin möhkəmləndirilməsinin vacibliyini bildirdi: "Bu çərçivədə "Beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş"i ən qısa zamanda imzalamalıyıq. Beləliklə, Xəzərdən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi başda olmaqla aramızdakı bütün yolları bu coğrafiyanın əsas arteriyalarına çevirə bilərik. Azərbaycan – Naxçıvan bağlantısı da bu mənada həyati əhəmiyyət daşıyır"[11].

44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə münasibətləri müxtəlif formatlarda, o cümlədən İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində inkişaf etdi. Bu baxımdan ECO-nun 2023-cü ilin noyabr ayında Daşkənddə keçirilən zirvə toplantısı regional əməkdaşlığın inkişafına xidmət edirdi. Azərbaycan bu təşkilat çərçivəsində regional əməkdaşlığa çox mühüm önəm verir. Əbəs yerə deyil ki, 2023-cü il oktyabrın 10-da Şuşada ECO-nun Nazirlər Şurasının 27-ci iclası keçirildi. Eyni zamanda, Şuşa şəhəri 2026-cı il üçün ECO-nun turizm paytaxtı elan edilib.

Azərbaycan bu təşkilatın üzvü olan Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə ilə ikitərəfli əsasda da səmərəli qardaşlıq, dostluq əlaqələrinə malikdir. Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan tərəfindən məktəb tikilib istifadəyə verilmişdir. Qazaxıstan tərəfindən maliyyələşdirilən yaradıcılıq mərkəzi inşa edilir.

Nəqliyyat-kommunikasiya əlaqələrinin genişləndirilməsində İranın da mühüm rolu var. Azərbaycanla İran arasında İran ərazisi vasitəsilə Azərbaycandan Naxçıvana çıxış imkanı yaradan avtomobil və dəmir yolunun çəkilməsi barədə razılıq əldə edilib. Bu nəqliyyat – kommunikasiya yolu mühüm perspektivlərə malikdir. Belə ki, bu yol, Xəzərin o tayından gələn yüklərin bir hissəsinin İran, Naxçıvan və Türkiyə üzərindən Avropaya ötürülməsinin təmin olunmasına imkan verəcək.

Xəzər hövzəsi Azərbaycan qazı və neftini, Qazaxıstan neftini və Türkmənistan qazını özündə birləşdirməklə "soyuq müharibə"dən sonra Türkiyənin xarici siyasətinin əsas maraq dairəsində olan bölgələrdən birinə çevrildi. Digər tərəfdən, Türkiyə Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına nəqlində əsas tranzit ölkəyə çevrilmək istəyində Rusiya ilə rəqabət aparır [3, s.264].

Azərbaycanın TDT çərçivəsində də ikitərəfli münasibətlər kontekstində də Türkiyə ilə münasibətlərinin yüksək səviyyədə inkişafı bütün dünyaya məlum olan bir həqiqətdir. Türkiyə Prezidenti R.T.Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi "Azərbaycan yalnız deyil!" bəyanatı Azərbaycan üçün mühüm siyasi və mənəvi dəstək idi. 44 günlük Vətən müharibəsi ərzində Azərbaycan Türkiyənin siyasi və mənəvi dəstəyini daim hiss etdi. Bu barədə 2023-cü il iyulun 21-də Şuşa Qlobal Media Forumunda çıxış edən Prezident İlham Əliyev mühüm bəyanatlar verdi: "İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan və Türkiyə de-fakto mövcud olan münasibətlərini rəsmiləşdirdi və biz bunu məşhur Şuşa Bəyannaməsini imzalayaraq müttəfiqlik səviyyəsinə qaldırdıq. Həmin Bəyannamə bu mehmanxanadan bir neçə yüz metr kənarda imzalanıb və münasibətlərimizi müttəfiqlik səviyyəsinə qaldırıb. Bu, bizim xalqlarımız və ölkələrimiz üçün çox böyük sərvətdir. Bu Bəyannamə qarşımızda yeni üfüqlər açır." [9].

Qeyd edək ki, 2021-ci il iyunun 15-də Azərbaycanla Türkiyə arasında imzalanmış müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində tərəflərin müdafiə və hərbi-texniki sahədə siyasətinin həyata keçirilməsində və silahlı qüvvələri arasındakı əlaqələrin daha da gücləndirilməsində sıx əməkdaşlıq edəcəyi göstərilirdi. "Şuşa Bəyannaməsi"ndə Zəngəzur dəhlizi və Naxçıvan – Qars dəmir yolunun inşasının sürətləndirilməsi yolu ilə iki ölkə arasında nəqliyyat - kommunikasiya əlaqələrinin intensivləşdirilməsi də nəzərdə tutulurdu [14].

Şuşa bəyannaməsindən irəli gələrək Türkiyə və Azərbaycan hərbçiləri arasında keçirilən birgə hərbi təlimlər, Azərbaycanda "Bayraktar" Mərkəzinin yaradılması təşəbbüsü hər iki dövlətin müdafiə potensialının gücləndirilməsi istiqamətində atılan əhəmiyyətli və zəruri addımlardır [10].

Cənubi Qafqazda və Xəzər regionunda ABŞ, Rusiya və Avropa İttifaqı kimi güclərin maraqları toqquşur. Avrasiyanı öz nəzarətinə götürməklə "Dünya hökmranlığı" konsepsiyasını həyata keçirməyə çalışan ABŞ, Avrasiyanın ürəyi hesab olunan Qafqaza xüsusi əhəmiyyət verir. Eyni zamanda Cənubi Qafqazı özünün "arxa bağçası" hesab edən Rusiya bölgədə nüfuzunu qorumaq, təsirini artırmaq və enerji marşrutlarını nəzarətdə saxlamaq niyyətindədir. ABŞ həmişə olduğu kimi, regionda demokratiya, insan hüquqları və terrorizmə qarşı mübarizə adı altında öz təsir rıçaqlarını artırmaq məqsədi güddüyü halda, Rusiya bölgədə ənənəvi üsullardan – ərazi, etnik münaqişələrdən istifadə etməklə öz mövqeyini gücləndirməyə çalışır [3, s.264].

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan regional əməkdaşlığın inkişaf etdirilməsi üçün 6 ölkənin iştirakı ilə "3+3" formatının təşəbbüskarı qismində çıxış edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən və region dövlətləri arasında sıx əlaqələri, inteqrasiyanı nəzərdə tutan bu format Azərbaycanın 2023-cü ilin sentyabr ayında Qarabağda apardığı uğurlu antiterror əməliyyatından sonra daha da aktuallaşdı.

"3+3" formatında iştirak edən dövlətlərin ümumi iqtisadiyyatı 3 trilyon dollara yaxındır ki, bu da ABŞ, Çin, Yaponiya və Almaniyadan sonra dünyanın beşinci ən böyük iqtisadiyyatıdır. Platforma 331 milyon nəfər əhalisi ilə dünyada üçüncü, ərazisinə görə isə birincidir [1]. Azərbaycanın su, hava, avtomobil və dəmir yolu nəqliyyat infrastrukturu platformaya daxil olan ölkələrin inteqrasiyasında mühüm amil kimi çıxış edə bilər [6]. Format çərçivəsində Cənubi Qafqaz ölkələri üçün böyük satış bazarı olan Rusiya, Türkiyə və İranla ticarət əlaqələrinin güclən-

məsi və inkişafı, platformanın yaratdığı ən əlverişli imkanlardan biridir.

**Nəticə**

Cənubi Qafqazda geosiyasi və geoiqtisadi baxımdan aparıcı aktor Azərbaycandır. SSRİ dağıldıqdan sonra bir çox digər konfliklər kimi Ermənistan – Azərbaycan, Qarabağ münaqişəsini də bölgə üçün miras qoymuşdu. Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Azərbaycanın Qarabağ ərazisi 30 ilə yaxın bir müddət ərzində Ermənistanın işğalı altında olmuşdur.

İkinci Qarabağ müharibəsində Azərbaycan Ermənistan hərbi qüvvələrini ağır məğlubiyyətə uğradaraq işğal altındakı ərazilərini azad etmişdir. Müharibədən sonra Cənubi Qafqaz və Xəzər hövzəsində regional təhlükəsizliyə və qarşlılıqlı dialoqa əsaslanan yeni əməkdaşlıq formatları meydana çıxdı. Azərbaycanın Xəzər regionu, xüsusilə Mərkəzi Asiya ilə əlaqələri daha da inkişaf etdi. Bunun əsas səbəbi Azərbaycan və Mərkəzi Asiyanın artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regionu təşkil etməsi idi.Azərbaycanın səyləri ilə nəqliyyat-logistika şəbəkəsinin inkişafı, o cümlədən Ələt Dəniz Ticarət Limanının inşa edilməsi, Azərbaycanın Xəzərdə ən böyük ticarət donanmasına malik olması Avropa ilə Asiya arasında daşımalarda olduqca mühüm əhəmiyyətə malikdir.

**İşin elmi yeniliyi.** Məqalədə Azərbaycanın 44 günlük Vətən savaşında qalibiyyəti, Cənubi Qafqazda sülh, təhlükəsizlik və inkişaf üçün zəmin hazırladı və "3+3" formatının irəli sürülməsi üçün əsaslar yaratması ətraflı şərh edilmişdir. Belə ki, Azərbaycanın təşəbbüsü ilə irəli sürülən "3+3" formatının fəaliyyətə başlaması regionda sülh və sabitlik üçün böyük töhfədir. Cənubi Qafqazda sülh və təhlükəsizliyin qorunması baxımından Ermənistanın platformada iştirakı önəmlidir. Lakin platforma çərçivəsində Ermənistanla qonşuluq əlaqələrinin formalaşması ehtimalı qərb dairələrində narahatlıqla qarşılanır. Bu da Qərbin təsiri ilə Ermənistanın platformadan yayınması ehtimalını irəli sürməyə imkan verir. Bu formatın həyata keçirilməsi, ilk növbədə, Ermənistanın düşdüyü çətin vəziyyətdən qurtuluşu ola bilər. Ona görə də Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı və tərəflər arasında sülh müqaviləsi imzalanmalıdır. Belə olan təqdirdə "3+3" formatı reallaşa bilər. Gürcüstan isə Rusiya ilə diplomatik münasibətləri olmadığından bu format çərçivəsində əməkdaşlığa hazır görünmür.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Abdalov N. Regional əməkdaşlıqda yeni mərhələ - "3+3" formatı // https://respublika-news.az/news/regional-emekdasliqda-yeni-merhele-33-formati*

*2. Adıgözəlov K. Cənubi Qafqaz: yeni geosiyasi konfiqurasiya və Azərbaycanın liderliyi // https://yeniazerbaycan.com/SonXeber_e80457_az.html*

*3. Ağalarlı M. Güney Qafqaz bölgəsində sülhün və təhlükəsizliyin təmin edilməsində "Şuşa Bəyannaməsi"nin rolu // Akademik Tarih ve Düşünce Dergisi, 10 (2) 2023, s. 258-274.*

*4. Azərbaycanın Mərkəzi Asiyanın türkdilli ölkələri ilə münasibətləri strateji xarakter alır // https://qafqazinfo.az/news/detail/azerbaycanin-merkezi-asiyanin -turkdilli-olkeleri-ile-munasibetleri-strateji-xarakter-alir-373748*

*5. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)*

*/məqalələr toplusu/. Bakı: "Poliart" MMC, 2017, 904 s.*

*6. Baxşəliyev R. İlham Əliyevin yeni əməkdaşlıq formatı təqdir edilir // https://azerbaijan-news.az/posts/detail/ilham-eliyevin-yeni-emekdasliq-formati-teqdir -edilir-1630184036*

*7. Əliyev M. Vətən müharibəsinin regionda yaratdığı yeni geosiyasi reallıqlar // https://mod.gov.az/az/pre/38565.html*

*8. Həbibov M. Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrində yeni üfüqlər açılır // https://www.yeniazerbaycan.com/YAPxeber_e90395_az.html*

*9. İlham Əliyev Şuşa Qlobal Media Forumunda çıxış edib // https://president.az/ az/articles/view/60544*

*10. İsmayılqızı X. Türk birliyi, İslam həmrəyliyi! // İki sahil. – 2023. – 22 iyun. – № 109. – s. 4. https://www.elibrary.az/docs/qazet/qzt2023_3392.pdf*

*11. İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib // https://president.az/az/articles/view/54183*

*12. Mustafa Kamal. M. Mərkəzi Asiya ölkələri ilə fəal əməkdaşlıq // https://respublika-news.az/news/merkezi-asiya-olkeleri-ile-feal-emekdasliq*

*13. Prezident mühüm anons verdi: "Azərbaycan yaxın gələcəkdə..." // https://musavat.com/news/pre-*

*zident-muhum-anons-verdi-azerbaycan-yaxin-gelecekde-ilginc-tehlil_1020495.html*

*14. Şuşa Bəyannaməsinin tam mətni // https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/*

*15. Проведена оценка эффективности Среднего коридора в транспортном сообщении между Европой и Азией // https://report.az/ru/infrastruktura/provedena-ocenka-effektivnosti-srednego-koridora-v-transportnom-soobshenii-mezhdu-evropoj-i-aziej/*

**XÜLASƏ**

**Həmzəyev Naqif Ələşrəf oğlu**
***t.ü.f.d***
***Azərbaycan Respublikası Milli Məclisin deputatı***
***dr.hamzanagif@gmail.com***

**44 GÜNLÜK VƏTƏN SAVAŞINDAN SONRA QAFQAZ VƏ XƏZƏR REGİONUNDA ƏMƏKDAŞLIĞIN YENİ PERSPEKTİVLƏRİ**

Azərbaycan ilə Ermənistan arasında 2020-ci il sentyabr ayının 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsi Cənubi Qafqazda həm hərbi, həm də siyasi sferada qüvvələr nisbətində mühüm dəyişikliklərə səbəb oldu. 44 günlük Vətən müharibəsi müddətində Azərbaycan hərbi sahə ilə yanaşı, diplomatiya və informasiya müharibəsində də əsl qəhrəmanlıq, peşəkarlıq nümayiş etdirdi. Ermənistan kapitulyasiya aktını imzalamalı oldu. Düşmənin 30 illik işğal siyasətinə son qoyuldu. Qarabağla bağlı erməni cəmiyyətində qurulan mif darmadağın edildi.

**Açar sözlər:** *27 sentyabr, vətən müharibəsi, qəhrəman ordu, suverenlik.*

**РЕЗЮМЕ**

**Гамзаев Нагиф Алашраф**
***д.и.п.ф***
***Депутат Милли Меджлиса Азербайджанской Республики***
***dr.hamzanagif@gmail.com***

**НОВЫЕ ПЕРСПЕКТИВЫ СОТРУДНИЧЕСТВА НА КАВКАЗСКОМ И КАСПИЙСКОМ РЕГИОНЕ ПОСЛЕ 44-ДНЕВНОЙ ОТЕЧЕНЕСТВЕННОЙ ВОЙНЫ**

44-дневная Отечественная война между Азербайджаном и Арменией, продолжавшаяся с 27 сентября по 10 ноября 2020 года, вызвала важные изменения в балансе сил как в военной, так и в политической сфере на Южном Кавказе. В ходе 44-дневной Отечественной войны Азербайджан продемонстрировал настоящий героизм и профессионализм как в военной области, так и в дипломатии и информационной войне. Армении пришлось подписать акт о капитуляции. 30-летняя оккупационная политика врага закончилась. Миф, созданный в армянском обществе о Карабахе, был развеян.

После 44-дневной Отечественной войны упор цениться не только на конфронтационные отношения, а на механизмы сотрудничества и реализацию региональных проектов.

**Ключевые слова:** *27 сентября, Отечественная война, героическая армия, суверенитет.*

**SUMMARY**

**phd Hamzayev Nagif Alashraf**
***Deputy of the Milli Majlis of the Republic of Azerbaijan***
***dr.hamzanagif@gmail.com***

**NEW PERSPECTIVES OF COOPERATION IN THE CAUCASUS AND CASPAZIAN REGION AFTER THE 44-DAY CIVIL WAR**

The 44-day Patriotic War between Azerbaijan and Armenia, which lasted from September 27 to November 10, 2020, caused important changes in the balance of forces in both the military and political spheres in the South Caucasus. During the 44-day Patriotic War, Azerbaijan demonstrated true heroism and professionalism in the military field as well as in diplomacy and information warfare. Armenia had to sign the act of capitulation. The enemy's 30-year occupation policy has ended. The myth created in the Armenian society about Karabakh was shattered.

After the 44-day Patriotic War, emphasis began to be placed not on confrontational relations, but on cooperation mechanisms and the implementation of regional projects.

**Key words:** *September 27, Patriotic War, heroic army, sovereignty.*

UOT: 94(479.24)
DOI:10.30546/3006-0346.2024.1.79.95

# AZƏRBAYCAN RESPUBLİKASINDA QEYRİ-NEFT SƏNAYESİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**ARZU XƏLİLZADƏ**
*Bakı Dövlət Universitetinin dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*
*E-mail: arzuxelilzade89@gmail.com*

Azərbaycanda qeyri-neft sektorunun inkişafı müasir dövrün prioritetləri sırasına daxildir. Bu sahədə qarşıda duran əsas məsələ Azərbaycanın dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriləməsinə mane olmaqdır. Buna ilk növbədə, iqtisadiyyatın karbohidrogen ehtiyatlarının ixracından mövcud asılılığı aradan qaldırmaq, orta və uzunmüddətli perspektivdə dünya iqtisadiyyatının xammal əlavəsinə çevrilmək təhlükəsinin qarşısını almaqla nail olmaq mümkündür.

Azərbaycan uzunmüddətli və davamlı iqtisadi inkişafa nail olmaq üçün özünün enerji siyasətindən qeyri-neft sektorunun inkişafı üçün aparıcı qüvvə olan insan kapitalına çevrilməsi, gələcəkdə neft-qaz gəlirlərindən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyat qurulması strategiyasını uğurla həyata keçirir.

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafı ilə bağlı bildirirdi:"Azərbaycanda iqtisadi inkişafın istiqamətləri çoxşaxəlidir və biz bu gün qeyri–neft sektorunun inkişafına üstünlük veririk. Bu, bizim prioritet məsələmizdir"[10].

Neftin ixracından gələn gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi ilə bu sahənin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir.

Azərbaycanda iqtisadi artımın əsas hərəkətverici amili 2010-cu ildən etibarən neft sektorundan qeyri-neft sektoruna transformasiya olmuş, 2010–2014-cü illərdə neft sektorunda 2,9 faizlik geriləmə olduğu halda, qeyri-neft sektoru 8,8 faiz artmaqla, ümumi 3 faizlik iqtisadi artım əldə edilmişdir. 2004–2014-cü illərdə Azərbaycan iqtisadiyyatına 52 milyard ABŞ dolları birbaşa xarici investisiya yatırılmış, onun 85 faizi neft sektoruna, 15 faizi isə qeyri–neft sektoruna yönəldilmişdir [7].

Eyni zamanda dövlət proqramları çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində regionlarda rəqabət qabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən müəssisələr yaradılmış, bir çox məhsullar Avropa və Amerika bazarlarına ixrac olunaraq, qeyri–neft ixracını artırmışdır. 2003-2013-cü illərdə ölkədə 2000-ə qədər istehsal təyinatlı obyekt istifadəyə verilmişdir [10].

Qeyri-neft sektorunun inkişafı ilə bağlı mühüm sənədlərdən biri "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasıdır. Burada qeyri-neft sektorunun inkişafı üçün xarici ticarət prosedurlarının sadələşdirilməsi, beynəlxalq bazarlara çıxışda rəqabətin inkişafında sahibkarlara dövlət dəstəyinin artırılması istiqamətində tədbirlərin həyata keçiriləcəyi göstərilmişdir. Konsepsiyada göstərilmişdir ki, investisiya mühitinin yaxşılaşdırılması və xarici investorların yerli bazarlara daxil olmasına mane olan faktorların aradan qaldırılması üçün səylərin səfərbər edilməsi, Ümumdünya Ticarət Təşkilatına daxil olmaq üçün beynəlxalq ticarət sisteminə uyğun islahatların həyata keçirilməsi, qanunların dünya ticarət sistemində tətbiq edilən praktikaya uyğunlaşdırılması yerli şirkətlərin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına yeni imkanlar yaradacaqdır [2].

Tədqiq edilən illərdə sənaye müəssisələrində innovativ texnologiyaların tətbiqi, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciklərinin yaradılması, iqtisadi rayonlar üzrə sənaye şəhərciyi infrastrukturunun formalaşdırılması qeyri-neft emal sənayesinin inkişaf etdirilməsi ilə bağlı dövlət investisiya siyasətində əsas istiqamətlər idi [2].

2015-ci ildə qeyri-neft sektorunun əsas sahələrindən olan rabitə və yüksək texnologiyalar sahəsində inkişaf təmin edilmiş, bu sektorda gəlirlər 12 faiz artmış, bu rəqəm müvafiq ümumdünya orta göstəricisindən təxminən 1,5 dəfə yüksək olmuşdur. Eyni zamanda elektron xidmətlərin verilməsi, "elektron imza" və "elektron hökumət" portalı inkişaf etmiş, informasiya texnologiyaları sahəsində ən mühüm yeniliklərdən biri elektron informasiya resurslarının yaradılması və regional informasiya texnologiyaları xidmətlərinin verilməsində regional informasiya-hesablama mərkəzi – DATA Mərkəzi yaradılmışdır [11].

Qeyri-neft sektorunun inkişafı Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" [6], habelə "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi" [4] kimi mühüm əhəmiyyətli sənədlərin qəbul edilməsi bu sahənin xüsusi əhəmiyyətini göstərirdi. Bu sənədlərin həyata keçiril-

məsi ilə sənayenin strukturu getdikcə təkmilləşdirilir, qeyri-neft sənayesi iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən birinə çevrilir, mövcud resurslardan səmərəli şəkildə istifadə edilir, müəssisələrdə səmərəli istehsal metodları tətbiq olunurdu [8].

Tədqiq olunan illərdə "Made in Azerbaijan" brendinin inkişafına və milli brendlərin yaradılmasının təşviq edilməsinə həsr olunmuş birinci "Marketinq sammiti"nin keçirilməsi əhəmiyyətli idi. Eyni zamanda müasir texnologiyaların tətbiqi sayəsində Azərbaycanda metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri də genişlənməklə yanaşı, yeni sənaye sahələri yaradılmış, bir sıra sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmişdir [13].

Azərbaycanda qeyri-neft sektorunda əsas məsələ qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payının artırılması idi. İqtisadiyyatda uzunmüddətli investisiya resurslarının başlıca mənbəyi olan kapital və sığorta bazarının inkişafının sürətləndirilməsi, milli bank sektorunun dayanıqlılığının təmin olunması, iqtisadiyyatın maliyyələşdirilməsində bankların rolunun artırılması və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi də prioritetlər sırasında idi. Ölkə iqtisadiyyatının qeyri-neft sektoruna, o cümlədən infrastruktur sahələrinə birbaşa xarici investisiyaların cəlb olunması, bu zaman milli maraqların qorunması və xarici investorlara rəqabət mühitinin yaradılması ilə investisiyaların səmərəli tənzimlənməsi zəruri idi. Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bunun üçün əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaq idi [3].

Azərbaycanda qeyri-neft sektoru sahəsində diqqət yetirilən sahələrdən biri turizm sektorudur. Tədqiq edilən illərdə nəinki Azərbaycanda, bütün dünyada turizmin inkişaf tendensiyası müşahidə olunurdu. Bu sektorun inkişafı Avropa və Şimali Amerikada mövcud olan ənənəvi turizm mərkəzləri ilə yanaşı, yeni turizm mərkəzlərinin də yaranmasına səbəb olmuşdur. Azərbaycanda turizm sahəsinin inkişaf tendensiyasından geri qalmırdı və bu sektorun inkişafına xüsusi diqqət yetirilirdi.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra turizm sahəsi diqqət mərkəzində olmuş və bunun üçün Nazirlər Kabinetinin nəzdində Turizm Şurası fəaliyyət göstərmişdir. Azərbaycanda turizm bazarının formalaşması və inkişafı məqsədilə 1999-cu ildə "Turizm haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmiş, 2001-ci ildə Dünya Turizm təşkilatının 14-cü Baş Assambleyasında Azərbaycan həmin quruma üzv qəbul edilmişdir [9].

Turizm sahəsində mühüm layihələr – "Böyük İpək yolu", "Şərab yolu", Xalçaçılıq", "Aleksandr Düma Qafqazda" "Azərbaycanda alman məskənləri" adlı layihələr həyata keçirilmişdir. Eyni zamanda Azərbaycanda 2011-ci ilin "Turizm ili" elan edilməsi turizm infrastrukturunun genişlənməsi və inkişafı üçün mühüm imkanlar yaratmışdır [1, s.196-200].

Zəngin mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sahəsində böyük perspektivlərə malikdir. Belə ki, respublikada turizmin kənd, müalicə-sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini, xüsusi maraq kəsb edən əksər növlərinin və s. inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycan, Şərqlə Qərbin qovuşduğu strateji mövqedə yerləşir, eyni zamanda müasirliyin və qədim zəngin tarixi abidələrin sintezi ilə məşhur olan paytaxt Bakı şəhərindən başlamaqla, ecazkar təbiətə və milli parklara malik regionları ilə tanınır. Bakı şəhəri Azərbaycanın qlobal turizm sektorundakı payının böyük bir hissəsinə malikdir [5].

Uzun zaman Ermənistanın işğalı altında olmuş Azərbaycanın Qarabağ bölgəsinin çox zəngin turizm potensialı vardır. Ona görə də Azərbaycan dövləti üçün bu ərazidə turizm marşrutlarının yaradılması, turizm sektorunun inkişafı əsas is istiqamətlərindən biridir. Eyni zamanda beynəlxalq turizm sərgilərində Qarabağ bölgəsinin turizm potensialı, turizm marşrutları, tarixi abidələrinin göstərilməsi və bu bölgənin doğrudan da dünya üçün çox cəlbedici bölgə kimi təqdim edilməsi də əsas məqsədlərdən biridir [14].

Araşdırılan illərdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün kiçik və orta sahibkarlığın dəstəklənməsinə, sahibkarlara güzəştli dövlət kreditlərinin, kənd təsərrüfatına subsidiyaların ayrılmasına, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollar vəsait xərclənmişdir.

İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üçün "Azərbaycan Respublikası iqtisadi rayonlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və digər proqramlar qəbul olunmuşdur [12].

Bu proqramların qəbul edilməsi və həyata keçirilməsi nəticəsində 2003-2011-ci illərdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı məhsullarının

istehsalı 1.3 dəfə, tikinti sektorunda iş həcmi 3,2 dəfə, nəqliyyat xidmətlərinin həcmi 2,3 dəfə, rabitə və informasiya sektorunda xidmətlər isə 6,4 dəfə artmışdır [12].

Qeyri-neft sənayesinin inkişafında sənaye parkları da mühüm rol oynayır. 2013-cü ildə Azərbaycan Prezidentinin təşəbbüsü ilə sənaye parkları və məhəllələrinin yaradılması emaledici sənayenin inkişafına təkan verdi.

Tədqiqat göstərir ki, Azərbaycanda fəaliyyət göstərən bu sənaye parklarına 2,6 milyard dollar investisiya yatırılmış və 5 sənaye parkında işçi sayı 11 minə yaxın olmuşdur.

Azərbaycanda beş sənaye parkı yaradılıb, flaqman isə Cənubi Qafqazın ən böyüyü hesab edilən Sumqayıt Kimya Sənaye Parkıdır. Sumqayıt Kimya Sənaye Parkı - kimya və metallurgiya sənayesi, maşınqayırma, informasiya və kommunikasiya texnologiyaları və digər texnoloji sahələrin məhsullarının istehsalına yönəlib.

Mingəçevir sənaye Parkı toxuculuq sənayesinin müxtəlif sahələrinə, Qaradağ Sənaye Parkı iri, orta və ağırtonajlı gəmi və avadanlıqların istehsalı və təmirinə, Pirallahı Sənaye Parkı müxtəlif formalarda dərman vasitələri, baytarlıq preparatları, tibbi avadanlıqlar və qurğuların hazırlanmasına, Ağdam Sənaye Parkı isə inşaat materialları, qida və yüngül sənaye məhsullarının istehsalına istiqamətlənib. Qeyd edək ki, sənaye parkı mərkəzləşdirilmiş şəkildə inkişaf etmiş, istehsalat, anbar, ofis binaları, həmçinin müvafiq kommunikasiya və bir neçə rezidentin yerləşdiyi infrastruktur ilə idarə olunan ərazidir.

Qeyri-neft sektorunun inkişafı sahəsində mühüm hadisələrdən biri 2015-ci ildə "SOCAR Polymer" zavodunun işə başlaması idi. Azərbaycanda ilk dəfə olaraq polipropilen və polietilen istehsal edəcək bu zavod qeyri-neft sektorunda həm ən böyük, həm də ən son texnologiyalara malik sənaye müəssisəsi hesab olunurdu [8].

Sənaye parkları və məhəllələrinin, həmçinin aqroparkların fəaliyyətinin daha yaxşı koordinasiyası, inkişaf etdirilməsi və birbaşa xarici investisiyanın cəlb olunması üçün 2021-ci ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmışdır. Xüsusi iqtisadi zonaların məqsədi innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün əlverişli şərait yaratmaq, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin məşğulluq səviyyəsini artırmaqdır [15].

Azərbaycanda aqroparklara ümumilikdə 1,5 milyard manat sərmayə yatırılmışdır. 2021-ci ilin ilk yarımilində iqtisadi zonalar 824 milyon manat dəyərində məhsul istehsal etmişdir ki, bu da 2020-ci illə müqayisədə 38 faiz çoxdur.

Tədqiq olunan illərdə iqtisadi zonalarda istehsalın ümumi həcmi 4,2 milyard manat olmuş, bunun da 1,1 milyard manatı ixracın payına düşmüşdür. 2021-ci ildə qeyri-neft ixracı 2020-ci ilin ilk yarımilinə nisbətən 27,1 faiz artmış və pul ekvivalentində 1,16 milyard dolları keçmişdir. Eyni zamanda, qeyri-neft sənayesi məhsullarının ixracı 40,1 faiz artmış və onun qeyri-neft ixracının ümumi həcmindəki payı 50 faizi keçmişdir [15].

Beləliklə, Azərbaycan özünün zəngin neft-qaz ehtiyatlarından uzunmüddətli və davamlı iqtisadi inkişafa nail olmaq üçün uğurla istifadə edir. Neft və qazın qeyri-neft sektorunun inkişafı üçün aparıcı qüvvə olan insan kapitalına çevrilməsi, neft-qaz gəlirlərindən istifadə etməklə gələcəkdə bu gəlirlərdən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyat qurulması strategiyası həyata keçirilməkdədir.

## YEKUN

Azərbaycanda kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilmişdir. Qeyri-neft sektorunun əsas sahələrindən olan turizm sənayesində məqsədyönlü işlər həyata keçirilmiş, onun rəqabətə davamlılığı artırılmışdır.

Qeyri-neft sektorunun payının inkişafı üçün bir sıra vəzifələr həyata keçirilməlidir:

- Müasir texnologiyaların tətbiq edilməsi və bununla qeyri-neft sektorunun inkişafına və ixrac potensialının artırılması;
- Təbii sərvətlər və əmək resurslarından istifadə edərək rəqabətə davamlı, ixrac yönümlü və keyfiyyətli sənaye məhsulları istehsalını həyata keçirmək, orta və kiçik emal müəssisələrini inkişaf etdirmək;
- Qeyri-neft sektorunda əlverişli investisiya mühitini yaratmaq və s.

**Açar sözlər:** *Azərbaycan, qeyri-neft sektoru, turizm sektoru, dövlət proqramları, sənaye, iqtisadiyyatın şaxələnməsi.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. Abbasov, İ. M. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik / İ. M. Abbasov, T.N. Əliyev. – Bakı: Bakı Biznes Universiteti, – 2018. – 267 s.

2. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası // 29 dekabr 2012-ci ildə təsdiq edilmişdir: [Elektron resurs] / – URL: https://e-qanun.az/framework/ 25029.

3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // 2 fevral 2021-ci ildə təsdiq edilmişdir (22 iyul 2022-ci il tarixdə olan dəyişiklik və əlavələr): [Elektron resurs] https://e-qanun.az/framework/46813.

4. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi // 6 dekabr 2016-cı ildə təsdiq edilmişdir: [Elektron resurs]: https://mida.gov.az/documents/_A%C4%9F%C4%B1r_senaye_ve_ma%C5%9F%C4%B1nqay%C4%B1rman%C4%B1n_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf.

5. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi // 6 dekabr 2016-cı ildə təsdiq edilmişdir: [Elektron resurs] / –URL: https://mida.gov.az/documents/Turizm_s%C9%99nayesinin_inki%C5%9 Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf.

6. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı // 26 dekabr 2014-cü ildə təsdiq edilmişdir: [Elektron resurs] / – URL: https://e-qanun.az/framework/28964.

7. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi // 6 dekabr 2016-cı ildə təsdiq edilmişdir: [Elektron resurs] / – URL: https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf

8. Bayramov, V. Prezident İlham Əliyev: Bu gün ölkəmizdə sənayeləşmə siyasəti uğurla aparılır: [Elektron resurs]: https://xalqqazeti.com/mobile/az/news/ 518.

9. Bilalov, B. Heydər Əliyev və Azərbaycan turizmi: [Elektron resurs] http://www.anl.az/down/meqale/medeniyyet/medeniyyet_may2009/78916.htm.

10. Əsgərov, R. Qeyri-neft sektorunun inkişafı prioritet məsələdir // Respublika. – 2013, 25 iyun. – s.2.

11. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib: [Elektron resurs] https://president.az/articles/15823.

12. Qeyri-neft sektorunun inkişafı: [Elektron resurs] https:// www. azerbaijans. com/ content_1671_az.html.

13. Məhərrəmova N. "Made in Azerbaijan" brendini necə tanıdırıq? : [Elektron resurs] https:// https://sia.az/az/news/economy/697605.html.

14. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib: [Elektron resurs] https://www.sosial.gov.az/post_422301.

15. Vəliyev, A. Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı: Tempi və xüsusiyyətləri: [Elektron resurs] https://report.az/biznes-xeberleri/azerbaycan-iqtisadiyyatinin-qeyri-neft-sektorunun-inkisafi-tempi-ve xususiyyetleri/

**АРЗУ ХАЛИЛЗАДЕ,**
***Доцент Бакинского государственного университета, доктор философии по истории***
***E-mail: arzuxelilzade89@gmail.com***

**РЕЗЮМЕ**
**ОСОБЕННОСТИ РАЗВИТИЯ НЕНЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ**

В статье изучены особенности развития ненефтяной промышленности в Азербайджане после восстановления государственной независимости. Большое значение имело развитие информационно-коммуникационных технологий, тяжелой промышленности, сельского хозяйства и туризма ненефтяного сектора в Азербайджане. В этой связи основными задачами на будущее стали диверсификация экономики и обеспечение устойчивого развития ненефтяных отраслей.
**Ключевые слова:** *Азербайджан, ненефтяной сектор, туристический сектор, государственные программы, промышленность, диверсификация экономики.*

**ARZU KHALILZADE,**
***Associate Professor of Baku State University, Doctor of Philosophy in History***
***E-mail: arzuxelilzade89@gmail.com***

**SUMMARY**

Features of development of non-oil industry in the Republic of Azerbaijan

In the article, the features of the development of the non-oil industry in Azerbaijan after the restoration of state independence were studied. The development of information and communication technologies, heavy industry, agriculture and tourism of the non-oil sector in Azerbaijan was of great importance. In this regard, diversification of the economy and provision of sustainable development of non-oil sectors were the main tasks ahead.
**Keywords:** *Azerbaijan, non-oil sector, tourism sector, government programs, industry, economic diversification.*

UOT: 93/94
DOI:10.30546/3006-0346.2024.1.79.99

# SALARİLƏR DÖVLƏTİNİN AZƏRBAYCAN TARİXİNDƏKİ YERİ

**İLHAM MƏMMƏDOV**
*Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: ilhamseyid528gmail.com*

X əsrin ortalarından Abbasi xilafətində mərkəzi hakimiyyət daha da zəifləyirdi. Mərkəzdən uzaqdakı əmirliklərdə xəlifənin hakimiyyəti artıq formal xarakter daşıyırdı. Bu dövrdən başlayaraq Azərbaycandakı iri feodallar da xilafətdən ayrılma siyasəti aparırdılar. Onlar öz aralarında sülh bağlayır, bir-birlərinin mülklərinə talançı yürüşlər edir, yeni feodal ittifaqları yaradırdılar. Azərbaycandakı iri feodallar zahirdə xəlifəyə tabe olduqlarını bildirsələr də əslində onlar müstəqil hakimlərə çevrilirdilər. Bilindiyi kimi, Azərbaycanı xilafət dövründə tam hakimiyyətləri altına alan sülalə sacilər olmuşlar, ancaq bütün erkən orta əsr dövlətlərində olduğu kimi, sacilərin də hakimiyyəti uzun sürmədi. Sacilərin süqutunun ardından Azərbaycanın siyasi arenasına Salarilər sülaləsi çıxdı.

Salarilər sülaləsinin mənsublarının ilk yurdu Deyləm vilayəti olmuşdur. Belə ki, Sacilərin Azərbaycan torpaqlarındakı hakimiyyətini bərqərar edən Deyləm hakimi Məhəmməd ibn Müsafirin vəlhədi Mərzban ibn Məhəmməd olmuşdur.

Mərzban ibn Məhəmməd Deyləmin hakimi olan atasına qarşı üsyan qaldıraraq Məhəmməd ibn Müsafirə məxsus Tarom və Samiram qalalarını tutdu. Ona atasına qarşı qiyamda qardaşı Vəhsudan da dəstək verirdi. Salarilərin hakimiyyəti dövründə maliyə aparatına rəhbərlik etmiş Əli ibn Cəfər özünə qarşı etinasızlıqlara dözməyərək Deyləmə qaçaraq Salarilərə sığınmışdı. Əli ibn Cəfər Mərziban ibn Məhəmmədi Sacilərin böhran keçirməsinə Salarilərə qarşı müqavimət göstərmək iqtidarında olmalarına inandırdı. 941-ci ildə (bəzi mənbələrəm görə 942-ci il) Mərziban ibn Məhəmməd Sacilərə qarşı hərbi yürüşə çıxdı. Onu Sacilərin sonuncu hökümdarı deysəm qarşıladı. İki ordu arasında döyüş başlandı ancaq döyüşün həlledici anında Deysəmin ordusundakı kürdlər və Deyləmlilər Mərzibanın ordusuna qatıldılar. Deysəm ağır məğlubiyyətə düçar oldu. O özünə sadiq az saylı hərbi dəstə ilə birlikdə döyüş meydanından geri çəkilməkləcanını qurtara bildi. Mərziban ibn Məhəmməd onu təqib etdi. Deysəm özünü Vaspurakan torpaqlarına çatdıraraq keçmiş müttəfiqi Qaqik Artsruniyə sığınmaqla canını qurtara bildi. Deysəmi hakimiyyətdən uzaqlaşdıran Mərziban İbn Məhəmməd Azərbaycanda hakimiyyətini bərqərar edir. Ardından Əli ibn Cəfəri yenidən maliyə işlərinin rəhbəri təyin edir. Ancaq Əli ibn Cəfərlə Salarilərin hakim dairələri arasında konflikt dərinləşir. Mərzibanı etimadını itirdiyini düşünən əli ibn Cəfər ondan Təbrizdəki vergi məsələlərini qaydaya salmaq bəhanəsi ilə Ərdəbili tərk edə bilir. Mərziban Onu müşayiət etmək üçün deyləmlilərdən ibarət kiçik bir dəstə də göndərir. Təbrizə yetişən Əli ibn Cəfər burada xalqı Mərziban ibni Məhhəmmədə qarşı qaldırır. O, həmçinin Vaspurakanda gizlənmiş Deysəmə məktub göndərərək Təbrizə çağırır. Deysəm vaxt itirmədən hərbi dəstəsi ilə təbrizə daxil olur. Deysmin Təbrizdə olmasından xəbər tutan Mərziban ibn Məhəmməd Qoşun toplayaraq Təbrizi mühasirəyə alır.

Təbrizlilər Mərzibana müqavimət göstərərək onu şəhərə buraxlmırlar. Deysəm şəhərin mühasirəsinin uzanmasından istifadə edərək gizlincə Təbrizdən qaçaraq Ərdəbilə gəlir. Ərdəbildə hakimiyyəti ələ alan Deysəm şəhər əhalisi tərəfindən hakimiyyəti qəbul edilir. Deysəmin Ərdəbili tutmasından xəbər tutan mərziban ibn Məhəmməd Təbrizdən ərdəbilə qayıdır. Deysəm Mərzibanla açıq döyüşə girməyə cəsarət etmədiyinən şəhərin qala divarları arxasında möhkəmlənir. Ərdəbilə çatan Mərziban ibn Məhəmməd şəhər əhalisinin müqaviməti ilə qarşılaşır. Ərdəbilə daxil ola bilməyən Mərziban şəhəri mühasirəyə alır. Deysəmin vəziri olan Nəimidə həmin dövürdə ərdəbildə idi. Mərziban ibni Məhəmmədlə danışığa başlayır. Nəimi hər iki tərəfi sülhə razı sala bilir. deysəm şəhəri təslim eidir. Qarşılığında Mərziban ibni Məhəmməddə Deysəmin həyatını bağışlayaraq onun öz ailəsi ilə birlikdə Salarilərə məxsus tarom qalasında yaşamalarına icazə veir. Belliklə Azərbaycan ərazisində salarilərin tam hakimiyyəti dövrü başlayır. Salarilər dövlətinin ən qüdrətli dövrü məhz Mərziban İbn Məhəmmədin hakimiyyət illəri olmuşdur. Məhz onun hakimiyyət başında olduğu illər bu dövlətin çiçəklənmə dövrünə təsadüf edir. Salarilərin bu zamankı sərhədləri Sacilər dövlətinin ən yüksək inkişaf dövrü hüdudları ilə üstüstə düşürdü. Demək olar, bütün Azərbaycanı ələ keçirmiş Mərzban ibn Məhəmməd Ermənistanda da hakimiyyətini təsdiqlədi, əvvəllər Sacilərə vergi verən Şirvanşahları indi də onlara vergi ödəməyə məcbur etdi. Beləliklə, Salarilərə tabe edilmiş ərazinin hü-

dudları quzeydə Dərbəndədək çatdı [1. 276].

Azərbaycanda Salarilərin hakimiyyətinin yenicə qurulduğu ərəfədə Azərbaycan torpaqları rusların dağıdıcı hücumlarına məruz qaldı. Əvvəlki dövrlərdə də Azərbaycan torpaqlarına qarətçi yürüşlər etmiş ruslar Mərziban ibn Məhəmmədin hakimiyyətinin ilk ilində yenidən Volqa Xəzər yolu ilə Azərbaycan torpaqlarına soxuldular. Onlar Kür çayının mənsəbinə çatdılar, Kürlə Azərbaycanın daxilinə soxularaq ətrafdakı yaşayış məntəqələrini qarət etdilər. Ruslara qarşı duracaq hərbi qüvvələrin olmamasından ruhlanan ruslar 944-cü ildə qədim Bərdə şəhərinə basqın edərək şəhəri tutdular. Gözlənilməz hücumdan sarsılan şəhər əhalisi Ruslara ciddi müqavimət gösdərə bilmədilər. Ruslar Bərdəni talan etdikdən sonra şəhr əhalisinə divan tutmağa başladılar. Rusların Bərdəyə hücümu haqda Musa Kalunkatlı Albanya tarixində belə qeyd edir: Bu dövrlər keçəndən sonra ərəblər haldan düşdülərvə onlarin yerinə dəyləmilər adlanan başqa bir xalq gəldi.Onlarin Salar adlanan taninmış rəhbərləri öz hakimiyyetini uzaqlara yayaraq Albaniyani, İranı və Ermənïyyəni zəbt etdi. Bərdəyə gələrək şəhəri öz əlinə aldi. Elə həmin vaxt şimaldan Ruzik adlanan əcaib və yabançı xalqın üç minə qədər nümayəndəsi tufan geniş Xəzər dənizini aşaraq qəflətən Albaniya paytaxti olan Bərdəyə çatdılar və şəhər də onlara heç bir müqavimət göstərə bilmədi.Onlar əhalini qilincdan keçirərək istədikləri var dövləti mənimsədilər.Salarin özü onları mühasirə etdi, lakin heç bir ziyan gətirə bilmdi çünki,onlargüclü ve yenilməz idilər. Şəhər qadınları hiylə işlədib Ruziklərə ölüm piyaləsindən içirmək istədilər, lakin onlar xəyanətdən xəbərdar olub qadinlarla uşaqları amansızcasına məhv etdilər. Altı ay Bərdədə qaldıqdan sonra onlar şəhəri dağıdıb boşaltdılar və hamıdan gizli böyük və müxtəlif qənimətlə öz ölkərinə qayıtdılar [3.214].

Rusların Bərdədə törətdiyi qırğından xəbər tutan Mərziban ibni Məhəmməd 30 minlik qoşunla Bərdəyə gəldi. Mərzibanın ilk həmləsi uğursuz oldu. Ruslar şəhərin qala divarları arxasında gizləndilər. Ancaq tezliklə ruslar arasında epidemiya yayıldığından onların arasında kütləvi ölüm başladı. Mərziban rusları şəhər divarları arxasından çıxmaları üçün təhrik etdi. Rus dəstələri şəhərdən çıxaraq Salari qoşununun üzərinə hücuma keçdilər. Mərziban İbni Məhəmməd şəxsi sərkərdəlik keyfiyyəti ortaya çıxdı. O, yalançı geri çəkilmə manevrası edərək rusları pusqudakı əsgərlərinə tərəf çəkdi. Mərzibanın ordusunun arasında qalan ruslar Salarilər tərfindən darmadağın edildilər. Rusların hərbi rəhbəri öldürüldü. Məğlub olan ruslar geri, şəhər divarlarının arxasına çəkilə bildilər. Mərziban şəhərə daxil ola bilmədiyindən Bərdəni mühasirəyə aldı. Mərziban Bərdədə ruslarla savaşdığı zaman Mosul hakimi Salarilərin mülkünə soxuldu. Onlar Səlmas şəhərini mühasirəyə aldılar. Mosulluların gözlənilməz hücumu Mərzibanı mühasirəni yarımçıq saxlayaraq Səlmasa getməyə məcbur etdi. O, Səlmasa gedərkən bərdənin ətrafında kiçik bir hərbi dəstə qoyub gedir. Bu vaxt qış sərt keçdiyindən hər iki tərəfə çətinlik törədirdi. Mərzibanın ordusu əsasən bədəvi ərəblərdən təşkil olunmuşdu. Şəhərdə dayana bilməyən ruslar götürə bildikləri qədər qənimətlə gəmilərinə tərəf geri çəkil məyə başladılar. Salarilərin qoşunu kiçik olsada rusları kür çayınadakı gəmilərinə kimi təqib etdilər. Müsəlman əsgərləri az sayda olmalarına baxmayaraq Ruslar üzərinə ani basqın edir, onları ox atəşinə tuturdular. Belə gözlənilməz hücumlar ruslar arasında ciddi təlafat yaradırdı. Onlar qarət etdikləri malın çoxunu ataraq xcanlarını zorla götürüb qaçırdılar. Bellikləciddi təlafat verən ruslar çox cuzi bir dəstə ilə gəmilərinə çataraq canlarını qurtara bildilər.

Səlmasa çatan Mərziban ibn Məhəmməd Mosul ordusunu məğlubiyyətə uğradaraq onların Bağdada doğru irəliləməsini dayandıra bildi. Mərziban ibn Məhəmməd Salarilərin sərhəddini cənub-şərq istiqamətində genişləndirməyə başladı. Məhz bu genişlənmə siyasəti İranın bir çox vilayətində hakimiyyəti əllərinə alan Buvehilər sülaləsinə mənsub Rüknəddövlə (941-977) ilə müharibəyə səbəb olur. 949-cu ildə Qəzvin yaxınlığında Mərzibanla Rüknəddövlə arasında baş vermiş döyüşdə Mərziban ibn Məhəmməd məğlub olaraq yaxın adamları ilə birlikdə əsir düşür. Rüknəddövlə Mərzibanı və adamlarını İsfahan yaxınlığındakı Samarman qalasına həbs edir. Mərzibanın həbsindən sonra Azərbaycan ərazisində ara müharibələri başlayır. Bu zaman Deyləm hakimi olan Mərzibanın atası Məhəmməd ibn Müsafir Ərdəbilə gələrək hakimiyyəti lə keçirir. Ancaq çox keçmədən Məhəmməd ibn Müsafirə qarşı qiyam baş verir. Qiyamçıların əlindən canını qurtarmaq istəyən Məhəmməd ibn Müsafir digər oğlu Vəhsudanın yanına qaçır. Ancaq Vəhsudan atasını həbs edir. Rüknəddövlə Mərziban ibn Məhəmmədi məğlub etdikdən sonra Azərbaycanın idarəsini silahdaşı Məhəmməd ibn Əbdürrəzaqa tapışırdı. Hadisələrin bu cür inkişafından narahat olan Mərzibanın qardaşı Vəhsudan keçmiş Saci hökmdarı Deysəmi yenidə Azərbaycana dəvət etmək istədi. Həmin vaxt Deysəm Tarom qala şəhərində yaşayırdı. Mərzibanın atası Məhəmməd ibn Müsafir Ərdəbili tərk etdikdən sonra başsız qalan Deyləm qoşununa Mərzibanın sərkərdələrindən biri olan Əli bin Fəzil rəhbərlik etməyə başlayır. Deysəm

Tarom qalasından Ərdəbilə gəlir. Vəhsudanın əmri ilə Zəli bin Fəzil Deysəmin hakimiyyətini qəbul edir. Deysəm Buveyhilərə qarşı döyüşmək üçün Varsana yollanır. Deysəm dövlətin xəzinəsini etibar etdiyi vəziri İbn Mahmuda verərək onu Muğana yollayır. İbin Mahmud Deysəmlə Əbdürrəzaqın arasında baş verəcək müharibə bitənə kimi xəzinəni Müğanın dağlarında mühafizə etməli idi, ancaq o Deysəmə xəyanət edərək xəzinə ilə birlikdə Məhəmməd ibn Əbdurrəzzaqın tərəfinə keçir. İbn Mahmudun bu cür xəyanət etməsi Deysəmin məğlub olmasının əsas səbəbi olur. Məhəmməd ibn Əbdürrəzzaq Deysəmi tam məhv edə bilmədiyindən Azərbaycanın yalnız Cənub Şərq vilayətləri Buvehilərin əlinə keçir. Azərbaycanın qalan hissəsi və Ərməniyyə Deysəmin hakimiyyətini qəbul edir. Əlində böyük sərvət cəmləşdirmiş Deysəm yenidən Ərdəbil şəhərini tutmaq istəyir. O ordusuyla birlikdə Ərdəbilə gəlir. Həmin zaman Ərdəbili bir başqa deyləmli sərkərdə Əli ibn Mişkak idarə edirdi. Əli Deysəmə tabe olmaq istəmədiyindən onların arasında döyüş baş verir. Bütün deyləmlilər Əli ibn Mişkakın tərəfinə keçir. Nəticədə Deysəm məğlub olaraq kiçik bir dəstə ilə Ərməniyəyə qaçır.

953-cü ildə Mərziban ibn Məhəmməd Tamor qalasından qaçmağı bacarır. O, Ərdəbilə gələrək Azərbaycandakı hakimiyyətin yenidən bərqərar edir. Mərziban sərkərdəsi Əli ibn Mişkakı Deysəmi tutmaq üçün oruyla Ərməniyəyə göndərir. Mərzibanın onun ardınca qoşun göndərməsi xəbərini alan Deysəm Mosula qaçır. Mosulda uzun müddət dayana bilmədiyindən Bağdada gəlir. Bağdada xəlifə və əmirlər Deysəmi hörmətlə qarşılayırlar. Bir müddət Bağdatda qaldıqdan sonra o, yenidən hakimiyətini bərpa etmək istəyir. Deysəmə müttəfiqlər lazım olduğundan o, Mosul hakimi Nəsurdövlədən və onun qardaşı Şam hakimi Seyfəddövlədən yardım istəyir, ancaq Deysəm istədiyi dəstəyi əldə edə bilmədiyindən Vaspurakana keçmiş müttəfiqinin oğlunun yanına gedir. O, Vaspurukanda olarkən Mərzibanın Dərbəndə tərəf səfərə çıxması xəbərini alır. Deysəm Mərzibanın yoxluğundan istifadə edərək Azərbaycana gələrək Səlmas şəhərinə hücum edir. O Səlması tuta bilsə də, burada çox dayana bilmir. Beləki Mərzibanın Azərbaycanda olan ordusuyla apardığı döyüşdə məğlub olaraq yenidən Vaspurakana qaçır. Dərbənd səfərindən dönən Mərziban ibn Məhəmməd Vaspurakan hakimindən Deysəmin təslim etməsini tələb edir. Mərzibanın qəzəbindən qorxan Vaspurakn knyazı Deysəmi Mərzibana təslim edir. Mərziban ibn Məhəmməd 957-ci ildə vəfat edir. Bir müddət sonra həbsdə olan deysəm Səlari əmirlərinin göstərişi ilə edam olunur. Mərziban vəfat edərkən rəsmi olaraq Qardaşı Vəhsudanı özünün varisi elan etsə də, əslində gizlin olaraq Butun valilərindən və qala rəislərində böyük oğlu Custana tabe olmalarını əmr etmişdi. Bu səbəbdən Vəhsudan özünü hakim elan etsə də heçkim onun hakimiyyətini tanımadı, Mərzibanın digər oğulları da Custanın ətrafında birləşdilər. Siyasi vəziyyətin bu cür inkişafı Vəhsudanı Ərdəbili tərk edərək yenidən Taroma qayıtmasına səbəb oldu. Ərdəbil şəhərini özünə iqamətgah seçən Custan Deysəmin Ərdəbildə qalan vəziri Əbu Abdullah ən Nəimini yenidən vəzifəyə təyin edərək onu dövlət idarəsinə cəlb etdi. Azərbaycandakı bütün iri feodallar Custana tabe olduqlarını bildirdilər. Təkcə Urmiya hakimi ibn Şərməzdan Custanın hakimiyyətini qəbul etmədi. Vəhsudan qardaşı oğlu Custanın hakimiyyətini sözdə qəbul etsə də, əslində gizlin olaraq Salari əmirlərini və qoşun başçılarını Custana qarşı təxribata çağırırdı. Bu dövrdə Custanla vəzir Əbu Abdullah ən Nəimi arasında soyuqluq yaranmağa başlayır. Bəzi müxalif qüvvələr Custamı Əbu Abdullah ən Nəiminin ona xəyanət etdiyinə inandırdılar. Əbu Abdullah ən Nəimi Ərdəbildən Muğana qaçmalı oldu. O, burada özünü əl Müstəcirbillah adıyla Abbasi xəlifəsi elan etmiş fırıldaqçı biriylə tanış oldu. Əbu Abdullah ən Nəimini yalançı xəlifəyə hakimiyyətinin bərqərar olması üçün Azəbaycandan başlamasına inandırdı. Custandan narazı olan bəzi quvvələr və Urmiya hakimi də əl Müstəcirbillahın tərəfinə keçdi. Custan qoşununu üsyançı qüvvələrin üzərinə yeritdi. Döyüş zamanı üsyançılar məğlub edildilər, əl Müstəcirbillah Custan tərəfindən əsir alındı. İbin Şərməzan Urmiyaya qaçdı.

Custanın parlaq qələbəsi onun siyasi hakimiyyətini möhkəmləndirməsinə yardım etmir. Əmisi Vəhsudan Custana qarşı yeni planlar hazırlayır. O, ilk növbədə, qardaşlarıyla Custanın arasını vurmağa çalışır. Vəhsudan Mərzibanın digər oğlu İbrahimi öz tərəfinə çəkməyi bacarır. Vəhsudan Mərzibanın bir başqa oğlu Abdulnəsiri qardaşına qarşı qiyam etməyə sövq edir. Qardaşından ayrılan Nəsr Muğan üzərindən gözlənilmədən qardaşı Custanın üzərinə hücum edir. Gözlənilməz bu hücum nəticəsində Custan Ərdəbili tərk etməli olur. Custanın Ərdəbili tərk etməsinin ardından Abduləsir özünü hökmdar elan etsə də, Salari qoşunlarının əsasını təşkil edən kürdlər və deyləmlilər onun hakimiyyətini tanımaqdan imtina edirlər. Vəhsuan da Nəsirə heç bir dəstək vermədiyi üçün aciz vəziyyətdə qalan Abdulnəsir Custana yenidən hökmdar olaraq Ərdəbilə qayıtmasını xahiş edir. Baş vermiş ara müharibələri, yerli əhalinin müflisləşməsi və feodal özbaşınalığı kimi səbəblərdən dolayı

Custanın hakimiyəti mümkünsüz edir. göstərilən səbəblərdən dolayı salarilər dövləti tamamilə zəifləyir. Yaranmış çıxılmaz vəziyyət Custan və Nəsiri əmiləri Vəhsudana müraciət etməyə məcbur edir. Vəhsudanın yalançı vədlərinə aldanan qardaşlar anaları ilə birlikdə Taroma gəlir və burada həbs olunurlar. Xəbər bu zaman Ermənistanda olan İbrahimə çatdıqda o, anasını və qardaşlarını xilas etmək üçün qoşun toplamağa başlayır. Lakin artıq iş işdən keçmişdi: Custan, Nəsir və onların anası həbsxanada qətlə yetirilmişdilər. İbrahimin hadisələrin inkişafına göstərəcəyi təsirdən narahat olan Vəhsudan Urmiya hakimi Custan ibn Şərməzandan başqa Əhər hakimi Custan ibn Rəvvadı da öz tərəfinə çəkə bilir. Hər iki hakimin və Vəhsudanın oğlu İsmayılın birləşmiş qüvvələri İbrahimə qarşı çıxış edirlər. Bu qüvvə qarşısında duruş gətirə bilməyən İbrahim yenidən Ermənistana qaçır. Custan ibn Şərməzan isə Marağaya sahib olub, onun ərazisini də mülklərinə qatır [1. 280].

Məğlubiyyətlə heç cür barışmayan İbrahim yenidən tərəfdarlarını ətrafında toplayaraq güclü qoşunla Vəhsudanın üzərinə yeriyir. İbrahimlə yenidən döyüşməyə cəsarət etməyən Custan ibn Şərməzan onunla sülh bağlayır. Azərbaycana daxil olan İbrahim tezliklə paytaxt Ərdəbilə gələrək şəhəri tuta bilir. Vəhsudanın adamları Deyləmə qaçmaqla canlarını qurtara bilirlər. Ərdəbili tutduqdan sonra İbrahim Vəhsudanın son istinadgahı olan Tarom qalasına hücum edərək qalanı tuta bilir. Ancaq vəhsudan qaçaraq canını qurtara bilir. 962-ci ildə İbrahim, demək olar ki, salarilərin bütün mülklərində hakimiyyətini bərqərar edə bilir. İbrahimə çoxlu qiymətli hədiyyələr və fəxri əba göndərən xəlifə onu Salarilərin mülkünün hakimi kimi tanıdığını bildirir. İbrahimin uğurlu hərbi əməliyyatlarından sonra Salarilər dövlətində nisbi sakitlik yarandı. Ancaq hakimiyyətdən əl çəkmək istəməyən Vəhsudan 966-cı ildə tərəfdarlarını toplayaraq yenidən siyasi mübarizəyə başladı. O, öncə Tarom qalasına hücum edərək qalanı tutdu. Ardından Azərbaycana daxıl oldu İbrahim və Vəhsudan arasında gedən döyüşlərdə İbrahim uğurlu qələbələr qazandı. Ancaq döyüşlərin birində İbrahim ağır yaralanaraq döyüş meydanını tərk etməli oldu. Bu səbəbdən İbrahimin ordusu dağıldı. İbrahim canını Rey hakimi Ruknədövlənin yanına sığınmaqla qurtara bildi. Ruknəddövlə qohumu İbrahimi ehtiramla qarşıladı. Ruknədövlə İbrahimin ixtiyarına güclü ordu verərək yaxın adam İbn Amidi qoşunun hakimi təyin etdi. 966-cı ildə yenidən Azərbaycana qayıdan İbrahim Şərməzanla bağladığı sülhü yenilədi. Vəhsudan yenidən Azərbaycanı tərk etdi. İbrahim Ərdəbilə gələrək yenidən Salariləin taxtına oturdu. Xanədan mənsubları arasında baş vermiş ara müharibələri, hakimiyyətin tez-tez dəyişməsi Salarilər dövlətini zəiflədirdi. Əvvəllər salarilərə tabe olan iri feodallar özləin müstəqil elan edir iri vilayətlər bir-birinin ardıyla öz müstəqilliklərini elan edirdilər. Salarilərin əvvəlki mülklərini geri qaytarmaq istəyən İbrahim 967-968-ci illərdə Xəzər dənizi üzərindən hərbi donanma ilə Şirvana Məzyədilər üzərinə yürüş etdi. İbrahim Şirvanşah Əhməd ibn Məhəmmməddən təzminat və Salarilərə tabe olmaları barədə öhdəlik aldı. Şirvandan Dərbəndə keçən İbrahim Dərbənddə uğursuzluğa düçar oldu. Belə ki, Dərbənd hakimi Əhməd ibn Əbdülməlik Məsqət limanında dayanmış Salari gəmilərinə qəfil hücum edərək donanmanı dağıtdı. İbrahim Dərbənddən məğlub şəkildə ayrıldı.

971-ci ildə yenicə yaranan şəddadilər Gəncə şəhərinin Salarilərdən ayrıldığını bildirdilər. Tədricən güclənən Şəddadilər Aranında böyük hissəsini tutdular. Salarilərin əvvəlki qüdrətin itirdiyini anlayan İbrahim artıq ayrılmış mülklərin itirilməsi ilə barışmalı oldu. Şəddadilərin apardığı uğurlu siyasət İbrahimi narahat etdiyindən Şəddadilərin üzərinə hərbi səfərə çıxdı. Ancaq salari qoşunları Gəncə şəhərini mühasirəyə aldılarsada heç bir nəticə əldə eə bilmədiklərindən geri çəkildilər. Tədricən Şəddadiləer əvvəllər Salarilərin tabaeliyində olan Ərməniyyənin çox hissəsinidə özlərinə tabe edə bildilər. Salarilərin zəiflədiyi zamanda rəvadilər nəslinə mənsub feodallar Əhər və Qaradağ torpaqlarında müstəqil siyasət yeritməyə başladılar. Yerli feodalları öz hakimiyyəti altında saxlamaq üçün İbrahim bir sıra tədbirlərə əl atdı; hətta bəzi feodallara Salarilərin hakimiyyətinə xidmət müqabilində torpaq vermək (inzibati) qərarına gəldi. Lakin belə tədbirlər də iri feodalların çoxunu ram edə bilmədi, əksinə, dövlət öz torpaqlarının bir hissəsini itirdi. Davam etməkdə olan feodal çəkişmələri təsərrüfatın vəziyyətinə mənfi təsir edir, ticarətin tənəzzülü prosesini sürətləndirirdi. Bəzi vilayət hakimlərinin Salarilərə ödədikləri vergiləri kəsməsi, dövlət xəzinəsi gəlirlərinin xeyli azalmasına gətirib çıxardı. İbn Misqəveyhin məlumatına görə, İbrahimin bu dövrdə Azərbaycanda topladığı vergilərin məbləği cəmi 2 milyon dirhəmə bərabər idi. [1. 281].

Mənbələrin verdiyi bu məlumat əslində salarilərin necə böhran keçirdiyinin göstəricisidir. Əvvəllər Salarilərə illik vergi olaraq 50 min dirhəm vergi ödəyən Rəvvadilər 981-ci ildən vergi ödəməyi dayandıraraq Salarilərə qarşı üsyan qalırdılar. Əbülheycə ibn Rəvvad 981-ci ilin sonunda İbrahimi məğlub edərək həbs etdi. Ardından Aərbaycandakı Salari mülkləri-

ni tutdular. Əbülheycə ibn Rəvvad salarilərin əlində qalmış son mülkləri olan Dəbil şəhərinidə tutaraq Salarilər dövlətinin varlığına son qoydular.

## Nəticə

Salarilər 40 ildən bir az artıq zaman kəsiyində hakimiyyətdə olsalar da onları qurdu dövlətin tarix səhnəsinə çıxması olduqca mütərəqqi hadisə idi. Salarilər də eynən Sacilər kimi bütün Azərbaycan torpaqlarını birləşdirərək mərkəzləşmiş dövlət yaratmağa cəhd etmişdirlər. Düzdür Salari dövləti digər erkən orta əsr feodal dövlətləri kimi qısa ömürlü olmuşdu. Ancaq sonrakı əsrlərdə oğuzların Azərbaycan torpağına gələrək Azərbaycanı əbədi olaraq türk yurduna çervirilməsi üçün atılan ilk rüşeyimlər idi.

## Yekun

X əsrin ortalarından etibarən Abbasi xilafətində iri feodalların mərkəzi hakimiyyətə tabe olmamaq meyilləri getdikcə güclənirdi. Bağdaddan kənardakı iri feodallar artıq xəlifəylə hesablaşmır, xəlifənin hakimiyyətini formal olaraq qəbul edirdilər. Tədricən xəlifələrin hakimiyyəti Bağdad şəhəi və Bağdadın ətrafındakı torpaqlala məhdudlaşırdı. Bücür feodal pərakəndəliyi şəraitində Azərbaycan torpaqlarında da hakimiyyətdə olan iri feodallar da müstəqil olmağa cəhd edirdilər. Məhz Salarilər sülaləsinin qurduğu dövlətdə bu cür mürəkkəb tarixi proseslərin fonunda tarix səhnəsinə çıxdı.

**Açar sözlər:** *Xilafət, Azərbaycan, Sülalə, Abbasilər, Sacilər, Salarilər, Mərziban ibn Məhəmməd, Feodal müharibələri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan tarixi. Yeddi clddə. II cild (III–XIII əsrin I rübü). Bakı, "Elm", 2007. 608 səh. — 24 səh.*

*2. Azərbaycan VII–IX əsrlərdə. Ziya Bünyadov. Bakı, "Şərq-Qərb", 2007. 424 səh*

*3. Movsey Kalankatuklu. Albanya tarixi. Mixtar Qoş Alban səlnaməsi. Bakı "Avrasya press" 2006. 295 səh.*

*4. Madelung, W. (1975). "The Minor Dynasties of Northern Iran". In Frye, Richard N. (ed.). The Cambridge History of Iran, Volume 4: From the Arab Invasion to the Saljuqs. Cambridge: Cambridge University Press. pp. 198–249. ISBN 0-521-20093-8.*

*5.Clifford Edmund Bosworth, The New Islamic Dynasties: A Chronological and Genealogical Manual, Columbia University, 2007. 791 pages.*

*6. V. Minorsky, Studies in Caucasian history, Cambridge University Press, 2004. 560 pages.*

**Место государства Саларидов в истории Азербайджана**

**Мамедов Ильхам Адиль оглы**
***Гянджинского Государственного Университета, кафедры истории Азербайджана. старший преподаватель, доктор философии по истории.***

## РЕЗЮМЕ

С середины X века в Аббасидском халифате усиливается тенденция крупных феодалов к неповиновению центральной власти. Крупные феодалы за пределами Багдада уже не считались с халифом и формально признавали власть халифа. Постепенно власть халифов ограничилась городом Багдадом и землями вокруг него. В условиях такой феодальной раздробленности крупные феодалы Азербайджана пытались стать независимыми. На фоне столь сложных исторических процессов на историческую сцену вышло государство, созданное династией Саларидов.

**Ключевые слова:** *Халифат, Азербайджан. Династия. Аббасиды, Саджи, Салариты, Марзибан ибн Мухаммад, Феодальные войны.*

**The place of the Salarid state in the history of Azerbaijan**

**Mammadov Ilham Adil**
***Ganja State University, The Department of history of Azerbaijan, Senior lecturer doctor of philosophy in history***

## SUMMARY

Since the middle of the 10th century, in the Abbasid Caliphate, the tendency of large feudal lords to disobey the central government has been increasing. Large feudal lords outside Baghdad no longer considered the caliph and formally recognized the power of the caliph. Gradually, the power of the caliphs was limited to the city of Baghdad and the lands around it. In conditions of such feudal fragmentation, the large feudal lords of Azerbaijan tried to become independent. Against the backdrop of such complex historical processes, the state created by the Salarid dynasty entered the historical stage.

**Key words:** *Caliphate, Azerbaijan. Dynasty. Abbasids, Saji, Salarites, Marziban ibn Muhammad, Feudal Wars.*

UOT 94 "04/15"
DOI:10.30546/3006-0346.2024.1.79.104

# ORTA ƏSRLƏR DÖVRÜNDƏ AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN ETNİK KİMLİYİ

**AYNUR HƏŞİMOVA**
*Bakı Dövlət Universitetinin*
*Mənbəşünaslıq, tarixşünaslıq və metodika*
*kafedrasının doktorantı*
*E-mail: aynur.hashimova@arti.edu.az*

Orta əsrlər dövründə Azərbaycanın Qarabağ bölgəsinin etnik tərkibi müxtəlif olmuş, onun əhali kimliyi hər zaman müzakirə obyektində olmuşdur. Qədim və orta əsrlərdə Qarabağda əsas etibarı ilə utilər, qarqarlar, saklar, alban tayfaları ilə yanaşı, türk soylu hunlar, sabirlər, kəngərlər, xəzərlər, barsillər yaşamışlar. Ərəb işğalı dövründə erməni qriqorian kilsəsi alban kilsəsinə, türk mədəniyyətinə qarşı mübarizə aparırdı. Musa Xorenli yazırdı ki, erməni kilsəsi 704-cü ildə Ərəb xilafətinin köməyi ilə alban kilsəsini özünə tabe edən zaman albanların tarixinə dair alban yazısı ilə yazılmış hər şeyi yandıraraq məhv etmişdi [23, 4].

VIII əsrin əvvəllərində ərəb işğalı nəticəsində Albaniya dövləti dağıldı. Bu dövrdə alban etnosunun tədricən deetnizasiyası və qriqorianlaşmasının, sonralar isə Qarabağın dağlıq bölgəsinin əhalisinin bir hissəsinin erməniləşdirilməsinin əsası qoyuldu [1, s.118].

Alban sözünün etimologiyası bir sıra tədqiqatçılar tərəfindən araşdırılsa da, bu sözün mənası qeyri-müəyyən olaraq qalmaqdadır. Bir sıra tədqiqatçılar alban sözünün "ağ", digərləri isə "dağlar ölkəsi" mənasını verdiyini qeyd etmişlər.

Bir sıra tədqiqatçılar alban sözünün etimoloji təhlilini qədim yunan-latın dili kontekstində aparmış, digərləri isə alban sözünün türkmənşəli olduğunu, türkcə "cəsur", "igid" mənasını verdiyini göstərmişlər. Bu sözlər Azərbaycan dilində hələ də aydınlaşdırılmamışdır [9, s.54].

Albaniyanın tərkib hissəsi olan Qarabağda yaşayan etnoslardan biri utilər olmuş və bu tayfalar haqqında ərəb coğrafiyaçıları məlumat vermişlər [19, c.13].

Tədqiqatçılardan A. Şifner, V. Fon, Erkert, A. Dirr, L.P.Zaqurski və başqaları Albaniyada məskunlaşan utilərin İber – Qafqaz qrupuna aid olduğunu iddia edirdilər. Lakin utilər dil baxımından İber – Qafqaz qrupuna aid deyildir. Bir sıra tədqiqatçılar qədim, ilk orta əsrlər qaynaqlarına əsaslanaraq utilərin türk dilləri qrupuna məxsus olduğunu vurğulayaraq, onları türkmənşəli hesab edirlər [17, c.60-61; 15, c.57-58].

Erməni coğrafiyaçısı Ananiya Şirakasi ilkin orta əsrlərdə utilərin Göyçə gölü ilə Araz çayı, eyni zamanda Kür çayı ilə Arsax arasında məskunlaşdıqlarını göstərirdi [16, c.51]. İlkin orta əsr yazılı qaynağı M.Xorenasi utilərin albanların mifik əcdadı olan Aran hakiminin nəslindən olduğunu qeyd edirdi [25, c.46-47; 20, c.148]. Bu mənbənin məlumatını ilk orta əsr qaynağı M.Kalankaytuklu da təsdiq edirdi [21]. Bu araşdırmalardan aydın olur ki, utilər Albaniya ərazisində yaşayan ən qədim yerli tayfalardan biri olmuşdur.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarından aydın olur ki, Albaniyanın yerli uti əhalisi Göyçə gölü ilə Araz çayı, Kür çayı və Arsax arasında, Tərtər və Kür çaylarının aşağı hissəsində və indiki Şəki rayonu ərazisində məskunlaşmışdılar [9, s.58].

Qarabağ zonasının müstəmləkələşdirilməsi və əhalisinin qriqorianlaşdırılması VIII əsrin əvvəllərində Alban dövlətinin süqutundan sonra – Cənubi Qafqazı ələ keçirən ərəblərin avtokefal Alban kilsəsinin erməni kilsəsinə tabe olmasına razılıq verdikdən sonra baş verdi. Məhz həmin dövrdən Qarabağın alban əhalisinin qriqorianlaşdırılmasına başlanıldı. Qarabağın dağlıq ərazilərinin qriqorianlaşdırılmış və müəyyən dərəcədə erməniləşmiş əhalisinin etnik assimilyasiyası daha sonralar baş vermişdi.

Albanlar Qarabağ əhalisinin tərkibində xüsusi yer tuturdu. Onlar Qarabağın dağlıq hissəsində, əsasən Xaçın ərazisində yaşayırdılar. Qarabağ albanları Cənubi Qafqazın erməni və gürcü etnosları ilə bir sırada dayanmış və etnik baxımdan onlardan asılı olmamışlar. XIII əsr alban tarixçisi Kirakos Gəncəli Cənubi Qafqazda yaşayan etnosları dəfələrlə "ermənilər, gürcülər və albanlar" şəklində göstərmişdir.

Tədqiqatdan aydın olur ki, gəlmə erməniləri çıxmaq şərtilə Qarabağın ermənidilli əhalisi və Şimali Azərbaycanın azərbaycanlıları, şübhəsiz əvvəlki albanlar idi [1, s.119]. Qarabağın ermənidilli əhalisi isə, XIX əsrdə İran və Türkiyədən buraya köçürülənlər istisna olmaqla qədim albanların erməniləşmiş nəsilləri idi.

Monqol yürüşləri dövründə Azərbaycan Hülakülər dövlətinin mərkəzi oldu. Nəticədə Qarabağın elxanilərin istirahət mərkəzinə çevrilməsi gəlmələrin əksəriyyətinin bu ərazilərə axışmasına səbəb oldu. Bu dövrdə Azərbaycana 20-dən artıq qəbilə gəlmiş və məskunlaşmışdır. Onlar əsas etibarı ilə sulduz-çobani, sunit, cəlairi, qurqan, kingit, səqait, curiat, tənkqut, ildurkin, uryankqat, onqut, tatar, hərtəkan, oyrat, cirkin, tamqa-

lıq, dolan, alar, alət, uran və s. qəbilələr idi [11, s.32].

1230-cu ildə monqolların Qarabağı işğal etməsindən sonra bölgədə türkdilli əhalinin sayı kəskin şəkildə artmağa başladı. Əslində bütün monqol yürüşlərində demoqrafik baxımdan əsasən türkdilli xalqlar iştirak etmişlər [1, s.124]. XIV əsrdə Hülakülər dövləti ərazisində türklər mühüm, Azərbaycanda isə əsas yer tuturdular. Hülakülər dövründə Azərbaycana gələn 16-dan çox qəbilə içərisində haylar olmamışdır [5, s.21].

Akademik Z.M.Bünyadovun qeyd etdiyi kimi, Arran əhalisi monqol istilalarına qədər türkdilli xalq kimi təşəkkül tapmışdı. Arran əhalisinin etnik tərkibi əsasən türklərdən ibarət idi. Monqol yürüşləri dövründə Azərbaycana gələn monqol-türk qəbilələrindən tamqalıq, dolan, kanqlı, qorqan, tatar, qarxun və oyrat qəbilələri Qarabağda məskunlaşmışdılar [12].

Səfəvilər dövründə Qarabağ ərazisi Gəncə - Qarabağ bəylərbəyliyinin tərkibinə daxil idi. Bu zaman Həsən Cəlalın nəslinin mülkiyyəti beş məlikliyə - Gülüstan, Çiləbörd, Xaçın, Vərəndə, Dizaqa bölünmüşdü. Məlikliklərin əhalisi xristian idi. Erməni tarixçiləri tarixi faktları saxtalaşdıraraq, bu beş məlikliyi erməni dövlətçiliyi irsi kimi qələmə verirdilər. Lakin bu məliklər müstəqil deyildilər və Gəncə - Qarabağ bəylərbəylərinə tabe idilər. Bu bəylərbəyliyin, o cümlədən Qarabağ ərazisinin əhalisinin mütləq əksəriyyətini müsəlmanlar – azərbaycanlılar təşkil edirdi.

XVI əsrin sonlarında Səfəvi – Osmanlı müharibələri nəticəsində Azərbaycana nəzarəti ələ keçirən Osmanlıların dövründə Qafqazda ən böyük inzibati-ərazi vahidi olan Gəncə - Qarabağ əyalətinin əhalisi 121.975 nəfər olmuş, bunun 65,9%-ni, yəni 80.340 nəfərini türklər, 31%-ni – 37.885 nəfərini ermənilər, 3.1%-ni – 3.750 nəfərini isə kürdlər təşkil etmişdir. Bəylərbəylik qacar tayfasından olan Ziyadoğlular nəsli tərəfindən idarə olunurdu [11, s.36].

Osmanlı dövründə tərtib olunmuş müfəssəl dəftərlərdə Qarabağda heç bir kənddə ermənilərin yaşaması qeyd olunmayıb, sadəcə olaraq “qeyri-müsəlmanlar” ifadəsi işlədilib. Heç şübhəsiz ki, həmin vaxt bu əyalətdə erməni olsaydı, elə erməni kimi də göstərilərdi. Çünki Gəncə əyaləti haqqında müfəssəl dəftərdə 25 kənd məhz erməni kəndi kimi qeydə alınıb. Görünür ki, Qarabağda qeyri-müsəlman kimi qeydə alınanlar xristian albanlar idi [7].

“İcmal dəftəri”ndə Qaramanlı, Qacar, Hacılı, İyirmidördlü, Otuzikili, Cavanşir, Kəsəmənli, Göycəli və Şəmsəddinli kimi qədim Azərbaycan türk tayfalarının adlarına tez-tez rast gəlinir. Sənəddə həmçinin Osmanlı işğalı zamanı (1588-1606) Qarabağı tərk etməyən və osmanlıların hakimiyyəti altında qalan Qacar tayfasma məxsus 8 oymağın adı çəkilmişdir. Bu oymaqlar – 1. Qaraca-Sevgülən – Bərdə nahiyəsi, 2. Qaytaq – Bərdənin Sir və Xaçın sancağının Çalaberd nahiyəsi, 3. Qolsuzlu – Bərdənin Sir nahiyəsi, 4. Ağcaqoyunlu – Xaçının Çalaberd nahiyəsi, 5. Gəngəldili – həmin ərazi, 6. Əylənli – həmin yer, Bərdə və Gəncə ətrafında, 7. Şam Bayatı – Xaçının Çalaberd nahiyəsi, 8. Yıva-Qacar – Qaraağac və Gəncə sancağı idi [3, s.206-207].

Qarabağ düzündə, Bərdədən cənubdakı torpaqlar Otuzikililərin adı ilə bağlı olmuşdur. XVI əsrdə bu ərazi xırda Azərbaycan tayfalarının yaratdığı birliyin irsi mülkü olmuşdu. Bu birliyə daxil olan Cavanşir oymağı bu tayfaların irsi başçısı kimi tanınmışdı [24, c.136; 10].

Qarabağın İyirmidördlü tayfası da Azərbaycan türk tayfalarının birliyi kimi yaranmışdı. Osmanlı icmal dəftərində bu tayfaya məxsus 24 oymağın adı çəkilmişdir. Bunlar əsasən Bərdə, Gəncə, Yevlaxda yaşayan Əlişarlı, Alpaut, Bəxşeyişli, Bəxtiyarlı, Dərəbəyli, Gədə Əhmədli, Gökçəli, Molla Əlili, Pir Mahmudlu, Sarıhacılı, Seydi - Zəng, Tobulu, Tokacilu, Tərəli, Yollu, Varvara, Yasavullu və Zənd oymaqları idi [3, s. 8-9, 44, 75, 85, 87, 116; 13, s.213-214].

Qarabağ məlikliklərinin rəhbərlərinin adlarına da nəzər saldıqda heç bir erməni adına rast gəlinmir. Məsələn, Şahnəzər, Usub, Ulubab, Cümşüd və s. adlar nəinki erməni, heç xristian mənşəli də deyildi. Bu adlar türk-müsəlman mənşəli adlar idi, bu da onların sonradan xristianlığa meyil etməsini göstərir.

Müfəssəl dəftərdə məskunlaşdırılmayan kəndlər kimi göstərilən yaşayış məntəqələrinin adlarının əksəriyyətinin türk mənşəli olduğunu görmək olar. 1823 və 1832-ci illərin kameral siyahıya almalarını müqayisə edəndə ağrılı nəticə meydana çıxır. Məsələn, Şuşada 1823-cü ildə 1111 azərbaycanlı ailəsi göstərilirdisə, 1832-ci ildə bu ailələrin sayı 962 olmuşdur. Erməni ailələrin sayında isə əks proses müşahidə olunurdu. 1823-cü ildə erməni ailəsi 400-dən çox idisə, 1832-ci ildə bu rəqəm 782 olmuşdu [7].

XVI əsrin sonuna qədər Gəncə-Qarabağ əyalətində kürdlərin yaşamasını dövrün heç bir mənbəsi təsdiq etmir. Kürdlər Qarabağ bölgəsinə XVI əsrin sonunda – Osmanlı – Səfəvi müharibəsinin gedişində yerləşdirilmişdi. Çünki, Osmanlı ordusu Qarabağ bəylərbəyliyini ələ keçirəndə yerli türk – müsəlman şiə əhali Osmanlı hakimiyyətini qəbul etməyərək yaşadığı ata-baba yurdlarını tərk etmişdi. Sultan III Murad isə işğal olunmuş bölgələrdə özünə sosial dayaq yaratmaq məqsədilə Diyarbəkr və Dəclə çayı sahillərindən sünni kürdləri, köçməyə məcbur olmuş şiə məzhəbli

Azərbaycan türklərinin – qızılbaşların torpaqlarında yerləşdirirdi [14, s. 437-438].

Nadir şahın (1736-1747) hakimiyyəti dövründə Gəncə-Qarabağ bəylərbəyinin əhalisi ağır təzyiqlərə məruz qalmışdı. Buna görə də Qarabağın alban məliklərinin mövqeyi xeyli güclənmişdi, bu da onların gələcəkdə separatizminə təkan vermişdi [6, s.17]. 1736-cı ildə Nadir şah Əfşar Qarabağ ərazisində yaşayan əhaliyə qarşı amansız faciələrə, qırğınlara rəvac verdi. Nadir şah onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Qarabağ bəylərbəyliyinin türk-müsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirdi. Qarabağ əhalisinin Cavanşir, Otuziki və Kəbirli tayfalarını Xorasana sürgün etdirdi, tayfa başçılarını isə yanında girov saxladı [4].

Qarabağ xanlığının başçısı Pənahəli xan Cavanşir tərəfindən xanlığın paytaxtına çevrilmiş Şuşanın – Pənahabadın əhalisi Azərbaycan türklərindən ibarət idi. Bunu şəhərin bütün məhəllələrinin – Təbrizli, Culfalar, Hacı Yusifli, Merdinli, Saatlı, Köçərli, Xoca Mərcanlı və s. adlarının Azərbaycan türkcəsində olması da sübut edirdi. Şuşa şəhərində əhalinin sayı başqa yerlərdən köçüb gələnlərin hesabına sürətlə artmışdı. Şuşa şəhərinin əlverişli coğrafı mövqeyə malik olması və Qarabağ xanlığının inzibati mərkəzinə çevrilməsi onu ətrafda yaşayan əhali üçün cəlbedici edirdi. Buna görə də XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Şuşada yaşayan əhalinin xeyli hissəsini xanlığın Dəmirçihəsənli, Kəbirli, Dizaq, Cavanşir, Otuziki, İyirmidörd, Xaçın və başqa mahallarından köçüb gələnlər təşkil edirdi. İlk mənbələr sübut edir ki, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Şuşada 2 mindən çox ailə yaşayırdı [2, s.50]. Şuşanın qısa müddət ərzində sürətlə böyüyərək mühüm ticarət və sənətkarlıq mərkəzinə çevrilməsi Qarabağ xanlığında əhalinin xeyli hissəsinin buraya köçməsinə səbəb oldu. Köçüb gələnlər arasında mənşəcə alban olan, lakin erməni kilsəsinin təsiri altında qriqorianlaşmış və erməniləşmiş əhalinin nümayəndələri də var idi [2, s.50].

Beləliklə, Qarabağ məlikliklərinin əhalisinin etnik mənşə baxımından müasir ermənilərlə heç bir əlaqəsi olmamışdır. Bu məlikliklərdən Çiləbörd, Gülüstan, Vərəndə və Dizaqın əhalisi Qarabağın yerli əhalisi deyildi. Onlar Qarabağa Azərbaycanın başqa yerlərindən köçüb gəlmişdilər. XIX əsrin əvvəllərinə qədər Qarabağın, o cümlədən Şuşanın əhalisinin mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Bölgədə yaşayan alban mənşəli xristian əhalinin erməniləşmə prosesinin başa çatması və ermənilərin sayının sürətlə artması Rusiyanın 1828-ci ildə İranla imzaladığı Türkmənçay müqaviləsindən və 1829-cu ildə Osmanlı Türkiyəsi ilə bağladığı Ədirnə müqaviləsindən sonra baş vermişdir [4].

## YEKUN

Beləliklə, orta əsrlər dövründə Albaniya və Azərbaycanın digər feodal dövlətlərinin tərkib hissəsi olan Qarabağ bölgəsinin əhalisi albanlardan, türk tayfalarından ibarət olmuşdur. Ərəb işğalına, İslamın Azərbaycanda yayılmasına qədər Arsax – Qarabağ ərazisində yalnız yerli əhali – Alban – Azərbaycan tayfaları yaşamışlar. XVIII əsrin ortalarından XIX əsrin əvvəllərinə qədər Azərbaycanda əhalisi azərbaycanlı müsəlmanların üstünlük təşkil etdiyi Qarabağ xanlığı mövcud idi. Qarabağ xanlığı Rusiyaya erməni ərazisi kimi deyil, müsəlman torpağı kimi birləşdirilmişdi. O vaxta qədər burada xristianlıq və atəşpərəstlik mövcud idi. İslamın yayılmasına baxmayaraq xristian əhalisinin cüzi bir hissəsi dağlara çəkilərək öz dinini saxlamışdır. Onlar alban və digər tayfaların nümayəndələri idilər.

**Açar sözlər:** *Qarabağ, etnik kimlik, türk tayfaları, albanlar, ermənilər, əhali.*

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Cahangir Hüseyn Əfşar. Yeni Qarabağnamə (Qarabağ Azərbaycandır!) / Cahangir Hüseyn Əfşar. – Bakı: Təhsil, – 2021. – 320 s.*

*2. Əliyev, F. Şimali Azərbaycan şəhərləri (XVIII əsrin II yarısı) / F. Əliyev. – Bakı: Azərbaycan EA nəşriyyatı, – 1960. – 136 s.*

*3. Gəncə - Qarabağ əyalətinin icmal dəftəri / tərt. ed. T. Nəcəfli. – Bakı: Çaşıoğlu, – 2010. – 508 s.*

*4. Hüseynli, İ. Qarabağ: tarix olduğu kimi: [Elektron resurs] / – URL: http://www.anl.az/down/meqale/azerbaycan/2015/fevral/418911.htm*

*5. Hüseynov, Y. Azərbaycanın Qarabağ bölgəsinin tarixi / Y. Hüseynov. – Bakı, – 2019. – 208 s.*

*6. Hüseynov, Y. Qarabağ / Y. Hüseynov. – Bakı, – 2018. – 336 s.*

*7. "Qarabağın 18-ci əsrədək olan etnik tərkibi və əhali sayı barədə dəqiq məlumatlar yoxdur": [Elektron resurs] / – URL: https://strateq.az/musahibe/ 190342/qarabagin-18-ci-%C9%99sr%C9%99d%C9%99k-olan-etnik-t%C9%99rkibi-v%C9%99-%C9%99hali-sayi-bar%C9%99d%C9%99-d%C9%99qiq-m%C9%99lumatlar-yoxdur.html*

*8. Məmmədli, A. Gəlmələr. Ermənilərin gerçək tarixi / A. Məmmədli. – Bakı: Çaşıoğlu, – 2008. – 444 s.*

*9. Məmmədov, T. M. Qafqaz Albaniyası ilk orta əsrlərdə / T. Məmmədov. – Bakı: Təhsil, – 2006. – 400 s.*

*10. Nəcəfli, T. Qarabağ XVI əsrdə: [Elektron resurs] / – URL: https://www.azeribalasi.com/showthread.php/82038-azerbaycan-tofiq-necefli-qarabag-xvi-esrde*

*11. Piriyev, V. Azərbaycanın tarixi-siyasi coğrafiyası / V. Piriyev. – Bakı: "Müəllim" nəşriyyatı, – 2006. – 148 s.*

*12. Piriyev, Z. Qarabağ və Naxçıvan orta əsrlərdə: [Elektron resurs] / – URL: https://kayzen.az/blog/tarixi-siyasi/18792/qaraba%C4%9F-v%C9%99-nax%C3%A7%C4%B1van-orta-%C9%99srl%C9%99rd%C9%99.html#cut*

*13. Kırzıoğlu, F. 1593-cü il Osmanlı vilayət təhrir dəftərində anılan Gəncə-Qarabağ. – 220 s.*

*14. Kırzıoğlu, F. Osmanlıların Kafkaz ellerini fethi (1450-1590). – İstanbul, – 1976, 450 s.*

*15. Алиев, К. Этюды населения древнего Азербайджана. – Сб.: «К проблеме этногенеза Азербайджанского народа» / К. Алиев. – Баку: «Элм», – 1984, – с.40-68.*

*16. Армянская география VII в. (приписываемая Моисею Хоренскому). Текст и перевод с древнеарм. с присовокуплением карт и объяснительных примечаний издал Патканов К.П. – СПб., – 1877. – 26-84 с.*

*17. Ашурбейли, С. Б. Государство Ширваншахов (VI–XVI вв.) / С. Б. Ашурбейли. – Баку: «Элм», – 1984. – 342 с.*

*18. Бакиханов, А. А. Гюлистан-и Ирам /А. Бакиханов. – Баку: Элм, – 1991. – 304 с.*

*19. Балазури. Книга завоевания стран. Текст и перевод с араб. Жузе П.К. – Материалы по истории Азерб. об-ва по изуч. и обслед. Азерб. – Баку, – 1927 – 42 с.*

*20. Еремян, С. Т. Моисей Каланкайтукский о посольстве албанского князя Вараз-Трдата к казарскому хакану Алп-Илитверу. – ЗИВАН СССР, – т.7.– 1939. – с.129-155.*

*21. История Албанской страны Мовсеса Каганкатваци. – Москва, –1860. –286 с.*

*22. Казиев, С. М. О древних погребальных обрядах на территории Кабалы / Сб.: МКА, т. 6. – Баку: АН Азерб.ССР, – 1965. – с. 235-251.*

*23. Моисей Хоренаци. История Агвании: [ в трех частях]. Кн.1.: [Электронный ресурс] / – URL: https://www.vostlit.info/Texts/rus5/ Horen/ frametext11.htm*

*24. Петрушевский, И. П. Государство Азербайджана в XVI-XVII вв. / Сб. статей по истории Азербайджана. Выпуск 1. – Баку, – 1949.*

*25. Тревер, К. В. Очерки по истории и культуры Кавказской Албании (IV в. до н.э. – VII в. н.э.) / К. В. Тревер. – Москва – Ленинград: Издательство Академии Наук СССР, –1959. –392 с.*

**АЙНУР ГАШИМОВА,**

***Докторант кафедры источниковедения, историографии и методологии Бакинского Государственного Университета***

**РЕЗЮМЕ**

**ЭТНИЧЕСКАЯ ИДЕНТИЧНОСТЬ КАРАБАХСКОГО РЕГИОНА АЗЕРБАЙДЖАНА В СРЕДНЕВЕКОВЫЙ ПЕРИОД**

В статье исследуется проблема этнической идентичности и принадлежности населения в Карабахском регионе Азербайджана в период Средневековья. В исследуемый период местное население Карабаха состояло из албанцев. После арабской оккупации население региона подверглось религиозной и этнической ассимиляции и постепенно арменизировалось. До переселенческой политики царской России население Карабаха состояло из турецких мусульман.

**Ключевые слова:** *Карабах, этническая идентичность, тюркские племена, албанцы, армяне, население.*

**AYNUR HASHIMOVA,**

***Doctoral student of the Department of Source Studies, Historiography and Methodology of Baku State University***

**SUMMARY**

**Etnic identity of the Karabakh region of Azerbaijan in the medieval period**

In ihe article is investigated the problem of ethnic identity and affiliation of the population in the Karabakh region of Azerbaijan during the Middle Ages. The indigenous inhabitants of Karabakh were the Albanians. After the Arab occupation, the population of the region was religiously and ethnically assimilated and gradually armenianized. Until the resettlement policy of Tsarist Russia, the population of Karabakh is consisted of Turkish Muslims.

**Keywords:** *Karabakh, ethnic identity, Turkish tribes, Albanians, Armenians, population.*

UOT: 338.48: 379.851
DOI:10.30546/3006-0346.2024.1.79.108

# AZƏRBAYCANIN POSTKONFLİKT ƏRAZİLƏRİNDƏ TURİZM SƏNAYESİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ TÜRKİYƏ MODELİNİN TƏTBİQİ PERSPEKTİVLƏRİ

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru,*
*iqtisad elmləri doktoru,*
*UNEC Qarabağ İqtisadi Araşdırmalar*
*Mərkəzinin rəhbəri*

*E-mail: shafa.aliyev@sdu.edu.az*
*ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563*
*E-mail: garabagh.iam@unec.edu.az*

**NİHAD HÜSEYNOV**
*Sumqayıt Dövlət Universitetinin*
*"Biznesin təşkili və idarə edilməsi"*
*kafedrasının doktorantı*

*E-mail: nihadhuseyn@mail.ru*

Qeyd edək ki, turizm ən bəsit şəkildə insanların gəzmək, dincəlmək və fərqli yerlər görmək məqsədilə etdikləri səyahət fəaliyyəti olub, dövlətlərin də bu səbəbə görə səyahət etmək istəyənləri ölkələrinə cəlb etmək məqsədilə yaratdığı iqtisadi, sosial və texniki fəaliyyətlərin cəmi kimi baxılır. Turizm əsasən 19-cu əsrin sonlarından formalaşmış, 20-ci əsrin ikinci yarısından başlayaraq insanların yüksələn rifah səviyyəsi və adambaşına düşən gəlirin artması ilə əlaqədar olaraq boş vaxtlarını uzaq məsafələrə edilən səfərlərlə dəyərləndirməsi xüsusiyyətini özündə ehtiva etmişdir. Dünya səviyyəsində inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrdə sənaye və ixracat sahələrində investisiya və maliyyə çətinlikləri çəkə biləcəkləri üçün turizm vacib bir maliyyə qaynağı olaraq ön plana çıxmaqdadır.

Ölkəmizdə də turizm sənayesinin rolu son on il ərzində əhəmiyyətli səviyyədə artmışdır. Ölkə Prezidenti İlham Əliyev bildirmişdir ki, sənaye istehsalına gəldikdə, həm ümumi sənaye istehsalımız 5 faizdən çox artıb, həm də qeyri-neft sənayemiz 20 faizə yaxın artıb. Bununla əlaqədər qeyd edə bilərik ki, turizm və digər qeyri-neftqaz sekoru sahələri yüksək artım tempi göstərməkdədir. Bu isə neftdən iqtisadi asılılığın azaldığını, real iqtisadi artımın ifadəsidir. Xüsusilə, yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya proqramlarının tam icra olunması, Böyük Qayıdışla bağlı tədbirlərin və layihələrin həyata keçirilməsi üçün bu vaxta qədər 10 milyard manatdan çox vəsaitin ayrılması amilini nəzərə alsaq, yaxın perspektivdə iqtisadiyyatımızın şaxələndirilməsində yeni imkanlar formalaşacaqdır.

Qeyd edək ki, Azərbaycanda fəaliyyət göstərən turist firmalarının əksəriyyəti uzaq ölkələrin turizm bazarını öyrənir. Həmin firmalar dünya turizmi üçün ənənəvi olan marşrutlar təklif edirlər. Turizm biznesinin imkanları turizmin yalnız ekskursiya növü ilə kifayətlənmir. Firmalar öz fəaliyyətini genişləndirmək üçün başqa növ turlardan da istifadə edə bilərlər. Bu da ilk növbədə turist firmalarına turist xidmətlərindən istifadə edənlərin çox bir hissəsinin tələbatının ödənilməsi imkanı verər. Turizmin hər bir forması turistlərin özünəməxsus tələbatı ilə xarakterizə olunur və müvafiq xidmət kompleksi kimi nəzərdə tutur. Turizm istehsalat xidmət prosesində bir sıra növlərə və növ müxtəlifliyinə ayrılır: 1) Turizmin formaları; 2) Turizmin növləri və 3) Turizmin növ müxtəlifliyi. Turizmin forması, turistin öz ölkəsi sərhədlərindən çıxıb-çıxmaması ilə bağlıdır və eyni zamanda turizmin formalara bölünməsinin əsasını ölkə prinsipi təşkil edir. Beləliklə, turizm daxili və beynəlxalq formalara ayrılır.

Gəlir və xərclər arasındakı nisbətin ikincinin xeyrinə artmasının səbəbi turizm biznesinə kapital qoyuluşunun ödəmə müddətinin xeyli yüksək olması ilə izah olunur. 2021-ci ildə səyahət etmək üçün ölkədən kənara gedən Azərbaycan vətəndaşlarının satılmış turizm yollayış blanklarının sayı və dəyəri Azərbaycan ölkə vətəndaşlarına satılmış turizm yollayış blanklarının sayı və dəyərindən müvafiq olaraq 12,5 və 16,0 dəfə çox olmuşdur. Bu da onu göstərir ki, Azərbaycan Respublikasında getmə turizm gəlmə turizmi dəfələrlə üstələyir. Azərbaycanda turizmin ümumi daxili məhsulda payı cəmi 4,1 % təşkil etdiyi halda, bu göstərici Türkiyədə isə 12,3 %-ə bərabərdir. Bu göstəricilərdən də görüldüyü kimi Türkiyə modelindən istifadə edilərək Azərbaycanda gəlmə turizminin inkişaf etdirilə biləcəyi faktı ortaya çıxır.

Qeyd edək ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2014-cü ildən etibarən başlanan və 2016-cı ildə yekunlaşan birgə hesabatın nəticəsində ümumilikdə Azərbaycana dəyən ziyan 265,3 milyard dollar həcmində hesablanıb [1]. Buna görə də yaxın gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş həcmli bərpa işlərinin görülməsi lazım gələcəkdir [2].

Bu istiqamətlərdə turizm xidmətinin genişləndirilməsi və infrastrukturunun yaradılması ciddi önəm kəsb edəcəkdir. Ölkə Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "yeni otellər, istirahət zonaları yaradılmalı, kənd turizmi inkişaf etdirilməlidir. Bu, oraya qayıdacaq insanlar üçün də məşğulluq və gəlir mənbəyi olacaq. Yəni, burada dünyada və xüsusilə Avropada mövcud olan ən mütərəqqi prinsiplər tətbiq edilməlidir, bütün sahələrdə. Mən, sadəcə olaraq, əsas sahələri qeyd edirəm. Amma bütün sahələrdə ən mütərəqqi təcrübə, ən şəffaf mexanizmlər, insanlar üçün rahatlıq təmin edilməlidir və belə olan halda biz istədiyimizə nail olacağıq" fikirlərinə əsasən bölgədə həm dövlət, həm də bölgədə məskunlaşacaq insanlar üçün faydalılıq əmsalı yüksək olan ən sağlıqlı və potensiala malik olan sahə olaraq turizm ön plana çəkilərək bu sahədə inkişaf etmiş ölkələrin modellərindən istifadə edilməlidir [3].

Hesab edirik ki, dünyada turizm sahəsində mütərəqqi inkişaf modellərindən biri Türkiyə turizm modelidir və fikrimizcə, iki ölkə əhalisinin həm mədəni-psixoloji oxşarlığı, həm də coğrafi yaxınlığı nəzərə alınmaqla, ölkəmiz üçün ən uyğun modeldir. 1960-cı ildən 1990-cı ilə qədər əsası qoyulan Türkiyə turizm modelinin əsas məqsədi dünya ölkələri ilə rəqabət edə bilən, dövrün əsas şərtlərinə uyğunlaşa bilən tələblər səviyyəsinə qaldırılmış və bu prosesləri həyata keçirərkən mühit, təbiət, iqtisadiyyat və sosial sistemləri pozmayaraq ölkədəki təbii, tarixi, mədəni irsi və məşğulluq resurslarını ən məhsuldar formada istifadə edə bilən fəaliyyət mexanizmləri hazırlayıb həyata keçirməkdir. Sıfırdan inşa edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üçün həm tarixi, həm də mədəni irsin qorunması və dünya ictimaiyyətinə ən gözəl formasında təqdim olunması isə hazırda ölkəmiz üçün kifayət qədər aktualdır [4].

Turizm sektoru tədiyyə balansının cari hesabında görünməyən ixrac gəliridir. Xarici turistlər sayəsində valyuta axını olduğundan ölkələr üçün əvəzedilməz xarici valyuta mənbəyidir. Turizm sektoruna olan investisiyalar artdıqca bu sektorla əlaqəsi olan digər sahələrdə inkişaf edir və nəticədə dövlətin vergi gəlirləri artır və milli gəlirə müsbət təsir göstərir. Pandemiya şəraiti ilə bağlı olaraq 2020-ci ildə turist sayının azalmasını nəzərə alsaq, ölkəmizin ümumi gəlirində faizlə nisbətdə sadəcə mehmanxana və mehmanxana tipli müəssisələrdən gələn gəlir 0,7 % təşkil etmişdir [5]. Lakin qeyri-neftqaz sektorunun və turizmin inkişafı baxımından hələ ki bu rəqəm çox kiçikdir və onun artırılmasına ehtiyac vardır. Bununla əlaqədar olaraq, qeyd edə bilərik ki, Türkiyənin Azərbaycana həm dini, həm etnik baxımdan yaxınlığını nəzərə alsaq, ölkəmizin bir çox iqtisadi rayonlarında Türkiyə turizm modelindən istifadə ən doğru seçim ola bilər.

İşğaldan azad olunmuş ərazilərin sıfırdan yenidən qurulması prosesi bizə imkan verir ki, burada seçdiyimiz turizm metodunu inkişaf etdirək [6]. Azərbaycanda rəsmi statistikaya görə 2020-ci ildə ölkəmizə gələnlərin 28,1 faizi Rusiya Federasiyası, 24,9 faizi Gürcüstan, 18,1 faizi Türkiyə, 8,3 faizi İran, 2,1 faizi Ukrayna,1,8 faizi Hindistan, 1,7 faizi Səudiyyə Ərəbistanı, 1,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,1 faiz olmaqla Pakistan, Türkmənistan və Qazaxıstan, 1,0 faizi Küveyt, 0,9 faizi Böyük Britaniya, hər birindən 0,7 faiz olmaqla Özbəkistan, İraq və Belarus, 0,6 faizi İsrail, 5,8 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 78,7 faizini kişilər, 21,3 faizini qadınlar təşkil etmişdir. 2021-ci ilin yanvar ayında ölkəmizə gələnlərin 34,1 faizi Rusiya Federasiyası, 28,4 faizi Türkiyə, 13,1 faizi İran, 11,7 faizi Gürcüstan, 2,1 faizi Ukrayna, 1,5 faizi Böyük Britaniya, 1,0 faizi Belarus, hər birindən 0,8 faiz olmaqla Özbəkistan və Türkmənistan, 0,7 faizi Qazaxıstan, 0,6 faizi Almaniya, 0,5 faizi İtaliya, 0,4 faizi ABŞ, 0,3 faizi Fransa, 4,0 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 95,2 faizini kişilər, 4,8 faizini qadınlar təşkil etmişdir. Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin sayı Azərbaycana daxil olan şəxslərin ümumi sayından olduqca azdır. Bu isə özlüyündə Azərbaycana turist axınını təmin etmək üçün gəlmə turizmi ilə məşğul olan turizm şirkətlərinin turist cəlb ediciliyində inkişaf edərək digər ölkələrin turizm şirkətləri ilə daha güclü rəqabətə girmələrini tələb edir. Bundan əlavə, dövlət səviyyəsində ümumi bir turizm strategiyası hazırlanmalı və reallaşdırılmalıdır. Nəticədə ölkə xaricində rəqabətə

tab gətirən və davamlı turist axınını destinasiyaya yönləndirə bilən turizm şirkətlərinin yaranması imkanları artar.

Türkiyə modelindən istifadə etmək üçün öncəliklə onun planlaşdırılmasına, yaranmasına, idarə olunmasına və ən vacibi isə dövlətin turizm siyasətinin təkmilləşdirilməsinə zərurət vardır. Belə ki, Türkiyədə turizm, iş həcminin inkişafında, gəlir əldə edilməsində, valyuta daxilolmalarının təmin edilməsində, məşğulluq imkanlarının yaradılmasında önəmli rol oynayır. Türkiyədə müvafiq nazirliklər, yerli və mərkəzi idarəetmə strukturları, Türkiyə Elmi və Texnoloji Araşdırmalar Təşkilatı, özəl və qeyri-hökumət təşkilatları turizmi gücləndirmək və inkişaf etmiş ölkələrlə rəqabət edə biləcək təsirli bir sektor halına gətirmək üçün əlaqələndirilmiş mexanizmlərlə fəaliyyət göstərirlər [7]. Türkiyə coğrafi mövqeyinə, mədəni-tarixi quruluşuna, təbii sərvətlərinə, fərqli iqlim tiplərini eyni anda olmasına və bir çox sivilizasiyaya ev sahibliyi etməsinə görə yüksək turizm potensialına malik ölkələrdən biridir [8]. Türkiyə çox zəngin tarixi və mədəni irsə malikdir. Bundan əlavə, hər tərəfdən dənizlə əhatə olunması, relyef formalarına və mülayim iqlim qurşağına, dörd fəsli yaşaması, təbii resursları, heyvan və bitki müxtəlifliyinə malik olması kimi amillərinə görə dünyanın ən cəlbedici turizm mərkəzlərindən birinə çevrilmişdir. Təkcə sahil turizmi baxımından deyil, mədəni turizm, termal turizm, sağlamlıq turizmi, qış turizmi, dağlıq turizm kimi turizm növləri baxımından da böyük potensiala malikdir. Türkiyənin ümumi iqtisadi strategiyası xidmət və sənaye sektorlarında tələb və təklifin artırılması istiqamətindədir. Bu səbəbdən də turizm iqtisadiyyatın ümumi məqsədlərinə uyğun olaraq inkişaf edir. Türkiyənin qısa və orta müddətli perspektivdə valyuta resurslarına olan tələbatını sənaye məhsullarının ixracı və ənənəvi kənd təsərrüfatı fəaliyyətləri hesabına tam ödəməsi, şübhəsiz mümkün deyildir [9]. Buna görə də valyuta resurslarının cəlbində önəmli funksiyaları turizm sektoru yerinə yetirmək potensialına malikdir.

İşğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsində həyata keçirilən layihələrdə Türkiyə şirkətləri əsas və həlledici funksiyaları yerinə yetirirlər. İnfrastruktur layihələrinin xüsusilə, nəqliyyat-logistika infrastrukturunun yaradılmasında, ilk növbədə, beynəlxalq hava limanlarının tikilməsində, avtomobil yollarının, mürəkkəb tunellərin çəkilməsində qardaş Türkiyənin təcrübəsindən geniş istifadə olunur. Əvvəldə də qeyd etdik ki, Türkiyə şirkətləri ölkəmizin müxtəlif bölgələrində turizm fəaliyyəti ilə məşğuldurlar. Fikrimizcə, bütün bunların daha mütəşəkkil şəkildə əlaqələndirilməsinə, birgə müəssisələrin yaradılmasına zərurət vardır.

Turizm kifayət qədər çoxfunksiyalı və müxtəlif amillərdən asılı olan dinamik və cəlbedici iqtisadiyyat sahəsidir. Təbiət turizmin inkişafı üçün ölkəmizin əksər regionlarında öz səxavətini əsirgəməmişdir. Görməli və gəzməli yerlər, qədim abidələr, arxitektura nümunələri, zəngin milli mətbəx, minillərdən süzülmüş və təkmilləşdirilmiş, sınaqdan keçmiş adət və ənənələr, tolerantizm, milli azlıqlara hörmət, xeyirxahlıq və qonaqpərvərlik kimi mühüm elementlər ölkəmizin bütün bölgələri üçün xarakterikdir və bu baxımdan turizm sahəsinin inkişaf etdirilməsində Türkiyə təcrübəsindən bəhrələnməyin müsbət nəticələr verəcəyini proqnozlaşdırmaq mümkündür.

## YEKUN

Beləliklə, Türkiyə iqtisadiyyatının mühüm sektorlarından biri olan turizm və bu sahədə cəmləşmiş infrastruktur, mütərəqqi fəaliyyət mexanizmləri və turizmin inkişaf modelləri kompleks şəkildə öyrənilməli və nəzərə alınmalıdır:

- Turizm sektoru Türkiyənin üzləşdiyi iqtisadi böhran və valyuta böhranları zamanı çıxış yolu kimi strateji baxılan bir fəaliyyət sahəsidir;
- Turizm sektorunun inkişafı hesabına hər il Türkiyəyə milyonlarla xarici turistlər gəlir, bu isə iqtisadi gəlirlə yanaşı, həm də ölkənin beynəlxalq səviyyədə imicini artırır;
- Türkiyədə turizm sektorunun intensiv inkişafı iqtisadiyyatın müxtəlif sahələrinə multiplikativ təsir edir, məşğulluğun gücləndirilməsinə, əlavə gəlirlərin əldə olunmasına, regionların və ayrı-ayrı ərazilərin inkişafına müsbət təsir göstərir;
- Azərbaycanda turizmin inkişafında Türkiyə modelinin tətbiq edilməsinin dərinləşdirilməsi üçün ciddi əsaslar vardır, belə ki, son onilliklərdə ölkəmizin müxtəlif bölgələrində Türkiyə sahibkarlarının, firma və şirkətlərinin iştirakı ilə turizm müəssisələrinin yaradılması və inkişaf etdirilməsi prosesləri gedir və s.

**Açar sözlər:** *Türkiyə, Azərbaycan, turizm, rəqabətqabiliyyətlilik, turizm sənayesi, turizm müəssisələri.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Erməni təcavüzü və işğalı nəticəsində Azərbaycanın ətraf mühitinə və təbii sərvətlərinə 265 milyard dollar ziyan dəyib. - 10 Fevral 2016. http://eco.gov.az/az/nazirlik/xeber?newsID=6574.*

*2. İlham Əliyev Vahid Hacıyevi Prezidentin Zəngilan rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. 04 may 2022. https://president.az/az/articles/view/55936.*

*3. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.*

*4. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // Geostrategiya jurnalı, – 2021. № 04 (64), – s.67-72.*

*5. Turizm. ARDSK. https://www.stat.gov.az/source/tourism/*

*6. İSTATİSTİK VERİ PORTALI. https://data.tuik.gov.tr/Kategori/GetKategori?p=ulusal-hesaplar-113.*

*7. Emekli Gözde: "Avrupa Birliği'nde Turizm Politikaları Ve Türkiye'de Kültürel Turizm", Ege Coğrafya Dergisi, C:14, No:1-2, 2005, s.99-107.*

*8. Aslan Ferhat: "Avrupa Birliğinin Turizm Politikası Ve Türkiye Turizm Stratejisi 2023 Üzerine Bir Değerlendirme", Uluslararası Sosyal Araştırmalar Dergisi, C:VII, No:31, 2014, s.427-438.*

*9. Çımat Ali, Bahar Ozan: "Turizm Sektörünün Türkiye Ekonomisi İçindeki Yeri Ve Önemi Üzerine Bir Değerlendirme", Akdeniz İ.İ.B.F. Dergisi, C:VI, 2003, s.1-18.*



**АЛИЕВ Шафа Тифлис оглы,**
***Профессор Сумгаитского Государственного Университета, д.э.н.***
***Руководитель Центра Исследования Экономики Карабаха UNEC***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

**ГУСЕЙНОВ Нихад Рамиз оглу,**
***Докторант Сумгаитского Государственного Университета***
***E-mail: nihadhuseyn@mail.ru***


**РЕЗЮМЕ**


Перспективы применения Турецкой модели в повышении конкурентоспособности туристической индустрии на постконфликтных территориях Азербайджана

В статье рассматриваются актуальные вопросы и перспективы применения Турецкой модели в повышении конкурентоспособности туристической индустрии на постконфликтных территориях Азербайджана в нынешних условиях. Раскрываются прогрессивные формы и методы, модель развития туристической индустрии в Турции. Обосновывается стратегическая важность туристической сферы в экономике Турции в кризисные периоды и в целом. Анализируется потенциал и механизмы деятельности Турецких туристических компаний, обобщается их опыт. Анализирована и обоснована необходимость модернизации и развития туристического сектора в Азербайджане, особенно на освобождённых от оккупации территориях. Рассмотрена эффективность применения Турецкого опыта в интенсификации развития туристического сектора в Азербайджане в ближайшей перспективе.



**Ключевые слова:** *Турция, Азербайджан, туризм, конкурентоспособность, индустрия туризма, туристические предприятия.*



**ALIYEV Shafa Tiflis,**
***Professor at Sumgait State University.***
***Head of the UNEC Centre for Karabakh Economic Research.***
***E-mail: shafa.aliyev@sdu.edu.az***
***ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563***
***E-mail: garabagh.iam@unec.edu.az***

**HUSEYNOV Nihad Ramiz,**
***Doctoral student of Sumgait State University***
***E-mail: nihadhuseyn@mail.ru***


**SUMMARY**


Prospects of application of the Turkish model in increasing the competitiveness of the tourism industry in the post-conflict territories of Azerbaijan

The main issues and prospects of application of the Turkish model in improving the competitiveness of the tourism industry in the post-conflict territories of Azerbaijan in the current conditions are considered in the article. Progressive forms and methods, model of development of tourism industry in Turkey

are revealed. The strategic importance of tourism sphere in the economy of Turkey in crisis periods and in general is substantiated. The potential and mechanisms of activity of Turkish tourist companies are analyzed and their experience is generalized. The necessity of modernization and development of tourism sector in Azerbaijan, especially in the territories liberated from occupation is analyzed. The efficiency of application of Turkish experience in intensification of development of tourist sector in Azerbaijan in the nearest future is considered.

**Keywords:** *Turkey, Azerbaijan, tourism, competitiveness, tourism industry, tourism enterprises.*

UOT: 332:338.012
DOI:10.30546/3006-0346.2024.1.79.113

# POSTKONFLİKT ƏRAZİLƏRDƏ AQRAR SAHƏNİN İNKİŞAF PROBLEMLƏRİ VƏ PERSPEKTİVLƏRİ

**ELDƏNİZ MƏHƏRRƏMOV**
*Azərbaycan Kooperasiya Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru.*
*E-mail: emeherremov79@mail.ru*

Dünya təcrübəsi göstərir ki, postkonflikt ərazilərdə müşahidə olunan əsas proseslərdən biri büdcə resurslarının səfərbər edilməsi və yenidən prioritetləşdirilməsidir. İndiki şəraitdə bu modelin Azərbaycanda istifadəsi daha məqsədəuyğun olacaqdır və bu ərazilərdə aparılan bərpa-quruculuq işləri bunun əyani nümunəsidir. Postkonflikt ölkələrin təcrübəsinə istinadən deyə bilərik ki, makroiqtisadi sabitliyi təmin etmək baxımından yeni iqtisadi inkişaf strategiyasının müəyyən tələblərə cavab verməsi zəruri şərtdir: iqtisadi islahatların mərhələli və ardıcıl reallaşdırılması; prioritet özəl investisiyaların seçilməsi; iqtisadiyyatın bərpasını təmin edən pul və fiskal siyasətin yenidən qurulması; fiskal siyasətin reallaşdırılmasının əsas məqsədi kimi fiskal dayanıqlığın təminatı ilə bərabər bərpa və məşğulluğun maliyyələşdirilməsinin təmin edilməsi; fiziki şəxslər və ev təsərrüfatları üçün bütün növ sosial xidmətlərin bərpası; beynəlxalq yardımların və müxtəlif qrantların idarə edilməsində şəffaf mühitin yaradılması və səmərəliliyin təmin edilməsi; donor koordinasiya mərkəzinin düzgün qurulması; strategiyanın reallaşdırılmasını təmin edən qurumların formalaşdırılması. Qeyd edək ki, II Dünya Müharibəsindən sonra postkonflikt ərazilərdən olan Fransa və İtaliyada iqtisadiyyatın bərpası Marşal planına əsaslanırdı. Bu dövlətlər ölkələrinin prioritet sahələrinin maliyyələşdirilməsini artırmaqla, postkonflikt dövründə uğurlu yenidənqurma siyasəti aparmışlar [1, s.70].

Müasir şəraitdə Azərbaycanın postkonflikt ərazilərin təbii sərvətlərinin, məhsuldar qüvvələrinin və ümumi inkişaf potensialının kompleks istifadəsinin gücləndirilməsi əsas vəzifələrdən biridir. Ölkəmiz tərəfindən həmin ərazilərin inventarizasiyası aparılmaqla potensialını daha tez səfərbər etmək qarşısına strateji vəzifə kimi qoyulub. İşğal olunmuş ərazilərin düşməndən azad edilməsi sayəsində ölkə iqtisadiyyatının qüdrətini gücləndirməklə bərabər, həm də rəqabət qabiliyyətini daha da artıracaq, yüksək texnologiyalı aqrar sənaye sahələri yaradılacaq, iqtisadi artımın davamlı mənbələri formalaşdıracaq və bütün bunlar son nəticə etibarilə milli gəliri artıracaq. Postkonflikt ərazilərin yenidən qurulması və inkişafı ölkə iqtisadiyyatına əlavə töhfə verə bilər. Həmçinin, xarici investisiya da lazımdır, lakin ilk öncə ölkəmiz xüsusilə öz iqtisadi gücünə, maliyyə potensialına diqqət yetirməlidir. Bu ərazilərin səmərəli bərpası ölkə iqtisadiyyatının genişləndirilməsi üçün əlavə resurslar yaradacaq [2, s.255].

Hazırda Azərbaycanın postkonflikt ərazilərində bütün potensialın bərpası, postkonflikt ərazilərin bərpası istiqamətində genişmiqyaslı tədbirlər reallaşdırılır. Həmin ərazilər istər təbii sərvətlər, istərsə də flora və fauna baxımından çox zəngin və məhsuldar ərazilərdir. Bu ərazilərdə 168 qiymətli filiz yatağı və 260 min hektar meşə var ki, bu da ümumilikdə 1,3 milyon hektar ərazi deməkdir. Dünyanın bir çox regionlarının su ehtiyatlarının çatışmazlığı problemi ilə üzləşməsinə baxmayaraq, Azərbaycan üçün Qarabağ ərazisində yerləşən 9 su anbarı və 13 böyük çay böyük önəm daşıyır və respublikanın su ehtiyatlarını və bütün iqtisadi potensialını genişləndirir.

Postkonflikt ərazilərin yenidən qurulmasının müxtəlif istiqamətlər üzrə görülən işlərə gəlincə, bərpa və yenidənqurma işlərinin aparılması məqsədilə ərazilərin minalardan təmizlənməsi aktual və ciddi məsələdir. Çünki 30 ildir ki, erməni vandalları bu torpaqları hərbi sursat və minalarla çirkləndirərək yaşayış və istifadə üçün yararsız hala salıblar. Odur ki, ilk öncə çox vacib məsələ təhlükəsizliyin təmin edilməsidir. Daha sonra dövlət inzibati strukturlarının yaradılması və yenidən qurulmasını özündə ehtiva edən institusional bazanın formalaşdırılmasıdır. Hər kəsə yaxşı məlumdur ki, işğaldan azad edilmiş ərazidə çoxsaylı dövlət strukturları, təşkilatlar, mədəniyyət abidələri, binalar, 900-ə yaxın yaşayış məntəqəsi yerləşirdi ki, müasir dövrdə onların vəziyyətinin ciddi inventarlaşdırılması lazımdır. İşğal zamanı həmin ərazidə bütün infrastruktur demək olar ki, tamamilə məhv edilib. Odur ki, bərpa və yenidənqurma işlərinin aparılması üçün ilk öncə infrastruktur quruculuğu istiqamətində ciddi işlər görülməlidir. Həmçinin, aparılan işlərə maliyyə dəstəyinin göstərilməsi çox vacibdir [3, s.32].

Məlumdur ki, ölkəmizdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri"nin hədəfləri reallaşdırılır. Bu proseslər ölkəmizin qüdrətli dövlətə çevrilmək şanslarını artıracaq və öz milli təhlükəsizliyini, eləcə də iqtisadi təhlükəsizliyimizi əhəmiyyətli dərəcədə gücləndirə biləcək. Beləliklə, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası və inkişaf etdirilməsi də bu baxımdan müsbət qiymətləndirilə bilər. Postkonflikt dövründə real vəziyyətə əsaslanaraq, Azərbaycan yaxın gələcəkdə həmin iqtisadi rayonların dirçəlişinin və inkişafının təmin edilməsini qarşısına məqsəd qoyub. Bu mürəkkəb vəzifəni sürətləndirmək üçün aqrar sahədə də daha əsaslı elmi-iqtisadi yanaşmalar və praktiki mexanizmləri əks etdirən təkliflər hazırlanmalı və diqqətin aşağıdakılara yönəldilməsi səmərəli ola bilər: postkonflikt ərazilərin yüksək kənd təsərrüfatı potensialına əsaslanaraq, yerli tələbatların ödənilməsi və ixracyönümlü məhsul istehsalı baxımından aqrar sənaye parklarının yaradılması [4, s.284]; müxtəlif təyinatlı torpaqların səmərəli istifadəsi və məhsuldarlığının artırılması məqsədilə keyfiyyətli aqrotexniki xidmətlərin göstərilməsi; bitkiçilik və heyvandarlığın inkişaf etdirilməsi; postkonflikt ərazilərdə istehsal olunacaq aqrar sahə məhsullarının vaxtında və daha keyfiyyətlə istehlakçılara çatdırılması üçün nəqliyyat-logistika infrastrukturlarının səmərəli şəkildə təşkili və onların fəaliyyətinin daim təkmilləşdirilməsi; aqrar sahədə risklərin azaldılması üzrə tədbirlərin azaldılması və bu yolla həmin sahənin maliyyələşdirmə mənbəyi kimi investisiya cəlbediciliyinin yüksəldilməsi və s.

Postkonflikt ərazilərdə müxtəlif aqrotexniki xidmətlərin, o cümlədən meliorasiya və su təsərrüfatı sahəsində işlərin yenidən təşkili zəruridir. Bunun üçün meliorasiyaya ehtiyacı olan torpaqların müəyyənləşdirilməsi, su anbarlarının, qurğularının yenidən təşkili, su itkisinin qarşısının alınması, ərazilərin suvarma suyuna və əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə su təchizatı qurğularının qurulması, suvarmada müasir tələblərə uyğun qabaqcıl texnologiyaların tətbiq edilməsi əsas vəzifələrdəndir. Qarabağ və Şərqi Zəngəzurda lizinq xidmətlərinin təşkili, kənd təsərrüfatı texnikası və avadanlıqlarının lizinq əsasında fiziki və hüquqi şəxslərə güzəştli şərtlərlə verilməsi, kənd təsərrüfatı xidmətləri şəbəkəsinin yaradılması da əsas şərtlərdən olmalıdır. Bunlardan əlavə, kənd təsərrüfatının və kənd yerlərinin davamlı inkişafının zəruri şərti kimi kənd təsərrüfatı istehsalçılarının texniki baza və idarəetmə baxımından müasirləşdirilməsi üzrə fəaliyyətlər reallaşdırılmalıdır. Aqrar sektorda müasir texnoloji proseslərdən istifadə bu ərazilərdə yaradılacaq həm kiçik, həm də iri fermer təsərrüfatları üçün sahələrarası əlaqələrin inkişafına, kooperativ strukturların formalaşmasına töhfə verəcəkdir [5, s.55].

Qısa müddət ərzində postkonflikt ərazilərdə təsərrüfatların işə salınması və onların rəvan işləməsi üçün nəqliyyat-logistika infrastrukturlarının formalaşdırılması zəruridir. Logistika infrastrukturuna istehsal olunan məhsulların daşınması və saxlanması, habelə nəqliyyat vasitələrinin giriş-çıxışının təmin edilməsi və yolların təmiri daxil edilməlidir. Həmçinin postkonflikt ərazilərin resurs potensialını nəzərə alaraq, burada müxtəlif çeşidli kənd təsərrüfatı məhsullarının qəbulu məntəqələrinin yaradılması nəqliyyat-logistika infrastrukturu baxımından da önəmli rola malikdir [6, s.30]. Postkonflikt ərazilərin rəqabətqabiliyyətliliyi onun təhlükəsizliyini və inkişaf imkanlarını müəyyənləşdirildiyindən, nəqliyyat-logistika infrastrukturunun təkmilləşdirilməsi həmin ərazilərin əhalisinin həyat yaşayışının yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılmasına imkan verən əsas vəzifə olmalıdır.

Məlumdur ki, aqrar sahədə innovasiyaların tətbiqi yüksək investisiya tələb edən sahələrdən biridir. Postkonflikt ərazilərdə aqrar sektorun dayanıqlı inkişafı məhz innovativ texnologiyanın tətbiqi ilə mümkündür. Bu baxımdan, kənd təsərrüfatı məhsulları kontekstində innovativ texnologiyanın tətbiqinin artırılması mümkündür. Postkonflikt ərazilərin aqrar sektorunda innovasiyaların tətbiqinin gücləndirilməsini stimullaşdırmaq məqsədəuyğundur. Həmin ərazilərdə aqrar sahənin inkişafı məqsədilə dövlət, tədqiqatçılar və özəl sektor araşdırmalar aparmaq üçün vahid məkanın yaradılması da zəruridir. İnnovasiya parkları aqrar sahənin iqtisadi inkişafı üçün belə məkan ola bilər [7, s.19].

Aqrar sahədə qeyri-müəyyənlik və risk faktorları arasında kifayət qədər sıx əlaqə mövcuddur. Digər tərəfdən, aqrar sahədə innovativ inkişaf riskli fəaliyyət tələb edir. Bu səbəbə görə banklar burada innovativ inkişaf layihələrinə investisiya qoymaqdan çəkinirlər. Araşdırmalar həqiqətən də bankların çox vaxt yüksək qeyri-müəyyənlik və nisbətən aşağı mənfəət səbəbindən innovativ layihələri maliyyələşdirməkdən imtina etdiklərini göstərir [8, s.43]. Bu və ya digər amillər bankları postkonflikt ərazilərə kredit verməkdən çəkindirir. Odur ki, həmin ərazilərdə bütün növ risklərin azaldılması zəruridir.

Postkonflikt ərazilərdə reallaşdırılan bərpa və yenidənqurma layihələri, iqtisadi dirçəliş problemlərinin həlli, çevik idarəetmə və təhlükəsizliyin təmin edilməsi, sosial xidmətlərin təşkili, müasir infrastrukturun qurulması və s. kimi mərhələləri əhatə edir. Postkonflikt ərazilərin yenidən qurulması prosesində bir sıra mühüm məqamlara diqqət yetirilməlidir. Əsasən də əhalinin yüksək sıxlığına nail olmaq, infrastruktur təminatını həmin ərazilərin davamlı logistika imkanlarına uyğunlaşdırmaq, iqtisadi inkişafın davamlılığını təmin etmək, tələb olunan vəsaitlərin həcmini optimallaşdırmaq, bərpa prosesinə özəl, eləcə də yerli və xarici investisiyaları cəlb etmək və beləliklə, ölkə iqtisadiyyatının artımını stimullaşdırmaq vacibdir [9].

Postkonflikt ərazilərin əhəmiyyətli hissəsini dağ meşə zonaları və otlaq üçün əlverişli ərazilər təşkil edir. Bunlar ət və süd məhsullarının istehsalına ciddi imkanlar yaradır. Xüsusilə yaxın illərdə postkonflikt ərazilərdə heyvandarlıq müəssisələrinin formalaşmasını müşahidə edə bilərik ki, bu da müəyyən vaxt tələb edir. Çünki, bu ərazilərin tamamilə minalardan təmizlənməsi və bununla bağlı yaranan risklərin aradan qaldırılması prioritet məsələlərdəndir. Çox güman ki, yaxın illərdə Azərbaycan ət və süd məhsullarına olan tələbatını artıq orada formalaşmış heyvandarlıq təsərrüfatları hesabına ödəmək imkanı əldə edə biləcəkdir [10].

Resurs potensialından istifadənin səmərəliliyinin artırılması perspektivləri sənayenin daimi innovativ inkişafı, məhsulların rəqabət qabiliyyətinin artırılması, resurs vahidinin gəlirliyinin artması ilə əlaqədardır. Bunun üçün ETT-nin nailiyyətlərini tətbiq etmək və istehsal proseslərini təkmilləşdirmək yolu ilə müəyyən növ ehtiyatlardan istifadənin səmərəliliyini artırmaq lazımdır. Resurs potensialının elə balansına nail olmaq lazımdır ki, bu da maksimum məhsul əldə etməyə imkan versin. Səmərəliliyin artırılması üçün uzunmüddətli perspektivli istiqamət məhsul satışının, o cümlədən ixracın genişləndirilməsidir. Ümumiyyətlə, hazırda dünyada əhalinin daimi artımı ilə əlaqədar olaraq aqrar-ərzaq kompleksinin məhsullarına tələbat artır ki, bu da istehsalın dəfələrlə artırılmasını tələb edir [11, s.162].

Aqrar sahə potensialının bərpası və inkişaf etdirilməsi müasir dövrdə reallaşdırılan iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. Yeni texnologiyaların, müasir avadanlıqların, maliyyə resurslarının, dövlət tənzimlənməsinin effektiv mexanizminin olması ölkənin aqrar sektorunda islahatlar prosesini xeyli sürətləndirə bilir. Bu şəraitdə kənd təsərrüfatı müəssisələrinin inkişafı strategiyasının məqsədi resurs potensialından səmərəli istifadəni və məhsulların rəqabət qabiliyyətini artırmaqla kənd təsərrüfatı məhsullarının artım tempini sürətləndirmək, kənd yerlərinin sosial problemlərini həll etməkdən ibarətdir [12, s.201].

Ölkəmizlə dostluq əlaqələri olan xarici şirkətlər postkonflikt ərazilərdə genişmiqyaslı tikinti-bərpa prosesində fəal iştirak edirlər. Şübhəsiz ki, postkonflikt ərazilərin bərpası regionda iqtisadi və siyasi əməkdaşlığın daha da güclənməsinə təkan verəcək ki, bu da təkcə Azərbaycanın deyil, bütövlükdə regionun iqtisadiyyatı üçün böyük önəm daşıyır. Prezident İlham Əliyev dəfələrlə çıxışlarında Azərbaycanın postkonflikt ərazilərinin inkişafı ilə bağlı böyük planların olduğunu, bu torpaqların işğaldan azad olunduqdan sonra tezliklə bərpa olunacağını, Qarabağ bölgəsində cənnət məkanının yaradılacağını bəyan edib. Artıq həmin ərazilərdə genişmiqyaslı bərpa işlərinə başlanılmış, bu məqsədlə ilkin mərhələdə, yəni 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdır. Eyni zamanda bu ərazilərdə bərpa, quruculuq və abadlıq işlərinin aparılması, o cümlədən təhlükəsizliyin, əhalinin güzəranının, səmərəli iqtisadi tədbirlərin və rifahın təmin edilməsi məqsədilə Qarabağın Dirçəliş Fondu yaradılıb. Azərbaycan hökuməti bərpa işlərində smart texnologiyalardan da istifadəyə üstünlük verməyə başlayıb. "Ağıllı" şəhər və "ağıllı" kənd konsepsiyalarının reallaşdırılması istiqamətində tədbirlər görülür və bütün bölgədə bu proseslərin sürətləndirilməsi əsas prioritetlərdəndir. Ötən illərdə 280 min hektardan çox meşə, 1 milyon hektara yaxın münbit torpaq, o cümlədən 128 min hektara yaxın suvarılan torpaq, 35 min hektara yaxın üzüm və meyvə bağları, 1200 kilometrdən çox suvarma sistemləri istismara verilmişdir. Ermənilərin nəzarəti altında beş rayonda 120 min hektardan çox əkin sahəsi suvarılmamış və praktiki olaraq istifadə edilməmiş qalıb. Əvvəllər bu ərazilər Azərbaycanın kənd təsərrüfatı istehsalının təxminən 35%-ni təşkil edirdi. Ərazilərimizin işğaldan azad edilməsi Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunmasına da mühüm töhfə olacaq. Xüsusilə, ölkənin heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi xeyli yüksələcək. Ekspertlərin hesablamalarına görə, işğaldan azad edilmiş ərazilərdə təsərrüfat fəaliyyəti bərpa olunduqdan sonra biz özümüzü bu məhsullarla tam

təmin edə biləcəyik. Eyni zamanda, Azərbaycanda taxılla özünütəminetmə səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur. Rəsmi statistikaya görə, sovetlər dövründə təkcə Qubadlı rayonunun iqtisadiyyatının əsasını üzümçülük, taxılçılıq, tütünçülük, heyvandarlıq və baramaçılıq təşkil edirdi. Rayonda il ərzində istehsal həcmi aşağıdakı kimi təşkil edirdi: tütün - 2 min ton, taxıl - təxminən 15 min tona yaxın, heyvan yemi - 12 min ton, ət - 1,2 min ton və süd məhsulları - 2 min ton [13, s.88]. Hər il dövlətə orta hesabla 3 min ton üzüm tədarük edilirdi. Rayonda kənd təsərrüfatı istehsalı sahələrindən biri də baramaçılıq olub. Rayonun ixtisaslaşmış təsərrüfatları ildə 60-70 ton barama istehsal edirdi. 1960-cı illərə qədər ərazidə o dövrdə məşhur olan düyü sortları yetişdirən düyü təsərrüfatları var idi.

Hazırda həmin ərazilərin tam bərpası üçün burada yenidənqurma və modernləşdirmə işləri görülməlidir. Postkonflikt ərazilərdə aqrar sahənin modernləşdirilməsi sistemli əsasda, innovasiyaya əsaslanaraq sənayenin rəqabət qabiliyyətinin, ixrac potensialının artırılmasına, kənd təsərrüfatı sənayesinin infrastrukturunun inkişafına yönəldilməlidir.

Hesab edirik ki, biliklərə əsaslanan iqtisadiyyatın inkişafı kontekstində, aqrar sektorun modernləşdirilməsi innovasiyaların və biznes inkubatorların bir qrup vasitələrlə inkişafını zəruri edir: kənd təsərrüfatı innovasiyalarının transferi üçün mərkəzlər şəbəkəsinin inkişafı və qlobal inteqrasiyası; aqrar sektorda vençur fondlarının yaradılması və inkişafı; kənd təsərrüfatı innovasiya klasterlərinin yaradılması və inkişafı üzrə dövlət mexanizminin formalaşdırılması; kənd təsərrüfatı innovasiyalarının dəstəklənməsi və vahid innovasiya sisteminin yaradılması və s [14, s.805].

## Yekun

Beləliklə, ölkəmizdə postkonflikt ərazilərin yenidənqurulması strategiyasının reallaşdırılması məqsədilə idarəetmənin təşkili və dövlət siyasətinin müxtəlif alətlərindən daha fəal şəkildə istifadə etmək tələb olunur və bunlarla bağlı bir qrup amillərin nəzərə alınması vacibdir:

- Postkonflikt ərazilərdə yenidənqurma modelinin qurulmasında ölkəmizin milli və iqtisadi maraqları nəzərə alınmalı, ənənəvi iqtisadiyyat sahələrindən olan aqrar sahənin inkişafının prioritetliyi diqqət mərkəzində saxlanılmalıdır;
- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sektorun meyvəçilik, tərəvəzçilik, taxılçılıq, pambıqçılıq, üzümçülük, heyvandarlıq, arıçılıq və quşçuluq məhsullarının istehsalı sahələrinin inkişafına daha çox üstünlük verilməsi səmərəli ola bilər və s.

**Açar sözlər:** *postkonflikt ərazilər, Qarabağ, Şərqi Zəngəzur, aqrar sahə, aqrar sahənin inkişaf problemləri, aqrar sahənin inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Гасымлы, В. Карабах и Восточный Зангезур будут новым драйвером экономического роста в Азербайджане / В. Гасымлы // Интерактивная наука. – 2022. – № 3(68). – С. 69-70.*

*2. Əliyev Ş.T. Qarabağ regionunda bərpa və dirçəliş proseslərinin aktual aspektləri. "Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər" mövzusunda Respublika elmi konfransın materialları. Sumqayıt. 22-23 aprel 2021, №2, s.253-256.*

*3. Musayev A.F. İşğaldan azad olmuş ərazilərin bərpası: mövcud vəziyyət və effektiv məskunlaşdırma. "Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər" mövzusunda I Beynəlxalq elmi konfransın materialları. Mingəçevir Dövlət Universiteti, 10-11 dekabr 2021-ci il, s.31-36.*

*4. Алиев, Ш. Т. Актуальные проблемы и объективные реалии мирового опыта в восстановлении освобожденных от оккупации территорий / Ш. Т. Алиев, Л. А. Меликова // Развитие науки и практики в глобально меняющемся мире в условиях рисков: сборник материалов IX Международной научно-практической конференции, Москва, 28 марта 2022. – С. 277-286.*

*5. İbrahimov İ.H. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin perspektiv inkişaf istiqamətləri. Audit, 2021, 1 (31), s.49-59.*

*6. Fikrətzadə F.F., Hacıyeva S.İ. işğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34), s.23-37.*

*7. Fikrətzadə F.F., Babayeva V.M. Azərbaycanda kənd təsərrüfatı innovasiyalarının tətbiqinin stimullaşdırılması. Kənd təsərrüfatının iqtisadiyyatı, 2022, № 4 (42), s.9-24.*

*8. İbrahimov M.F. innovasiyalı inkişafın investi-*

*siya təminatı: aqrar-sənaye sahələrinin xüsusiyyətləri. Kənd təsərrüfatının iqtisadiyyatı, 2022, № 2 (40), s.42-50.*

*9. Post-konflikt ərazilərin bərpası və yenidən qurulmasına dair müzakirələr aaaparılıb. https://science.gov.az/az/news/open/17115/*

*10. Azad edilən torpaqların aqroturizm və ixrac potensialı. https://musavat.com/news/azad-edilen-torpaqlarin-aqroturizm-ve-ixrac-potensiali_802624.html.*

*11. Потапов, А. П. Оценка перспектив формирования и использования ресурсного потенциала аграрного производства / А. П. Потапов // . – 2021. – № 1. – С. 160-163.*

*12. Давыдкина, О. А. Ресурсный потенциал как фактор повышения конкурентоспобности аграрного производства региона / О. А. Давыдкина // . – 2013. – № 11-1. – С. 201-204.*

*13. Рустамов, Ф. В. Аграрный потенциал и перспективы развития освобожденных территорий Азербайджана / Ф. В. Рустамов // Аграрная экономика. – 2022. – № 4(323). – С. 88-96.*

*14. Гусейнова С.Г. Основные направления модернизации аграрной отрасли в Азербайджане. Экономические отношения журнал, том 9, № 2, Апрель–июнь, 2019, с.796-809.*

**МАГЕРРАМОВ Эльдениз Мазахир оглы,**
***Доктор философии по экономике, доцент Азербайджанского Университета Кооперации,***
***E-mail: emeherremov79@mail.ru***

## РЕЗЮМЕ

**Проблемы и перспективы развития аграрной сферы на постконфликтных территориях**

В статье исследованы проблемы и перспективы развития аграрной сферы на постконфликтных территориях. Анализирован и обобщён мировой опыт и подходы по организации восстановления и развития постконфликтных территорий. Рассмотрены важнейшие аспекты и направления восстановления разрушенных территорий с учётом особенностей регионов. Отмечена необходимость учёта национальных традиций земледелия при формировании структуры экономики на постконфликтных территориях. Анализирован ресурсный потенциал отдельных территорий и районов по развитию аграрного сектора и его направлений. Подготовлены предложения и рекомендации по решению проблем и эффективной реализации перспективных направлений деятельности по развитию аграрной сферы на постконфликтных территориях Азербайджана.

**Ключевые слова:** *постконфликтные территории, Карабах, Восточный Зангезур, аграрная сфера, проблемы развития аграрной сферы, перспективы развития аграрной сферы.*

**MAHARRAMOV Eldaniz Mazahir**
***PhD in economics, Associate professor of Azerbaijan University of Cooperation,***
***E-mail: emeherremov79@mail.ru***

## SUMMARY

**Problems and prospects of development of agrarian sphere in post-conflict territories**

The problems and prospects of development of agrarian sphere in post-conflict territories are studied in the article. The world experience and approaches to the organization of reconstruction and development of post-conflict territories are analyzed. The most important aspects and directions of restoration of the destroyed territories taking into account the peculiarities of the regions are considered. The necessity of national traditions of farming in the formation of the economic structure in post-conflict territories is noted. The resource potential of individual territories and districts for the development of the agrarian sector and its directions is generalized. Proposals and recommendations on solving problems and effective realization of perspective directions of activity on development of agrarian sphere in post-conflict territories of Azerbaijan have been prepared.

**Key words:** *post-conflict territories, Karabakh, East Zangezur, agrarian sphere, problems of development of agrarian sphere, prospects of development of agrarian sphere.*

UOT: 33
DOI:10.30546/3006-0346.2024.1.79.118

# AZƏRBAYCANDA ŞİRKƏTLƏRİN RƏQABƏT İMKANLARININ ARTIRILMASINDA BİZNES PROSESLƏRİN AUTSORSİNQİNDƏN İSTİFADƏ VƏZİYYƏTİNİN TƏHLİLİ

**ELŞAD YUSİFOV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, i.ü.f.d., dosent*
*ORCİD ID: 0000-0003-1946-2937*
*E mail: elshad.yusifov@azmiu.edu.az*

**RƏŞAD EYNULLAYEV**
*Bakı Avrasiya Universiteti, magistrant*
*ORCİD ID: 0009-0006-1134-6455*
*E mail: resadeynullayev2000@gmail.com*

## Giriş

İstər ölkə iqtisadiyyatında, istərsə də beynəlxalq iqtisadi münasibətlərdə rəqabət artdıqca, hər bir şirkət mənfəətlilik göstəricilərini azaltmadan rəqabət üstünlüklərini yüksəltməyin yollarını müəyyənləşdirməyə davam edir. Şirkətlər miqyasından, eləcə də fəaliyyətinin xarakterindən asılı olmayaraq istehsal və xidmətlər təqdim edilməsi ilə əlaqədar işlərini müasir texnologiyalar əsasında qurmağa üstünlük verir, lakin həm də bu strategiya üzərində dayanmağın çox səy, risk və xərc tələb etdiyini dərk edirlər. Buna görə də şirkətlər qarşısında qoyduqları müvafiq tapşırıqlar və əməliyyatlarla əlaqəli riskləri və xərcləri minimumlaşdırmaq məqsədilə müxtəlif bazar iştirakçıları, yəni xidmət təklif edənlər tərəfindən təqdim olunan ixtisaslaşmış xidmətlərdən faydalanmaq niyyətlərini reallaşdırırlar. Şirkətlərin autsorsinqdən istifadəni cəlbedici alternativ kimi qəbul etməsinin əsas səbəbi də əsas fəaliyyət istiqaməti üzrə ixtisaslaşma və rəqabət mübarizəsində üstünlük əldə edilməsi məqsədidir. Qeyd etmək lazımdır ki, autsorsinqdə şirkət xarici təchizatçıya özünəməxsus bəzi əməliyyatları və funksiyaları yerinə yetirmək üçün məsuliyyət götürməyə icazə verməyə qərar verir. Kənar xidmət təchizatçıları şirkətin xidmətlərinin səmərəliliyini yüksəldir və bu da rentabelliyin artmasına gətirib çıxarır. Çünki, şirkət fəaliyyətin səmərəliliyinin artmasına səbəb olacaq təşkilati əməliyyatların nəticələrindən əldə edilən faydanı artırmaq üçün bir vasitə kimi autsorsinqdən istifadə etməyi seçir.

Azərbaycanda iqtisadi subyektlərin fəaliyyətinin səmərəliliyinin artırılması makroiqtisadi səviyyədə islahatların aparılması ilə nəzərdə tutulmuşdur. Lakin şirkətlərin özləri dövlətin iqtisadi siyasətinin təqdim etdiyi faydalardan yararlanmaqla öz fəaliyyət strategiyalarını təkmilləşdirməlidir. Təkmilləşdirmə dedikdə, həm maddi-texniki bazanın, həm insan resurslarının, həm də idarəetmə bacarıqlarının müasir standartların tələblərinə uyğunlaşdırılması nəzərdə tutulur. Ölkədə həyata keçirilən islahatlar, vergi, maliyyə və əmək qanunvericiliyində baş verən mütəmadi dəyişikliklər şirkətlərin müvafiq dəyişikliklərə uyğunlaşmasını tələb edir. Hesabatlarda gecikmə və yalnışlığa yol verilməsi əlavə xərc və sanksiyalarla nəticələnə bilər, bundan başqa dəyişikliklərə uyğunlaşma şirkətlərdən əsas fəaliyyət istiqaməti üzrə resursların tam səfərbər olunmasının qarşısını ala bilər. Bu baxımdan şirkətlər minimum olaraq məsləhət xidmətlərinə müraciət etməli, fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı kənar iqtisadi subyektlərin xidmətlərindən yararlanmalıdır.

Ümumiyyətlə, Azərbaycanda son illərdə autsorsinq xidmətləri bazarında müşahidə olunan inkişaf tendensiyaları, həmçinin bu bazarın tənzimlənməsi ilə bağlı məsələlərin də aktuallığını artırır. Buna görə də, ilk növbədə, şirkətlərin rəqabət qabiliyyətlərini yüksəltməsi məqsədilə autsorsinqdən istifadə məsələlərinin tədqiq edilməsi autsorsinq fəaliyyətinin də keyfiyyətinin yüksəldilməsini nəzərdə tutmalıdır.

## Rəqabətin hərəkətverici amili kimi biznes proseslərin autsorsinqinin təşəkkülü

Beynəlxalq iqtisadi əlaqələrin təşkilində mühüm rola malik şirkətlərin müasir fəaliyyətinin yenidən qurulmasının müasir formalarından biri autsorsinqdir. Şirkətlərarası autsorsinq xidmətləri sürətli transformasiyalara məruz qalan sferalarda formalaşır. Autsorsinq xidmətləri göstərən şirkətlərin yaradılması fərqli ixtisaslaşma istiqamətlərini seçməyə və müxtəlif sahələrin inkişafı məqsədilə zəruri hesab olunan əlaqələr qurmağa imkan verir. Bu əlaqələrin dərinliyi xarici mühitdəki dəyişikliklərə dərhal uyğunlaşmağa, şirkətin davamlı rəqabət qabiliyyətini təmin etməyə imkan verir.

İqtisadi inkişafın intensivləşdirilməsi məqsədi ilə

autsorsinqdən istifadə edilməsi Azərbaycanda son illərdə daha çox müşahidə olunur. Bu fəaliyyətə, xüsusilə maliyyə və mühasibatlıq, kadr kargüzarlığı, məsləhət, eləcə də informasiya kommunikasiya texnologiyaları sahəsində xidmətlərinin göstərilməsi kimi sahələrdə daha çox rast gəlinir. Lakin şirkətlərin makroiqtisadi inkişafda rolunun artırılması aspektindən autsorsinqdən istifadə etməsində xarici təcrübənin müsbət göstəricilərindən yararlanmasında fayda var.

Müasir iqtisadi subyektlər tərəfindən autsorsinqdən istifadə edilməsi, o cümlədən sənaye əməkdaşlığı metodu və sənayedə yüksək idarəetmə texnologiyası kimi praktiki tətbiqi “Ford Motors Company” və “General Motors Company” şirkətləri tərəfindən ciddi rəqabət mübarizəsində müşahidə olunmuşdur. Autsorsinqdən istifadənin inkişafında ciddi irəliləyiş iyirminci əsrin 70-ci illərdən başlayaraq qeydə alınmışdır. Xüsusilə, avtomobil sənayesində, eləcə də getdikcə digər növ məhsulların istehsalında biznes proseslərin autsorsinqi müvafiq sahələrin təşkili və modernləşdirilməsi üçün əsas olur [5, s. 107-108].

Termin olaraq biznes proseslərlə bağlı “autsorsinq” sözünü 1989-cu ildə ilk dəfə “Eastman Kodak” şirkəti istifadə etmişdir. İnformasiya texnologiyaları sahəsində xidmətlərini digər şirkətə verməklə müvafiq sahədə daha keyfiyyətli nailiyyətlər əldə etmişdir [3].

Ümumiyyətlə, biznes proseslərin autsorsinqinin qısa da olsa, sürətli inkişafa malik olan inkişaf tendensiyası mövcuddur. Beynəlxalq təcrübədə, autsorsinq xidmətlərinin müxtəlif növləri mövcuddur. Aşağıda müxtəlif sahələr üzrə autsorsinq xidmətlərinin istifadə olunması təqdim olunur (cədvəl 1).

**Cədvəl 1**

**Beynəlxalq təcrübədə istifadə olunan autsorsinq xidmət sahələri**

| İnformasiya texnologiyaları | Biznes proseslərinin menecmenti | Xidmət sferaları | İstehsal sferaları |
|---|---|---|---|
| Proqram təminatı | Maliyyə və mühasibatlıq | Kargüzarlıq xidmətləri | Əsas istehsalat |
| | HR idarəetmə | Ticari xidmətlər | |
| | Marketinqin idarə olunması | Sosial xidmətlər | |
| Şəbəkə xidmətləri | Reklamın təşkili | Nəqliyyat xidmətləri | Köməkçi istehsalar |
| | Logistik fəaliyyətin təşkili | | |

***Mənbə:** müəllif tərəfindən hazırlanmışdır.*

Daha çox proses yönümlü autsorsinq kimi tanınan müəyyən bir tapşırıq və ya daxili prosedura xas olan autsorsinq prosesləri var. Sənayedə müəyyən bir xidmət üzrə ixtisaslaşmış xarici bir xidmət təminatçısı ilə müqavilə bağlamaq adi hala çevrilmişdir.

Beynəlxalq logistika sahəsində autsorsinq strategiyası yalnız ticarətlə məşğul olan dövlətlərin maraqlarını yox, o cümlədən, logistik autsorsinq əməliyyatlarının həyata keçirildiyi dövlətin də maraqlarını əhatə edir [2, s. 19].

Pərakəndə xidmət çatdırılma xidmətlərini, xüsusən də beynəlxalq nəqliyyat sahəsində müəyyən bir şirkətə verə bilər. Bu tip autsorsinq metodu adətən çatdırılma vaxtı, məhsulun dəyəri və müştəri əlaqələri kimi detalları ehtiva edən çox ətraflı müqavilə təmin edir. Xüsusi proses yönümlü autsorsinq şirkətlərə təkcə xərcləri azaltmaq deyil, həm də müştərilərin sifarişlərini yerinə yetirmək üçün adətən lazım olan vaxta qənaət etməklə əsas biznes funksiyalarına daha çox diqqət yetirmək imkanı verir.

## Azərbaycanda biznes proseslərin autsorsinqinin tətbiqi istiqamətləri

Tədqiqatlar göstərir ki, bazar iştirakçılarının əksəriyyəti risklərin bölüşdürülməsinin, əməliyyat və işə qəbul, nəzarət və yoxlama, o cümlədən sürətli çatdırılma kimi xərclərin azaldılmasını autsorsinqin üstünlükləri içərisində ən vacib amillər olaraq qeyd edirlər və diqqətin, eləcə də resursların əsas biznes proseslərin reallaşdırılmasına ayırmaq imkanı qazanırlar. Bundan əlavə, üstünlüklərlə yanaşı autsorsinqin əsas çatışmazlıqlarının çoxsaylı gizli xərclər, qeyri-kafi xidmət səviyyəsi, kommersiya sirri mahiyyəti daşıyan məlumatların və texnologiyaların açıqlanması riski və sifarişçi ilə xidmət yerinə yetirən arasında nəticələrin uyğunlaşdırılması arasında olduğunu qəbul edirlər.

Özünəməxsus təsnifat növlərinə malik olan autsorsinq əsasən istehsal və biznes prosesləri, o cümlədən informasiya texnologiyaları sahəsində autsorsinq xidmətlərinə bölünür. Praktikada mövcud olan hallara uyğun olaraq biznes proseslərin autsorsinqi müvafiq olaraq ilk öncə İT xidmətlərinin autsorsinqi ilə başlayır. İT ilə əlaqəli biznes proseslərin autsorsinqə verilməsi çoxsaylı sahələrdə ixtisaslaşan şirkətlərə tamamilə, yaxud da hissəvi olaraq verilə bilər. Ümumi olaraq elektron xidmətlərə olan tələblər dövlətin informasiya və biliklər sisteminin mübadilə edilməsi və keyfiyyətinin yüksəlməsini özündə

ehtiva edir. Bu amil İT sferasında bacarıqlı kadrların çatışmazlığını və dövlət orqanlarını nəzərə aldıqda, kadr ehtiyacına ciddi tələb olduğunu deməyə əsas verir. Autsorsinqdən istifadə konsepsiyası müvafiq çatışmazlıqların aradan qaldırılmasında istifadə olunur [1, s. 66]. Autsorsinq xidmətlərinin təqdim edilməsi sahəsində Azərbaycanda çoxsaylı özəl şirkətlərlə yanaşı İqtisadiyyat Nazirliyinin tabeliyində İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi (İTMİM) fəaliyyət göstərir. Mərkəz sxem 1-də göstərilən istiqamətlərdə xidmətlər təqdim edir.

**Sxem 1. İTMİM tərəfindən təqdim olunan autsorsinq xidmətinin istiqamətləri**

| İnformasiya texnologiyaları | Biznes proseslərinin menecmenti | Xidmət sferaları | İstehsal sferaları |
|---|---|---|---|
| Proqram təminatı | Maliyyə və mühasibatlıq | Kargüzarlıq xidmətləri | Əsas istehsalat |
| | HR idarəetmə | Ticari xidmətlər | |
| | Marketinqin idarə olunması | Sosial xidmətlər | |
| Şəbəkə xidmətləri | Reklamın təşkili | Nəqliyyat xidmətləri | Köməkçi istehsalar |
| | Logistik fəaliyyətin təşkili | | |

**Mənbə:** *[6] məlumatına əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Sxemdə göstərilənlərlə yanaşı Mərkəzin ixtisaslı kadrları müxtəlif tipli şəbəkələrin layihələndirilməsini də icra edirlər. Həmçinin sxemlərin hazırlanması və texniki avadanlıqların işlək vəziyyətə gətirilməsi, eləcə də sınaqların aparılması ilə yerinə yetirilir [6].

İstehsal fəaliyyəti ilə əlaqədar proseslərin autsorsinq şirkətlərinə ötürülməsi yeni növ əmtəə və xidmətlərin formalaşdırılması istiqamətində resursları cəlb etməyə, öz məhsuldarlığını yüksəltməyə, təkmilləşdirmə fəaliyyətini icra etməyə imkan yaradır. Müasir dövrdə şirkətlərin həyata keçirdiyi istehsal fəaliyyəti daha çox innovativliyi ilə fərqlənir [4, s. 991]. Əmtəə və xidmətlərin çeşidlərinin artması istehlakçıların tələblərinin çoxluğu ilə əlaqədar müşahidə olunur. Bu da, öz növbəsində həm yeni konyunktura ilə bağlı istehsal autsorsinqinin tətbiq olunmasını da şərtləndirə bilər. İstehsalla bağlı olmayan və şirkətdə yaradıcılıq tələb edən müxtəlif biznes-proseslərin autsorsinqi isə başqa şirkətlərə ötürülməklə reallaşdırıla bilər. Bura aşağıdakılar aid edilə bilər:

- işçi heyətinin idarə edilməsi;
- maliyyə və mühasibatlıq məsələlərinin həlli;
- marketinq fəaliyyəti və reklam işinin təşkili;
- nəqliyyat – logistika fəaliyyəti.

**Azərbaycanda rəqabətin yüksəldilməsi məqsədilə autsorsinqin təkmilləşdirilməsi**

Azərbaycanda da, bütün dünyada olduğu kimi autsorsinqdən istifadə bazarda fəaliyyət göstərən şirkətlərin rəqabət mövqelərini yaxşılaşdırmaq üçün həyata keçirdikləri fəaliyyətlərin daimi hissəsinə çevrilmişdir. Lakin bu, təkcə xərcləri minimumlaşdırmaq məqsədi daşımır. Davamlı təzyiq və rəqabətin mövcud olduğu müasir qlobal iqtisadiyyatda autsorsinq şirkətlərin rəqabət mövqelərini yaxşılaşdırmaq üçün həyata keçirdikləri fəaliyyətlərin tərkib hissəsinə çevrilmişdir. Bu, ən çox şirkətlərin biznes proseslərin autsorsinqindən istifadə etməklə əldə etdikləri iki əsas üstünlükdə ifadə olunur:

1. əsas işlərə daha çox diqqət ayırmaq;
2. əməliyyat məsrəflərini minimuma endirmək.

Xüsusilə, qeyd olunan üstünlüklərdən birincisi rəqabət qabiliyyətinin əhəmiyyətli dərəcədə artmasına səbəb ola bilər. Autsors xidmətlər təqdim edən şirkətlərin fəaliyyətinin təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi üçün, bir tərəfdən aidiyyatı dövlət qurumu tərəfindən həm tənzimləyici çərçivə formalaşdırılmalı, həm şirkətlərin özləri xidmətlərin göstərilməsi üçün bağlanmış müqavilələrə ciddi riayət etməlidirlər. Digər tərəfdən isə, autsorsinq xidmətləri bazarının genişləndirilməsi üçün bir sıra layihələrin reallaşdırılması lazımdır. Qeyd olunanları həyata keçirmək üçün bir sıra tədbirlər icra olunmalıdır:

- autsorsinq bazarının tənzimlənməsi qaydalarının işlənib hazırlanması;
- autsorsinq xidmətləri göstərən şirkətlər müəyyən mənada bazar iştirakçılarının fəaliyyətinə istiqamət verdiyindən və şirkətlərə təsir imkanları yüksək olduğundan onlara nəzarət mexanizminin formalaşdırılması;
- autsorsinq xidmətləri təqdim edənlər yeni peşəkar kadrların hazırlanması, müasir avadanlıq və proqram təminatının alınması;
- göstərilən xidmətlərin beynəlxalq təcrübədəki kimi çeşidinin, o cümlədən keyfiyyətinin yüksəldilməsi;
- inkişaf məqsədilə ölkədən kənarda müştəri bazasını genişləndirməyə cəhdlərin edilməsi;

- fəaliyyəti sadələşdirmək məqsədilə rəqəmsal texnologiya və süni intellektin imkanlarının tətbiq olunması;

- autsorsinq şirkətlərində müştərilərin kommersiya sirlərinin qorunması və haqsız rəqabətin qarşısının alınması üçün işçilərin stimullaşdırılması.

**Nəticə**

Müasir iqtisadi subyektlər tərəfindən ticari-iqtisadi əlaqələrin qurulmasında istifadə olunan üsullar onların fəaliyyətinə əhəmiyyətli təzyiq yaradır. Yalnız rəqabət mübarizəsində qalib gələn və nisbi uğur qazanan şirkətlər biznes fəaliyyətini ən səmərəli şəkildə təşkil edir, yüksək keyfiyyətli əmtəə və xidmətlər istehsal edir, eləcə də bu zaman daha aşağı əməliyyat məsrəflərinə nail olur. Ölkəmizin iqtisadi şərtləri çərçivəsində həqiqi rəqabət üstünlükləri əldə etməyə imkan verən ən müasir və uğurlu biznes modellərindən biri biznes proseslərinin autsorsinqdir.

Azərbaycanda autsorsinq biznes modelindən özəl iqtisadi subyektlərlə yanaşı dövlət qurumları da istifadə edir. Bu vəzifələri və məsuliyyəti paylaşmaqla daha səmərəli nəticələr əldə etməyə imkan verir. Autsorsinq xidmətləri əsasən vergi və maliyyə hesabatlarının hazırlanması, kadrlarla bağlı sənədləşmə işlərinin həyata keçirilməsi, logistika və informasiya texnologiyaları sahəsində xidmətlərin göstərilməsini əhatə edir. Bununla belə, ölkəmizdə autsorsinq xidmətlərinin şaxələnməsinə ehtiyac var.

Eyni zamanda biznes proseslərin autsorsinqi sahəsində tənzimləmə və nəzarət siyasəti formalaşdırılmalı, bu sahədə qanunvericilik bazasına nəzər yetirilməlidir.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Alıquliyev R.M., Niftəliyeva G.Y. E-dövlətin analizi texnologiyalarının müasir vəziyyəti, problemləri və perspektivləri, İnformasiya texnologiyaları problemləri, 2017, №1, 59-70.*

*2. Nəcəfov E.M., Həsənli O.N. Azərbaycan Respublikasının beynəlxalq nəqliyyat dəhlizlərində logistik autsorsinq strategiyası, Milli Aviasiya Akademiyasının Elmi Məcmuəsi, Cild 24, №1, 2022, s. 18-22.*

*3. Hirschheim, R., Dibbern, J. Information Systems Outsourcing in the New Economy - An Introduction. In: Hirschheim, R., Heinzl, A., Dibbern, J. (eds) Information Systems Outsourcing. Springer, Berlin, Heidelberg. - 2002. https://doi.org/10.1007/978-3-662-04754-5_1*

*4. Стапран Д.А. Текущее состояние и перспективы роста предпринимательского аутсорсинга в секторе информационных технологий, Креативная Экономика, Том 11, Н 9 - сентябрь 2017, с. 985-998*

*5. Маркеева Г. А., Михнева С. Г. История возникновения и этапы развития аутсорсинга, Известия высших учебных заведений, № 1, 2014, с 106 – 114*

*6. https://itmim.gov.az/az/static/view/17*


**XÜLASƏ**


Məqalədə autsorsinq xidmətləri ölkədə müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlərin rəqabət qabiliyyətini təmin etmək və məqsədilə istifadə edilən müasir vasitə kimi tədqiq olunur. Həmçinin autsorsinq xidmətlərinin tətbiq edilməsi ilə meydana çıxan rəqabət üstünlükləri məqalədə öz əksini tapmışdır. Şirkətlərin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində autsorsinqin idarəetmə, kargüzarlıq və nəzarət məqsədi ilə biznes proseslərinin autsorserinqə ötürülməsinin faydaları təqdim olunmuş, həmçinin ölkədə autsorsinq xidmətlərinin inkişafının əsas istiqamətləri vurğulanmışdır. Müxtəlif sahələrdə istehsal fəaliyyəti göstərən və xidmətlərin təqdim edilməsini həyata keçirən şirkətlər üçün autsorsinqin müxtəlif aspektləri müəyyən edilmişdir.



**Açar sözlər:** *autsorsinq, iqtisadi fayda, rəqabət qabiliyyəti, şirkətlər, xidmət təchizatçıları.*



**Эльшад Масим оглу Юсифов**
**Рашад Джанполад оглу Эйнуллаев**


**Анализ использования аутсорсинга бизнес-процессов в повышении конкурентных возможностей компаний в Азербайджане**

**РЕЗЮМЕ**


В статье аутсорсинговые услуги изучаются как современный инструмент, используемый для обеспечения конкурентоспособности компаний, работающих в различных сферах в стране. Также в статье отражены конкурентные преимущества, возникающие в результате применения аутсорсинговых услуг. В направлении совершенствования деятельности компаний были представлены преимущества аутсорсинга бизнес-процессов с целью управленческого, делопроизводственного

и контрольного аутсорсинга, а также выделены основные направления развития аутсорсинговых услуг в стране. Определены различные аспекты аутсорсинга для компаний, осуществляющих производственную деятельность и предоставляющих услуги в различных сферах.

**Ключевые слова:** *аутсорсинг, экономическая выгода, конкурентоспособность, компании, поставщики услуг.*

**Elshad Masim Yusifov**
**Rashad Janpolad Eynullayev**

**Analysıs of the use of busıness process outsourcıng ın ıncrease competıtıve opportunıtıes of companıes ın Azerbaıjan**

**SUMMARY**

In the article, outsourcing services are studied as a modern tool used to ensure the competitiveness of companies operating in various fields in the country. Also, competitive advantages arising from the application of outsourcing services are reflected in the article. In the direction of improving the activities of companies, the benefits of outsourcing business processes for the purpose of management, clerical and control outsourcing were presented, and the main directions of the development of outsourcing services in the country were highlighted. Various aspects of outsourcing have been defined for companies that perform production activities and provide services in various fields.

**Key words:** *outsourcing, economic benefits, competitiveness, companies, service providers.*

UOT: 339.76:338.22.01
DOI:10.30546/3006-0346.2024.1.79.123

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN GÜCLƏNDİRİLMƏSİNDƏ XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN SƏMƏRƏLİ TƏŞKİLİ ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏ

**NİGAR TALIBOVA**
*Bakı Dövlət Universitetinin "Dünya iqtisafiyyatı" kafedrasının doktorantı*
*E-mail: dosent1966@mail.ru*

Ölkə iqtisadiyyatının inkişafındakı mövcud tendensiyalar xarici ticarətin səmərəli əsaslarla təşkilinə yeni yanaşmaları müəyyənləşdirir. Bu transformasiyanın əsas istiqaməti iqtisadi artımı sürətləndirəcək, iqtisadi və istehsal strukturunu təkmilləşdirəcək, dövlətin iqtisadi problemlərinin həllidir. Xarici ölkələrlə sıx iqtisadi əməkdaşlıq, habelə balanslaşdırılmış ticarət dövriyyəsi fonunda xarici ticarət əlaqələrinin (XTƏ) genişləndirilməsi və onların rolunun artırılması ölkə iqtisadiyyatının inkişafına imkan verir. XTƏ-lərin ölkənin inkişafında rolunu nəzərə alaraq bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi vacibdir. İlk olaraq son illər dünya idxal və ixracında ən yüksək xüsusi çəkiyə malik olan və ilk üçlükdə qərarlaşan ABŞ, Çin və Almaniyanın XTƏ-lərin inkişaf etdirilməsi sahəsində təcrübəsini nəzərdən keçirək.

Qeyd edək ki, Çinin iqtisadi inkişaf strategiyasında xarici ticarətin rolu xüsusi yer tutur. Çinin xarici ticarət siyasətinin (XTS) fərqli xüsusiyyəti ölkənin dünyada dominant rol oynamasıdır. İstər idxal, istərsə də ixrac dövlət tərəfindən ölkənin nisbətən sürətli modernləşdirilməsi, eləcə də Çini dünya iqtisadiyyatında aparıcı mövqeyə çıxarmaq üçün alət kimi qəbul edilir. Geniş islahatlar və açıqlıq siyasətinin reallaşdırılmasından sonra Çinin XTƏ-ləri sürətlə inkişaf etmişdir. Çinin XTS-sinin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, dövlət bu günə qədər xarici ticarətin yüksək səviyyədə tənzimlənməsini təmin etmişdir [1, s. 26]. Xarici ticarətdə islahatlara yönəlmiş dövlət tənzimlənməsi xarici amillərdən, ilk öncə, ixrac və idxaldan səmərəli istifadəni əsas məqsəd kimi qarşıya qoydu. XTƏ-lərin dövlət tənzimlənməsinin əsas metodu gömrük-tarif tənzimlənməsidir. Malların ticarəti prosesində idxal və ixrac gömrük rüsumlarının sabit dərəcələrindən istifadə edilir. Çinin XTƏ-lərinin gömrük-tarif tənzimlənməsi çərçivəsində gömrük rüsum, prosedur və qaydaları da daxil olmaqla bir sıra tədbirlər tətbiq edilir. İxrac və idxal rüsumlarının dərəcələri hər il Baş Vergilər İdarəsi və Çinin Baş Gömrük İdarəsi tərəfindən növbəti planlaşdırma dövrü üçün dərc edilir. Tariflər Çin Dövlət Şurasının qərarlarına uyğun olaraq dəyişdirilə bilər. Qoruyucu tədbirlərin tətbiqi ilə yanaşı, əksər dövlətlər qeyri-tarif tədbirlərindən fəal şəkildə istifadə edirlər. Müxtəlif hesablamalara görə, qeyri-tarif tədbirləri dünya ticarət həcminin 18-30%-ni əhatə edir. Hazırda bütün dünyada qeyri-tarif tənzimləmə mexanizmi çox tez-tez istifadə olunur. Çində ən çox istifadə edilən tədbirlər idxal və ixracın texniki tənzimlənməsi, həmçinin kəmiyyət üsullarıdır [2, s. 277].

ABŞ-ın Çin məhsullarının idxalına 30% rüsum tətbiq etməsi səbəbindən ölkənin XTF-nə təsir edən təhlükələr yaranıb. ABŞ hakimiyyəti Çin şirkətlərinə istehsal sektorunda tədarükləri məhdudlaşdıran və Amerika sənaye müəssisələrinin mövqelərini gücləndirən qanun layihəsi üzərində işi gücləndirir. Bu məqsədlə ABŞ Konqresi məhsullarına idxal rüsumları artırılan Çin şirkətlərinin siyahısını tərtib edib. Bu siyahı ABŞ-ın Çinin əsas sənaye ixrac sektorlarını zəiflətmək niyyətində olduğunu nümayiş etdirir. Tarif artımından təsirlənən məhsullar arasında polad və alüminium məhsulları, elektron avadanlıqlar, tekstil məhsulları və avtomobil hissələri də var. Çin üçün ABŞ ən böyük ixrac bazarıdır və bütün Çin ixracının təxminən 19%-ni təşkil edir. Buna görə, ABŞ tarif tədbirlərini əlavə olaraq 200 milyard ABŞ dollarına qədər artırarsa, bu, Çinin ABŞ-a ixrac həcminin təxminən yarısının əhəmiyyətli tarif dərəcələri ilə üzləşəcəyi anlamına gələcək. Çin üçün digər təhlükə ABŞ-ın "Made in China 2025" proqramı ilə mübarizəyə yönəlmiş siyasətidir. Pekinin hədəf aldığı sənaye sektorları arasında yüksək texnologiyalar var, buna görə Amerika tarifləri məhz bu sənayelərə təsir göstərir. ABŞ-ın məqsədi "Made in China 2025" proqramının müəyyən sektorlarına daxil olan Çin məhsullarının əksəriyyətini əhatə etmək və yüksək idxal dərəcələri təyin etməkdir. ABŞ-ın fikrincə, bu hərəkətlər Amerika sənaye şirkətlərinin rəqabət qabiliyyətini, sənaye istehsalının sürətini artıracaq və işsizlik səviyyəsini azaldacaq [3, s.107]. Lakin Çinin ümumi ixrac sektoru ABŞ bazarından çox asılı deyil, baxmayaraq ki, ABŞ bazarı müəyyən ixrac sənayeləri üçün açıq şəkildə vacibdir. XTF, sabit iqtisadi inkişafın əsas amilidir, lakin onun davamlı inkişafını

əmtəə dövriyyəsinin müstəsna kəmiyyət artımı ilə əlaqələndirmək olmaz. XTƏ-lərin genişləndirilməsi uzunmüddətli perspektivdə Çin iqtisadiyyatının iqtisadi inkişafını təmin etmək üçün dünya reytinqlərində onun mövqeyini gücləndirməyə imkan verir.

ABŞ qanunvericilik tənzimlənməsi, gömrük tarifləri, qeyri-tarif məhdudiyyətləri, biznesə dövlət dəstəyi sayəsində XTF-də böyük uğurlar qazanmışdır. Bu alətlər bir-biri ilə ahəngdar və düzgün qarşılıqlı əlaqədə olmaqla, ABŞ-ın xarici ticarətinin iqtisadi təhlükəsizliyini qorumaq üçün mexanizmlər yaradır. ABŞ federal qanunları ölkəyə idxal edilən mallara tələblərin genişləndirilmiş siyahısını tətbiq edir. Tələblər vətəndaşların sağlamlığının və təhlükəsizliyinin, ekoloji təhlükəsizliyin, mənəvi dəyərlərin qorunmasına, habelə ölkənin vergi qanunvericiliyinin səlahiyyətli tənzimlənməsinə və fəaliyyət göstərməsinə yönəlib. ABŞ-da malların adlandırılması və kodlaşdırılması üçün Uyğunlaşdırılmış Tarif Cədvəli əsasında gömrük tarifləri tətbiq edilir. ABŞ-da idxal rüsumunun ölçüsü malların emal dərəcəsindən, habelə ölkənin müəyyən xammal ilə təminat səviyyəsindən asılıdır. Güzəştli və adi tariflər arasındakı fərq 8-10 dəfəyə qədər dəyişir. Antidempinq və kompensasiya rüsumları bütün ölkə ərazisində tətbiq edilir. ABŞ-da Konqres və ya hökumət tərəfindən müəyyən edilən malların idxalına məhdudiyyətlərin qeyri-tarif üsullarından getdikcə daha çox istifadə olunur. Mütləq və tarif kvotaları tətbiq edilir. Mütləq kvota idxala icazə verilən müxtəlif kateqoriyalı malların sayını tənzimləyir və bununla da məhdudlaşdırıcı tədbirlər tətbiq edilir. Tarif kvotaları malların güzəştli rüsum dərəcəsi ilə idxalı üçündür. ABŞ-da XTF-yə, xüsusilə sənaye və istehsal müəssisələrinə güclü dövlət dəstəyi var. ABŞ Konqresi dövlətin maraqlarına uyğun olaraq ixracı genişləndirmək və idxala nəzarət etmək üçün idarələrarası struktur olan İxracın Təşviqi Koordinasiya Komitəsini yaratmışdır. ABŞ hökumətinin xarici ticarət sahəsində siyasəti xarici bazarlarda ədalətli rəqabət şəraitində qanuni sahibkarlıq fəaliyyətinin azadlığını təmin etməklə yanaşı, şirkətlərə, xüsusən də kiçik və orta biznesə hərtərəfli yardım göstərməyə yönəlib. Bu yanaşma iqtisadi inkişafın tərəqqisinin və nəticədə dövlətin milli təhlükəsizliyinin əsasını təşkil edən fərdi imkan və qabiliyyətlərin təzahürünü təşviq edən şəxsi təşəbbüsün inkişafına imkan verir. Hökumətin XTS-ni reallaşdıran ali səlahiyyətli orqan struktur olaraq yalnız Prezidentə və ABŞ Konqresinə tabe olan Kiçik Biznes Administrasiyasıdır. Bu agentliyin filialları hər bir ştatda vardır və onların əsas fəaliyyət istiqamətləri aşağıdakılardır: XTF-yə cavabdeh olan şirkətlərin kadrlarının hazırlanması; beynəlxalq bazarlara çıxış məsələlərinə dair məlumatların toplanması, təhlili və dövlət şirkətlərinə təqdim edilməsi; ticarət nümayəndəliklərinin fəaliyyəti; bazar şəraitinin marketinq tədqiqatı; biznes xidmətlərinin göstərilməsi; Amerika şirkətlərinin ABŞ hüdudlarından kənarda maraqlarının və fəaliyyətlərinin qorunması [4, s.72].

İxracın təşviqinə yönəlmiş mövcud dövlət ixtisaslaşdırılmış institutlarına əlavə olaraq ABŞ-da qeyri-dövlət ixrac mərkəzləri də fəaliyyət göstərir. Onlar əhalinin az məskunlaşdığı və ucqar ştatlarda açılır. Bu mərkəzlərin vəzifəsi regional şirkətləri beynəlxalq bazarlara çıxarmaqdır. Qeyri-hökumət ixraca dəstək mərkəzlərinin işi vasitəsilə ABŞ Hökumətinin Ticarət Departamentinin, Kiçik Biznes Administrasiyasının, İxrac-İdxal Bankının, maraqlı şəxslərin və müxtəlif ictimai təşkilatların səyləri və resursları əlaqələndirilir. ABŞ rəqabət qabiliyyətinin əsas amillərindən biri olan məhsulun keyfiyyəti məsələsinə ciddi yanaşır. Hal-hazırda yaxşı qurulmuş keyfiyyət idarəetmə sistemi Amerika şirkətlərinin xarakterik xüsusiyyətidir. Amerika şirkətlərində keyfiyyət proseslərinin idarə edilməsi keyfiyyətə nəzarət bölməsinə həvalə edilmişdir ki, onun vəzifələrinə göstəricilərin, keyfiyyətə nəzarət üsullarının və sınaq prosedurlarının hazırlanması, qüsurların səbəblərini və onların aradan qaldırılması üsullarını müəyyənləşdirmək daxildir.

Almaniya II Dünya müharibəsindən sonra öz iqtisadiyyatını bərpa etməli oldu. Ölkənin iqtisadi inkişafının hazırkı vəziyyətinin təhlili Almaniya hökuməti tərəfindən səriştəli və səmərəli tədbirlər görülməsindən xəbər verir. Almaniya hökuməti xarici ticarəti və xaricə investisiya qoyuluşunu imperativ hesab edir, habelə iqtisadi təhlükəsizliyin təmin edilməsinə şərait yaradır və nəticədə iqtisadi artım, işsizliyin minimuma endirilməsi və ölkə əhalisinin yüksək həyat səviyyəsi üçün əlverişli şərait yaradır. Almaniyanın işləyən əhalisinin demək olar ki, yarısı birbaşa və ya dolayısı ilə ixracla bağlıdır, odur ki, şirkətlərin dövriyyəsinin təxminən 30%-i xarici ticarətin payına düşür. Alman şirkətlərinin beynəlxalq arenada uğurunun göstəricisi təkcə məhsulların keyfiyyəti deyil, habelə xarici bazarlarda ticarət və investisiya imkanlarının genişləndirilməsi ilə biznes üçün əlverişli mühitin yaradılmasına yönəlmiş hərtərəfli dövlət siyasətidir. Almaniyada ixraca dəstək dövlət və biznes arasında

birgə səmərəli işin yaxşı nümunəsidir. XTF-si inkişaf etmiş digər ölkələrdə olduğu kimi, Almaniya hökuməti də ixracyönümlü bizneslərə kredit, sığorta və dövlət zəmanəti şəklində maliyyə dəstəyi verir. Nazirliklərarası Komitə maliyyə məsələləri üzrə koordinator kimi çıxış edir. Komitə həmçinin ixracı stimullaşdırmaq üçün əlavə alətlər tətbiq edir: ƏDV-dən azad olunma, sənaye sektoru üçün subsidiyalar, elmi-tədqiqat və inkişaf xərcləri üçün kompensasiya. İxracın dövlət dəstəyi sistemi sığortaya xüsusi önəm verir, bunun üçün alman şirkətlərinin xarici ticarət müqavilələrinin təhlükəsizliyinə zəmanət verən ən böyük sığorta şirkəti olan "Euler Hermes" yaradılmışdır. İxracın dövlət dəstəyinin əlavə alətləri xarici investisiya fəaliyyəti və regional inkişaf proqramları sahəsində Almaniya Federal Hökumətindən təminatların verilməsidir.

Yaponiya da Almaniya kimi İkinci Dünya müharibəsindən sonra iqtisadiyyatını yenidən qurmağa başlamışdır. Yaponiyanın təbii enerji resursları ilə çox aşağı təchizatını nəzərə alaraq, idxalda mineral yanacaq, neft və onların distillə məhsulları böyük paya malikdir. Bu gün Yaponiya potensial alıcısına yüksək keyfiyyətli və müvafiq olaraq rəqabətqabiliyyətli mallar təklif etməyə qadir olan qlobal bazarda güclü oyunçu olaraq qalır. Yaponiya xarici ticarət sahəsində yüksək iqtisadi inkişaf səviyyəsinə təkcə öz xalqının zəhməti ilə deyil, habelə hökumətin səriştəli idarəetmə qərarları sayəsində nail olmuşdur. Yaponiya hökuməti XTF-nin təşkilində və reallaşdırılmasında fəal iştirak edir. Xarici Ticarət və Sənaye Nazirliyi xarici ölkələrlə ticarət əlaqələrinin inkişafına cavabdeh olan əsas dövlət inzibati orqanıdır. Nazirlik həmçinin valyuta məsələlərini tənzimləyir, ixracyönümlü istehsal müəssisələrinə fəal kömək edir, lisenziyalı kateqoriyalı mallar üçün idxal kvotaları müəyyənləşdirir, idxala icazələr verir, ticarət qaydalarını müəyyənləşdirir və tənzimləyir. XTF-ni idarə etmək üçün Yaponiyanın dövlət sistemində biznes iştirakçılarından hökumətə və baş nazirə qədər müxtəlif sistem səviyyələrində fəaliyyət göstərən 200-dən çox məsləhət orqanı var. Yaponiyada idxalın məhdudlaşdırılması vasitəsi kimi standartlaşdırma, sertifikatlaşdırma, keyfiyyətin yoxlanılması, təhlükəsizlik tədbirləri, ekoloji parametrlər və s. üzrə təsdiq edilmiş texniki və xüsusi tələblər sistemindən səmərəli istifadə olunur. Yaponiya dünyanın ən böyük ictimai ticarət və investisiya sığorta sistemlərindən birinə malikdir. Ölkənin dövlət büdcəsi xarici iqtisadi fəaliyyətin təşkilati sistemini, xüsusən marketinq tədqiqatları, informasiya və məsləhət xidmətləri, reklam və sərgi fəaliyyəti kimi sahələri maliyyələşdirir.

Avropa İttifaqının digər ölkələrində olduğu kimi, Fransada da əsaslandırılmış hallarda xarici ticarətin tənzimlənməsinin qeyri-tarif üsullarından istifadə edilir. Fransada əsas belə üsullara antidempinq tənzimlənməsi və kompensasiya tədbirləri daxildir. Fransada antidempinq tənzimləmə önəmli rol oynayır. Bundan başqa, Fransa antidempinq araşdırmalarının ümumi sayına görə liderlik edən ilk on ölkə sırasındadır [5, s.24]. Belə ki, indiyədək antidempinq tədbirləri tətbiq edilib və ölkənin gömrük ərazisinə gətirilən malların idxalının ümumi həcminin təxminən 0,5%-nə şamil edilib. Üstəlik, bu tendensiya Avropa İttifaqının əksər ölkələri üçün də xarakterikdir. Ümumiyyətlə, Fransada antidempinq tədbirləri idxalçı ölkələrə qarşı onların sənaye sektoruna ümumi təsirini daha da neytrallaşdırmaq üçün lazım olan müddət ərzində reallaşdırılır, lakin göstərilən müddət beş ildən çox olmamalıdır [6, s.14]. Xüsusi olaraq Asiya ölkələrindən idxal olunan mallara münasibətdə xarici ticarəti tənzimləmək üçün antidempinq tədbirlərinin tətbiqinin əhəmiyyətli dərəcədə üstünlüyü bu regiondan rəqabətqabiliyyətli malların sayının çox aktiv və mütərəqqi artımı ilə izah olunur. Fransada kompensasiya tədbirləri iqtisadi xarakterli qeyri-tarif tənzimləmə alətlərindən biridir ki, bu da ölkə tərəfindən rəqabət şəraitində idxal subsidiyalarının təsirini neytrallaşdırmaq üçün istifadə olunur. Kompensasiya rüsumunun yekun məbləği xüsusi subsidiyaların Fransa iqtisadiyyatına vurduğu zərərin miqdarından asılı olaraq müəyyənləşdirilir. Konkret ölkə ilə bağlı araşdırmanın təşkili və aparılması üçün müəyyən prosedurlar, habelə araşdırmanın nəticələrinə əsasən kompensasiya rüsumunun tətbiqi proseduru mövcuddur [7, s.21].

Dünya iqtisadiyyatının qloballaşmasının müasir şəraitində XTF Rusiyanın və onun subyektlərinin iqtisadiyyatının da mühüm tərkib hissəsidir. Rusiyanın XTƏ-lərinin inkişafı resurslardan səmərəli istifadə etmək yolu ilə beynəlxalq bazarlarda ixrac-idxal əməliyyatlarının reallaşdırılması ilə bağlıdır. Zəngin təbii resurs bazası, insan və elmi-texniki potensial Rusiyaya müasir qloballaşma proseslərində fəal şəkildə öz yerini tutmağa imkan verir. XTƏ-lərin inkişafı və dərinləşməsi milli iqtisadiyyat üçün təhlükəsizlik mənbəyinə və rəqabət üstünlüklərinin inkişafı faktoruna çevrilə bilər. Müasir qloballaşma proses-

ləri inteqrasiya qruplaşmaları çərçivəsində ümumi səylərin birləşdirilməsi və əlaqələndirilməsi üçün yeni tələblər yaradır. Beləliklə, toplanmış əməkdaşlıq təcrübəsi və kollektiv müdafiə vasitələrinin inkişafı Rusiyada xarici təhlükələrə qarşı qoruyucu maneədir. Rusiya bir çox inkişaf etməkdə olan ölkələr kimi, qlobal bazarda yerli istehsalçıların səmərəliliyini artırmaq, həmçinin onların daxili bazarda fəaliyyətinin iqtisadi təhlükəsizliyini təmin etmək üçün tədbirlər görür. Rusiyanın digər ölkələrlə XTƏ-ləri inkişaf etdikcə, ilk öncə, daxili bazarı müxtəlif növ təsirlərdən qorumaq üçün gömrük tənzimlənməsinin qeyri-tarif tədbirlərinin tətbiqi zərurəti getdikcə artır [8, s.96]. Ümumiyyətlə, İEÖ-lərin təcrübəsi göstərir ki, mövcud resurslardan maksimum səmərə və fayda əldə etmək bilavasitə ETT-nin, yeni ideyaların və ixtiraların, kəşflərin istifadəsi ilə bağlıdır. Məhz yeni bazarların müəyyənləşdirilməsində və rəqabətədavamlı məhsullarla həmin bazarlara çıxarılmasının arxasında ETT-nin nailiyyətlərinin tətbiqi dayanır [9, s.10]. Bu nəzərdən keçirilən XTƏ-lərin genişləndirilməsi üzrə dünya ölkələrinin təcrübəsinin Azərbaycanın XTS-sində istifadəsi mümkündür [10, s.8 ].

## YEKUN

Bundan əlavə, Azərbaycanın XTƏ-lərinin inkişafı üçün aşağıdakı tədbirləri və vasitələri təklif edirik:

- ixraca dəstək institutlarının fəaliyyətinin səmərəliliyinin artırılması;
- yüksək ixrac göstəriciləri üçün maliyyə, maddi və təşkilati həvəsləndirmə tədbirlərindən istifadə etməklə region və ya müəssisə üzrə ixracın planlaşdırılması sisteminin hazırlanması;
- ciddi nəzarətdən və zəruri məcburi tədbirlərdən istifadə edərək ölkə müəssisələri tərəfindən yüksək rəqabət qabiliyyətinə və keyfiyyətlərə malik məhsul istehsalına nail olunması;
- elmi-tədqiqat və müasir texnoloji istehsal proseslərindən istifadə edən ixracyönümlü şirkətlər üçün məqsədyönlü subsidiyaların və ya digər maliyyələşdirmə üsullarının tətbiqi və s.

**Açar sözlər:** *iqtisadi təhlükəsizlik, xarici ticarət, xarici ticarət əlaqələrinin təşkili, xarici ticarət üzrə beynəlxalq təcrübə, xarici ticarətin səmərəliliyi, iqtisadi təhlükəsizliyin gücləndirilməsində xarici ticarətin əhəmiyyəti.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Романова, Г.Н. Реформирование внешнеэкономических связей Китая: торговля, инвестиции (80-е гг. XX В. – начало XXI В.) // Таможенная политика России на Дальнем Востоке. – 2017. – С. 25-38.*

*2. Александрова, М.В. Тарифное и нетарифное регулирование импорта в КНР и его влияние на ввоз товаров из России // Китай в мировой и региональной политике. История и современность. – 2018. – С. 275-289.*

*3. Чжэн, В. Внешнеторговая деятельность КНР. Российский внешнеэкономический вестник 1 – 2020, – с.104-109.*

*4. Леонтьев, С.В. Зарубежная практика обеспечения экономической безопасности внешнеторговой деятельности и возможности ее использования в России. Вестник Российского университета кооперации. 2020. № 2(40), – с.82-88.*

*5. Ямпольский, М.М. Об особенностях нетарифного регулирования. Практика стран мира / М.М. Ямпольский //Экономика. – 2017. – №3. – С. 23-35.*

*6. Коресташова, А.В. Актуальные вопросы нетарифного регулирования внешней торговли: мировой опыт, проблемы и возможности совершенствования // Скиф. Вопросы студенческой науки. – 2018. № 9(25). – с. 11-21.*

*7. Тарарышкина, Л.И. Практический опыт применения нетарифных мер в азиатских странах // Финансы, учет и аудит. 2017. № 5. – с. 16-23.*

*8. Агапова, А.В. Анализ таможенно-тарифного и нетарифного регулирования внешнеэкономической деятельности / А.В.Агапова, Т.В.Гудушаури // Актуальные научные исследования в современном мире. – 2021. – № 8-3(76). – С. 93-97.*

*9. Hüseynov, M.M. Kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət əlaqələrinin inkişaf istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Gəncə, 2021, – 28 s.*

*10. Əliyev, Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri // "Xəbərlər", AMEA İqtisadiyyat İnstitutu, 2020, №5, S. 5-12.*

**ТАЛЫБОВА Нигяр Эльдар гызы,**
***докторант кафедры «Мировая экономика» Бакинского Государственного Университета.***
***E-mail: dosent1966@mail.ru***

**РЕЗЮМЕ**

**Международный опыт эффективной организации внешнеторговых связей по усилению экономической безопасности**

В статье исследованы актуальные вопросы международного опыта эффективной организации внешнеторговых связей по усилению экономической безопасности в современных условиях. Раскрыта сущность прогрессивных методов и инструментарий усиления экономической эффективности страны. Рассмотрен опыт США, Японии, Германии, Франции в сфере рациональной организации внешнеторговых связей с учётом интересов страны и её экономической безопасности. Так же рассмотрен опыт Китая в этом направлении, особенно рассмотрена ключевая роль государственной поддержки в повышении эффективности внешнеторговых связей. Обобщена возможность и перспективы применения более прогрессивных форм и методов международного опыта по эффективности внешнеторговых связей в процессах усиления экономической безопасности страны.

**Ключевые слова:** *экономическая безопасность, внешняя торговля, организация внешней торговли, международный опыт по внешней торговле, эффективность внешней торговли, важность внешней торговли в усилении экономической безопасности.*

**TALIBOVA Nigar Eldar,**
**d*octoral student of the Department of "World Economy" of Baku State University.***
***Email: dosent1966@mail.ru***

**SUMMARY**

**International experience of effective organization of foreign trade relations on strengthening economic security**

The article studies the main issues of international experience of effective organization of foreign trade relations to strengthen economic security in modern conditions. The essence of progressive methods and tools of strengthening the economic efficiency of the country is revealed. The experience of the USA, Japan, Germany and France in the sphere of rational organization of foreign trade relations taking into account the interests of the country and its economic security is considered. The experience of China in this direction is also considered, especially the key role of state support in increasing the efficiency of foreign trade relations is given too. The possibility and prospects of application of more progressive forms and methods of international experience on efficiency of foreign trade relations in processes of strengthening of economic security of the country are generalized.

**Key words:** *economic security, foreign trade, organization of foreign trade, international experience on foreign trade, efficiency of foreign trade, importance of foreign trade in strengthening economic security.*

UOT 005-027.21
DOI:10.30546/3006-0346.2024.1.79.128

# İNSAN POTENSİALININ İDARƏ EDİLMƏSİNİN TƏHLİLİNDƏ İSTİFADƏ EDİLƏN ÜSULLAR

**ARZU HACIYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti*
*E-mail: babaxanovaarzu@gmail.com*

## Giriş

İnsan potensialının idarə edilməsinin təhlilində istifadə olunan metodlar təşkilatın işçi qüvvəsinin effektiv idarə olunmasına yönəlmiş müxtəlif yanaşmaları əhatə edir. Bu üsullar HR funksiyalarının optimallaşdırılması və insan resurslarının strateji təşkilat məqsədləri ilə uyğunlaşdırılmasının ayrılmaz hissəsidir. Bəzi əsas metodlara iş təhlili, işə qəbul və seçim təhlili, performansın qiymətləndirilməsi, təlim və inkişafın qiymətləndirilməsi, işçi sorğuları, HR analitikası və işçi qüvvəsinin planlaşdırılması daxildir. İş təhlili dəqiq iş təsvirləri yaratmaq və ixtisasları müəyyən etmək üçün iş rollarının dərindən yoxlanılmasını nəzərdə tutur. İşə qəbul və seçim təhlili düzgün namizədləri müəyyən etmək və işə götürmək üçün vasitələrdən istifadə edir. Fəaliyyətin qiymətləndirilməsi işçilərin fəaliyyətini qiymətləndirir və rəy verir. Təlim və inkişafın qiymətləndirilməsi bacarıq boşluqlarını və təlim ehtiyaclarını müəyyən etməyə kömək edir. İşçi sorğuları iş yerindən məmnunluq və nişanlılığı yaxşılaşdırmaq üçün rəy toplayır. HR analitikası məlumatlı qərarların qəbulu üçün məlumatlardan istifadə edir, işçi qüvvəsinin planlaşdırılması isə gələcək ehtiyaclar üçün düzgün kadrları təmin edir. Bu üsullar kollektiv olaraq HR mütəxəssislərinə insan kapitalını effektiv şəkildə idarə etməyə və təşkilati uğurları təmin etməyə imkan verir.

## Təhlil və müzakirə

İnsan potensialının idarə edilməsi təhlili təşkilatın işçi qüvvəsinin effektiv idarə olunması ilə bağlı məlumatlı qərarlar qəbul etmək üçün məlumatların toplanması, şərh edilməsi və istifadə edilməsi üçün müxtəlif üsulları əhatə edir. Bu üsullar HR mütəxəssisləri üçün öz strategiyalarını təşkilatın məqsədlərinə uyğunlaşdırmaq və insan kapitalından ən yaxşı istifadəni təmin etmək üçün vacibdir. HR departamentləri iş məmnunluğu, iş yeri mədəniyyəti və təlim ehtiyacları kimi müxtəlif mövzularda işçilərdən rəy toplamaq üçün tez-tez sorğu və anketlərdən istifadə edir. Bu alətlər işçilərin qavrayışları və təkmilləşdirilməsi lazım ola biləcək sahələr haqqında dəyərli fikirlər təmin edir. İş məmnuniyyəti anketləri işçilərin cari rolları, iş mühiti və ümumi iş təcrübəsindən məmnunluqlarını ölçmək məqsədi daşıyır. Suallar iş yükü, həmkarlarla münasibətlər, təzminat və böyümə imkanları kimi aspektləri əhatə edə bilər. İş məmnuniyyəti sorğusunun nəticələrinin təhlili HR-ə təkmilləşdirmə üçün sahələri müəyyənləşdirməyə və işçilərin mənəviyyatını və məhsuldarlığını artırmaq üçün düzəlişlər etməyə kömək edə bilər [5, s.87]. İşçilərin cəlb edilməsi sorğuları işçilərin öz işlərinə və təşkilata qarşı bağlılıq, həvəs və fədakarlıq səviyyəsini qiymətləndirir. Yüksək məşğulluq tez-tez daha yaxşı iş performansı, aşağı dövriyyə nisbətləri və artan işçi sədaqəti ilə əlaqələndirilir. HR sorğunun nəticələrindən istifadə edərək əlaqəni artırmaq üçün strategiyalar hazırlaya bilər.

Sorğular və anketlər keçirərkən, HR üçün sualların aydın, qərəzsiz və sorğunun məqsədinə uyğun olmasını təmin etmək vacibdir. Məxfilik vicdanlı cavabları təşviq etmək üçün çox vacibdir və HR rəyin təşkilat daxilində müsbət dəyişiklikləri təmin etmək üçün necə istifadə ediləcəyini bildirməlidir. Bundan əlavə, sorğu məlumatlarını effektiv şəkildə təhlil etmək və nəticələrə əsasən tədbirlər görmək bu alətləri HRM-də həqiqətən dəyərli etmək üçün vacibdir.

Müntəzəm fəaliyyətin nəzərdən keçirilməsi və qiymətləndirmələr işçilərin güclü və zəif tərəflərini qiymətləndirməyə kömək edir. Bu məlumatlar işçilərin inkişafı, ardıcıllığın planlaşdırılması və yüksəlişlər və ya işlərin dayandırılması ilə bağlı qərarların qəbulu üçün istifadə edilə bilər. İşçilərlə müsahibələr keyfiyyətli məlumatların toplanması və işçilərin təcrübələri, narahatlıqları və təklifləri haqqında daha dərin fikirlər əldə etmək üçün insan resurslarının idarə edilməsində (HRM) dəyərli üsuldur. Müsahibələr HR mütəxəssislərinə işçilərin öz rollarını, iş məmnuniyyətini, iş yeri mədəniyyətini, həmkarları və rəhbərləri ilə münasibətlərini necə dərk etdiklərini daha yaxşı anlamağa kömək edə bilər. Müsahibələr işçilərin üzləşdiyi, lakin digər kanallar vasitəsilə bildirmədiyi xüsusi narahatlıqları, çətinlikləri və ya problemləri aşkar edə bilər. İşçilər tez-tez proseslərin yaxşılaşdırılması, iş yerinin şəraitinin yaxşılaşdırılması və ya təşkilati məsələlərin həlli üçün dəyərli

ideya və təkliflərə malikdirlər. Müsahibələr işçilərə öz fikirlərini bölüşmək üçün bir platforma təmin edir. İşçilərlə müsahibələr HR üçün açıq ünsiyyəti inkişaf etdirmək, etibar yaratmaq və işçi məmnuniyyətini və ümumi təşkilati performansı artıran məlumat əsasında qərarlar qəbul etmək üçün güclü bir vasitə ola bilər. HR göstəriciləri və HR metrikləri və əsas performans göstəricilərin (KPI), məsələn, dövriyyə sürəti, işdən çıxmama, doldurulma vaxtı və işə düşən hər işə düşən xərc kimi HR göstəricilərinin izlənməsi HR proseslərinin səmərəliliyi və effektivlik haqqında kəmiyyət məlumatlarını təmin edə bilər. Performans qiymətləndirmələri, həmçinin performans təhlilləri və ya qiymətləndirmələr kimi tanınan, təşkilat daxilində işçilərin iş performansını qiymətləndirmək və idarə etmək üçün istifadə olunan insan resurslarının idarə edilməsinin (HRM) əsas komponentidir. HRM-də fəaliyyətin qiymətləndirilməsinin məqsədlərinə və faydalarına daha yaxından nəzər salaq:

İşçilərin Fəaliyyətinin Qiymətləndirilməsi [1, s.23]:

• Fəaliyyətin qiymətləndirilməsi işçinin müəyyən dövr ərzində, çox vaxt illik və ya yarımillik iş fəaliyyətinin qiymətləndirilməsi üçün strukturlaşdırılmış çərçivə təmin edir.

• Bu qiymətləndirmə işçinin nailiyyətlərinin, yerinə yetirilmiş tapşırıqlarının, bacarıqlarının, səriştələrinin və təşkilata ümumi töhfələrinin nəzərdən keçirilməsini əhatə edir.

Güclü və zəif tərəflərin müəyyən edilməsi:

• Fəaliyyətin qiymətləndirilməsinin əsas məqsədlərindən biri işçinin cari rolunda güclü və zəif tərəflərini müəyyən etməkdir.

• Bu güclü və zəif tərəfləri başa düşməklə, HR və menecerlər işçilərin performansını artırmaq üçün inkişaf planları və strategiyalarını uyğunlaşdıra bilərlər.

İşçilərin inkişafı:

• Fəaliyyətin qiymətləndirilməsi işçilərin inkişafında mühüm rol oynayır. Onlar işçilərə və menecerlərə təkmilləşdirməyə və ya əlavə təlimə ehtiyac duyulan sahələri müəyyən etməyə kömək edir.

• Davamlı öyrənmə və bacarıqların artırılmasını təşviq edərək, bu sahələri həll etmək üçün inkişaf planları yaradıla bilər.

Təşkilatların fəaliyyətinin qiymətləndirilməsinin ədalətli, ardıcıl və şəffaf şəkildə aparılması çox vacibdir. İşçilər onların qiymətləndirildiyi meyarlardan xəbərdar olmalı və rəy konstruktiv olmalı və fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilməlidir. Menecerlər və işçilər arasında müntəzəm, davamlı ünsiyyət HRM üçün bir vasitə kimi fəaliyyətin qiymətləndirilməsinin effektivliyini təmin etmək üçün açardır.

HR məlumatlarını və təcrübələrini sənaye meyarları və ya rəqiblərlə müqayisə etmək təşkilatın geridə qaldığı və ya üstün ola biləcəyi sahələri müəyyən etməyə kömək edə bilər. Bençmarkinq HR strategiyasının hazırlanmasına rəhbərlik edə bilər [6, s.65]. HR ölçüləri və əsas performans göstəriciləri (KPI) insan resurslarının idarə edilməsi (HRM) üçün vacib alətlərdir, çünki onlar HR mütəxəssislərinə HR proseslərinin və fəaliyyətlərinin müxtəlif aspektlərini ölçməyə və qiymətləndirməyə imkan verir. Bu ölçülər təşkilatın məqsəd və vəzifələrini dəstəkləməkdə HR-nin səmərəliliyi və effektivliyinə dair kəmiyyətli fikirlər təqdim edir. Budur bəzi ümumi HR ölçüləri və KPI-lər:

Dövriyyə dərəcəsi:

• Tərif - Dövriyyə dərəcəsi müəyyən bir müddət ərzində təşkilatı tərk edən işçilərin faizini ölçür.

• Məqsəd - Yüksək dövriyyə işçilərin saxlanması ilə bağlı problemləri göstərə bilər ki, bu da işə qəbul və təlim xərclərinin artmasına səbəb ola bilər. Dövriyyənin monitorinqi HR-ə saxlama strategiyalarında təkmilləşdirmə üçün sahələri müəyyən etməyə kömək edir.

Davamsızlıq dərəcəsi:

• Tərif - İşdən çıxma dərəcəsi işçilərin xəstəlik, məzuniyyət və ya şəxsi məzuniyyət kimi müxtəlif səbəblərə görə işdə olmadıqları planlaşdırılmış iş saatlarının faizini ölçür.

• Məqsəd - Yüksək davamsızlıq dərəcələri məhsuldarlığa və işçi qüvvəsinin planlaşdırılmasına təsir göstərə bilər. İşdən çıxmama hallarının izlənməsi HR-yə işçilərin davamiyyətinə təsir edən potensial problemləri həll etməyə kömək edir.

İşçilərin Məhsuldarlığı Metrikləri [3, s.76]:

• Tərif - Bu ölçülər işçinin məhsuldarlığını, səmərəliliyini və ya təşkilata töhfələrini ölçür. Nümunələrə işçiyə düşən satış, hər işçiyə düşən gəlir və ya ayda tamamlanan layihələr daxildir.

• Məqsəd - Məhsuldarlıq göstəricilərini izləmək HR-ə yüksək performanslı işçiləri və performansın yaxşılaşdırılmasının lazım ola biləcəyi sahələri müəyyən etməyə kömək edir.

Bu HR ölçülərini və KPI-ları müntəzəm olaraq izləmək və təhlil etməklə, HR mütəxəssisləri məlumatlara əsaslanan qərarlar qəbul edə, təkmilləşdirilməli sahələri müəyyənləşdirə və HR strategiyalarını təşkilatın ümumi məqsəd və hədəfləri ilə uyğunlaşdıra bilərlər.

Təşkilati Şəbəkə Təhlili (ONA) təşkilat daxilində işçilər arasında əlaqələrin və qarşılıqlı əlaqələrin xəritələndirilməsini nəzərdə tutur. Bu, əsas təsir edənləri, ünsiyyət modellərini və potensial əməkdaşlıq imkanlarını müəyyən etməyə kömək edir. Təşkilati Şəbəkə Təhlili (ONA) insan resurslarının idarə edilməsində (HRM) və təşkilati idarəetmədə təşkilat daxilində işçilər arasında mövcud olan sosial və kommunikasiya şəbəkələrini başa düşməyə və vizuallaşdırmağa yönəlmiş dəyərli metoddur. ONA məlumatın necə axdığı, əməkdaşlığın baş verdiyi və təşkilat daxilində təsirin necə paylandığı barədə fikirlər əldə etmək üçün bu əlaqələrin və qarşılıqlı əlaqələrin xəritələndirilməsini və təhlilini əhatə edir. ONA təşkilat daxilində fərdlər və ya komandalar arasında əlaqələri xəritələndirmək və vizuallaşdırmaq üçün sorğular, e-poçtlar və ya əməkdaşlıq alətləri kimi müxtəlif məlumat mənbələrindən istifadə edir [2, s.44]. Bu əlaqələrə rəsmi hesabat strukturları, qeyri-rəsmi əlaqələr, kommunikasiya nümunələri və əməkdaşlıq şəbəkələri daxil ola bilər. ONA, rəsmi liderlik vəzifələrini tutmasalar belə, təşkilat daxilində əsas təsir göstərən şəxslər kimi xidmət edən şəxsləri və ya komandaları müəyyən etməyə kömək edir. Bu təsir edənlər qərarların qəbul edilməsinə, məlumatların yayılmasına və yeni ideyaların və ya təşəbbüslərin qəbuluna əhəmiyyətli təsir göstərə bilər. ONA təşkilat daxilində məlumat və kommunikasiya axınının necə olduğunu göstərir. Şəbəkə məlumatlarını təhlil edərək, HR və təşkilat liderləri əməkdaşlığı, bilik mübadiləsini və çarpaz funksional komanda işini artırmaq imkanlarını müəyyən edə bilərlər. ONA mövcud əlaqələrdən və təcrübədən istifadə etmək üçün təşkilatlara komandalar və layihələrin qurulmasına kömək edə bilər.

Təşkilati Şəbəkə Təhlili HR və təşkilat liderləri üçün işçi qüvvəsinin dinamikasını anlamaq, əməkdaşlığı gücləndirmək və təşkilati struktur, liderliyin inkişafı və dəyişikliklərin idarə edilməsi ilə bağlı məlumatlı qərarlar qəbul etmək üçün güclü vasitədir. Bu, təşkilatlara ümumi performansı və effektivliyi artırmaq üçün əlaqələrin və şəbəkələrin gücündən istifadə etməyə imkan verir [4, s. 43].

İşçi qüvvəsinin müxtəliflik əmsalları və inklüziv təşəbbüslərin təsiri kimi müxtəlifliklə əlaqəli ölçüləri izləmək müxtəlifliyi təşviq etmək və inklüziv iş yerini inkişaf etdirmək üçün çox vacibdir. Müxtəlifliyi və inklüzivlik ölçülərini izləmək müxtəlifliyi təşviq etmək və inklüziv iş yeri mədəniyyətini inkişaf etdirmək öhdəliyi götürən təşkilatlar üçün çox vacibdir. Bu ölçülər təşkilatlara müxtəlif və əhatəli işçi qüvvəsinin yaradılmasında irəliləyişlərini qiymətləndirməyə kömək edən kəmiyyət məlumatları təqdim edir. İnsan resurslarının idarə edilməsində (HRM) tez-tez istifadə olunan bəzi əsas müxtəliflik və daxiletmə ölçüləri bunlardır:

Demoqrafik Qrup üzrə İşə Qəbul və Təqaüd Qiymətləri:

• Bu metrik müəyyən müddət ərzində işə götürülən və ya irəli çəkilən müxtəlif demoqrafik qruplardan olan işçilərin faizini izləyir.

• Bu, HR-ə işə qəbul və irəliləmə proseslərində müxtəlifliyin nəzərə alınıb-alınmadığını qiymətləndirməyə kömək edir və təkmilləşdirməyə ehtiyac duyulan sahələri müəyyənləşdirir.

Demoqrafik Qrup üzrə Saxlanma Dərəcələri:

• Saxlama dərəcələri təşkilatın müəyyən edilmiş müddət ərzində müxtəlif demoqrafik mənşəli işçiləri nə qədər yaxşı saxladığını ölçür.

• Demoqrafik qruplar üzrə saxlama dərəcələrində dəyişikliklərin müəyyən edilməsi potensial daxilolma problemlərini və ya əlavə dəstəyin lazım ola biləcəyi sahələri vurğulaya bilər.

Liderlik Rollarında Nümayəndəlik:

• Bu metrik rəhbər və rəhbər vəzifələrdə işçilərin müxtəlifliyini qiymətləndirir.

• Təşkilatların məqsədi liderlik rollarının müxtəlif olmasını və daha geniş işçi qüvvəsini təmsil etməsini təmin etməkdir, çünki müxtəlif liderlik daha inklüziv qərarların qəbuluna gətirib çıxara bilər.

Bu müxtəliflik və inklüzivlik ölçülərini müntəzəm olaraq izləmək və təhlil etmək təşkilatlara tərəqqini ölçməyə, hədəflər təyin etməyə və müxtəlifliyi təşviq etmək və bütün işçilərin özlərini dəyərli və daxil edilmiş hiss etdiyi inklüziv iş yeri yaratmaq üçün məlumat əsasında qərarlar qəbul etməyə imkan verir.

Effektiv HRM təhlili təşkilatın xüsusi məqsəd və problemlərinə uyğunlaşdırılmış bu metodların birləşməsini əhatə edir. Bu üsullardan əldə edilən anlayışlar HR strategiyalarını məlumatlandıra, qərar qəbulunu təkmilləşdirə və təşkilatın ümumi uğuruna töhfə verə bilər

**Nəticə**

İnsan potensialının idarə edilməsi təhlilində istifadə olunan mövzu metodlarının nəticəsi qərarların qəbulunu təkmilləşdirmək və biznes məqsədlərinə nail olmaqdır. Təşkilat daxilindəki insanlarla bağlı məlu-

matları toplamaq və təhlil etməklə, HR mütəxəssisləri işçilərin məmnunluğu, məşğulluq, performans və digər əsas sahələr haqqında dəyərli fikirlər əldə edə bilərlər. Bu məlumat daha sonra işçilərin təcrübəsini yaxşılaşdıran və biznes uğurunu təmin edən HR strategiyalarını hazırlamaq və həyata keçirmək üçün istifadə edilə bilər. HRM təhlili genişspektrli HR təşəbbüslərini dəstəkləmək üçün istifadə edilə bilər, o cümlədən:

- İstedadların idarə edilməsi;
- Performansın idarə edilməsi;
- Varisliyin planlaşdırılması;
- Kompensasiya və müavinətlər;
- Təlim və inkişaf;
- Müxtəliflik və inklüzivlik;
- İşçi münasibətləri.

Məlumatlı qərarlar qəbul etmək üçün HRM analizindən istifadə etməklə, HR mütəxəssisləri təşkilatlarına məqsədlərinə çatmaqda kömək etməkdə mühüm rol oynaya bilərlər. Bir şirkət satış departamentində kadr dəyişikliyinin əsas səbəblərini müəyyən etmək üçün HRM analizindən istifadə etdi. Təhlil göstərdi ki, yüksək dövriyyə səviyyəsi aşağı maaşlar, yüksək iş tələbləri və karyera inkişafı imkanlarının olmaması da daxil olmaqla amillərin birləşməsindən qaynaqlanır. Şirkət bu məlumatdan yeni təzminat planı hazırlamaq, iş tələblərini azaltmaq və satış nümayəndələri üçün yeni karyera yolları yaratmaq üçün istifadə edib. Nəticədə satış şöbəsində kadr dövriyyəsi 20% azalıb. Başqa bir şirkət işçilərin işini yaxşılaşdırmaq üçün HRM analizindən istifadə etdi. Təhlil göstərdi ki, işçilər özlərini dəyərli və təqdir olunduqlarını hiss etdikdə, öyrənmək və inkişaf etmək imkanları olduqda və yaxşı iş-həyat balansına malik olduqları zaman daha çox məşğul olurlar. Şirkət bu məlumatdan işçilərin tanınması və mükafatlandırılması, daha çox təlim və inkişaf imkanları təmin etmək və daha çevik iş tənzimləmələri təklif etmək üçün yeni proqramlar hazırlamaq üçün istifadə edib. Nəticədə işçilərin məşğulluğu 15% artdı. Üçüncü şirkət daha effektiv təlim proqramları hazırlamaq üçün HRM analizindən istifadə etdi. Bunlar HRM analizinin biznes məqsədlərinə çatmaq üçün necə istifadə oluna biləcəyinə dair bir neçə nümunədir. Məlumatlı qərarlar qəbul etmək üçün məlumatlardan istifadə etməklə HR mütəxəssisləri təşkilatlarının uğur qazanmasında mühüm rol oynaya bilərlər. Yekun olaraq, HRM təhlilində istifadə olunan üsullar HR mütəxəssislərinə insan kapitalını effektiv idarə etmək, əsaslandırılmış qərarlar qəbul etmək və təşkilatın ümumi uğuruna töhfə vermək imkanı verir. Bu üsullar işçi qüvvəsinin səmərəliliyini, işçilərin məmnuniyyətini artırır və təşkilatlara dinamik biznes mənzərəsində inkişaf etməyə imkan verir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *İlkin A. "İşletme Yönetimi", İstanbul, "İstanbul Üniversitesi İktisat Fakültesi Yayınları", 2019, 402 s.*
2. *Sancak E. "İnsan Kaynakları Yönetimi", İstanbul, "Yeditepe Üniversitesi Yayını", 2019, 332 s.*
3. *Selçuk H. "İnsan Kaynakları", İstanbul, "Tasam Yayınları", 2022, 401 s*
4. *Weiss L.J., Hobson M. "İnsan Kaynaklarında Güncel Yaklaşımlar", Ankara, "Dost Kitabevi", 2015, 450 s.*
5. *Yavilioğlu C. "İnsan Kaynakları Yönetimi", İstanbul, "Alfa Yayınları", 2021, 367 s.*
6. *Yılmaz B. "İnsan Kaynaklarında Güncel Konular" // "Yönetim ve Ekonomi Araştırmaları Dergisi", 2019, 9(15), 29-41 s.*


## XÜLASƏ


İnsan potensialının idarə edilməsi təhlilində istifadə olunan metodlar təşkilatın işçi qüvvəsinin səmərəli idarə edilməsində və onun strateji məqsədlərə uyğunlaşdırılmasında mühüm rol oynayır. Bu üsullar HR funksiyalarının optimallaşdırılmasına yönəlmiş geniş yanaşma spektrini əhatə edir. Kollektiv olaraq, bu üsullar HR mütəxəssislərinə insan kapitalını effektiv şəkildə idarə etmək, məlumatlı qərarlar qəbul etmək və təşkilatın ümumi uğuruna töhfə vermək imkanı verir. Bu üsullardan istifadə etməklə HRM təhlili təşkilatlara dəyişən biznes mühitlərinə uyğunlaşmağa, məhsuldarlığı artırmağa və işçilər üçün müsbət iş mühiti yaratmağa kömək edir.



**Açar sözlər:** *İnsan potensialı, idarəetmə, insan resurslarının idarə edilməsi*



**Гаджиевой Арзу Айдын**
***Азербайджанский Государственный Университет Нефти и Промышленности***
***e-mail: babaxanovaarzu@gmail.com***


## МЕТОДЫ ИСПОЛЬЗУЕМЫЕ В АНАЛИЗЕ УПРАВЛЕНИЯ ЧЕЛОВЕЧЕСКИМ РЕСУРСОМ

## РЕЗЮМЕ


Методы, используемые при анализе управле-

ния человеческим потенциалом, играют важную роль в эффективном управлении трудовыми ресурсами организации и их адаптации к стратегическим целям. Эти методы охватывают широкий спектр подходов, направленных на оптимизацию HR-функций. В совокупности эти методы позволяют HR-специалистам эффективно управлять человеческим капиталом, принимать обоснованные решения и способствовать общему успеху организации. Используя эти методы, HRM-анализ помогает организациям адаптироваться к меняющейся бизнес-среде, повысить производительность и создать позитивную рабочую среду для сотрудников.

**Ключевые слова:** *человеческий потенциал, менеджмент, управление человеческими ресурсами.*

**Hajiyeva Arzu Aydin**
***Azerbaijan State Oil and Industry University***
***e-mail: babaxanovaarzu@gmail.com***

**METHODS USED IN HUMAN RESOURCE MANAGEMENT ANALYSIS**

**SUMMARY**

The methods used in the analysis of human potential management play an important role in the efficient management of the organization's workforce and its adaptation to strategic goals. These methods cover a wide range of approaches aimed at optimizing HR functions. Collectively, these techniques enable HR professionals to effectively manage human capital, make informed decisions, and contribute to the overall success of the organization. Using these techniques, HRM analysis helps organizations adapt to changing business environments, increase productivity, and create a positive work environment for employees.

**Keywords:** *Human potential, management, human resources management.*

UOT 330.341.1
DOI:10.30546/3006-0346.2024.1.79.133

# AZƏRBAYCANDA ELEKTRON TİCARƏTİN TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**AYŞƏN HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
*E-mail: aysan7557@gmail.com*

## Giriş

Milli dövlətlər müxtəlif yollarla dünya bazarına daxil olan xarici bazarlardan gəlir əldə edirlər. Bazar strukturuna əsaslanaraq, hər bir ölkə öz iqtisadiyyatı daxilində daxili ixtisaslaşmanı və hasilatı gücləndirməklə qlobal bazardakı payını maksimuma çatdırmağı hədəfləyir. Bununla əlaqədar olaraq, müstəqil dövlət olan Azərbaycan Respublikası qlobal bazara müxtəlif mal və xidmətləri çıxara bilməsi üçün beynəlxalq standartlara cavab verən hüquqi-normativ baza yaradır və ixracın həcmini artırmaq üçün təşviqedici siyasət həyata keçirir. Son illərdə ölkəmizdə çoxsaylı qanunlar və dövlət əhəmiyyətli sənədlər təsdiq edilib.

## Elektron ticarətin dövlət tənzimlənməsinin zəruriliyi

Dövlətin iqtisadi funksiyalarını təşkil edən qanunvericilik, icra və nəzarət mexanizmləri bazar iqtisadiyyatı şəraitində müxtəlif məqsədlərə xidmət edir. Belə ki, insanların maddi rifahının yüksəldilməsi, onların hüquqi və sosial müdafiəsinin təmin edilməsi prioritet vəzifə kimi dövlət iqtisadiyyatının tənzimlənməsinin əsas məqsədi olmalıdır. Bunun üçün dövlət bütün təsərrüfat institutlarının fəaliyyətini tənzimləyən qanunlar qəbul etməklə sosial əlaqələr sistemini təkmilləşdirir.

Digər sferalar kimi ticarətin elektron formada həyata keçirilməsi də dövlət tərəfindən tənzimlənir. Elektron-ticarət, elektron-imza qanunları elektron ticarətdən istifadənin hüquqi əsasını tənzimləyir. Elektron ticarətin təşkili və tətbiqinin hüquqi əsasları, onun iştirakçılarının hüquq və vəzifələri, qanun pozuntusunun nəticələri "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Bu qanunda elektron ticarətin hüquqi tənzimlənməsinin əsas anlayışları əks olunmuşdur:

1. malların alışı və satışı, xidmətlərin göstərilməsi üzrə elektron ticarət – informasiya sistemləri vasitəsilə həyata keçirilən əməliyyatlar;

2. elektron ticarətdə iştirak edən tərəflər: alıcı, satıcı və vasitəçi rolunu yerinə yetirən hüquqi və fiziki şəxslər;

3. satıcı – məhsul satışını həyata keçirməklə elektron ticarətdə iştirak edən şəxs;

4. alıcı – satınalma prosesində məhsul və xidmətləri sifariş edən şəxs;

5. vasitəçi – elektron ticarəti asanlaşdırmaq üçün elektron sənədin göndəricisi və alıcısı arasında fəaliyyət göstərən fiziki və hüquqi şəxs [1].

Bu prinsiplər elektron ticarətin hüquqi tənzimlənməsinin əsasını təşkil edir: iştirakçıların qanun qarşısında bərabərliyi, iştirak edən tərəflərin iradə azadlığı, müqavilə azadlığı, azad və ədalətli rəqabət mühiti, maliyyə resurslarının, məhsul və xidmətlərin maneəsiz axını, hüquqların məhkəmədə təmin olunması.

Bunlarla yanaşı dövlət xüsusi qanunvericilik aktları ilə də kommersiya fəaliyyətini tənzimləyə və ona nəzarət edə bilər. Hansı ki, bunlara misal göstərə bilərik: kommersiya fəaliyyətinin bəzi növlərinin lisenziyalaşdırılması, onlara vergi güzəştlərinin tətbiqi, haqsız rəqabətin qadağan edilməsi və s.

## Elektron ticarət fəaliyyətində bank sferasında informasiya texnologiyalarının rolu

Bank fəaliyyəti ölkənin siyasi və iqtisadi vəziyyətinə birbaşa təsir göstərir. Bazar iqtisadiyyatına keçidin ilkin mərhələlərində ümumi iqtisadi göstəricilərdə nəzərə çarpacaq dərəcədə azalma müşahidə olunsa da, bank sferası sürətlə inkişaf etməyə davam etmişdir və ən çox qazanc gətirən sahə idi. Bank sisteminin əhəmiyyətli dərəcədə tərəqqi etməsi ilə paralel olaraq avtomatlaşdırılmış informasiya texnologiyalarının inkişafı və böyük həcmdə şəbəkə avadanlıqlarının alınması prosesi baş verdi. Sürətli xidmətin tətbiqinə yeni maliyyə xidmətləri, ipoteka, ticarət, beynəlxalq ödənişlər və digər şeylər daxildir. Bankların yeni tələblərə cavab vermək qabiliyyətinin artması nəticəsində yeni problemlər də ortaya çıxdı. Mərkəzi Bank və qanunvericilik strukturları tərəfindən tətbiq edilən dəyişikliklər bank sektorunun fəaliyyətini formalaşdırdığına görə maliyyə bazarlarının əməliyyatlarını izləmək və onları operativ qaydada tətbiq etmək çətinləşir. Bunun əsas izahı bank fəaliyyətinin avtomatlaşdırılmış informasiya

texnologiyalarından istifadəsinin müasir tələblərə cavab verməməsidir. Nəticə etibarilə, əsas diqqət bank əməliyyatlarının qlobal normalara mütərəqqi uyğunlaşdırılmasına yönəldilir.

Elektron ticarət zamanı ödənişi həyata keçirmək məqsədilə şirkətlər tərəfindən təklif edilən pul məhsullarının 2 əsas modeli var:

1) DigiCash şirkəti tərəfindən təklif olunan elektron pul

2) Mondex şirkəti tərəfindən tətbiq olunan smart kartlar

İnternet mağazasından alış-veriş etmək üçün istifadəçi elektron pulu bank hesabından müəyyən edilmiş proqram vasitəsilə öz elektron pul kisəsinə yükləyə bilər.

Smart kart – mikroçip ilə təchiz edilmiş plastik kartdır. Smart kartlar ödəniş prosesini asanlaşdırmaqla yanaşı, onlar istənilən sektorda istifadə oluna bilər. Kart bir sıra üstünlük göstəricilərinə malikdir: sürətli olması, onlayn və oflayn rejimdə işləmək imkanına malik olması, təhlükəsizlik, funksionallıq [2, s.12]

Ölkədaxili elektron ticarət əməliyyatların həcmində son illərdə müsbət dinamika müşahidə olunmaqdadır. 2016-cı ildə ölkə üzrə POS terminallar vasitəsilə edilən bütün nağdsız ödənişlərin 0.2% - ni təmassız ödənişlər təşkil edirdisə, 2020-ci ilə qədər bu faiz 39% - ə yüksəlmişdir [3].

**Diaqram 1.**




Göstəricilərin sürətlə artmasına baxmayaraq, ölkə əhalisi zəif nağdsız ödəniş vərdişlərinə malik olmaqda davam edir. Buna görə də 2020-ci ildə Azərbaycan vətəndaşı tərəfindən edilən orta nağdsız ödəniş göstəricisi 15 olsa da, qabaqcıl dövlətlər daha yaxşı göstəricilərə malikdirlər – Latviyada 184, Rusiyada 318, Böyük Britaniyada 450.

“2018 – 2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı” nağdsız ödəniş mühitini əhəmiyyətli dərəcədə genişləndirməklə, dövriyyədə olan nağd pul vəsaitlərinin həcminin azaldılması və nəticədə bank sektorunun maliyyə resurs bazasının gücləndirilməsi məqsədi daşıyır. Burada əsas strateji hədəflər ölkə ərazisində ödəniş xidmətlərinin infrastruktur imkanlarını artırmaqla, bu xidmətlərin keyfiyyətini yaxşılaşdırmaq və tətbiq dairəsini genişləndirməkdir. Banklar rəqəmsal ödənişlərin tətbiq dairəsini artırmaqla, nağd pul ilə bağlı əməliyyat xərclərini azaldacaqdır ki, bu da, öz növbəsində, iqtisadi inkişafa təkan verəcəkdir. Dövlət Proqramında 2019-cu il üzrə nəzərdə tutulmuş tədbirlərin 50%-i yerinə yetirilib, 2%-i qismən icra olunub, 48%-i isə icra edilməmişdir. Proqramın müvafiq müddət ərzində icrasına görə ümumilikdə 51 bal verilib [4, s.10].

**Elektron ticarətdə gömrük tənzimlənməsi**

Respublika ərazisində idxal-ixrac əməliyyatlarında elektron ticarətin tənzimlənməsi istiqamətində Dövlət Gömrük Komitəsi bir sıra sahələrdə hüquqi tərəfdaşlıq standartlarını tətbiq edir. Ümumdünya Gömrük Təşkilatı ilə davamlı əlaqə əsas məqsədlərdən biri kimi çıxış edir. Buna görə də, Dövlət Gömrük Komitəsi Ümumdünya Gömrük Təşkilatının inkişafı üçün bir sıra strateji istiqamətlərin formalaşdırılmasında daha fəal iştirak edir və bununla da gömrük prosedurlarının effektivliyini artırır. Ölkəmizdə gömrük sisteminin təkmilləşməsinə Dövlət Gömrük Komitəsinin bütün sahələrdə beynəlxalq müqavilələrə üstünlük verməsi kömək edir. İran, Gürcüstan, Türkiyə arasında əlaqələr durmadan inkişaf edir və yardımla bağlı bir sıra sazişlər imzalanmışdır ki, bu da gömrük sahəsində əməkdaşlığın yüksək səviyyədə olduğunu nümayiş etdirir.

Gömrük fəaliyyətinin inkişafının başlıca istiqamətlərindən biri gömrük tənzimlənməsinin hüquqi bazasının təkmilləşdirilməsidir. Gömrük tarifi qaydaları dünya ölkələrinin əksəriyyətində yenidən nəzərdən keçirilib və inkişaf etdirilib. Burada məqsəd daha sadə və dəqiq qanunlar yaratmaq, eyni zamanda onları beynəlxalq konvensiyaların, sazişlərin və digər beynəlxalq anlaşmaların təlimatları, standartları ilə daha sıx uyğunlaşdırmaqdır. Zaman keçdikcə gömrük nəzarətini tənzimləyən təşkilati, hüquqi və inzibati strukturların dünya miqyasında inteqrasiyası baş verdi. Dünya ölkələrinin əksəriyyətində ümumi, hüquqi və təşkilati standartlar və qanunlar çərçivəsində qurulmuş milli gömrük sistemləri mövcuddur ki, bu da beynəlxalq ticarətin

son zamanlar intensiv şəkildə genişlənməsinə şərait yaratmışdır. ÜTT-nın 1995-ci ildə təsis edilməsi və onun əsasını təşkil edən bir sıra hüquqi sənədlərin qəbulu bu prosesin əsas mərhələsidir.

Gömrük əməliyyatlarının inkişafı hüquqi baza ilə yanaşı, informasiya-kommunikasiya texnologiyaları baxımından da vacibdir. Nəticədə, gömrük orqanları zaman keçdikcə daha çox elektron xidmətlər təklif edirlər ki, bu da bütövlükdə milli iqtisadiyyatın inkişafına töhfə verir. Bu xidmətlər həmişə elektron formada ölkəmizdə və xaricdə fəaliyyət göstərən, kommersiya və digər fəaliyyətlə məşğul olan şəxslər və hüquqi təşkilatlar üçün əlçatandır. Tez-tez həyata keçirilən xidmət yeniləmələri ölkənin yerli bazarının müdafiəsinə, ixracı təşviq etməyə kömək edir. Bu istiqamətdə atılan son addımlar ticarət və gömrük proseslərinin sadələşdirilməsi üzrə mühüm seçimlərin edilməsinə səbəb olmuşdur. Gömrük Məcəlləsindəki dəyişikliklər də belə proseslərdən biridir. "Gömrük işində informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən istifadə Qaydaları"-nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 166 nömrəli qərarı mövcuddur [5]. Qanunvericilik bazası təkmilləşdikcə həyata keçirilən fəaliyyətlər müasir meyarlara cavab verir.

### Nəticə

Araşdırmalar göstərir ki, dünyəvi qanunlara riayət etməklə yerli iqtisadiyyatın maraqlarını müdafiə etmək və xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq vacibdir. Bu günlərdə Azərbaycan hökumətinin beynəlxalq ticarəti tənzimləmək üçün həyata keçirdiyi hər bir siyasət ticarəti tam liberallaşdırmalı və onun davamlı iqtisadi artım ehtiyaclarına ən yaxşı formada xidmət edəcək şəkildə necə tənzimləyəcəyini müəyyən etməlidir. Bu, ticarət siyasətini formalaşdıran bütün dövlət təşkilatlarının səylərini ticarətlə bağlı problemlərin həlli yollarının tapılması üzərində cəmləşdirilməsini vacib edir.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 10 may 2005-ci il, № 908-IIQ*

*2. Azərbaycan Respublikası Vergilər Nazirliyi. Elektron Ticarətdə Ödəniş Sistemləri. https://taxes.gov.az/uploads/beynelxalq/2015/_b2.pdf*

*3. Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-2023-cü illər üçün Rəqəmsal Ödəniş Strategiyaları.*

*4. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ 2016-2021. Bakı 2021. – 88 s.*

*5. "Gömrük işində informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. Bakı şəhəri, 3 avqust 2012-ci il, № 166*


### XÜLASƏ


Bütün dünya dövlətləri artıq tənzimlənmənin faydalarını dərk edir və bu siyasətlərə qlobal ticarətə nəzarət etmək üçün mühüm alətlər kimi baxırlar. Bu prizmadan baxsaq, görə bilərik ki, Azərbaycan Respublikasının etibarlı tərəfdaş kimi qlobal iqtisadi sistemə daxil olması onun beynəlxalq ticarəti üçün ideal parametrlərin müəyyənləşdirilməsi zərurətini, eləcə də cari tələblərə cavab verə biləcək səmərəli gömrük əməliyyatlarının həyata keçirilməsi zərurətini ortaya qoyur və belə fəaliyyət üçün əlverişli şərait yaradır. Məqalənin məqsədi Azərbaycanda idxal-ixrac zamanı elektron ticarətin tənzimlənməsi məsələlərini təhlil etmək və onun inkişaf perspektivlərini araşdırmaqdır.



**Açar sözlər:** *elektron ticarət, informasiya texnologiyaları, valyuta nəzarəti, rəqəmsal ödənişlər, inkişaf.*



**АЙШАН ГУСЕЙНОВА**

***Магистрант Бакинский Государственный Университет***

***Электронная почта: aysan7557@gmail.com***


### Резюме

### СОВЕРШЕНСТВОВАНИЕ РЕГУЛИРОВАНИЯ ЭЛЕКТРОННОЙ ТОРГОВЛИ В АЗЕРБАЙДЖАНЕ


Государства всего мира уже осознают преимущества дерегулирования и рассматривают эту политику как важные инструменты для контроля мировой торговли. Если мы посмотрим сквозь эту призму, то увидим, что включение Азербайд-

жанской Республики в глобальную экономическую систему в качестве надежного партнера выявляет необходимость определения идеальных параметров для ее международной торговли, а также осуществления эффективных таможенных олераций, которые могут удовлетворить текущим требованиям, и создает благоприятные условия для такой деятельности. Целью статьи является анализ вопросов регулирования электронной торговли при импорте-экспорте в Азербайджане и изучение перспектив ее развития.

**Ключевые слова:** *электронная коммерция, информационные технологии, валютный контроль, цифровые платежи, развитие*

**AYSHAN HUSEYNOVA**
**Master student of Baku State University**
**E-mail: aysan7557@gmail.com**

**Summary**

**IMPROVING THE REGULATION OF E-COMMERCE IN AZERBAIJAN**

All states of the world are already aware of the benefits of regulation and see these policies as important tools for controlling global trade. If we look at it from this perspective, we can see that the entry of the Republic of Azerbaijan into the global economic system as a reliable partner reveals the need to determine ideal parameters for its international trade, as well as the need to carry out effective customs operations that can meet current requirements and creates favorable conditions for such activity. The purpose of the article is to analyze the issues of regulation of e-commerce during import and export in Azerbaijan and to explore its development prospects.

**Keywords:** *e-commerce, information technology, currency control, digital payments, development.*

UOT 334
DOI:10.30546/3006-0346.2024.1.79.137

# AZƏRBAYCAN RESPUBLİKASININ REGİONAL İQTİSADİ İNKİŞAF SİYASƏTİNİN TƏHLİLİ

**AYTAC OSMANLI**
*Azərbaycan Dövlət İqtisad Universitetinin magistrı*

*E-mail: aytacosmanli9213@gmail.com*

## Giriş

İqtisadi sistemlər dinamik sistemlərdir və onlarda baş verən dəyişikliklərin xarakteri və nəticələri böyük elmi və praktik əhəmiyyət kəsb edir. Bu cür dəyişikliklər fərdlərin və cəmiyyətin rifahına təsir göstərir və son nəticədə millətin sosial-siyasi quruluşunun inkişafına da təkan verir. Ona görə də, regional iqtisadiyyat milli iqtisadiyyatın ərazi xüsusiyyətlərini özündə birləşdirən çərçivəni müəyyənləşdirir. Regional iqtisadiyyat sahəsində aparılan araşdırmalar iqtisadi fəaliyyətin ərazilər üzrə bölgüsünü tənzimləyən amilləri müəyyənləşdirməyə və bu kontekstdə dəyişiklikləri öyrənməklə fərdi və ictimai baxımdan faydalı nəticələr əldə etməyə çalışır.

Dövlət ictimai həyatın müxtəlif aspektlərinin tənzimlənməsi, o cümlədən, insanların hüquqlarının qorunması, təhlükəsizliyin təmin edilməsi və iqtisadiyyatın inkişafı ilə bağlı bir sıra alətlər və mexanizmlərdən istifadə edir. Məhz bu kontekstdə, fenomenal anlayış kimi qəbul edilən dövlət idarəçiliyi uzun tarixi dövr ərzində politologiya elminin hüdudları çərçivəsində nəzərdən keçirilib öyrənilsə də, bu istiqamətdə ictimai fikrin inkişafı ilə əlaqədar olaraq, XIX əsrin sonlarından etibarən müstəqil elmi tədqiqat sahəsi kimi öyrənilməyə başlanılmışdır [5].

Regional iqtisadiyyat sistemi qarşıya qoyulan iqtisadi və sosial məqsədlərin icrasına yönəlik fəaliyyət göstərir və bu məqsədlərin əksəriyyətində sosial mahiyyət üstünlük təşkil edir. Daha dəqiq ifadə etsək, regional iqtisadiyyat sistemi eyni zamanda bir çox məqsədlərin daşıyıcısı olmasına baxmayaraq, müasir iqtisadi şəraitdə regional iqtisadi siyasətin başlıca qayəsi sosial-iqtisadi inkişafın təmin edilməsindən ibarətdir. Dövlətin çağdaş regional siyasəti mərkəzi hakimiyyətin ölkənin müxtəlif regionlarının inkişafına dair qəbul olunmuş plan və proqramlarında öz əksini tapan strateji yanaşmasını əks etdirir.

## Regional iqtisadiyyata dair yanaşmalar

Region anlayışının müəyyənləşdirilməsi ilə əlaqədar bir çox yanaşmalar vardır. Bu baxımdan, Şatalinin yanaşmasına görə, region deyərkən müəyyən ərazi vahidlərinin iqtisadi və sosial inkişafı, eləcə də, bu zaman ictimai istehsal imkanlarından səmərəli istifadə başa düşülür. Məhz bu proses sosial və biznes infrastrukturun inkişafına səbəb olur ki, bu da regionun inzibati struktur vahidi kimi də qəbul edilməsinə imkan verir [3]. Deutsch isə region terminini digər ölkələrlə müqayisə zamanı fərqli göstəricilər üzrə eynilik nümayiş etdirən qruplar kimi xarakterizə etmişdir. Buradan belə qənaətə gəlmək olar ki, bu yanaşma ölkə daxilində oxşar xüsusiyyətlərlə səciyyələndirilən ayrı-ayrı bölgələr də region anlayışına uyğun gəlir. Belə olan halda regionlar ümumi istehsal və resurs potensialına, eyni təmərküzləşmə meyillərinə malik ərazi vahidləri kimi qəbul oluna bilər.

Regional iqtisadiyyat məkan baxımından resursların qeyri-bərabər paylanması şəraitində tələbin səviyyəsini, mövcud istehsal qabiliyyətini, istehsalın və inkişaf göstəricilərinin artım templərini, həmçinin, gəlirlərin bölüşdürülməsini tənzimləyən iqtisadiyyat sahəsi kimi çıxış edir. Bundan əlavə, yerli iqtisadi inkişaf modelləri məkanı iqtisadi resurs və müstəqil istehsal faktoru kimi və onun daxilində yerləşən firmalar üçün statik və dinamik üstünlüklər yaradan meyar kimi qəbul etdiyi zaman regional iqtisadiyyatın təhlilində əsas tədqiqat predmeti "məkan"dan "ərazi"yə, başqa cür ifadə etsək, yerli ictimai istehsal sisteminin rəqabət qabiliyyətinin müəyyən edilməsində aparıcı elementə çevrilir [2].

Bir az dəqiqləşdirilmiş şəkildə ifadə etsək, regional iqtisadiyyat submilli iqtisadi sistemin, yəni - regionun, vilayətin, şəhərin, eləcə də spesifik iqtisadi xüsusiyyətlərə malik hər hansı ərazinin iqtisadi baxımdan inkişafını təmin etmək məqsədilə uzunmüddətli fəaliyyət planının gerçəkləşdirilməsi imkanlarını təhlil edir. Bu mənada, "regional iqtisadi inkişaf" deyərkən, yerli iqtisadi sistemin malik olduğu resurslardan səmərəli və yaradıcı şəkildə istifadə edilməsi, beynəlxalq əmək bölgüsündə regionun özünəməxsus rolunun müəyyən edilməsi və onun bu rolunun daimi şəkildə qorunub saxlanılması və möhkəmləndirilməsi başa düşülür [1]. Bununla belə, regional siyasət müxtəlif regionlar arasındakı əlaqələrin inkişaf perspektivlərini də əhatə edir və bir çox hal-

larda regional siyasətin hədəfləri ölkənin milli iqtisadiyyat hədəflərini özündə təcəssüm etdirir.

**Azərbaycanda regional iqtisadi inkişafın əsas məqsədləri və nəticələri**

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan Respublikası karbohidrogen resursların satışından və nəqliyyat dəhlizlərinin inkişafından səmərəli istifadə etməklə milli iqtisadiyyatın digər sahələrinin də inkişaf etdirilməsinə başladı. Bu, baxımdan, əsas strateji istiqamətlərdən birini də regional iqtisadiyyatın inkişafı və bölgələrdə qeyri-neft sektoruna əsaslanan iqtisadi diversifikasiyanın həyata keçirilməsi oldu. Ümumilikdə milli iqtisadiyyatın şaxələndirilməsini nəzərdə tutan bu siyasətin əsas ağırlıq mərkəzi regionların üzərinə düşürdü. Bu, onunla bağlıdır ki, regionlar təbii-iqtisadi resurslarla zəngin və istehsal amillərinə görə böyük potensiala malik idi. Bununla belə, sosial-iqtisadi infrastrukturun zəif olması qarşıya qoyulan məqsəd və vəzifələrin reallaşdırılması istiqamətində maneəyə çevrilirdi. Buna görə də, regionlarda infrastrukturun inkişaf etdirilməsinə, region iqtisadiyyatlarına dövlət və özəl investisiyaların cəlb edilməsinə böyük önəm verildi. Bu məqsədlə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları bölgələrin iqtisadi potensialını gücləndirdi və regional ərazilərin müəyyən mənada simasını dəyişdirdi.

Azərbaycan Respublikasında həyata keçirilən regional iqtisadi siyasətin əsas məqsədlərini və elementlərini qəbul edilən bir sıra dövlət proqramlarında, strateji sənədlərdə və eləcə də milli iqtisadiyyatda əldə edilən nəticələrdə region iqtisadiyyatının payında görmək olar. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 11.02.2004-cü il tarixində təsdiq edilən müvafiq Fərmanla 2004-2008-ci illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ölkəmizdə bu çapda icraya götürülən birinci dövlət proqramı kimi xüsusi əhəmiyyət daşımışdır. Bəhs edilən Proqramın başlıca qayəsi ölkədə qeyri-neft sahələrinin, bölgələrin dayanıqlı və tarazlı inkişafına nail olmaq və bu məqsədlə bölgələrimizdə kommunal xidmətlərin göstərilməsi səviyyəsini qaldırmaq, sosial infrastruktur imkanlarını genişləndirmək, özəl sektor hesabına insanların məşğulluq göstəricilərinin artırılmasından ibarət olmuşdur.

Bunun ardınca isə 2004-cü ildən başlayaraq əldə olunan uğurları davam etdirmək, yəni, qeyri-neft sahələrinin hesabına milli iqtisadiyyatın şaxələndirilməsini genişləndirmək, regionların sosial-iqtisadi inkişafının artırılması nəticəsində insanların həyat standartlarının daha da yüksəldilməsinə nail olmaq məqsədilə 14.04.2009-cu il tarixində "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul olunmuşdur.

27.02.2014-cü il tarixində qəbul olunmuş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Qeyd olunan üçüncü dövlət Proqramının əsas məqsədi Azərbaycanda milli iqtisadiyyatın qeyri-neft sənayesi əsasında rəqabətcil inkişafına nail olmaqla diversifikasiyasını həyata keçirmək, bunun üçün islahatları başlanılmış istiqamətlər üzrə fəaliyyəti davam etdirmək, eləcə də ucqar ərazilərdə əhaliyə göstərilən sosial xidmət səviyyəsinin və infrastrukturun inkişaf etdirilməsi nəzərdə tutulmuşdur

29.01.2019-cu il tarixində təsdiq olunmuş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ötən müddət ərzində həyata keçirilən proqramlar əsasında əldə olunmuş uğurlu nəticələri davam etdirmək, eləcə də, qeyri-neft sektoru və milli iqtisadiyyatın diversifikasiyası sahəsində daha yüksək nəticələr əldə etməklə məşğulluq imkanlarının genişləndirilməsi hesabına yoxsulluq səviyyəsinin daha da azaldılmasına nail olmaqdır [4]. Proqramların həyata keçirildiyi dövr və ondan sonrakı mərhələdə əldə olunan proqressiv nəticələr və ümumi təcrübə qəbul olunan sənədlərin uğurla icra olunduğunu deməyə əsas verir.

Azərbaycanın inkişafında yeni mərhələnin başlanması "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı strateji sənədin hazırlanmasını və icrasını günün tələbi səviyyəsinə gətirmişdir. Beləliklə, 2030-cu ilədək olan dövrdə dayanıqlı inkişafın təmin edilməsi əldə edilmiş uğurlara əsaslanmaqla sosial-iqtisadi layihələrin və bu yönümdə dövlət siyasətinin yeni reallıqlara uyğun şəkildə davam etdirilməsini zərurət halına çevirir. Sənədin qəbul edilməsi olduqca böyük əhəmiyyətə malikdir və aşağıdakı istiqamətlərin inkişafını özündə ehtiva edir.

1. "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat"
2. "Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət"

3. “Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı”

4. “İşğaldan azad olunmuş torpaqlara Böyük Qayıdış”

5. “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi”.

Sənəddə əksini tapan strateji istiqamətlərə baxdıqda onların qlobal iqtisadi tendensiyalara və Azərbaycanın yeni iqtisadi reallıqlarına və strateji məqsədlərinə adekvat olduğunu görürük [9]. Həyata keçirilən müvafiq iqtisadi siyasət əsasən özəl sektorun rəqabət qabiliyyəti və ölkə iqtisadiyyatında çəkisinin artırılmasına, qeyri-neft sektorunun inkişafına yönəldiyinə görə, nəticələrin təhlili üçün qeyri-neft sektorunun milli iqtisadiyyatda payının və sahibkarlıq subyektləri içərisində regionlarda yerləşən subyektlərin ümumi payının nəzərdən keçirilməsi məqsədəuyğun olar.

Aydın məsələdir ki, ölkədə qeyri-neft sektorunun inkişafının əsas drayveri özəl sektorda təmsil olunan sahibkarlardır. Bu kontekstdə, 2022-ci il üzrə müvafiq sektorda müsbət inkişaf meyilləri qeydə alınmışdır. Məsələn, qeyri-neft sektorunda ÜDM-in artım göstəricisi 2021-ci illə müqayisədə 9,1 faiz olmuşdur ki, bu da 69,8 milyard AZN deməkdir [7].

Digər müsbət tendensiya qeyri-neft ixracında qeydə alınmışdır ki, 2022-ci ildə bu göstəricinin həcmi 3,05 milyard dollar təşkil etmişdir. Bu da öz növbəsində böyük miqyasda sahibkarlıq müəssisələrinin prosesdə iştirakı hesabına baş vermişdir [6].

Dövlət Statistika Komitəsi tərəfindən açıqlanmış son məlumatlara müraciət etdikdə görə bilirik ki, postpandemiya dönəmində, daha dəqiq desək 2021-ci il ərzində ölkəmizdə sahibkarlıq müəssisələrinin sayı 12,5% çoxalmışdır. 2020-ci illə müqayisə apardıqda aydın olur ki, həmin ildə sahibkarlıq subyektlərinin sayı 316370 olduğu halda, 2021-ci il ərzində bu rəqəm 355906-ya çatmışdır. Əlbəttə ki, kifayət qədər ciddi artım olan bu göstərici milli iqtisadiyyatımızda özəl sektorun xüsusi çəkisinin artmasına təkan verir. Ancaq mənfi meyil ondan ibarətdir ki, müqayisə olunan iki il ərzində regional iqtisadiyyatın payına düşən biznes subyektlərinin sayı Bakı şəhəri üzrə fəaliyyətdə olan subyektlərlə müqayisədə nisbətən azalmışdır. Beləliklə, 2021-ci ilin sonuna olan göstərici ölkədə mövcud olan sahibkarlıq təsisatlarının 49% hissəsinin Bakı şəhərinin, 51% hissəsinin isə digər iqtisadi rayonların payına düşdüyünü göstərir.

**Qrafik 1. Mövcud olan sahibkarlıq subyektlərinin sayına görə ölkə üzrə paylanması.**




*Mənbə: Dövlət Statistika Komitəsi. (2023).*

Təbii ki, məcmu sahibkarlıq subyektlərinin sayının əhəmiyyətli dərəcədə artması sevindirici olsa da, ümumi say nisbətində regional sahibkarların sayının Bakı şəhəri ilə müqayisədə o qədər də müsbət hal deyir. Bununla belə, ümumi mənzərə böyük perspektivlərin olduğundan xəbər verir. Belə ki, Şərqi Zəngəzur və eləcə də Qarabağ iqtisadi rayonlarında görülən işlər və sahibkarlığın inkişafı məqsədilə yaradılan imkanlar, təşviq siyasəti və bu bölgələrin özünün təbii biznes potensialı yaxın illərdə mövcud göstəricinin bölgələrin xeyrinə əhəmiyyətli səviyyədə dəyişəcəyini söyləməyə əsas verir.

## Nəticə

Regional iqtisadiyyat submilli iqtisadi sistemin, yəni - regionun, vilayətin, şəhərin, eləcə də spesifik iqtisadi xüsusiyyətlərə malik hər hansı ərazinin iqtisadi baxımdan inkişafını təmin etmək məqsədilə uzunmüddətli fəaliyyət planının gerçəkləşdirilməsi imkanlarını təhlil edir. Azərbaycanın regional iqtisadiyyat sahəsində siyasətini qəbul olunmuş strateji sənədlərdə görmək olar. Proqramların həyata keçirildiyi dövr və ondan sonrakı mərhələdə əldə olunan proqressiv nəticələr və ümumi təcrübə qəbul olunan sənədlərin uğurla icra olunduğunu deməyə əsas verir. 2021-ci il ərzində ölkəmizdə sahibkarlıq müəssisələrinin sayı 12,5% çoxalmışdır. 2020-ci illə müqayisə apardıqda aydın olur ki, həmin ildə sahibkarlıq subyektlərinin sayı 316370 olduğu halda, 2021-ci il ərzində bu rəqəm 355906-ya çatmışdır. 2021-ci ilin sonuna olan göstərici ölkədə mövcud olan sahibkarlıq təsisatlarının 49% hissəsinin Bakı şəhərinin, 51% hissəsinin isə digər iqtisadi rayonların payına düşdüyünü göstərir. Qeyri-neft sektorunda ÜDM-in artım göstəricisi 2021-ci illə müqayisə olunduqda 2022-ci ildə 9,1 faiz olmuşdur ki, bu da 69,8 milyard AZN

deməkdir. Digər müsbət tendensiya qeyri-neft ixracında qeydə alınmışdır ki, 2022-ci ildə bu göstəricinin həcmi 3,05 milyard dollar təşkil etmişdir. Təhlil göstərir ki, uğurlu dövlət siyasəti və mövcud potensial Azərbaycanda qeyri-neft sektorunun inkişafına və burada regionların payının artmasına böyük imkanlar vardır.

### ƏDƏBİYYAT SİYAHISI:


1. *Camagni, R. (2017). On the concept of territorial competitiveness: sound or misleading?. Seminal Studies in Regional and Urban Economics: Contributions from an Impressive Mind, 93-113.*
2. *Roberta Capello. (2016). Regional Economics. Second edition.*
3. *Шаталин С.С. Функционирование экономики развитого социализма: Теория, методы и проблемы. М., 1982.*
4. *https://president.az/az/articles/view/31697*
5. *Həsənov H.S, Şahbazov K.A. (2011). Dövlət və bələdiyyə idarəçiliyi. Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. – 440 səh.*
6. *İİTM. İxrac İcmalı. (2023). Yanvar, № 1 (70).*
7. *İqtisadiyyat Nazirliyi. (2023). Qeyri-neft sektorunun inkişafı (2022-ci il).*
8. *Dövlət Statistika Komitəsi. (2023). Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq.*
9. *https://president.az/az/articles/view/50474*


### XÜLASƏ


Müasir bazar iqtisadiyyatı sistemi qlobal miqyasda ayrı-ayrı milli iqtisadiyyatlar üçün yeni çağırışlar meydana gətirmişdir. Müşahidə olunan iqtisadi tendensiyalar, liberal iqtisadiyyatın sərhədlərinin genişlənməsi milli iqtisadiyyatların rəqabət qabiliyyətinin artırılması, ölkənin makroiqtisadi sabitliyinin qorunması istiqamətində proqram və layihələrin icrası hökumətlər tərəfindən həyata keçirilən iqtisadi siyasət konsepsiyasının özəyini təşkil edir. Bu kontekstdə, iqtisadiyyatın şaxələndirilməsi və müxtəlif ərazilərin dayanıqlı sosial-iqtisadi inkişafının təmin olunması ölkələrin əsas prioritetləri sırasında yer almaqdadır. Buna görə də, iqtisadiyyatın rəqabətcil inkişafını nəzərdə tutan strateji hədəflər onun iqtisadi potensialından səmərəli istifadə olunmasını əsas vəzifələrdən biri kimi qarşıya qoyur. Təqdim olunan məqalədə regional iqtisadiyyat konsepsiyası, onun müəyyənləşdirilməsi ilə bağlı yanaşmalar nəzərdən keçirilməklə Azərbaycanın regional iqtisadi siyasətinin əsas istiqamətləri və əldə olunan nəticələr təhlil edilmişdir. Araşdırmanın aparılması zamanı, ədəbiyyat icmalı, mövzu üzrə məzmun təhlili, müqayisə və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.



**Açar sözlər:** *Region, iqtisadiyyat, inkişaf, sahibkarlıq, statistika.*



**A.Osmanli**


**Analysis of the regional economic development policy of the Republic of Azerbaijan**

**SUMMARY**


The modern market economy system has created new challenges for individual national economies on a global scale. The observed economic trends, the expansion of the boundaries of the liberal economy, the increase of the competitiveness of national economies, the implementation of programs and projects in the direction of protecting the macroeconomic stability of the country form the core of the economic policy concept implemented by the governments. In this context, the diversification of the economy and the provision of sustainable socio-economic development of different areas are among the main priorities of the countries. Therefore, the strategic goals that envisage the competitive development of the economy set the effective use of its economic potential as one of the main tasks. In the presented article, the regional economic concept, the approaches related to its definition are reviewed, the main directions of Azerbaijan's regional economic policy and the obtained results are analyzed. During the research, literature review, content analysis, comparison and generalization methods were used.



**Key words:** *Region, economy, development, entrepreneurship, statistics.*



**А.Османлы**


**Анализ политики регионального экономического развития Азербайджанской Республики**

**РЕЗЮМЕ**


Современная система рыночной экономики создала новые вызовы для отдельных национальных экономик в глобальном масштабе. Наблюдаемые экономические тенденции, расширение границ либеральной экономики, повышение конкурентоспособности национальных экономик,

реализация программ и проектов в направлении защиты макроэкономической стабильности страны составляют ядро реализуемой концепции экономической политики. правительствами. В этом контексте диверсификация экономики и обеспечение устойчивого социально-экономического развития различных сфер являются одними из главных приоритетов стран. Поэтому стратегические цели, предусматривающие конкурентоспособное развитие экономики, ставят в качестве одной из главных задач эффективное использование ее экономического потенциала. В представленной статье рассматриваются региональная экономическая концепция, подходы, связанные с ее определением, анализируются основные направления региональной экономической политики Азербайджана и полученные результаты. В ходе исследования были использованы обзор литературы, контент-анализ, методы сравнения и обобщения.

**Ключевые слова:** *Регион, экономика, развитие, предпринимательство, статистика.*

# AZƏRBAYCANIN GÖMRÜK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

UOT 33
DOI:10.30546/3006-0346.2024.1.79.142

**İLKİN CƏFƏRZADƏ**
*Bakı Dövlət Universiteti, magistr*
*E-mail: cefilkin@gmail.com*

## Giriş

Bir millətin gömrük sistemi onun daxili iqtisadiyyatı ilə qlobal bazar arasında həlledici əlaqə vasitəsi kimi çıxış edir. Zəngin iqtisadi fəaliyyət sisteminə malik, Avropa ilə Asiyanın kəsişməsində strateji coğrafi mövqeyə malik ölkə olan Azərbaycan kontekstində onun gömrük proseslərinin səmərəliliyi hər şeydən üstündür. Azərbaycanın gömrük sisteminin təkmilləşdirilməsi, tarixi kontekst, müasir çağırışlar və ölkənin iqtisadi infrastrukturunun bu ayrılmaz komponentinin islahatı və modernləşdirilməsindən irəli gələn gözlənilən faydaların tədqiqi məhz Azərbaycanın gömrük sisteminin təkmilləşdirilməsinin araşdırılmasına gətirib çıxaracaqdır.

## Azərbaycanın Gömrük Sisteminin Təkamül Tarixi

Azərbaycanda formal gömrük əməliyyatlarının qurulmasını onun İpək Yolu ticarət yolunun bir hissəsi olduğu qədim dövrlərə aid etmək olar. İpək Yolu boyunca ticarət inkişaf etdikcə gömrük postları malların daşınmasını idarə etmək və vergiləri toplamaq üçün mühüm nəzarət məntəqələri kimi meydana çıxdı. Bu ilkin gömrük sistemləri nəinki Azərbaycanla qonşu regionlar arasında ticarəti asanlaşdırdı, həm də mədəni mübadilə və biliklərin ötürülməsinə töhfə verdi.

Orta əsrlər dövründə Azərbaycan müxtəlif imperiyaların, o cümlədən Fars, Ərəb, Monqol və Osmanlı imperiyalarının yüksəlişini və süqutunu yaşamışdır. Hər bir fateh Azərbaycanın gömrük sistemində özünəməxsus nizam-intizam və adət-ənənələr əlavə edərək öz izini qoyub. Bu dövrlər gömrük çərçivəsində inzibati strukturların, tarif sistemlərinin, yığım mexanizmlərinin inkişafının şahidi olmuşdur [3, s.27].

XVIII-XIX əsrlərdə Rusiya imperiyasının Azərbaycana təsiri gömrük sistemində mühüm dəyişikliklərə səbəb oldu. Rusiya hakimiyyəti mərkəzləşdirilmiş fiskal idarəçiliyin yaradılması məqsədi ilə gömrük prosedurlarını yenidən nəzərdən keçirdi və standartlaşdırdı. Bu dövr həm də müasir gömrük postlarının yaradılmasının və Avropa bazarları ilə ticarəti təşviq etmək üçün daha səmərəli tarif strukturunun qəbul edilməsinin şahidi oldu.

Rusiya imperiyasının dağılmasından sonra Azərbaycan və qonşu dövlətlər Sovet İttifaqının bir hissəsi oldular. Bu dövrdə SSRİ öz sərhədləri daxilində ticarət fəaliyyətini tənzimləmək məqsədi daşıyan mərkəzləşdirilmiş gömrük sistemi tətbiq etdi. Lakin 1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsi ilə ölkə yeni iqtisadi və siyasi reallıqlara uyğunlaşmaq üçün gömrük sistemini yenidən formalaşdırmaq məcburiyyətində qaldı [1, s.86].

Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq standartlara uyğunlaşdırmaq və qlobal iqtisadiyyata inteqrasiya etmək üçün gömrük sisteminin yenidən qurulmasına diqqət yetirib. Müasir texnologiyalar və beynəlxalq əməkdaşlıqla dəstəklənən hərtərəfli hüquqi və tənzimləyici islahatların həyata keçirilməsi bu səylərin önündə dayanıb.

Son illər Azərbaycan gömrük prosedurlarının sadələşdirilməsi, bürokratiyanın azaldılması və şəffaflığın artırılması sahəsində mühüm irəliləyişlər əldə edib. "Bir Pəncərə" sisteminin tətbiqi ticarət subyektlərinə tələb olunan bütün məlumat və sənədləri vahid elektron portal vasitəsilə təqdim etmək imkanı verməklə gömrük proseslərini sadələşdirib. Bu, təkcə səmərəliliyi artırır və xərcləri azaldır, həm də korrupsiya imkanlarını minimuma endirir. Bundan əlavə, Azərbaycan gömrük qanunvericiliyinin beynəlxalq standartlara, xüsusən də Ümumdünya Gömrük Təşkilatı (ÜGT) tərəfindən müəyyən edilmiş standartlara uyğunlaşdırılması üzərində işləyir. Bu səylər ticarəti asanlaşdırıb və ölkənin xarici investorlar üçün cəlbediciliyini artırıb [5, s.49].

Azərbaycanın gömrük sisteminin tarixi inkişafı ölkənin regionda əsas ticarət mərkəzi kimi rolunun sübutudur. Qədim dövrlərdən müxtəlif imperiyalar vasitəsilə müasir dövrə qədər gömrük sistemi dəyişən şəraitə uyğunlaşaraq ticarətin asanlaşdırılmasında və milli iqtisadiyyatın qorunmasında mühüm rol oynamışdır.

Bu gün Azərbaycanın müasir gömrük sistemi ölkənin iqtisadi artımın təşviqinə, xarici investisiyaların cəlb edilməsinə və qlobal ticarət şəbəkəsinə inteqrasiyasına sadiqliyini təcəssüm etdirir. Azərbaycan texnoloji nailiyyətləri həyata keçirməklə və beynəlxalq standartlara uyğunlaşdırmaqla iyirmi birinci

əsrin çağırışlarına cavab verməyə qadir olan səmərəli, şəffaf və etibarlı gömrük çərçivəsi qurmağa davam edir [7, s.25].

Azərbaycan regional iqtisadi güc mərkəzi kimi mövqeyini möhkəmləndirməyə çalışarkən, onun gömrük sistemi, şübhəsiz ki, ticarətin asanlaşdırılmasında və beynəlxalq ictimaiyyətlə əlaqələrin qurulmasında mühüm rol oynayacaqdır.

Azərbaycanın gömrük sistemində son illər qabaqcıl beynəlxalq təcrübələrə uyğunlaşmaq və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) qaydalarına riayət olunmasını təmin etmək məqsədilə mühüm islahatlar aparılmışdır. Azərbaycan Dövlət Gömrük Komitəsi (DGK) gömrük əməliyyatlarına nəzarət, ticarət siyasətinin həyata keçirilməsi, malların və xidmətlərin transsərhəd keçidinin asanlaşdırılmasına cavabdehdir [2, s.58].

Təqdirəlayiq islahatlara baxmayaraq, Azərbaycanda gömrük sistemi hələ də müəyyən çətinliklərlə üzləşir. Bunlara aşağıdakılar daxildir:

1. Mürəkkəb prosedurlar: Çətin gömrük prosesləri və həddindən artıq sənədləşmə işləri inzibati gecikmələrə və biznes üçün əməliyyat xərclərinin artmasına səbəb ola bilər.

2. Korrupsiya: Gömrük sistemində korrupsiya halları şəffaflığın və səmərəliliyin təşviqi məqsədini poza bilər.

3. Məhdud avtomatlaşdırma: Əl emalına və sənədləşmə işinə etibar müasir texnologiyaların qəbuluna mane olur və sənədsiz fərdi mühitə keçidə mane olur.

4. Qaydaların ardıcıl olmayan tətbiqi: Azərbaycanın müxtəlif regionlarında gömrük qaydalarının ardıcıl olmayan tətbiqi çaşqınlıq yarada və ticarət axınına mane ola bilər [4, s.102].

**Cədvəl 1.**

**Azərbaycan gömrük sistemindəki çətinliklər və həlli yolları**

| Gömrük sistemindəki çətinliklər | Həlli yolları |
|---|---|
| *Mürəkkəb prosedurlar* | *Prosedurların sadələşdirilməsi* |
| *Korrupsiya* | *Şəffaflığın və dürüstlüyün artırılması* |
| *Məhdud avtomatlaşdırma* | *Texnologiyaya sərmayə qoyulması* |
| *Qaydaların ardıcıl olmayan tətbiqi* | *Potensialın gücləndirilməsi* |

**Mənbə:** *İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Bu problemləri həll etmək və Azərbaycanda gömrük sisteminin daha da təkmilləşdirilməsi üçün aşağıdakı tövsiyələr təklif olunur:

1. Prosedurların sadələşdirilməsi: Tələb olunan sənədlərin sayının azaldılması, proseslərin standartlaşdırılması və riskə əsaslanan yanaşmaların tətbiqi ilə gömrük prosedurlarının sadələşdirilməsi səmərəliliyi əhəmiyyətli dərəcədə artıra və əməliyyat xərclərini azalda bilər.

2. Şəffaflığın və dürüstlüyün artırılması: Gömrük idarəçiliyində şəffaflığın artırılması, təlim proqramları və texnologiyanın tətbiqi vasitəsilə korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi korrupsiya təcrübələrinin aradan qaldırılmasında və treyderlər arasında etimadın yaradılmasında mühüm rol oynaya bilər.

3. Texnologiyaya sərmayə qoyulması: Sənədləşməyə və əl müdaxilələrinə asılılığı azaltmaq üçün gömrük prosedurlarının avtomatlaşdırılması və rəqəmsallaşdırılmasını təkmilləşdirin. Güclü, inteqrasiya olunmuş elektron gömrük idarəetmə sisteminin tətbiqi real vaxt rejimində monitorinqi təmin edəcək, məlumatların dəqiqliyini artıracaq və risklərin səmərəli idarə edilməsini asanlaşdıracaq.

4. Potensialın gücləndirilməsi: Gömrük işçiləri üçün ən yaxşı beynəlxalq təcrübələr, gömrük qiymətləndirmə metodologiyaları və risklərin qiymətləndirilməsi üsulları haqqında məlumatlı olmaq üçün davamlı təlim və bacarıqların artırılması proqramları təmin edin. Bu, qaydaların ardıcıl tətbiqini təmin etməyə və gömrük işçilərinin təcrübəsini artırmağa kömək edərdi.

5. Tarif strukturunun sadələşdirilməsi: şəffaf, proqnozlaşdırıla bilən və beynəlxalq normalara uyğun olmasını təmin etmək üçün mövcud tarif strukturunu qiymətləndirin. Sadələşdirilmiş tarif strukturu ticarətin asanlaşdırılmasını təşviq edəcək, gözlənilməz nəticələri azaldacaq və ticarət maneələrini yumşaldacaq [6, s.123].

Azərbaycanın gömrük sistemi ölkə sərhədlərinin əsas keşikçisi rolunu oynayır, ölkəyə daxil olan və çıxan malların, nəqliyyat vasitələrinin və sərnişinlərin tənzimlənməsini və nəzarətini təmin edir. Onun əsas məqsədləri gömrük gəlirlərinin toplanması, ticarətin asanlaşdırılması və yerli sənayelərin haqsız rəqabətdən və qaçaqmalçılıqdan qorunmasıdır.

Azərbaycan gömrük sistemində gömrük prosedurlarının sadələşdirilməsi, sənədləşmə işlərinin azaldılması və ticarətin asanlaşdırılması üçün müasir

elektron üsullardan istifadə edilir. Elektron Məlumat Mübadiləsi (EDI) və Vahid Pəncərə sistemlərinin tətbiqi gömrük rəsmiləşdirilməsi proseslərini əhəmiyyətli dərəcədə sürətləndirib və bununla da treyderlərin vaxtını və xərclərini azaldıb. Bu tədbirlər vasitəsilə Azərbaycan transsərhəd ticarətdə şəffaflığı, proqnozlaşdırıla bilənliyi və səmərəliliyi təşviq edir.

Azərbaycan beynəlxalq ticarət təcrübələrinə və Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və Müstəqil Dövlətlər Birliyi (MDB) kimi regional inteqrasiya təşəbbüsləri qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq vahid tarif strukturunu saxlayır. Gömrük orqanları gömrük nəzarətinə riskə əsaslanan yanaşma tətbiq etmişlər ki, bu da onlara öz resurslarını yüksək riskli mallara və konteynerlərə yönəltməyə imkan verir. Yerli bazarları və daxili sənayeləri qorumaq üçün Azərbaycan idxal kvotaları və lisenziya tələbləri kimi qeyri-tarif tədbirləri də tətbiq edir [8, s.95].

Azərbaycan Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Qiymətləndirmə Sazişinə əməl edərək idxal olunan malların gömrük dəyərinin müəyyən edilməsi üçün şəffaf və proqnozlaşdırıla bilən metodu müəyyən edir. Alternativ metodların tətbiq olunduğu xüsusi hallar istisna olmaqla, ölkə əməliyyat dəyəri və deduktiv dəyər kimi beynəlxalq səviyyədə tanınmış qiymətləndirmə üsullarından istifadə edir.

Azərbaycan ticarət əlaqələrini genişləndirmək və effektiv sərhəd nəzarətini təmin etmək üçün regional və beynəlxalq gömrük əməkdaşlığı təşəbbüslərində fəal iştirak edir. Ölkə gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım, məlumat mübadiləsini, potensialın gücləndirilməsini və qabaqcıl təcrübələrin mübadiləsini təşviq edən çoxsaylı ikitərəfli və çoxtərəfli sazişlər bağlayıb. Bundan başqa, Azərbaycan regionda ticarətin və əlaqənin asanlaşdırılmasına yönəlmiş ÜGT, İqtisadi Əməkdaşlıq Təşkilatı və TRACECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) Proqramının fəal üzvüdür.

Gömrük sistemini beynəlxalq standartlara daha da uyğunlaşdırmaq məqsədinə uyğun olaraq, Azərbaycan ticarətin səmərəliliyini artırmaq və inzibati maneələri azaltmaq üçün davamlı olaraq islahatlar həyata keçirir. Ölkə rəqəmsallaşdırma və avtomatlaşdırma təşəbbüslərini, o cümlədən risklərin idarə edilməsi sistemlərinin və elektron sərnişin bəyannaməsi proseslərinin tətbiqini getdikcə daha çox əhatə edir. Bundan əlavə, Azərbaycan Avrasiya İqtisadi İttifaqı çərçivəsində gömrük prosedurlarının uyğunlaşdırılması üzərində fəal işləyir və üzv ölkələr arasında ticarəti gücləndirir.

Azərbaycanın mövcud gömrük sistemi malların səmərəli dövriyyəsinin təmin edilməsində və iqtisadi artımın təmin edilməsində həlledici rol oynayır. Modernləşdirilmiş gömrük prosedurlarından istifadə etməklə, ticarətin asanlaşdırılması tədbirlərini tətbiq etməklə və beynəlxalq gömrük əməkdaşlığı təşəbbüslərində fəal iştirak etməklə Azərbaycan xarici investisiyaları cəlb etmək və beynəlxalq ticarət əlaqələrini gücləndirmək üçün biznes üçün əlverişli mühit yaradır. Ölkə islahatların həyata keçirilməsini davam etdirdikcə, gələcək illərdə də iqtisadiyyatının davamlı artımına töhfə verərək, gömrük sistemini daha da gücləndirməyə hazırdır.

### Nəticə

Davam edən islahatlar və gömrük sisteminin modernləşdirilməsi öhdəliyi ilə Azərbaycan ticarətin asanlaşdırılması və biznes mühitinin yaxşılaşdırılması istiqamətində mühüm irəliləyişlər əldə edir. Prosedurları sadələşdirmək, texnologiyaya sərmayə qoymaq, şəffaflığı təşviq etmək və gömrük işçilərinin potensialını gücləndirməklə Azərbaycan gömrük sistemini daha da təkmilləşdirə və özünü xarici investisiya və ticarət üçün cəlbedici məkan kimi göstərə bilər. Daha səmərəli gömrük sistemi iqtisadi artımı dəstəkləyəcək, davamlı inkişafı təşviq edəcək və Azərbaycanın qlobal ticarət sisteminə inteqrasiyasını gücləndirəcək.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. «Azərbaycan Respublikasının Gömrük Məcəlləsi». Bakı, —Qanun, 2012.*

*2. Nuriyev C.Q., Şəkərəliyev A.Ş., Əliyev A.Ə., Əhmədov S.T. "Gömrük ekspertizası". Bakı. "Qanun" – 2003.*

*3. Heydərov K.F., Əliyev A.Ə., Nuriyev C.Q., Mehdiyev S.M. Gömrük rəsmiləşdirilməsi. Dərslik. Bakı-2006*

*4. Şəkərəliyev A.Ş., "Dövlətin iqtisadi siyasəti, dayanıqlı və davamlı inkişafin təntənəsi". B., 2011*

*5. Бакаева О.Ю., Матвиенко Г.В.Таможенное право. Российская академия правосудия, 2009*

*6. Зведре, Е. К. Глобальная система таможенного контроля и международный кодекс поведения Москва. Журнал Таможни//. No 7. 2014. с. 18-25.*

*7. Фергюсон Н. Восхождение денег. М., 2010, с. 329.*

**XÜLASƏ**

Gömrük sistemi beynəlxalq ticarətin genişləndirilməsində, sərhəd təhlükəsizliyinin təmin edilməsində və iqtisadi inkişafın təşviqində mühüm rol oynayır. Avropa və Asiyanın qovşağında yerləşən bir ölkə olan Azərbaycanın timsalında onun gömrük sisteminin səmərəli işləməsi ticarətin asanlaşdırılması və iqtisadi artımın dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Məqalədə məhz Azərbaycanda mövcud gömrük sistemi haqqında ümumi məlumat verilir və onun daha da təkmilləşdirilməsi üçün tövsiyələr göstərilir.

Qlobal təlatümlərin artdığı indiki dövrdə bank qanunvericiliyindəki boşluqları aradan qaldırmaq, tənzimləmələri və səmərəli nəzarət mexanizmlərini mümkün qədər təkmilləşdirmək lazımdır. Bununla bağlı əsas məsələlərdən biri maliyyə xidmətləri bazarının, o cümlədən bankların fəaliyyət prinsiplərinin və meyarlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması, daha mütərəqqi əməliyyat metodlarından və idarəetmə formalarından istifadə edilməsidir. Başqa sözlə, bank fəaliyyətinin səmərəliliyini təmin etmək üçün zəruri olan metodoloji yanaşmalar, meyarlar və prinsiplər sistemli və ardıcıl hazırlanmalı, əsaslandırılmalı və aktiv şəkildə tətbiq edilməlidir [8. s.279].

Məlumdur ki, dünya bazarında neftin 2015-2016-cı illərdə qiymətinin kəskin azalması nəticəsində bank sistemində qeyri-sabitlik halları daha çox müşahidə olunmuş, bir sıra maliyyə və bank qurumlarının fəaliyyətində dəfələrlə ciddi problemlər yaranıb. Həmin dövrdə milli valyuta olan manat iki dəfə devalvasiyaya uğrayıb. Məhz bu kontekstdə bankların rolunun gücləndirilməsi önəmli dərəcədə artmışdır. “Kapital Bank”, “Paşa Bank” və s. kimi banklar bəzi çətinliklərə baxmayaraq, bank xidmətlərinin çeşidini azaltmamış, çevikliyini və cəlbediciliyini artırmışlar. Bank sistemində əsas keyfiyyət tendensiyalarından biri mikrokreditlərin artmasıdır. Bunlarla yanaşı, Azərbaycanın maliyyə sektorunda islahatlar uzun müddətdir ki, davam edir, lakin indi bank sisteminin inkişafında keyfiyyətli nəticələr aydın görünür. Azərbaycanın bank sisteminin maliyyə etibarlılığının artı-

rılmasının lehinə əlavə arqument kimi əhalinin yerli banklara etimadının artmasını qeyd etmək olar ki, bu da əhalinin əmanətlərinin həcminin müsbət dinamikasına əyani sübutdur. İqtisadiyyatın kreditləşdirilməsində də yeni tendensiyalar müşahidə oluna bilər. Son illər banklar vəsaitləri əsasən kiçik layihələrə və yalnız tez geri qaytarılan və aşağı riskli sahələrə yatırmağa üstünlük verirlər [9, s.118].

Cədvəl 1-də Azərbaycanda maliyyə bazarının 2018-2023-cü illər ərzində əsas iştirakçıları haqqında məlumat əks olunmuşdur.

**Cədvəl 1**
**Azərbaycanda maliyyə bazarının 2018-2023-cü illər ərzində əsas iştirakçıları haqqında məlumat**
***Mənbə:** [10; 11].*

Cədvəl 1-dən göründüyü ki, Azərbaycanda bank-

| Göstəricilər | 31.12.2018 | 31.12.2019 | 31.12.2020 | 31.12.2021 | 31.12.2022 | 31.12.2023 |
|---|---|---|---|---|---|---|
| Cəmi | 30 | 30 | 26 | 26 | 25 | 23 |
| Dövlət | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| Özəl | 28 | 28 | 24 | 24 | 23 | 21 |
| Bank filialları | 508 | 509 | 455 | 479 | 487 | 475 |

ların və onların filiallarının sayında azalmalar olmuşdur. Məsələn, 2018-ci ilin sonu ilə müqayisədə 2023-cü ilin sonuna qədər bankların sayı 30-dan 23-ə enmişdir. Azalmalar əsasən özəl bankların sayında müşahidə edilib. Dövlət banklarının sayı isə dəyişməz qalıb. Əgər 2018-ci ildə ölkədə bank filiallarının sayı 508 olmuşdursa, artıq onların sayı 2023-cü ilin sonuna 33 vahid azalaraq 475-ə düşmüşdür.

Şəkil 2-də isə ölkəmizdə fəaliyyət göstərən bankların cəmi aktivlərinin dinamikası verilmişdir.

**Şəkil 2. Azərbaycanda 2010-2023-cü illərdə bankların cəmi aktivlərinin həcmi, milyon manat**
***Mənbə:** [9;10].*




Şəkil 2-dən yanaşsaq, 31.12.2010-cu il tarixindən 31.12.2013-cü il tarixinə bankların aktivlərinin həcminin 3,7 dəfə artaraq 13290,8 milyon AZN-dən 49178,2 milyon AZN-ə çatdığını görə bilərik. Bank aktivlərinin artması onların rəqabət qabiliyyətliliyinə təsir edən əsas amillərdəndir.

Qeyd edək ki, Azərbaycanda bankların qarşısında duran strateji vəzifələr arasında əsas yeri xarici öhdəliklərin artmasının qarşısının alınması, bankların rəqabət qabiliyyətinin artırılması, beynəlxalq kredit təşkilatları, dünya bankları ilə əlaqələrin gücləndirilməsi, kredit vəsaitlərindən məqsədyönlü və səmərəli istifadənin təmin edilməsi, əmanətçilərin banklara inamını, milli iqtisadiyyatın sabit və davamlı inkişafını təmin etmək məqsədilə iqtisadiyyatın real sektoruna kredit qoyuluşlarının həcminin artırılması, bank xidmətlərinin çeşidinin genişləndirilməsi və həmin xidmətlərin keyfiyyətinin yüksəldilməsi önəmli yer tutmalıdır [12, s.35].

Ümumiyyətlə, banklara yeni yanaşmalar tələb olunur və qlobal dəyişikliklər şəraitində maddi və pul resurslarına tələbat artmaqda davam edəcək və bu baxımdan bank fəaliyyətinin səmərəliliyi dəfələrlə artmalıdır. Bankların fəaliyyətinin səmərəliliyinin artırılması ölkənin iqtisadi və maliyyə siyasətinin prioritet istiqamətinə çevrilməli, daha çevik mexanizmlərin hazırlanmasına və məhsuldar praktik vasitələrin tətbiqinə diqqət yetirilməlidir. Bankların səmərəlilik prinsipləri əsasında fəaliyyət göstərməsinə mane olan problemlərin aradan qaldırılması məqsədilə fundamental tədqiqatların aparılması, optimal qərarların qəbul edilməsi zəruridir. Bu problem və məsələlər geniş mənada ölkəmizin maliyyə xidmətləri bazarı, eləcə də banklar üçün xarakterikdir.

## YEKUN

Beləliklə, Azərbaycanda qlobal çağırışlar nəzərə alınmaqla bank sistemində qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə bu sistemin inkişafının prinsiplərinin, forma və üsullarının səmərəli tətbiqi əsasında əmanətçilərin və kreditorların hüquq və mənafelərinin optimal müdafiəsi üçün əlverişli zəmin hazırlanmış, habelə Bazel prinsipləri əsasında bank nəzarətini reallaşdırmaq və bütövlükdə Azərbaycanın bank sisteminin etibarlılığını artırmaq istiqamətində məqsədyönlü tədbirlərin görülməsini qeyd edə bilərik. Bunlarla belə, hesab edirik ki, yaxın perspektivdə ölkə banklarının fəaliyyətinin genişləndirilməsi və təkmilləşdirilməsi üçün bir sıra məsələlər ciddi şəkildə nəzərə alınmalıdır:

- bank sisteminin rəqabətqabiliyyətinin artırılması məqsədilə, ölkə banklarının dayanıqlığının yüksəldilməsi, banklarda korporativ idarəetmənin qlobal standartlarının yayılması, investorların, əmanətçilərin və kreditorların bank sisteminə etimadının daha da artırılması tədbirlərinin genişləndirilməsinə ehtiyac vardır;

- ölkənin iqtisadi müstəqilliyini gücləndirmək və maliyyə təhlükəsizliyini artırmaq üçün bank sistemində sağlam rəqabətin işləməsi və inkişafından ötrü əlverişli şəraitin yaradılmasına maksimum səy göstərilməli, bank əməliyyatlarının və xidmətlərinin səviyyəsinin və keyfiyyətinin əhəmiyyətli dərəcədə artırılmasına nail olunmalıdır;

- fikrimizcə, maliyyə sistemi və maliyyə institutları, bank sektorunun mühüm iştirakçıları daha inteqrativ və dayanıqlı dəyər və mexanizmlərə üstünlük verməli, sıx əməkdaşlıq etməli, balanslaşdırılmış və effektiv kredit portfeli siyasətini formalaşdırmalı, risklərin optimal idarə edilməsi mexanizmlərini yaratmalı və bankların rəqabət qabiliyyətinin əhəmiyyətli səviyyədə artırılması tədbirləri görməlidirlər və s.

**Açar sözlər:** *qlobal transformasiyalar, maliyyə xidmətləri bazarı, banklar, bank sektoru, bankların rəqabət qabiliyyətliliyi, bankların maliyyə sabitliyi, bank fəaliyyətinin təkmilləşdirilməsi, bankların maliyyə xidmətləri bazarında strateji əhəmiyyəti.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Мамедов, З.Ф., Аббасбейли, М.А., Валиев, Э.Н., Вейсов, Е.Н. Банковский сектор Азербайджана: новые тренды и перспективы// Экономика и управление. 2020. №7 (177). – с. 775-783.*

*2. Hacıyeva, A.M. Qloballaşma şəraitində maliyyə bazarının müasir vəziyyəti və inkişaf istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2018, – 26 s.*

*3. Попадьина, Т.А. Рынок финансовых услуг и его роль в мировом хозяйстве / Т.А.Попадьина // Инновационная наука. – 2021. – № 6. – С. 127-129*

*4. Rəsulova, G.R. Azərbaycan Respublikasında maliyyə bazarlarının təkmilləşdirilməsi istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2023, 32 s.*

*5. Мамедов, З.Ф. Современные особенности развития банковского сектора Азербайджана / З.Ф. Мамедов, Э.Н. Валиев, Е.Н. Вейсов // Экономические науки. – 2020. – № 188. – С. 131-136.*

*6. Əliyev, V.Ə. Maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasında sistem əhəmiyyətli bankların strateji əhəmiyyəti. Audit № 3, Cild 25, 2019, s.49-58.*

*7. Kərimova, G.R. Azərbaycanda maliyyə bazarlarının inkişafının nəzəri və praktiki aspektləri. Audit, 3 (2020), Cild 29, s. 53-64.*

*8. Алиев, В.А. Интегративно существенные банки: направления совершенствования на рынке финансовых услуг Азербайджана/ В.А. Алиев// Современные стратегии и цифровые трансформации устойчивого развития общества, образования и науки: Сборник материалов II Международной научно-практической конференции, Москва, 26 сентября 2022. – С. 276-284.*

*9. Садыгов, Э.М. Основные направления развития банковской системы Азербайджана// Часопис економічних реформ. 2014. №1(13). – С. 118-122.*

*10. Azərbaycan Respublikası Mərkəzi Bankı.– https://www.cbar.az/page-188/credit-institutions.*

*11. ARDSK. – https://www.stat.gov.az/source/finance/.*

*12. Əliyev, Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafinin müasir aspektləri. Audit, № 3, 2017 - s.26-40.*

**Алиев Вахид Адалат оглы,**
***Диссертант Азербайджанский Государственный Экономический Университет,***
***E-mail: vahid.eliyev@gmail.com***

## РЕЗЮМЕ
## СТРАТЕГИЧЕСКАЯ РОЛЬ БАНКОВ В РАЗВИТИИ РЫНКА ФИНАНСОВЫХ УСЛУГ В АЗЕРБАЙДЖАНЕ В УСЛОВИЯХ ГЛОБАЛЬНЫХ ТРАНСФОРМАЦИЙ

В статье исследована стратегическая роль банков в развитии рынка финансовых услуг в Азербайджане в условиях глобальных трансформаций. С этой целью анализирован рынок финансовых услуг и его особенности. Рассмотрена ключевая роль банков по развитию и усилению деятельности рынка финансовых услуг в условиях глобальных воздействий. Обоснована необходимость укрепления финансовой стабильности банков и применение более доступных и надежных меха-

низмов по интенсификации развития финансового рынка. Отмечена необходимость расширения сотрудничества участников рынка финансовых услуг в направлении оптимизации и доступности их. Подготовлены рекомендации и даны предложения по усилению роли банков в ускорении развития рынка финансовых услуг в Азербайджане в соответствии с глобальными угрозами.

**Ключевые слова:** *глобальные трансформации, рынок финансовых услуг, банки, банковский сектор, конкурентоспособность банков, финансовая стабильность банков, совершенствование банковской деятельности, стратегическая важность банков на рынке финансовых услуг.*

**Aliyev Vahid Adalat,**
***doctoral student of Azerbaijan State Economic University***
***E-mail: vahid.eliyev@gmail.co*m**

**SUMMARY**

**STRATEGIC ROLE OF BANKS IN THE DEVELOPMENT OF THE FINANCIAL SERVICES MARKET IN AZERBAIJAN IN THE CONTEXT OF GLOBAL TRANSFORMATIONS**

The strategic role of banks in the development of financial services market in Azerbaijan in the conditions of global transformations is considered in the article. For this purpose, the financial services market and its peculiarities have been analyzed. The key role of banks on development and strengthening of activity of financial services market in conditions of global influences is considered. The necessity of strengthening the financial stability of banks and application of more accessible and reliable mechanisms to intensify the development of the financial market has been substantiated. The necessity to expand cooperation of financial services market participants in the direction of optimization and accessibility of financial services is noted too. Recommendations and proposals on strengthening the role of banks in accelerating the development of the financial services market in Azerbaijan in accordance with global threats have been prepared.

**Key words:** *global transformation, financial services market, banks, banking sector, competitiveness of banks, financial stability of banks, improvement of banking activity, strategic importance of banks in the market of financial services.*

UOT 336.71
DOI:10.30546/3006-0346.2024.1.79.161

# BANK KREDİT SİSTEMİNDƏ PRİORİTET İSTİQAMƏTLƏRİN ÜMUMİLƏŞDİRİLMƏSİ

**HÜSEYN EYVAZLI**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
*E-mail: huseyn_eyvazli@mail.ru*

## Giriş

Kredit bazarında mühüm yer tutan bank kreditləri istənilən ölkənin iqtisadi inkişafının təmin edilməsində və onun davam etdirilməsində aparıcı rola malikdir. Demək olar ki, hər ölkədə olduğu kimi Azərbaycanda da mühüm bir vəsait köçürmə, prioritet iqtisadi inkişaf üsulu kimi də qəbul edilə bilər. Hazırda iqtisadi sistemin ən vacib hissəsi olaraq kənd təsərrüfatı, firmalar, böyük və kiçik sahibkarlığın təşkili, inkişafı, istehlak və investisiya xərcləri kifayət qədər ciddi rəqəmlərlə həyata keçirilir. Banklar isə kredit verməklə bu xərclərin maliyyələşdirilməsinə dəstək olurlar. Buna görə də bank kreditləri iqtisadi mexanizmin mühüm tərkib hissəsidir. Onu da nəzərə almaq lazımdır ki, səmərəli kredit bazarına malik olmaq ölkə iqtisadiyyatının inkişafı üçün həyati əhəmiyyət kəsb edir.

Bankların fəaliyyəti zamanı ən vacib məqamlar bankın gündən-günə inkişaf etdirilməsi, müştərilərin məmnunluq fəaliyyətinin artırılmasına xidmət edən bir çox məsələlərin, perspektiv yolların tətbiq edilməsi və s. şəkildə ortaya çıxır. Xüsusilə, kommersiya banklarının bank-kredit sistemindəki və kredit bazarındakı rolunu nəzərə alsaq burada perspektiv inkişaf yollarının araşdırılımasının, təhlilinin vacibliyi daha çox nəzərə çarpır.

## Əsas hissə

Kredit bazarında, kommersiya banklarında maliyyə təhlili bankın fəaliyyətinin maliyyə-iqtisadi nəticələrinin öyrənilməsi, bankın inkişafının əsas istiqamətlərinin və maliyyə biznes proseslərinin əsas amillərinin, meyillərinin və məqsədyönlü xüsusi biliklərinin müəyyənləşdirilməsindən, inkişaf nisbətlərini müəyyən etməkdən ibarətdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı və Maliyyə Nazirliyi dövlət tərəfindən təyin edilmiş ikinci dərəcəli bankların prudensial normativlərinin yerinə yetirilməsinə və həmin bankların Azərbaycan Respublikasının qanunlarına, hüquqi və maliyyə normativlərinə uyğunluğuna daim nəzarət edir. Dövlət orqanları ikinci dərəcəli banklara fəaliyyət göstərməyə icazə verərkən aşağıdakı tələblərə də diqqət yetirirlər:

- Bank kapitalının minimum məbləğinə dair tələb
- Bank nəzarətçilərinə tələb:
- Bank təsisçilərinin mülkiyyət hüquqlarının məhdudlaşdırılması və tənzimlənməsinə dair tələblər.

Nəzərə almaq lazımdır ki, bankların və onların inkişaf etdirdiyi kredit sisteminin dövlətin, onun ümumi iqtisadiyyatının inkişafındakı rolunun vacibliyini araşdırmaq qarşıda duran ən mühüm vəzifələrdən biridir. Odur ki, müasir dövrdə bankların kredit bazarında fəaliyyətinin inkişaf perspektivləri, kredit bazarında bank kreditlərinin prioritet istiqamətləri mövzusunun təhlili və müzakirəsi mühüm vəzifələrdən birinə çevrilmişdir. Bu sahədə, təbii ki, ən önəmli məsələlərdən biri kredit bazarındakı bank kreditlərinin uğurlu tələb və təklifini, bank kreditlərinin kredit bazarındakı prioritet istiqamətlərinin müəyyənləşdirilməsində, həyata keçirilməsində ən önəmli rolu olan, eyni zamanda müasir dövrün ən vacib tələbi olan informasiya məsələlərinin təşkili sisteminin mütəşəkkilliyidir

Bankın maliyyə fəaliyyətinin informasiya nöqteyi-nəzərindən təhlilini təmin etmək xarici və daxili məlumat mənbələrindən maliyyə təhlili üçün zəruri olan məlumatların toplanması sistemidir. Təbii ki, ən önəmli məqamlardan biri kredit bazarındakı məlumatların düzgün, mütəşəkkil şəkildə toplanması və bu məlumatlardan bankların kredit sistemindəki perspektiv istiqamətlərinin genişlənməsində, inkişaf etdirilməsində istifadə etməkdir. Bu məlumatların toplanmasında informasiya sisteminin rolunun artması, daxili və xarici informasiya sisteminin fəaliyyətinə əsaslana bilər.

Məhz bu istiqamətdə həyata keçirilən mühüm yeniliklərdən biri də elektron formada informasiya bazasında sorğuların aparılmasıdır.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı özünün strateji kommunikasiya missiyasına uyğun olaraq iqtisadi təhlil imkanlarının artırılması və iqtisadi gözləntilərin formalaşdırılması istiqamətində kommunikasiya kanalları vasitəsilə ictimaiyyətin, o cümlədən aparıcı hədəf qruplarının aktiv məlumatlandırılması və maarifləndirilməsi işlərini davam etdirir. Bu əsasda dövri olaraq statistik və təhlili hesabatlar, icmallar, bülletenlər, tədqiqat işlərinin, sorğuların nə-

ticələri geniş auditoriyaya təqdim olunur. Bu xüsusda 2022-ci ilin birinci rübündən etibarən Mərkəzi Bank tərəfindən bank sektorunun kreditləşmə fəaliyyətinə dair sorğuların keçirilməsinə başlanmışdır" [5].

Keçirilən sorğunun əsas məqsədi maliyyə sabitliyinə riskləri qiymətləndirmək, kredit bazarında artım və ya daralma meyillərini müəyyən etməkdir. Sorğu biznes, istehlak və ipoteka kreditləşməsinə dair tələb və təklif amillərinin qiymətləndirilməsi, o cümlədən, bankların qarşılaşdığı risklərin müəyyən edilməsi və qiymətləndirilməsini ehtiva edir. Sorğu nəticələri kredit bazarında aktivlik barədə yeni informasiya mənbəyi olmaqla təhlil və proqnozlaşdırma aləti kimi çıxış edir.

Sorğu nəticələrinə əsasən bankların kreditləşmə siyasətinin 2023-cü ilin I rübündən yumşalması, bütün növ kreditlərə tələbin isə artması müşahidə olunur. Bu trendlərin II rübdə də davam etməsi banklar tərəfindən proqnozlaşdırılmışdır.

Kredit siyasəti əsasən istehlak və ipoteka kreditlərinə nisbətdə yumşalmışdır. Biznes kreditləri üzrə yumşalma isə əsasən mikro sahibkarlıq subyektlərinə münasibətdədir. Sektorun kredit siyasətində dəyişikliklər Mərkəzi Bank tərəfindən diqqət mərkəzində saxlanılır və müvafiq prudensial siyasət müəyyən edilir.

Xarici informasiya sisteminə bankın fəaliyyət göstərdiyi bazarın vəziyyəti, o cümlədən rəqiblər, müştərilər, investorlar və digər bazar iştirakçıları haqqında toplanmış məlumatlar daxil ola bilər:

Əsas xarici məlumat mənbələrinə aşağıdakıları misal göstərə bilərik.

- Mətbuat (qəzet, jurnal, televiziya, radio);
- Banklar tərəfindən hər il dərc olunan illik hesabatlar;
- İstehsal statistikası məlumatları,
- İstehlak statistikasının təfərrüatları;
- Bank müştəriləri ilə birbaşa görüş vasitəsilə toplanan məlumatlar:
- Digər bankların əməkdaşları ilə məlumat mübadiləsi [6].

Kredit bazarında bank kreditlərinin daha da sistemləşdirilməsində, əhaliyə xidmətin yaxşılaşdırılmasında və kredit sisteminin prioritet inkişaf istiqamətində, xüsusilə xarici məlumatların rolu daha çoxdur.

Daxili məlumat toplama sisteminə 2 əsas mənbəni daxil edə bilərik:

- Cari biznes məlumatlarının toplanması sistemi
- Bankın maliyyə vəziyyəti haqqında operativ məlumatlar daxil edilir.

Daxili informasiya mənbələrinə aşağıdakılar daxildir:

- Mühasibat uçotu məlumatları;
- Statistik hesabat məlumatları;
- Müştəri kreditinin qiymətləndirilməsi məlumatları;
- sahə və ya regional şöbələrin hesabatları;
- Daxili təhlilin, tədqiqatın nəticələri;
- Müxtəlif audit və yoxlamaların aktları;

Kredit bazarında bankların ümumi maliyyə vəziyyətini qiymətləndirən əsas sənəd bankın maliyyə vəziyyəti haqqında hesabatdır. Bu sənədlərin təhlili zamanı KİV-də Mərkəzi Bank və bank rəhbərlərindən, müxtəlif hüquqi və fiziki şəxslərin rəhbərlərindən geniş istifadə olunur. Bankların kredit bazarındakı kreditlərin prioritet vəzifələrinin və perspektivli təminatının, yatırımlarının uğurlu nəticələnməsi də müəyyən dərəcədə bu cür hesabatlardan asılıdır.

Sistemli şəkildə hazırlanmış maliyyə hesabatları bank menecerlərinə bankın müxtəlif fəaliyyətlərində olduğu kimi kredit sistemindəki idarəetmə qərarlarının qəbulu üçün lazım olan istənilən məlumatı dərhal əldə etməyə imkan verir. Ümumilikdə baxdıqda isə bankın analitik təhlili işi aşağıdakı istiqamətlər üzrə aparıla bilər.

- Bank balansının və digər maliyyə uçot sənədlərinin təhlili;
- Bankda həyata keçirilən uçot və hesabat vəziyyətinin təhlili;
- Müxtəlif müqavilələrin və təsis sənədlərinin icra vəziyyətinin təhlili.

Bankların bu şəkildə təhlil olunması, hesabatların nəticəsində meydana çıxan balansı onun maliyyə vəziyyətinin təhlili üçün əsas məlumat mənbəyi və bankın vəziyyətini, kredit sistemini hərtərəfli göstərən əsas sənəddir. Bankın balansını təhlil etməklə onun aktivlərinin likvidliyini, gəlirliliyini və ayrı-ayrı bank əməliyyatlarının həyata keçirilməsi zamanı yarana biləcək riskləri müəyyən etməyə imkan verir. Mühasibat balansından alınan məlumatların köməyi ilə bankın öz və borc vəsaitlərinin əsas mənbələrini və müəyyən müddət ərzində vəsaitlərin yerləşdirilmə istiqamətlərini müəyyən etmək mümkündür.

Müasir bank praktikasında və elmində müəssisənin maliyyə təhlili kimi bütün ölkələrdə müəyyən edilmiş vahid maliyyə təhlili metodologiyası, xüsusilə də kredit məsələlərindəki fikirlər tamamlanmış şəkildə mövcud deyil. Buna görə də bank balansının ümumi təhlili metodu formalaşmamışdır [7].

Kreditlərin əhəmiyyətinə görə elmi ədəbiyyatda

həm kreditlərin iqtisadiyyata təsirini, həm də kredit həcmini müəyyən edən makro və mikro dəyişənləri araşdıran araşdırmalar mövcuddur.

Bazar iqtisadiyyatı şəraitində kreditin bank sistemində mühüm rol oynaması da məlum məsələdir. Onun vasitəsilə müəssisələr, təşkilatlar və insanlar tərəfindən xeyli miqdarda nağd hesablaşmalar və ödənişlər həyata keçirilir, eyni zamanda müvəqqəti sərbəst pul alətlərini, insanların əmanət və gəlirlərini aktiv kapitala çevrilməsi, bir çox müxtəlif kredit, sığorta, broker, investisiya və digər əməliyyatlar yerinə yetirilir.

İstehsaldan sonra kredit sistemi daimi və böyük ölçüdə olmaqla diqqət çəkir. O, pul yığımlarının həcmini dəfələrlə artırır, vəsaitlərin bir sektordan digərinə axınını təmin edir və bununla da istehsalın səmərəliliyinin artmasına şərait yaradır.

Kredit sisteminin rolu və mənası bir sıra perspektiv göstəricilərlə xarakterizə oluna bilər: kredit vəsaitlərinin ümumi həcmi, müəssisə və təşkilatların əsas və dövriyyə kapitalının formalaşmasında bank kreditlərinin payı, ümumi dövriyyə və s. kimi məsələlər bank sistemində kreditləşmənin əsas funksiyasının göstəricilərindəndir.

Uğurlu kredit münasibətləri kredit sistemi öz funksiyalarını yerinə yetirdikdə yaranır. Kredit münasibətlərinin məzmunu sərbəst vəsaitlərin müəyyən müddət ərzində yığılması və yenidən bölüşdürülməsi üçün qaytarılma və ödəniş şərtləri əsasında kredit təşkilatları ilə müxtəlif subyektlər arasında iqtisadi münasibətlərlə müəyyən edilir.[5] Amma kredit münasibətlərinin məzmunu təkcə pul kapitalının toplanması və ondan hüquqi və fiziki şəxslər tərəfindən müvəqqəti istifadə edilməsi ilə məhdudlaşmır. Kredit vermə prosesində istehsal günü üçün nəzərdə tutulmuş əlavə maliyyə alətləri kütləsi, yəni təkrar istehsalın pul dövriyyəsi formalaşır.

Ödəyicilərlə kredit təşkilatları arasında, kredit təşkilatları ilə alıcılar arasında iqtisadi münasibətləri formalaşdıran kredit sistemindən kredit münasibətlərinin məzmununu tamamlayan böyük ödəniş dövriyyəsi axını keçir.

Kredit sistemi ölkədə pul dövriyyəsini tənzimləyir, hüquqi və fiziki şəxslərə müxtəlif xidmətlər göstərir, bunun nəticəsində kredit iqtisadi münasibətləri yaranır.

Kredit münasibətləri iki fərqli xüsusiyyətə malikdir ki, təsərrüfat subyektləri və kredit sistemi institutları üçün eyni dərəcədə zəruridir. Kredit təşkilatlarında pul saxlamaq kredit resursudur.

Bank kreditlərində ikitərəfli əlaqələr: iqtisadi təşkilatlarla kredit sistemi, kredit sistemi və əhali, dövlət və kredit sistemi, kredit təşkilatları arasında, müxtəlif dövlətlərin kredit təşkilatları arasında mövcuddur.

Kreditin iqtisadi kateqoriyasının fəaliyyəti zamanı kredit münasibətləri pul formasında həyata keçirilir. Kredit forması kredit münasibətlərinin görünüşünü təsvir edir. Kredit münasibətlərinin mənasını və təşkilini sintez edir. Kredit münasibətlərinin forma və məzmunu dialektik vəhdətdədir. Kredit münasibətlərinin forması onların məzmununa uyğun gəlməli və inkişafına təkan verməlidir.[1;74] İstehsal münasibətlərinin dəyişməsi kredit münasibətlərinin məzmununun və formasının dəyişməsinə səbəb ola bilər. Təbii ki, kredit fəaliyyətinin daha səmərəli və perspektiv formada yatırıma cəlb olunması hər iki tərəfin – həm kreditorun, həm kredit alan müştərinin üzərinə düşən öhdəlik kimi qəbul edilə bilər.

Kreditor krediti təklif edən kredit müqaviləsinin bir tərəfidir. Bu prosesi həyata keçirmək üçün müəyyən məbləğdə vəsait olmalıdır. Bu pul onun özünə məxsus ola bilər və ya başqasından borc götürə bilər. Hazırda borc üçün pul təklif edən əsas kreditor banklardır.

Bank sistemi müəyyən müəssisələrin, təşkilatların, idarələrin, eləcə də fərdi şəxslərin də müvəqqəti boş pul vəsaitlərini toplayır və onları müvəqqəti istifadə üçün kredit şəklində borcalana təklif edir. Eyni zamanda, təkcə bankdan aldığı kreditin borcalana deyil, sonuncu da, yəni borcalan da borc götürdüyü vəsaiti sahibinə qaytarmağa borcludur. Bu arada bank bir halda borc verən olsa da, digər halda isə borcalan ola bilər.

Borcalan kredit münasibətlərinin bir tərəfi, kredit götürən və borcunu qaytarmağa borclu olan tərəfdir. Borcalanlar əlavə vəsaitə müvəqqəti ehtiyacı olanlardır. Müasir tələblərə uyğun olaraq, borc alan müəssisələr, sahibkarlar, insanlar, dövlətlər və banklar ola bilər. Bununla belə, borc alan borc götürdüyü vəsaitin sahibi deyil, onlardan istehsal və tədavül sahəsində öz mülahizəsinə uyğun istifadə edir. Kredit əməliyyatında borcalan borc verəndən asılıdır, borc verən isə öz tələblərini onun üzərinə qoyur. Bununla belə, borcalan və borc verən kredit münasibətlərinin tam hüquqi tərəfləridir.

Kreditor həm də borclu ola bilər. Borc verənlə borcalan qarşılıqlı fəaliyyətlərində müxalifətin birliyinin xarakterini göstərirlər. Kredit əməliyyatının iştirakçıları kimi onlar onun əks tərəflərindədirlər. Onların da maraqları fərqlidir, kredit verən daha yüksək faizlə kredit vermək istəyir, borcalanın da marağı var ki, mümkün qədər ucuz kredit götürüb əlavə vəsait

tapsın [8]. Kreditorlar və borcalanlardan başqa kredit münasibətlərinin strukturunun elementi kreditin əsas hissəsi kimi kreditin əsas hissəsidir.

Kredit bazarında bank kreditlərinin perspektiv fəaliyyətinin və prioritet yollarının da təkmilləşməsində, verilməsində müəyyən prinsiplərin formalaşması, onların inkişaf etdirilməsi məsələsi də önəmli yer tutur. “Kredit vermə prinsipləri kreditin mahiyyətini və xidmətlərini, habelə kredit münasibətlərinin təşkili sahəsində obyektiv iqtisadi amillərin tələblərini əks etdirir. Kredit prosesi, yəni bank kreditlərinin verilməsi, istifadəsi və ödənilməsi kreditləşmə prinsipləri əsasında həyata keçirilir. Kreditləşmə prinsiplərinə görə bank kreditlərinin verilməsinin əsas şərtləri: kreditin təyinatı və müddəti, onların pul vəsaitlərinin dövriyyəsi çərçivəsində qarşılıqlı əlaqəsinin səmərəliliyi və s. müəyyən edilir” [2;10].

Kredit fəaliyyətinin dəyəri kredit prosesinin mərhələlərindən – sənədləşdirmə, nağd pulu alma, qaytarılma, yəni ödəniş dövri, məqsədyönlü xarakter kimi mühüm prinsiplərlə müəyyən edilir. Kreditin ödənilməsi prinsipi borc alanın kreditdən istifadə etdikdən sonra krediti vaxtında borc verənə qaytarması zərurəti ilə xarakterizə olunur.

Kredit ödəmə qabiliyyətinin yüksək olması ilə həm borc verən, həm də borcalan ona verilən krediti vaxtında qaytarmağa və ondan gəlir əldə etməyə həvəslənir. Kreditin operativliyi prinsipi isə onu göstərir ki, borcalan aldığı krediti istənilən münasib vaxtda deyil, kredit müqaviləsində göstərilən vaxtda qaytarmalıdır.

Bundan başqa, bank kreditlərinin prioritet imkanlarının müəyyənləşməsində kreditin obyektiv xarakteri də vacib amillərdən biridir. Belə ki, obyektivlik kreditordan alınan vəsaitlərin təyinatına uyğun istifadə edilməsi zərurəti deməkdir. Kredit fəaliyyətinin inkişafının prioritet istiqamətlərində rol oynayan müxtəlif prinsiplər bir-biri ilə bağlıdır və onların eyni vaxtda fəaliyyət göstərməsi kreditin mənasını müəyyən edə bilər. Əgər yuxarıda nəzərə çatdırılan prinsiplərdən biri pozularsa, o zaman kredit fəaliyyəti akkreditiv dəyərini itirəcək, kreditin müstəqil iqtisadi kateqoriya kimi xarakterik xüsusiyyətləri də itiriləcək [3;7].

Kredit siyasəti bank fəaliyyətinin şaxələndirilməsində fəaliyyət zəncirini təmin etmək və kredit işçilərinin əmək vəzifələrini müəyyən etmək üçün zəruridir. Kredit siyasətinin həyata keçirilməsinin konkret proseduru olmadan kreditləşmənin vahid qaydalarını praktikada tətbiq etmək mümkün deyil. Ona görə də yazılı kredit siyasəti və onun həyata keçirilməsi üçün müvafiq qaydalar kredit prosesinin əsasını təşkil edir.

**Nəticə**

Kredit siyasəti bank işçilərinin bu gün kredit verilə bilən iqtisadiyyat sektorunu düzgün seçmək bacarığına, eləcə də kredit vermək imkanı məsələsinin həllində bank üçün əsas əhəmiyyət kəsb edən digər amillərə və borcalanın qabiliyyətinə əsaslanır, yəni borcalanın kredit qabiliyyətinə əsasən “öz müştərisini” seçmək önəmli məsələlərdən biridir. Həmçinin, kredit siyasəti bankın hazırda sahib olduğu və ya gələcəkdə tətbiqini məqsədəuyğun hesab etdiyi kredit məhsulları ilə müəyyən edilir. Məsələn, müəssisələr üçün qısamüddətli kreditlər (dövriyyə vəsaitlərinin doldurulması üçün) və uzunmüddətli investisiya kreditləri (istehsalın genişləndirilməsi, modernləşdirilməsi, texniki yenidən silahlanması, elmi-texniki yeniliklərin tətbiqi üçün) uyğundur.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Elnur Sadıqov. Bank əməliyyatları. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2010.- 212 səh.*

*2. V.Cəfərov Pul-kredit siyasəti: Mərkəzi Bank bu siyasəti ilə iqtisadi tarazlığı təmin edir. Bakı. Ekspress, 2012.- 3-5 noyabr.- S. 10*

*http://www.anl.az/down/meqale/express/2012/noyabr/276530.htm*

*3. Məmmədli Rafiq. Yüksək kredit reytinqi Azərbaycana dünyanın aparıcı bank-maliyyə institutları ilə səmərəli əməkdaşlıq imkanı verir. Bakı. Azərbaycan, 2020.- 12 iyun.- S.1;9.*

*4. Борис Борисович.Международный банковский бизнес . Москва: Юрайт, 2021. 178s.*

*5. https://cbar.az/press-release-3885/view*

*6. https://www3.tcmb.gov.tr/kutuphane/TURKCE/tezler/ayseniscan.pdf*

*7. https://www.federalreserve.gov/pubs/feds/2010/201039/201039pap.pdf*

*8. https://unec.edu.az/application/uploads/2018/11/Rzayeva-imnaz-Tal-tdin.pdf*


**ANNOTASİYA**


Bəşəriyyət mövcud olduğu gündən kredit puldan həyatın reallığı ilə əlaqə kimi qiymətləndirilmişdir. Maliyyə resursları çatışmazlığını tez bir zamanda aradan qaldırmaq və tələbatı ödəmək üçün kreditlər iqtisadi sahədə xüsusi əhəmiyyət kəsb edir. Kreditor başqa subyektin tələbini öz artıq vəsaiti hesabına ödəyə bilər. Borcalan isə kredit götürmək hesabına pul fondunu genişləndirməklə istehsal məqsədlərini tamamilə həll edə bilər. Vətəndaşlar, böyük birliklər və dövlət kredit xidmətlərindən istifadə etmək

hüququna malikdir.

Müasir dövrdə kredit iqtisadiyyatın sütunu, iqtisadi inkişafın əsas yollarından biri kimi tanınır. İstər fərdi vətəndaşlar, istərsə də müəssisələr olan borcalanlar təcili işlərini tez həll etmək üçün kredit üçün müraciət edirlər. Məsələn, indiki dövrdə ölkəmizdə özəl xırda müəssisələr, iaşə, tikiş və digər yerlər kredit götürərək mənfəət götürən kimi açılır və artır. Bu baxımdan kredit iqtisadi zərurətdən irəli gələn bir hadisədir və iqtisadiyyatın istənilən sahəsində və ya hər hansı mülkiyyət növündə çox səmərəli fonddur. Kredit siyasətinin yeni dövrdə təkmilləşdirilməsi bankın kredit fəaliyyətinin vəzifələrini, onların həyata keçirilməsinin vasitə və üsullarını, habelə kredit prosesinin təşkili prinsip və qaydalarını müəyyən edir. Kredit siyasəti kredit mexanizmindən istifadə etməklə həyata keçirilir.

**Açar sözlər:** *kredit, kredit siyasəti, bank kreditləri, ödəniş, kreditor və s.*

**Generalization of priority directions in the bank credit system**

**Eyvazli Huseyn, PhD student**
**Azerbaijan State Economic University**

**ANNOTATION**

Since the beginning of mankind, credit has been valued as a connection to the reality of life rather than money. In order to quickly eliminate the lack of financial resources and meet the demand, loans are of special importance in the economic field. The creditor can pay the claim of another subject at the expense of his surplus funds. And the borrower can completely solve the production goals by expanding the money fund due to borrowing. Citizens, large associations and the state have the right to use credit services.

In modern times, credit is recognized as a pillar of the economy, one of the main ways of economic development. Borrowers, both private citizens and businesses, apply for a loan to quickly solve their urgent business. For example, in our country today, private small enterprises, catering, sewing and other places open and grow as soon as they take a loan and make a profit. In this respect, credit is a phenomenon arising from economic necessity and is a very efficient fund in any sector of the economy or any type of property. The improvement of the credit policy in the new period determines the tasks of the bank's credit activity, the means and methods of their implementation, as well as the principles and rules of the organization of the credit process. Credit policy is implemented using the credit mechanism.

**Keywords:** *credit, credit policy, bank loans, payment, creditor, etc.*

**Обобщение приоритетных направлений банковской кредитной системы**

**Эйвазли Гусейн, аспирант**
***Азербайджанский Государственный Экономический Университет***

**АННОТАЦИЯ**

С самого начала человечества кредит ценился как связь с реальностью жизни, а не как деньги. Для быстрого устранения нехватки финансовых ресурсов и удовлетворения спроса особое значение в экономической сфере приобретают кредиты. Кредитор может оплатить требование другого субъекта за счет своих свободных средств. А заемщик может полностью решить производственные цели, расширив денежный фонд за счет заемных средств. Граждане, крупные объединения и государство имеют право пользоваться кредитными услугами.

В современное время кредит признается опорой экономики, одним из основных путей экономического развития. Заемщики, как частные лица, так и предприятия, обращаются за кредитом, чтобы быстро решить свои неотложные дела. Например, в нашей стране сегодня частные малые предприятия, предприятия общественного питания, швейные и другие заведения открываются и растут, как только берут кредит и получают прибыль. В этом отношении кредит представляет собой явление, возникающее из экономической необходимости, и является весьма эффективным фондом в любой отрасли экономики и любом виде собственности. Совершенствование кредитной политики в новый период определяет задачи кредитной деятельности банка, средства и методы их реализации, а также принципы и правила организации кредитного процесса. Кредитная политика реализуется с использованием кредитного механизма.

**Ключевые слова:** *кредит, кредитная политика, банковские кредиты, платеж, кредитор и др.*

UOT 336; 336.11
DOI:10.30546/3006-0346.2024.1.79.166

# SON 5 İLDƏ AZƏRBAYCANDA PUL KÜTLƏSİ VƏ ÜDM NİSBƏTİNİN TƏHLİLİ

**ZÜLFÜQAR QASIMOV**
*Bakı Dövlət Universiteti, magistrant*
*E-mail: zgasimov11@gmail.com*

## GİRİŞ

Pul təklifi çox mühüm maliyyə göstəricisidir və iqtisadiyyata bir çox cəhətdən təsir göstərir. Təklifin artması insanların daha çox xərcləməsini nəzərdə tutur ki, bu da iqtisadiyyatda məhsul və xidmətlərə tələbi artırır. Nəticədə yüksək tələbat qiymətlərin qalxmasına səbəb olur. Ona görə də pulun yüksək dövriyyəsi inflyasiyanın yüksəlməsinə səbəb olacaqdır.

Pul təklifi mühüm iqtisadi parametr olduğundan hökumətlər onu daim nəzarətdə saxlayır və tənzimləyir. Buna görə də pulun miqdarını nəzarətdə saxlamaq üçün tez-tez ölçürlər. Pul kütləsinin standart ölçülərinə M1, M2, M3 və M4 daxildir.

Təklifin ölçülməsi M0 və ya pul bazasından başlayır. Dövriyyədə olan valyutanın miqdarını, yəni valyuta veksellərini, sikkələri və bank ehtiyatlarını bildirir.

**M1 pul kütləsi:** “dar pul” da adlandırılan M0 və bankdakı digər yüksək likvidli əmanətləri əhatə edir.

**M2 pul kütləsi:** Bu, bəlkə də ən çox qəbul edilən ölçüdür, çünki o, bazara çıxarıla bilən qiymətli kağızlara və daha az likvid depozitlərə əlavə olaraq M1-dən ibarətdir.

**M3 pul kütləsi:** “Geniş pul” kimi tanınan o, M2 və qarşılıqlı fondlar, repo müqavilələri, kommersiya sənədləri və s. kimi pul bazarı fondlarını təşkil edir.

**M4 pul kütləsi:** M3-dən və adətən kommersiya banklarından kənar bütün digər ən az likvid aktivlərdən ibarətdir.

Pul kütləsi ölkə iqtisadiyyatında valyuta və digər likvid alətlərdir. Ümumi daxili məhsul (ÜDM) müəyyən bir müddət ərzində ölkənin sərhədləri daxilində istehsal olunan bütün hazır məhsul və xidmətlərin ümumi dəyərinin ölçülməsidir. ÜDM ölkənin ümumi iqtisadi sağlamlığının hərtərəfli göstəricisi kimi istifadə olunur [6].

1. Pul kütləsi ölkə iqtisadiyyatında bütün valyuta və digər likvid alətlərə aiddir.
2. Ümumi daxili məhsul (ÜDM) müəyyən bir müddət ərzində ölkənin sərhədləri daxilində istehsal olunan bütün hazır məhsul və xidmətlərin ümumi dəyərini ölçür.
3. Nominal ÜDM pul kütləsi ilə artmağa meyillidir.
4. Real ÜDM inflyasiyaya uyğunlaşdırılmış nominal ÜDM-dir.

Pul kütləsi ilə ÜDM arasındakı əlaqə iqtisadiyyatın qısa və ya uzunmüddətli görünüşündən asılıdır. Nominal ÜDM pul təklifi ilə artmağa meyillidir. "Daimi qiymət", "inflyasiya ilə düzəldilmiş" və ya "sabit dollar ÜDM" kimi də adlandırılan real ÜDM inflyasiyaya uyğunlaşdırılmış ölçüdür. Real ÜDM-in pul kütləsi ilə aydın əlaqəsi yoxdur. Real ÜDM-ə iqtisadi agentlərin və müəssisələrin məhsuldarlığı təsir göstərir.

Makroiqtisadiyyat nəzəriyyələri qeyd edir ki, pul artımı borc almaq üçün daha çox pulla iqtisadiyyatda faiz dərəcələrini aşağı salmalıdır. Təklifin bu artımı borc pulunun dəyərini aşağı salır. Borc almaq asanlaşdıqda, istehlak və borc vermə dərəcələri yüksəlir. Qısa müddətdə istehlakın, borclanmanın daha yüksək dərəcələri iqtisadiyyatın ümumi məhsulunun və xərclərin və ehtimal ki, ölkənin ÜDM-nin artması ilə əlaqələndirilə bilər.

Artan ÜDM. Ölkənin ÜDM-i iqtisadi məhsuldarlığın və sağlamlığın mükəmməl ifadəsi olmasa da, ÜDM-in daha yüksək səviyyəsi daha arzuolunandır. Ölkənin ÜDM-i onun iqtisadiyyatının ölçüsü haqqında məlumat verir və ÜDM-in artım tempi iqtisadi inkişafın ən yaxşı göstəricilərindən biridir

Ölkədə pul kütləsinin artmasının bir çox səbəbi var, o cümlədən aşağıdakılar [7]:

• Ölkələrin mərkəzi bankları daha çox pul çap edə bilər;

• Banklar likvidlik əmsalını aşağı salmağı və vəsaitlərinin daha böyük hissəsini istehlakçılara və bizneslərə borc verməyi seçə bilərlər;

• Mərkəzi bank xarici ehtiyatlarını artırmaq üçün valyutanı xarici valyutalardan alırsa, xaricdən vəsait axını da ola bilər;

• Hökumət həmçinin öz fəaliyyəti ilə, ilk növbədə, dövlət qiymətli kağızlarını almaqla pul kütləsini artıra bilər.

Son 5 ili ÜDM və pul kütləsinin təhlili. Azərbaycanda geniş mənada pul kütləsinin (M3 aqreqatı) həcmi 2017-ci ilin dekabrında 22 mlrd. 772,1 mln. manat, pul kütləsi (M2 aqreqatı) isə 2017-ci il dekabrda 12 466,4 mln. təşkil etmişdir. 2018-ci ilin yekununda isə bu nəticələr M3 üçün 24 mlrd. 060.4 mln. manata, M2 isə 14 643,6 mln. manata yüksəlmişdir (qrafik 1) [1].

Qrafik 2-də göstərildiyi kimi, M3 və M2 2016-2018-ci illər arasında müsbət yüksəlişə malik olmuşdur.

**Qrafik 1: Pul kütləsi, 2017-2018**




***Mənbə:*** *https://www.cbar.az/page-42/monetary-indicators*

**Qrafik 2: Pul kütləsi, 2017-2018**




***Mənbə:*** *https://www.cbar.az/page-42/monetary-indicators*

Qeyd olunan illərdə nominal Ümumi Daxili Məhsulun statistik göstəriciləri 3, 4 və 5-ci qrafikdə göstərilmişdir. Qrafiklərə əsasən, Ümumi Daxili Məhsulun həcmi 40,866,632,048 dollar, (102 faiz), 2018-ci ildə isə 40,866,632,048 dollar olaraq 101.5 faiz artım göstərmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi nominal ÜDM ilə pul kütləsi (M2) arasında müsbət əlaqə vardır və pul kütləsinin artışı ÜDM-də özünü göstərir. Bu, 2017-2018-ci illərdə də özünü göstərir.

**Qrafik 3: Pul kütləsi, 2017-2022**




***Mənbə:*** *https://www.cbar.az/page-42/monetary-indicators*

M2 pul kütləsinin həcmi 2019-cu ildə də öz artımını davam etdirmiş, M2 15397.9, M3 isə 28866.3 olmuşdur. 2020-ci ildə isə pandemiyanın təsiri ilə ölkədə pul kütləsində azalma müşahidə edilmişdir. Qeyd edilən bu artıb-azalma qrafiki nominal ÜDM-də də müşahidə edilmiş, 2019-cu ildə həcmi yüksələn ÜDM, 2020-ci ildə düşüşə keçmişdir. Bu da pul kütləsi ilə ÜDM-nin arasındakı əlaqəni bir daha göstərir [2,3].

**Qrafik 3: Nominal Ümumi Daxili Məhsul, 2017-2022**




***Mənbə:*** *https://www.stat.gov.az/source/finance/*

**Qrafik 4: Nominal ÜDM, 2017-2022**




***Mənbə:*** *https://www.stat.gov.az/source/finance/*

2022-ci ildə Azərbaycanda geniş pul kütləsi (M3, nağd pul, müddətli depozitlər, tələb olunan depozitlər və depozitlər) 23,6% artaraq 42 milyard 824,9 milyon manata çatıb ki, bu da rekord göstəricidir. Yalnız 2022-ci ilin dördüncü rübündə pul kütləsi 6,7% artmışdır. 2022-ci ilin iyun ayının 1-nə Azərbaycanda geniş pul kütləsinin (M3) həcmi rekord səviyyəyə – 37.001 mlrd. manata çatıb. Məlumata görə bu göstərici ötən ay ilə müqayisədə 4%, ötən ilin eyni ayı ilə müqayisədə isə 21.5% artmışdır. 2022-ci ilin iyun ayının 1-nə M2 pul aqreqatı 25.371 mlrd. manat, M1 pul aqreqatı (banklardan kənarda nağd pul və manatla tələb edilənədək depozitlər) 21.888 mlrd manat təşkil etmişdir. Qeyd olunan bu artım ÜDM-də də müşahidə edilmişdir. Qlobal pandemiya dövrünün ən sürrətli olduğu 2020-ci illə müqayisədə 2021-ci ildə ÜDM yenidən yüksəlişə keçmiş, 2022-ci ildə isə bu artımın həcmi daha da böyümüşdür. 2021-2022-ci illər arasındakı nominal ÜDM həcmi eyni ilə pul kütləsində də yaşanmışdır [4].

**Qrafik 2: Pul aqreqatları, 2019-2022**




***Mənbə:*** *https://www.cbar.az/page-42/monetary-indicators*

Mərkəzi Bankın 1 dekabr 2021-ci il tarixinə olan statistik göstəricilərində bildirilir ki, ölkədə hesabat dövrünə dövriyyədə 12 004.7 milyon (12.01 mlrd) manatlıq nağd pul kütləsi olmuşdur. Ölkədə geniş mənada M3 pul kütləsi 2021-ci ilin dekabr ayında 33 031.3 milyon manat təşkil etmişdir. Burada 22743.7 mln. manatı M2 pul aqreqatordu, 10 287.6 mln. manatı isə qeyri-rezidentlərin və dövlət idarəetmə orqanlarının depozitləri daxil olmadan sərt valyutada depozitləri təşkil edib.

**Açar sözlər:** *Nominal ÜDM, pul kütləsi, artım tempi, iqtisadiyyat.*

**ƏDƏBİYYAT SİYAHISI:**

1. *Azərbaycan Respublikasının Mərkəzi Bankı, 2019, №3, yanvar-dekabr, pul siyasəti icmal https://uploads.cbar.az/assets/b8b99630090eac66b257cd795.pdf*
2. *Azərbaycan Respublikasının Mərkəzi Bankı 2020, №3, yanvar-dekabr, pul siyasəti icmal https://uploads.cbar.az/assets/c14b64062df55c0d18e9ec3de.pdf*
3. *Azərbaycan Respublikasının Mərkəzi Bankı, 2021, №3, yanvar-dekabr, pul siyasəti icmal https://uploads.cbar.az/assets/802ee56868fa9eeb4ddb2b617.pdf*
4. *Azərbaycan Respublikasının Mərkəzi Bankı 2022 №3 Yanvar-Dekabr, pul siyasəti icmal https://uploads.cbar.az/assets/8e4def1590ec9c1c2b0e448f6.pdf*
5. *https://www.cbar.az/page-42/monetary-indicators*
6. *https://www.wallstreetmojo.com/money-supply/#:~:text=M0%20%3D%20Currency%20notes%20%2B%20coins%20%2B,M4%20%3D%20M3%20%2B%20least%20liquid%20assets*
7. *https://www.investopedia.com/ask/answers/070615/what-correlation-between-money-supply-and-gdp.asp#:~:text=The%20relationship%20between%20money%20supply%20and%20the%20GDP%20depends%20on,rise%20with%20the%20money%20supply*
8. *https://www.stat.gov.az/source/finance/*

**Zulfugar Gasimov**
***Baku State University, graduate student***

**ANALYSIS OF MONEY SUPPLY AND GDP RATIO IN AZERBAIJAN OVER THE LAST 5 YEARS**

There are many aspects to the circulation of money in a country. One such aspect is the determinants that influence and accurately measure the supply side of the economy. High-powered money – Cash and its equivalents are high-powered money available in government and bank deposits. Because they are highly liquid, they directly affect the money supply in the economy. Level of commercial bank reserves – The central bank instructs commercial banks to hold a fixed percentage of deposits as a reserve in case of any emergency. Banks lend their excess reserves to consumers, increasing money circulation.

GDP does not indicate a country's standard of living, but GDP per capita measures trends in living standards and whether the average citizen in a country is better off or worse off. When the growth rate of GDP indicates an increase in economic productivity, the value of money in circulation increases. This is because each unit of currency can later be exchanged for more valuable goods and services. Economic growth has a natural deflationary effect, even if the money supply does not decrease.

**Keywords:** *Nominal GDP, money supply, growth rate, economy*

**Зульфугар Гасымов**
***Бакинский Государственный Университет, магистр***

## АНАЛИЗ ДЕНЕЖНОЙ ПРЕДЛОЖЕНИЯ И СООТНОШЕНИЯ ВВП В АЗЕРБАЙДЖАНЕ ЗА ПОСЛЕДНИЕ 5 ЛЕТ

Денежное обращение в стране имеет множество аспектов. Одним из таких аспектов являются детерминанты, которые влияют и точно измеряют сторону предложения в экономике. Деньги высокой мощности. Наличные деньги и их эквиваленты — это деньги высокой мощности, доступные на государственных и банковских депозитах. Поскольку они высоколиквидны, они напрямую влияют на денежную массу в экономике. Уровень резервов коммерческих банков. Центральный банк поручает коммерческим банкам держать фиксированный процент депозитов в качестве резерва на случай возникновения чрезвычайной ситуации. Банки предоставляют потребителям свои избыточные резервы, увеличивая денежное обращение.

ВВП не указывает на уровень жизни в стране, но ВВП на душу населения измеряет тенденции в уровне жизни и то, стал ли средний гражданин страны жить лучше или хуже. Когда темпы роста ВВП указывают на увеличение экономической производительности, стоимость денег в обращении увеличивается. Это связано с тем, что каждую единицу валюты впоследствии можно обменять на более ценные товары и услуги. Экономический рост имеет естественный дефляционный эффект, даже если денежная масса не уменьшается.

**Ключевые слова:** *номинальный ВВП, денежная масса, темпы роста, экономика.*

UOT 338:37
DOI:10.30546/3006-0346.2024.1.79.170

# AZƏRBAYCANDA TƏHSİL XİDMƏTLƏRİ BAZARININ MÜASİR İNKİŞAF MEYİLLƏRİ

**AMİN RÜSTƏMLİ**
*Azərbaycan Dövlət Aqrar Universitetinin*
*"İqtisadiyyat" ixtisası üzrə doktorantı*
*E-mail: aminrustamli@mail.ru*

Son illərdə ali təhsilin işəgötürənlərlə əlaqəsinin genişləndirilməsi, xüsusilə də onların həm qanunvericilik və həm də təhsil proqramlarının inkişafı sahəsində iştirakı xeyli qənaətbəxşdir. Lakin sosial-praktiki və iqtisadi sahədə mövcud vəziyyətin təhlili göstərir ki, ali təhsilin məzmunu ilə tələb olunan biliklər arasındakı uyğunsuzluq dünyada qlobal böhran səviyyəsi kimi xarakterizə olunur, hətta bir çox inkişaf etmiş ölkələrdə ən yaxşı halda kadr hazırlığı iqtisadiyyatın keçmiş mərhələsinə uyğun aparılır.

Bununla əlaqədar ali təhsil sisteminin inkişafı üçün bütün mümkün innovasiya potensialını və resursları zəruri inkişaf istiqamətlərinə səfərbər etmədən mövcud vəziyyətin dəyişdirilməsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan, təhlil göstərir ki, respublikanın ali təhsil sistemində bir sıra problemlər mövcuddur. İlk növbədə, qeyd etmək lazımdır ki, Azərbaycanda kadr hazırlığı strukturu əmək bazarının tələbatına uyğun gəlmir və elmi-tədqiqatların nəticələrinin ali təhsilə inteqrasiyası zəifdir. Digər tərəfdən, ali təhsilə ayrılan vəsaitlər səmərəsiz istifadə olunur. Bununla yanaşı, ali məktəblərin kadr potensialı və müəllimlərin ixtisasartırma təhsili müasir tələblərə cavab vermir, ali məktəb tələbələri və məzunlarının hazırlıq səviyyəsi onların dünya təhsil məkanına çevik inteqrasiyasına imkan vermir. (1)

Sahibkarlıq subyektlərinin kadr hazırlığı prosesinin maliyyələşdirilməsində iştirakının aşağı səviyyədə olmasına təsir göstərən amillərdən biri bu istiqamətdə stimullaşdırıcı mexanizmin olmamasıdır. Tədqiqat göstərir ki, müəssisələrin kadr hazırlığına və elmi-tədqiqat işlərinə çəkdikləri xərclər olduqca aşağı səviyyədədir.

Doğrudan da kadr hazırlığı siyasətində ciddi çatışmazlıqlar vardır. Bunlara:

- ali təhsilin məzmununun müasir standartlara tam cavab verməməsi;
- bir sıra ixtisaslar üzrə hələ də tədris planlarında qeyri-ixtisas fənlərinin mövcudluğu;
- təhsilin keyfiyyətinin idarə olunması ilə bağlı tətbiq olunan akkreditasiya sisteminin təhsil müəssisələrini tam əhatə etməməsi;
- ali təhsil müəssisələrində marketinq xidmətinin olmaması; müəllimlərin ixtisasartırma təhsilinin müasir tələblərə cavab verməməsi;
- elmi-pedaqoji və elmi tədqiqat əməyinin kifayət qədər stimullaşdırılmaması;
- kadr hazırlığının əmək bazarının tələbləri ilə hələ uzlaşmaması;
- mövcud maliyyələşmə mexanizminin kifayət qədər səmərəli olmaması;
- ixtisasartırma təhsili üzrə maliyyələşmə mexanizminin kifayət qədər səmərəli olmaması;
- təhsil müəssisələrinin daha çox nəzəri biliklərə istinad etməsi;
- ixtisasartırma və yenidənhazırlanma təhsilinin dünya təcrübəsinə uyğun hazırlanmış müasir model və mexanizmlərinin səmərəli tətbiq olunmaması və s.

Bütün bunlar sahibkarlıq subyektlərinin elmə və təhsilə investisiya marağını zəiflədir.

Məhz bu ciddi problemlərin aradan qaldırılması məqsədilə qəbul olunmuş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyasından, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulmasından, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsindən, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsindən, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılmasından, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasından ibarətdir (4).

Dövlət Proqramı çərçivəsində islahatların Bolonya Bəyannaməsinə və beynəlxalq təhsil təcrübəsinə uyğun olaraq, ali təhsilin normativ-hüquqi bazasının yeniləşdirilməsi, ali təhsilin məzmununun və təlim texnologiyalarının təkmilləşdirilməsi, ali təhsil müəssisələrinin strukturunun və bütövlükdə onun idarə olunması sisteminin müasir tələblər baxımından modernləşdirilməsi, ali təhsildə keyfiyyətin təmin olunması, ali təhsildə kadr hazırlığı, ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin müasir tələblərə uyğun qurulması, ali təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi, ali təhsilin iqtisadiy-

yatının yeni mexanizmlərinin yaradılması və tətbiqi istiqamətində aparılması nəzərdə tutulmuşdur.

Müasir dövrdə ölkədə ali təhsil sahəsində islahatların əsas istiqamətlərinə ali təhsilin məzmunu ilə tələb olunan biliklər arasındakı uyğunsuzluğun aradan qaldırılması, kadr hazırlığı strukturunun əmək bazarının tələbatına uyğunlaşdırılması, ali məktəblərin kadr potensialının müasir tələblər səviyyəsinə qaldırılması üçün tədbirlərin görülməsi, ölkənin ali məktəbləri ilə dünyanın aparıcı ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələləri daxildir. Fikrimizcə, elm və təhsilin inteqrasiyasını təmin etmək üçün ali təhsil müəssisələrinin nəzdində elmi-tədqiqat institutlarının, iri laboratoriyaların, konsaltinq və mühəndislik xidmətləri göstərən bölmələrin yaradılması məqsədəuyğundur.

Son illərdə təhsilin, insan kapitalının, informasiya texnologiyalarının inkişafına xüsusi diqqətin ayrılması ölkəmizin innovativ inkişaf perspektivlərinə geniş imkanlar yaradır. İqtisadi inkişafın hazırki mərhələsində Azərbaycanda ali təhsil sisteminin inkişafı və Avropa təhsil məkanına inteqrasiyası, Milli Elmlər Akademiya sisteminin inkişafı, Regional İnnovasiya Zonalarının (RİZ) yaradılması, "Elektron Azərbaycan" və s. istiqamətdə Dövlət proqramlarının hazırlanması bu aspektdə atılan ən mühüm addımlardandır.

Dinamik inkişaf edən bir sistem kimi ali məktəb hazırda qlobal təhsil sisteminin baza prinsiplərinin varisliyini və təhsilin lokal xüsusiyyətlərini nəzərə almaqla fəaliyyət göstərir. O, strateji xarakterli dövlət layihələrinin, müxtəlif dövlət proqramlarının reallaşmasında səmərəli təkliflər verə bilən və onların icrasında fəal iştiraka qadir ola bilən bir qurum kimi fasiləsiz təhsilin mühüm elementi olaraq ölkənin milli təhlükəsizliyinin mühüm amillərindən sayılır.

Ölkənin innovativ inkişafı perspektivi yeni düşüncəli kadrların hazırlanmasını, bu amil isə öz növbəsində ölkənin təhsil sisteminin innovativ inkişafini tələb edir. Bu məqsədlə təhsil sistemində innovativ təhsil ideyaları geniş tətbiq edilməlidir.

İnnovativ təhsil innovativ universitetlərdə reallasa bilər. İnnovativ universitetin təhsil sistemi müasir elmi tədqiqatlara açıq olmalıdır. Belə universitetin tədris planında tələbə və magistrlərə müxtəlif layihələrin hazırlanması və idarəedilməsi üzrə praktik vərdislər asılayan fənlər verilir, aktual məsələlər üzrə treninqlər təşkil edilir, onlara istehsalat və elmi tədqiqat təşkilatlarında təcrübəkeçmə imkanları yaradılır. Tədris prosesinin texnoloji təminatı elmin müasir səviyyəsinə uyğun olmalıdır. Təhsil fəaliyyətinin innovativ inkişafını təmin etmək üçün aşağıdakı proseslərin sinxron icrası zəruridir:

a) tələbələrin öz gələcək peşə fəaliyyətlərinə (iqtisadiyyatın müxtəlif sektorlarına) dair real layihələr hazırlaması;

b) Tətbiqi və fundamental xarakterli tədqiqatların aparılması;

c) Tələbələrə tədris kurslarını seçməyə imkan verən təhsil texnologiyalarının tətbiqi (3).

İnnovativ təhsil, təhsilin fundamentallığını inkar etmir, əksinə onu daha da inkişaf etdirməyi tələb edir. Müasir texnologiyalar sahəsində innovativ fəaliyyət təbiətşünaslıq və riyazi elmlər üzrə fundamental hazırlıq tələb edir. Bu mənada innovativ universitetlərdə təhsilin fundamentallığına diqqət yetirmək zəruridir. Universitetdə elmi səviyyəni yüksəltmək, onun iqtisadiyyatla əlaqəsini təmin etmək üçün universitetin innovativ infrastrukturunu inkişaf etdirmək lazımdır.

Dövlətin təhsil prosesinə innovasiyaların tətbiqinin stimullaşdırılması müsabiqə seçimlərinin aparılması yolu ilə həyata keçirilə bilər. İnnovasiyalı tədris proqramlarını tətbiq edən ali təhsil müəssisələri arasında müsabiqələrin aparılmasının məqsədi daha effektiv ali təhsil müəssisələrinin seçilməsi və onlara dövlət köməyinin göstərilməsi sayılır. Dövlət köməyi subsidiyaların, qrantların verilməsi yolu ilə reallaşdırıla bilər.

Ali təhsil müəssisələrinə dövlət dəstəyinin əsas məqsədi ali məktəbdə innovasiya fəaliyyətinin, eləcə də biliklərə əsaslanan iqtisadiyyatın formalaşmasını təmin edə bilən elmin inkişafıdır. Bu cür dövlət dəstəyinə, həmçinin ölkənin, onun ali təhsil müəssisələri yerləşən ayrı-ayrı regionlarının iqtisadi və sosial potensialının inkişafı məsələlərinin həlli, ali təhsil müəssisələri ilə sənaye və elmi strukturlar arasında inteqrasiya məsələlərinin həlli də aiddir.

Ali təhsil müəssisəsinin innovasiya proqramının reallaşdırılmasının məqsədi təhsilin, elmi işlərin və onların tətbiqi səmərəliliyinin keyfiyyətcə dəyişilməsindən ibarətdir. İnnovasiya proqramına cəlb olunan dövlət dəstəyi resursları bəyan olunmuş vəzifələr proqramının miqyasına uyğun gəlməlidir. Eyni zamanda, innovasiya proqramının qiymətləndirilməsi meyarlarının sırasına ali təhsil müəssisəsinin xarici tərəfdaşları tərəfindən proqrama təşkilati və maliyyə dəstəyinin səmərəliliyinin qiymətləndirilməsi, iqtisadi, sosial və elm sferalarında gözlənilən effektlər də daxil olunmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Əhmədov M.M. Xidmət sahələrinin marketinqi. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2015. – 372 s.*

2. *Məmmədov A.T. Marketinqin əsasları. Bakı: "İqtisad Universiteti nəşriyyatı"- 2007-335 s.*

3. *Abdullayeva R., Muradov A. Sosial sferanın iqtisadiyyatı. Bakı, 2009, 237 s.*

4. *Əlirzayev Ə.Q. İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar. Bakı, 1997, 208 s.*

5. *Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti, Bakı, 2009*


## XÜLASƏ


Son illər aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkədə yüksək inkişafa nail olunmuş, əhalinin maddi rifahı xeyli yaxşılaşmış, yoxsulluğun səviyyəsi minimuma enmiş və Azərbaycan Respublikası orta gəlirli ölkələr sırasında yer tutmuşdur. Gerçəkləşdirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır. Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir. Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesində ən mühüm şərtlərdən olub, ölkənin təhsil sisteminin başlıca vəzifəsini təşkil edir.



**Key words:** *təhsil, iqtisadiyyat, innovasiya.*



**Rustamli Amin Allahverdi**
***Doctoral student of Azerbaijan State Agricultural University majoring in Economics***


**Modern development trends of educational services market in Azerbaijan**

## SUMMARY


As a result of the socio-economic policy carried out in recent years, high development has been achieved in the country, the material well-being of the population has improved significantly, the level of poverty has decreased to a minimum, and the Republic of Azerbaijan has been ranked among the middle-income countries. The implemented reforms and large-scale infrastructure projects have created conditions for the reconstruction and sustainable development of socio-economic life. The next strategic task facing the country is to ensure sustainable economic development and raise the standard of living of the population through further modernization of socio-economic life and adaptation to advanced international practice.



**Key words:** *education, economy, innovation.*



**Рустамли Амин Аллахверди**
***Докторант Азербайджанского Государственного Аграрного Университета по специальности Экономика***


**Современные тенденции развития рынка образовательных услуг в Азербайджане**

## РЕЗЮМЕ


В результате проводимой в последние годы социально-экономической политики в стране достигнут высокий уровень развития, существенно улучшилось материальное благосостояние населения, уровень бедности снизился до минимума. Азербайджан вошел в число стран со средним уровнем дохода. Реализованные реформы и масштабные инфраструктурные проекты создали условия для восстановления и устойчивого развития социально-экономической жизни.Следующей стратегической задачей, стоящей перед страной, является обеспечение устойчивого экономического развития и повышение уровня жизни населения за счет дальнейшей модернизации экономики. социально-экономическая жизнь и адаптация к передовой международной практике.



**Ключевые слова:** *образование, экономика, инновации.*

UOT: 33
DOI:10.30546/3006-0346.2024.1.79.173

# AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİ RAYONLARINDA KİÇİK VƏ ORTA BİZNESİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

**ELŞAD YUSİFOV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, i.ü.f.d., dosent*

*ORCİD ID: 0000-0003-1946-2937*
*E-mail: elshad.yusifov@azmiu.edu.az*

**ELYAR HƏSƏNOV**
*Bakı Avrasiya Universiteti, magistrant*

*ORCİD ID: 0009-0009-1964-247X*
*E-mail: elyarhas8@gmail.com*

## Giriş

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar mikro, kiçik və orta biznesin davamlı inkişafını əhatə edir. Ölkədə sosial-iqtisadi transformasiyanın ən mühüm amillərindən biri də kiçik və orta biznesin əsas aparıcı qüvvəyə çevrilməsidir. Son dövrlərdə Azərbaycanda kiçik və orta biznes müəssisələrinin, həmçinin fərdi sahibkarlığın inkişafına xüsusi diqqət yetirilir. Bu, həm də onunla əlaqədardır ki, ölkədə daha rəqabətli biznes mühitinin yaradılması və bu sahədə maneələrin aradan qaldırılmasına yönəlmiş dövlət proqramları icra edilir. Rəqabətin inkişafı üzrə genişmiqyaslı tədbirlərin görülməsi kiçik və orta biznesin dəstəklənməsi və fəaliyyət prosedurlarının rahatlığı, əməliyyatların şəffaflığı məqsədilə dövlət tənzimlənməsinin müasir metodlarla həyata keçirilməsi ilə mümkündür. İnzibati və tənzimləmə prosedurlarının sadələşdirilməsi prosesi sürətlə irəliləyir və sahibkarlıq subyektlərinin inkişafı məqsədilə xidmətlərə dəstək infrastrukturu formalaşdırılmışdır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Sahibkarlığın İnkişafı Fondu vasitəsilə maddi və qeyri-maddi dəstək vasitələrindən istifadə edilməklə kiçik və orta biznesin fəaliyyətinin intensivliyinin təşviq edilməsi mühüm müsbət nəticələrə gətirib çıxarmışdır.

Azərbaycanda kiçik və orta biznesin inkişafı əsasən Bakı şəhəri və Abşeron rayonunda cəmləşmişdir. İqtisadi inkişafın prioritet istiqaməti regionların sosial-iqtisadi baxımdan inkişafıdır və bu da yalnız KOB subyektlərinin fəaliyyətinin iqtisadi rayonlarda aktivləşdirilməsi, o cümlədən davamlılığının artırılması ilə mümkündür. Qeyd etmək lazımdır ki, əsasən kapitalın konsentrasiyası və ticarət, eləcə də xidmətlər bazarının həcmi paytaxt və digər mərkəzi şəhər və rayonlarda daha çoxdur. Hazırda biznes fəaliyyətinin maliyyələşdirmənin güzəştli mexanizmlərinin tətbiqi, vergi qanunvericiliyinə mütərəqqi dəyişikliklərin edilməsi, konsaltinq xidmtlərinin göstərilməsi aspektindən dəstəklənməsində mühüm irəliləyişlər qeydə alınır. Beləliklə, tədqiqat makroiqtisadi inkişafın hərəkətverici qüvvəsi, sosial və iqtisadi artımın əsası kimi kiçik və orta biznes subyektlərinin fəaliyyətinin nəticələrinin və digər göstəricilərinin təhlili onların ölkənin iqtisadi rayonlarının inkişafında potensialının müəyyən edilməsinə görə mühüm əhəmiyyət kəsb edir.

## İqtisadi rayonlarda kiçik və orta biznesın inkişafının təşkili xüsusiyyətləri

Azərbaycanın iqtisadi rayonlarının inkişaf səviyyəsi həm strateji baxımdan, həm də əhalinin ümumilikdə həyat səviyyəsinə təsir imkanları baxımından xüsusi əhəmiyyətə malikdir. Rayonların sosial-iqtisadi inkişafı hökumətin iqtisadi siyasətində prioritet istiqamətdir. Məlumdur ki, aqrar sənaye kompleksinin yenidən innovasiyalı təşkili ilə ərzaq təhlükəsizliyi məsələlərinin həll edilməsi, məşğulluğun yüksəldilməsi, yoxsulluq səviyyəsinin mümkün qədər minimuma endirilməsi kimi məsələlərin həll edilməsi iqtisadi rayonların inkişafından, xüsusilə də iqtisadi rayonlarda kiçik və orta biznes subyektlərinin fəaliyyət göstəricilərindən asılıdır. Beləliklə, demək olar ki, iqtisadi rayonların hərtərəfli inkişafı müvafiq ərazilərdə qeyri-neft sənaye sahələrində qeyri-dövlət investisiyaları ilə formalaşdırılmış kiçik və orta biznes subyektlərinin iqtisadi münasibətlər sistemində iştirakı ilə mümkündür. Çünki biznes subyektləri rayonlarda investisiya qoyuluşları həyata keçirməklə əmtəə və xidmətlərin istehsalı ilə məşğul olan iqtisadi subyektləri formalaşdırır, iş yerlərinin açılması ilə məşğulluq problemini həll edir, rəqabətli mühit formalaşdıraraq əmtəə və xidmətlərin keyfiyyətinin yüksəlməsi yolu ilə vətəndaşlara əlavə faydanın qazandırılması, dövlət büdcəsinə ödənilən birbaşa və dolayı vergilərin həcminin artması və digər zəru-

ri əhəmiyyətə malik məsələlərin həll edilməsini də sürətləndirir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il qərarı ilə təsdiqlənmiş mikro, kiçik, orta və iri biznes subyekti göstəricilərinə əsasən müvafiq biznes subyektlərinin xarakterik cəhətləri müəyyən edilmişdir. Onları fərqləndirən xüsusi göstəricilər aşağıdakılardır [3]:

- il üzrə gəliri 200 min manatadək və işçilər üzrə orta siyahı sayı 10 nəfərədək olduqda, mikro sahibkar;
- il ərzində gəliri 200 min manatdan 3 milyon manata qədər və siyahı üzrə orta işçi sayı 11 nəfərdən 50 nəfərə qədər olduqda, kiçik sahibkar;
- il ərzində gəliri 3 milyon manatdan 30 milyon manata qədər və siyahı üzrə orta işçi sayı 51 nəfərdən 250 nəfərə qədər olduqda orta sahibkar.

Təbii ki, iqtisadi rayonlarda dövlət müxtəlif idarəetmə metodlarından istifadə etmək yolu ilə regionlarda kiçik və orta biznesin inkişafına dəstək verir və onları stimullaşdırır. Müxtəlif dövrlərdə həyata keçirilən və 2019-2023-cü illəri əhatə edən sonuncu Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı təşviq və tənzimlənmə baxımından mühüm mahiyyətə malikdir [4]. Bundan başqa, ölkə Prezidentinin 2016-cı ilin 6 dekabrında imzaladığı Fərmanı ilə təsdiq olunan "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə uyğun olaraq Azərbaycanda biznesin dəstəklənməsi məqsədilə fəaliyyət şəraitinin münbitliyinin artırılmasına xidmət edən islahatlar həyata keçirilir. Müvafiq sənədə əsasən, 2025-ci ilə qədərki dövrdə ölkə ərazisində innovasiyaların, müxtəlif bazarların, eləcə də resursların əlçatanlığı rəqabətin təkmil formasına nail olunması yolu ilə təmin ediləcək [1]. Həmçinin bu amillər ölkə sahibkarlarının fəaliyyətinin intensivləşməsinə, eləcə də maliyyə qoyuluşlarında iştirak edən subyektlərin əlverişli şərtlər çərçivəsində səmərəli fəaliyyətlərinə imkan verəcək. Biznes mühitinin müasir standartlara uyğunlaşdırılması isə bütün iqtisadi rayonlarda xüsusilə kiçik və orta biznesin davamlı inkişafının təmin edilməsinə, o cümlədən müvafiq rayonlarda vətəndaşların həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək.

**İqtisadi rayonlarda kiçik və orta biznesin inkişafının dəstək və tənzimlənməsi mexanizmi**

Azərbaycanda kiçik və orta biznes subyektlərinə dövlət dəstəyi və onun institusional qurumları əsas dövlət büdcəsindən ayrılan vəsaitlərin hesabına öz fəaliyyətini təşkil edirlər. Biznes fəaliyyətinin dövlət büdcəsinin maliyyəsi əsasında stimullaşdırılması Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs vasitəsilə hər il müxtəlif iqtisadi rayonlarda sahibkarlar tərəfindən təqdim olunan layihələrə güzəştli şərtlər çərçivəsində vəsaitlərin ayrılması ilə baş verir. Bu dəstək əsasında kiçik və orta biznesə təkan verilmiş olur və o dövlətin dəstəyinin ən səmərəli formalarından birindən istifadə hüququ qazanır. Fonda dövlət büdcəsindən ayrılan vəsaitlərlə sahibkarlara təqdim olunan güzəştli maliyyə vəsaitləri ölkə Prezidentinin imzaladığı sənədlərlə və strateji inkişaf proqramlarında müəyyənləşdirilmiş, eləcə də iqtisadi rayonların sosial-iqtisadi inkişafının zəruri istiqamətlərinə uyğun olmaqla qeyri-neft istehsal və xidmət sahələrinin, iqtisadi sistemin tarazlıq vəziyyətində inkişafı, kiçik və orta sahibkarların dəstəklənməsi, ümumilikdə isə ölkənin dinamik iqtisadi inkişafının təmin olunmasına xidmət edir [6].

Qeyd etdiyimiz kimi, kiçik və orta biznesin dəstək və tənzimləmə prosesində təşkilatçı kimi iştirak edən mühüm sistem və əhəmiyyətli qurum KOBİA-dır. Bu qurum müxtəlif iqtisadi rayonlarda kiçik və orta biznes sahibkarlıq subyektlərinə konsaltinq, informasiya xidmətləri göstərir, treyninqlər keçir, sahibkarların nəzəri və praktiki biliklərinin artırılması üçün layihələr icra edir. Həmçinin regionlarda sahibkarların iqtisadi maraqlarının qorunması, regional və xarici bazarlara əmtəə və xidmətlər təqdim etməsi üçün təsir mexanizmlərindən istifadə edir. Kiçik və orta sahibkarlara maliyyə resurslarının təqdim olunması üçün şəraitin yaradılması və onların hüquqi savadlılığının artırılması, yerli, dövlət və özəl, həmçinin xarici tərəfdaşlarla əlaqələrinin rahat qurulması və dərinləşdirilməsi istiqamətlərində xidmətlər göstərərək dəstək olur. Qeyd etmək lazımdır ki, KOBİA-nın çoxsaylı dəstək xidmətlərini yerinə yetirməsi üçün ölkənin bütün iqtisadi rayonlarında infrastruktur şəbəkəsi mövcuddur. Onlara aşağıdakılar daxildir [5]:

- KOB dostları;
- KOB inkişaf mərkəzləri;
- KOB evləri.

İnkişaf mərkəzləri kiçik və orta biznes subyektlərinin fəaliyyət istiqamətinə uyğun olaraq biznes fəaliyyətini təşkil etmək və irəliləmək məqsədilə biliklərini təkmilləşdirmək üçün ödənişsiz xidmət-

lər təqdim edir. "KOB dostu" şəbəkəsinin vasitəsilə isə ölkənin iqtisadi rayonlarında kiçik və orta biznes subyektlərinin hüquqlarının müdafiə olunması, eləcə də onlara lazımi dəstək xidmətləri icra olunur [7].

İqtisadi rayonların inkişafı ilə əlaqədar qəbul olunan və müvəffəqiyyətlə icra edilən inkişaf yönümlü proqramlarda, həmçinin ölkə rayonlarının hərtərəfli inkişaf etməsinə imkan verən sadalananlardan əlavə də tədbirlər reallaşdırılır. Qarşıya qoyulan vəzifələrin icra olunması Azərbaycanda qeyri-neft istehsalı sahələrinin davamlı inkişaf etməsinə, iqtisadi rayonlarda vətəndaşlara xidmətlərin və sahibkarlığın infrastrukturunun keyfiyyətli təminatına, biznes münasibətlərinin təkmilləşdirilməsinə, investisiyaların məbləğinin yüksəlməsinə, yeni biznes subyektlərinin yaradılmasına, bununla da iqtisadi artıma nail olunmasına, vətəndaşların işlə təmin olunma səviyyəsinin artmasına imkan yaratmışdır.

Beləliklə, Azərbaycanda iqtisadi rayonların inkişaf etməsinə dair icra olunan islahat siyasəti, qəbul olunmuş və reallaşdırılmaqda olan inkişaf proqramları kiçik və orta biznes subyektlərinin dövlət dəstəyi əsasında inkişafını şərtləndirir.

### İqtisadi rayonlarda kiçik və orta biznes fəaliyyətinin inkişaf göstəricilərinin təhlili

Dövrü olaraq açıqlanan rəsmi statistik göstəricilərə əsas ölkəmizdə fəaliyyət göstərən biznes subyektlərinə görə Bakı şəhəri tam üstünlüyə sahibdir. Naxçıvan və Abşeron – Xızı iqtisadi rayonu digər iqtisadi rayonlarla müqayisədə daha çox fəaliyyət olan biznes subyekti ilə fərqlənir. Abşeron – Xızı rayonunda say etibarı ilə iqtisadi subyektlərin çox olması Bakı şəhəri ilə infrastruktur, nəqliyyat-logistik baxımından yaxınlıqdır. Əlbəttə ki, Bakı şəhəri bütün aspektlərdən üstün göstəricilərə malikdir. Bununla yanaşı, digər iqtisadi rayonlarda da kiçik və orta biznes subyektlərinin istehsal və xidmətlərin təqdim edilməsi, fəaliyyət göstərməsi üçün müəyyən üstünlüklər mövcuddur. Bunlara ucuz işçi qüvvəsi, xammal bazası, ixrac yollarının üzərində olması aiddir.

İqtisadi rayonlarda yerləşən mikro, kiçik və orta biznes subyektlərinin sayı, əlbəttə ki, onların istehsalının nəticələrinə də təsir edir (cədvəl 1).

**Cədvəl 1**

**2022-ci ildə iqtisadi rayonlar üzrə mikro, kiçik və orta biznes subyektlərinin məhsul buraxılışı, min manat**

| | Cəmi | O cümlədən | | |
|---|---|---|---|---|
| | | mikro | kiçik | orta |
| **Ölkə üzrə cəmi** | **29003312,6** | **11072156,4** | **4714883,5** | **13216272,7** |
| Bakı şəhəri | 19308907,2 | 6395827,5 | 3608890,6 | 9304189,1 |
| Naxçıvan MR | 1282488,2 | 780085,0 | 90546,2 | 411857,0 |
| Abşeron-Xızı | 1951556,1 | 711147,8 | 283055,5 | 957352,8 |
| Dağlıq Şirvan | 256649,5 | 157668,8 | 35405,1 | 63575,6 |
| Gəncə-Daşkəsən | 748067,6 | 404329,4 | 79462,8 | 264275,4 |
| Qarabağ | 510088,0 | 251963,6 | 79710,7 | 178413,7 |
| Qazax-Tovuz | 578066,4 | 260999,3 | 58068,9 | 258998,2 |
| Quba-Xaçmaz | 759428,7 | 323968,2 | 98353,4 | 337107,1 |
| Lənkəran-Astara | 658504,8 | 393348,0 | 69599,1 | 195557,7 |
| Mərkəzi Aran | 759251,0 | 422043,4 | 97351,1 | 239856,5 |
| Mil-Muğan | 610266,7 | 292335,5 | 56252,1 | 261679,1 |
| Şəki-Zaqatala | 791803,3 | 348122,9 | 74726,4 | 368954,0 |
| Şərqi Zəngəzur | 92903,2 | 33849,2 | 16617,7 | 42436,3 |
| Şirvan-Salyan | 695331,9 | 296467,8 | 66843,9 | 332020,2 |

***Mənbə:*** *[2, s. 142-171]*

Cədvəl 1-dəki məlumatlara əsasən 2022-ci ildə ölkə üzrə istehsal edilən 29 milyarda manatlıq əmtəə və xidmətlərinin əsas hissəsinin orta və mikro biznes subyektləri tərəfindən istehsal edildiyi görünür. Qeyd etmək lazımdır ki, biznes subyektlərinin kateqoriyalarındakı dəyişiklik son dövrlərdə aparılan islahatların tərkib hissəsi kimi baş vermişdir. Bu proses müvafiq sahədə dəstək və tənzimləmələrin səmərəliliyinin artırılması məqsədilə beynəlxalq təcrübənin tədqiqi və müsbət istiqamətlərinin tətbiqi ilə mümkün olmuşdur. İstehsal edilən əmtəə və xidmətlərin maliyyə vahidi ilə ifadəsi ilə müəyyən etmək olur ki, Bakı şəhəri istisna ən çox məhsul buraxılışı Abşeron-Xızı və Naxçıvan MR-da, ən az isə müvafiq olartaq Şərqi Zəngəzur və Dağlıq Şirvan iqtisadi rayonunda olmuşdur.

Ümumiyyətlə, mikro, kiçik və orta biznes subyektlərinin məhsul buraxılışının həcmi iqtisadi rayonlar arasında qeyd olunduğu kimi, müəyyən hallarda kəskin fərqlənir. Lakin əsas məsələlərdən biri Bakı şəhəri ilə digər iqtisadi rayonlar arasında olan fərqdir. Belə ki, fərqin daha aydın ifadə edilməsi məqsədi ilə qrafik 1. tərtib olunmuşdur.

**Qrafik 1. 2022-ci ildə Bakı şəhəri və digər iqtisadi rayonlar üzrə mikro, kiçik və orta biznes subyektlərinin məhsul buraxılışı arasında olan fərq, min manat.**




***Mənbə:** Qrafik Cədvəl 1-dəki məlumatlar əsasında tərtib olunmuşdur.*

Qrafikdə ölkə üzrə müvafiq göstəricilər verilmiş və bu göstəricilər içində 2022-ci ildə Bakı şəhərinin əsas paya malik olduğu açıq şəkildə görünür. Lakin faiz ifadəsində məlumatların göstərilməsi iqtisadi rayonların ümumilikdə nə qədər geri qaldığını açıq şəkildə göstərəcək. Bakı şəhəri mikro biznes subyektləri tərəfindən istehsal edilən ölkə üzrə ümumi məhsulun 57,8 faizinə sahibdir. Digər iqtisadi rayonlarda isə mikro biznes subyektləri tərəfindən isə ümumi məhsulun 42,2 faizi istehsal olunmuşdur. Kiçik biznes subyektlərində Bakı şəhəri və iqtisadi rayonlarda 76,5 və 23,5 faiz, orta sahibkarlıq subyektləri üzrə isə analoji olaraq 70,4 faiz 29,6 faiz olmuşdur.

## Nəticə

Azərbaycanda, xüsusilə də iqtisadi rayonlarda fəaliyyət göstərən kiçik və orta biznes subyektlərinin fəaliyyət istiqamətlərinin nəzəri bazasının və praktiki fəaliyyətin nəticələrini əks etdirən statistik göstəricilərin təhlili onu deməyə əsas verir ki, iqtisadi rayonlarda yerləşən kiçik və orta biznes subyektlərinin dövlət dəstəyinə daha çox ehtiyacı var. Müvafiq sahədə tənzimləmə siyasəti həyata keçirilərkən iqtisadi rayonlar üçün müəyyən istisnalar mütləq şəkildə nəzərə alınmalıdır. Bundan əlavə, rayonların iqtisadiyyatının kiçik biznes sektorunun müəssisələrinə dəstəyin göstərilməsi məqsədilə qeyri-yaşayış sahələri, avadanlıqlar, təlim mərkəzləri, güzəştli maliyyə vəsaitləri biznes fəaliyyətinin istifadəsinə verilməlidir. Eyni zamanda, kiçik biznesin dəstəklənməsi üçün təsirli tədbirlərdən biri də kiçik müəssisələr üçün regional sifarişlərin yerləşdirilməsidir. Beləliklə, belə bir nəticəyə gələ bilərik ki, ölkə iqtisadiyyatında, Bakı şəhəri istisna olmaqla digər iqtisadi rayonlarda kiçik və orta biznes subyektlərinin sayının, onların dövriyyəsinin artması, kiçik biznes sahəsində çalışan işçilərin sayının artması onların səmərəliliyinin göstəriciləridir. Kiçik və orta biznesin dəstəklənməsi üzrə regional tədbirlər kompleksi biznesin inkişafı, iqtisadi fəaliyyət sahələrinin genişləndirilməsi, rayonların iqtisadi subyektlərinin biznes və investisiya fəaliyyətinin aktivləşdirilməsi üçün əlverişli mühit yaradır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, Bakı – 16 dekabr 2016.*

*2. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq, statistik məcmuə / Bakı: rəsmi nəşr - 2023, - 218 s.*

*3. "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, Bakı şəhəri, 21 dekabr 2018.*

*4. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 29 yanvar 2019.*

*5. https://smb.gov.az/az/nav/hesabatlar*

*6. https://edf.gov.az/az/menus/12/missiya_ve_vizyon*

*7. https://kobdostu.gov.az/*

## XÜLASƏ

Araşdırmanın məqsədi ölkədə regional inkişaf meyillərini kiçik və orta biznes subyektlərinin əldə etdiyi nəticələr, eləcə də müxtəlif göstəricilər əsasında tədqiq etmək və ölkədə kiçik və orta biznesin daha səmərəli və dayanıqlı əsaslarının formalaşdırılması yollarını müəyyən etməkdir. Bu məqsədlə məqalədə ölkənin rəsmi statistika qurumunun təqdim etdiyi kəmiyyət göstəriciləri təhlil edilmişdir. Aparılmış tədqiqatların nəticələri göstərir ki, ölkədə kiçik və orta biznes sektorunun ümumi iqtisadiyyata töhfəsi artan tendensiyaya malikdir, o cümlədən potensialın tam istifadəsi əlavə dəyərin yaradılmasına xidmət edir. Dövlət dəstəyi, innovasiyaların inkişafı, ixrac və in-

vestisiya proqramlarının hazırlanması kimi mühüm məsələlər də tədqiqatda öz əksini tapmışdır.

**Açar sözlər:** *iqtisadi rayon, məşğulluq, istehsal, KOB dostu, biznesin dəstəklənməsi.*

**Эльшад Масим оглу Юсифов**
**Эльяр Джейхун оглу Гасанов**

**Анализ текущего положения малого и среднего бизнеса в экономических регионах Азербайджанской Республики**

**РЕЗЮМЕ**

Цель исследования - изучить тенденции регионального развития в стране на основе результатов, достигнутых субъектами малого и среднего бизнеса, а также различных показателей, и определить пути формирования более эффективных и устойчивых основ малого и среднего бизнеса в стране. страна. Для этого в статье были проанализированы количественные показатели, представленные органом официальной статистики страны. Результаты проведенных исследований показывают, что вклад сектора малого и среднего бизнеса страны в общую экономику имеет тенденцию к увеличению, в том числе полное использование потенциала служит созданию дополнительной стоимости. В исследовании также нашли отражение такие важные вопросы, как государственная поддержка, развитие инноваций, подготовка экспортных и инвестиционных программ.

**Ключевые слова:** *экономический район, занятость, производство, друг МСП, поддержка бизнеса.*

**Elshad Masim Yusifov**
**Elyar Jeyhun Hasanov**

**Analysıs of the current sıtuatıon of small and medıum busıness ın the economıc regıons of the Republıc of Azerbaıjan**

**SUMMARY**

The purpose of the research is to study the regional development trends in the country based on the results achieved by small and medium business subjects, as well as various indicators, and to determine ways of forming more efficient and sustainable foundations of small and medium business in the country. For this purpose, the quantitative indicators presented by the country's official statistics agency were analyzed in the article. The results of the conducted studies show that the contribution of the small and medium business sector in the country to the general economy has an increasing trend, including the full use of potential serves to create additional value. Important issues such as state support, development of innovations, preparation of export and investment programs were also reflected in the research.

**Key words:** *economic region, employment, production, “SME Friend'”, supporting business.*

UOT 339.9
DOI:10.30546/3006-0346.2024.1.79.178

# BEYNƏLXALQ YÜK DAŞIMALARINDA GÖMRÜK NƏZARƏTİ

**ELNUR MƏNƏFLİ**
*Bakı Dövlət Universiteti, magistr*
*E-mail: elnurmnfli@gmail.com*

## Giriş

Gömrük nəzarəti beynəlxalq yükdaşımalarda təhlükəsizliyin gücləndirilməsində mühüm rol oynayır. Hökumət orqanları ölkəni terrorizm, narkotik ticarəti və qaçaqmalçılıq kimi potensial təhlükələrdən qorumaq üçün gömrük qaydalarına əməl edir. Gömrük işçiləri yüklərdə ictimai təhlükəsizliyə xələl gətirə biləcək qeyri-qanuni maddələrin və ya qadağan olunmuş əşyaların olub-olmadığını hərtərəfli yoxlayır. Bu nəzarət təchizat zəncirlərinin bütövlüyünü qorumağa və istehlakçıları potensial zərərdən qorumağa kömək edir.

Gömrük nəzarəti malların idxalı və ixracı ilə bağlı qanun və qaydaların tətbiqi üçün ölkənin gömrük idarəsi tərəfindən həyata keçirilən səlahiyyətə aiddir. Bu, bir millətin iqtisadiyyatını, ictimai sağlamlığını və ətraf mühitini qorumaq məqsədi daşıyan beynəlxalq ticarətdə iştirak edən əsas prosesdir. Bütün dünyada hökumətlər malların transsərhəd daşınmasını izləmək və tənzimləmək, lazımi rüsum və vergiləri toplamaq üçün gömrük nəzarətinə arxalanır [3, s.132].

Beynəlxalq yük daşımaları malların bir ölkədən digərinə hava, dəniz, avtomobil və ya dəmir yolu kimi müxtəlif yollarla daşınmasını nəzərdə tutur. Gömrük nəzarəti bu kontekstdə ticarət qaydalarına riayət olunmasını təmin etmək, qaçaqmalçılığın qarşısını almaq və saxta malların, dərman vasitələrinin və ya digər qadağan olunmuş əşyaların ötürülməsi kimi qeyri-qanuni fəaliyyətlərin qarşısını almaq üçün xüsusilə vacibdir. Gömrük nəzarəti tədbirlərini həyata keçirməklə ölkələr öz yerli sənayelərini, milli təhlükəsizliyini və ictimai rifahını effektiv şəkildə qoruya bilərlər.

Beynəlxalq yükdaşımalarda gömrük nəzarətinin əsas prinsiplərindən biri risklərin qiymətləndirilməsidir. Gömrük orqanları yüksək riskli daşımaları və şəxsləri müəyyən etmək üçün riskə əsaslanan strategiyalardan istifadə edir, öz resurslarını nəticə vermə ehtimalı yüksək olan yoxlama və müayinələrə yönəldir. Bu yanaşma qanuni ticarətin rəvan və vaxtında hərəkətini asanlaşdırmaqla, potensial təhlükələri hədəf alaraq məhdud resurslardan səmərəli istifadə etməyə imkan verir [9].

Gömrük nəzarətinin digər vacib aspekti gömrük prosedurlarının və sənədləşdirmə tələblərinin müəyyən edilməsidir. Ölkədən ölkəyə dəyişən bu prosedurlar daşınan yük haqqında dəqiq və tam məlumatın təqdim edilməsini əhatə edir. Bu sənədlərə adətən hesab-fakturalar, qablaşdırma siyahıları, mənşə sertifikatları və müvafiq icazə və ya lisenziyalar daxildir. Gömrük işçiləri malların dəyərini, mənşəyini və təsnifatını yoxlamaq, qüvvədə olan qanunlara və ticarət müqavilələrinə uyğunluğu təmin etmək üçün bu məlumatlara etibar edirlər.

Üstəlik, gömrük nəzarəti yük daşımalarının fiziki yoxlanılmasını nəzərdə tutur. Gömrük orqanları malların məzmununu yoxlamaq, sənədlərin düzgünlüyünü təsdiqləmək və potensial qaçaqmalçılıq və ya pozuntuları aşkar etmək üçün malları yoxlamaq və yoxlamaq səlahiyyətinə malikdir. Bu yoxlamalar limanlarda, hava limanlarında, sərhəd keçidlərində və ya digər təyin olunmuş yerlərdə aparıla bilər. X-ray skanerləri və iyləyici itlər kimi ən müasir texnologiyalardan tez-tez yoxlama imkanlarını artırmaq, səmərəli və effektiv yoxlamaları təmin etmək üçün istifadə olunur. Bundan əlavə, gömrük nəzarəti müxtəlif ölkələr arasında əməkdaşlıq və uyğunlaşmanı təşviq etməklə beynəlxalq ticarətin asanlaşdırılmasında mühüm rol oynayır [7, s.68].

## Ümumdünya Gömrük Təşkilatı (ÜGT)

Beynəlxalq ticarətin qlobal mənzərəsi mürəkkəb şəbəkələr, müxtəlif iqtisadiyyatlar və saysız-hesabsız tənzimləyici çərçivələrlə xarakterizə olunur. Bu mürəkkəblik arasında Ümumdünya Gömrük Təşkilatı (ÜGT) əməkdaşlığın təşviqində, gömrük təcrübələrinin uyğunlaşdırılmasında və malların sərhədlərdən maneəsiz axınının asanlaşdırılmasında əsas qurum, əsas oyunçu kimi çıxış edir. 1952-ci ildə Gömrük Əməkdaşlıq Şurası kimi yaradılmış ÜGT bütün dünyada müxtəlif gömrük prosedurlarının yaratdığı problemləri həll etmək üçün beynəlxalq əməkdaşlığa ehtiyacın tanınmasından yaranmışdır. Təşkilat 1994-cü ildə rəsmi olaraq Ümumdünya Gömrük Təşkilatı adlandırılmışdır ki, bu da onun qlobal gömrük stan-

dartlarının və qabaqcıl təcrübələrin təşviqində genişləndirilmiş rolunu əks etdirir. ÜGT-nin əsas mandatı bütün dünyada gömrük idarələrinin effektivliyini və səmərəliliyini artırmaqdır. Təşkilat buna beynəlxalq gömrük standartlarının inkişafı, potensialın artırılması, tədqiqat və üzv ölkələr arasında məlumat mübadiləsinin asanlaşdırılmasını əhatə edən çoxşaxəli yanaşma vasitəsilə nail olur.

**ÜGT-nin Gömrük Prosedurlarının Uyğunlaşdırılması:**

ÜGT beynəlxalq ticarətdə olan məhsulların təsnifatı üçün standartlaşdırılmış nomenklatura olan Harmonik Sistemin (HS) işlənib hazırlanmasında və saxlanmasında mərkəzi rol oynayır. HS gömrük prosedurlarını sadələşdirir, tariflərin tətbiqində vahidliyi və ahəngdarlığı təşviq edir və daha hamar transsərhəd ticarəti asanlaşdırır. Dünya üzrə gömrük idarələrinin müxtəlifliyini qəbul edərək, ÜGT potensialın artırılması və təlim proqramlarına böyük diqqət yetirir. Bu təşəbbüslərin məqsədi gömrük işçilərinin bacarıqlarını artırmaq, onların müasir ticarətin mürəkkəbliklərini idarə etmək üçün yaxşı təchiz olunmasını təmin etməkdir. ÜGT beynəlxalq ticarət və gömrüklərdə yaranan tendensiyaları, çətinlikləri və imkanları anlamaq üçün geniş tədqiqatlarla məşğul olur. Bu tədqiqat inkişaf edən qlobal ticarət mənzərəsinə uyğunlaşmaqda gömrük administrasiyalarına rəhbərlik edən siyasət və təlimatların işlənib hazırlanması barədə məlumat verir. ÜGT-nin missiyasının mərkəzində ticarətin asanlaşdırılmasının təşviqi dayanır. Təşkilat gömrük prosedurlarının sadələşdirilməsi, ticarətdə maneələrin azaldılması və malların daşınmasını sürətləndirmək üçün gömrük orqanları arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində işləyir [5, s.89].

**ÜGT-nin Beynəlxalq Ticarətə Təsiri:**

ÜGT-nin beynəlxalq ticarətə təsiri dərin və genişdir. ÜGT tərəfindən hazırlanmış Uyğunlaşdırılmış Sistem bütün dünyada gömrük orqanları üçün ümumi dil təmin edir. Bu vahidlik malların təsnifatını və bəyan edilməsini sadələşdirir, sərhədlərdə anlaşılmazlıqları və uyğunsuzluqları azaldır. ÜGT beynəlxalq ticarətin təhlükəsizliyini artırmaq üçün qlobal səylərə fəal şəkildə töhfə verir. SAFE Standartlar Çərçivəsi kimi təşəbbüslər asanlaşdırma və təhlükəsizlik arasında balans yaradaraq təhlükəsiz və səmərəli ticarəti təşviq edir. ÜGT potensialın gücləndirilməsi proqramları vasitəsilə inkişaf etməkdə olan ölkələrin gömrük idarələrinə səlahiyyətlər verir, onlara qabaqcıl təcrübələri tətbiq etməyə, infrastrukturu təkmilləşdirməyə və qlobal iqtisadiyyatda daha effektiv iştirak etməyə imkan verir. ÜGT texnologiyanın gömrük prosedurlarına təsirini etiraf və gömrük administrasiyaları tərəfindən müasir texnologiyaların qəbulunu fəal şəkildə təşviq edir. Bu, gömrük təcrübələrinin çevik qalmasını və texnoloji irəliləyişlərə cavab verməsini təmin edir. Qeyd edək ki, Ümumdünya Gömrük Təşkilatı gömrük prosedurlarında əməkdaşlığı, standartlaşdırmanı və səmərəliliyi təşviq edən beynəlxalq ticarət sahəsində dayaq nöqtəsi kimi dayanır. Qlobal gömrük təcrübələrinin uyğunlaşdırılması, potensialın yaradılması və ticarətin asanlaşdırılması öhdəliyi bir-biri ilə əlaqəli ticarət dünyasına dərin təsir göstərir. Beynəlxalq ticarətin dinamikası inkişaf etməyə davam etdikcə, ÜGT malların hərəkətinin həm təhlükəsiz, həm də məqsədəuyğun olduğu gələcəyin formalaşdırılmasında həlledici müttəfiq olaraq qalır.

Ümumdünya Gömrük Təşkilatı (ÜGT) kimi beynəlxalq təşkilatlar ümumi standartların, praktikaların və prosedurların yaradılmasına köməklik göstərir, malların sərhədlərdən maneəsiz keçirilməsinə şərait yaradır. Gömrük idarələri arasında əməkdaşlığın təşviq edilməsi ümumi problemlərin həlli, ticarətin asanlaşdırılmasının təşviq edilməsi və lazımsız ticarət maneələrinin aradan qaldırılması üçün çox vacibdir [8].

**Şəkil 1. Beynəlxalq yük daşımalarında təhlükəsizliyin gücləndirilməsi amilləri**




***Mənbə:*** *İnternet resursları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Qeyd edək ki, beynəlxalq yükdaşımalarda gömrük nəzarəti müasir ticarətin mühüm aspektidir. O, sərhədləri keçən malların təhlükəsizliyini təmin edir, eyni zamanda qanuni ticarət axınını asanlaşdırır. Gömrük orqanları risklərin qiymətləndirilməsi, mü-

vafiq sənədləşdirmə, fiziki yoxlamalar və beynəlxalq əməkdaşlıq vasitəsilə qaçaqmalçılığın və qeyri-qanuni fəaliyyətin qarşısını effektiv şəkildə ala, bununla da milli maraqları və ahəngdar ticarət əlaqələrini qoruya bilər. Təhlükəsiz və səmərəli qlobal ticarət mühitini təşviq etmək üçün həm hökumətlər, həm də bizneslər üçün gömrük nəzarəti prinsiplərini başa düşmək və onlara riayət etmək vacibdir.

Son illərdə beynəlxalq yükdaşımalarda əhəmiyyətli artım müşahidə olunub və bununla da gücləndirilmiş təhlükəsizlik tədbirlərinə ehtiyac hər şeydən üstün olub. Dünya miqyasında hökumətlər və tənzimləyici orqanlar sərhədlərdən daşınan malların təhlükəsizliyinin təmin edilməsində gömrük nəzarətinin vacibliyini dərk edirlər [6, s.49].

Təhlükəsizliyin gücləndirilməsində mühüm amillərdən biri qabaqcıl texnoloji sistemlərin qəbul edilməsidir. Bu sistemlərə rentgen skanerləri, radiasiya detektorları və elektron möhürlər daxildir. Rentgen skanerləri gömrük əməkdaşlarına hər hansı anomaliyaları və ya şübhəli əşyaları aşkar edərək yükün içini tez və səmərəli şəkildə yoxlamağa imkan verir. Radiasiya detektorları təhlükə yarada biləcək təhlükəli materialları müəyyən etməyə kömək edir. Elektron möhürlər real vaxt rejimində izləmə və autentifikasiyanı təmin edərək yüklərin dəyişdirilməsi və oğurlanması riskini azaldır.

Effektiv risk qiymətləndirilməsi yüksək riskli yük daşımalarının müəyyən edilməsində və ehtiyatların əlavə yoxlama tələb edənlərə yönəldilməsində mühüm rol oynayır. Gömrük orqanları aşağı riskli və yüksək riskli daşımaları fərqləndirmək üçün mürəkkəb risklərin qiymətləndirilməsi alqoritmlərindən və profilləşdirmə üsullarından istifadə edirlər. Bu, onlara resursları səmərəli şəkildə bölüşdürməyə və seçilmiş yüklər üzrə hərtərəfli yoxlamalar aparmağa imkan verir və gücləndirilmiş təhlükəsizliyi təmin edir [1, s.94].

Beynəlxalq yük daşımalarının təhlükəsizliyi gəlişdən və yola düşmədən öncəki məlumat tələblərinin həyata keçirilməsi ilə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. İndi gömrük orqanları idxal və ya ixrac edilən mallar təyinat yerinə çatmazdan və ya oradan getməzdən əvvəl onlar haqqında ətraflı məlumat tələb edir. Bu məlumat yükün məzmununun hərtərəfli görünüşünü təmin edir və səlahiyyətlilərə şübhəli daşımaları əvvəlcədən qeyd etməyə və müvafiq təhlükəsizlik tədbirləri görməyə imkan verir.

Gömrük nəzarətində gücləndirilmiş təhlükəsizlik müxtəlif maraqlı tərəflər, o cümlədən gömrük orqanları, beynəlxalq təşkilatlar, nəqliyyat operatorları və tənzimləyici orqanlar arasında möhkəm əməkdaşlığa və tərəfdaşlığa əsaslanır. Məlumat mübadiləsi və birgə əməliyyatlar vasitəsilə bu tərəfdaşlıqlar təhlükəsizliyin gücləndirilməsinə koordinasiya edilmiş və standartlaşdırılmış yanaşmanı təşviq edir. Kəşfiyyat məlumatlarının və qabaqcıl təcrübələrin mübadiləsi beynəlxalq yükdaşımalarda potensial təhlükəsizlik təhdidlərinə daha effektiv cavab verilməsini təmin edir [2, s.105].

Təhlükəsizliyin gücləndirilməsi təşəbbüslərinin uğurunu təmin etmək üçün gömrük işçiləri və digər müvafiq personal arasında təlim və bacarıqların artırılmasına əhəmiyyətli investisiyalar tələb olunur. Kompleks təlim proqramları gömrük işçilərinə risklərin qiymətləndirilməsi, qeyri-qanuni fəaliyyətlərin aşkar edilməsi və qabaqcıl avadanlıqdan düzgün istifadə bacarıqlarını inkişaf etdirməyə kömək edir. Texnologiyaya və davamlı təlim proqramlarına sərmayə qoyulması gömrük işçilərini inkişaf edən təhlükəsizlik çağırışlarına effektiv şəkildə cavab vermək üçün lazımi alətlərlə təchiz edir.

Beynəlxalq yük daşımalarının qlobal xarakteri təchizat zəncirini potensial təhlükələrdən qorumaq üçün möhkəm təhlükəsizlik tədbirlərini tələb edir. Gömrük nəzarətində həyata keçirilən gücləndirilmiş təhlükəsizlik tədbirləri sərhədlərdən keçirilən malların təhlükəsizliyini xeyli yaxşılaşdırıb. Qabaqcıl texnoloji sistemlərin qəbulu, hərtərəfli risk qiymətləndirmələri, gəlişdən əvvəl və yola düşmədən əvvəl məlumat tələbləri, əməkdaşlıq tərəfdaşlığı və potensialın yaradılması təşəbbüsləri təhlükəsizliyin gücləndirilməsində mühüm rol oynamışdır. Bu cür tədbirlər qeyri-qanuni fəaliyyətlərin qarşısını almaq və qlobal ticarət sistemini qorumaqla yanaşı, malların davamlı olaraq rahat hərəkətini təmin edir. İrəliləyərkən, hökumətlərin və tənzimləyici qurumların beynəlxalq yük daşımalarında yaranan riskləri və problemləri həll etmək üçün təhlükəsizliyin təkmilləşdirilməsinə sərmayə qoymağa davam etməsi çox vacibdir [4, s.66].

Gömrük nəzarəti hökumətlər tərəfindən gəlirlərin toplanması üçün çox vacibdir. Ölkəyə daxil olan mallara tətbiq edilən idxal rüsumları, vergilər və tariflər gömrük orqanları tərəfindən alınır. Bu gəlirlər ölkənin iqtisadiyyatına əhəmiyyətli dərəcədə töhfə verir, dövlət xidmətlərini, infrastrukturun inkişafı və rifah proqramlarını maliyyələşdirir. Gömrük nəzarəti idxal

olunan malların dəyərini və təsnifatını dəqiq qiymətləndirərək, müvafiq vergi və rüsumların tutulmasını təmin edir, gəlir itkilərinin qarşısını alır və fiskal dayanıqlığı təşviq edir.

Gömrük nəzarəti çox vaxt tənzimləyici maneələr və bürokratiya ilə əlaqələndirilsə də, beynəlxalq ticarəti də asanlaşdırır. Gömrük orqanları prosedurları sadələşdirir, rəsmiləşdirmə müddətlərini azaldır və sərhəd keçidlərində səmərəliliyi artırır. Elektron məlumat mübadiləsi və risklərin idarə edilməsi alətləri kimi avtomatlaşdırılmış sistemlər vasitəsilə gömrük nəzarəti aşağı riskli yüklərin rəsmiləşdirilməsini sürətləndirə bilər ki, bu da idxalçı və ixracatçıların daha sürətli çatdırılma müddətinə və əməliyyat xərclərini aşağı salmağa imkan verir. Səmərəli gömrük prosedurları ticarət axınını stimullaşdırır və iqtisadi artıma və inkişafa töhfə verir [9].

Gömrük nəzarəti beynəlxalq ticarət müqavilələrinə və standartlarına riayət olunmasını təmin edir. Dövlətlər gömrük prosedurlarını uyğunlaşdırmaq, şəffaflığı təşviq etmək və ticarəti asanlaşdırmaq üçün Ümumdünya Gömrük Təşkilatı (ÜGT) və Ümumdünya Ticarət Təşkilatı (ÜTT) kimi müxtəlif beynəlxalq konvensiyalarda iştirak edirlər. Gömrük nəzarəti qlobal miqyasda proqnozlaşdırıla bilən və ardıcıl ticarət təcrübələrinə imkan verən bu standartlara riayət etməyə kömək edir. Beynəlxalq standartlara əsaslanan səmərəli gömrük rəsmiləşdirilməsi qeyri-tarif maneələrini azaldır, transsərhəd ticarət üçün əlverişli mühit təmin edir.

Gömrük nəzarəti əqli mülkiyyət hüquqlarının (ƏMH) qorunmasında mühüm rol oynayır. Gömrük qaydalarını tətbiq etməklə səlahiyyətli orqanlar ticarət nişanı, müəlliflik hüququ və ya patent mühafizəsini pozan saxta malları müəyyən edə və saxlaya bilərlər. Bu nəzarət qanuni müəssisələrin qorunmasına kömək edir, innovasiyaları və yaradıcılığı dəstəkləyir, eyni zamanda saxta məhsulların yayılmasının qarşısını alır. Gömrük nəzarəti ƏMH-nin mühafizə orqanları ilə birlikdə həm yerli, həm də xarici biznes üçün ədalətli və bərabər rəqabət mühitini təmin edir.

### Nəticə

Yekun olaraq qeyd edək ki, beynəlxalq yükdaşımalarda gömrük nəzarəti malların təhlükəsiz və səmərəli daşınması üçün vacib olan çoxsaylı məqsədlərə xidmət edir. O, qeyri-qanuni fəaliyyətləri aşkarlamaq və qarşısını almaqla təhlükəsizliyi artırır, hökumətlər üçün gəlirlərin yığılmasını təmin edir, maneələri azaltmaqla beynəlxalq ticarəti asanlaşdırır, beynəlxalq standartlara riayət olunmasını təmin edir və əqli mülkiyyət hüquqlarını qoruyur. Təhlükəsizliklə bağlı narahatlıqları və ticarətin asanlaşdırılmasını balanslaşdırmaqla gömrük nəzarəti qlobal təchizat zəncirlərinin yaxşı işləməsinə, iqtisadi artımın təşviqinə və dövlətlər arasında qanuni ticarət əlaqələrinin inkişafına kömək edir.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Nuriyev C.Q., Əliyev A.Ə., Atakişiyev M.C. (2013), "Gömrük işinin təşkili və idarə edilməsi", dərslik, Bakı*

*2. Rzayev A. (2016), "Beynəlxalq nəqliyyat əməliyyatları" fənninin mühazirələrindən, dərslik, Bakı*

*3. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. (2015), "Gömrük işinin təşkili və idarə edilməsi", dərslik, Bakı 168 s.*

*4. Vendale S., (2015), "Toward more efficient logistics: increasing load factor in a sipper's road transport" article, Sweden 2015*

*5. Widdowson, D., B. Blegen, et al. (2014). Review of Accredited Operator Schemes, Centre for Customs and Excise Studies, Charles Sturt University.*

*6. Witte, P. and H.-M. Wolffgang (2012). Lehrbuch des Europäischen Zollrechts. Herne, NWB Verlag.*

*7. "The role of logistics service providers in international trade" 16th international scientific conference Business Logistics in Modern Management: Croatia; October 13, 2016*

*8. ASYCUDA. (2016). "About ASYCUDA." Retrieved 18 February, 2016, from http://www.asycuda.org/aboutas.asp*

*9. European Commission. (2016). "TARIC Consultation." Retrieved 10 February, 2016, from http://ec.europa.eu/taxation_customs/dds2/taric/taric_consultation.jsp?Lang=en*

### XÜLASƏ

Beynəlxalq yükdaşımaları malların sərhədlərdən daşınmasını asanlaşdıraraq qlobal ticarətdə mühüm rol oynayır. Gömrük nəzarəti bu prosesin mühüm aspektidir, qaydalara əməl olunmasını təmin edir, qaçaqmalçılıq və qeyri-qanuni ticarət kimi qanunsuz fəaliyyətlərin qarşısını alır. Məqalədə beynəlxalq yük daşımalarında gömrük nəzarətinin əhəmiyyəti araşdırılır, təhlükəsizliyin təşviqində, ticarətin asanlaşdırılmasında və dövlətlər üçün gəlirlərin yığılmasında onun rolu müəyyənləşdirilir.

**Açar sözlər:** *gömrük nəzarəti, beynəlxalq yükdaşımalar, təhlükəsizliyin gücləndirilməsi, təchizat zəncirləri.*

**Manafli Elnur Seymur**
***Baku State University***
***elnurmnfli@gmail.com***

**CUSTOMS CONTROL IN INTERNATIONAL CARGO TRANSPORTATION**

**SUMMARY**

International freight forwarding plays an important role in global trade by facilitating the movement of goods across borders. Customs control is an important aspect of this process, ensuring compliance and preventing illegal activities such as smuggling and illegal trade. The article examines the importance of customs control in international freight transport, and identifies its role in promoting security, facilitating trade, and raising revenue for states.

**Keywords:** *customs control, international cargo transportation, security enhancement, supply chain.*

**Манафли Эльнур Сеймур оглы**
***Бакинский Государственный Университет***
***elnurmnfli@gmail.com***

**ТАМОЖЕННЫЙ КОНТРОЛЬ ПРИ МЕЖДУНАРОДНЫХ ГРУЗОПЕРЕВОЗКАХ**

**РЕЗЮМЕ**

Международные грузовые перевозки играют важную роль в мировой торговле, облегчая перемещение товаров через границы. Таможенный контроль является важным аспектом этого процесса, обеспечивая соблюдение требований и предотвращая незаконную деятельность, такую как контрабанда и незаконная торговля. В статье рассматривается важность таможенного контроля в международных грузовых перевозках и определяется его роль в обеспечении безопасности, облегчении торговли и повышении доходов государств.

**Ключевые слова:** *таможенный контроль, международные грузоперевозки, усиление безопасности, цепочки поставок.*

UOT 338:004; 330.47; 338:002.6
DOI:10.30546/3006-0346.2024.1.79.183

# İNFORMASİYANIN MÜHAFİZƏSİ VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN ƏSAS ANLAYIŞLARI

**TURAL HƏSƏNOV**
*Azərbaycan Texniki Universiteti*
*E-mail: pm.turalhasanov@gmail.com*

İnformasiyanın mühafizəsinin effektivliyi informasiyanın mühafizəsi nəticələrinin məqsədə uyğunluq dərəcəsidir. İnformasiyanın sızmadan qorunması mühafizə olunan məlumatın açıqlanmasından nəzarətsiz yayılmasının, qorunan məlumatlara icazəsiz daxil olmasının və mühafizə olunan məlumatların təcavüzkarlar tərəfindən alınmasının qarşısının alınması üzrə fəaliyyətdir [2].

Məlumatın açıqlanmasından qorunması - qorunan məlumatların nəzarətsiz sayda məlumat alıcılarına icazəsiz ötürülməsinin qarşısını almaq üçün fəaliyyətlərdir.

İnformasiyanın icazəsiz daxil olmaqdan mühafizəsi qanuni sənədlərlə müəyyən edilmiş hüquqları pozmaqla maraqlı subyekt tərəfindən və ya məlumat sahibi və ya mühafizə olunan informasiyaya daxil olmaq hüququ və ya qaydaları ilə qorunan informasiyanın alınmasının qarşısının alınması üzrə fəaliyyətdir [3].

Qorunan məlumatlara həyata keçirən maraqlı subyekt dövlət, hüquqi şəxs, fiziki şəxslər qrupu, o cümlədən ictimai təşkilat, fiziki şəxs ola bilər. İnformasiya təhlükəsizliyi sistemi - informasiya təhlükəsizliyi üzrə müvafiq hüquqi, təşkilati, inzibati və normativ sənədlərlə müəyyən edilmiş qaydalara uyğun olaraq təşkil edilmiş və fəaliyyət göstərən orqanlar və (və ya) icraçıların, onların istifadə etdiyi informasiya təhlükəsizliyi texnologiyasının, habelə təhlükəsizlik obyektlərinin məcmusudur [4].

İnformasiya təhlükəsizliyi dedikdə məlumatın qeyri-qanuni əldə edilməsindən, çevrilməsindən və məhv edilməsindən, habelə informasiya ehtiyatlarının onların fəaliyyətini pozmağa yönəlmiş təsirlərdən mühafizəsi başa düşülür. Bu təsirlərin təbiəti çox müxtəlif ola bilər.

Məlumatların məxfiliyi məlumatlara verilən statusdur və tələb olunan qorunma dərəcəsini müəyyən edir. Məxfi məlumatlara, məsələn, aşağıdakılar daxil ola bilər:

- istifadəçilərin şəxsi məlumatları;
- hesablar (adlar və parollar);
- kredit kartı məlumatları;
- inkişaf məlumatları və müxtəlif daxili sənədlər;
- mühasibat uçotu məlumatları.

Məxfi məlumat yalnız sistemin səlahiyyətli və yoxlanılmış (səlahiyyətli) subyektlərinə (istifadəçilər, proseslər, proqramlar) məlum olmalıdır.

Sistemin digər subyektləri üçün bu məlumat naməlum olmalıdır. Qorunan informasiyanın (mühafizə obyektinin) qorunmasının əhəmiyyətinin dərəcələrinin müəyyən edilməsi qorunan informasiyanın təsnifatı adlanır.

İnformasiyanın bütövlüyü dedikdə, ötürülmə və saxlanma prosesində onun strukturunu və ya məzmununu saxlamaq üçün məlumatın mülkiyyəti başa düşülür [4].

Sistemdəki məlumatlar mənbə sənədlərdəki məlumatlardan semantik cəhətdən fərqlənmədikdə, yəni təsadüfən və ya qəsdən təhrif edilmədikdə və ya məhv edilmədikdə informasiyanın bütövlüyü təmin edilir.

Məlumatların bütövlüyünün təmin edilməsi informasiya təhlükəsizliyinin mürəkkəb vəzifələrindən biridir. İnformasiyanın etibarlılığı onun mənbəyi olan subyektə və ya bu məlumatın alındığı subyektə ciddi mənsubiyyətlə ifadə olunan məlumatın xassəsidir.

İnformasiyanın hüquqi əhəmiyyəti informasiya daşıyıcısı olan sənədin hüquqi qüvvəyə malik olması deməkdir.

İstifadəçi məlumatlarla yalnız ona çıxışı olduqda işləyə bilər. İnformasiya əldə etmək - subyektin informasiya ilə, o cümlədən texniki vasitələrin köməyi ilə tanış olmaq imkanı əldə etməsi, informasiya əldə etmək subyekti informasiya proseslərində hüquqi münasibətlərin iştirakçısıdır.

İnformasiyaya çıxışın səmərəliliyi informasiyanın və ya bəzi informasiya ehtiyatının onun əməliyyat ehtiyaclarına uyğun olaraq son istifadəçi üçün əlçatan olması qabiliyyətidir [5].

Qanunvericilik aktlarına görə İnformasiya sahibi istifadə, sahiblik, sərəncam vermək səlahiyyətlərini tam formada reallaşdıran subyektdir.

İnformasiya sahibi - informasiyaya sahib olan və ondan istifadə edən, qanunla müəyyən edilmiş hüquqlar çərçivəsində sərəncam vermək səlahiyyətini həyata keçirən subyekt və ya məlumat sahibidir.

İnformasiya istifadəçisi (istehlakçısı) - onun sahibindən, mülkiyyətçisindən və ya vasitəçidən müəyyən edilmiş hüquq və məlumat əldə etmək qaydalarına uyğun olaraq alınmış məlumatdan və ya onların pozulması ilə istifadə edən subyektdir.

İnformasiya əldə etmək hüququ hüquqi sənədlərlə və ya məlumat sahibi və ya sahibi tərəfindən müəyyən edilmiş məlumat əldə etmək üçün qaydalar məcmusudur.

İnformasiya əldə etmək qaydası subyektin informasiyaya və onun daşıyıcılarına çıxış qaydasını və şərtlərini tənzimləyən qaydalar məcmusudur. İnformasiyaya icazəli giriş, girişə nəzarətin müəyyən edilmiş qaydalarını pozmayan məlumatların əldə edilməsidir.

Sistem komponentlərinə giriş hüququnu tənzimləmək üçün girişə nəzarət qaydaları istifadə olunur.

İnformasiyaya icazəsiz girişi həyata keçirən şəxs və ya proses girişə nəzarət qaydalarını pozandır. Mühafizə inzibatçısı kompüter sistemini informasiyaya icazəsiz daxil olmağın qarşısını almağa görə cavabdehdir.

Mövcud olan məlumatın həmçinin kompüter sisteminin resursunun və ya komponentinin, yəni komponentin və ya resursun mülkiyyətinin sistemin qanuni subyektləri üçün əlçatan olmasını nəzərdə tutur.

Mövcud ola biləcək resursların göstərici siyahısına aşağıdakılar daxildir:

- ❖ printerlər,
- ❖ serverlər,
- ❖ iş stansiyaları,
- ❖ istifadəçi məlumatları,
- ❖ əməliyyat üçün tələb olunan istənilən kritik məlumatlar.

Sistemin resursunun və ya komponentinin bütövlüyü, təsadüfi və ya qəsdən təhriflər və ya dağıdıcı təsirlər şəraitində sistemin işləməsi zamanı semantik olaraq dəyişməz qalma xüsusiyyətidir.

İdentifikasiya, autentifikasiya, avtorizasiya kimi mühüm anlayışlar qrupu informasiya və sistem resurslarına çıxışla bağlıdır.

Sistemin (şəbəkə) hər bir subyekti mövzunu müəyyən edən bəzi məlumatlarla (rəqəm, simvol sətri) əlaqələndirilir.

Bu məlumat sistemin (şəbəkə) subyektinin identifikatorudur. Qeydiyyatdan keçmiş identifikatoru olan subyekt hüquqi (hüquqi) subyektdir [1].

Subyektin identifikatoru ilə tanınması subyektin identifikasiyası prosedurudur. Bu proses sistemə (şəbəkəyə) daxil olmağa çalışdıqda həyata keçirilir. Autentifikasiya sistemin subyektlə qarşılıqlı əlaqəsində digər addımıdır [5]. Mövzunun autentifikasiyası subyektin verilmiş şəxsiyyətlə autentifikasiyasıdır. Doğrulama proseduru subyektin iddia etdiyi şəxs olub-olmadığını müəyyən edir.

Subyektin identifikasiyası və autentifikasiyası aparıldıqdan sonra avtorizasiya proseduru həyata keçirilir. Subyektin avtorizasiyası sistemin (şəbəkənin) müvafiq səlahiyyətləri və mövcud resursları ilə eyniləşdirmə və autentifikasiyadan uğurla keçmiş qanuni subyektin verilməsi prosedurudur.

Təhlükəsizliyə dəyən zərər sistemdə (şəbəkədə) olan və emal olunan məlumatların təhlükəsizlik vəziyyətinin pozulmasını bildirir.

Təhlükəsizlik anlayışı kompüter sisteminin (şəbəkə) zəifliyi anlayışı ilə əlaqədardır. Kompüter sistemindəki zəiflik, təhlükənin həyata keçirilməsinə səbəb ola biləcək sistemin xas olan uğursuz xüsusiyyətidir.

Kompüter sisteminə hücum hücumçu tərəfindən bu və ya digər sistem zəifliyinin axtarışı, yaxud da istifadəsidir.

Təhlükəsizlik təhdidlərinə qarşı mübarizə kompüter sistemlərini və şəbəkələrini qorumaq məqsədi daşıyır. Təhlükəsiz sistem təhlükəsizlik təhdidlərinə uğurla və effektiv şəkildə müqavimət göstərən təhlükəsizlik xüsusiyyətlərinə malik sistemdir [5].

İnformasiyanın mühafizəsi metodu - informasiyanın mühafizəsinin müəyyən prinsip və vasitələrinin tətbiqi qaydası və qaydaları. İnformasiya təhlükəsizliyi aləti - informasiyanın mühafizəsi üçün nəzərdə tutulmuş və ya istifadə edilən texniki, proqram aləti, maddə və/yaxud materialdır [3].

İnformasiya təhlükəsizliyi texnologiyası - informasiya təhlükəsizliyi vasitələri, informasiya təhlükəsizliyinin effektivliyinə nəzarət vasitələri, idarəetmə vasitələri və informasiya təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuş sistemlərdir.

Korporativ şəbəkələr məlumatı emal edən paylanmış avtomatlaşdırılmış sistemlərə (AS) aiddir.

## Nəticə

AS-nin təhlükəsizliyinin təmin edilməsi AS-nin işləmə prosesinə hər hansı icazəsiz müdaxiləyə, habelə onun komponentlərini dəyişdirmək, oğurlamaq, sıradan çıxarmaq və ya məhv etmək cəhdlərinə qarşı mübarizənin təşkilini, yəni AS-nin bütün komponentlərini - aparat vasitələrini, proqram təminatı (proqram təminatı), məlumat və personalı təşkil edir.

Təhlükəsizlik siyasəti kompüter sisteminin müəyyən təhlükələrdən qorunmasının işini tənzimləyən normalar, qaydalar və praktiki tövsiyələr toplusudur.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasov Ə.M., Əlizadə M.N., Seyidzadə E.V., Musayev İ.K. İnformatika və kompüterləşmənin əsasları, Dərslik, Yeni işlənmiş nəşri, RS "Poliqal" nəşriyyatı, 2012, 932 səh.*

*2. Əilizadə M.N., Seyidzadə E.V., Salmanova M.Ə.*

*İnformatika (Mövzular, suallar və testlər), dərs vəsaiti, Bakı 2012*

*3. Fərziyev T. İnformatika (magistraturaya hazırlaşanlar üçün vəsait), Bakı 2012, 322 səh.*

*4. R. Sahay, W. Meng ve C. D. Jensen, "The application of Software Defined Networking on security computer ağlar: Bir anket," Ağ ve Bilgisayar Uygulamaları Dergisi, cilt. 131, sayfa 28-108, 2019.*

*5. Paulauskas N. Computer System Attack Classification / N. Paulauskas, E. Garšva // Electronics and Electrical Engineering. – 2020. – № 2(66). – P. 84–87.*

**XÜLASƏ**

İstifadəçilərə ünvanlanan informasiyanın emalı, toplanması və ötürülməsinin müasir üsulları son və ya onlara məxsus olan məlumatların itirilməsi, təhrif edilməsi və açıqlanması ehtimalı ilə bağlı təhlükələrin meydana gəlməsi ilə nəticələnmişdi. Buna görə də kompüter sistemlərinin və şəbəkələrinin informasiya təhlükəsizliyinin təmin edilməsi İT-nin inkişafında aparıcı istiqamətlərdən biridir. İnformasiya təhlükəsizliyi qorunan məlumatın sızmasının, qorunan məlumatlara icazəsiz və qəsdən təsirlərin qarşısını almaq üçün fəaliyyətdir.Mühafizə obyekti məlumatın mühafizəsi məqsədinə uyğun olaraq mühafizənin təmin edilməsi zəruri olan məlumat, informasiya daşıyıcısı və ya informasiya prosesi. İnformasiya təhlükəsizliyinin məqsədi informasiya təhlükəsizliyinin arzuolunan nəticəsidir. İnformasiyanın mühafizəsinin məqsədi informasiyanın mümkün sızması və ya icazəsiz və qəsdən məlumatlara təsir nəticəsində məlumatın sahibinə, istifadəçisinə dəyən ziyanın qarşısını almaq ola bilər.

**Açar sözlər:** *İnformasiya, kompüter sistemləri, şəbəkə.*

**Tural Hasanov**
***Azerbaijan Technical University***
***pm.turalhasanov@gmail.com***
***0009-0006-6719-9730***

## BASIC CONCEPTS OF INFORMATION PROTECTION AND INFORMATION SECURITY

**Summary**

Modern methods of processing, collecting and transmitting information addressed to users have resulted in the emergence of threats related to the possibility of loss, distortion and disclosure of information that belongs to users. Therefore, ensuring the information security of computer systems and networks is one of the leading directions in the development of IT. Information security is an activity to prevent the leakage of protected information, unauthorized and intentional effects on protected information. The object of protection is the information, information carrier or information process that needs to be protected in accordance with the purpose of information protection. The goal of information security is the desired outcome of information security. The purpose of information protection may be to prevent damage to the owner, owner, user of information as a result of possible leakage of information and/or unauthorized and intentional impact on information.

**Keywords:** *Information, computer systems, network.*

**Турал Гасанов**
***Азербайджанский Технический Университет***
***pm.turalhasanov@gmail.com***
***0009-0006-6719-9730***

## ОСНОВНЫЕ ПОНЯТИЯ ЗАЩИТЫ ИНФОРМАЦИИ И ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ

**Резюме**

Современные методы обработки, сбора и передачи информации, адресованной пользователям, привели к появлению угроз, связанных с возможностью утраты, искажения и раскрытия информации, принадлежащей пользователям. Поэтому обеспечение информационной безопасности компьютерных систем и сетей является одним из ведущих направлений развития ИТ. Информационная безопасность - деятельность по предотвращению утечки защищаемой информации, несанкционированного и умышленного воздействия на защищаемую информацию.Объектом защиты является информация, носитель информации или информационный процесс, подлежащие защите в соответствии с целью защиты информации. Целью информационной безопасности является желаемый результат информационной безопасности. Целью защиты информации может быть предотвращение нанесения ущерба собственнику, владельцу, пользователю информации в результате возможной утечки информации и/или несанкционированного и умышленного воздействия на информацию.

**Ключевые слова:** *Информация, компьютерные системы, сеть.*

UOT 332.132; 911.3
DOI:10.30546/3006-0346.2024.1.79.186

# MİQRASİYAYA TƏSİR EDƏN AMİLLƏR

GÜNEL MƏMMƏDOVA
*Azərbaycan Universiteti, doktorant*
*E-mail: gunel-tmm86@mail.ru*

## Giriş

Miqrantları iki qrupa bölürlər: iqtisadi miqrantlar və humanitar miqrantlar [1]. *İqtisadi miqrantlar* uyğun iş tapmaq və öz iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq üçün başqa məkana üz tuturlar. İlk dövrlərdə belə miqrantlar yoxsul ölkələrdən zəngin ölkələrə köçürdü, lakin son zamanlar cənub-qərb istiqaməti üzrə və dairəvi miqrasiya artır ki, bunun da əsas səbəbi zəngin ölkələrdə iqtisadi artımın əhəmiyyətli dərəcədə səngiməsi, bir çox nisbətən yoxsul ölkələrdə isə bu göstəricinin kifayət qədər yüksək səviyyədə olmasıdır (məsələn, Çin, Hindistan, Cənubi Afrika Respublikası, Braziliya, Türkiyə və s.).

*Humanitar miqrantlara* qaçqınlar və sığınacaq axtaranlar aid edilir. Onlar, bir qayda olaraq, coğrafi cəhətdən yaxın olan ölkələrə hicrət edirlər. Məsələn, son onilliklərdə Əfqanıstandan qaçan belə miqrantlar əsasən Pakistan və İranda məskunlaşmışlar [1].

Bundan başqa, [1]-də miqrasiya determinantları 7 kateqoriyaya bölünür.

*I. Sosial drayverlər:*
- təhsil;
- ailə/qohumluq əlaqələri.

*II. Şəxsi/ev təsərrüfatı xüsusiyyətləri:*
- yaş;
- cins;
- təhsil;
- sağlamlıq;
- ailə vəziyyəti;
- preferensiyalar;
- etnik;
- dini mənsubiyyət;
- dil.

*III. Ətraf mühit drayverləri:*
- təhlükəyə məruz qalma;
- ekosistem xidmətləri (torpağın məhsuldarlığı, yaşayış üçün əlverişlilik, ərzaq/enerji/su təhlükəsizliyi.

*IV. Siyasi drayverlər:*
- diskriminasiya, təqib;
- idarəetmə;
- azadlıq;
- konflikt;
- qeyri-təhlükəsizlik;
- siyasət stimulları;
- zorakılıq.

*V. İqtisadi drayverlər:*
- məşğulluq imkanları;
- gəlir, əməkhaqqı, rifah;
- istehsalçı qiymətləri (məsələn, aqrar sektorda);
- istehlakçı qiymətləriş

*VI. Demoqrafik drayverlər:*
- əhali sayı və sıxlığı;
- əhalinin strukturu;
- xəstəliyin geniş yayılması.

*VII. Maneə və stimullar:*
- siyasi və hüquqi mühit;
- yerdəyişmə xərci;
- sosial şəbəkələr;
- diaspora əlaqələri;
- cəlbetmə agentlikləri;
- texnologiya.

Sözsüz ki, bütün bu amillər üzərində bizim tədqiqatımızı ən çox maraqlandıran iqtisadi amillərdir. Bu amillər son hesabda ölkədəki iqtisadi durum və əmək bazarının vəziyyəti ilə şərtlənir. Bu sahədə vəziyyət pisləşəndə və bu prosesin davam etmə riski meydana gələndə insanlar iqtisadi durumu daha yaxşı olan ölkələrə üz tuturlar. 1990-cı illərdə Azərbaycandan geniş emiqrasiyanın əsas səbəbi məhz iqtisadi amil idi.

Qloballaşma, dünya əmək bazarının liberallaşması, nəqliyyat və kommunikasiya sahəsində texnoloji tərəqqi dairəvi miqrasiyanın miqyasını artırır. Humanitar miqrantlarla müqayisədə iqtisadi miqrantların ölkə seçimi daha genişdir. Sığınacaq axtaran şəxslər əsasən ən yaxın təhlükəsiz ölkəyə miqrasiya etdiyi halda iqtisadi miqrantlar onların bacarıqlarına ehtiyac olan və ya daha əlverişli əmək bazarı olan istənilən ölkəyə gedə bilərlər.

Bununla yanaşı biz iqtisadi və digər xüsusi miqrasiya amillərini ayrıca tədqiq edirik.

### 1. İqtisadi amillər.

**Miqrasiya xərcləri.** [2]-də bu xərclər iki qrupa bölünür: pul xərcləri və qeyri-pul xərcləri.

**1) Pul xərcləri**. Bu xərclərə köçmə ilə əlaqəli olan xərclər aiddir ki, bunlar da əsasən nəqliyyat, yaşayış,

artan qidalanma xərclərindən ibarətdir. Bir qayda olaraq, bu xərclər təyinat yerində əldə edilən gəlirlə müqayisədə o qədər kiçikdir ki, tədqiqatlarda onlar nəzərə alınmır və buna görə də bu barədə müfəssəl verilənlər bazası yoxdur. Belə bazanın yaradılmasını çətinləşdirən bir amil də belə məlumatların ancaq miqrantların özlərindən əldə olunması ilə əlaqədardır. Bu istiqamətdə tədqiqatların aparılması cəhdi olsa da, qeyri-müəyyən amillər belə qiymətləndirmələri səmərəsizləşdirir [2, s. 84].

**2) Qeyri-pul xərcləri**. Bəzi tədqiqatçıların fikrincə, qeyri-pul xərcləri pul xərcləri ilə müqayisədə daha çox önəm kəsb edir.

• Qeyri-pul xərclərinə ilk növbədə əvvəlki yaşayış yerində itirilmiş gəlir aid edilir. Bu amil yeni yerdə iş tapana qədər xüsusilə əhəmiyyətlidir və miqrasiya qərarında nəzərə alınmalıdır. Bir qayda olaraq, miqrasiyanın ilk dövrlərində gəlir olmur, gəlir əmələ gələndə isə əvvəl az ola bilir. Buna görə də miqrasiyanın bir layihə kimi iqtisadi aspektdən qiymətləndirilməsində gələcək gəlir və xərclərin diskontlaşdırılması zəruridir [2, s. 84-85].

• Bundan başqa, bu xərclərə geniş mənada ətraf mühitin dəyişməsi ilə əlaqəli psixoloji xarakterli diskomfort aid olunur. Bu tipli xərclər müxtəlif xarakterlidir:

- Məsələn, əksər adamlar tanış mühiti tanış olmayan mühitdən üstün tutur.
- Mühit dəyişməsinin tək psixoloji deyil, obyektiv neqativ təsirləri də məlumdur. Məsələn, 1988-1993-cü illərdə erməni millətçilərinin etnik təmizləmə siyasəti nəticəsində Ermənistan və Qarabağın dağlıq ərazilərindən məcburi miqrasiyaya məruz qalmış soydaşlarımızdan Azərbaycanın aran ərazilərində məskunlaşanlar arasında yeni şəraitə uyğunlaşmama səbəbilə qısa müddətdə həyatlarını dəyişmə halları məlum faktdır.
- Qohumlardan, dostlardan uzaq düşmək təbii psixoloji zədədir.
- Məlum olduğu kimi, vətən üçün darıxmaq xalqımızın nümayəndələri üçün səciyyəvi xüsusiyyətdir.

İtirilmiş gəlirdən fərqli olaraq psixoloji xərclərin kəmiyyət qiymətləndirilməsi mümkünsüzdür ki, bu da miqrasiyaya qoyulan investisiyanın mənfəət normasının adekvat hesablanmasını çətinləşdirir. Bu səbəbdən əksər tədqiqatlarda marjinal psixoloji xərclər nəzərə alınmır, yəni sıfıra bərabər götürülür. Bu müəlliflər öz yanaşmalarını həm də onunla izah edirlər ki, psixoloji xərclər resurs məsrəfi tələb etmir və eyni qayda ilə qeyri-pul gəlirləri də resursla əlaqəli olmayıb, psixoloji xarakterlidir.

**İqtisadi və biznes şəraiti.** Göndərən və qəbul edən ölkələrdə makroiqtisadi şəraitdəki tərəddüdlər miqrasiyanı təşviq edə bilər [3, s. 69-70]. Məsələn, ölkədə ÜDM artanda emiqrasiya azalır, immiqrasiya artır. Azad iqtisadi zonalar müxtəlif peşə və biznes sahiblərini cəlb edir. İnsanlar itkilərə qazancla müqayisədə daha çox fikir verirlər. Məsələn, iqtisadi cəhətdən çox da inkişaf etməmiş Rusiyaya digər postsovet ölkələrindən miqrasiya qismən bu amillə izah oluna bilər. Avropadaxili kəmiyyət xarakterli tədqiqatlar göstərir ki, 2008-ci qlobal maliyyə böhranlarında insanlar böhrandan çox əziyyət çəkən ölkələrdən köçməyi arzulamış, tələbələr də böhrandan ən az zərər görmüş ölkədə oxumağa üstünlük vermişlər [4, s. 12-13].

**2. Demoqrafik amillər**

Ailənin ölçüsü və tərkibi. Pensiyaya çıxma və uşaqların ailədən getməsi işə və təhsilə bağlı olmama səbəbindən miqrasiyanı stimullaşdırır. Əksinə, ailə başçılarının hər ikisinin işləməsi miqrasiya stimulunu azaldır [5, s. 165].

**Yaş.** Həm daxili, həm də beynəlxalq miqrasiyada demoqrafik amillərin rolu böyükdür. Miqrantların əsas qəbuledicisi olan inkişaf etmiş ölkələrdə doğumun azalması və ömür müddətinin uzanması bu amili daha da gücləndirir. Birinci fakt işçi qüvvəsinə olan tələbin bilavasitə artmasına səbəb olur. Digər tərəfdən uzun ömür səbəbilə pensiyaçıların sayının artması onların dövlət tərəfindən təminatı məsələsində çətinliklər yaradır ki, bu da pensiya fondlarına yığımın əsas mənbəyi olan işçi qüvvəsinə əlavə tələb yaradır. Beləliklə, doğumun yüksək olduğu ölkələrdən inkişaf etmiş ölkələrə gənclərin axını baş verir. Emiqrant göndərən ölkədə iqtisadi vəziyyətin pis olması bu prosesi daha da stimullaşdırır [6, s. 48].

**Cins.** Tədqiqatlar göstərir ki, uşaqların və himayədə olan yaşlı adamların olduğu ailələrdə əsasən kişilərin miqrasiyası müşahidə olunur, bu amillər qadınların miqrasiyasını məhdudlaşdırır [4, s. 11-12].

**Peşə.** Peşənin miqrasiyada rolu böyükdür. Miqrant qəbul edən ölkələrdə bir tərəfdən, aşağı səviyyəli peşələrə tələbat yüksəkdir, çünki yerli əhali təklif olunan əməkhaqqı ilə bu peşələrdə çalışmaq istəmir. Digər tərəfdən çox yüksək peşə sahibləri də həvəslə işə qəbul olunur. Məsələn, belə ölkələrdə yüksəkixtisaslı tibb işçilərinə tələbat həmişə yüksək olmuşdur. Tibb işçilərinin aşağıgəlirli ölkələrdən inkişaf etmiş ölkələrə miqrasiyasını stimullaşdıran daha mühüm bir amil aşağıgəlirli ölkələrdə infeksiya xəstəliklərinin asanlıqla yayılması və xəstələrlə təmas məcburiyyətində olan tibb işçilərinin yoluxma təhlükəsidir [7, s. 70-71].

**3. Təbii amillər**

Ətraf mühitin, o cümlədən iqlimin dəyişməsi. Tədqiqatlar göstərir ki, iqlimin yavaş-yavaş dəyişməsi miqrasiyaya bilavasitə deyil, dolayısı ilə təsir edir [4, s. 15]. Məsələn, temperaturun 1-2 dərəcə artması nəticəsində əmələ gələn quraqlıqlar fermerlərin gəlirini azaltmaqla onların miqrasiyasına səbəb ola bilir. Bundan başqa, içməli su və ərzağa əlçatanlığın pisləşməsi də yaşayış yerlərinin tərk olunmasını şərtləndirir.

Təbii fəlakətlər. Zəlzələ, daşqın, quraqlıq, qasırğa və digər təbii fəlakətlər əsasən daxili və kənd yerlərindən miqrasiyaya səbəb olur. Bununla bərabər tədqiqatlar miqrasiyada digər amillərin həlledici rol oynamasını göstərir [4, s. 15].

**4. Sosial amillər**

**Təhsilin keyfiyyəti.** Tələbələr nüfuzlu universitetlərdə təhsil ardınca həm ölkənin digər regionlarına, həm də başqa ölkələrə üz tuturlar. Bəzi hallarda iş əlçatanlığı və əmək bazarında əlverişli imkanlar səbəbilə müdavimlər oxuduqları məkanda qalır [8, s. 1605]. Övladlara yaxşı təhsil vermək istəyi də ailələrin miqrasiyasını şərtləndirir [9, s. 61].

Nisbətən yaşlı nəsil də təhsil məqsədilə miqrasiya edə bilər. Əgər mövcud peşə təhsili səviyyəsində əldə edilən gəlir qənaətbəxş deyilsə və əlavə təhsil şəklində insan kapitalına investisiyanın verimliliyi qaneedicidirsə, həmin şəxs təhsil məqsədilə ölkənin digər regionuna və ya başqa ölkəyə gedə bilər. Əgər müəyyən peşə üzrə aşağı gəlir lokal xarakterlidirsə, məsələn, ölkənin hansısa regionuna xasdırsa, onda ancaq miqrasiya kifayət edə bilər. Yox, əgər ölkənin bütün regionlarında bu peşə üçün gəlir aşağı səviyyədədirsə, onda miqrasiyanın məqsədi peşə bacarıqlarının artırılmasına yönəlməlidir [2, s. 87-88].

**Tibbi xidmətlərin keyfiyyəti.** Keyfiyyətli tibbi xidmət və ya səhhət üçün daha əlverişli iqlim ardınca miqrasiya əsasən yaşlı nəsil, xüsusən də pensiyaçılara xasdır. Məsələn, əsasən ABŞ-dan Meksikaya hicrət edən 211 respondent arasında aparılan sorğu göstərmişdir ki, onların 69%-i daha əlverişli iqlim və hava şəraitinə, 47%-i isə daha aşağı qiymətlə keyfiyyətli tibb xidmətlərinə görə buraya köçmüşlər [10, s. 497-498].

**Etnik və dini amillər.** Sosial amillər etnik, irqi, dini və mədəni təqibləri, müəyyən hallarda müharibə və konflikt təhdidlərini ehtiva edir. Belə səbəblərdən miqrasiyaya Əfqanıstan, Şri-Lanka və İraqdan Avstraliyaya kütləvi köçləri misal gətirmək olar. Etnik və dini mənsubiyyətin siyasiləşdirilməsi ölkə daxilində konflikt təhdidi yarada və kütləvi emiqrasiyaya səbəb ola bilər. Empirik müşahidələr göstərir ki, avtoritar rejimdən demokratik idarəetməyə keçən ölkələrdə belə təhdidlər yüksəkdir. Çox vaxt dövlətlər belə dəyişikliklərə hazır olmadıqlarından sosial konfliktlərin qarşısını ala bilmirlər [1]. Bunun bizə ən yaxın olan misalı hələ SSRİ dağılmazdan öncə bu coğrafiyada baş verən çoxsaylı etnik və dini əsaslı konfliktləri və onların doğurduğu etnik təmizləmə və emiqrasiya hallarıdır ki, bunlardan da ən kütləvisi azərbaycanlıların Ermənistan və Qarabağ ərazisindən qovulmasıdır. Belə siyasi və sosial səbəblərdən ölkəni tərk edən əhali əsasən yaxın ölkələrə miqrasiya edir. Məsələn, Ermənistandan qovulan azərbaycanlıların əksəriyyəti Azərbaycana miqrasiya etmişdir. Belə miqrantların müəyyən qismi sonra üçüncü – sosial cəhətdən daha əlverişli ölkələrə miqrasiya edə bilər [1]. Məsələn, Azərbaycandan Ermənistana köçən erməni qaçqınların əksəriyyəti orada olan yoxsul sosial-iqtisadi vəziyyətdən və onlara göstərilən pis münasibətdən qaçaraq üçüncü, bəzən də humanitar qaçqınlara xüsusi və daha əlverişli münasibət göstərən ABŞ və Kanada kimi uzaq ölkələrə miqrasiya etmişdir.

**Sosial xidmətlərin keyfiyyəti.** Tədqiqatlar göstərir ki, Avropa İttifaqı daxilində qəbul edən ölkədə yaxşı sosial güzəştlərin olması (məsələn, İsveç, Norveç və s.) aşağıixtisaslı peşə sahiblərini cəlb etmək, əksinə, böyük vergi dərəcələri səbəbindən yüksəkixtisaslı işçiləri itələmək qabiliyyətinə malikdir. Eyni zamanda digər tədqiqatlar bu amilin həlledici olmadığını – bir tərəfdən iqtisadi və mədəni amillərin daha prioritet olduğu, digər tərəfdən bir çox hallarda seçmə prinsipi ilə yüksəkixtisaslı kadrların da belə ölkələrə miqrasiyası müşahidə olunur [4, s. 18]. Məsələn, postsovet ölkələrindən adıçəkilən Şimali Avropa ölkələrinə yüksəkixtisaslı kadrların hətta aşağıixtisaslı peşələrə miqrasiyası kifayət qədər geniş yayılmışdır.

**Şəxsi resurslar və miqrasiya təcrübəsi.** Burada maliyyə imkanlarından tutmuş İKT və digər informasiya mənbələrinə əlçatanlığa qədər müxtəlif tipli resurslar nəzərdə tutulur. Məsələn, heç yola çıxmaq üçün maliyyə imkanları olmayan yoxsul şəxsin yaşadığı yeri tərk edərək, qeyri-müəyyənliyə baş vurmaq qərarı, demək olar ki, mümkünsüzdür [11, s. 470].

Tədqiqatlar göstərir ki, miqrasiya təcrübəsi güclü psixoloji resurs olmaqla müsbət miqrasiya qərarının qəbulunda çox böyük əhəmiyyət kəsb edir [4, s. 17].

**Müharibə, konflikt, zorakılıq, etnik təmizləmə.** Son 37 il ərzində azərbaycanlıların da məruz qaldığı bu məcburi miqrasiya amilləri dövrümüzdə tez-tez

rast gəlinəndir. Bu səbəblərdən qaçqın düşənlərin, qeyri-leqal olaraq sərhədi keçənlərin, daxili köçkünlərin, sığınacaq istəyənlərin, həmçinin müşayiət olunmayan uşaqların sayı dünya üzrə milyonlarladır. Ən diqqət çəkəni də budur ki, əksər hallarda hədəf müsəlman əhali olur. Fələstin, İraq, Suriya Yəmən, Myanma, Kəşmir, Qərbi Çin və müsəlmanların yaşadığı digər ərazilərdə 10 illərdir ki, bu hallar davam edir. Qeyd olunmalıdır ki, XX əsrin əvvəllərində Qərbi Azərbaycan torpaqlarında süni olaraq yaradılmış Ermənistan adlanan dövlətdə buranın aborigen əhalisi olan azərbaycanlılara qarşı etnik təmizləmə dəfələrlə tətbiq olunmuşdur.

İlk dövrlərdə miqrasiya güclü olmaya bilər, belə ki, insanlar vəziyyətin düzələcəyinə ümid edirlər. Lakin təhlükə müəyyən həddi aşanda bu, kütləvi hal alır. SSRİ-nin dağılması ərəfəsində azərbaycanlılara qarşı Ermənistandakı son etnik təmizləmədə də bu aşkar görünür. 1987-ci ildə Ermənistanda azərbaycanlılara qarşı təzyiq mənəvi, fərdi fiziki və iqtisadi xarakterli olduğundan qaçanların sayı da nisbətən az idi. Hətta evlərini satmaq imkanları da var idi. Sovet mətbuatının da bu hadisəyə susqunluğu nəticəsində bu birinci dalğada qaçqınlar haqqında məlumat cəmiyyətə sızmadı. Lakin 1988-ci ildəki silahlı hücumlar nəticəsində qaçmaların kütləviləşməsini qərəzli sovet təbliğatı da gizlədə bilmədi. Bilavasitə zorakılığın miqrasiya səbəbi olmasını bir sıra tədqiqatlar da təsdiqləyir [12, s. 15].

Bir çox hallarda konflikt və müharibələrin özü yox, onların infrastruktura vurduğu zərər insanların köçməsinə səbəb olur [4, s. 21].

**5. Siyasi amillər**

**Miqrasiya siyasəti.** Bu siyasətin kəmiyyət qiymətləndirməsi mümkünsüz olsa da, sözsüz ki, bu amilin rolu böyükdür. Əvvəla, belə siyasət ölkədən çıxışa qarşı yönələ bilər. Bunun bariz nümunəsi sovet dövrüdür. Onu da qeyd edək ki, SSRİ-də belə siyasətin əsasını ideoloji amillər təşkil etsə də, digər mühüm amil ölkədən işçi qüvvəsinin, xüsusən də "beyin" axınının qarşısının alınması olmuşdu. Böyük ehtimalla hesab etmək olar ki, SSRİ-nin yüksək əməkhaqqı və daha komfort həyat şəraiti təklif edən Qərblə texnologiya sahəsində rəqabətinin mühüm şərtlərindən biri də emiqrasiya sahəsindəki bu qadağalar olmuşdur. İnkişaf etməkdə olan ölkələrin elm və innovasiya sahəsində geri qalmasının mühüm səbəblərindən biri də məhz beyinlərin inkişaf etmiş ölkələrə asanlıqla axınıdır.

Eyni qayda ilə ölkəyə immiqrasiyanın qarşısını alan siyasət həyata keçirilə bilər. Müasir dövrdə bu sahədə ən geniş yayılmış alət viza məhdudiyyətləridir.

Eyni zamanda bəzi inkişaf etmiş ölkələrdə immiqrasiyanın təşviqi siyasəti həyata keçirilir ki, bunun da əsas səbəbi yuxarıda qeyd olunan əhalinin azalması və belə cəmiyyətlər üçün zərurətə çevrilən gənc işçi qüvvəsinə tələbatın artmasıdır. Belə ölkələrdə hətta vətəndaşlığın əldə olunması prosedurları asanlaşdırılır, bunun üçün yaşama müddəti də azaldılır.

Miqrasiya siyasətinin miqrasiyanın həcminə təsiri tam müəyyənləşdirilməsə də, əksər tədqiqatlar bu təsirin həlledici olduğunu göstərir [13, s. 24].

**İnsan hüquqları.** Milli, dini, irqi və digər amillərə görə ayrı-seçkilik siyasəti ölkədən emiqrasiyanı gücləndirir, əksinə tolerantlıq insanları ölkəyə cəlb edir və belə misallar həm tarixdə, həm də müasir dövrümüzdə çoxlu saydadır. Qeyd olunan xüsusiyyətlər vətəndaş hüquqlarına aiddir. Bundan başqa, hər bir vətəndaşın müxtəlif leqal üsullarla ölkənin siyasətinə təsir hüququ da vardır ki, bu da siyasi hüquqlar adlanır. Bəzi ölkələrdə əsas vətəndaş hüquqları qorunsa da, siyasi hüquqlar məhdudlaşdırılır. Bunlara bir sıra postsovet ölkələrini misal gətirmək olar. Bir qayda olaraq, siyasi hüquqlara riayət olunan ölkələrdə vətəndaş hüquqları da mühafizə olunsa da, bəzi ölkələrdə istisnalar da müşahidə olunur (məsələn, Fransada dini geyimlərə qoyulan qadağalar). İnsan hüquqlarında diskriminasiya ölkədən emiqrasiyanı, tolerantlıq isə immiqrasiyanı artırır [14, s. 7-8].

İnsan hüquqlarının qorunması ilə bağlı spesifik vəziyyət qaçqınlarla əlaqəli meydana gəlir. Miqrasiya etdiyi ölkədə bu statusun verilməsi çətin olduğu halda qaçqın miqrasiyasını bu məsələdə daha əlverişli ölkə istiqamətində davam etdirəsi olur [15, s. 14].

İrandan siyasi emiqrasiyanın yüksək olmasının əsas səbəbi bu ölkənin insan hüquqlarının qorunması məsələsində dünyada ən pis göstəricilərə malik olmasıdır [1].

**Siyasi rejim.** Ölkədə siyasi vəziyyət (siyasi azadlığın olmaması, siyasi terror, təqib və repressiyalar) miqrasiyanı şərtləndirə bilər [16, s. 148]. Müharibə vəziyyətində məcburi olaraq hərbi xidmətə çağırış da emiqrasiyanın güclü səbəblərindəndir. Bu, 2022-ci ildə başlamış Rusiya-Ukrayna müharibəsində müşahidə olunur – on minlərlə rusiyalı bu səbəbdən vətəni tərk etmişdir. Bu misalda müharibənin ədalətsizliyi də önəmli rol oynamışdır və təcrübə göstərir ki, bu səbəblə miqrasiya edənlərin əksəriyyəti gənc və yüksəkixtisaslı kadrlardır.

**6. Digər amillər**

Elmi ədəbiyyatda bir sıra əlavə determinantlar da müzakirə olunur. İqtisadi nöqteyi-nəzərdən bu amillər mənasız görünsə və psixoloji səmərə kateqoriyasına aid olsalar da, spesifiklik və geniş yayılma səbəbindən onlara ayrıca baxılması məqsədəuyğundur. Məsələn, onlardan bir qrupu aşağıdakılardır [17]:

• Arzunun gerçəkləşməsi. Müəyyən bir ölkəyə köçmə istəyi uşaqlıq və ya gənclik yaşlarında müəyyən hadisələrlə əlaqəli formalaşa bilər. Bəzən belə şəxslər öncədən həmin ölkənin dilini, mədəniyyətini və ənənələrini öyrənir və hər vəchlə həmin ölkəyə köçməyə can atırlar.

• Xarici vətəndaşla evlənmək istəyi. Burada səbəb-nəticə nöqteyi-nəzərindən iki halı ayırmaq zəruridir. Əgər evlənmək əsas və son məqsəddirsə, bu, psixoloji hal olmaqla insanın öz millət və ya ölkəsinə qarşı formalaşmış neqativ münasibətinin və ya hansısa səbəbdən konkret bir millətə simpatiyanın nəticəsi ola bilər. Lakin bir çox hallarda xarici vətəndaşla evlənmək vətəndə gerçəkləşdirilməsi müşkül olan müəyyən məqsədlərə (yoxsulluqdan qaçma, öz yaradıcı planlarını daha əlverişli şəraitdə həyata keçirmə, qocalıq üçün daha yüksək pensiya ilə təmin olunma və s.) nail olmaq üsuludur.

• İşlə əlaqədar miqrasiya. Başqa sözlə, miqrantın vətəndən köçməsi onun nə arzusudur, nə də onun buna ehtiyacı var, sadəcə bunu onun işinin xüsusiyyəti tələb edir (məsələn, diplomat işi, xüsusi xidmət orqanlarında və ya beynəlxalq təşkilatlarda iş).

**Nəticə**

Biz miqrasiya xərcləri və səmərələrini daimi və birdəfəlik xərclər və səmərələr kimi iki qrupa bölünməsini təklif edirik. Digər müəlliflərin tədqiqatlarında belə təsnifata rast olunmasa da, biz onun faydalı olması qənaətindəyik. Belə ki, məsələn, yerdəyişmə üçün nəqliyyat xərcləri kifayət qədər bahalı olsa da, təyinat yerində yaşayış xərcləri daimilik baxımından daha çox məsrəflidir. Yuxarıda göstərilən itirilmiş gəlir isə daimi xərclərə aiddir. Eyni qayda ilə köç edilən ölkə nisbətən inkişaf etmiş olduğundan uşaqların orada illər ərzində aldığı təhsil şəxsi kapitala investisiya baxımından daha çox səmərəlidir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Factors Influencing Migration and Population Movements / https://triumphias.com/blog/factors-influencing-migration-and-population-movements/ - 13-Jul-2021 - 15.06.2023*

*2. Sjaastad L. A. The costs and returns of human migration // Journal of Political Economy, 1962, No. 70(5), part 2, pp. 80-93*

*3. Czaika M. Migration and Economic Prospects // Journal of Ethnic and Migration Studies, 2015, No. 41, pp. 58-82. https://doi.org/10.1080/1369183X.2014.924848.*

*4. Czaika M,, Reinprecht C. Drivers of migration: A synthesis of knowledge. – International Migration Institute, Working Papers Paper 163, April 2020. – 45 p.*

*5. Stockdale A. Unravelling the migration decision-making process: English early retirees moving to rural mid-Wales // Journal of Rural Studies, 2014, No. 34, pp. 161-171. https://doi.org/10.1016/j.jrurstud.2014.01.010.*

*6. Migali S. and others. International migration drivers. A quantitative assessment of the structural factors shaping migration. - Luxembourg: Publications Office of the European Union, 2018. - 116 p.*

*7. Aiken L.H., Buchan J., Sochalski J., Nichols B., Powell M. Trends In International Nurse Migration. // Health Affairs, 2004, No. 23, pp. 69-77.*

*8. Ciriaci D. Does University Quality Influence the Interregional Mobility of Students and Graduates? The Case of Italy // Regional Studies, 2014, No. 48, pp. 1592-1608.*

*9. Awases M., Akpa R. G., Nyoni J.,, Rufaro C. Migration of Health Professionals in Six Countries: A Synthesis Report. – Geneva, 2004. – 82 p.*

*10. Sunil T.S., Rojas V., Bradly D.E. United States' international retirement migration: The reasons for retiring to the environs of Lake Chapala, Mexico // Ageing and Society, 2007, No. 27, pp. 489-510. https://doi.org/10.1017/S0144686X07005934.*

*11. De Jong G.F., Graefe D.R., Pierre T.St. Welfare reform and interstate migration of poor families // Demography, 2005, No. 42, pp. 469-496.*

*12. Kirwin M., Anderson J. Identifying the factors driving West African migration // OECD publishing, West African Papers, 2018. - 24 p. - https://doi.org/10.1787/eb3b2806-en.*

*13. Carling J., Talleraas C. Root causes and drivers of migration Implications for humanitarian efforts and development cooperation - Peace Research Institute, Oslo, 2016. – 44 p.*

*14. Simpson N.B. Demographic and economic determinants of migration. Push and pull factors drive the decision to stay or move // https://wol.iza.org/uploads/articles/619/pdfs/demographic-and-economic-determinants-of-migration.pdf?v=1*

*15. Crawley H., Hagen-Zanker J. Deciding Whe-*

*re to go: Policies, People and Perceptions Shaping Destination Preferences// International Migration, 2019, No. 57, pp. 20-35.*

*16. Correa-Velez I., Nardone M., Knoetze K. Leaving family behind: Understanding the irregular migration of unaccompanied asylum-seeking minors. - In A long way to go: Irregular Migration Patterns, Processes, Drivers and Decision-Making. - pp. 142-166. - Australian National University Press, 2017.*

*17. Blackwood M. Migration vs. Immigration: Understanding the Nuances. 2020 / Migration vs. Immigration: Differences and Similarities (thewordpoint.com)*

## XÜLASƏ

Miqrasiya termini XVII əsrdə meydana gəlsə də, insanların yerdəyişməsi qədim dövrlərdən mövcud olmuşdur. O dövrlərdə insanların miqrasiyası əsasən iqlimlə şərtlənsə də, sonralar digər mühüm amillər meydana gəlmişdir. Qərbdə baş verən ilk sənaye inqilabı və bunun nəticəsi olaraq Avropa və ABŞ-ın sürətli iqtisadi inkişafı əmək miqrantlarının bu istiqamətlərə kütləvi axını ilə nəticələnmişdir. Bu qitələrə miqrasiyanın İkinci Dünya müharibəsindən sonra ikinci, sosializm sisteminin kollapsından sonra üçüncü dalğası əmələ gəlmişdir. Son dövrlərdə əmək miqrasiyanın yeni istiqamətləri müşahidə olunmaqdadır.

Əmək miqrasiyasının göndərən və qəbul edən ölkələrin iqtisadiyyatlarına müsbət və mənfi təsirləri bu prosesin determinantlarının tədqiqini aktuallaşdırır.

Məqalədə müxtəlif mənbələrdən istifadə olunaraq, miqrasiyaya təsir edən amillər araşdırılır.

**Açar sözlər:** *iqtisadi amillər, sosial amillər, təbii amillər, demoqrafik amillər, siyasi amillər*

**Гюнель Мамедова**
***Университет Азербайджан, докторант***
***gunel-tmm86@mail.ru***

**Факторы, влияющие на миграцию**

## РЕЗЮМЕ

Хотя термин миграция возник в семнадцатом веке, перемещение людей существовало с древних времен. Хотя в те времена миграция людей в основном была обусловлена климатом, позже возникли и другие важные факторы. Первая промышленная революция на Западе и, как следствие, быстрое экономическое развитие Европы и США привели к массовому притоку трудовых мигрантов в эти направления. Вторая волна миграции на эти континенты произошла после Второй мировой войны и третья-после коллапса системы социализма. В последнее время наблюдаются новые направления трудовой миграции.

Положительное и отрицательное влияние трудовой миграции на экономику отправляющих и принимающих стран актуализирует изучение детерминант этого процесса.

В статье с использованием различных источников исследуются факторы, влияющие на миграцию.

**Ключевые слова:** *экономические факторы, социальные факторы, природные факторы, демографические факторы, политические факторы.*

**Gunel Mammadova**
***Azerbaijan University, PhD student***
***gunel-tmm86@mail.ru***

**Factors affecting migration**

## SUMMARY

Although the term migration originated in the seventeenth century, the movement of people has existed since ancient times. Although at that time the migration of people was mainly due to the climate, later other important factors arose. The first industrial revolution in the West and, as a consequence, the rapid economic development of Europe and the United States led to a massive influx of migrant workers in these areas. The second wave of migration to these continents occurred after the Second World War and the third-after the collapse of the system of socialism. Recently, new directions of labor migration have been observed.

The positive and negative impact of labor migration on the economy of sending and receiving countries actualizes the study of the determinants of this process.

The article examines the factors influencing migration using various sources.

**Keywords:** *economic factors, social factors, natural factors, demographic factors, political factors.*

Beynəlxalq ictimai - siyasi, elmi - nəzəri jurnal

Fəlsəfə və Sosiologiya

UOT 1
DOI:10.30546/3006-0346.2024.1.79.192

AYGÜN MƏMMƏDOVA
*AzMİU, f.ü.f.d., dosent*
*E-mail: aygun77.am@gmail.com*

# AZƏRBAYCAN TARİXİ-MƏDƏNİ İRSİNİ BƏRPA EDİR VƏ QORUYUR

Heç kimə sirr deyil ki, görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev vətəninə, dövlət və xalqına ruhən bağlı bir lider olub. Ulu Öndər bütün fəaliyyəti dövründə Azərbaycanın mədəniyyətinə, ədəbiyyatına, tarixinə böyük töhfələr verib. Həmişəyaşar prezident Heydər Əliyevin Azərbaycançılıq məfkurəsinin prioritet istiqamətlərindən biri də məhz mədəniyyət abidələrimizin qorunması və bərpası idi. Bu mənada çağdaş dövrdə Azərbaycanın hərtərəfli inkişafı fonunda mədəniyyət abidələrinin qorunması qarşıda duran mühüm vəzifələrdəndir. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi yüksələn xətlə davam etdirilib və mədəni abidələrin qorunmasına dair uzaqgörən və çoxvektorlu addımlar bu gün möhtərəm Prezidentimiz, cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu mənada ki, Azərbaycan çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri ilə zəngin bir ölkədir. Bu zənginliyin qorunması və gələcəyə daşınması tarixi və mədəni yaddaşın, şüurun intişarına xidmət edir.

## Mədəniyyət abidələrinin qorunması və bərpası

“Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yeni aşkar olunmuş abidələr daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına əlavə olunur. Hazırda Azərbaycan Respublikasının ərazisində 6308 tarix və mədəniyyət abidəsi dövlətin mühafizəsindədir, 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu fəaliyyət göstərir. Azərbaycan Respublikasının beynəlxalq qurumlara üzv olması və mədəni irs sahəsində beynəlxalq müqavilələrə tərəfdar çıxması daşınmaz mədəni irsin qorunması istiqamətində tədbirlərin davamlı inkişafı zərurəti yaradır. Mütəmadi olaraq, əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılır. Son illər ərzində Azərbaycan Respublikasının ərazisində Azərbaycan Prezidenti tərəfindən “Yanardağ” dövlət tarix-mədəniyyət və təbiət qoruğu, “Atəşgah məbədi” dövlət tarix-memarlıq qoruğu, “Keşikçidağ” dövlət tarix-mədəniyyət qoruğu və “Xınalıq” dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu yaradılıb. 2000-ci ildə “İçərişəhər” dövlət tarix-memarlıq qoruğu, o cümlədən Şirvanşahlar sarayı kompleksi və Qız qalası, 2007-ci ildə “Qobustan” dövlət tarixi-bədii qoruğu UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilib. “Qobustan” dövlət tarixi-bədii qoruğunun yüksək əhəmiyyəti nəzərə alınaraq, “Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 iyun tarixli 2213 nömrəli Sərəncamı imzalanıb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 172 nömrəli Qərarı ilə “Qobustan” dövlət tarixi-bədii qoruğuna milli qoruq statusu verilib. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. “Qala” dövlət tarix-etnoqrafiya qoruğunun ərazisində Heydər Əliyev Fondu tərəfindən yaradılan “Qala” arxeoloji-etnoqrafik muzey kompleksi Azərbaycanın tarixi keçmişini qoruyub saxlamaqla yanaşı, qoruğun turizm mərkəzlərindən birinə çevrilməsinə imkan yaradır. Ölkə ərazisində yerləşən bir sıra tarix və mədəniyyət abidələrində, o cümlədən Bakı şəhərində “Şirvanşahlar Sarayı Kompleksi”, “Məhəmməd” məscidi, “Kiçik Karvansaray”, “Bazar meydanı”, “Məktəb-məscid”, Şəki rayonunda “Şəki Xan Sarayı”, qala divarları, “Kiş” alban məbədi, “Aşağı Karvansaray”, “Şəkixanovların evi”, Quba rayonunun Xınalıq kəndində Əbu-Müslüm və Xıdır Nəbi məscidləri, Naxçıvan şəhərində “Möminə Xatun”, Şərur rayonunda “Qudi-Xatun” türbələri, Culfa rayonunda “Xanəgah” memarlıq kompleksi, Babək rayonunda “Əshab-ül-Kəhf” ziyarətgahı dini mədəni abidə kompleksi, Qusar rayonunda “Şeyx Cüneyd” türbəsi, Qax rayonunda “Kürmük” məbədi, “Sumuqqala” abidəsi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda “Pir Hüseyn” xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələr bərpa edilib. Bəzi abidələrin ətrafında sel sularından mühafizə üçün drenaj sistemi qurulub, ərazisi işıqlandırılıb, qoruqlara gedən magistral yollarda informasiya lövhələri və yol nişanları quraşdırılıb. Daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi istiqamə-

tində işlər davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasına əsaslanan “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) milli mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq mədəni irsin bərpası, öyrənilməsi, təbliği və tərəqqisinə böyük dəstək verib.[1]

**Mədəniyyət obyektlərimizə qarşı erməni təcavüzü - bəşəri cinayət**

Bununla yanaşı, qeyd etməliyik ki, iki əsrdən artıqdır, Azərbaycan xalqına qarşı davam edən erməni təcavüzünün qurbanları təkcə soydaşlarımız deyil, həm də yaşı minillərlə ölçülən tarixi-mədəni abidələrimiz, müqəddəs ocaqlarımız və məbədlərimizdir. Azərbaycanın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsi olduğundan ölkəmizin ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış mədəniyyət abidələrinin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən problem olaraq qalır. Çünki Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsinə və saxtalaşdırılmasına yönələn, beynəlxalq konvensiyalarda bəşəri cinayət kimi qiymətləndirilən əməllər törədir. Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni irsini təşkil edən mədəniyyət obyektlərini xüsusi qəddarlıqla məhv ediblər. Ələ keçirdikləri ərazilərdə onlar 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət etmiş və yandırmışlar. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti və eksponatı talan olunmuş, 44 məbəd və 9 məscid dağıdılmışdır. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 6 yüz min kitab və misilsiz əlyazma nümunələri məhv edilmişdir. Torpaqlarımızı azad etdikdə amansız vəhşiliyin əyani şahidi olduq. Azərbaycan əsgərlərinin Füzuli şəhərində bayrağımızı asmağa salamat bina tapmaması faktı fikirlərimizin ən bariz sübutudur!

Məscid, məbəd və ziyarətgahlar məhv edilib

XIX əsrdən etibarən Qarabağa və Qərbi Azərbaycan ərazilərinə köçürülən ermənilər müxtəlif vaxtlarda, mərhələ-mərhələ öncə azərbaycanlıların torpaqlarını, sonra da orada yaşayan soydaşlarımızı, daha sonra abidələrimizi təcavüzə məruz qoymuşlar. XX əsrin əvvəllərində, 1905-ci, 1918-ci illərdə bu təcavüz aktiv fazada aparılmış, nəhayət, 1988-ci ildən etibarən kulminasiya nöqtəsinə çatmışdır. Tarixi abidələr xalqın keçmişinə işıq tutan, onun yaddaşını həmişə təzə saxlayan canlı arxivlərdir. Tarixi-dini abidələr isə xalqın təkcə tarixi deyil, həm də mənəvi, ruhani yaddaşını hifz edən müqəddəs məkanlardır. Bu baxımdan ermənilərin tarixi-mədəni abidələri, o cümlədən məbədlərimizi məhv etmələri məqsədlidir. Onlar bu yolla minilliklər ərzində yaşadığımız torpaqlardan həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək istəyirlər. Ermənilər işğal olunmuş ərazilərimizdə qalan tarixi-dini, mədəniyyət abidələrini ya dağıdaraq izlərini silir, ya da onları erməni abidələri adı altında saxtalaşdırır. İşğal olunmuş ərazilərimizdə dövlət qeydiyyatında olan tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur. Bəzi məlumatlara görə, dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən çox, beynəlxalq əhəmiyyətli abidələrin sayı onlarladır, qəbiristanların sayı isə 900-dən artıqdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən işğal altındakı torpaqlarımızda təsbit edilmiş tarixi-dini abidələrin təqribi sayı isə 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-i isə ziyarətgahdır. Ermənilər tərəfindən bir çox nadir tarixi mədəniyyət abidələrinin dağıdılması, İslam dininə aid olan nümunələrin məhv edilməsi və hətta tarixi abidələrin restavrasiyası adı altında Qafqaz Albaniyasına aid mədəni irsin saxtalaşdırılması, erməniləşdirilməsi prosesi bu gün də davam edir. İşğal altında olan torpaqlarımızda təcavüzə məruz qalmış, erməni vandalizmi nəticəsində məhv edilmiş tarixi mədəniyyət və tarixi-dini abidələrimizə bir daha nəzər yetirək.

**Yaşı 1500 ildən artıq olan məbədlər, qədim alban monastrı...**

Üçoğlantəpə adlanan ərazidə aparılan tədqiqatlar nəticəsində qədim insanların Eneolit dövründə (m.ə IV-VI minillik) məskunlaşmağa başladığı qeyd edilən Ağdam rayonunda onlarla tarixi-dini və memarlıq abidələri mövcuddur. Kəngərli və Şahbulaq kəndlərində VI-VIII əsrlərə aid məbədlər, Madagiz kəndində “Yeğiş Arakel” və “Ureq” (XII əsr), Maqavuz kəndində (XIII əsrə aid) məbədlər, Xaçındərbətli kəndində Qutlu Musa türbəsi (1314-cü il), Ağdam şəhərindəki (XVIII əsr) Xanoğlu türbəsi, Uğrulla bəyin türbəsi, eləcə də pirlər, qəbiristanlıqlar darmadağın edilib. Dağıdılan tarixi memarlıq abidələri sırasında isə Hatəm Məlik qalası (XII əsr), Sərdabə, iki sandığabənzər abidə, Pənah xanın imarəti, İqamətgah, Karvansara və Bürc (XVIII əsr), Xurşudbanu Natəvanın qəbirüstü abidəsi və s. bu kimi abidələr var. 1868-1870-ci illərdə tikilmiş

Ağdam Cümə məscidi də erməni təcavüzünün qurbanına çevrilmişdir.

İslam istiqamətli bir sıra abidələrin mövcud olduğu Ağdərə rayonunda isə pirlərin sayı daha çoxdur. Rayon mərkəzindən 10 kilometr aralıda yerləşən "Ulduz təpə" piri bölgədə tanınan ziyarət yerlərindən olub. Ağdərə rayonu da digər bölgələrimiz kimi tarixi-dini abidələrlə zəngindir. Albaniyada xristianlığın yayılmasında böyük xidmətləri olmuş apostol Yeliseyin xatirəsinə ölkədə əsrlər boyu bir çox məbədlər tikilmişdir. Bunlardan bizim günədək gəlib çatanlardan biri də Ağdərə rayonundakı Müqəddəs Yelisey monastr kompleksidir. Uca bir dağın zirvəsində tikilmiş və qala divarları ilə əhatə olunmuş monastr kompleksinin əsası V əsrdə qoyulub. Hazırda ermənilərin bu məbəddə qriqoryanlaşdırma işləri davam edir. Onlar məbədin müxtəlif yerlərində qriqoryan xaçlarının təfsirlərini yerləşdirmişlər.

### Cəbrayıl rayonunda dağıdılan abidələr

Azərbaycanın tarixi abidələri, eyni zamanda dini təyinatlı abidələri ilə zəngin olan Cəbrayıl rayonunda isə "Şəhərşik qalıqları", "Qışlaq yerləri" (m.ə. II minillik), Siklop tikililəri (m.ə. III minillik), Şıxbaba türbəsi (XIV əsr), Səkkizguşəli türbə və müxtəlif ziyarətgahlar, qəbiristanlıqlar, eləcə də tarixi memarlıq abidələrinin sırasında olan Ağoğlan nekropolu, Məscidtəpə kurqanı, Qız qalası, Qala bürcü, "Divlər sarayı", Başıkəsik günbəz, Xanəgah və bir çox kurqanlar işğal nəticəsində məhv edilmişdir.

Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Araz çayının ən dar, qayalıqla əhatələnən yerində inşa edilmiş ilk körpü VIII əsrin sonundan başlayaraq, XIX əsrə kimi fəaliyyət göstərmişdir. Kərpic körpü isə XII əsrdə tikilmişdir.

### Füzulidə məhv edilən mədəni yaddaş

Tarixi-dini və mədəni abidələrlə, xüsusən də türbələrlə zəngin olan Füzuli rayonunda XIII əsrə aid türbələr, Mirəli türbəsi, orta əsr qəbiristanlığının ərazisində sənduqə formalı qəbirdaşı üzərindəki türbə, XIX əsrə aid olduğu söylənilən Cəlil türbəsi, Hacı Ələkbər məscidi, Qiyasəddin məscidi dağıdılıb. Alı körpüsü, Kərəm körpüsü, Sandığabənzər başdaşı, Oğuz qəbri, Karvansara rayonun tarixi memarlıq abidələridir. 1681-ci ildə inşa olunan karvansaray (bu tarixi abidəyə bəzən Şah Abbas karvansarayı da deyirlər) işğaldan sonra ermənilər tərəfindən mal tövləsinə çevrilib.

### Kəlbəcərdə darmadağın edilən abidələr, məbədlər

Digər bölgələrimiz kimi, tarixi-dini abidələrlə zəngin olan Kəlbəcər rayonunda isə onlarla Alban məbədləri, kilsələr mövcud olub. Rayonda V-XVII əsrlərə aid Alban məbədləri, Müqəddəs Yaqub kilsəsi, Qırmızı məbəd, Urek məbədi, onlarla məscid, qəbiristanlıq, ziyarətgahlar və bir çox tarixi-dini abidələr məhv edilib. Erməni işğalçıları rayonda mövcud olan bir çox tarixi memarlıq abidələrini - Dovşanlı nekropolu (Son Tunc və İlk Dəmir dövrü), Balıqaya nekropolu (Son Tunc və İlk Dəmir dövrü), ərəb yazısı ilə 4 ədəd Daş qoç fiqurları, Celabert qalası, Lök qalası, Uluxan qalası, Qalaboynu qalası, Comərd qalası, Keşikçi qalası, eləcə də Zar, Zəylik, Keşdək kəndlərindəki Urud abidələrini darmadağın ediblər.

### Laçında mədəniyyət və tariximizə qarşı soyqırımı

Respublikamızın təbii sərvətlərlə zəngin guşələrindən biri olan Laçın rayonu ərazisində dünyada nadir ağac növlərindən hesab olunan qırmızı dəmirağac meşələri, çox sayda mineral su bulaqları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, cürbəcür dərman bitkiləri və tarixi-dini, memarlıq abidələri vardı. Rayonda V-VI əsrlərə aid alban monastrı olan "Ağoğlan" məbədi, Mağara məbədi (V əsr), Məlik Əjdər türbəsi (XIV əsr), Xəlifə türbəsi (XVII əsr), Soltanbaba və Şeyx Əhməd türbələri, orta əsrlərə aid "Aşığ" qəbiristanlığı və müxtəlif tarixi-dini abidələr mövcud olub. Həmçinin Dəmir dövrünə aid kurqanlar, Körpü (X əsr), Qala (XV əsr), ərəb yazıları olan daş at fiqurları (XVI əsr), daş qoyun fiquru, Soltan Əhməd sarayı, Həmzə Soltan sarayı, Kafir-qala, Birtağlı, İkitağlı körpülər, Sarı Aşığın ev-muzeyi, Laçın şəhərində Laçın Tarix-Diyarşünaslıq Muzeyi və digər tarixi memarlıq abidələri məhv edilib. Rayonun işğalından sonra erməni qəsbkarları "Ağoğlan" məbədini özününküləşdiriblər. 2007-ci ildə İrəvan şəhərində Ermənistan hökumətinin tapşırığı ilə erməni yepiskopları daxili qərarla abidəyə erməni qriqoryan kilsəsi statusu verməklə işğal olunmuş ərazilərdə Azərbaycan mədəniyyətinə və tarixinə qarşı soyqırımı siyasəti yürütdüklərini bir daha əyani şəkildə göstərdilər.

### Qubadlı - ilk dünyəvi məktəb, viran edilən xan sarayları, muzeylər

Azərbaycanın qədim yaşayış məskənlərindən olan Qubadlı rayonu ərazisində inşa olunan ilk dünyəvi məktəbin yaşı bir əsrdən çoxdur. Qubadlıdakı Gavur dərəsində IV əsrə aid ibadətgah mağara yerlə-

şir. V əsrə aid Qalalı qalası, Göy qala abidələri, XIV əsrə aid Cavanşir türbəsi rayon ərazisinin tarixi-dini abidələrlə zənginliyindən xəbər verir. Rayonda tarixi memarlıq abidələri də çoxluq təşkil edir. Bunların sırasında IV əsrə aid Sığınacaqlar, Göy qala, Qalalı qalası, Qız qalası (V əsr), Laləzar körpüsü (1867-ci il), Hacı Bədəl körpüsü, Qara-Qaya sığınacağı, Qədim daş qoç fiquru, Daş sənduqə, qədim Haramı qəbiristanlığı və başqaları da var.

**Şuşa- başından güllələnmiş heykəllər**

Təkcə Qarabağın deyil, Azərbaycanın mədəniyyət beşiyi, göz bəbəyi olan, böyük ziyalılar, cahanşümul şəxsiyyətlər yetirən Şuşa müdafiə məqsədilə tikilmiş qala-şəhərdir. Şuşa Dövlət Tarix-Memarlıq Qoruğuna yüzlərlə tarixi abidəmiz daxildir. Əfsuslar olsun ki, abidələrin bir çoxu erməni vandalizminin qurbanına çevrilib. Onların sırasında Hacı Yusifli məscidi, “Çöl Qala” məscidi, Xoca Mərcanlı, Quyuluq, Seyidli məscidləri, “Yuxarı Gövhər Ağa”, “Aşağı Gövhər Ağa”, “Saatlı məscidi” (XVIII əsr), Mədrəsə (XVIII əsr), Yuxarı məscid mədrəsəsi (XVIII əsr), Qız monastırı (XVIII-XIX əsrlər), Qazançı kilsəsi (XIX əsr), Heydər türbəsi, Həzrət Əli kahası, Həzrət Abbas şəfa ocağı və onlarla ziyarətgahlar, Tunc dövrünə aid kurqan, Dəmir dövrünə aid Daş qutusu nekropolu, Qala divarı (uzunluğu 8 kilometr, 1754-cü il), Pənah xanın sarayı (XVIII əsr), Qara Böyük Xanım bürcü (XVIII əsr), Natəvanın evi (XVIII əsr), ikimərtəbəli karvansaray (XIX əsr), Mehmandarovların malikanə kompleksi: məscid, kiçik yaşayış evi, böyük yaşayış evi (XVIII əsr), İsa bulağı (XIX əsr), İbrahim xanın qəsri (XVIII əsr), M.P.Vaqifin məqbərəsi (XX əsr) və s. tarixi memarlıq abidələri darmadağın edilib.

**Xocalı - Azərbaycanı dünyada tanıdan Azıx mağarası, dağıdılmış abidələr**

Tarixən insanların yaşayış məskəni olmuş Xocalı rayonu da ən qədim dini, memarlıq və mədəniyyət abidələri ilə zəngindir. Xocalının yaxınlığında bizim m. ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyəti abidələri yerləşir. Burada Son Bürünc və İlkin Dəmir dövrlərinə aid olunan dəfn abidələri - daş qutular, kurqanlar və daş kitabələr tapılmışdır. Rayonda VII əsrə aid Məbəd kompleksi, altı alban məbədi, Dairəvi məbəd, kilsə (XIII əsr), Günbəz, “Börgün qayasında olan kilsə”, “Yeddi kilsə” (alban kilsəsi), “Durpasuda olan kilsə” (alban kilsəsi), “Balaca suda olan kilsə” (alban kilsəsi), “Əvəzin yurdunda olan kilsə” (alban kilsəsi) və onlarla digər tarixi-dini abidələr təcavüzə məruz qalmışdır. Ermənilər həmçinin rayonda Dəmir dövrünə aid kurqan, Tunc dövrünə aid Daş qutu nekropolunu, İlk və Orta tunc dövrünə aid nekropolu, ilk orta əsrlərə aid Küp qəbirlər nekropolunu, Qala (X əsr), Aslan qalası (IX əsr), Qırxlar qalası, Qoç və yəhər şəkilli qəbir daşları və digər tarixi memarlıq, arxeoloji abidələri də dağıtmışlar.

Azərbaycanı qədim yaşayış məskəni kimi dünyada tanıdan abidələrdən biri Azıx mağarası Xocavənd rayonu ərazisindədir. Uzunluğu 190 metr, əhəng daşları Oksfordkimeric dövrünə aid olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənubi-şərqində yerləşir. Rayonun Mets-Tağlar kəndindən cənubda, dəniz səviyyəsindən 850 m hündürlükdə yerləşən, uzunluğu 22 metr, əhəng daşları Oksfordkimeric dövrünə aid olan Tağlar mağarası tarixi abidə kimi xüsusi əhəmiyyətə malikdir. Xocavənddə həmçinin IV - XIII əsrlərə aid alban məbədləri, Amaras monastırı (IV əsr), alban məbədi (675-ci il), XII əsrə aid iki kilsə, 30-a yaxın məbəd, 20-ə yaxın ziyarətgah ermənilər tərəfindən məhv edilib. İlk və Orta Tunc dövrünə aid olan Nərgiztəpə yaşayış yeri, Son Tunc və İlk Dəmir dövrünə aid nekropol, Tağlar mağarası (daş dövrü), Qala (III əsr), Ərgüşən qalası və digər tarixi memarlıq abidələri də dağıdılıb.

**Zəngilan – təcavüzə məruz qalan sərdabələr, türbələr**

XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Azərbaycanın özünəməxsus tarixi keçmişə malik bölgələrindən olan Zəngilan rayonunun əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı (637) ildə qoyulub. Zəngilan ərazisindən axan Şərəkə çayının hövzəsində özünün tarixi ornamenti ilə seçilən onlarla türbə vardır. Bunlardan rayonun Məmmədbəyli kəndində yerləşən səkkizguşəli Yəhya ibn Məhəmməd türbəsi (1304-1305) öz memarlıq-konstruktiv formasına görə seçilir. Türbənin ətrafında orta əsr qəbiristanlığı yerləşir. Türbədən bir qədər aralıda Şeyxzadə Şeyx Abd as-Salam ibn Şeyx Qiyas əd-Dinin məzarı var. Rayonda İmam Hüseyn məscidi (XVII əsr), Xanazor və Yeməzli kəndlərində alban kilsələri, Malatkeşin və Qırıq Muşlan, Muşlan, Rəzdərə kəndlərindəki məscidlər, ziyarətgahlar və onlarla tarixi-dini abidələr, eləcə də Küp qəbirlər (m.ə. IV-II əsrlər), Nekropol (m.ə VI-IV əsrlər), Koroğlu daşı (VII-VIII əsrlər), Şəhri Şərifan yaşayış yeri (orta əsrlər), Ağca Aşıq yaşayış yeri (orta əsrlər), Qız qalası (orta əsrlər), Qəsr qalası (orta əsrlər), Şərifan abidələri (IX-XVI əsrlər),

Şərifan sərdabəsi (XII əsr) kimi tarixi memarlıq abidələri mövcud olub.

### Naxçıvan və Qazax – Qala və məbədin yer üzündən silinməsi...

Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndində m.ə. II minilliyə aid yaşayış yeri və qala, eləcə də Kərki nekropolu (m.ə. II minillik), Qazax rayonunun Yuxarı Əskipara kəndindəki məbəd (V-VIII əsrlər) erməni təcavüzünə məruz qalib. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində ölkəyə dəymiş ziyan təxminən 500 milyard ABŞ dollarından çoxdur. Bu rəqəm Beynəlxalq Qiymətləndiricilər Assosiasiyası tərəfindən dəqiqləşdirilir. İşğal nəticəsində Dağlıq Qarabağ və ətraf rayonlarda dağıdılan muzeylər, məscidlər, abidələr tək Azərbaycan xalqının deyil, bütün İslam dünyasına, ümumilikdə isə bəşəriyyətə aiddir. Bu, bəşər mədəniyyətinə qarşı təcavüzdür. 1994-cü ildə atəşkəsin əldə edilməsindən sonrakı 23 il ərzində işğal altındakı ərazilərdə dağıdılan mədəniyyət, tarixi-dini abidələrin sayı hərbi münaqişə zamanı dağıdılmış abidələrin sayından çoxdur [2].

### Azərbaycan mədəni sərvətlərini bərpa edir

Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Hər il bu tarixdə dünyanın diqqəti abidələrin və tarixi yerlərin qorunmasına, mədəni irsin mühafizəsinə yönəldilir, müxtəlif ölkələrdə müşahidə edilən problemlər gündəmə gətirilir.

Tarixi abidələrlə zəngin olan Azərbaycan dünya mədəni irsinə hər zaman xüsusi önəm verməklə bu mövzuda həssas yanaşma sərgiləyir. İlk növbədə, Heydər Əliyev Fondunun dünyanın müxtəlif yerlərində reallaşdırdığı layihələri, bəşəri dəyərlərin qorunmasına verdiyi töhfələri qeyd etmək yerinə düşər. Uzun illərdir ki, tarixi-mədəni, dini irsin qorunması, gələcək nəsillərə ötürülməsinə xidmət edən layihələrimiz yalnız Azərbaycanın sərhədləri ilə məhdudlaşmayıb. Bu günədək Heydər Əliyev Fondunun təşəbbüsü ilə Avropada dağılmaq təhlükəsi ilə üzləşən bir sıra tarixi məkanlar yenidən əvvəlki görkəminə qaytarılıb. Azərbaycanın beynəlxalq aləmdə xoşməramlı imicini formalaşdıran Fond təkcə tarixi məkanların, abidələrin bərpasını reallaşdırmır, eyni zamanda, fəaliyyətini yeni mədəniyyət obyektlərinin inşası sahəsində də davam etdirir.

Ölkəmizin tarixi-mədəni irsinin qorunmasına gəlincə, bu istiqamətdə kifayət qədər böyük işlər görülüb, müxtəlif dinlərə məxsus məkanlar bərpa olunub, yaxud da yenidən qurularaq istifadəyə verilib. Bərpa olunmuş tarixi abidələrin sayı kifayət qədər çoxdur. Molla Pənah Vaqifin Şuşadakı məqbərəsi məhz Heydər Əliyev Fondu tərəfindən bərpa olunub. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə məqbərənin yenidən bərpası həyata keçirilib, ona yeni "nəfəs verilib. Vaxtilə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ucaldılan Vaqif məqbərəsi bu dəfə Ulu Öndərin adını daşıyan Fond tərəfindən öz tarixi görkəminə qaytarılır. Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün avqustun 29-da Şuşa şəhərindəki ev-muzeyi bərpa olunub. Xan qızı Natəvanın evi bərpa olunub. Fond Qarabağda tarixi və mədəni abidələrin bərpası prosesini davam etdirir [3].

### Mədəni irsimizə qarşı erməni soyqırımının dünya ictimaiyyətinə çatdırılması

Ermənistan planetin mühafizəsində duran 300-dən çox beynəlxalq konvensiyanın bir çox müddəalarını pozub. Təəssüf ki, dünya ictimaiyyəti ermənilərin ölkəmizin təbiətinin başına gətirdiyi bəlalara biganə münasibət göstərir. Erməni vandalizmi, onların işğal olunmuş Azərbaycan ərazilərində, eləcə də Ermənistanda mədəniyyət, tarixi-dini abidələrə qarşı törətdikləri vəhşiliklər haqqında kifayət qədər əsaslı fakt var. Bu gün isə məqsəd bu faktları müxtəlif dillərdə dünya ictimai rəyinə çatdırmaqdır. Bu istiqamətdə də ciddi işlər həyata keçirilir. Bundan başqa, məsələnin beynəlxalq platformaya daşınması məqsədilə 30 iyun, 2021-ci il tarixində Qarabağ Dirçəliş Fondunun "Karabakh.Center" layihəsi təqdim olunub. "Qarabağ Mərkəzi" adlanan bu layihə işğal dönəmində ermənilərin Qarabağda törətdiyi vandalizmi və onun fəsadlarının miqyasını dünya ictimaiyyətinə çatdırmaqdır. Çünki torpaqların işğaldan azad edilməsi Qarabağda dağıntıların miqyasının necə böyük olduğunu, yüzlərlə yaşayış məntəqəsinin və minlərlə tikilinin, mədəniyyət nümunəsinin erməni işğalçıları tərəfindən yer üzündən demək olar ki, tamamilə silindiyini üzə çıxardı. Zərər yalnız maddi obyektlərlə, tarixi abidələrlə və memarlıq inciləri ilə məhdudlaşmır. Təbii sərvətlərin amansızcasına istismar olunması, meşələrin qırılması, çay və göllərin çirkləndirilməsi nəticəsində regionun ekologiyasına böyük zərər vurulub [4].

Artıq dünya mediası da ermənilərin barbar əməllərinə biganə qalmır, Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki misilsiz mədəni irsin işğalçı

Ermənistan tərəfindən təcavüzə məruz qaldığını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Əcnəbi jurnalistlər işğaldan azad edilən ərazilərə baş çəkərkən tarixi və mədəni abidələrimizin – muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunmasını öz gözləri ilə görürlər. Bütün bunlarla yanaşı bu gün sevinc və qürur hissi duyuruq ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsi ilə rəşadətli ordumuz 44 günlük Vətən müharibəsində şanlı qələbə qazandı. Bu zəfər sayəsində torpaqlarımızla yanaşı qismən salamat qalan tarixi abidələrimizi də zülm və istibdaddan azad etdik. Daşı-torpağı sızıldayan abidələr də bizim kimi sevinir bu gün![5]

**Ədəbiyyat siyahısı:**


1. *https://president.az/az/articles/view/10705*
2. *https://www.elibrary.az/docs/QAZET/qzt2017_383.htm(Azərbaycan.-2017.-9 fevral.-№29.-S.4.)*
3. *https://az.azvision.az/news/257666/news.html*
4. *https://idp.gov.az/az/news/1232*
5. *https://kulis.az/xeber/tarix/Dagidilan-dyisdiriln-yer-uzundn-silinn-abidlrimiz-34495*



**Məmmədova Aygün Cahan Qızı**
***AzMİU, f.ü.f.d., dosent***


**XÜLASƏ**


Məqalədən belə qənaətə gəlmək olar ki, tarixi hadisələrin düzgün işıqlandırılması bəşəriyyəti düşündürən vacib məsələlərdəndir. Həm Azərbaycan xalqına, həm də tarixi mədəniyyət, tarixi-dini abidələrinə qarşı ermənilərin törətdikləri elə böyük faciələr var ki, onlar haqqında hələ də gənc nəslin, eləcə də dünya ictimaiyyətinin lazımi səviyyədə məlumatı yoxdur. Ziyalılarımız, alimlərimiz, tarixçilərimiz uzaq və yaxın keçmişimizdə baş verən hadisələri yazmaq, təfsilatı ilə gələcək nəslə çatdırmaq üçün öz vətəndaşlıq borcunu yerinə yetirməlidirlər. Bu mənada ermənilərin əsrlərdən bəri bəşəriyyət əleyhinə törətdikləri cinayətləri, xüsusilə azərbaycanlılara qarşı apardıqları soyqırımı siyasətini araşdırıb beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq mühüm vəzifələrdəndir. Çünki aşikaranə şəkildə ermənilərin işğal etdikləri ərazilərdə qədim Azərbaycan abidələrini məhv etmələri, yerli toponimləri planlı şəkildə dəyişdirmələri danılmaz faktdır. Məhz buna görə də Azərbaycan dövlətinin hücum diplomatiyasının prioritetlərindən biri işğal olunmuş torpaqlarımızda erməni vəhşiliyini, vandalizmini dünya ictimaiyyətinə çatdırmaqdır. Hesab edirik ki, bunun üçün həm də tarixi və mədəni faktlara, tutarlı mənbələrə əsaslanaraq yazılan kitab və məqalələrin sayı da artmalıdır. Bu kitablar tarixi torpağımız olan Qarabağda məhv edilən mədəni və mənəvi irsimiz barədə əsaslı mənbələrə çevrilməli və həqiqətin carçısı qismində çıxış etməlidir. Belə olan halda erməni vandalizmi barədə dünya ictimaiyyətini daha dolğun məlumatlandırıb, Azərbaycan həqiqətlərini olduğu kimi çatdırmağa müyəssər ola bilərik. Çünki Ermənistanın Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsi və saxtalaşdırılmasına yönələn cinayət əməlləri ümumilikdə bəşəriyyətə qarşı soyqırımıdır. Erməni vandalizmi – rəsmi İrəvanın dünya siyasətində qəbul olunmuş «qırmızı xətt»-ni keçməsinə bir daha sübutdur. Nəticədə separatçı ölkə yürütdüyü vandalizm siyasətinə görə beynəlxalq cinayət tribunalında cavab verməli olacaq.



**Açar sözlər:** *tarix, mədəniyyət, abidələr, mədəni, irs, sərvət, dağıdılma, bərpa, qoruma.*



**Мамедова Айгюн Джахан**
***АзМИУ, к.ф.н., доцент***


**Азербайджан восстанавливает и охраняет историко-культурное наследие**

**РЕЗЮМЕ**


Из статьи можно сделать вывод, что правильное освещение исторических событий является одним из важных вопросов, волнующих человечество. Против азербайджанского народа, а также исторических, культурных, историко-религиозных памятников армянами совершены настолько большие трагедии, что молодое поколение, как и мировое сообщество, до сих пор не имеют о них необходимую информацию. Наши интеллигенция, учёные, историки должны выполнить свой гражданский долг — записать события, произошедшие в нашем далёком и недавнем прошлом, и подробно передать их следующему поколению. В этом смысле одной из важных задач является расследование преступлений, совершенных армянами против человечества, особенно политики геноцида против азербайджанцев, и доведение их до внимания международного сообщества. Потому что неоспоримым фактом является то, что армяне явно уничтожали древние азербайджанские памятники на оккупированных территориях и систематически меняли местные топонимы. Именно поэтому одним из приоритетов наступательной дипломатии Азербайджанского государства является доведение до мирового сообщества

армянской жестокости и вандализма на наших оккупированных землях. Считаем, что для этого должно также увеличиться количество книг и статей, написанных на основе историко-культурных фактов и достоверных источников. Эти книги должны стать фундаментальными источниками о нашем культурном и духовном наследии, уничтоженном в Карабахе, нашей исторической земле, и выступить вестником истины. В таком случае мы сможем более полно информировать мировое сообщество об армянском вандализме и донести правду об Азербайджане такой, какая она есть. Потому что преступные действия, направленные на уничтожение и фальсификацию культурного наследия Армении на территориях Азербайджана, являются геноцидом человечества в целом. Армянский вандализм – ещё одно доказательство, пересечения офицальным Ереваном принятой полетическим миром «красной черты». В результате сепаратистское государство за проводимую политику вандализма вынуждено будет отвечать перед международным уголовным трибуналом.

**Ключевые слова:** *история, культура, памятники, культурное наследие, богатство, разрушение, реставрация, охрана.*

**Mammadova Aygun Jahan**
***AzMIU, Ph.D., associate professor***

## Azerbaijan Restores and Protects its Historical and Cultural Heritage

**SUMMARY**

From the article we can conclude that correct coverage of historical events is one of the important issues of concern to humanity. There are such great tragedies committed by

Armenians against the Azerbaijani people, as well as historical, cultural and religious monuments, about which the younger generation, as well as the world community, still do not have the necessary level of information. Our intellectuals, scientists, historians must fulfill their civic duty - to record the events that happened in our distant and recent past, and pass them on in detail to the next generation. In this sense, one of the important tasks is to investigate the crimes committed by Armenians against humanity, especially the policy of genocide against

Azerbaijanis, and bring them to the attention of the international community. It is indisputable fact that the Armenians clearly destroyed ancient Azerbaijani monuments in the occupied territories and systematically changed local place names. In this case one of the priorities of the offensive diplomacy of the Azerbaijani state is to inform the world community of Armenian cruelty and vandalism in our occupied lands. We believe that in this case, the number of books and articles written on the basis of historical and cultural facts and reliable sources should also increase. We believe that these books should become fundamental sources about our cultural and spiritual heritage destroyed in Karabakh, our historical land, and act as a herald of truth. In this case, we can more fully inform the world community about Armenian vandalism and convey the truth about Azerbaijan as it is. As the criminal actions aimed at destroying and falsifying the cultural heritage of Armenia in the territories of Azerbaijan are genocide of humanity as a whole. Armenian vandalism is another proof that official Yerevan crossed the "red line" accepted in world politics. As a result, the separatist country will have to answer to the international criminal tribunal for its policy of vandalism.

**Keywords:** *history, culture, monuments, cultural, heritage, wealth, destruction, restoration, protection.*

UOT 16
DOI:10.30546/3006-0346.2024.1.79.199

# QEYRİ-MÜƏYYƏNLİK VƏ ƏSAS İKİ FORMASI: FƏLSƏFİ TƏHLİL

**ƏLİŞİRİN ŞÜKÜROV**
**(ƏLİ ŞİRİN ŞÜKÜRLÜ)**
*Riyaziyyat üzrə fəlsəfə doktoru, fəxri professor,*
*DİM, Abituriyent jurnalı redaksiyası,*
*Yaradıcı qrupun rəhbəri*

*E-mail: ali_shirin@mail.ru*

## Giriş

Hazırda qeyri-müəyyənlik elmi sahələrdə, tətbiqi məsələlərdə vacib prinsip olaraq qəbul edilir. Çünki artıq isbat olunmuşdur ki, qeyri-müəyyənlik təbiətin və cəmiyyətin vacib və qaçılmaz xüsusiyyətlərindən olub, bu istiqamətdə müəyyən qanunauyğunluqların tapılması, onun elmi-fəlsəfi prizmadan təhlili və öyrənilməsi xaosdan harmoniyaya keçid kontekstində əhəmiyyətli məsələlərlə nəticələnmiş olur. Bu məqalədə də məqsəd qeyri-müəyyənliyə fəlsəfi baxış sərgiləmək, qeyri-müəyyənlik prinsipinin fəlsəfi təhlilini verməkdir. Eyni zamanda hədəfimiz qeyri-müəyyənlikdən qeyri-səlis çoxluqlar nəzəriyyəsinə (QSÇ) və ehtimal nəzəriyyəsinə (EN) elmi-fəlsəfi yol çəkməkdir. Bu məqsədlə qeyri-müəyyənliyin əsas iki istiqaməti olan stoxastik (ehtimal) və linqivistik formalar nəzərdən keçirilir, kvant nəzəriyyəsinin əsasında dayanan qeyri-müəyyənlik prinsipi (QMP) ilə qeyri-səlis çoxluqlar nəzəriyyəsi və ehtimal nəzəriyyəsinin elmi əlaqələrinin fəlsəfi təhlili verilir. Qeyd etmək istərdim ki, əvvəlki araşdırmalarımda ehtimal nəzəriyyəsi və qeyri-səlis çoxluqlar nəzəriyyəsinin oxşar və fərqli tərəflərinə elmi-fəlsəfi yanaşma nəzərdən keçirilmişdir [2]. Lakin bu məqalədə bu iki nəzəriyyəyə, yuxarıda qeyd etdiyim kimi, qeyri-müəyyənliyin əsas iki formasını öyrənən elm sahələri kimi nəzər yetirilir və onların bu prinsip kontekstində yeri və rolu fəlsəfi baxış bucağından araşdırılır.

***Riyaziyyatda qeyri-müəyyənlik:*** Riyaziyyatda mövcud bu elmi anlayış qeyri-müəyyənliyin təbiətini, daha doğrusu, fəlsəfəsini anlamağa yardımçı ola bilər və bu anlayışdan xeyli maraqlı fəlsəfi fikir şəbəkəsi yaranır deyə, mətləbə aparan yola burdan başlamağa qərar verdik.

Riyaziyyatda qəbul edilmiş qeyri-müəyyənliklər çoxdan mövcud idi: sonsuzluqdan sonsuzluğun çıxılması, sonsuzluğun sonsuzluğa nisbəti, sıfrın sıfra nisbəti, sıfırla sonsuzluğun hasili və s. fəlsəfəsi məni cəlb etdiyindən bu riyazi qeyri-müəyyənliklərin biri üzərində dayanmaq istərdim.

***Sonsuzluqla bağlı qeyri-müəyyənlik.*** Sonsuzluq anlayışı maraq və müəyyən paradokslara, polemikalara qapı açan anlayışlardan biri olub, ətrafında maraqlı düşüncə şəbəkəsi yaratmışdır. Bu anlayış müəyyən elm sahələri ilə yanaşı, fəlsəfi dünyagörüşünün də mərkəzində olmuş, yaratdığı düşüncə şəbəkəsi heyranlıqla qarşılanmaqla yaradıcı sahələrə də təsirsiz ötüşməmişdir. Nə qədər anlaşılırsa, anlaşılmazlığa bir o qədər də geniş meydan verir.

“Sonsuzluq nədir?” sualına ilkin cavab belə olacaq: Sonu olmayan – sonlu. Əslində bu cavab nə qədər sadə olsa da, ağlabatandır. İnsan düşüncəsinin əvvəl və axırını qəbul edə biləcəyi nə varsa sonludur. Yəni düşüncədə tam şəkildə proyeksiyalana biləcək nəsnələr sonludur. Kainat sonsuzdur, çünki onun nə əvvəlini, nə də axırını təsəvvürə sığışdıra bilmirik. Yarımçıqlıq (qeyri-müəyyənlik), hardasa qırılma baş verir düşüncədə. Düşüncə hər hansı nöqtədən başlasa da, varlığın sonuna gedib çıxa bilmir. Deməli, sonsuzluq həm də bir tərəfin sona qədər ağlasığmamasıdır. Kainatı dayandığımız nöqtədən seyr edə bilərik; qarşımızda bir-birini əvəz edən varlıqlar ardıcıllığı düşüncənin qəbul edə biləcəyi müəyyən sərhədə qədər davam edər və nəhayət, müəyyən həddən o tərəfə bir qaranlıq – anlaşılmazlıq, qeyri-müəyyənlik məskən salar [14].

Bəs sərhədləri düşüncəyə sığan – sonlu olan varlıqlarda sonsuzluq necə iştirak edir. Məsələnin qoyuluşu qəribə oldu: sonluda sonsuzluq axtarmaq. Əgər varlıqlar bölünəndirsə, hissələrdən ibarətdir. Fikir verin, istənilən bir nəsnəni nə qədər istəsən, bölmək mümkündür. Böləndükcə daha çox hissələr əmələ gələcək, amma yox olmayacaq. Hər bölünmədən sonra hissələrin sayı artacaq, əslində. Sonu görünməyən bir proses. Deməli, ilk baxışdan sonlu görünənlər də mahiyyətcə sonsuzluğa bürünüb.

**Antik yunan filosofu Parmenid nə deyir?** O, “varlıqda hərəkət yoxdur” ideyasını əsaslandırmaq üçün deyir ki, dünya tamdır, bütövdür, o, hissələrdən ibarət ola bilməz. Əgər kainat hissələrdən ibarət olarsa, gərək onun hissələri də hissələrdən ibarət olsun və s. Beləliklə də hər bir hissə də hissəciklərdən ibarət

olub, hər biri sonsuz olacaq. Yəni, dünya və onu təşkil edən hissələrin hər biri sonsuz olamaqla, bir-birinə bərabər olacaq: dünya onu təşkil edən hissələri boydadır. Bu isə mümkün deyil [5] .

*Bu məqamda mətləbdən çox uzaq düşməmək üçün artıq sonsuzluqla sonsuzluğun fərqi məsələsinin fəlsəfəsinə qayıda bilərik. Yaxşı, sonsuzluq sonsuzluqdursa, bunlardan hansı biri o birindən böyük və ya kiçikdir ki, onların fərqini tapaq?! Nisbətini də həmçinin.*

**Fizikada qeyri-müəyyənlik:** XX yüzilliyin əvvəlinə qədər fransız filosofu Pyer Laplasın elmi determinizm nəzəriyyəsi bir çox etirazlara baxmayaraq, elmi hipotez kim qalmaqda davam edirdi. Elmi determinizm nəzəriyyəsi klassik fizikanın, xüsusilə, Nyutonun cazibə qanununa əsaslanaraq göstərirdi ki, kainata determinik obyekt kimi baxıla bilər. Yəni kainatın, o cümlədən istənilən obyektin hər hansı zaman anındakı vəziyyətini bilməklə, onların sonrakı hər zaman anındakı vəziyyətini birqiymətli təyin etmək olar. Lakin bunun üçün mütləq müəyyən qanunlar toplusu olmalıdır [4]. Məsələn, mexanika vasitəsilə əldə etdiyimiz bilik (qayda) imkan verir ki, düzxətli bərabərsürətli hərəkət zamanı cismin ilkin vəziyyətini və sürətini bilməklə hər hansı zaman müddətindən sonra onun hansı vəziyyətdə (məkan mənasında) olduğunu müəyyənləşdirək.

Elmi determinizm nəzəriyyəsinin əleyhinə çıxış edən elm adamlarının bir qismi bu ideyanı dünyaya “Tanrı müdaxiləsi”nin məhdudlaşdırılması kimi qiymətləndirərək etirazla qarşılayırdılar. Yəni belə çıxırdı ki, insanlar müəyyən elmi qanunlar sisteminə malik olmaqla gələcəyi tam dəqiqliklə bilər və beləliklə, “Tanrının dünya barədə ssenarisi” ilahi akt olaraq dəyərini itirər. Lakin bu yanaşma ilə razılaşmaq olmaz. Ona görə ki, əslində, elmi determinizm nəzəriyyəsi kainatın qanunlar sistemi ilə idarə olunmasını təsdiq edir, bu da, öz növbəsində, “nizamlı və idarə olunan dünya barədə ali zəkanın” mövcudluq göstəricisi olaraq kainatı təsadüfilik faktorundan xilas etmiş olur.

Lakin elmi araşdırmaların makro aləmdən mikro aləmə keçidi nəticəsində iyirminci yüzilliyin əvvəllərində fizika elmində baş verən müəyyən dəyişikliklər bu sahənin alimlərinin fikri ilə yanaşı, fəlsəfi düşüncədə də əsaslı dəyişikliklərə səbəb oldu. Çünki hissəciklər fizikası heyrətamiz nəticələrə gətirib çıxarırdı. Bu nəticələr sanki fəlsəfi fikir tarixini yenidən canlandırmış oldu: antik dövrdən cağdaş dövrə kimi. İnduizmin “Mütləqə (Brahmana) qovuşması”, Platonun “ideyalar aləmi”, C.Berklinin “İdrakın prinsipləri və dərketmə nəzəriyyəsi”, Hegelin dünya haqqında qurduğu “Mütləq ideya və dünya zəkası” fəlsəfi sistemi [3,6], hətta elmi fantastikanın obyekti olan “Paralel dünyalar nəzəriyyəsi”, “Biosentirizm nəzəriyyəsi” və s.

**Qeyri-müəyyənlik prinsipi nədir:**

Əvvəlcə klassik zərrəcik və klassik dalğanın nə olduğunu yada salaq. Klassik dalğa – maddə ilə deyil, aralıq mühit vasitəsilə enerjinin ötürülməsidir, yəni dalğa prosesində maddə yox, enerji daşınır. Dalğanın məkandakı vəziyyəti dəqiq deyil. Çünki dalğa müəyyən bir ərazi boyu yayılaraq hər hansı bir nöqtə ilə məhdudlanmır. Bu mənada “dalğa hazırda hansı koordinata malikdir?” və ya “dalğa indi hardadır?” – dalğa üçün uyğun suallar deyil. Təxminən dalğa prosesinini dalğaların səpələndiyi dəniz səthini göz qabağına gətirməklə təsəvvür etmək olar. Klassik zərrəcik – fiziki ölçülərə, kütləyə (bəzi zərrəciklər kütləyə malik deyil, məsələn, foton), enerjiyə malik maddi cisimdir. Dalğadan fərqli olaraq onun məkandakı vəziyyəti barədə fikir yürütmək olar. Zərrəciyin hərəkəti zamanı enerji birbaşa cisimlə ötürülür.

Əsasını qeyri-müəyyənlik prinsipi təşkil edən kvant fizikası elmə təsadüfilik və gözlənilməzlik kimi elementlər daxil edir [6,7]. Birinci maraqlı sual budur: İşıq şüaları, eyni zamanda atomaltı mikro aləmdə mövcud olanlar dalğadır, yoxsa zərrəcik? Bu sahədə araşdırmalar göstərdi ki, işıq dalğalardan təşkil olunmasına baxmayaraq, müəyyən mənada özünü zərrəciklərdən təşkil olunmuş kimi aparır, zərrəciklər isə müəyyən mənada özünü dalğa kimi aparır. Beləliklə də elmdə zərrəcik-dalğa dualizmi yaranır. Bu mənada enerji (dalğa) maddə (hissəcik) daşıyıcısı, maddə enerji daşıyıcısıdır. Kvant nəzəriyyəsində ən maraqlı nəticələrdən biri də budur (qoşa dəlik eksperimenti): mikroaləmi müşahidə edərkən zərrəcik (maddə), müşahidə etmədiyin zaman dalğa (enerji) effekti mövcuddur. Kiçik hissəciklər müşahidə edildikdə zərrəcik – maddi cisim kimi davranır, müşahidə edilmədikdə özlərini dalğa kimi aparırlar. Dalğa prosesində isə maddə yox, yalnız enerji daşınır. Yəni maddə yalnız o, müşahidə olunarkən mövcuddur və müşahidə olunan obyekti müşahidəçidən ayrı təsəvvür etmək mümkün deyil. Heyzenberqin qeyri-müəyyənlik prinsipində əsas məsələ isə hissəciyin ola biləcək vəziyyətinin (koordinatının) və sürətinin eyni anda müəyyənləşdirilməsidir: hissəciyin vəziyyətinin hər hansı bir za-

man anında necə olacağını əvvəlcədən söyləmək üçün onun baxılan andakı vəziyyətini və sürətini dəqiq hesablamaq lazımdır. Lakin hissəciyin vəziyyətini nə qədər dəqiq hesablamağa cəhd olunursa, sürəti üçün bir o qədər dəqiq olmayan nəticələr alınır. Əksinə, sürətini nə qədər dəqiq hesablamağa çalışdıqda, vəziyyəti üçün bir o qədər dəqiq olmayan qiymət alınır. Beləcə, hissəciyin vəziyyəti barədə mütləq deyil, yalnız ola biləcək vəziyyətlərinin ehtimalını söyləmək mümkündür, çünki hissəcik eyni anda ola biləcəyi hər yerdə ola bilir. Beləliklə, fizikada baş verən bu dəyişiklik elmi determinizm tərəfdarlarını məyus etdi: kainatın indiki andakı vəziyyətini dəqiq heablamaq mümkün deyilsə, onun gələcək hər hansı bir andakı vəziyyətini necə dəqiq, birmənalı müəyyənləşdirmək mümkündür.

Buradan belə nəticə çıxmır ki, görəsən, kainat daha çox təsadüflər üzərində qurulub. Yoxsa, bu məsələdə Eynşteynin məşhur "Tanrı zər atmır" ifadəsinə istinad edib söyləyək ki, təsadüfilik və gözlənilməzlik insan idrakının məhdudluğundan yaranır.

QMP-nin fəlsəfəsinə nəzər saldıqda, məlum olur ki, azından, mikroaləmdə təsadüfiliyin (stoxastika) mövcudluğu danılmazdır və bu anlayışı səbəb-nəticə əlaqəsinin tapılmaması və yaxud insan bilməzliyi ilə bağlamaq mümkün deyil. Bu, kainatın təbii, ayrılmaz xüsusiyyətidir. Çünki kvant aləmində müşahidənin mütləq hansısa konkret bir nəticə ilə bitəcəyi mümkün deyil. Müşahidəni (eksperimenti) eyni şərtlər daxilində təkrar etsək, hər dəfə fərqli nəticələr əldə olunacaq. Hissəciklərin məkan və zaman daxilində mütləq bir trayektoriya üzrə hərəkəti barədə mühakimə yürütmək mümkün deyil. Onlar iki nöqtə arasında məsafəni mümkün bütün trayektoriyalar boyunca keçə bilərlər. Xülasə, bu prinsip göstərir ki, azad seçim var və bütün hadisələr determinist qanunlara tabe deyil. Qanunauyğun baş verən (səbəb-nəticə zənciri mövcud olan) hadisələrlə yanaşı, insan zəkasından asılı olmayaraq təsadüfi davranışlar da mövcuddur. Stoxastik davranışlar da dünyamızın obyektiv xüsusiyyətidir. Obyektiv mövcud olan təsadüfilik (insan zəkasından – bilməzlikdən asılı olmayan mənada) heç də səbəb-nəticə əlaqənin qurulması ilə aradan qaldırıla bilməz. Yəni hər hansı bir hadisə nə üçün belədir deyə bir səbəbin tapılması mümkün deyil.

**Qeyri-müəyyənliyin iki forması:**

Hazırda elmi-nəzəri və elmi-praktik məsələlərdə tədqiqat obyekti olaraq istifadə zamanı qeyri-müəyyənlik əsasən aşağıdakı şəkildə təsnifatlaşdırılır: yarımçıqlıq, fiziki qeyri-müəyyənlik olaraq qeyri-dəqiqlik, təsadüfilik, linqivistik qeyri-müəyyənlik olaraq qeyri-səlislik və s. [8]. Həmçinin qeyd etməliyik ki, hazırda bu anlayış həm də mürəkkəb xarakterli fəlsəfi anlayış olaraq tədqiq olunur. Lakin tarixi-fəlsəfi analiz göstərir ki, qeyri-müəyyənlik XX əsrin əvvəllərinə kimi fəlsəfi və elmi araşdırmaların predmeti olmayıb [10]. Bu dövrə qədər elmi-fəlsəfi fikirlərdə bu anlayışa birbaşa və ya dolayısı ilə rast gəlmək mümkün olsa da, lakin o, məxsusi qaydada öyrənilməmişdir. Yuxarıda riyaziyyatda istifadə olunan qeyri-müəyyənliklər və onların, şəxsi qənaətlərimə əsaslanaraq müəyyənləşdirdiyim fəlsəfi çalarlarını qısa da olsa təqdim etməyə çalışdım. Fəlsəfə tarixinə nəzər saldıqda bəzi nümunələrdə qeyri-müəyyən situasiyaları təsvir edən bu anlayışa mənaca yaxın anlayışlara da rast gəlmək olar. Antik dövrün fəlsəfəsini nəzərdən keçirdikdə, bir nümunəyə Anaksimandrın dünyanın fəlsəfi mənzərəsini verdiyi zaman rast gəlirik. Onun dünyanın əsası – substansiyasının hər hansı qeyri-müəyyən bir element - intəhasız apeyron (ölçüsüz, sonsuz) olduğunu iddia etdiyinin şahidi oluruq. O, varlığın əsasını heç bir həqiqi, təbii elementlərlə bağlamır və bəzi fəlsəfi fikirlərdən fərqli olaraq, dünyanın "sudan", "oddan", "torpaqdan" və yaxud hər hansı "bölünməz atomlardan" və sairədən deyil, məhz maddələrin bütün növlərini özündə birləşdirən qeyri-müəyyən – hüdudsuz, ölçüsüz, sonsuz bir elementdən əmələ gəldiyini söyləyir.

Sonrakı dövr fəlsəfəsinə nəzər saldıqda, Kantın fəlsəfəsi qeyri-müəyyən situasiyalar, obyekt-subyekt münasibətləri baxımından da müəyyən maraq doğurur. Onun fikrincə, bizə predmet haqqında yalnız şüurumuzun imkan verdiyi müəyyən təsəvvürlər çatır. "Bizim üçün şey" yalnız əsl predmetin – "özündə şey"in bir təsviridir. Yəni gördüyümüz dünya şüurumuzun yaratdığı dünyadır, əsl dünya dərkolunmazdır [3]. Bir sözlə, dahi filosofun fikrincə, əsl dünya bizim idrakımız üçün əlçatmazdır. Beləliklə, göründüyü kimi, predmetə münasibətdə təfəkkür məhdudluğu dünya dərkində bir qeyri-müəyyənlik yaradır.

Fəlsəfə tarixində bənzər nümunələr bu anlayış haqqında müəyyən təsəvvürlər yaratsa da, qeyd etdiyimiz kimi, fəlsəfənin və elmin bir çox sahələrinin tədqiqat obyektinə məhz kvant nəzəriyyəsinin yaranması ilə çevrildi və bu araşdırmalar hazırda da öz aktuallığını itirməyib. Heyzenberqin QMP dünyanın fiziki mənzərəsində ontoloji qeyri-müəyyənliyin mövcud-

luğunu isbat etdi. Epistemoloji nöqteyi-nəzərdən bu anlayış yeni hadisələri köhnə nəzəriyyələrlə təsvir edərək öyrənməyin mümkünsüzlüyünü göstərir. Doğrudan da mikroaləmdə baş verən hadisələri kainatın irimiqyaslı strukturlarını təsvir edən qanunlarla öyrənilməsinin mümkün olmadığı artıq elmi olaraq qəbul olunmuş hipotezdır. Məlumdur ki, bu gün kainatın təsviri üçün bir-birinə uyğun gəlməyən əsas iki xüsusi nəzəriyyə mövcuddur: Ümumi nisbilik nəzəriyyəsi kainatın irimiqyaslı və ya müşahidə oluna bilən quruluşlarını, kvant nəzəriyyəsi isə olduqca kiçikmiqyaslı quruluşları öyrənir. Hazırda bu sahənin alimlərini elə bir nəzəriyyə - qanunlar toplusu yaratmaq düşündürür ki, bu iki nəzəriyyəni birləşdirə bilsin [4].

Beləliklə, kvant fizikasının yuxarıda qeyd etdiyimiz bəzi nəticələrinə və QMP-yə əsasən mikroaləm üçün iki ümumiləşdirmə apara bilərik: müşahidə olmadan hissəcik özünü dalğa kimi aparır, onun fəzadakı yeri (koordinatı) qeyri-müəyyəndir (qeyri-dəqiq; bulanıq) və onun ola biləcəyi mümkün məkanların ehtimallar şəbəkəsi (ehtimallar dalğası da deyilir) mövcuddur; müşahidə zamanı isə dalğa özünü zərrəcik (maddə) kimi aparır və onun vəziyyəti (məkanı) - mümkün məkanlardan hər hansı birində olması barədə mütləq bir fikir deyil, yalnız ehtimal etmək olar.

Bu ümumiləşmədən sonra qeyri-müəyyənliyin nə səbəbdən əsas iki tipinin mövcud olduğunu söyləyə bilərik: biri - stoxastik (ehtimallı), digəri isə - linqivistik formadır.

Stoxastik forma təsadüfi faktorlarla bağlıdır və bu, bir elm sahəsi olaraq Ehtimal nəzəriyyəsi və oun əsasında yaranan bir çox elm sahələri ilə bağlıdır (riyazi statistika, kütləvi xidmət nəzəriyyəsi, etibarlılıq nəzəriyyəsi və s.). Daha doğrusu, təsadüfi (stoxastik) davranış bu elm sahələri vasitəsilə öyrənilir [12,13,14]. Əslində, kvant fizikasına qədər təsadüfilik hələ əsası bir elm olaraq XVII əsrin ortalarında qoyulan Ehtimal nəzəriyyəsi tərəfindən riyazi baxımdan öyrənilirdi. Məlumdur ki, EN müəyyən şərtlər çoxluğu nəzərə alınmaqla təkrar oluna bilən təsadüfi hadisələr arasında riyazi qanunauyğunluğu öyrənən elmdir. Lakin Ehtimal nəzəriyyəsi təsadüfiliyi elmi baxımdan öyrənsə də, təsadüfiliyin (stoxastik davranış) mövcudluğunun elmi izahı kvant fizikasına məxsusdur. Çünki Ehtimal nəzəriyyəsinin təsadüfiliyi ehtimal qanunauyğunluğu baxımından öyrənilməsi hələ onun mövcudluğunun təsdiqi deyildi. Bu, sadəcə, təsadüfiliyi insan bilməzliyinin obyekti olaraq riyazi aparat vasitəsi ilə ehtimal xarakterizalarının müəyyənləşdirilməsidir. Deməli, bu tezislə razılaşmaq olar: kvant fizikası elmə təsadüfilik və gözlənilməzlik kimi elementlər gətirdi.

